# MƏHƏMMƏD FÜZULİ

84(5Aze)
F 99

*Seçilmiş əsərləri*

ÜÇ CİLDDƏ

# III cild

-20601-
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Şərq Qərb
East West

Məhəmməd Füzuli. Seçilmiş əsərləri. Üç cilddə. 3-cü cild
Bakı, "Şərq-Qərb", 2013, 492 səh.

ISBN 978-9952-512-53-3
978-9952-512-56-4

Redaktoru: Teymur Kərimli

Rəssam: Ayxan Rəsul

Böyük sələfləri kimi yalnız şair deyil, həm də mütəfəkkir olan Füzulinin yaradıcılığı son dərəcə zəngin və rəngarəngdir. Özünü təfəkkür atəşi içində əridən sənətkar Azərbaycan əruzunun orta əsrlərdə ən parlaq, ən dahiyanə nümunələri olan qiymətli əsərlərini ana dilində yaratmış, bununla yanaşı, ərəb və fars dillərində də klassik bədii nəsrin gözəl örnəklərini qələmə almışdır. Fars dilində yaradıcılığı farsca divanla məhdudlaşmayan şair bu dildə "Rindü Zahid", "Səhhət və Məraz", həmçinin ərəbcə "Mətlə ül-etiqad" adlı elmi-fəlsəfi tutumlu əsərlər müəllifi kimi də tanınmışdır.

"Rindü Zahid" Yaxın Şərq ədəbiyyatı tarixində mükalimə tərzində yazılmış böyük bir hekayədir. Burada ata ilə oğul arasında gedən müsahibə əsasında dövrün ictimai, siyasi və əxlaqi məsələləri mühakimə edilir.

"Səhhət və Məraz" əsərində Füzuli öz dövrünün tibbi görüşlərini qələmə almış və elmi əsərləri bədii şəkildə verməyin qiymətli nümunəsini yaratmışdır.

"Mətlə ül-etiqad"da isə sırf fəlsəfi məsələlər: bilik, elm, din, ilk yaradılış və yunan filosoflarının bununla bağlı görüşləri, Allahın varlığı, peyğəmbərlik, məhşər, dünyanın sonu ilə əlaqədar baxışlar öz yığcam əksini tapmışdır.

"Seçilmiş əsərləri"nin yenidən işlənmiş bu cildi dahi şairin ərəb və fars dillərində yazdığı nəsr əsərləri ilə bərabər, farsca "Yeddi cam" poemasının tərcüməsini, farsca qəzəl və qəsidələrinin sətri tərcümələrini, "Hədiqətüs-süəda" əsərini, eləcə də Füzuli adına yazılmış şeirləri əhatə edir.

Şərq East
Qərb West
www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az
© "Şərq-Qərb", 2013

# RİNDÜ ZAHİD

Ey namaz vaxtı zahidlərin səcdə etdiyi,
Ey niyaz zamanında rindlərin rəğbət bəslədiyi (Allah)!
İstər həqiqət əhli, istər məcaz əhli olsun,
Hər kəs bir dil ilə öz sirrini sənə deyir.

İlahi, ibadət sovməəsinin pak məzhəb zahidləri hörmətinə günah və üsyan meyxanəsinin rindlərini "Allaha doğru qayıdın"[1] qədəhinin nəşəsindən məhrum etmə, üzlət xərabatının saf təbiətli rindləri izzətinə, xudbinlik xanəgahının zahidlərini, "imtina etdi və təkəbbür göstərdi"[2] azğınlığı və zəlalətindən uzaq saxla!

**Rübai**

İlahi, sən məni məğrur zahid etmə!
Səndən uzaq olan bir rind də etmə!
Elə et ki, yoxluqda ikən bir ad çıxarım,
Məni rindlik və zahidliklə məşhur etmə!

Xoş o zahidin halına ki, səadət əldə etmək itaətxanəsində ibadət təsbihinin sərriştəsini son Peyğəmbərin səlavatı silsiləsinə yetirə. Xoş o rindin halına ki, iradət qədəhini hüsn və fərasət meyxanəsində şəriət sahibinin razılığı əlindən ala, həmişə təriqət xanəgahlarından etikafında onun yolunu tutub gedə və bu təriqənin zövqünə tabe ola, necə ki deyiblər:

**Rübai**

Zahidlərin pak ürəyindəki işıq səndəndir,
Şəriətin binası həmişə səninlə abaddır.
Qırxlar məclisində hariflər bir-bir
Rindliklə üzüm suyunu səndən alıblar.

Peyğəmbərə, onun gözəl nəslinə və pak yoldaşlarına Allahın səlavatı olsun.
Sonra.
Riya sovməəsinin zahidi və xəta meyxanəsinin rindi binəva Füzuli əhli-nəzər yığıncaqlarında və hünər sahiblərinin məclislərində hekayə zikrinin zümzüməsini bu qanunla eşidib və rəvayət qədəhinin cürəsini bu minvalla dadıbdır.
Əcəm diyarında olduqca vüqarlı, çox təmiz və pak bir zahid var idi, necə ki deyiblər:

---

[1] "Quran"ın 66-cı ("Təhrim") surəsinin 8-ci ayəsindən bir parçadır. Cildə "Quran" ayələrindən gətirilən parçaların tərcüməsi mütərcimlərə məxsusdur.
[2] "Quran"ın 2-ci ("Bəqərə") surəsinin 34-cü ayəsindən bir parçadır.

**Şeir**

Dünyanın keşməkeşindən asudə bir fəqih idi;
Ona təzim etmək üçün mehrabların qəddi ikiqat olmuşdu,
Tacdarlar onun ayağının torpağına möhtac idilər,
Onun başmaqları fələyin başına tac idi.

O özündən xəbərsiz müridlər məclisinin yuxarı başda əyləşəni, həqqə yaxınlaşmaq və onun tərəfindən qəbul olunmaq istəyənlərin qabaqda gedəni idi. Hər aləmdə bir ələm qaldırmışdı, hər elmdən bir bəhrəsi var idi. Onun Rind adlı bir oğlu var idi ki, kamalda mislibərabəri yox idi. Hələ onun üzünə tük gəlməmişdi, lakin öz idrak qüvvəsilə yaradılış xəttinin məzmununu dərk etmək dərəcəsinə çatmışdı.

**Rübai**

Fəzl və kamal bağının rəna bir gülü idi,
Cah-cəlal mədəninin gözəl bir gövhəri idi.
Gözəl xasiyyətlərinin və lətif əxlaqının aynası
Onun işıqlı idrakının seyqəlindən nur almışdı.

Elə ki Zahid oğlunun kamallı simasında istedad günəşinin parıltısını müşahidə etdi, fərasətli üzündə gözəl qabiliyyətinin əlamətini oxudu, nəsihət qapılarını açdı, ona öyüd verməyə başladı:

– Ey əziz və xoşbəxt oğlum! Bil ki, Allahın hikmətinin tələbi və xaliqin qüdrət iradəsi insanların vücudunu müxtəlif təbiətdə xəlq eləyib, onların varlıq cəridəsində müxtəlif təbiətlərin rəsmini çəkmişdir. İnsanların bəzisini "hər kimi Allah hidayət etsə, o, yol tapmışdır"[1] (ayəsi) mövcibincə "kimi istərsən, əziz edərsən"[2] məqamına yetirib və bəzisini "hər kəsi Allahı nəzərdən salarsa, ona yol göstərən olmaz"[3] səbəbinə "hər kimi istəsən, xar edərsən"[4] zillət torpağına əyləşdiribdir. Belə qərar qoyubdur ki, hər kəs öz səyi sayəsində ona müqəddər olan rütbəyə çatmaq üçün cidd-cəhd eləsin. Hər kəs öz səyinin nəticəsində ona qismət olan ruzi şərbətini içsin, ta tənbəllik törədən və beləliklə, aləmin nizamına qarışıqlıq gətirən qəzaya etimad etməsin, habelə kəsalət törədən və bəni-adəmin ixtilatını pozan qədərə etiqad etməsin. İstənilənləri əldə etmək niyyəti və bəxtin qapılarını açmaq ixtiyarı hamıya bərabər verilmiş və hamıya "bilənlər ilə bilməyənlər bərabər ola bilərlərmi?"[5] təşviqini eşitdirməklə və "insan üçün səyindən başqa bir şey yoxdur"[6] xəbərdarlığı mövcibincə onların huş qulağını açıbdır. Ta heç kəs özünün zillət töhmətini yaranışa istinad etməsin, istək yolunda bir bəhanə tapıb səy etməkdən əlini çəkməsin.

[1] "Quran"ın 7-ci ("Əraf") surəsinin 178-ci ayəsindən bir parçadır.
[2] "Quran"ın 3-cü ("Ali-İmran") surəsinin 26-cı ayəsindəndir.
[3] "Quran"ın 13-cü ("Rəd") surəsinin 33-cü ayəsi.
[4] "Quran"ın 3-cü surəsinin 25-ci ayəsindən bir parçadır.
[5] "Quran"ın 39-cu ("Zumər") surəsinin 9-cu ayəsidir.
[6] "Quran"ın 53-cü ("Nəcm") surəsinin 39-cu ayəsidir.



Bu müqəddimədən məqsəd və bu söhbətdən murad odur ki, indi sənin bilqüvvə asari-fəzilət mənşəyi olan zati-şərifin bilfel onların məzhəri-əsrarı olmalı və batinən incilər xəzinəsi olan lətif ünsürün onları aşkara çıxarmalıdır.

**Nəzm**

Rind bu nüktəni Zahiddən eşitdikdə
Naşı olduğuna görə mənasını anlamadı.
Dedi: ey mənim hər müşkülümü həll edən,
Mənim ürəyimdə olan müşküllərdən xəbərdar olan.
Hərçənd hünər qapılarını açdın,
Söz fəsahətini kəmalə çatdırdın,
Səndən nə gizlədim, sözlərinin dolaşıqlığından
Mənə mənə aydın olmadı.
Sən əgər kəmalını göstərmək istəyirsən,
Hamıya ustadsan, (Allahın) sənə rəhməti olsun.
Əgər vəz və nəsihət etmək istəyirsənsə,
Ləfzi məzmuna pərdə etməyəsən,
Məzmunu başa düşmək istəyənlərin ürəyini qan etməyəsən,
Əsl mənadır, kəlmələri zinətləndirmək deyil,
(Əsl) söz odur ki, onu avam da başa düşsün.
Qəbul əhlinin nəsihətini eşit.
Hər kəs ilə onların öz ağıllarının səviyyəsində danış.

Zahid dedi:

– Ey Rind! Sənin sözlərindən nəsrdən ikrah etdiyin məlum oldu. Anladım ki, sənin mənzum sözlərə rəğbətin var, bildim ki, idrakın nöqsanlı olduğuna görə təbiətin dolaşıq inşaya nifrət bəsləməkdə məzurdur.

Nədən Allahın və Peyğəmbərin cayiz görmədiyi nəzmi bəyənirsən? Yalançılıqla ifrat etdiklərinə görə şəriət əhli tərəfindən adı məzəmmətlə yad edilən şeir sənin xatirinin səhifəsində nə üçün nəqş bağlamışdır?

**Şeir**

Yalan söz söyləyənlərin gərək
Ağıl yanında heç bir etibarı olmasın,
Nə üçün gərək insan yalan danışsın
Və yalanı etibarının səbəbi bilsin?!

Rind dedi:

– Ey Zahid! "Biz ona şeir öyrətməmişik"[1] ayəsinin məzmunundan belə anlaşılır ki, şeir Peyğəmbərdən başqasına Allah təlimidir. Odur ki onu (şeiri) təhqir etmək xətadır. "Həqiqətən, bəzi şeirlər hikmətdir"[2] (hədisinin) mənasından belə anlaşılır ki, Peyğəmbər şeiri bəyənirmiş. Odur ki onu məzəmmət etmək həyanın azlığına dəlalət edər. Bil ki, şeirdəki fayda verən yalan, zərər yetirən doğru nəsrdən yaxşıdır. Əgər desən ki, elə deyil, yalandı. Şəriətdə yalan söz işlənməz.

Yalan söz namaşrudur, hətta əqlə müğayirdir.

Şeirin rütbəsində bu qədər demək kafidir ki, bu paltarda (şeir şəklində) rədd olunmuş (yalan) da hamı yanında məqbuldur.

Zahid dedi:

– Ey Rind! Yalançıları tərifləməkdən əl çək. Uca himmətli ol ki, bundan da yaxşı bir sənət öyrənəsən ki, həm həyatda etibarına səbəb olsun, həm də öləndən sonra onun asarı səndən yadigar qalsın. Onu bil ki, bu gün hər nəyə rəğbət eləsən, bacararsan. Sabah hər nəyi yadına salsan, həsrət çəkərsən

### Şeir

Allahlıqdan aşağı olan bütün təkamül rütbəsinə çatmaq üçün
İnsanın tərkibində əqlin feyzindən (hər bir imkan)
mərkəzləşmişdir.
Lakin saysiz fəzl və hünər örtülü qalar,
İmkandan həqiqətə çevrilə bilməz.
Nə qədər ki, huş və duyğular fəaliyyətə qabildir,
Fürsəti qənimət bilib, hünər kəsb etməyən adamın
Bədən əzaları süst olduqdan sonra peşmanlığı fayda verməz.
Çünki alətsiz ustadın əlindən heç bir iş gəlməz.

Rind dedi:

– Ey zahid! Yaxşı dedin, nəsihət incilərini gözəl deşdin. Lakin indi sən məni bir elmə doğru yönəlt ki, mən də bir səy göstərim.

### Şeir

Mən ki yoxdan yenicə varlıq aləminə gəlmişəm,
Dünya qayda-qanunlarından xəbərim yoxdur.
Sən ki bir ömürdür bu dünyadasan, mənə yol göstər!
Bilim ki, işin gedişi nə cürdür, qayda nədir!

---

[1] "Quran"ın 36-cı (Yasin) surəsinin 69-cu ayəsindən bir parçadır.
[2] Məşhur hədisdir.



Bil ki, insan varlığının kəmalı iki vücuddan asılıdır. İnsanın nəfsini o iki keyfiyyət kamal nəşəsinə doğru aparır. Əvvəl zahiri vücuddur. Onun da məbdəyi atadır. İkinci mənəvi vücuddur ki, onun da mənşəyi rəy sahibi olan mürşidin hidayətidir. Kamil olmaq dərəcəsi sonuncuya bağlı olduğundan mürşid atadan müqəddəmdir.

### Qitə

Elm bir ruhdur ki, qoca mürşid öz nəfəsinin feyzindən
Tələb əhlinin ölü bədənlərinə gətirər.
Tələb əhlinin həyatı mürşidin nəfəsi feyzindədir.
Buna görədir ki deyirlər: "Nəfəsin canı vardır".

Zahid dedi:

– Ey Rind! Çün elm və sənəti bəyənirsən və mənfəət və zərərlərinin aqibətini düşünürsən, daha yaxşı olar ki, sənət kəsb etməkdən qabaq elmə rəğbət edəsən. Elm öyrənmək vadisinə gələsən ki, elm ruhani ləzzətlərin zəncirini hərəkətə gətirəndir və Allahı tanımaq sirlərinə vasitədir. Necə ki deyiblər:

### Şeir

Elm bir dəryadır ki, ondan
Həqqi tanımaq gövhəri hasil olar.
Elmin rütbəsini ağıllılardan soruş,
Elmin ləzzətini cahil nə bilər?!

Rind dedi:

– Ey Zahid! Deyirsən ki, elm öyrənmək yaxşıdır. Mənim də onu öyrənməyə arzum çoxdur. İndi təlim ver, öyrənim və onun nuru ilə ruhumun şamini işıqlandırım.

### Rübai

Elə et ki, sənin feyzindən bir zövqə çatım,
Sənin yol göstərməyinlə bir yerə çatım.
Varlıqda irfandan başqa bir müddəam yoxdur,
Mənə rəhbərlik et ki, bir müddəaya çatım.

Sonra Zahid bir səhifənin üzərinə bir əlif çəkdi.

Rind onun mənasını soruşdu.

Zahid dedi:

– Bu, elmlər xəzinəsinin açarıdır. Ədəbi və qadir Allahı tanımağın əsasıdır. İbtidadə ki qələm gözəllik lövhü üzərinə rəqəm yazdı, "Təkdən yalnız tək törər" mövcibincə (Allah) özünü əlif surətində göstərdi.

**Rübai**

Əlif bir hərfdir ki, heca (əlifba) ərbabının
dəftərində birinci yazılır,
Bir sərvdir ki, zəka bostanına zinət verir.
Təkdir, lakin min şəkildə görünür,
Məzhəri gah qüssə, gah da şəfadır.

Rind dedi:
– Ey Zahid! Bu, xətt təliminin müqəddiməsidir. Xətt təlimini mərifətin şərti bilmək qələtdir. İrfan istedadı xətdən asılı deyildir. Peyğəmbərin savadsızlığı, təhsilsizliyi buna şahiddir.

**Şeir**

Fəqih kitabları yığıb belə güman edir ki,
Xətt elmi irfanı kəsb etmək üçün səbəbdir.
O yəqin etməyib ki, xətt irfanın mənşəyi deyil.
Əgər xətt olmuşsa da, o, gözəllərin üzünün xəttidir.

Xətt öyrənmək qilü-qalı artırır, Allaha arif olanın isə dili laldır.

**Rübai**

Münəccimlik, nəhv, sərf, fiqh, fəlsəfə elmləri
Əqli yüksəltmək və danışığı zinətləndirmək üçündür.
Həqiqət əhlinin bunlara ehtiyacı yoxdur.
Çünki Allaha yaxınlıq məqamında əql heyran, nitq də laldır.

Zahid dedi:
– Ey Rind! Xətt elmi Allahın elə bir fəzilətidir ki, dinin əsasını qoyanların danışıqlarının mütaliəsi üçün və yəqin əhlinin təriqətinin əbədiləşdirilməsi üçün istifadə edilir, xətt vasitəsilə həmişə keçmiş adamların yazılarından faydalanır və onu sonra gələnlərə çatdırırlar.

**Rübai**

Əgər xətt sənətindən bir əsər olmasaydı,
Peyğəmbərin elmindən bizə kim xəbər verərdi?
Çün xətt hünər əhlinin əbədiləşməsinə səbəbdir,
Vallah, xətdən gözəl hünər yoxdur.



Rind dedi:
– Ey Zahid! Xətti öyrənmək yazıların mütaliəsinə səbəb olur və yazıların mütaliəsi məsələlərdə olan ixtilafın girdabıdır, xülasə, sərgərdanlıq mənşəyidir. Sərgərdanlığı axtarmaq isə nadanlıqdır:

**Rübai**

Hünər sahibləri bir-birinin əqidəsinin əleyhinədirlər.
Hər kəs öz əqidəsinə görə kitab yazıbdır.
Yaxşı olar ki, onların yazdıqlarını heç oxumayam,
Qələm kimi hər xəttin sərgərdanı olmayam.

Kitab mütaliəsinin çoxluğu şübhəni ortadan qaldırmaz, bəlkə, şübhəni bir az da artırar. Buna şübhə yoxdur!

**Şeir**

Hər nə qədər artıq kitab oxusan,
O qədər də artıq heyrətdə qalacaqsan.
Xətt ölkəsi elə bir şəhərdir ki, əql sahibləri onu
"Sərgərdanlıq hasarı" adlandırırlar.

Zahid dedi:
– Ey Rind! Bu şərafətli elmi, lətif fənni elmlərin mütaliəsi üçün olmasa da, qayda-qanunları bilmək üçün öyrən ki, padşah dərgahına yaxın olanlar, himməti ali olan adamlar vəzirlik və sədrlik mərtəbəsinə bu sənətlə çatmışlar, dünya işlərinin idarəsinə və dünyada olan şeyləri əldə etməyə bu vasitə ilə nail olmuşlar.

**Qitə**

Xoş o adamın halına ki, xəttin köməkliyi ilə
İzzət və etibar çölünə qədəm qoya.
Alçaqlıqdan acizliyin adını qənaət qoymaya,
Yüksəklik axtara və acizliklə razılaşmaya.

Rind dedi:
– Ey Zahid! Bu dediklərin dünya məişətindən ötrüdür ki, ömrü onda sərf edərlər və dünyanın hesabını axirətdə əzabla çəkərlər. İki dünyanın hesabını vermək bihudədir və bu hər iki dünyada əzaba səbəb olar.

### Şeir

Aqil axırda xətaya aparan elmin
Şərəfini bəyənməz.
İnsanı rütbə və məqama çatmaq arzusu
Haqdən uzaqlaşdırıb nahəqqə çatdırar.

Doğrudan da, səltənət zövqündən qafil olan cahil padşahlara meyl edən alimdən yaxşıdır.

### Qitə

Anlamazlıq rütbəsi ki, rütbələrin ən alçağıdır,
İnsanı hər bir nemətdən məhrum etsə də,
O elmdən yaxşıdır ki, o, hünər sahiblərinin
Padşahlara yaxınlaşmasına və rütbəyə çatmasına səbəb olur.

Zahid dedi:

– Ey Rind! İndi ki xətti öyrənmək xoşuna gəlmir, onu rədd etmək üçün bəhanə axtarırsan, heç olmasa, mənim nəsihətimi qəbul et, padşahlara xidmətin qanun və qaydalarını öyrən. Çünki padşah yanında xidmət etməklə xoşbəxtlik qazanılır. Bu isə mülkün və səltənətin təməl daşıdır.

### Şeir

Əgər ədəbin kamil olması səni padşahlara yaxınlaşdırsa,
Ümid var ki, hər iki dünyada muradına yetəsən.

Dünya neməti sevincini padşahların iltifatından, axirət mal-dövlətini isə günahsız adamlara kömək etməklə taparsan.

Rind dedi:

– Ey Zahid! Madam ki məxluqatın yaradılmasından qərəz xaliqə ibadət etməkdir, məxluqun məxluqa ibadət etməsi layiq deyil. Bir insanın başqa bir insandan yüksəkliyini göstərən şərt Allahı tanımaqdır. Bu yüksəklik dilənçilik və yaxud padşahlıq rütbəsindən asılı deyildir. Onu bil ki, padşahların xidmətçiləri həmişə məhzun və sultanlara yaxın olanlar daima məğbundurlar. Əgər şahın yanında hörmətləri varsa, ədəb qayda-qanunlarını yerinə yetirməkdə əzab çəkirlər, əgər hörmətləri yoxdursa, qəzəbdən qorxurlar. Bu sənətə rəğbət bəsləməyi dünyapərəst adamlarda axtar. Bu nəsihəti irfan rütbəsi axtaranlara demə.



### Şeir

Padşahların xidmətində məqam tutmaq üçün
Ömür mətaını sərf edən adamın
Görəsən, qiyamət günü üzrü nə olacaq,
O öz məbuduna tərəf necə baxacaq?

Zahid dedi:

– Ey Rind! İndi ki şahlara xidmətdə tənbəl, sultanlara yaxın olmağın ləzzətindən qafilsən, onda əkinçilik kimyasından faydalan ki, əkinçilik savab mənzilinin yoludur. Kim tarlaya bir toxum salsa, o hər dünya evini abad eləmiş olar.

### Qitə

Get əkinçiliklə məşğul ol ki, onun mənfəəti ümumidir,
Həm sənin üçün kifayətdir,
Həm bütün heyvanlar və quşlar üçün.
O işdə ki onun səmərəsindən
Həm özünə, həm özgəsinə mənfəət yetər, qüsur göstərmə.

Rind dedi:

– Ey Zahid! Əkinçilik mənfəət ümidilə bir xəsarətdir. Bu bir zəhmətdir ki, rahətlik arzusu ilə çəkilir. Gərək həmişə toxum əkəsən, sonra müntəzir olasan ki, nə zaman hasil olacaq. Bu isə ömrün azalmasını tələb etmək, ölümün yetməsinə tələsmək deməkdir. Bu mətləbin də həqiqəti məlumdur və irfan əhli tərəfindən pislənmişdir.

### Şeir

Kim ki əkin əkdi, ona qulluq elədi,
O intizardadır, məhsulun arzusunu çəkməkdədir.
O adam ki ömrünün tez keçməsini istəyir,
O, ağılsız və qafildir.

Zahid dedi:

– Ey Rind! Əgər əkin işi sənə çətin gəlir və bu sənətlə işləməyi səmərəsiz sayırsan, onda ticarəti intixab et, arzu gülünü o gülşəndən dər, çünki həm güzəran, həm də xalqın ehtiyacını rəf etmək yoludur.

### Qitə

Xalqın ehtiyacı öldürücü bir xəstəlikdir,
O naxoşluq Allahın mərhəməti ilə sağalar,

Allahın feyzi guya tacirin səyidir,
Xalqın ehtiyaclarını o rəf edir.

Rind dedi:

– Ey Zahid! Ticarət mənfəət etmək üçün bir sevdadır və mənfəət əldə etmək üçün xalqı möhtac etməkdir. Əvvəl bir malı gərək alasan, sonra qiymətin bahalaşmasına müntəzir olasan. Bu da nemət əldə etmək üçün xalqın nemətlərə olan ehtiyacının çoxalmasını arzu etməkdən ibarətdir. Yəni özünün mənfəətini xalqın ziyanında axtarmalısan. Bu, mürüvvətdən uzaqdır və mərifət əhlinin yanında pis iş hesab olunur.

**Şeir**

Alverçi öz məişəti üçün istəyir ki,
Malı həmişə ucuz alsın, baha satsın.
Onun məqsədi həmişə öz mənfəəti üçün xalqı
aldatmaq olduğundan
Çox zəhmət çəkir və az rahatlıq görür.

Zahid dedi:

– Ey Rind! Madam ki ticarət yolu ilə getmək və bu sərmayədən faydalanmaq istəmirsən, onda fərasət şamını yandır, bazar əhlinin sənətlərindən birini öyrən ki, sənət minnətsiz ruziyə və yaxşı yaşamağa səbəb olur. Peşəkara bu feyz bəsdir ki, öz kasıbçılığı ilə keçinir, həm də özgələr onun işindən faydalanırlar.

**Şeir**

Ey peşəkar, halal ruzi üçün
Xalqın minnətini çəkməkdən azadsan.
Özünə zəhmət verib çörək yeyirsən.
Afərin! İlanı öldürüb xəzinə əldə edirsən.

Rind dedi:

– Ey Zahid! Sənətkarlıq müəyyən olunmuş ruzi yolunda əzab çəkməkdir, qəflətdə nəfsin ibadətidir. Yəni dolanmaq vəsaitini ələ gətirmək fikrində olub, kəmal kəsb etməyə imkan tapmamaq və ruzi tələbini nəfsin kəmalı hesab etmək deməkdir. Onu bil ki, sənətkar gündüz gecəyə qədər güzəran üçün əziyyət çəkir və gecə gündüzə qədər çəkdiyi zəhmətin yorğunluğu ilə yatır. Bir nazənin ömür ki, yalnız yemək və yatmağa sərf olacaq, lüzumsuzdur və belə bir alçaq mərtəbəyə qənaət etmək cəhalətdir.

**Şeir**

Peşə öyrənmək üçün həyat sərf edən adam
Rahatlığı ancaq yuxuda görər.



Belə adam ömründən nə istifadə edə bilər ki,
Daima yaşamaq üçün əzab çəkmək və əzab çəkmək
üçün yaşamaq istəyir.

Zahid dedi:

– Ey Rind! Belə ki sən mənimlə müxalifətə başlamısan və cürbəcür bəhanələr gətirirsən, qorxuram ki, elm və sənətdən bir bəhrə aparmayasan, mərifət ağacından bir meyvə yeməyəsən və sənin himmət atın iqbal çəmənliyində ədəb kəsbində yoldaşlarından geri qalsın, cəhalət şehi mərifət zövqü hərarətini sənin qəlbinin manqalında söndürsün, cəhalət eybini hünər sayasan, bilməməyi yaxşı biləsən:

**Qitə**

Əgər adam öz cəhlinə etiraf etsə, eyb deyil,
Çünki hər alim ibtidada cahildir.
Cəhli etiraf etmək də bir növ elmdir,
İnsanın eybi odur ki, cəhalətindən bixəbər qalsın.
Naqis insanlara kamil demək düz olmasa da,
Naqis öz nöqsanını başa düşsə, bir növ kamildir.

Rind dedi:

– Ey Zahid! Əgər elm və sənət öyrənməkdə məqsəd yaradıcıya mərifət yetirməkdirsə, yaradıcıya mərifət yetirmək bu cüzviyyatın töhmətindən uzaqdır.

**Şeir**

Allahı tanımaq alim və ağıllı olmaqdan başqa bir şeydir,
Allahın sözündə və işində elm və əql kor və kardır.
Hansı ağıllı işin axırına layiqincə çatdı?
Hansı alim işin sonundan xəbərdardır?
Elm bəhsinin nəticəsi ürək ağrısıdır, onu etmə!
Elmin qeydinə qalmağın faydası başağrısıdır, qeydinə qalma!

Əgər sən bu dediyin sözlərdə mənim zahiri rütbəmin artmasını istəyirsən, həqiqətdə dünyada kim nadan və elmsizdirsə, onun da neməti artıqdır. Çünki alim dolanmaqda öz tədbirinə arxalanır. Lakin cahil öz işini Allahın kəraminə bağlayır. Madam ki Allahın kərəmi xalqın tədbirindən təsirlidir, onda xalqın özü üçün çörək tapmağa minnət çəkməsi lazım deyil:

**Qitə**

Bir ağıllı bir cahilə dedi ki, niyə
Sən mənim kimi deyilsən, qüssəsizsən,

Mən bu qədər ağıl ilə yoxsul və fəqirəm?
Sən isə o cəhalətinlə həmişə şadsan?
Cahil dedi ki, məgər bilmirsən ki,
Mən möhtərəməm, sən gözdən düşmüş.
Mən Allahın lütfünə təvəkkül eləyirəm,
Sən isə öz tədbirinə güvənirsən.

Zahid dedi:
– Ey Rind! Nemətin çoxluğu Allahın inayətinə dəlalət eləyir və zindəganlığın çətinliyi təhqir əlamətidir. Ola bilməz ki, Allah cahili inayət silsiləsinə alıb bilicini gözdən salsın, ta elmsiz cəhaləti özünə qəbul edib o vəziyyətdə də qalsın. Bilici isə elmi məhrumiyyət aləti hesab etsin və ondan bəhrələnsin.

**Qitə**

Cahilin nemətdə, alimin yoxsul olmağı ya Allahdan deyil,
Ya da yoxsulluq və fəna rütbəsi nemətdən yüksəkdir
Belə olmasa, elmi necə yüngül saymaq olar?
Necə demək olar ki, nemət cahillərə layiqdir?

Rind dedi:
– Ey Zahid! Cahilin nemətdə olması, alimin çətinlikdə yaşaması qəzəb və mehribanlıqdan deyil, bəlkə onda Allah hikmətinin sirləri var. Hərçənd ki məmləkətin işləri cahilin əlindədir, alimin tədbirlə öz güzəranını əldə etməsi ondan daha asandır. Əgər dünya işlərinin əsasları ağıllıların əlində olsa, onda cahil adamlar istehqaqın olmaması üzündən çətinliklə onu qəbul edər. Bu hikmət Allah mərhəmətinin ümumiliyinə dəlildir və bu da alimlərin təsəllisinə səbəbdir ki, Allahın nemətindən hamı istifadə edir, hər kəs onun salmış olduğu süfrədən öz ruzisini yeyir.

**Qitə**

Dünya dövlətinin daima nadanlara çatması,
Ölkənin nizam və intizamı üçün bir hikmətdir.
Alim öz ağlı ilə cahilə yaxınlaşa bilər,
Amma cahilin alimə yaxınlaşması zəhmətdir.

Zahid dedi:
– Ey Rind! Hərçənd ömrümü tamam sənin üçün sərf etdim, zəhmət çəkib səni böyütdüm. Belə olmaya ki, mənim zəhmətim məzəmmətə səbəb ola, cəhalətin sayəsində mənim ümidlərim puça çıxa, öyrənməmək pərdən nəsəbinin üstünü örtə, sənin cahilliyindən xəbərdar olanlar məni təqsirləndirələr.



-80601-

**Şeir**

Vay o bəndənin halına ki, adının baqi qalması üçün
Bir ömür zəhmət çəkə, övlad böyüdə,
Övladına gözəl tərbiyə əsər etməyə,
Atasının adını batıra, abrını apara.

Rind dedi:
– Ey Zahid! Deyirsən ki, övladın cahil qalması ataya eyibdir, tamam səhvdir və rəva görülməyən fikirdir. Onu bil ki, Allahın hikməti insanların bərabər olmasına icazə vermir və hər kəsin rütbəsində bir fərq qoyubdur. Övladın pis olması atanın yaxşı ad çıxarmasının mənşəyidir. Odur ki, mənim hünərsizliyim sənin adının yaxşı xatırlanması üçün kamali-hünərdir.

**Şeir**

Bir alimin övladı özündən bilikli olsa,
Deyərlər ki, atasının elmi bu qədər deyildi.
Bu qədər zəhmət çəkib təlimdən sonra ataya
Öz cəhalətini isbat etməkdən başqa oğulun elmindən
nə fayda hasil olar?

Zahid dedi:
– Ey Rind! Əgər elm təhsil etməkdə idrakının nöqsanlı olması manedirsə, itaəti təqlid etməyə nə var? Onda nə üçün mənim arxamca gəlmirsən? Mən ibadət yolunda zəhmət çəkirəm, nə üçün məni rəhbər tutaraq mən gedən yolu getmirsən? Əgər elm öyrənməkdə süstlüyün zahiri səadət qapılarını sənin üzünə bağlayırsa, gözəl əməlin nöqsanını tamamlasın. Özünü həqiqətçilər dərəcəsinə çatdıra bilməsən də, Allahın köməyi ilə, heç olmasa, təqlid edənlərdən də geri qalmazsan.

**Şeir**

Ey bu müxtəsər dairədə (dünyada)
Hünər və elm öyrənməyi istəməyən!
Madam ki asanlıqla yaşayırsan
Şükür eləməkdə bir xoruzdan əskik olma!
Bax ki, o necə vəqti bilir,
Təşəkkür etmək üçün saatı başa düşür!
Onun dənini və suyunu Allah verdiyi üçün
Üzünü göyə tutub başını yerə qoyur.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Rind dedi:

– Ey Zahid! Mən sənin ardınca getməkdən utanmıram. Səni təqlid etməkdən yaxşı iş yoxdur. Amma sənin evində riyazət çəkmək vasitələrindən başqa bir şey yoxdur. Məndə isə riyazət çəkmək üçün əsla qüdrət yoxdur. Aləm xoşhallıq mətaı ilə doludur, sənin evin onlardan boşdur.

**Şeir**

Dünya şadlıq mətaı ilə abaddır,
Şənlik və sələmətlik şəmindən işıqlanmışdır
Sənin qüssəli evini belə ki mən görürəm
Dünya mülkündən yüz fərsəng uzaqdır.

Bunu da bil ki, insanın riyazət çəkməkdən xoşlanmaması təəccüblü deyildir. Xüsusən uşağın təbiəti ki, çətin işə və zəhmətə dözümü yoxdur.

Bəşər təbiətən şadlığa, şənliyə mayildir,
İnsanın riyazətdən xoşlanmaması təəccüb deyildir.
Xüsusən uşaq ki, təbiəti incə olduğu üçün
Onun əziyyət çəkməyə heç taqəti yoxdur.

Zahid dedi:

– Ey Rind! Dünya rahətliklərinin vəsaiti yol tələsidir. Alimlər ondan ikrah olurlar. Yaxşı olar ki, arif dünya tələsindən əlini çəksin və tərəddüd vadisindən bir guşəyə çəkilsin: çünki Allah şənlik və qüssəni dünya əhlinin qarşısında qoyub və buyurub ki, hamı hər ikisindən bəhrələnsin və heç kəs hər ikisini görməkdən məhrum olmasın. Hər kim dünyada bir şeyə əlaqə bağlasa, axirətdə ona verilməyəcək.

Pəs ağıllı adam gərək dünyada qüssəli olsun ki, axirətdə qəm çəkməsin və dünyada şadlığı buraxsın ki, axirətdə onu əldə etsin.

**Şeir**

Dünya və axirət bir-birinin ziddidir,
Hər nə burda varsa, orda yoxdur.
O adamların ki, dünyada rahətlikləri yoxdur,
Axirəti rahətliklə keçirə biləcəklər.

Rind dedi:

– Ey Zahid! Heç vaxt Allahın hikməti pis şeyin icad olmasına əsla icazə verməz, varlıq yolu qəriblərin qarşısında tələ qurmaz, hər nə xəlq eyləyibsə, əlbəttə ki, yaxşıdır. Nə qayda qoyubsa, o da çox yaxşıdır. Kim pis və yaxşı iş görürsə, öz təbiətindən asılıdır.



**Şeir**

Hər nə ki yoxdan var olmuşdur,
Allahın qüdrətinin məzhəri və sənətinin əsəridir.
Kim desə ki, dünyanın yaradılışı pisdir,
O demək istəyir ki, bundan yaxşısını yaratmaq
lazımdır, bu da ki məhz xətadır.

Zahid dedi:

– Ey Rind! Əgər dünya işlərinin binası pis olmasaydı, haqq yolu yolçularının nəzərində məkruh görünməzdi. Dünyanın oyunlarını görmək ayıq adamların işidir, sən hələ yuxudasan. Dünyanın eyiblərini başa düşmək qocaların işidir, sən hələ cavansan. Səbir elə ki, dünya hadisələrinin günəşi sənin üzərinə düşsün, sən də dünyanın yaxşı-pisindən baş çıxarasan.

**Şeir**

Haqq əhli bəla və qüssə tələsinə düşübdür,
Dünya bəla və qüssələrin mənzilidir,
Bu xarab dünyanın zülm və vəfasızlığını
Şərh etməyə ehtiyac yoxdur, çünki bu, aləmdə məşhurdur.

Rind:

– Ey Zahid! Həqiqət əhlinin dünyanı pis qələmə verməkləri onun yaxşılığına işarədir. Onu məzəmmət edənlər dünyanın sevimli, istəkli olmasını söyləmək istəyirlər. Hər kəs ki,onun ləzzətlərini anladı, itaət yolundan üz çevirdi və dünya ilə məşğul olmaqdan başqa bir yerə çata bilmədi, vücudun qayəsini ondan başqa bir şeydə görmədi. Kamil insanlar ki dünyadan məhəbbətlərini kəsiblər və ağıllarını nəfslərinə üstün tutublar, onun pisliyinə görə deyil. Bil ki, dünya kamil yaradanın asarının məzhəridir. Dünya ariflər üçün rəhbər, cahillər üçün yolkəsən bir səddir. Xoş o adamın halına ki, dünyanı əldə edə, ona bağlanmaya, dünyanı çətin əldə edib, asan buraxa.

**Şeir**

Dünya o adam üçün pisdir ki,
Ona əlaqə bağlaya və həmişəlik olmasını istəyə.
O kəs xoşdur ki, dünyanın varlığını yox kimi,
Yoxluğunu isə var kimi bilə.

Zahid dedi:

– Ey Rind! Dünya rahatlığının vəsaitini əldə etməyi toplamaq deyil, dağıtmaq bil! Mal toplamağı rahətlik bilmə ki, o özü narahatlıqdır. Hər kəs öz müşkül işini qurtarmağı asudə-

çilik hesab etsə, həmişə zəhmətə düçar olar. Çünki nemətlər çoxdur və onların hamısını əldə etmək də çətindir. Xoş o adamın halına ki, xatircəmliyi (mal) toplamaqda axtarmasın, mahal bir arzu ilə pərişan söz danışmasın.

**Şeir**

Tamahkar adamlar dünya malını axtarırlar,
Onlar elə ümid edirlər ki, bu toplamaqda rahətlik vardır.
Bundan xəbərsizdirlər ki, həmişə
Mövcud olmayan rahətlik arzusu özü bir zəhmətdir.

Rind dedi:

– Ey Zahid! Hər kəs yüksək idrakın və arifpəsənd təbiətin köməyinə dünya məhəbbətini rahətlik hesab etsə, mümkün deyil ki, o adam dünyanı əziyyət və zəhmətlər yeri bilsin.

**Şeir**

Cahillər möhnəti yoxsulluqda, rahəti varda bilirlər,
Buna görə özlərini gah rahətdə, gah da zəhmətdə sayırlar.
Rahətliyi yoxsulluqda bilən dərd əhli isə
Büsbütün rahətlikdədir, əziyyətin adını da bilmir.

Zahid dedi:

– Ey Rind! Sən ki yoxsulluğun dərəcə və rütbəsini bilirsən, nə üçün hikmət atını varlıq zindanından azad etmirsən? Əgər qafillər yoxsulluğu pisləsələr, üzürlüdürlər. Amma sən ki yoxsulluğun ləzzətini bilirsən, səndən uzaq görünür ki, öz nəfsini tərbiyə edib ona əzab verməyə çalışasan və nemət qədəhindən qəflət şərabı içməyəsən:

**Şeir**

Allah ki bir gün səni yoxdan var elədi,
Bundan məqsədi sənin riyazət və ibadətin idi.
İndi sən asudəlik xəyalındasan,
Ayıq ol ki, onun göstərdiyi yolun əksinə getməyəsən.

Rind dedi:

– Ey Zahid! Allah kamil, tədbirli və adil bir həkimdir. Hər iş üçün bir yer təyin edib və hər yer üçün də bir iş buyurubdur. Cavanlara qocalar işi görmək qanuna ziddir. Qocalara cavanların xasiyyətində olmaq yaxşı deyildir. Riyazəti təbiətən həddi-büluğa çatmışlara buyurublar və ibadət zəhmətini çəkmək qapılarını onlara açıblar, nəinki bizə. Çünki biz surət bostanının yenicə göyərmiş səbzələriyik və heyrət çölündə hələ avara gəzən adamlarıq. Allah hökmünün əksinə danışma və riyazət yolunu məndən soruşma.



**Şeir**

İndi ki məndə zahiri kamal yoxdur,
Mənə zöhd yolu ilə getmək yaxşı deyil.
Sən ki özünü ağıllı hesab edirsən,
Cəfaya dözmək sənin vəzifəndir, mənim vəzifəm deyil.

Zahid dedi:

– Ey Rind! İnsan istər-istəməz zəhmətin zəhərini dadmalı və riyazət yükünü çəkməlidir. Belə isə, yaxşısı budur ki, bu gün qüssə çəkməyi intixab edib axırı olmayan şadlığı boşlayasan. Dünya əziyyətlərinə elə adət edəsən ki, əgər qəflətən bir rahətliyə çatsan da, ona nifrət bəsləyəsən.

**Şeir**

Özünü zülmə elə öyrət ki,
Əgər birisi sənə lütf eyləsə, zülm biləsən,
Hər kim qüssədən fərəh, əziyyətdən rahətlik duymursa,
Onun rahətliyi əziyyətə və şadlığı qüssəyə çevrilir.

Rind dedi:

– Ey Zahid! Hər kəs dünya ləzzətini görməsə, ondan əl çəkməyi asandır. Məhrumiyyətin adını himmət qoyub sərvəti olmadığından yoxsulluğu bəyənmək hünər deyil.

Hünər dünyanı əldə etmək və tərk etməkdədir, nəinki onu tənbəllikdən axtarmamaqda.

**Şeir**

Kimə ki dünyanı ələ gətirmək çətindir,
Çarəsiz olaraq fəna və yoxsulluq yoluna üz çevirər,
Belə adamın tərifini hökm divanında nə cür yazmaq olar?
Dünyamı onu tərk edib, yaxud o dünyanı tərk edib?

Zahid dedi:

– Ey Rind! İndi ki hər ikimiz Allah məxluquyuq, birlikdə də möhnət və əziyyət tələsinə düşmüşük, niyə gərək tək mən zəhmət çəkəm, sən isə əylənəsən?

**Şeir**

İki nəfər əgər qürbətdə bir yerdə yaşasa,
Gərək bir-birinə həvəslə kömək edələr.

Bu zülm olar ki, biri asudə otura,
Əziyyət o birisinin öhdəsinə düşə.

Rind dedi:

– Ey Zahid! Cəhalətimi etiraf məni bəladan qurtarıbdır. Ağıl iddiası isə səni bəlaya düçar edibdir. Dünyanı etibarsız hesab etmək məni fikirdən qurtarıbdır. Sən isə bu mənanın xilafına olduğun üçün ürəyinə tərəddüd dağı vurulubdur.

**Şeir**

Nə qədər ki uşaq yetkinləşməyib,
Həmişə rahət və şən olacaqdır.
Elə ki dünyada ağıldan dəm vurdu,
Bir ləhzə də fikirdən asudə olmayacaqdır.

❖❖❖

Dünyanın qüssəsini çəkmək böyük bir bəladır,
Axirəti düşünmək çətin və dərdli bir əzabdır.
Bunların hər ikisi ağılın özünə güvənməsinin nəticəsidir.
Dəli ilə uşaq ikisindən də azaddır.

Zahid dedi:

– Ey Rind! Tutaq ki, mən ağıl qeydi ilə gərək əzab çəkəm və sən cəhalətinə kef edəsən. Bəs niyə mən gərək sənin eyş-işrət vəsaitini düzəldəm. Sənin ehtiyacın olan şeylərin ödənilməsi niyə mənim üzərimə düşsün?

**Şeir**

Ey oğul, əziz ömrüm sənin varlığın yolunda sərf oldu,
Ömrümün yarısı da səni tərbiyə etmək yolunda tələf oldu.
Tamam vücudum sənə sərf olundu; səndən mənə nə fayda?
Dürr sədəfə əvəzində nə verər?

Rind dedi:

– Ey Zahid! Mənə açıq zülm etmisən, indi onu lütf hesab edirsən. Məni təhqir etmisən, əvəzində mərhəmət umursan. Dünya bəla yeridir, müsibət və zəhmət məhəllidir. Mən sənin üzündən bu tələyə düşmüşəm. Lazımdır ki, onun mükafatını verəm?



**Şeir**

Bir ata oğluna məhəbbətlə dedi:
– Sənin yoxdan vücuda gəlməyinin vasitəsi mənəm.
Oğlu dedi:
– Dünyada qüssə və əziyyətdən başqa şey yoxdur.
Çox da öyünmə ki, əziyyət və qüssəmə səbəb olmusan!

Bil ki, ata oğlunun əziyyət dünyasına gəlməsi üçün bələdçidir və oğul da atanın axirət işləri yolunda çəkilmiş səddir.

**Şeir**

Ey ata, sən məni dünyada qəm-qüssəyə əsir etdin,
Mən də sənin Allaha itaət etməyinə mane oldum.
Dünya mükafat evidir, razı ol, incimə,
Yaxşılıq istəyirsən, yaxşılıq et, pislik edibsənsə,
onda pislik gözlə.

Zahid dedi:

– Ey Rind! Sənin sözlərindən belə məlum olur və hərəkətindən belə anlaşılır ki, zəhmətsiz mal toplamaq arzusundasan. Sənin bu arzun da ənqa quşu kimidir (ki, adı vardır, özü yoxdur). Könlündən şadlıq keçir, əziyyət çəkməsən, bu təmənna da kimya kimidir.

**Şeir**

Dünya bir iş yeridir,
Hər kəs bir iş ilə məşğuldur.
Sənin ki, ey tənbəl, bir işin yoxdur,
Get ki, əlbəttə, bazar oğrususan.

Rind dedi:

– Ey Zahid! Tədbirsiz yaşamaq mən qafilə aid deyildir. Bu rahətliyin feyzi tamam heyvanlara da şamildir. Bütün vəhşi heyvanlar ruzi yeyirlər və öz tədarük və tədbirlərindən minnət çəkmirlər. İnsan ki yaşamaq və məişət üçün heyrandır, əlbəttə, heyvandan da əskikdir.

Əgər deyirsən ki, işsizlərin məişət küçəsinə yolları düşə bilməz, Allaha təvəkkül et ki, təvəkkül pis iş deyildir.

**Şeir**

Onlar ki öz ruzilərini tədbirə bağlayırlar,
Bihudə bir işdir ki, görürlər.

Aya heyvanlar, quşlar dağ və səhralarda
Gündüz yeyəcəkləri üçün gecə nə tədbir görürlər?

Zahid dedi:

– Ey Rind! Hərçənd sənin yaşamağın mənim ruhumun şəmini işıqlandırır, amma səni yaşatmaq odu canımı yandırır. Çünki nəsihət eşitmək istedadın var və mətləbi başa düşməyi də bacarırsan. Amma nə mənim kimi riyazət çəkməyə qatlaşırsan, nə də özgələr kimi dünya nemətlərindən dadmağı bacarırsan.

Şeir

Yoxsulluğa əgər razı olasan, tabın yoxdur,
Nemətlərə meyl göstərsən, vəsilən yoxdur.
Sovməənin zahidi olmaq istəsən, yoxsulluğa dözə bilməlisən.
Xərabatın rindi olmaq istəsən, xalis şərabın yoxdur.

Rind dedi:

– Ey Zahid! Mübaliğəni həddindən aşırdın, münaqişəni ifrata çatdırdın. Nə vaxta qədər mən səndən rahatlıq vəsaiti istəyəcəyəm, sən isə əziyyət və zəhmət yolu göstərəcəksən?! Mən kef və eyşdən danışıram, sən məşəqqət qapısını açırsan. Bəhanə gətirmə. Nemət vəsilələrini hazırla ki, fürsət qənimətdir, təxirə salmaq zərərdir.

Şeir

Ayıq ol ki, nazənin ömür keçir,
Bax necə də qüssəli və kədərli keçir.
Ömrümdə eyş, işrət görməmişəm,
Yüz heyf bu ömrə ki, belə keçir.

Zahid dedi:

– Ey Rind! O cür ki özün görmüsən və dəfələrlə də məndən eşitmisən, mənim evimdə riyazət vasitələrindən başqa bir şey yoxdur. Sən də ona rəğbət etmirsən. Bundan sonra istədiklərini özgə bir yerdə axtar və ürəyindəkiləri başqasına de.

Şeir

Mənim evimin əşyasından xəbərdarsan,
Əgər bəlaya meylin var, buyur, bismillah!
Əgər rahətlik istəyirsən, özgə qapını döy,
Rahət və bəla üçün sənə yol göstərmişəm.

Rind dedi:

– Ey Zahid! Nə qədər ki mənim zəhmət çəkmək növbətim yetişməyib, mən məişət zəhməti çəkənə qədər o ruzi ki sənin öhdənə düşübdür, mənə yetir, həlalik sənin boynuna düşən güzəranımı mürəttəb çatdır. Mənə lazım olan şeyləri hazırlamaq sənin öhdəndə olduqca mənə güzəran fikri etmək lazım deyil.



Şeir

Hər kəs bir muzdura əmək haqqı verə
Ki, onun üçün səylə işləsin,
Tədbirsiz adamdır, əgər yanılıb
Axmaqlar yolu tuta:
Muzdurun rahatlığını nəzərə alıb,
Öz işini özü görə.

Zahid dedi:

– Ey Rind! Mənə hansı əməkhaqqını vermisən ki, dolanmaq xərcini mənim boynuma salmısan?

Şeir

O gündən ki sən yoxluqdan
Varlıq dairəsinə qədəm qoymusan,
Məndən hər cür yaxşılıq görmüsən,
Mən səndən zülm, əziyyətdən başqa bir şey görməmişəm.

Rind dedi:

– Ey Zahid! Sən dəfələrlə nəsihət yolu dedin və moizə gövhərini bu qayda ilə deşdin ki, dünya hər bir şadlıq qarşısında min cürə qüssə verər, hər bal müqabilində min zəhər qoyar. Bil ki, evlənmək ləzzəti bir baldır və onun zəhəri övladın əziyyətidir. Təzə gəlin ilə ixtilat şadlıqdır, onun müqabilində ev-eşik qayğısı bir qüssədir.

Şeir

Ey nikahə, evlənməyə və əyal sahibi olmağa könül verən,
Ehtiyat elə ki, ayağını möhnət tələsinə qoyursan.

Hər kim o balı dadsa, bu zəhəri də dadmalıdır, başqa çarəsi yoxdur. O şadlığı görən bu qüssədən uzaq deyil.

Sən mənim anamla evlənəndə mənim xərcimi ödəməyi mülahizə etmədinsə, (demək,) uzaqgörən adam deyilmişsən. Əgər bu mülahizəni etmisənsə, bəhanə gətirmək insaf deyil.

Şeir

Bir kişi ki qadınla yatmaqdan şaddır,
Elə kişi azad deyil, qiyamətə qədər əsirdir.
Həqiqətdə o təkcə arvad əsiri deyil,
O nə qədər sağdır, övlad qüssəsi çəkmək əsiridir.

Zahid dedi:
– Ey Rind! Evlənmək feyzi ki dünyanın nizam və intizamına səbəbdir, onu müsibət adlandırma. Evlənməyin şərəfi ki, bəni-adəm nəslinin törəməsi üçündür, onu insanın əziyyətinə səbəb bilmə. Onu bil ki, gözəl qızla evlənmək və pak əxlaqlı qızlara şəriət qanunu ilə yaxınlaşmaq iki dünyanın səadətini qazanmaqdır, ürəyin və canın rahətliyidir. Həm insan nəsli onlardan törəyir, həm də onların qayğısına qalmaqla ev-eşik sahibi olursan. Bu həm nəfsi pis işdən hifz edir, həm də iş görmək üçün insanın qeyrətini hərəkətə gətirir.

**Şeir**

Qadın nədir? Kişinin məişət fikrinin ustadı,
Hər kimin arvadı yoxdur, dünya işində tənbəldir.
Evli olmayan kişi hünərsiz olar,
Hər kim evlidir, hər bir sənətdə kamildir.

Rind dedi:
– Ey Zahid! Qadınlara məhəbbət etməkdə yanlış düşünmüsən. Evlənməyə rəğbət etməkdə də səhv etmisən. Bil ki, arvada yaxınlaşmaq dərmansız bir dərddir və o dərdi həkimlərə söyləmək həyasızlıqdır. Əgər gözəl olsalar, onları saxlamaq bir bəladır. Əgər çirkin olsalar, onlarla yaşamaq dərdli bir əzabdır. Onlarla yaşamaq insanın səhhətini pozar. Onları boşamaq isə xalqın məzəmmətinə səbəb olar. Arvad sevən kişi düşmən bəsləyən bir səfehdir. Çünki arvad həmişə ərinin ölməsini və özünün sağ qalmasını istəyir.

**Şeir**

Əgər arvad özünün ömrünün uzanmağına dua etsə,
Öz duasında ərinə nifrin etmiş olar.
Əgər arvadın ölümü üçün bir kişi kədərlənsə, ona de ki, öl!
Çünki o, düşmənin ölümünə qəmgin olmuşdur.

Zahid dedi:
– Ey Rind! Atası ölən oğul atasızlıqdan ölmür, habelə anası ölən oğul da o saat ölmür. Tutalım ki, mən də öldüm və səni hadisələr cəfasının əlinə tapşırdım. Onda sən mənim acizliyimə rəhm elə və məişətini özün təmin et.

**Şeir**

O kimsə ki övladın ruzisini atanın məhəbbətindən asılı edibdir,
O, övladın üzünə döşdən (əmcəkdən) ruzi qapısın açıbdır.
Əgər uşaq öz ata-anasından uzaq düşsə,
Əlbəttə ki, Allah ata-anadan başqa ona bir vasitə düzəldəcəkdir.



Rind dedi:
– Ey Zahid! Səndən ehsan tələb etməkdə məqsəd sənə əziyyət vermək deyil, bəlkə, sənin dərəcəni yüksəltmək üçündür. Çünki sən Allahın rizasını qazanmaq və dünyanın ləzzətini tərk etmək istəyirsən. Bunun hər ikisi atanın öz övladına pərəstar olması ilə olar. İndi ki sən bu dövləti özünə şərafət bilmirsən və mənim fikirlərimi küdurət hesab edirsən, vacibdir ki, küdurət tozunu sənin səfa səhifəndən siləm və səndən uzaq gəzəm ki, sən qəmdən qurtarasan, mən də minnətdən.

**Şeir**

Əgər sənin köməyin əziyyətə səbəb olursa,
Bir dost səndən inciyib narazı qalırsa,
Tez onun dostluğunu tərk et,
Qoyma o sənin dostluğundan bizar olsun.

Zahid dedi:
– Ey Rind! Mənə qəribə bir hadisə üz verib və qabağıma təəccüblü bir təhlükə çıxıb. Sənin xahişlərinin çoxluğundan nə istəyini yerinə yetirə bilirəm, nə də səni çox sevdiyimdən səndən ayrıla bilirəm.

**Şeir**

Arzu qapısını sənin üzünə açmaq çətindir,
Naümid olub səfərə göndərmək də çətindir.
Heç kəs bundan çətin bir hadisə görməmişdir,
Səninlə olmaq da çətindir, olmamaq da çətindir.

Rind dedi:
– Ey Zahid! Bu ayrılıqda və səfər əzmində iki mənfəət nəzərdə tuturam. Əvvəla, budur ki, sən məndən əlaqəni kəssən, tamam vaxtını ibadətə sərf edəcəksən. Bu sənin (Allaha) yaxınlaşmağına səbəb olar. İkincisi budur ki, mən də sənin məhəbbətinə arxalanmaram. Qürbət çətinliklərinin zəhərini dadaram. Mümkündür ki, təbiətimin harın atı ədəb təliminə ram olub, tənbəl könlüm elmləri öyrənmək üçün həvəsə gələ. Bu mənə dövlətə çatmaq sərmayəsi ola bilər.

**Şeir**

Ta nəfs qürbət tələsinin əsiri olmasa,
Zəhmət və əziyyətdən inciməsə,
Onun güzəran üçün bir elm və sənət
Axtarmaması təəccüblü deyildir.

Zahid dedi:

– Ey Rind! Madam ki getmək bayrağını qaldırmısan və səfər etməyi qərara almısan, ehtiyat elə ki, qürbətdə qarşına çox bəlalar çıxar. Kimsəsizlik vadisində saysız əziyyətlər üz verə bilər. Hər addımda bir lotu sadədil adamları ovlamaq üçün bir hiylə toru qurub, hər tərəfdə bir əyyar xəbərsizləri aldatmaq üçün yalan dəsgahı açıbdır. Məbada səni hiylə ilə tələyə salalar və aldanıb məni bədnam edəsən!

**Şeir**

İblis həmişə hiyləgərlər surətində
Hər yolun ağzında yüz tələ qurubdur,
Kim ehtiyat ilə qədəm atmasa,
Əlbəttə, hər qədəmdə tələyə düşəcəkdir.

Rind dedi:

– Ey Zahid! Mənə səfərin tədbirlərini öyrət və qürbətdə necə davranmalı olduğumu söylə. Göstər ki, hansı adamlardan uzaq olum, hansılardan ehtiyat eləyim. Bildir ki, qürbət müsibətləri nədir? Kimlə həmsöhbət və yoldaş olmaq məsləhətdir?

**Şeir**

Səfər görməmiş bir kəs ki qürbətdə
Hər bir diyarın tamaşasına həvəs edər,
Əgər yolda bir səmimi yoldaşı olmasa,
Dünya görmüşlərin nəsihətləri ona yoldaşlığa kifayətdir.

Zahid dedi:

– Ey Rind! Bil ki, insana həyatda dörd xətər rast gələ bilər, dörd xətərli halət üz verə bilər. (Əvvəl) uşaqlıq dövrüdür. Uşaq gücsüzlüyü üzündən öz mənfəətini axtarmaqda və zərərini dəf etməkdə acizdir. Ağılsız qadınlar onun haqqında çoxlu məsləhətə zidd tədbirlərə əl atırlar və ləyaqətsiz mürəbbilər onun tərbiyəsi üçün nadürüst fikirlərlə üzünə cürbəcür zərər qapıları açırlar.

**Şeir**

Ey qoca! Yeniyetmə uşaqdan qafil olma
Ki, o yazığın başının qəzası çox çətindir.
Demə ki, onun dayədən əmdiyi süddür,
Cahil qadınların əlindən qan içir.

(İkincisi,) gözəllik dövrüdür. Əxlaqsız və hiyləgər lotular, pis niyyət sahibləri düzə oxşayan yalanlarla ona hiylələr gələrlər. Dostluq adı ilə ona nə kimi düşmənçiliklər edərlər.



**Şeir**

Ayüzlü gözəllərin surətlərinin dövrəsində bir xətt var
Ki, onları bəd nəzərdən iraq saxlasın.

(Üçüncüsü,) cavanlıq qüruru zamanıdır. Dilrüba gözəllərə və aldadıcı işvələrə eşq yetirməklə hər hansı bir sərvrəftarın cilvəsinə biqərar və qaniçən qəmzəsinə giriftar olar.

**Şeir**

Ey könül, səlamətlikdən ayrı düşüb,
Dilrüba gözəllərin eşqinə mübtəla oldun!
Səni mən gözdən qoruyum, yoxsa zülfdən,
Sənlə nə edim ki, yüz bəlaya düşdün?

(Dördüncüsü,) qocalıq dövrüdür. (Bu zaman) qüvvələr zəifləyir, dünya əndişəsi qüvvətlənir. Cahillərin əlindən qoca nə kimi cəfalar çəkər və həsrət qədəhindən nə qədər zəhərlər içər.

**Şeir**

İnsan cavanlıqda cahil, qocalıqda ağıllı olar,
Qocalaq zəiflik fəslidir, cavanlıq güclülük vaxtıdır.
Zəiflik həmişə ağılla, qüvvət isə cahilliklə olduğuna görə
Cavanlardan qocalara əziyyət yetməsi uzaq deyil.

Rind dedi:

– Ey Zahid! Hikmətdən, dediyin kimi, insanın üzünə dörd xətər qapısı açılmışdır. Bil ki, hər xətərdə bir nemət də qoyulmuşdur ki, bu nemətlər yaraya məlhəm və möhnətə əvəz ola bilər.

Uşaqlığın acizliyi dövründə hər iki dünyada asudəlik var. Gözəllik dövrünün bir cazibəsi vardır ki, insanı tay-tuşdan fərqləndirər. Cavanlıq qürurunda vaxtında rahətliyə çatdıran məhəbbət nəşəsi var. Qocalıq zəifliyində isə camaat içərisində qocaya ehtiram var.

**Şeir**

Əvvəldən axıra bizim təbiətimizin dörd fəslində
Allah hər əziyyətə müqabil bir nemət verib:
Acizliyə – asudəlik, gözəlliyə – cazibə,
Eşqə – məhəbbət zövqü, qocalığa – vüqar.

İndi de görüm, mən bu dörd xətərdən hansına çatmışam ki, onun nemətindən məhrum qalmayım?!

**Şeir**

Ey əhli-nəzər, öz vücudumdan qafiləm,
Öz varlığımdan xəbərim heç yoxdur.
Mənə göstər ki, dünyada kiməm?
Mənim vücuduma nədən xeyir və nədən şər gələr?

Zahid dedi:

– Ey Rind! Sən birinci xətərdən keçmisən, ikinci xətərə yetişmisən. Gözəllik rəqəmi üzünün səhifəsinə çəkilmişdir. Əgər bir kölgə sənin dalınca gəlsə, ondan uzaq olmağın lazımdır. Əgər aynadakı əksin sənə baxsa, gərək ondan acığın gəlsin. Tainki məclisdə meydan qızışdıran olmayasan. Rindlərin söhbətindən uzaqlaşasan ki, dostlarının sinəsi düşmənlərinin məzəmmətinə hədəf olmasın. Sənin rəftarın da dost və qardaşlarını utandırmasın.

**Şeir**

Gözəllik bir xəzinədir ki, ismət və iffət onun hasarıdır,
Qeyrət o hasarın qarşısında oğrudan qorunmaq üçün qarauldur.
Ədəb əhli odur ki, həmişə oğrunun qorxusundan
Hasarı qorumaq üçün qaraul saxlasın.

Rind dedi:

– Ey Zahid! Çətin bir məsələ dedin, müşkül bir yol göstərdin. Gözəllik dövrü zehin və fərasət qapılarını insanın üzünə açır və gözəllik dövranı nəfs və istəyin möhkəmlənməsinə müqəddimədir. O zaman hər kəmal sahibi adama rəğbət bəslər. O da onlarda nə görsə əxz eylər.

Aydındır ki, xoştəb adamlar, sahibməzaq kamillər camala müştaq olurlar. Əgər göyçək üzlü cavanlar və pəritələt gözəllər cahillərin tənəsindən və pis yola düşməkdən qorxaraq xoştəb adamlara yaxınlaşmasalar və kamil adamlar onlara tərbiyə verməsələr, yəqindir ki, gözəllik dövrü keçdikdən sonra nə bunların kəmal əxz etməyə istedadları olar, nə də onların qilüqal həvəsləri. Bununla da mərifət gözəlinin üzü təqlid pərdəsilə örtülər və heç kim heç kəsə elm və ədəbdən fayda yetirə bilməz.

**Şeir**

Nə qədər ki gözəlliyinə görə məqbulsan
Kəmal sahiblərindən yaxşı xasiyyətlər öyrən.
Elə tədbir elə ki, sənin gözəlliyin gün-gündən azaldıqca
Kəmalın artsın.

Zahid dedi:

– Ey Rind! Buna görədir ki, irfan mərtəbəsinə mindən bir adam çatır. Mərifət sahibləri nadir tapılır. Əgər dünyada bədnəzər, əxlaqsız adamlar bu tələni sevgililərin yolunda qurmasaydılar, bixəbər cahillər pak aşiqlərə bu töhməti vurmasaydılar, doğrudan da təmiz aşiqlərlə yoldaşlıq, niyaz sahibi ariflərlə yaxınlıq oğulları ataların ehtiyacından qurtarar və hamını onlar mürüvvətlərinə görə, özlərinə ata hesab edərdilər.

**Şeir**

O ayrılıq ki məşuq ilə aşiq arasındadır,
Fasiqlərin pis əməllərinin qorxusundandır.
Yoxsa hüsn eşqdən ayrılmaz,
İki müvafiqin arasında ayrılıq layiq deyil.

Rind dedi:

– Ey Zahid! Bil ki, gözəllik pakdır və natəmiz adamların sataşmasından uzaqdır. Gözəllik bir aynadır ki, hamını göstərir, istər düz adamlar, istər əyri adamlar öz simalarını onda görərlər.

Kim öz gözəlliyini saxlamağı bacarmasa, belə şərt var ki, onun gözəlliyi davam etməz. Pak gözəllik pak da eşq istəyir. Hər cins öz həmcinsinə meyil edər.

**Şeir**

Əgər paksan, ey hərif, zatı xəbis
Və nadürüst adamların ixtilatından qorxun yoxdur.
Natəmiz həriflər də adam tanıyandırlar,
Səni pak gördükdə pis gözlə baxmazlar.

Zahid dedi:

– Ey Rind! Madam ki sənin idrak qüvvən pak ilə napak arasında fərq qoyur, yaxşı ilə pisi bir-birindən ayırır, qorunmağı sənin fərasətinin öhdəsinə qoyuram, sənə səfərə getmək icazəsi verirəm.

**Şeir**

Kim ki pis və yaxşıdan xəbərdar ola,
Lazımınca işə vaqif ola,
Əgər qürbətdə dostu və qəmxarı
Olmasa da, nə qüssəsi var?

Rind dedi:

– Ey Zahid! Hərçənd müəyyən yol tutmağa və hərəkət etməyə taqətin yoxdur, mən hələ sənət əsərlərinə bələd deyiləm və dünyanı tamaşa etməmişəm, bir neçə qədəm şəhəri gəzmək üçün mənimlə gəl, dünya tamaşasında bir az mənə yoldaşlıq et ki, nə görsəm, onun keyfiyyətini səndən öyrənim.

**Şeir**

Xoşbəxt o adamdır ki, səfər etdiyi zaman
Gecə-gündüz arif bir müsahibi ola.

Hər nə ki sənət əsəri görsə,
Onların həqiqətini müfəssəl suratdə soruşa.

Zahid Rindin xahişini qəbul etdi, bir neçə qədəm onunla yoldaşlıq etməyi məsləhət gördü. Hər ikisi evdən çıxdılar, küçə-bazara düşdülər. Rində çətin görünəni Zahiddən soruşurdu. Birdən böyük bir imarətə çatdılar. Bura böyüklərin yığıncaq yeri idi. Padşahların rütbəsindən yüksək və günahsız insanların ürəyindən təmiz bir yer idi. Sevimli məhbubə kimi bəzənmişdi. Onu sevənlərin fəryadı göyə yüksəlmişdi. Minarələrinin hədsiz işvəli qəddi müəzzini fəryadə gətirmişdi. Tağlarının gözü xoş zövq abidlərin qərarını əlindən almışdı. Mehriban qaşı imamı nigaran qoymuşdu, minbərin hörükləri xətibin ayağını zəncirləmişdi.

Rind dedi:

– Ey Zahid! Bura haradır və bu şərəfli yerin adı nədir?

Zahid dedi:

– Ey Rind! Bu, Allahın evidir və səfalı sufilərin məbədidir. İblisin bu evə yolu yoxdur və bu evdə əyləşənlərə ondan (İblisdən) xətər yoxdur.

**Şeir**

Məscid İblisin fitnə və şərlərindən
Axşam-səhər xalqın əmin-amanlıq hasarıdır.
O adam İblisdən və onun şərindən asudədir ki,
Onun yeri gecə-gündüz belə bir hasardır.

Rind dedi:

– Ey Zahid! Bura ki Allahın evidir, sidqü səfa yeridir, bura o atanın yeridir ki, oğlundan xəbəri yoxdur və o oğlun mənzilidir ki, atasından qorxusu yoxdur. Sən ki hələ mənim xatirimi istəyirsən, bu evdə yurd salmağın çətindir. Mən ki hələ sənə bağlıyam, bu evdə mənzil tutmaqdan uzağam. Bir adam ki ev sahibini yaxşı tanımır, onun evinə necə girə bilər?

**Şeir**

Bu ev vəhdət, sidq və səfa evidir,
Əlaqələrdən uzaq, Allaha yaxınlıq məkanıdır.
Bizim hələ ki fikrimiz dünya ilə məşğuldur,
Bu evin arzusunda olmağa hələ ləyaqətimiz yoxdur.

Zahid dedi:

– Ey Rind! Fəsad əhli ilə oturub-durmaqdan və allahsızlara yaxınlaşmaqdan qabaq bu evə gəl, bu tayfanın söhbətlərinə rəğbət et. Bəlkə, bu tayfanın rəhbərlik işığı səni cəhalət qaranlığından qurtarsın və bu cəmiyyəti təqlid etmək səni məqsəd mənzilinə yetirsin.



**Şeir**

Bir məclis ki onda Allah feyzi saqidir,
Daima nəğməsi zikr, şərabı (Allaha) müştaqlıqdır,
Mümkündürsə, gir (bu evə) və bir qədəh iç ki,
Belə bir qədəhin nəşəsi həmişəlikdir.

Rind dedi:

– Ey Zahid! Bura kamillərin yeridir. Kəmal öyrənmək məktəbi deyil. Bu, vəslə çatmışların mənzilidir, vüsal yolu deyil. Əgər burada oturanlar nicat tapmışlardısa, ayıbdır ki, mənim küdurət tozum onların səfa səhifəsinə qonsun. Əgər (dünyaya) ürək bağlayandırlarsa, heyifdir ki, mənim günahsız nəfəsim onların ixtilatı təsirindən günahkar olsun.

**Şeir**

Əgər bu məclisin əhli fəzl və kəmal əhlidirsə,
Niyə bu cəhalətlə ora gedib utanaq?
Əgər hiyləgər, xudpəsənd və şərir adamlardılarsa,
Nə üçün gedib onların işinə şərik olaq?

Mənim məsləhətim budur ki, Allahın evindən gedim, özümə layiq iş və münasib bir mənzil axtarım.

Məsciddə sovməə əhlinin yığıncağı var,
Adam çox olduğundan mənə yer yoxdur.

Elə ki Rind (məscidə) girməyə razılıq vermədi, qoca onunla gəzməyə başladı. Tamaşa edib hər yerdən keçdilər, söhbət edib hər tərəfi gəzdilər. Birdən bir binaya yetişdilər ki, başı göylərə ucalmışdı. Zümzümə səsi oradan mələklərin ibadətgahına yetişirdi. Behişt bağından rəng almış bir bağça, qılmanlardan xəbər verən bir məclis idi. Sərxoşların səsləri, tərənnümləri sakitlik sevən beyni qədəh kimi doldurur, şərab içənlərin "nuş olsun, nuş olsun" səsləri əql axtaran dimağı qəflət yuxusundan oyadırdı. Saqi ləl kimi şərabı göstərirdi ki:

Əql cövhərinə satıram.
Mütrüb pərdə götürmüşdü ki,
Riyanı rüsvay etməyə çalışıram.

Xülasə, bura dünyadan əl çəkmiş və axirətdən əl üzmüşlərin yeri idi.

Rind dedi:

– Ey Zahid! Bu necə ürək açan yerdir. Eşitdiyim nə səsdir?

### Şeir

Bunlara baxmaq mənim huşumu başımdan apardı,
Ürəyimdə başqa bir dünyaya yol açdı.
Burada hamının rahatlığı və zövqü var.
Elə bil ki hamı Allahdan razıdır.

Zahid dedi:

– Ey Rind! Bura şeytan evidir, üsyankarlığın sərçeşməsidir. Bu evin sakinləri Allah rəhmətindən uzaqdırlar. Müxalifət etdiklərinə görə Allahın düşmənidirlər. Dünyada ağıllarının fəsadına görə məzəmmət olunurlar. Allahın hökmünə müxalifət etdiklərinə görə axirətdə də məhrumiyyətə düçar olacaqlar. Əgər Allahı tanımırlar və bu işi görürlər, Allahı tanımamaqdan pis nə var? Əgər Allahı tanıyırlar və qəsdən itaət etmirlər, onda qorxmaz üsyankarlardan da pisdirlər. Xoşbəxt o adamdır ki, onların yanına getməsin və bu pərişan dəstənin həmsöhbəti olmasın.

### Şeir

Bu tayfa Allahın rəhmətindən uzaqdır,
Allahın və xalqın feyzindən kənardadır.
Allahın göstərdiyi yol ilə getmir,
Ya gözlü həyasız, ya da kordur.

Rind dedi:

– Ey Zahid! Bu evə şeytan yeri dedin və bu evin sakinlərini günahkar saydın. Bu nə hikmətdir ki, Allah öz qüdrəti ilə düşmənlərinin evini belə abad saxlayır?

İlahi qüdrəti olduğu halda bu mürtədlərin cəmiyyətini dağıtmır. Onlara möhlət verir ki, istədikləri kimi rahətlik etsinlər və həmişə itaət şüşəsinə daş atsınlar, daima günah əməllərin hücumu ilə pəhrizkarlığın cəlalını pozsunlar.

### Şeir

Gördüm bir rind saqidən şərab istəyir.
Dedim: Sənin bu işin Allahın hökmünə müxalifdir.
Dedi: Biz hər işi Allahdan bilirik,
Bizim muradımıza çatmağımız onun icazəsi deməkdir.

Zahid dedi:

– Ey Rind! Özünü gözlə, bu etiqadla yoldan çıxmayasan və asilərin əfsanəsinə aldanmayasan. Bil ki, bunların günahlarına Allahın səbri qəzəb dəlillərini möhkəmləndirmək üçündür. Allahın onları cəzalandırmaqdan əl saxlaması əzaba layiq olmalarını isbat etmək üçündür. Gözəl iş Allahın əmrinə itaət etməkdir. Pis əməl xəta yola getməkdir. Sərxoşların ki ağlı yoxdur, pisi yaxşıdan ayıra bilmirlər.

### Şeir

Ey pak ürəkli, sən ki zəmanə əhlindənsən,
Ya güzəran üçün, ya da axirət üçün çalış.
Şərab içib hər iki dünyadan qafil olmaq
Aydındır ki, axırda nə nəticə verə bilər?

Rind dedi:

– Ey Zahid! Əgər bu tayfa ilə oturub-durmusan və onların şərabını içmisən, deməli, öz bəd əməlini etiraf edirsən və sözlərinin etibarı yoxdur. Əgər onlarla oturmamısan, təhqiq eləməmiş adamın sözlərindən doğruluq qoxusu gəlməz. Nə dəlillə öz sözlərinin doğru olduğunu sübuta yetirə bilərsən? Bu dediklərinin öhdəsindən necə gələ bilərsən?

### Şeir

Əgər şərab içənsən və şərabı pisləyirsən,
Utanmalısan ki, öz işinin eybini söyləyirsən.
Əgər şərabı dadmamısan və şəraba pis deyirsən,
Ayıbdır ki, çiy söz danışırsan.

Zahid dedi:

– Ey Rind! Şərab içənlər barəsində Allahın hökmü kafi bir dəlildir və Allah əhlinin ondan ikrah etmələri sənə kafi cavabdır. Bir xəbisi ki Allah haram edir, imtahana nə ehtiyac? Bir cəmiyyəti ki öz dərgahından qovur, onlarla ixtilat və onlara yaxınlaşmaq layiq deyildir.

### Şeir

Bir halda bəşər böyük Allahın
Sadiq kəlamını rəhbər tutur.
Biz hara, təcrübə etmək hara,
Haqq söz pisi və yaxşını fərqləndirir.

Rind dedi:

– Ey Zahid! Sən güman ilə Allah xalqına töhmət eləmə, xəyal ilə insaf riştəsini əldən vermə, sən nə bilirsən ki, (onların içdiyi) şərab "şeytanın murdar əməlindən" bulanan şərabdır? Bu şərab içənlər o adamlardır ki, onların sərxoşluğundan ülvi ağıl əskilir? Bəlkə, bu şərabın hər damlası cəhənnəm odunu söndürməyə səbəbdir? Və bu tayfanın oxuduğu hər nəğmə ülvi aləmin Allaha etdikləri zikrdən ibarətdir?

### Şeir

Qədəh qaldıranların rümuz dəryasının dibi yoxdur,
Şərab içənlərin sirr pərdəsinə yol yoxdur,
Kim ayıqdırsa, şərabın nə olduğunu bilməz,
Sərxoş olduqdan sonra öz halından xəbəri olmaz.

Zahid dedi:

– Ey Rind! Bu dediklərin Allah şövqü bəzmində şərab içənlərin rütbəsidir, faydasız xumarların yox. O, maarif aləminin mənasını anlayanların şivəsidir, dünya viranəsinin zahirpərəst adamlarının işi deyil. Abi-həyatı zəhər adlandırma. Haqq sözə batil adı vermə ki, insanın nəfsi özünə təsəlli vermək üçün hər pisə yaxşı adı qoyar və xəta işi öz xeyrinə çevirməklə nicat müjdəsi verər. Nə özüm bu məclisə gedirəm, nə də sənə öz ixtiyarımla icazə verərəm.

Mən hara, xərabat yolu hara?

Bu məsləhət mübarək deyil. Əgər sən bunu arzulayırsansa, "Bu səninlə mənim aramda bir ayrılıqdır"[1].

Rind dedi:

– Ey Zahid! Bu məsələdə haqq sənin tərəfindədir. Çünki meyxanəyə rəğbət etmək sənin adətinin əksinədir. Bu adətin əksinə iş görmək ən böyük müsibətdir. İndi ki qeyd tozu sənin etibar aynanı tutub və təqlid zənciri getmək ayağını bağlayıbdır, səninlə bu camaat arasında tam bir əkslik vardır. Sən onlara nifrət etdiyin qədər onlar da səndən qaçırlar. Amma mən bu cəmiyyətin təbiətini imtahan məhəki ilə yoxlamayınca və onların üzündən şübhə pərdəsini açmayınca, mahaldır ki, təqlid xatiri üçün onların söhbətindən uzaq olam və onların məclisindən kənar gəzəm. Bir saat bir guşədə otur, iztirabın əvəzinə səbr et, ta mən içəridəkilərin halını mülahizə edim, az müddətdən sonra əhvalatı öyrənib oradan çıxım.

### Şeir

Ey pak gövhər, mən bir səfərə mail olmuşam,
(Bu) səfərdə ağıl sərmayəsi mənimlə yoldaşdır.
Ümidvaram ki, bu səfərdən zərər çəkməyəm,
Həm sərmayəni, həm də mənfəəti nəzərə alam.

Zahid Rindin istedadına etimad etdiyindən həddi-büluğa çatdığına görə günaha mürtəkib olmayacağını nəzərə alıb onun meyxanəyə girməsinə icazə verdi.

Rind rindlər kimi meyxanəyə qədəm qoydu. Meyxanənin yuxarı başında bir qoca gördü. Qoca meyxanəni öz vücudu ilə zinətləndirmişdi. Hər kim hər nə istəyirdi ondan ala bilərdi. Bu qoca camın güzgüsündən bixəbər məstlərə gah kainatın əhvalından xəbər verir, gah mütrüb nəğməsində dünyanın sirr pərdələrini açırdı.

[1] "Quran"dan götürülmüş bir ifadədir.



Gözəlləri gözəlliyin həmişəlik olmamasından xəbərdar edir və aşiqlərin məhəbbətini onların ürəyinə salırdı. Saqilərə dövrün tez keçməsindən xəbər verir və sürur qədəhlərini gəzdirməyi onlara tapşırırdı.

### Şeir

Batini aydın, ürəyi saf bir qoca,
Onun rəyi hər müşkülü asan edirdi.
O, təhqiq xəzinəsinin açarını göstərən idi,
Sirlər gövhərinin xəzinəsini açan idi.
Onun böyük adı eşqin zinəti idi,
Ağıl ona bəndə olduğu üçün fəxr edirdi.
Onun nəzəri qədəhi mərğub etmişdi.
Onun himməti üzüm tənəyi kimi hər kəsi
Torpaqdan götürüb ləl sahibi etmişdi.

Elə ki Rindin gözü qocanın nurani üzünə düşdü, fəsih dil ilə salam verdi. Qoca məhəbbətlə salama cavab verdi. O təzə açılmış çiçəyi görəndə gül kimi açıldı və dedi:

– Ey cavan, nəzərimə qərib gəlirsən. Nə istəyirsən, haradan gəlirsən? Əgər yolunu itirmişsən, yol göstərməyə başlayım. Əgər bir başqa ehtiyacın var, buyur, yerinə yetirim.

### Şeir

Ey uşaq, bizim əqidəmizdən xəbərdar deyilsən,
Güman edirəm, səhvən bura yolun düşüb.
Əgər yolu səhv edibsən, budur düz yol,
Əgər bizi istəyirsən, otur, bismillah.

Rind dedi:

– Ey qoca! Mən bir müşkül işə düşmüşəm və heyrətdəyəm. Deyirlər, meyxanə şeytanın şərarətləri ilə dolu bir yerdir. Şərab isə insanın itaət evinin bünövrəsini xarab edən bir cinsdir. Kim Allaha yaxınlaşmaq istəyir, gərək bu evdən uzaqlaşsın. Kim ki itaət feyzi ilə xoşbəxt olubdur, bu cinsə yaxınlaşmağa nifrət etməlidir. Çox təəccüb edirəm ki, sən bu ağlınla belə məclisdə olmağa rəğbət bəsləyirsən. Bu zirəklik və kamilliklə bu cins ilə ünsiyyəti bəyənirsən.

### Şeir

Meyxanə fitnə, fisq və şər məqamıdır,
Mey insanın ağlının pozulmasına baisdir.
Təəccüb edirəm ki, bu yaman fəsadlardan
Sənin kimi müdrik necə xəbərsizdir?

Qoca dedi:
– Ey uşaq, o yerin sifətlərini mən də eşitmişəm, o cinsə (şəraba) baş vurub dərinliyinə mən də çatmışam. Təriqət yolunu gedənlər o yeri fəsad evi adlandırır. Həqiqət fənlərinin arifləri o cinsi fəsad xəmirmayəsi hesab edirlər. Allaha şükür ki, mən oraya ayaq basmamışam, o cəmiyyətin tələsinə düşməmişəm. Hansı bədbəxtdir ki, gözəl ağlını və anladığını o cinslə məşğul olub əldən versin? İki dünyanın ziyankarlıq dağını özündən xəbərsizlik atəşi ilə öz ciyərinə bassın?

**Şeir**

İnsan şərəfinin kamalı ağıldır,
Ağıl Allahı tanımağın əsasıdır.
Hayıfdır ki, bu ali binanın bünövrəsi
Şərab selindən xarabaya çevrilsin.

Rind dedi:
– Ey qoca! Bu yer ki varındır, nə yerdir və camında olan bu cinsin adı nədir? Burada oturanları iki dünyadan asudə və bu cinsə mürtəkib olanları sirləri anlamaqda bacarıqlı görürəm.

**Şeir**

Şərab həmişə fitnə-fəsadın mənşəyidir,
Onun üçün şəriətdə haram olub.
Ey saqi, sənin qədəhin fitnələri aradan qaldırır,
Şərab deyil, bəs bu qədəhdəki nə cinsdir?

Pir dedi:
– Ey uşaq! Mənim mənzilim şəfa evidir. Onda dərd əhlinin dərdlərinə dərman tapılır. Bil ki, ruhun bir qorxulu xəstəliyi var, o da şeytanın vəsvəsəsidir. Vəsvəsənin də maddəsi cismani ləzzətlərin və heyvani şəhvətlərin möhkəmlənməsidir. Bu xəstəliyin əlaməti budur ki, insan bir an da dünya qəmindən asudə olmayıb, həmişə fikirdədir. Bəziləri cənnət nemətləri, huri-qılman arzusu ilə qərəzli ibadətlə və yalandan itaətlə məşğuldurlar. Bu onları həqiqətdən və həqiqəti öyrənməkdən uzaq salır. Bəziləri isə cah-calallarını və mal-əmlakını çoxaltmaq məqsədi ilə yanlış tədbirlərə və yalan fikirlərə düşürlər, əsl məqsəddən məhrum olurlar. Allaha şükür ki, bu xəstəlikləri müəyyənləşdirmək qapıları mənim üzümə açıqdır. O xəstəlikləri müalicə etmək mənim tədbir şərbətimdədir. O əhli-dərddən hansını xoşbəxtlik mənim yanıma gətirsə, onu sağaltmağı mənə tapşırsa, xarab dünyanın əlaqələrindən pəhriz verməklə faydalı şərab şərbəti ilə onun beynini və vücudunu sağaldaram. Sonra sazın ruh oxşayan səsi və gözəllərin ruhpərvər sözlərindən ona yedirərəm, tainki halı az bir müddətdə düzələr, iki dünyadan da əl götürər, dostdan, dostluqdan başqa bir şey axtarmaz. Allahın mülkündə Allah yolundan başqa bir yola getməz.



**Şeir**

Axirət işlərinin fikri cana bir dərddir,
Dünyanın işləri ürəyə bir yükdür.
Sərxoşluqda elə ki ağıldan (yaxanı) qurtarırsan
Xoşbəxtsən ki, həm dünyadan, həm axirətdən (canını) qurtarırsan.

Rind dedi:
– Ey qoca, dərdliyə dərman müjdəsi verdin. Ürəyi yaralının yarasına məlhəm qoydun. Bunu bil ki, indiyə qədər asudəlikdən başqa bir işim yox idi və dünyanın bütün varlığını yoxluq güman edirdim. Bir neçə gündə etibar sahiblərinin nəsihəti və dünya əhlinin tənələri nəticəsində həm dünya dağdağəsindəyəm, həm axirət qorxusunda. Nə gündüzlər dünya fikrindən bir iş görə bilirəm, nə də gecələr axirət fikrindən asudəçiliyim vardır. Sən Allah, bir çarə tap, məni bu təhlükədən qurtar. Hər kimə dedim, xəstəliyimi anlamadı, layiqincə çarə etmədi.

**Şeir**

Dünya fikri ürəyimdən rahətliyi almışdır,
Axirət qorxusu məni arıqlatmışdır.
Hər kəsdən bu işin çarəsini soruşdum,
Onu özümdən yüz dəfə biçarə gördüm.

Qoca dedi:
– Ey Rind, bil ki, insan təbiəti anlamaq dərəcəsinə çatsa və insanın nəfsi dünya varlığı ilə əlaqəyə girsə, o zaman əgər bu od söndürülməsə və əksinə, daha da qüvvətlənsə, onu söndürmək çətin olar, dünya və axirət səndən təngə gələr. İndi sən gərək etibar axtaran zahidlərlə görüşməkdən çəkinəsən, dünya sevən sərxoşlardan uzaqlaşasan. Bir sevgiliyə tamaşa etməklə dünya işlərindən rahat və bir qədəh şərabın nəşəsi ilə axirət qorxusundan xəbərsiz olasan.

**Şeir**

Əgər bu xarabə dünyada meyil etməsən,
Axirət qüssəsi ürəyinin tabü təvanını almasa,
Əzab və hesabdan təkcə sən yox,
Dünya əzabdan, axirət hesabdan qurtarar.

Rind dedi:
– Ey Qoca! Mehriban sözlər dedin. Rahətlik incilərini deşdin. İndi ki mənə nicat vədi verdin, intizarda qoyma.

### Şeir

Saqi, elə bir şey ver ki, məndən qüssəni aparsın,
Məni varlıqların qüssə-qeydindən qurtarsın.
Sinəmdə varlıqların nəqşləri dəyişsin,
Yalnız dəyişilməyən nə varsa, o qalsın.

Qoca onun təbiətində irfan istedadını gördükdə gülüzlü bir saqiyə işarə elədi və söylədi:
– "Dərdin dəfi üçün ruh cilalandıran şərbəti ver və qəmzə neştəri ilə onun kirpiklərindən qan al, şövq dərmanından bir qədər onun şərbətinə qat, ürəyəyatan nəğmə qidası ona ver ki, yavaş-yavaş zahirdən etiqad əlaqəsi kəsilsin, mənaya yaxınlaşsın və rabitə tellərini məcazdan qırıb həqiqətə bağlasın."

### Şeir

Xoş onun halına ki, qüssə aparan şərabdan içir,
Bir ləhzə ağıl vəsvəsəsindən ayrılır.
Allaha yaxınlaşmaq özgələrdən tam ayrılmaqdır,
Anla ki, ayrılıqda Allahın nəqşi vardır.

Saqi piri-muğanın göstərişi ilə al şərabdan bir udum məhəbbət şərbəti ilə qarışdırıb incəliklə Rindin əlinə verdi. Rind onu hərifanə dodaqlarına yaxınlaşdırdı. Elə ki şərabın nəşəsi utanmaq pərdəsini aradan götürdü və eşq sultanı onun vücudunda zühur bayrağı qaldırdı, Rindin gözü nurani bir aləm müşahidə etdi. O, bir bağa tamaşa etməyə başladı. O bağda şənlik üçün nə qaranlığın küdurətindən bir qorxu var idi, nə də hadisələrin xəzanından o bağçaya bir zərər. Oğlan təzə açılmış bir gül kimi açıldı və dedi:

### Şeir

Ey fələk, mənə çox kin bəslədin,
Üzümə məhrumiyyət qapıları açdın.
Gördün ki, muradsızlıq mənə aciz etmir,
Axırda aciz oldun, məni muradıma çatdırdın.

Xülasə, rindlərin söhbəti Rində o qədər yaxşı təsir etdi ki, Zahidin yanına getmək qapılarını bağladı. Zahid bildi ki, Rindin başına bir iş gəlib. Şeytan hiyləsi onun yolunda tələ qurub, atalıq hissi onu qeyrətə gətirdi və meyxanəyə getməyi onun gözündə əhəmiyyətsiz etdi. Həyəcanla meyxanəyə tərəf qaçdı və Rindi şərab içənlərin cərgəsində gördü.
Zahid dedi:
– Ey Rind! Axır şeytana aldandın, bizim abrımızı apardın.



### Şeir

Əfsus ki, fələk məni səndən naümid etdi,
O işi ki səndən görməmişdim, gördüm.
Qorxurdum ki, gedəsən, mənim yanıma qayıtmayasan,
Ondan ki qorxurdum, başıma gəldi.

Rind dedi:
– Ey Zahid! Sən məni fasiq şərab içənlərə qoşulmağa qoymurdun, bura pak rindlərin məclisidir. Sən mənim xəbis çaxır içməyimə mane olurdun, bu, canpərvər bir kimyadır. Bir saat otur və bu tayfanın rəftarını gör. Bəlkə, düşündüyün işin tərsini görəsən və təsəvvür etdiyinin əksinə bir iş mülahizə buyurasan.

### Şeir

Həqiqət qabıq içərisində olan məğzdir,
Dostu düşməndən fərqləndirmək çətindir.
Çox adam var ki, yaxşı hesab edirsən, əslində, pisdir,
Çox iş var ki, pis bilirsən, əslində, yaxşıdır.

Zahid dedi:
– Ey Rind! Bu oyunlar şeytanın hiyləsidir və nəfsani ləzzətlərin oyuncağıdır ki, pisi yaxşı təsəvvür etmisən və etdiyinə də etiqadın var. Əgər şeytan belə bir haram oyunu halal göstərməsə, ağıllıların öhdəsindən gələ bilməz. Bil ki, hər kəs ki pis iş görür, onu yaxşı bilir və pis işi yaxşı işdən fərqləndirə bilmir. İndi ki sən meyxanəni ibadətgah fərz etmisən, bu elə onun şahididir, içkini hal mənşəyi təsəvvür etdiyin də bu dediyimə dəlalət edir.

### Şeir

Şeytani-şərirə şərabdan yüz kömək yetişər,
Çünki şərab ağıl çöhrəsinin örtüsüdür.
Bədəmələ bütün pis işlər yaxşı görünür,
Əgər bilsə ki, pisdir, heç vaxt onu eləməz.

Rind dedi:
– Ey Zahid! Sən meyxanəni İblis evi bilirsən, şərabı fəsad aləti sanırsan. Bu düz deyil! Şeytanın tələsi hirs və qürurdur. Bu da meyxanədə oturanlardan uzaqdır. Şeytanın fəsad aləti ikiüzlülük və riyadır. Bunlar isə şərab içənlərin məsləkində xətadır. Əgər bu evi Allahdan xali hesab edirsən, onda Allahı hər yerdə hazır bilmirsən. Əgər Allahın burada olmağını etiraf edirsən, Şeytanı kinayə ilə Allaha şərik hesab edib, dilinə gətirirsən.

**Şeir**

Şeytan Allahdan həmişə qaçar,
Hər yerdə ki, Allah var, Şeytan yoxdur,
Allahı unutmasan, Şeytandan qorxma,
Şeytanla həmsöhbət olmaq onu (Allahı) unutmaqdır.

Zahid dedi:

– Ey Rind! Madam ki Allah hər yerdə hazırdır və hamının işinə nəzarət edir, bəs nə üçün ədəbə riayət etmək bəhanəsi ilə abidlər ibadətxanası olan məscidə ayaq basmadın, amma meyxanə ki qafillərin yığıncağıdır, ora gəldin və fəsad sahibləri ilə oturdun? Orada nə eyib gördün? Burada gözəl nə eşitdin? Əgər səni İblis aldatmayıbsa, niyə məscidi qoyub meyxanəyə getdin?

**Şeir**

Bütün şərab sevənlər və qürur sərxoşları
Allahı tanımaqdan qafildirlər.
Əgər məscid əhli faydasızdırsa,
Meyxanədə oturanlardan nə fayda var?

Rind dedi:

– Ey Zahid! Fikir elədim, gördüm ki, məsciddə oturanlar özlərinə məğrurdurlar, meyxanədə məskən edənlər isə özlərindən xəbərsizdirlər. Məsciddə oturan abidlərin ibadətə olan etimadları onları məğrur etmiş, meyxanə qafilləri öz xətalarını etiraf etməklə qəflət yuxusundan ayılmışlar. Orada həqq surətində bir xəta gördüm. Burada əzab paltarında bir səvab gördüm. Etiraf edən günahkarların bağışlanmağa ümidləri var. Məğrur abidlərdə üsyan qorxusu var. Mən də üzümü qorxu mərhələsindən ümidə doğru çevirdim. Özümü yoxluq zəncirinə bağlayıb varlıq əlaqəsini üzdüm.

**Şeir**

Məscid əhli hamısı qalmaqal, mübahisə əhlidir,
Onların söhbətinə rəğbət göstərmək ağıla haramdır.
Meyxanə əhli hamısı özlərindən xəbərsizdir,
Mən o yeri xoşlayıram ki, orada heç kəs öz adını dilə gətirmir.

Zahid dedi:

– Ey Rind! İnsanın işləri gərək ya dünya əhvalı ilə uyğun olsun, ya da axirət. Şərabın keyfiyyətində həm onun (dünyanın) işini unutmaq var, həm də bunu (axirəti) ələ gətirməkdən məyusluq. Təəccüb edirəm ki, insan öz ağıl şərəfi ilə heyvanlardan üstün olması ilə fəxr etdiyi halda nə üçün öz iftixar vasitəsini aradan qaldırmağa çalışır. Elə bilirəm ki, Allah şərabı



haram etməsəydi, heç kəs ona rəğbət etməzdi. Yəqin ki, şərab içmək nəfsin tələblərinə tabe olmaq cəhətindəndir. Bəlkə də, Allahın hökmünə müxalif olmaq üçündür.

**Şeir**

Bir şey ki Allah səni ondan çəkindirir,
Ona niyə bihudə yerə rəğbət edirsən?
O səni özünə müxalif gördükdə
Əlbəttə, səndən razı qalmayacaqdır.

Rind dedi:

– Ey Zahid! Bilirəm ki, mey haramdır. Xüsusilə o səbəbdən mənim ona tam rəğbətim vardır. Ona görə ki, zalım nəfsdir məni bəla toruna salıb və öz istəyinə görə Allaha itaət etməkdən məhrum edibdir. Mən ondan intiqam almaqda acizəm. Həm də günah etdiyinə görə ona əzab vermirəm ki, Allah mənim heyfimi alsın və mənə zülm edəni əzaba giriftar etməklə məni rahat buraxsın.

**Şeir**

Nəfsdir ki, xalis şərab həvəsindədir,
Mənim üzümə xeyr qapısı və savab yolunu bağlayıbdır.
Mən də belə bir aşkar zülmün əvəzi olaraq
Onu xəta işə yönəltməklə əzab əhli edirəm.

Belə ümid edirəm ki, əgər itaət əhli Allahın rəhmətinin güzgüsüdürsə, günah edənlər də Allahın bağışlamaq sifətinin məzhəridirlər. Yəqin ki, bağışlamaq günahla bağlıdır, deməli, günah əhli bağışlamaq zəncirini hərəkətə gətirir.

**Şeir**

Nə qədər ki bəndə üsyan və pis işlərdən uzaqdır,
Bağışlanmaq (sifəti) qeyb pərdəsində gizlənibdir.
Bağışlanmaq insana günahdan hasil olar,
Kim ki günah edir, o bağışlanar.

Buradan günahın faydası səvabdan artıq görünür. Odur ki günah təbə daha xoş gəlir, çünki günahkar öz işinin cəzasına yetişərsə, ədalət meydana çıxar. Əgər bağışlanarsa, bağışlanmaq məzhəri olar.

**Şeir**

Səvab əhli nə qədər ki rəhmətə yaxındır,
Bunlar qiyamət günü bir sifətdə görünəcəklər.

Amma günah əhlində iki sifət zahir olur:
Əzab vaxtı – ədalət, bağışlanmaq zamanı – məğfirət.

Zahid dedi:
– Ey Rind! Doğrudur, məğfirət (əfv etmək) xəta baş verdikdə mümkündür və bağışlamaq pis işlər üçündür. Şərt odur ki, pis işlər səhvən və ya naçarlıqdan ola və nəfs ondan tövbə edə, təəssüf edərək üzr istəyə. O adamlara təəccüb edirəm ki, bəd əməlləri özlərinə peşə ediblər və Allahın əmr və nəhyinə xilaf iş görürlər və bağışlanmaq bağından da bir gül dərmək istəyirlər.

**Şeir**

Kim ki bilmədən bir günah etsə,
Bağışlanmaq qapısına yol tapa bilər.
O ki bağışlanmaq ümidi ilə qəsdən günah edir,
Ahü fəryadı faydasız olacaq.

Rind dedi:
– Ey Zahid! Sən ümidsizlərin sözünü dilinə gətirdin və məhrumların əfsanəsini danışdın. Bil ki, bağışlanmaq günahın əndazəsicədir. Necə ki rəhmət ibadət qədricədir. Qəsdən günah edən adamın təqsiri unudub günah edən adamın günahından artıqdır. (Lakin) məlumdur ki, məğfirət ondan da artıqdır. Əgər "Adlar elmi"nə bələd olan Adəm əleyhissəlam Allahın bağışlamaq feyzini anlamasaydı, xəbərdarlıqdan sonra qadağan olunmuş ağacın meyvəsini yeməzdi. Halbuki meyvə yeməklə bir günah işlədi, bununla da bağışlanmaq gözəlinin üzündən pərdəni götürdü.

**Şeir**

Biz günah əhliyik, günah bizim zinətimizdir,
Günahsız olmaq bizə mümkün deyildir,
Biz günahdan o qədər də ar etmirik,
Bu iş bizim ata-anamızın şüarıdır.

Zahid dedi:
– Ey Rind! Fasidlərə iqtida edirsən. Batil dəlillər gətirirsən. Batilləri təqlid edərək mənim moizələrimi rədd etmək istəyirsən. Olmaya sənin bu halətin bir günah və itaətdən boyun qaçırmağa bais ola və cahillər də sənə baxıb dərs alalar, sənin kimi onlar da pis işləri yaxşı biləlalər. Bunlar nəticədə sənin günahlarının artmasına səbəb olar, sənin xətalarını da artırar.

**Şeir**

Dünyada Allaha müxalif bir iş görmə,
Əgər görsən, gizlət və heç kəsə demə.



Xəta yollarını cahillərə öyrətmə,
Onlara rəhbərlik etmək pisdir, bunu etmə.

Rind dedi:
– Ey Zahid! Aləm mülkünün iş başında duranları və insan məişətinin tədbir tökənləri elmcə məndən ucadırlar və qüdrətləri məndən artıqdır. Madam ki növbət nağarası və saz səsi eşitməyə, meyxanə binası qoymağa, dünya əhlinə sərxoşluq və nəzərbazlıq etməyə icazə verirlər, buna sənin tənə vurmağından nə fayda, ya mənim nəsihətimdən nə çıxar? Qadağan olunmuş şeylər əksərən haramdırsa, müxtəlif tayfaları birləşdirmək cəhətindən dünyanın intizamına da səbəbdir.

**Şeir**

Şəriət haram işləri rədd edibdir,
Şəriətin güzgüsünə onlar qara ləkədir.
Amma nə eyləmək, dünya nizamının tədbiri
Bu günahlara tutulmağa hamıya icazə veribdir.

Zahid dedi:
– Ey Rind! Meyin eybi hamıya aşkardır. Onun qəbahətini deməyə ehtiyac yoxdur. İndi ki sən onun keyfiyyətindən xəbərdar oldun və onun nəşəsini gördün, bu gizli sirdən pərdəni götür. Onun mənfəətlərindən danış. De görüm, onun faydası nədir ki, onun xatirinə insan Allaha düşmən olsun?! Onun mənfəəti nədir ki, insan onun üçün şəriətin hökmlərindən çıxsın?

**Şeir**

Allah şərabın eybini söyləmişdir, o, mənfəət üçün bir günahdır.
Onun bu eybi bəsdir ki, insanı ağıldan ayırır.
Şərabın hünəri nədir ki, ona görə xalq
Həqiqətdə Allaha düşmənçilik edir?

Rind dedi:
– Ey Zahid! Şərabın mənfəətində Allahın kəlamı gizli pərdəni onun aydınlıq üzündən götürmüşdür. Şərabın faydalarını deməyə nə ehtiyac var? Hikmət əhlinin şərabın faydasındakı mübaliğələri həqiqət aynası üstündəki tozu silmişdir. Onu dil ilə deməyə ehtiyac yoxdur. Allahın işləri ilə məşğul olanların, yəqin ki, şərab heç yadlarına da düşmür. Allaha itaət etməkdən qafil olanlar isə məlumdur ki, pis işlər etməyə meyil edirlər. Bundan yaxşı nə ola bilər ki, şərab onların ağıllarını əllərindən alsın və dünyanı onların fəsadından qurtarsın?!

**Şeir**

Ey fikri pis iş görməkdən ibarət olan kimsə,
Sənin hərəkətlərin Allahın razılığından kənardır,

Sənin huşyar olmağın şər və fəsad törədir. Belə isə sənin
Şərab içib sərxoş olmağın ayıqlığından yaxşıdır.

Xülasə, şərab ruha səfa verir, nəfsin qüvvələrini artırır, cismin əzasını tərbiyə edir. Ən böyük faydası budur ki, beyni duruldur, onu könülaçan nəğmələri anlamağa qabil edir və xoş nəğmələr ləzzəti diyarına atır.

**Şeir**

Şərab şüur aynasının tozunu silir,
Bunun şahidi xoş nəğmələrə olan həvəsdir,
Tutqun beyni küdurətdən təmizləyir,
Odur ki sərxoş yaxşı nəğmələr istəyir.

Zahid dedi:
– Ey Rind! Şərabın tərifində xəyal etdiklərin onun məzəmmətidir. Badə tərifində gətirdiyin dəlillər onun təhqirinə aiddir. Deyirsən ki, mey sazı dərk etməyə sövq edir. Bu məqbul deyil, bəlkə, rədd edilməlidir. Çünki saz oyun və qafillik badəsidir və veyil cahillərin istədiyi şeydir. Nə həqiqət əhli ona nəzər salar və nə təriqət əhlinin ürəyində ondan bir əsər olar. Bir şeyi ki şəriət rədd edir, öz-özlüyündə itaəti yaddan çıxarır, təəccüb edirəm, nə üçün onu bəyəniblər? Belə günaha mürtəkib olmaq müqabilində ondan nə mənfəət görüblər?

**Şeir**

Sazın keyfiyyəti yalnız şadlıq və xoşluq üçündür,
Əslində, bu fəsad ağlı və ədəbi ortadan qaldırır.
Ona rəğbət etmək nöqsandan başqa bir şey deyil.
Əhli-kamalın ona rəğbət etməsi çox təəccüblüdür.

Rind dedi:
– Ey Zahid! Ürəkaçan nəğmə səma eyvanının kəməndidir. Xoş avazlar uca aləmin nərdivanıdır, ruha halın məbdəindən xəbər gətirir, onu cismani əlaqələrdən qurtarır. Onun məqamlarının hər şöbəsi bir sirr pərdəsidir və hər nəğməsi Allah dərgahına bir niyazdır. Bu ləzzətlərə meyl etmək idrak üçün zəruridir. Buna şövq göstərmək pak təbiətli adamların xasiyyətidir. Saz nəğməsi və xoş səsin şərəfinə bu bəsdir ki, halsız və ürəyi sönmüş adamların canına ürək yandıran eşq odu salır, qafilləri eşq dərdinin nəşəsindən xəbərdar edir.

**Şeir**

Lətif səslər eşqin təhrikinə səbəbdir,
Xəbərsizlərə eşqin xəbəri saz ilə yetişir.
Eşq bir gizli sirdir, saz ilə aşkar olur.
Həqiqət budur ki, o sirr saz pərdəsinin arxasındadır.



Zahid dedi:
– Ey Rind! Eşqi zahir etmək üçün sazı faydalı bilirsən, bu, düzgün mülahizə deyil. Gözəl səsi, həvaü həvəsi təhrik etdiyinə görə yaxşı hesab edirsən. Bu, münasib fikir deyil. Çünki eşq yaxşılıqla məruf olanları bədnam edəndir, axırı qaragün olan bədbəxtlərin şivəsidir. Heyif o adama ki, ixtiyarını həvaü həvəsin əlinə verir və üzünü salamət küçəsindən məlamət küçəsinə çevirir. Təəccüb edirəm ki, onun pisliyindən xəbərdar olan xoştəb adamlar ona necə həvəslənirlər. Eşqin məlamətindən xəbərdar olduqları halda onu nə üçün tərifləyirlər, ondan nə mənfəət görüblər? Ondan nə fayda eşidiblər?

**Şeir**

Hikmət əhli eşqin əsasını sevda bilir,
Kim sevdanı şüar etsə, dəlidir.
Dəli aşiqin ürəyində eşqin həvası
Viranədə əsən bir külək kimidir.

Rind dedi:
– Ey Zahid! Sən məcazdan danışırsan, həqiqət yolu ilə getmirsən. Bil ki, eşq bəşər vücudu sədəfində Allahın əmanəti olan bir gövhər və insan nəfsi-natiqəsinin həqiqətidir. Kainatın binası onunla əsaslanır. Əqli-küll ixtiyarı ona tapşırır. Eşqin sifətlərə ehtiyacı yoxdur. Məşuqu keyfiyyəti-zat adlandırırıq. Eşqin şöhrətə və hörmətə malik olması üçün bu kifayətdir ki, gözəllərin hüsn cilvəsindən xəbərdardır və sevgililərin camalını müşahidə etməklə biixtiyardır.

**Şeir**

İnsan yaranmışların "ən gözəlidir"[1] və hüsni-surəti
Allahın qüdrəti və sənətkarın ən gözəl əsəridir.
Eşqə eşq olsun ki, ona məhəbbət gözü ilə baxmasan
Qüdrətin sənəti zaye olar.

Zahid dedi:
– Ey Rind! Eşqin gözəllər hüsnünə münasibəti onun eybidir, tərifi deyil. Məhbubların camalına vurulmaq peşmançılıq gətirər, tərbiyə verməz. Çünki gözəllərin hüsnünə baxmaq yaxşı ürək sahiblərinin ağlı üçün fitnədir. Məhbubların camalına tamaşa etmək kamillər üçün nöqsandır. Kim bir gözələ əlaqə nəzəri ilə baxsa, özünü aləmdə rüsvay edər. Hər biçarə ki bir gözəlin məhəbbət camından bir içim nuş etsə, dünya və axirəti unudar. Ona görə ki ürəyə yatan gözəl ona baxanın şəhvətini artırır və bunun da xəbasəti bütün mühaqqiqlərə aydındır. Təəccüblüdür ki, bu gözəl surətlərin işi bu qədər aşkar olduğu halda dünyanın həqiqət görən adamları ona rəğbət göstərirlər, həmişə də onu axtarırlar.

**Şeir**

Kim bir gözəlin hüsnünə aşiq olsa, şübhəsiz,
Onun eşqi gözəlliyin zəvalı ilə zail olur.

[1] "Əhsəni-təqvim" – "Quran"ın 95-ci ("Tin") surəsinin 4-cü ayəsindən götürülmüşdür.

Eşqin məqamı odur, gözəlliyin də halı budur,
Eşq səbatsız bir cins, gözəllik isə batil bir nəqşdir.
Gözəlin surəti xəbərsiz aludələrin fitnəsidir,
Saçının həlqələri cahillərin tələsidir.

Rind dedi:

– Ey Zahid! Gözəlliyi ki rədd edirsən, gözələ baxmaqdan ləzzət aparmırsan, onu bil ki, gözəllik Allah simasının aynasıdır, Allah axtaranların məqsədə çatmaları üçün yol göstərəndir. Cəmal Allah nurunun məzhəridir, əbədi feyzin mənşəyidir. Gözəlliyi müvəqqəti hesab etmək cəhalətə dəlalətdir. Çünki onun həqiqəti aradan getmir və yox olmur, bəlkə, onun zahiri əsəri yox olur. Hər dövrdə o qayib gözəlin hazır mənşəyi və hər paltarda o gizli pərdədə olan (nazəninin) bir zühur cilvəsi var. Dövranın dəyişməsindən ona nə ziyan? Libasın dəyişilməsindən ona nə nöqsan? Gözəlin surətindən məqsəd keyfiyyətdir, üzvlərin tərkibinin nisbəti deyil. Sevgilinin cəmalından məqsəd həqiqətdir, cüzvlərinin tərtibinin uyğunluğu deyil.

### Şeir

Zənn etmə ki, hüsnün nəşəsi su və palçıqdadır,
Bəlkə, həqiqətdir ki, gözəl üzdə aşkara çıxıbdır.
Bu pərdədə bir oyunçu var, yoxsa heç kim özlüyündə
Nə pərdə saxlayan, nə pərdədə oturan, nə də pərdəni qaldırandır.
Yalnız surətdən mənaya yol tapmaq olar,
Məna gülünün məzhəri surət bağçasıdır.

Zahid dedi:

– Ey Rind! Vaxtımız münaqişə ilə keçdi. Ruzigarımız mücadilədə tələf oldu. Nə mənim nəsihətlərim sənə fayda verdi, nə də sənin dəlillərin məni qane etdi. Əgər aramızda olan bu ziddiyyətə görə səndən ayrılsam, sənə olan atalıq əlaqəsi ixtilat ətəyindən tutar. Əgər müxalifət götürmək üçün sənə nəsihət etsəm, sənin könül vərəqən bu yazını qəbul etməz. Mən buna bir çarə bilmirəm. Özün de görüm, bunun çarəsi nədir?

### Şeir

Əfsus ki, dərdimə dərman yoxdur,
Sənin məsələndə işim bir yana çıxmadı.
Ömrümdə sənə nəsihət verməkdən başqa bir işim yoxdur.
Ömrüm sona çatdı, söz qurtarmadı.

Rind dedi:

– Ey Zahid! İki şey dünyada fəsad maddəsidir. Onların ikisi də təshif[1] olunduqda bir-birinə müvafiqdir. Birincisi, riyadır. O, pak dinli zahidlərin yolunda bir tələdir. İkincisi, zinadır[1]. Bu da haqqa inanan rindlərin yolu üstündə yolkəsəndir. Harada ki bu iki fəsad yoxdur, Rind ilə Zahidin həqiqəti birdir. Mən səndə riya güman edirəm, ona görə ki sənə müxalifəm. Sən də məndə zina təsəvvür edirsən, nəsihətdə mübaliğə etməyin bu səbəbdir. Əgər bu iki illət aradan qalxsa, zahidlər rindlərdən qaçmazlar. Həqiqətən, rindlərin zinası zahidlərin riyasına qərinədir. Fasiqlərin bəd əməli abidlərin ikiüzlülüyü kimidir.

[1] Kəlmədə hərflərin nöqtələrinin yerini dəyişməyə və ya artırıb-azaltmağa təshif deyilir.



### Şeir

Zahid öz riyası ilə Allah qürbündən uzaqdır.
Həvaü həvəsə görə rindlər gözə pis görünürlər.
Əgər hər ikisi iki pis əməldən xilas olsalar,
İkisi də iki dünyanı ələ gətirə bilərlər.

Zahid dedi:

– Ey Rind! Zahid riyasının yenə bir az faydası var. Hərçənd, həqiqətdə onun taətlərini bu riya batil edir, amma onun zahirini görənlər itaətə rəğbət bəsləyirlər. Əgər batini əzaba yaxındırsa, zahiri səvaba yol göstərir. Riyanın çarəsi guşənişinlikdədir. Amma qafil bədəməllər nə üzr gətirə bilirlər?

### Şeir

Riyanın pisliyi məlum olmaqla bərabər,
Riya əhli Allaha yaxınlıqdan məhrum olmaqla birlikdə
İtaət rəngi və qoxusu olduğuna görə yaxşıdır.
Amma fəsad yolunu təbliğ etmək məzəmmətə layiqdir.

Rind dedi:

– Ey Zahid! Bil ki, tövbənin də Allaha yaxın olanlar məclisində izzəti var. Günah o izzətə yetişmək üçün bir vasilədir. O adam ki pis əməllərin ləzzətini görüb ondan üz döndəriblər, onların rütbəsi bu ləzzəti görməyib yalnız eşitməklə onlardan ictinab edənlərin rütbəsindən daha yüksəkdir. Görməyənlər təqlid edərək danışırlar. Görənlər isə təhqiq yolunu axtarırlar.

### Şeir

Pis işlərdə gizli bir fayda var,
O faydadan dünya əhli xəbərdar deyil,
Vallah, günahkarın tövbə etməsi
Günahsızların təkəbbür və minnətindən yaxşıdır.

Allaha şükür ki, pis əməllərin həqiqətinə çatdım, ayağımı onun üstünə qoydum, həvavü həvəs gözəlini aldım və boşadım.

[1] Ərəb əlifbasında riya ilə zina kəlmələri təshif olunduqda bir-birinə çevrilir.

**Şeir**

Könül dedi ki, dünya işlərinin binası heçdir,
Dünya üçün qüssə etmək mənasızdır.
Qüssəni rədd etmək üçün şərab içib bir müddət sərxoş oldum,
Ayılandan sonra dedim ki, bu da heçdir.

Zahid dedi:

– Ey Rind! Sən nə öz etiqadında qaldın, nə də mən deyəni elədin. Mənim inandıqlarımı dəlillərlə batil etdin. Axırda öz etiqadını da heçə çıxartdın. Bu, heyranlıq və sərgərdanlıq nişanəsidir. Əgər tamam dünya işləri batildir, bəs haqq haradadır? Əgər bunlar sənin üçün mövcud deyildir, bəs vücudi-mütləq kimdir?

**Şeir**

Ey o kimsə ki hamının vücudu sənin yanında heçdir,
Dünyanın etibarını düşünmək xətadır.
Dedin ki, bütün mövcudat batildir,
Əgər haqqın vücudu var, de görüm, haradadır?

Rind dedi:

– Ey Zahid! Kainatın əhvalını batil bilmək haqqı bəyan etməkdir. Allahdan başqalarını nəfy etmək vücudi-mütləqi sübuta yetirməkdir.

**Şeir**

Sən və mən vücud mülkündə qaldıqca
Haqq ilə batil arasında mübahisə olacaqdır.
Biz aradan qalxmalıyıq ki, batil də qalxsın,
O zaman danışıqların hamısı büsbütün həqiqət olar.

Axırda Zahid arif Rindin tənbehi ilə öz işlərinin aynasından riya tozunu sildi. Rind vaqif Zahidin nəsihəti ilə öz surəti-halını tövbə bəzəkləri ilə zinətləndirdi. Hər ikisi müxalifət və ziddiyyətdən əl çəkdilər. Vəhdət dərəcəsinə çatdılar və məhəbbət yolunu tutdular.

**Şeir**

Fəna yolunda ağıllı ilə dəli birdir,
Dənizin dibində daş ilə inci birdir.
Əgər yaxşı və pislik etibarı ortadan qalxsa,
Məscid ilə meyxanə birdir.



# SƏHHƏT VƏ MƏRƏZ

Hədsiz şükür, bədən bağçasını can suyu ilə bəsləyib, hüsnü eşq məzhəri, eşqi də hüsnün zinəti edən tək Allaha layiqdir. Saysız salam elmi əqlə bəzək, əqlə elmi sərmayə olan bir inanılmışa yaraşır. Sonra şikəstənəfslik küncündə ibadətə əyləşən xaksar Füzuli hekayə zənciri-ni hərəkətə gətirənlərdən və rəvayət binasının əsasını qoyanlardan belə nəql edir və deyir ki:

Ruh adlı bir zatı təmiz vardı. O, çox fəzilət sahibi idi. Cəbərut aləmində doğulmuşdu, Lahut fəzasında sakin idi. Bir gün başına səfər havası düşdü. Nasut aləminə qədəm basdı. (Burada) Bədən adlı bir məmləkətə rast gəldi. (Bu məmləkət) yeddi ölkədən ibarət yeddi əndamlı bir mülk idi. Bu şən məmləkətin sahibləri bir yerdə şərikli həyat keçirən dörd qardaş idi: birincisi Qan, ikincisi Səfra, üçüncüsü Bəlğəm, dördüncüsü isə Sevda adlanırdı. (Onlar) bir-birlərilə müxalifətdə birləqməsi nadir, müvafiqətdə parçalanmaz, dostluqda "Rüknlər" (adı) ilə məruf, düşmənçilikdə isə "Ziddlər" ilə məşhur idilər. Bunların qaynayıb-qarışması (məmləkətin) varlığına səbəb olmuş və bu qaynayıb-qarışma (müxalitə) səbəbinə onlara "Əxlat" ləqəbi vermişdilər.

Bu dörd iş bilən (bacarıqlı qardaşın) himməti ilə bu məmləkətdə dörd arx axırdı, bu arxların sayəsində hər yer abad olmuşdu. (Bu arxların suyu) acı, turş, şirin və şor idi. Bunlardan yübusət (quruluq), rütubət, hərarət və bürudət (soyuqluq) deyilən dörd xasiyyət (əmələ gəlmişdi). Bu dörd gözəl təbiət Mizac adlı bir qıza mənsub idi.

Bədən diyarı Ruhun xoşuna gəldi. Mizac ilə dostluq etməyə könül verdi. O iki xoşbəxtin (arasında) birləşmə (evlənmə) vaqe olduqdan sonra Səhhət adlı bir övladları oldu ki, lətafətdə zəmanənin yeganəsi idi.

Ruh Səhhətin varlığı ilə xoşhal oldu, onu çox sevdi. Dövlət sahibi olan Ruh, Mizac və Səhhətin müvafiqəti ilə Bədən məmləkətini gəzdi. Burada üç mötəbər (böyük və abad) şəhər gördü. Əvvəl yolunu Dimağ qalasına saldı və oranı xoş qədəmi ilə şərəfləndirdi. Eybsiz bir yer gördü ki, (bu yerin) on məhəlləsi var idi. (Orada) hökm və fərmanları icra etməyə hazır və amadə, böyük işləri yerinə yetirməyə müntəzir on muzdur var idi.

Birincisi, sifətləri nəhy edən Samiə (eşitmə). Bu (hiss) söz və səsləri eşitməyə məmur idi.

İkincisi, parlaq ruhlu Basirə (görmə). O, şəkilləri və rəngləri ayırmağa vəkil idi.

Üçüncüsü, ətirləri sevən Şammə (iybilmə hissi) idi, iyləri dərk etmək ona məxsus idi.

Dördüncüsü, zövqpərəst Zaiqə (dadbilmə hissi) idi. Onda hər bir dadı dərk etmək qabiliyyəti vardır.

Beşincisi, yaxşı adlı Lamisə (sürtünmə hissi) idi. O, cisimlərin keyfiyyətini dərk edirdi.

Altıncısı, hissi-müştərək idi. (Gözlə görülə biləcək) şeylərin ilk surətləri ona zahir olurdu, o da xəyalın nəzərinə yetirirdi.

Yeddincisi, Xəyal idi. Bu hissi-müştərəkin qəbul etdiklərini mühafizə etmək üçün qavrayırdı.

Səkkizincisi, Mütəsərrifə (hissi) idi. Bu, hissi-müştərəkin Xəyala tapşırdıqlarının mümkün, ya mahal olduğunu müəyyənləşdirməkdə şübhəyə yol vermirdi.

Doqquzuncusu, Vahimə idi. Bu, mənfəət və zərəri ayırır, ziddiyyət və uyuşmanın arasındakı fərq və təfavütü təyin edirdi.

Onuncusu, Hafizə idi. Bu da vahimənin dərk etdiklərini ayırır və hifz xəzinəsinə atırırdı.

Ruh Dimağ qalasını gözdən keçirdikdən sonra işçilərə mehribanlıq göstərib onlara hörmət etdi. (Buradan) Ciyər şəhərinə keçdi. Könülə yatan bir şəhər gördü. Bu ölkədə səkkiz nəfər vəzifədə ixtiyar sahibi idi.

Birincisi, Qaziyə (qidalandırıcı) qidanı hamıya yetirir, hər bir şəxs ondan təhlilə gedənlərin əvəzinə alır.

İkincisi, Namiyə (nəşvü nüma verən). Bu, mülkün (bədən ölkəsinin) imarətini artırır və təbiət öz suratini kəmalə yetirməkdə ona etimad edir.

Üçüncüsü, Müvəllidədir; bədən mülkünün maddələrini (o) hazırlamış və ilk mərhələdə bədən mülkünü o təmir etmişdir.

Dördüncü, Müsəvvirədir: bu, bədən mülkünün nəqşəsini çəkmiş, hər bir könüləçan şəkil və surət ondan zahir olur.

Beşinci, Cazibədir. Bədən mülkünə lazım olan şeylərin hazırlanmasını təbiət ona tapşırır.

Altıncısı, Masikədir. O, cazibənin hazırladığını puç olmağa qoymur (saxlayır).

Yeddincisi, Hazimədir, masikənin ələ keçirdiklərini bişirməyə tələsir.

Səkkizinci, Dafiədir, bədənə yetişən saf maddələrin qalığı (puçalı) onun vasitəsilə rədd olunur.

Ruh Ciyər mülkünü layiqincə gəzdikdən sonra oradan Ürək şəhərinə keçdi. Ürəyi bəzəkli bir şəhər gördü. Bura bütün şəhərlərdən böyük idi. Burada altı kimsə məskən salmış və yaşamaq nəqşəsi qurmuşdular. (Bunlardan):

Birincisi, Ümiddir. Bu tələb edəni (arzu sahibini) murad mənzilinə çatdırır.

İkincisi, Qorxudur. O, (Bədəni) təhqir torundan xilas edir.

Üçüncüsü, Məhəbbətdir. Bu, ülfət zəncirini hərəkətə gətirir.

Dördüncüsü, Ədavətdir. Bu, qeyrət əsərlərinin məzhəridir.

Beşincisi, Fərəhdir. Bu da şadlıq və sevinc mənbəyidir.

Altıncısı, Qəmdir. Bu, cəhalət və məğrurluğu tərbiyə edir.

Ürək şəhəri Ruhun xoşuna gəldi. Bütün şəhərlərdən artıq buranı təmir etməyə başladı, oranı özünə paytaxt qərar verdi. Oranın imarətlərini artırmağa və pozğunluqları bərtərəf etməyə məşğul olub, səfa əhli olan Ümid, Fərəh və Məhəbbəti öz yanına söhbətə çağırdı, Cəfa əhli olan Ədavət, Qorxu və Qəmi ürək şəhərindən Səhhət sürgün etdi. Zəmanənin fitnəkarı olan bu üç kinli dünyadan avara düşdülər və bədən mülkündən çıxıb getdilər.

Elə ki Ruh Ürək şəhərində xoş (oldu) və yaşayış vəsaitini burada hazır gördü, bir gün bir məclis tərtib etdi. Ölkənin əsil-nəcabətlilərini dəvət etdi. Sevda mişkin (qara) paltar ilə özünü bəzədi. Qan qızılgül rəngli geyim ilə özünə zinət verdi. Bəlğəm ağ geyinməyə çalışdı. Səfra sarı rəngli xalat geyindi.

Onlar bu rənglər ilə məclisi rövnəqləndirdilər və məclisdəkilərin dimağlarını bənövşə, süsən və nəsrin qoxusu ilə ətirləndirdilər. Ürəyin ətrafında onların hər birinə bir mənzil və məskən müəyyən olundu. Bu məskən də onların rəngi və qoxusu ilə zinətləndi. Sevda dalaqda yerləşdi. Səfra öd (kisəsinə) doğru yönəldi. Qan (qara) ciyərdə yurd saldı. Bəlğəm ağ ciyərdə qərar tutdu. Bunlar yeyib-içdilər, axırda ifrat nəticəsində "Əxlat"ın işi azğınlıq sərhədinə doğru çəkildi.

Sevda dedi:



– Xəyal incilərini düzən və bütün işləri dərk edən mənəm!

Səfa dedi:

– Sən dəlilik törədən və gec oturub gec duransan, bütün yerləri seyr edən həyat qoşununun sərkərdəsi mənəm.

Qan dedi:

– Sən acıtamlı və pis mizaclısan! Tez daxil olub ağır müalicə olunansan! Həyat vasitəsi, bədən binasının həqiqi banisi mənəm.

Bəlğəm dedi:

– Sənin mənə möhtac olduğun aşkardır. Sənin varlığın məndəndir.

Ruh bu tayfanı höcətləşməsindən, ixtilafından və bu dəstənin çox öyünməsindən pərişan, bunlarla ixtilatından peşman oldu. Onları danlamağa və məzəmmət etməyə başladı:

– Sizdən nə mənfəət gələr, sizinlə hansı düyün açılar? Sizin hamınızı tənbeh etmək lazımdır, – deyə onlara qəzəblə xitab etdi.

Onlar da mübahisə qapısını bağlayıb sakitcə bir küncdə oturdular. Fürsət gözlədilər ki, Ruha itaət etməkdən boyun qaçırsınlar.

Ürək şəhərinin keçmiş sakinləri, aləmin fitnəkarları olan Ədavət, Qorxu və Qəm Ruhun hökmü ilə vətəni tərk edib sərgərdanlıq yolunu tutdular, hər ötənə şikayət etdilər.

Bir gün məsləhətləşdilər, onların qürbətə düşməsinə bais olan Səhhətin şövkətini pozmaq üçün əhd etdilər.

Ədavətin hədsiz qəbiləsi vardı və bu qəbilənin başçıları Yalan, Kin və Paxıllıq idi.

Qorxunun da saysız tayfası vardı. O tayfanın da böyükləri Heyrət, Dəhşət və Naəlaclıq idi. Qəmin isə hədsiz-hüdudsuz təbəələri vardı ki, bunların qabaqcılları Möhnət, Həsrət və Ümidsizlik idi.

Hər bir yerə adamlar göndərdilər, hamını bu əhddən xəbərdar etdilər.

Qəflət yuxusu Ruhun gözlərini bağladığı bir zamanda, tədbir ipi qırıldığı bir anda bunlar qoşun götürüb, Ürək şəhərinin darvazasına çatdılar, igidlik nərəsi çəkdilər.

Əxlatın Ruh ilə bədmizaclığı olduğundan heç biri ona köməyə gəlmədi. Bu vaqiəni olmamış kimi sayıb səbəbi təbiətin üzərinə yüklədilər.

Ruh Ürək şəhərinin darvazasını bağladı, (Allaha) təvəkkül edib o qalada oturdu.

Elə ki Ruhun şadlığı bitdi, Ürək ölkəsi Qəmin ixtiyarına keçdi, Ruhun yoldaşları tədbirə başladılar. Fikirləşdilər və tədarük gördülər.

Fərəh dedi:

– Mən Hüsn (gözəllik) adlı bir nəfər ilə köhnədən dostam, əgər buyursan, onu köməyə gətirərəm.

Məhəbbət dedi:

– Mənim Eşq adlı bir tanışım vardır. O hər bir hünərdə nöqsansızdır. Əgər onu çağırmağa icazə versən, tez bir zamanda Qəmdən azad olarsan.

Ümid dedi:

– Mənim Əql adlı bir yoldaşım var, indi köməklik zamanıdır. Əgər buyursan, əmrini çatdıraram, onu qoşunu ilə bərabər gətirərəm.

Ruh təkcə Səhhət ilə kifayətləndi. Ürəyin qala qapısını gizlicə açdı. O, üç nəfərə məktub verib Hüsnə, Eşqə və Əqlə göndərdi.

Əvvəlcə Fərəh özünü Hüsnə yetirdi, Ruhun məzlumluq məktubunu ona oxudu. Hüsn qürur ilə öz zülfü kimi qıvrıldı. Ona cavab vermək üçün ruhpərvər dodaqlarını açdı və belə söylədi:

– Ey özündən xəbərsiz! Nə xeyirdən xəbərin var, nə də şərdən! O kəsin ki eşq və əqli olmaya, mənim onunla nə dostluğum? Ya eşq gərəkdir ki, mənim qədrimi bilsin, ya da əql lazımdır ki, məni saxlamağı bacarsın.

Hüsn Fərəhə çarə etmədiyinə görə Fərəh də xəcalətdən Ruhun xidmətinə qayıtmadı.

Sonra Məhəbbət Eşqin yanına çatdı, sifarişi yetirib kömək istədi. Eşq etinasızlıqla dilə gəlib o sifarişə belə cavab verdi:

– Ruh dünyaya aldanmışdır. Eşqdən bixəbər və Hüsnə qarşı etinasızdır. Mən elə bir yerə gəlmərəm. Hüsn harada isə, mən də oradayam.

Məhəbbət də bir iş bacarmadı, xəcalətindən Ruhun yanına getmədi.

Daha sonra Ümid özünü Əqlin söhbətilə şərəfləndirdi və sözə belə başladı:

– Ruhun qarşısına çətin bir hadisə çıxıbdır. Köməksizlikdən təşvişdədir, səndən kömək istəyir. Ona kömək etmək yerində olar, inanıram ki, Ümid naümidliyə çevrilməz, onun cəmiyyəti dağılmaz.

Ümid çox yalvardı, onun bu yalvarması Əqlə təsir etdi. Gözəl əxlaqına görə hamı ona tabe idi, hamını o saat hazır etdi və Ürək şəhərinə gecə basqını düzəltdi, o şəhərdə (mühasirədə) qalanları Qəm torundan xilas etdi.

Elə ki Əql ləşkəri Qəm qoşununu məğlub edib Qəm və Qorxunu tutub əsir etdi, Ədavət bir bucaqdan qaçdı və başqa bir fitnə qaldırdı.

Mərəz (xəstəlik) ləqəbli bir amansız var idi. Səbəbsiz yerə hər kəsə ədavət bəslərdi. Ədavət onunla dostlaşdı, ürəyinin dərdini ona söylədi.

Mərəz ona dedi:

– Heç qorxma, özünü mənə təslim et! Bu yaxın zamanda bir hiylə qaldırıb Ruhun qanını və səhhətin abrusunı tökərəm.

Bunu da ağızdan-ağıza eşitmişdi ki, Ruh Əxlatı məzəmmət etmişdi. (Bədən mülkünü) vasitəsiz ələ keçirmək mümkün olmadığından bu hadisəni (fürsət və) qənimət bildi və Ədavətdən soruşdu:

– Bədən ölkəsinə kim gedib-gəlir? Buranın əhalisi nəyə rəğbət edir?

Ədavət dedi:

– Qida cinsi onların hamısı ilə tanışdır. Bədən ölkəsinin abadlığı onun gediş-gəlişindən asılıdır. Bu ölkə əhalisi onu ələ keçirməklə məşğuldur.

Mərəz bu əhvalatı öyrəndikdə dərhal Qidanın xidmətinə getdi, gördü ki, o hərdən bir rəng dona girir.

Əvvəlcə soyuq və quru Qidaya yanaşdı və özünü min hiylə ilə ona bağlayıb dedi:

– Ey həqiqətdə torpaq cövhəri olub, torpaq cövhəri kimi hər bir bulaşıqdan təmiz və uzaq olan! Məni Ruhun müvəkkillərdən gizli olaraq, Bədən ölkəsindəki Sevdaya çatdır ki, Sevda ilə bir alverim və vacib işim var.

Qida Mərəzin istədiyini yerinə yetirdi və onu Bədən (ölkəsinə) – Sevdaya çatdırdı. Sevdanın rövnəqi Mərəzin sayəsində artıb sair Əxlat zəifləşincə fitnə qapılarını açdı, Bədəndə pozğunluğa başladı. Baş ağrısını sərkərdə təyin etdi və Bədən ölkəsinə çaxnaşma saldı.

Səhhət bu hadisədən xəbər tutub Ruhun hüzuruna tələsərək (ona dedi) ki, Sevda azğınlaşmağa başlayıb və padşahlıq mülkünün qəsdindədir.





Ruh bu əhvalatı Əqlə bildirdi. Əql Səhhətin tədbiri ilə işə başladı və anladı ki, Sevdanı hərəkətə gətirən Qidadır. (Buna görə də) öz yaxınlarından Pəhriz adlı birini həvass (hislər) darvazalarını qorumağa təyin etdi. Belə qərar qoydu ki, Zaiqə (dadbilmə duyğusu) zeytun və buna bənzər şeylərin dadından və Samiə (eşitmə duyğusu) qanun səsi dinləməkdən həzz almasınlar. Basirə (görmə duyğusu) ənbər görməsin. Şammə (iy bilmə duyğusu) kafur qoxulamasın. Bu qayda üzrə Sevdanı zəiflətdi və Qanı tərbiyə etməyə başladı.

Məraz gördü ki, Sevda zəiflədi və Qanın şövkəti artdı, (bu zaman) Sevdadan üz çevirdi, Qanın xidmətinə yüyürdü. Ona da əfsanələr oxuyub pozğunluq dərəcəsinə çatdırdı. Qanın başına fəsad havası düşüncə o, Qızdırmanı sərkərdə təyin edib hər tərəfə göndərdi.

Səhhət ikinci dəfə Əqlə pənah apardı və özünü onun tədbirinə təslim etdi. Əql hikməti rəhbər tutaraq başqa bir tədbir ilə o xəstəliyə çarə etdi və Pəhrizə dedi ki, Zaiqəni şərab kimi içkilərdən, Basirəni tər çiçəyə baxmaqdan saxlasın. Şamməni yeni göyərmiş otun qoxusundan və Samiəni sevinc gətirən ərğənun (orqan) nəğməsindən çəkindirsin.

(Beləliklə), Qanın üzünə qüdrət qapıları bağlanınca Ruha qarşı durmaq qüvvəsi qalmadı.

Məraz Bəlğəmə mürid oldu, Qandan əl çəkib onunla (Bəlğəmlə) həmdəm oldu. Onu qatılaşdırıb fəsada, pozğunluğa vadar etdi və bu vasitə ilə İstisqanı (susamağı) sərkərdə təyin edərək pozğunluq yolu tutdu.

Bu əhvalat baş verdikdə Səhhət özünü Əql silsiləsinə bağladı. Əql üçüncü dəfə köməyə gəldi. Pəhrizə buyurdu ki, Bəlğəmin artma vəsaitini kəssin, xörəksizliklə (ac saxlamaqla) qüvvətdən salsın. Zairə xam (qaynanmamış) içkilərdən, Samiə üçtelli tənburdan həzz almasın. Basirə saf inciyə baxmaqdan, Şammə nilufər iyləməkdən özünü saxlasın.

Məraz Bəlğəmin zavala uğradığını görüncə Səfra ilə aşnalığa can atdı. Hər zaman bir nüktə söyləyib ta onun təbiətini elə bir hala saldı ki, o, Yərəqan (Sarılıq) xəstəliyini Məraz qoşununa sərkərdə seçib Bədən ölkəsini almağa təyin etdi.

Səhhət Əqldən kömək istədi. Dördüncü dəfə Əql Səhhətin köməyinə qalxıb Pəhrizə fərman verdi ki, Səfranın fayda büsatını yığışdırsın və ona müxalifət yolunu tutsun. Zaiqə şəkər kimi şeylərə, Samiə sızlayan kamançaya rəğbət etməsin. Basirəni xalis qızıla baxmağa və Şamməni tər çiçək-gül qoxulamağa qoymasın.

Səfranın gücü tükəndikcə Səhhət Mərazə qalib gəldi. Məraz qaçıb başqa yerdən fitnə qaldırmaq istərkən birdən-birə Mərazin oğlu Zəf (zəiflik) qabağına çıxdı. O, qorxubilməz bir yeniyetmə, zəif olsa da, çevik ruhlu və diribaş idi. Zəf dedi:

– Ey Məraz, xeyli zamandır ki, yol gəlirəm, məqsədim xidmətinə yetməkdir. İndi ki gəlmişəm (sənə məsləhətim budur ki), öz cəmiyyətini dağıtma, məni gəldiyim üçün peşman etmə.

Məraz Zəfdən tam qüvvət aldı və qaçmaqdan daşındı. (Ruhdan) incimiş Əxlat da onunla ittifaq etdilər. Fitnə vəsaiti tamamlandı. Xülaseyi-kəlam, ümumi hücum başlandı.

Səhhətə çarə tapan və Ruhun hər bir dərdinə dərman edən Əql bu dəfə heç bir çarə tapmadı, özünü itirdi, yardımçıları olan duyğuları da pərişan gördü, çarəsizlikdən Qorxu və Qəmi götürüb bir küncdə oturdular və əzdadın (zidlərin) üzünə qapıları bağladılar.

Səhhət belə bir qövğanın içində köməksiz olaraq Ruhun xidmətində yalnız qaldı. Lakin Qorxu və Qəmin yoldaş olmadığını və özünün hücuma qalxmalı olduğunu anladı. (Buna görə) Ruhdan hümmət istədi və özünü müharibə üçün silahlandırıb dedi:

– Ey Ruh! Əgər qalibiyyət bizimlə olsa, sənin səltənətin öz yerində baqi qalar, əgər düşmən əl taparsa, sənin çarən Vətəni tərk etməkdir.

Sonra qoşunun qarşısında durdu, o meydanda qəzavü qədərə təslim oldu. Mərəz şiddətlə, Səhhət də himmətlə müharibə məqsədilə bir-birinə qəsd etdilər.

Səhhətin anası olan Mizac Əxlat ilə irəlidən dost olduğundan Səhhətin düşkünlüyünə dözməyib şəfaətçi olaraq Əxlatın yanına gedib dedi:

– Mənim sizinlə qədimdən münasibətim var. İndi Mərəz də özünü sizə bağlamışdır. Mənim övladımın təhqir edilməsi insafdan uzaqdır, bu hal heç yerdə bəyənilməz.

Əxlat (bunu eşidincə) Mizacdan xəcalət çəkdilər, Mərəzdən dönüb Səhhətlə yoldaş oldular. Mərəz əhvalatdan xəbərdar olunca qaçmağı qərara aldı. Damarlar yolu ilə Tər ilə bərabər (Bədəndən) çıxıb getdi. Amma Zəf Bədən ölkəsini hələ görməmişdi və bura yenicə yetişmişdi. Buna görə özünü Mərəzə çatdıra bilmədi. Bu ölkədə sərgərdan qaldı.

Mərəzin qaçması xəbəri Ruhun qulağına çatdıqda, Əxlatın səfa keyfiyyətini və Səhhətə köməkliyini eşitdikdə onda dövlət nişanəsi zahir oldu. Buna görə həmd və şükürlər etdi. (Sonra) Əqli yanına çağırdı və onu xəcalətdən qurtardı.

Dövlət itaətkar və düşmən təslim olunca Ədavətin işi tamam oldu; Pəhrizə buyurdu ki, bir müddət həvassın (hisslərin) qapılarından tərpənməsin, Qidanın ixtiyarını alsın ki, Zəf təkrar qüvvətlənib fitnə qaldırmasın. Axırda Zəf də məğlub olub Bədən ölkəsindən çəkildi.

Ruh kəmali-əzəmətlə yüksək bir dərəcəyə çatdı. Onun keyfiyyəti cövhərə, cövhəri cismə və cismi ərəzə tam bir lətafət verdi. Gözəlliyi, işvəsi, sevimliliyi həddən aşdı. Köhnə dostların da onunla müsahib (həmsöhbət, yoldaş) olmaq ləyaqəti qalmadı. Yalqız idi, yoldaş axtarırdı; mətaı vardı, müştəri arayırdı.

Fərəh Hüsn ilə yoldaş olmaqla onun dostluq nəqşini könül lövhəsinə yazırdı. Bir gün dedi:

– Ey könül açan Hüsn! Ey dünya yandıran şam! Xeyli müddətdi yoldaşlardan uzaq və Ruhun ayrılığından narahətəm. Vaxtdır ki, vəfasızlıq yolunu tərk edəm, qədim dostları xatırlayam.

Hüsn naz ilə söylədi:

– Ey könül oxşayan yoldaş! Ruhdan çox söz söylədin, onun tərifində incilər deşdin, mən onu görmək və onun mərifət bağçasından bir gül dərmək istəyirəm. Fəqət bir şərtlə ki, məndən xəbəri olmasın və məni tanımasın.

Fərəh söylədi:

– Bu iş çətindir, çünki Əql onun yanındadır və hər bir işdən xəbərdardır.

Hüsn dedi:

– Əql mənimlə görüşə bilməz, məni görməyə onda tab və taqət yoxdur. Mən bir əfsun bilirəm ki, oxusam, Ruhun xəbəri olmadan onu ələ ala bilərəm.

Fərəh bu xəbərdən çox sevindi, Hüsnü aparmağa cəsarətləndi. Hüsnü Ruha tərəf apardı. Az bir zamanda Bədən ölkəsini gəzdi. Bədən ölkəsi Hüsnün xoşuna gəldi, burada vətən salmağa könül verdi, bildiyi əfsunu oxudu, xəbərsizcə özünü Ruha yetirdi. Hüsnün lətafəti Ruha təsir etdi. Gözəl olduğu halda daha da gözəlləşdi. Hüsnün qoşunu olan Şiyvə, Naz, İşvə, Kirişmə və Qəmzə onun ətrafında yerləşdilər. Bunlardan bəzisi boy-buxunla birləşdilər, bəziləri də özlərini gözə, qaşa bağladılar.



Xülasə, Ruhun rövnəqi artdı və əvvəlkindən də çox oldu. Hər kimə ki işıq saçdı, onu əritdi; hər kimə ki bir nəzər saldı, onun evini yıxdı.

Eşq ilə yoldaş olan Məhəbbət bu zaman Eşqdən ayrıldı. Ruhun xidmətinə yetişincə Eşqdən Hüsn haqqında eşitdiyi sifətləri onda gördü. Kainatı özünə məftun edən uca bir boy və aləmi yandıran parlaq bir üz gördü ki, kəkili çiynində, zülfü qulağının dibində, sünbülü qul, bənövşəni kəniz etmişdi. Bir sərxoşun əlinə ox və kaman verib adını Qəmzə, Göz və Qaş qoymuşdu. Surət səhfəsinə mişkdən bir xətt çəkmiş, bostanda bir reyhan əkmiş, Abi-həyatı bir çeşmədə gizlətmiş və ona dodaq demiş, buna danışmaq söyləmişdir. Xətt üzərində bir xal qoymuş və xəttin son nöqtəsindən nişan vermişdir. Otuz iki gövhər düzmüş, (bunları diş adlandırmışdı)[1]. Alma və turuncu birləşdirib onlara Zənəxdan (çənə) və Ğəbğəb (buxaq) ləqəbi vermişdir.

Hər bir zaman bir sehr başlayıb bəzisini şivə, bəzisini naz adlandırmışdır. Bir gül budağına hərəkət vermiş (və demiş) ki, bu qoldur, bir pak ruhu müsəvvər (mücəssəm) edərək (demiş) ki, bu onun biləyidir. Yerişi ilə axar su yaradıb (gümüş kimi ağ) baldırlarından onun içinə balıq salıbdır.

Məhəbbət Ruhu bu lətafətdə görüncə o saat Eşqin xidmətinə yüyürdü və Ruhun Hüsnə malik olmasından onu xəbərdar və Vüsal üçün biqərar etdi. Eşq pak əxlaqlı Hüsnün cazibəsi və Məhəbbətin rəhbərliyi ilə Bədən diyarına yetişdi, Ruha qulluq etmək kəmərini bağladı. Gördü ki, Hüsn Ruhu özündən elə xəbərsiz edibdir ki, nə özünü tanıyır, nə də Hüsnü. (Bu halda) Eşq Ruhu tərif etməyə başladı, onu layiqincə vəsf etdi. Ruh Eşqin söhbətini bəyəndi və onunla müsahibəyə könül verdi və ondan soruşdu ki:

– Ey dünya dolanan səyyah! Eşidirəm ki, Hüsn adlı birisinə vurulmusan! Onsuz heç yerdə qərarın yoxdur. Onun keyfiyyətindən mənə nəql elə və onu tanımağa kömək et!

Eşq anladı ki, o (Ruh) qafildir, aşinalıq dəryasından kənardadır. Dedi:

– Onun yeri Səfillik vadisindədir və onu görmək üçün özünü tərk etməlisən.

Ruh dedi:

– Ey Eşq! Dediyin əsli olmayan bir şeydir və onu tələb etmək faydasız bir sevdadır. Əgər sözünün doğruluğunu aşkar və müddəanın mənasını aydın eləməsən, bu hekayətin əsli yalan və bu rəvayətin şamı ziyasızdır.

Eşq dedi:

– Ondan bir nümunəm var, əgər buyursan, göstərərəm.

Ruha zövq və həvəs qalib olduğundan bu surətin həqiqətini bilmək istəyirdi. (Bu cəhətdən) arzu gözünü açdı, o nümunəni hazır etmək üçün yalvardı. Eşq Səfa güzgüsünü onun əlinə verib dedi:

– Bu lövhəyə baxmaq lazımdır.

Ruh özündən xəbəri olmadığı üçün öz əksini özündən başqası zənn etdi. (Birdən-birə) bütün eyiblərdən pak nurdan bir peykər (bədən) gördü.

Hüsn bir tərəfdən kəmənd atdı, Eşq də bu guşədən oyun oynadı. Ruh hər ikisinin arasında qaldı. Heyrət onu bir dərəcəyə yetirdi ki, ixtiyar cilovunu əlindən verdi və özündən

[1] "Ləb" sözünün ərəb əlifbası ilə yazılışı əbcəd hesabında "lam" – l – 30, "be" – 2, "ləb" – 32 deməkdir.

xəbərsizlik vadisinə düşdü. Bir müddət ona (Səfa güzgüsünə) baxdı və o surət vasitəsi ilə öz vücuduna nəzər saldı.

Eşq dedi:

– Ey könül oxşayan sevgili və ey ehtiyacsız möhtac! Bu surətin düşməni çox və bu mənanın müddəaçısı hədsizdir. Əqlin yanında ədəbsiz, riyakar və yaltaq adamlar var ki, onların ləqəbləri, Zərq (ikiüzlülük) və Riyadır. Olmaya ki, onlar bu surəti alıb lövhünə şikəstlik yetirələr. Lövhü idrak xəzinədarına tapşır və onun üstünə əmanət möhürü bas.

Ruh dedi:

– Ona baxmaq mənə vacibdir və onu gizlətmək əqlə müvafiq deyildir.

Eşq dedi:

– Xəyala tapşır ki, onun surətini çəksin və sənin nəzərində saxlasın.

Ruh Eşqin məsləhətini bəyəndi və Xəyala buyurdu ki, Hüsnün surətini çəksin. Sonra Səfa güzgüsünü idrak xəzinədarına verdi və əmanət möhürünü üzərinə basdı.

Bir müddət Xəyalın surəti ilə kifayətlənirdi, həmin surətlə qənaət edirdi. Axırda Xəyalın çəkdiyi surət onu açmadı, onunla murad mənzilinə yol tapmadı, dedi:

– Ey Eşq, öldüm, mənə çarə qıl! Məni Hüsnün vüsal vadisinə at!

Eşq dedi:

– Yolda əngəl çoxdur, Hüsnün mənzilinə yetişmək çətindir.

Ruh dedi:

– Məşəqqətə tabım var, mənə çarə et ki, qərarım yoxdur.

Ruh sidqi-könüldən tələb etdiyinə görə, Eşq ona yol göstərməyə vacib bildi. Hər ikisi birlikdə məqsəd dalınca getmək bayrağını qaldırdılar. Belə qərara gəldilər ki, Məşuqluq səhrasını keçsinlər, eləcə də Aşiqlik ölkəsinə güzar etsinlər.

Əvvəlcə Məşuqluq səhrasına ayaq basdılar. Bu vadidə qəribə şeylərə rast gəldilər. Səyahətləri ibtidasında büllurdan daha saf, ipəkdən daha yumşaq bir gözəl yerə yetişdilər ki, aşiqlərin qanı burada tökülmüş və torpağına qarışdırılmış, lətafətdə yer üzünün məşhuri idi, bu yer "Nazənin Ayağının Altı" adlanırdı.

Buradan keçib bir mənzilə yetişdilər və bir məqam gördülər ki, buranın yeri civə kimi titrəyir; Xəyal və Vəhm ayağı onun mənzillərini qət etməkdən sürüşürdü. Başdan-ayağa qədər tamamilə saf və xam gümüşdən olub adı "Baldır" idi. Buradan köçdülər, məzaq miniyinə mindilər, dağlıq bir yol gördülər, burada saysız təpələr var idi. O dağın sonunda tükdən daha incə bir kəmər gördülər. Bunun vücudu yox idisə də, adı "Bel"dən başqa bir şey deyildi. Buradan keçib "Qarın" qırışları adlanan dalğalı bir suya çatdılar. Burada "Göbək" dairəsi (adı) ilə məşhur olan bir girdab (burulğan) vardı. Oradan da keçib bir çölə yetişdilər. Çöldə seyr etdilər. Burada heç bir ot göyərməmişdi. Heç bir canlı (ayağının) tozu buraya qonmamışdı. İskəndər (öz) "güzgüsünü" burada düzəltdirmiş, Ad da "İrəm"[1] (bağının) tərhini burada çəkdirmişdi. (Onun) nurdan bir fərqi yox idi. Bu cəhətdən "Sinə" adı ilə məşhur idi. Oradan keçib bir mənzilə çatdılar; buranın sakinlərindən eşitdilər ki, bu ətrafda Said (qol) adlı birisi vardır. O, çox güclü və qoluqüvvətlidir. Onunla pəncələşmədilər, onun qolunun qüvvətinə müqavimət göstərə bilmədilər. Buradan da cilov çevirib başqa mənzilə doğru yollandılar. Sinədən daha gözəl bir yer gördülər; bunun qədri artıq və rütbəsi daha yüksək idi; (bütün) lətafət vəsaiti hazır, ləqəbi də "Gəbğəb" (buxaq) idi.

[1] Dini rəvayətə görə, Şəddad ibn Adın düzəltdiyi cənnət bağı İrəm adlanırmış.



Bu məkanda bir saat yubandılar, buradan da səfər edib, yolda qaniçən zəncilərə rast gəldilər. Bunlar zülmkar, cəfakar, mərhəmətdən uzaq, Xətt və Xal (adı) ilə məşhur idilər. O iki sərgərdanı (yəni Ruhu və Eşqi) hürkütdülər, üstlərinə şəbxun çəkdilər. Ruh və Eşq həlak olacaqlarını yəqin edib (qaçanda) yolda başı üstə bir quyuya düşdülər. Bura son dərəcə könülə yatan bir yer idi. Bura yüz minlərlə əsir və aramsız könüllərin istirahətgahı olub "Zənəxdan" (çənə) quyusu adlanırdı. Bir müddət o quyunun dibində ahü-nalə etdilər. Nagəhan pərişan könüllərin məcməi (yığnağı) olan qıvrım-qıvrım, mişkin bir ip tapdılar. Bəziləri buna "Saç" və bəziləri "Zülf" deyirdilər. Özlərini o ipə bağladılar və Zənəxdan quyusundan nicat tapdılar.

(Oradan keçib) saf və şirin bir çeşməyə yetişdilər. O, qəmli könüllərə fərəh verirdi, onun feyzi Xızır suyundan daha yaxşı, adı "Ləbu-canpərvər" (can bəsləyən dodaq) idi. Burada inci ilə dolu bir mücrü (sandıqça) tapdılar. Sandığın ləqəbi "Ağız", incinin ləqəbi "Diş" idi. Sandığı ələ keçirdilərsə də, çaşdıqlarından yenə itirdilər.

Oradan bir bağa doğru yönəldilər və bir gülşəndə məskən saldılar. Buranın çiçəkləri tamamilə tikansız olub "Üz bağçası" adlandırdı. Bir müddət bu bağda gəzişdilər, buradan da başqa bir mənzilə yollandılar. Şən bir yer gördülər. Buranın lətafət vəsaiti cəm olub fərəhləndirən və sevinc verən tər göyərtiləri vardı. O yerin vəsf incisini dələn adını "Binagüş" (qulaq məsaməsi) qoymuş. Buradan da qorxulu bir mənzilə çatdılar. Bu mənzilin adı "Çeşmi-şəhla" (şəhla göz) olub sakinləri hiyləgər idilər. Buranın padşahı "Qatil Qəmzə" idi. Oradan da şərafətli bir mənzilə yetişdilər. Burada iki lətif otaq gördülər ki, səfa əhlinə məbəd, dua əhlinə mehrab, "Qabə-Qövseyn" camalı vəsfinə sərdəftər, könül oxşayan hüsnün qərargahı olub adı "Taqi-əbru" (qaş qağı) idi. Oradan da könül açan bir sərhədə yetişdilər. Bura da çox səfalı bir yer idi. Çin ahularının otlağı olub, mübarək adı "Alın" idi. Bir saata qədər bu vadidə dolaşdılar. Oradan da keçib tutqun və qaranlıq, yolları çox qorxunc və dar olan bir zülmətə çatdılar. Burada yüz minlərlə (adam) pərişan və heyran qalmışdı. Pərişanhal kimsələr onu "Kakül" adlandırmışlar. Bu zülmətin şiddəti Ruha qalib olub tədbir kələfinin ucunu Eşqdən istədi. Eşq onu zülmət şiddətindən xilas edib Qamət şamı işıqlığına çatdırdı.

Ruh dedi:

– Ey səhv göstərişli Eşq! Ey rəyi düzgün olmayan azğın! Bu qədər avara dolaşdım, söylədiyin Hüsn cilvəgahına çatmadım?

Eşq dedi:

– Ey qafil! Və ey mərifət ləzzətindən bixəbər! Gördüklərin (hamısı) Hüsnün cilvəgahı idi; o (Hüsn) bunların hamısında özünü göstərdi. Sənin bəsirətin olmadığından Hüsnün nə olduğunu bilmədin. Əgər onu anlamaq istəyirsən, (əvvəlcə) gərək nəzərini saflaşdırasan. (Qabaqca) özünü korluqdan qurtar, gözlərini dostluq sürməsinə yetir! O sürmədən Məşuqluq mülkündə yoxdur, onun mədəni Aşiqlik diyarındadır. Lakin Məşuqluq mülkünü səyahət etməyincə Aşiqlik ölkəsinə çatmaq olmaz.

Xülasə, Məşuqluq mülkündən keçib Aşiqlik diyarına tərəf yola düşdülər. Əvvəlcə Məlamət bostanına çatdılar. Burada şövq və həvəs çiçəyini və ayrılıq göyərtisini bitmiş gördülər. Oradan Bəla, Möhnət və Şiddət şəhərinə yola düşdülər. Oradan da Acizlik səhrasına ayaq basdılar.

(Səfər) cilovunu şeydalıq əlinə tapşırdılar. Oradan da gedib Hicran guşəsində yurd saldılar, gah Heyrət ilə yoldaş, gah da Ümidsizliklə həmsöhbət oldular. Gah Nalə və Zar ilə sirdaşlıq etdilər, gah da ürəkyandıran Ağlamaqla həmahəng olmağa başladılar. Qərar və Taqət sərhədini aşdılar, Xarlıq vadisində xeyli dolaşdılar. Məşuqluq ölkəsini gəzdikdən və aşiqlik işinin sonunu gördükdən sonra bir ölkə zahir oldu. Ruh Eşq ilə bərabər oraya girdi, gördü ki, Bədən ölkəsidir.

Dedi:

– Doğrudan da, bura mənim yerimdir!

Gördü ki, Könül şəhəri xaraba qalmış, duyğular qoşunu dağılmış, Sevda od qalayıb Ciyər və Dimağı yandırmış, Qan göz yaşı ilə qarışıb daxili hərarətdən xaricə qaçmış, Səfranın üzü saralmış, Bəlğəmin bazarı soyumuş, (bədənin) əsas üzvlərində heç bir qüvvət qalmamışdır. Təbiətlərdə nizam qalmamış, Zəf qüvvət tapıb Səhhətə xələl yetirmişdir. Ruh bu haldan iztiraba düşdü və Eşqə acıqla xitab etdi:

– Ey mənim xanimanımı dağıdan, məni ruzigarın avarası edən, yalan vədlər verib məni həlak etmək qəsdində duran! Bu nə hiylə idi ki, mənimlə oynadın?! Məni xanimandan ayırdın! (Halbuki) rayət, zövq və şadlıqla dolu azad mülküm var idi. Bir müddət məni Məşuqluq mülkü ilə aldatdın! Oradan üzümə bir qapı açmadın; bir zaman Aşiqlik ölkəsində qərib etdin və başıma cürbəcür bəlalar gətirdin. O ölkələrdə də abrımı apardın və yenə ümidsizliklə vətənə qaytardın. Bura da xarab olub, sarsılmağa üz qoyubdur. Allah, Allah, bu nə zülmdür?! Sənin əlindən min fəryad!

Eşq Ruhun sözlərini eşidib onun səbirsizliyini görüncə dedi:

– Ey Ruh, sənin şikayətin kimdəndir? Həqiqətən, bu afət və bəla özündən başqa heç kimdən deyildir. İdrak xəzinəsindəki surətə bir bax! O surətin həqiqətindən ibrət al!

Ruh o surəti gətirməyi əmr etdi. Gətirdilər. Haman möhrü üzərində idi. Elə ki Səfa aynasının möhrünü götürüb qarşısına tutdu, orada zəif bir bədən və çox arıq bir surət gördü.

Ruh dedi:

– Ey Eşq, bu surət o surət deyildir! Mənə bildir görüm, o nə idi, bəs bu nədir?

Eşq dedi:

– Ey Ruh, bu lövh səfa aynasıdır. Nəzər əhlinin şəklini özündə əks etdirəndir. Burada gördüyün birinci surət sən idin, indi də gördüyün surət sən özünsən. Əvvəlcə özünə baxdığın zaman qafil idin! Özünü tanımayıb öz arzunla yüyürürdün. Axırda özünə çatdın! Həm Aşiqliyə məzhər sənsən, həm də Məşuqluğa zinət sənsən! Mərifət, aşinalığın (həqiqəti tanımağın) sürməsidir və bu mənzilə yaxınlaşmaq (üçün) əlaqələrdən ayrılmaq lazımdır.

Ruh gözlərinə aşinalıq sürməsini çəkib vücud aynası olmadan özünə baxınca elə bir gözəl gördü ki, surət və mənadan ehtiyacsız, qüdsi Ruh ilə həmahəng olaraq vəhdət xəlvətində oturmuş, kəsrətin (çoxluğun) üzünə qapıları bağlamışdı. Nə Əql gözünün ona baxmaq imkanı, nə də təbiət və duyğuların ona bir yolu, nə Hüsnün ona bir nazı, nə də onun Eşqə bir ehtiyacı qaldı.

Ruh bu məqama yetişəndə "Cəbərut" və "Lahut" aləmlərini gördü. Əsl mənzilinə çatdı və yolkəsənlərin qeydindən qurtardı. İşin sonunda özünü özünə çatdırdı, Məşuqluq və Aşiqlik o xəlvətdən xaricdə qaldılar.



# MƏTLƏ ÜL-ETİQAD

❖❖❖

Mümkünatı yaratmaq feyzi ilə şərəfləndirən, onları öz varlığının vacibliyinə sübut göstərən kimsəyə həmd edirəm ki, o, insanı dinin ehkam və qaydalarını anlaması ilə mümkünat içərisindən seçib ayırmış və insanlar içərisindən peyğəmbərləri öz bəxşiş xəzinələrinin açarları olan dəlillərlə insanlara elçi göndərmiş, sonra peyğəmbərlərdən bizim Peyğəmbəri seçərək onun gəlməsi ilə aləmlərə göndərdiyi vəhyə son qoymuş, bizi isə həmin Peyğəmbərə itaət etmək şərəfilə başqa ümmətlərdən seçmiş və bizimlə mələkləri onun şahidləri etmişdir.

Uşaqlıqların (analar bətninin) səhifələrində bədən üzvlərinin şəklini və hissələrinin surətini çəkən kimsəyə şükür edirəm ki, o həmin bədən üzvlərini nəfslər, ağıllar, duyğular və qüvvələrin mərkəzinə çevirmiş, Adəmə adları öyrətdiyi kimi, həmin üzvlərin iliyinə qədər ruh aşılamışdır; həmçinin Adəmə göylərdəki mələkləri tabe etdiyi kimi, üzvləri də ruha tabe etmişdir.

Sonra bizim ağamız Məhəmmədə səlavat yetirirəm ki, onun göndərilməsi səbəbinə varlıq nemətləri bizim üçün tamamlanmış, ona, onun kamal nurunun parıltıları və xəyal izlərinin aşkara çıxaranları olan övladı və yoldaşlarına səlavat göndərmək imkanı əldə etməklə səxavət hədiyyələri bizim üçün təkmilləşmişdir.

(Bu müqəddimədən) sonra (özünü) üsuli-elm məsələlərini bilən (kimi qələmə verən) Süleyman oğlu Füzuli ləqəbli Məhəmməd belə deyir:

– Mən varlıqlara idrak və hissiyyat gözü ilə baxaraq təfəkkür və düşüncə addımları ilə onları seyr edib gördüm ki, hər hansı bir cinsə aid olan növ, hər hansı növə aid olan sinif, hər hansı sinfə aid olan fərd və hər hansı fərdə aid olan bir üzv istər iradə ilə, istərsə də iradəsiz olaraq mütləq bir işlə məşğuldur. Buna görə fəaliyyətsizlik və laqeydlikdən çəkinərək ömrümü qəflətdə korlamaqdan saqındım və işlərdən birini seçdim ki, onunla qismətim və bacardığım qədər (bilik) kəsb edəm. Məni bu işə təşviq edən "Elmləri, hətta sehri də öyrənin" (hədisi) olmuş, həm də (Allah) "Biz ona (Məhəmmədə) şeir öyrətmədik"[1] deyərək, məni öyrətmişdir. Beləliklə, mən sözləri nəzmə çəkmək yoluna düşdüm və bu yolda (Kainatın) nizamının hikmətini dərk etdim. Mənim nəzmim mənə göstərdi ki, əşyadakı ahəngdarlıq üçün bir nizamlayıcı, hissi və əqli rəqəmlər üçün də bir hesablayıcı olmalıdır. Buna görə onun tam mərhəmətindən yardım istəyərək onu tanımaq yolunu axtardım. Arzum budur ki, mən düz yola doğru istiqamət alım və o mənə müvəffəqiyyət verməklə yardım etsin. Beləliklə, (müxtəlif) əqidə sahiblərinin təriqətləri ilə tanış oldum və onların faydalısını mənimsədim. Zaman tələb edirdi ki, bunların mövcudiyyəti qorunub saxlansın və əsrarı gizli qalmasın. Buna görə, onları mühafizə etmək üçün dörd rüknü (sütunu) olan bir ev tikdim; belə ki onun hər bir təməlində iman bağına açılan bablar (qapılar) vardır. Belə bir binanı "Mətlə ül-etiqad fi-mərifəti-l-məbdəi vəl-məad" – mənşə və qayıdış yerini tanımağa aid (etiqada giriş) adlandırdım.

Belə ki:

Birinci rükn elm biliyi (mərifəti) və bilik (mərifət) elmi haqqındadır.

İkinci rükn aləmin vəziyyətlərinin biliyi haqqındadır.

Üçüncü rükn vacibə ( Tanrıya) aid bilik haqqındadır

Dördüncü rükn peyğəmbərliyə və ona aid olanlara dair biliklər haqqındadır.

---

[1] "Quran"ın "Yasin" surəsi, 69-cu ayə.

Birinci rükn

## ELM BİLİYİ VƏ BİLİK ELMİ HAQQINDA OLUB BEŞ BABDAN İBARƏTDİR

Birinci bab

### HƏMİN İKİ MƏSƏLƏNİN MAHİYYƏTİ HAQQINDADIR

Filosofların bəzisinə görə, elm aləmin zatında məfhum olana bərabər bir surətin əldə edilməsindən ibarətdir. Bəzilərinə görə isə elm əşyanın surətinin ağıl vasitəsilə qavranmasından ibarətdir. Bir sözlə desək, elm biliyinin həqiqəti bilik (mərifət) elmindən ibarətdir; çünki bunların hər ikisi cəhlin müqabilidir. (Bəziləri) demişlər ki, elm iki qismə bölünür:

Birincisi, cəhlin ardı olmayan elmdir (yəni elə elmdir ki, ondan qabaq cəhl olmamış), bu da Tanrının elmidir.

İkincisi, cəhldən sonrakı elmdir ki, bu bizim elmimizdir (yəni insanların öyrəndiyi elmdir). Bu sonuncu təsəvvür və təsdiq (mərhələlərinə) bölünür. Belə bir elm bilik adlanır: çünki o, bir bildirəndən (öyrədəndən) asılıdır.

(Bəziləri isə) demişlər ki, elm iki cürdür:

Birisi, Hüzuri – yəni bildirmə vasitəsindən asılı olmayan elmdir. Məsələn, Tanrının bütün məfhumlar haqqındakı elmi və yaxud bizim öz varlığımız haqqındakı elmimiz belədir. Digəri hüsuli, yəni vasitədən asılı olan elmdir. Məsələn, bizim bəzi şeylərin mahiyyətləri haqqındakı elmimiz belədir. Belə bir elmə bilik də deyilir, çünki bu elmin bir bildirənə ehtiyacı vardır.

Sonra (bəziləri) demişlər ki, külliyyatı və yaxud mürəkkəb şeyləri dərk etmək elmdir, lakin təfərrüat və yaxud sadə şeyləri dərk etmək bilikdir (mərifətdir).

Demək olmaz ki, təfərrüatın dərk edilməsi biliyə (mərifətə) xasdır, belə bir bilik Tanrıya mənsub edilməzsə, belə nəticə çıxar ki, guya Tanrı təfərrüatı dərk etmir; bu isə filosofların fikridir. Halbuki Tanrı külliyyat içərisindəki təfərrüatı külliyyatla birlikdə və eyni zamanda ayrı-ayrı təfərrüatın biliyindən asılı olmadan, hərtərəfli olaraq dərk edir.

Həmçinin (bəziləri) demişlər ki, təfərrüatın dərk edilməsi ilə külli bir məfhum da dərk edilir; çünki külli məfhum həmin məfhumun təfərrüatının biliyindən ibarətdir. Bu mənada olan (bilik) elm adı daşıyır və insana alim deyildiyi kimi, arif də deyilir.

Bəzi filosofların dediyinə görə, Hüzuri elm ola bilməz, çünki Tanrının elmi məfhumların mövcudiyyətindən asılıdır. Bizim öz mövcudiyyətimiz haqqındakı elmimiz isə ağıldan asılıdır və bütün elmlər hüsuli olduğuna görə Tanrıya da bilik (mərifət) isnad etmək doğrudur. Ancaq bu barədə ifratçılıq olub, şəriət rüsumu ilə bir yerə sığmaz; çünki kəlam elmində belə bir məsələ yoxdur.

Kəşf əhli olan bəzi tədqiqatçıların dediyinə görə, bilik (mərifət) elmdən yüksəkdir; çünki onların fikrincə, ilahiyyat haqqında məsələlər və islahatlara aid hər nə varsa, elmdir, zat və



sifətlərə aid olanlar isə bilikdir (mərifətdir). Məsələnin belə qoyuluşu həqiqətin əksinədir; çünki Tanrıya öz kəlamında ("Quran"da) bilik deyil, elm sifəti isnad edilir və beləliklə, elm bilikdən yüksəkdir.

Qədərilər (deterministlər) və salehilərin bəzisi demişlər ki, bilik imandan ibarətdir, çünki iman təsdiqdir, təsdiq isə elmin bilik adlanan bir qismidir, (Tanrının)"... ancaq İman gətirib xeyir iş görənlər"[1] (dediyindən anlaşıldığı kimi) bilik bütün xeyir işlərin müqəddiməsidir.

(Bəziləri) demişlər ki, Tanrının sevdiyi birinci şey bilikdir və o (Tanrı) demişdir: "Mən gizli bir xəzinə idim və istədim ki, məni tanısınlar, bilsinlər; buna görə məxluqatı yaratdım"[2].

İkinci bab

### BİLİYİN (MƏRİFƏTİN) VACİBLİYİ HAQQINDADIR

Bu həm ehkam, həm də ağıl vasitəsilə isbat edilmişdir. Ehkama gəldikdə, (Tanrının) "Mən cinləri və insanları ancaq ona görə yaratdım ki, mənə ibadət etsinlər"[3] sözü sübut ola bilər. İbadət isə həmin bilikdir. Başqa sözlə desək, xeyir işlər və onları yerinə yetirmək vasitələrinə, həmçinin günahlar və onlardan çəkinmək yollarının biliyinə aid olan hər bir şey (ibadət adlanır).

Ağıl (məsələsinə) gəldikdə isə Mötəzililər və Cəhimilər ağılın ehkamdan üstün olduğunu təsdiq edirlər. Onların sübutu belədir: Allah insanı başqa varlıqlardan ona görə üstün tutmuşdur ki, insan işləri ağıl və idrak ilə idarə edir. Buna görə (ağıl və idrakdan) qəflət etmək bu alətləri işlətməməyə, fəaliyyətsizliklə və etinasızlıqla bu nemətləri korlamağa səbəb olar.

Yaxşısı budur ki, ağıllı adam öz yaranması haqqında düşünsün, öz xilqətinin əslini araşdırsın, öz mənşə və qayıdış yerinin vəziyyətini dərk etsin, öyrənmək fürsətini itirməzdən əvvəl özünün xeyir-şər yolunu bir-birindən ayırd etsin və sual-cavab zamanını nəzərindən qaçırmasın. Bunların (Mötəzililər və Cəhimilərin) etiqadına görə, insanlar növ etibarilə birləşmiş (eyni) və öz növünə aid olan vəsait etibarilə bir-birilə ortaqdırlar. Buna görə onlar arasında ancaq bilikcə fərq vardır. Biliklər isə müxtəlifdir. Biliklərin ən şanlı və ən şərəflisi onların ən çətini və ən xeyirlisidir. Bu isə ruhani səadət və insani kamaldan (inkişafdan) ibarətdir.

Deməz olmaz ki, fəsada (pozğunluğa) əməl etmək həmin fəsadın müqəddiməsinin (hazırlıq vəsaitinin) biliyindən asılıdır və fəsad nöqsan vasitələrindən (hesab) olunduğuna görə, ümumi şəkildə götürülmüş bilik kamal vasitəsi hesab edilə bilməz. Çünki (belə bir mühakimə ona görə doğru deyildir ki) məsələ ağıla (ağılın hökmünə) aid olur. Belə ki əgər ağıl biliyə əsasən fəsad haqqında hökm verərsə, fəsaddan çəkinməsi vacib olur. Nəticədə, çəkinməli şeydən çəkinmək fəsad haqqında biliyə deyil, inada (nifrətə) əsaslanmış olur.

[1] "Quran"ın "Əsr" surəsi, 3-cü ayə.
[2] Bu, "Hədisi-qüdsi"dən götürülmüşdür.
[3] "Quran"ın "Zariyat" surəsi, 56-cı ayə.

Üçüncü bab

## BİLİYİN (MƏRİFƏTİN) NÖVLƏRİ HAQQINDADIR

Bilik iki növdür.

Birincisi, dünya işlərinə, məsələn, yaşayış vəsaitinə aiddir.

İkincisi, din işlərinə aiddir ki, bu da iki növdür:

Birincisi, etiqadlara, ikincisi isə ibadətlərə aiddir.

Etiqadlar da iki növdür: birincisi, vacibə (Allaha), ikincisi isə mümkünə (yaranmışlara) aiddir. Allaha aid olan etiqadlar da iki növdür: birincisi, onun zatına, ikincisi, sifətlərinə aiddir.

Başqa bölgüyə görə, bilik altı növdür, çünki bilik mövcudiyyəti insanın şüurlu hərəkətindən ya asılı olan və ya asılı olmayan əşyaya aiddir.

Birincisi əməli, ikincisi isə nəzəri (bilik)dir.

Əməli bilik üç növdür:

Birincisi, nəfsə (fərdə) aid olan əxlaq elmidir; ikincisi, cəmiyyətin ya xırda bir hissəsinə aid olan bir bilikdir ki, bu, ailə idarəsindən ibarətdir, ya da bütün cəmiyyətə aid olan bilikdir ki, bu da ölkə siyasəti (idarəsi) adlanır.

Nəzəri (bilik) də üç növdür. Çünki nəzəri bilik varlığında maddənin iştirakı ya şərt olmayan və ya şərt olan əşyaya aiddir. Birincisi, ilahiyyatdır. Məsələn, sadə və mücərrəd biliklər (belədir). İkincisi, elə əşyaya aiddir ki, onu düşünmək üçün maddə haqqında düşünmək ya nəzərə alınmır və ya nəzərə alınır. Birincisi, riyazi[1] elmlərdir. Zahirdə varlığı olmayan ümumi məsələlərə aid biliklər (buna misal ola bilər). İkincisi isə təbiyyatdır. Mürəkkəb əşyaya aid bilik (buna misal ola bilər).

Başqa bölgüyə görə bilik iki yerə bölünür: birincisi, mahiyyət etibarilə dünya işlərinə və nəticə etibarilə axirət işlərinə aiddir. Adi sənətlər, məsələn, əkinçilik, ticarət, dərzilik və sairə buna misal ola bilər. İkincisi isə mahiyyət etibarilə axirət işlərinə və nəticə etibarilə dünya işlərinə aid olub geniş yayılmış elmlərdən ibarətdir. Məqul (rasional) və mənqul (rəvayətə əsaslanan) elmlər və ədəbiyyat buna misal ola bilər. Bütün bunların hər birisi üçün bir-birindən fərqlənən istilahlar vardır.

Dördüncü bab

## BİLİYİN YOLLARI (ÜSULLARI) HAQQINDADIR

Tədqiqatçılar məqsədə çatmaq üçün lazım olan biliyin yollarına aid müxtəlif fikirlər irəli sürmüşlər:

Bəziləri deyirlər ki, belə bir yol ağıla əsaslanan mühakimədən ibarətdir, çünki əgər ağıl doğru-düzgün mühakimə əsasında fəsaddan və pozğun nisbətlərdən çəkinərək (məntiqi

[1] Riyaziyyat sözü ilə qarışdırmamalı.



mühakimənin) iki müqəddiməsini istər təsdiq, istərsə də inkar nöqteyi-nəzərindən düzərsə, mütləq düzgün nəticə əldə edər. Bunlar istidlalçılardır. Əgər (bu tədqiqatçılar) dinlərdən birisinə tabedirlərsə, Mütəkəllimlər[1], (yoxsa) Müşayiblər[2] (adlanırlar).

Bunlardan (tədqiqatçılardan) bəzisi deyirlər ki, belə bir yol nəfs riyazətindən (asketizmdən) və batini təmizləməkdən ibarətdir; çünki nəfs mahiyyətcə ruhanidir, ancaq cismani örtüklər, bədən və bədənlə əlaqədar olan manеələr bilikləri nəfsdən pərdələyir (gizlədir). Əgər bu pərdələr riyazətlərlə (asketik təmrinlərlə) aradan qaldırılaraq Tanrıya doğru istiqamət əldə edilərsə, nəfs vasitəsiz olaraq mənşədən (Tanrıdan) feyz almaq qabiliyyətinə malik olar. Beləliklə, bunlar riyazət yolunu əsas götürərək, biliklərdə ağılın rolunu tamamilə rədd edirlər. Bunlarla İnkişafilər[3] deyilir. Əgər kafirdirlərsə İşraqilər, müsəlmandırlarsa, Sufilər adlanırlar.

Bunlardan (tədqiqatçılardan) birisi olan Şəriətçilərə görə, belə bir yol (üsul) peyğəmbərlərin ardınca getmək və öyrənməkdən ibarətdir. Bunlar şəriət əhlidirlər. Şəriətçilər rəvayətə əsaslanır və iki qrupdan – Təvililər və Tənzililərdən ibarətdirlər.

Bunların (tədqiqatçıların) digər bir qismi deyirlər ki, belə bir yol (üsul) ağıl və ixtiyar[4] yolundan ibarətdir. Belə bir yol bilik axtaran (insanın) ilahi cəzbə növlərindən birisini qavramaq qabiliyyətindən asılıdır. Cəzbə isə iki növdür: birincisi, fövri cəzbədir. İlham və vəhy buna misal ola bilər. Bu cəzbə peyğəmbərlər və övliyalara xasdır ki, əqli istidlallara, nəfs riyazətinə və rəvayətə əsaslanan ehkamı tədqiq etməyə onların ehtiyacı yoxdur. Beləliklə, (peyğəmbərlər və övliyalar) ən yüksək rütbəyə çatmışlar. Bu isə həqiqi məqam adlanır. İkincisi isə tədrici cəzbədir. Belə bir cəzbə ondan ibarətdir ki, tələb edən (ilahi cəzbəni qavramağa qabiliyyəti olan) əvvəlcə çalışır ki, əşyada müqəddəs zat öz parlaq şəklində aydınlaşsın; necə ki Vadiyi-eyməndəki odda (Turi-Sina dağında) Kəlimə (Musaya), İsmayıl barəsində İbrahimə və Yusif barəsində Yəquba aydınlaşmışdı. Belə bir cəzbə nəticəsində o (insan), Tanrıdan başqa hər bir şeyə tamamilə göz örtür. Sonra həmin cəzbə insanı surətdən mənaya (məzmuna) keçirir, onun nəzərində olan xəyali şəkilləri və mövhum nəqşləri aradan qaldırır və onu həqiqi məqama çatdırır. Bu isə məcazi məqam adlanır.

[1] Bunlar istidlal tərəfdarlarıdır.
[2] Zənnimizcə, məşşailər – peripatetiklər Ərəstu fəlsəfəsinin tərəfdarları olmalıdır və katib səhvidir.
[3] Kəşf əhli.
[4] Sərbəstlik.

İkinci rükn

## ALƏMİN ƏHVALINI BİLMƏK HAQQINDADIR. BEŞ BABDAN İBARƏTDİR

Birinci bab

### ALƏMİN MƏNŞƏYİ HAQQINDADIR

Aləmin mənşəyi Tanrıdan başqa bütün digər varlıqlardan ibarət olub dəyişməz bir həqiqəti (gerçəkliyi) vardır.

Sofistlər (Səfsətəçilər) deyirlər ki, aləm xəyali və boş mövhumatdan ibarət olub həqiqəti yoxdur. Belə bir iddia nəhayət (dərəcədə) tərslikdir. Ona görə ki onların (səfsətəçilərin) özü də aləmin bir hissəsidirlər və aləmin həqiqətini inkar etmək haqqında mühakimə yürüdürlər. Beləliklə, əgər onlar öz mühakimələrini etibarlı hesab edirlərsə, bununla sabit olar ki, aləmin də həqiqəti vardır və onların iddiası və yaxud hökmü boşdur.

Ağıllı insanlar dünyanın mənşəyi haqqında müxtəlif fikirlər irəli sürmüşlər. Filosoflardan Miletli Fales demişdir:

"Aləmin bir yaradıcısı vardır. Əql bu yaradıcının sifətini mahiyyətcə deyil, ancaq onun əsərləri etibarilə dərk edə bilər. O elə bir ünsür yaratmışdır ki, onda varlıqlar və məfhumların şəkli vardır. İstər mənəvi, istərsə də maddi aləmdə olan bütün varlıqların şəkli həmin ünsürdə vardır".

Əflatun isə ona (Falesə) əsaslanmış və həmin ünsürü Əflatun qəlibləri (müsüli-Əflatun) adı ilə məşhur olan qəliblərdə ifadə edərək demişdir:

"Aləm iki aləmdən ibarətdir: 1. Əql aləmi ki əqli qəliblər və ruhani surətlər oradadır. 2. İçərisində cismani bədənlər və növə mənsub cisimlər olan və parlaq bir güzgü kimi əşyanın şəklini özündə əks etdirən duyğu aləmi; belə ki, bu aləmdəki varlıqlar o aləmdəki varlıqların izləri (inikası)dir".

Rəvayətə görə, Fales demişdir:

"İlk ünsür sudan ibarətdir, suyun hər bir şəklə düşmək qabiliyyəti olduğuna görə, onun sıxlaşıb bərkiməsindən yer, durulmasından (incələşməsindən) od və hava əmələ gəlmişdir. Göy isə odun tüstüsündən törəmişdir".

Bu (fikir) isə Tanrının dediyi "Onun ərşi su üzərində idi"[1]sözünə uyğundur.

Falesin fikrini Anaksaqor da qəbul etmişdir.

Miletli Empedokl isə demişdir:

"İlk ünsür mütləq bəsit (deyil), içərisində məhəbbət (cəlbedici) və qələbə (rəddedici) olan birləşmədir. Bu ünsürdən həm bəsit və ruhani cövhərlər, həm də mürəkkəb və cismani cövhərlər törəmişdir və bu nöqteyi-nəzərdən qoşalar növ və sinifcə bir-birilə birləşərək varlıqlara çevrilmişdir. Lakin əksliklər bir-birilə ziddiyyətə girərək fəsada (pozulub parçalanmaya) səbəb olmuşdur".

[1] "Quran"ın "Hud" surəsi, 7-ci ayə.



Empedoklun fikrini filosof Heraklit də qəbul etmişdir.

Pifaqor demişdir:

"Tanrı əql ilə ruhu eyni zamanda yaratdıqdan sonra onların vasitəsilə (əql ilə ruhdan) aşağıdakıların (aşağı dərəcəli şeylərin) hamısını yaratmışdır".

Plutarx Sokratdan rəvayət edir ki, Sokrat demişdir:

"Əsaslar üçdür: bunlar yaradıcı, ünsür (element) və surətdən ibarətdir".

Demokrit demişdir:

"Əsaslar yalnız element və ya əql deyil, dörd qatışıqdan ibarət olmuş və bunlardan bütün bəsit şeylər eyni zamanda (dərhal) törənmişdir. Bunların ardınca sonradan mürəkkəb şeylər növ üzrə əmələ gəlmiş, sonra bütün aləm törənmişdir. Bütün bunlar əbədidir, çünki daimi olan aləmlə bağlıdır".

Ərəstu demişdir:

"Vahid yaradıcıdan ilkin fəal əql nəşət etmişdir. Əql öz mahiyyəti etibarilə vacibdir. Əql öz mahiyyətini və səbəbiyyətini xatırlamış və bu xatırlamadan şeylər nəşət etmişdir".

Bu fikir (Peyğəmbərin) dediyi "Tanrının ilk yaratdığı şey ağıldır" sözünə uyğundur.

Sənəviyyələr (dualistlər) demişlər:

"İlk mənşə müdrik bir nur olmuşdur. Bu (müdrik nur) özü haqqında düşünərək demişdir ki, əgər mənim tayım meydana gələrsə, necə ola bilər? Belə bir düşüncədən nur (işıq) və zülmət (qaranlıq) əmələ gəlmişdir. İşıq və qaranlıq isə varlıqların iki əsası olmuşdur. İşıq "Yəzdan", qaranlıq isə "Əhrimən" adlandırılmışdır. Bunların ruhani və cismani (şeylər), xeyir və şər meydana gəlmişdir".

Filosof Heraklit demişdir:

"İlk ünsür bir dəfə özünü, bir dəfə mənşəyini, bir dəfə də həmin mənşəyə olan münasibətini təsəvvür etmiş və beləliklə, əmələ gəlmiş bu üç təsadüfdən ruh və əql yaranmışdır. Sonra ünsürdəkilərin ruhda təcəssüm etməsindən məhəbbət və ədavət (cəlbetmə və rəddetmə) əmələ gəlmişdir. Sonra ruhdakıların əqldə təcəssüm etməsindən məhəbbətlə ədavətdən qarışıq olan varlıqlar yaranmışdır. Beləliklə, varlığın səbəbi məhəbbətdir. Məhəbbət isə birləşmənin səbəbidir. Fəsadın (pozulub dağılmanın) səbəbi isə ədavətdir. Ədavət isə ayrılmanın səbəbidir. Məhəbbətlə ədavət xeyir və şərin səbəbləridir. Belə bir üsul qiyamətə qədər davam edəcəkdir. Qiyamət günündə xeyir şərdən azad ediləcək. (Xeyir iş görənlər) dəstəsi behiştə, (şər iş görənlər) dəstəsi isə cəhənnəmə gedəcəklər"[1].

Bu, qiyamətə inanmaq məzhəbindən ibarətdir.

İkinci bab

### ALƏMİN CÜZLƏRİNİ BİLMƏK HAQQINDADIR

Duyulan (bu) aləm bir-birilə bağlı olan və sonradan əmələ gəlmiş cisimlərdən mürəkkəbdir. Onların əmələ gəlməsi barədə müxtəlif fikirlər irəli sürülmüşdür:

Bəzi adamlar, o cümlədən şəriətçilərin hamısı demişlər ki, onların həm mahiyyətləri, həm də sifətləri sonradan əmələ gəlmişdir.

[1] "Quran"ın "əş-Şura" surəsi, 7-ci ayə.

Bəziləri, yəni Ərəstu, Prokl, Femistus, Əbu Nəsr (Əl-Farabi), Əbu Əli ibn Sina demişlər: Fələklərin həm mahiyyətləri, həm də hərəkətdən başqa digər miqdar və şəkil kimi əyani sifətləri qədimdir. Ünsürlərin maddələri öz fərdiyyəti (şəxsi) etibarilə qədimdir; onların cismani şəkilləri öz növü etibarilə də qədimdir və növi şəkilləri öz növünə görə deyil, cinsi etibarilə qədimdir.

Bəziləri, yəni Ərəstudan əvvəlki filosoflar demişdir:

"Fələklər mahiyyətcə qədimdir (qədimi-zatı), lakin cismani və növi şəkilləri sonradan əmələ gəlmişdir".

Buradakı "Qədim" vacib haqqında deyilən zati-qədim (qədimi-zati) deyil, zamani-qədimlik (qədimi-zamani) nəzərdə tutulur.

Belə demişlər ki, mümkün (törənmiş) varlıqlar ülvi (yuxarı) və süfli (aşağı) varlıqlardan ibarətdir.

Ülvilər (yuxarıdakılar) doqquz fələkdən ibarətdir:

Birincisi, Ay fələyidir – fələkül-Qəmər.

İkincisi, Merkuri fələyi – fələki-Ütarid.

Üçüncüsü, Venera fələyi – fələküz-Zöhrə.

Dördüncüsü, Günəş fələyi – fələküş-Şəms.

Beşincisi, Mars fələyi – fələkül-Mirrix.

Altıncısı, Yupiter fələyi – fələkül-Müştəri.

Yeddincisi, Saturn fələyi – fələküz-Zühəl.

Səkkizincisi, Bürclər fələyi – fələkül-Büruc.

Doqquzuncusu, Ətləs fələyi – fələkü-Ətləs.

Ətləs fələyi başqa fələklərin əksinə olaraq şərqdən qərbə gündəlik dairəvi hərəkətdədir. Bu fələklərin hər birisinin özünə xas olan sürətli və yaxud aram hərəkəti vardır. Onların hamısı şəffaf və gözəgörünməz cisimlərdir. Ulduzlar isə parlaq cisimlərdir. Hər hansı bir kütlə və cismin hərəkətverici və idarəedicisi vardır ki, filosoflara görə, ülvi (səmavi) mücərrəd varlıqlardan və şəriətçilərə (dinçilərə) görə, göydəki mələklərdən ibarətdir.

Süflilərdən (aşağıdakılardan) birisi Yer kürəsidir ki, mərkəz nöqtələrini əhatə edir. Birisi sudur ki, Yer kürəsini əhatə edir. Birisi havadır ki, suyu əhatə edir. Birisi də oddur ki, havanı əhatə edir və Ay Fələyinin batıq (içəri) tərəfinə toxunur. Bunların hər birisinin lətif (incə) cismi, müəyyən mərkəzi, həcmi, idarə edəni və qüvvə ilə saxlayanı vardır. Bu saxlayanlar filosoflara görə, nəfslər və əqldən, şəriətçilərə görə, yer mələklərindən ibarətdir.

Göy kütlələri ünsürlərə təsir göstərdiklərinə görə atalar, ünsürlər isə onlardan təsir qəbul etdiyinə görə, analar adlanır. Bunlardan əmələ gəlmiş mürəkkəb varlıqlar üç doğulmuş (məvalidi-səlasə)dən ibarətdir:

1. Mədəniyyat (camidlər) ki, doqquzdur və qabiliyyətlərinə görə sıralanmışdır, hər birisinin xüsusi səciyyəsi və özünə xas olan keyfiyyəti vardır və onların vasitəsilə (cəmiyyət) quruluşunun gedişi təkmilləşir və dünya işləri qaydaya salınır. Alverdə pul, əkinçilik və dərzilikdə alətlər və s. bunlara misal ola bilər. Mədəniyyat varlıqlar içərisində (hamıdan əvvəl) cəmiyyət quruluşuna xidmət etmək üçün birləşmə feyzi ilə şərəflənmişdir.



2. Bitkilər – cisim olmaq etibarilə mədəniyyata bərabərdir. Bundan əlavə, (mədəniyyatda olmayan xüsusiyyətlərə) böyümə, qidalanma, törətmə və təsviri xüsusiyyətlərə malikdir. Bitkilər heyvanların yaşaması vəsaitidir.

3. Heyvanlar – bitkilər və mədəniyyatda olanlardan əlavə iradi hərəkətə malikdir. Heyvanların onlardan üstünlüyü insana daha yaxın olmaları ilə izah edilir. İnsan isə yaradıcıya hamıdan yaxındır.

Fələkiyyatda zahiri dövretmə (hərlənmə) vardır, bu isə aşkardır. Ünsürlərdə isə mənəvi (batini) dövretmə vardır. Belə ki ünsürə mənsub olan sadə cövhərlər gah tərkib edilmək qabiliyyəti əldə edir və bir-birilə birləşərək tədriclə mədəniyyat, bitkilər və heyvanlar surətində dövr edir və bu mərhələlərin hər birisində yuxarı (ülvi) aləmdən xüsusi feyz alır. Bu (cür dövretmə) KÖVN (varlıq) adlanır. Gah da bu tərkib hissələri bir-birindən ayrılaraq hər bir hissə bir kürəyə doğru meyil edir və beləliklə, tərkib aləmindən təklənmə (təcziyə, sadələşmə) aləminə keçir. Bu (cür dövretmə) isə FƏSAD (pozulma, dağılıb parçalanma) adlanır.

Ərəstu aləmin (sonradan) əmələ gəlməsi (hüdusu) barədə demişdir:

"İlk ünsür əvvəlcə yox imiş, sonradan əmələ gəlmişdir. Onun yoxluqdan vücuda gəlməsi hərəkətdir. Mövcudiyyəti hərəkət vasitəsilə olan hər bir şeyin qalıb yaşaması hərəkət vasitəsilə olmalıdır. Əvvəlcə (o), üç səmtdə, yəni boy (uzunluq), en və dərinlik istiqamətində hərəkət edərək cisim olmuşdur. Sonra bütünlüklə deyil, (bir hissəsi) dairəvi şəkildə hərəkət etmişdir. Ona görə (bütünlüklə deyil) ki, dairəvilik ortanın mövcud olmasını tələb edir. Beləliklə, onun ortadakı hissəsi hərəkətsiz qalmış və digər hissəsi hərlənmişdir və nəticə etibarilə cismin hərlənən hissəsi ilə onun hərəkətsiz hissəsi bir-birinə sürtünmədə olmuşdur. Sonra hərlənən hissənin sürətinin artması nəticəsində hərəkətsiz hissədə istilik, qızışma və yumşalma əmələ gələrək ərimiş və sonra oda çevrilmişdir. Lakin od fələyə nisbətən daha az sürətlə hərəkət etmiş və bu hərəkət nəticəsində hərəkətsiz sahənin bir hissəsində hərəkət əmələ gəlmiş və həmin hissə havaya çevrilmişdir. Hərəkətsiz sahənin hava ilə toxunan hissəsi olan cisim ilk hərəkət edən (fələk)dən uzaq olduğuna görə, hərəkət etməmiş və bu hərəkətsizlik nəticəsində soyumuşdur. Sonra hava ilə qonşu olduğuna görə rütubətlənərək suya çevrilmişdir. Ortadakı hissə isə fələklərdən uzaq olduğuna görə, hərəkət və istilikdən heç də istifadə edə bilməmiş və hərəkətsiz, soyuq torpağa çevrilərək mürəkkəb varlıqlar ondan əmələ gəlmişdir".

Deyilmişdir ki, aləm əyan (aşkar varlıqlar) və ərəzlərdən ibarətdir. Əyan-aşkar varlıqlar sərbəst (asılı olmadan) mövcud olan varlıqlardan ibarətdir. Bu (obyektiv varlıqlar) mütəkəllimlərə (ehkama əsaslananlara) görə, iki növə – mürəkkəb və qeyri-mürəkkəb (sadə) növlərə bölünür.

Əşərilərə görə, iki və daha artıq hissədən ibarət, Mötəzililərə görə isə dörd və ya səkkiz hissədən ibarət olan mürəkkəblər cisim, qeyri-mürəkkəblər isə cövhər adlanır.

Filosoflara görə, cövhərlər beş növdür. Ona görə ki, ya bir məhəldə (yerdə) yerləşir, ya həmin yerləşənin məhəllidir, ya bunların hər ikisinin birləşməsindən ibarətdir, yaxud həmin birləşmədən idarəedilmə etibarilə asılıdır və ya asılı deyildir. Birinci surət (şəkil), ikincisi həyula (maddə), üçüncüsü cisim, dördüncüsü nəfs (ruh), beşincisi isə əqldən ibarətdir.

Asılı olmayan (sərbəst) əqllər (Üquli-müfariqə) odur ki, onlardan doqquzu fələk nəfsləri-ni idarə edir. Birisi də "fəal əql" (Əqli-fəal)dır ki, bizim nəfslərimizi idarə edir.

Deyilmişdir ki, insan əqlinin müxtəlif mərtəbələri və hər mərtəbədə onun müəyyən vəzifəsi və adı vardır:

Birincinin adı maddi əqldir (əqli-həyulani) ki, təcəssüm edilmək (cisimləşmə) qüvvəsindən ibarətdir.

İkincisi, nəzəri əqldir (əqli-nəzəri) ki, ümumi məsələlərin mahiyyətini qəbul edən qüvvədir.

Üçüncüsü, əməli əqldir (əqli-əməli) ki, cüziyyata aid istənilən şeylərə həvəs oyadan qüvvədir.

Dördüncüsü, istedad əqldir (əqli-bil-mələkə) ki, maddi qüvvənin inkişafıdır.

Beşincisi, feldə (potensial) olan əqldir (əqli-bil-fel) ki, nəfsin (ruhun) istənilən vaxt (lazımi) şəkildə hazırlanan təkmilidir.

Altıncısı, nəticə əqlidir (əqli-müstəfad) ki, nəfsdə təcəssüm edən mücərrəd mahiyyətdir.

Doqquz cinsdə (kateqoriyada) yerləşmiş ərəzlər isə bunlardır:

Kəmiyyət – (kəmm), keyfiyyət – (keyf), mənsubiyyət – (izafə), vəziyyət – (vəz), məkan – (əyn), zaman – (məta), mülkiyyət – (milk), təəssür – (infial), təsir – (fel).

## Üçüncü bab

## DÜNYA ƏHLİNƏ AİD BİLİK HAQQINDADIR

Dünya əhli iki yerə bölünür:

Birincisi, elə adamlardır ki, vəhy və ilhama nail olmuş və ya əql və vaxtlarını əşyanın həqiqətlərini bilməyə sərf etmiş, bu həqiqətlərdən əql və ya vicdana əsaslanan dəlillər vasitəsilə əzəli və əbədi bir yaradıcının varlığını isbat etmiş, onun ibadətinə məşğul olmuş və öz üsulları əsasında qayda-qanunlar vermişlər. Onlar müdrik tədqiqatçı müəllimlərdir.

Digərləri isə elə adamlardır ki, bütün səylərini və ömürlərini təqlid etməyə həsr edərək etiqad və ibadətlərində yuxarıdakı camaatdan rəhbərlik almış və işlərində eşitdiklərinə (ehkama) əsaslanmışlar. Bunlar isə təqlidçilərdir.

Elələri də vardır ki, Tanrının əzəli mərhəmətinə nail olmuş, elələri vardır ki, təbiətən insan olmalarına baxmayaraq, mələklər onların qarşısında baş əymişlər və səadət onların sayəsində olmuşdur. Peyğəmbərlər və onlara tabe olanları buna misal göstərmək olar. Elələri də vardır ki, korlanmışlar və onların aqibətinin həqiqətini Tanrı daha yaxşı bilər.

Başqa bölgü üzrə (dünya əhli) iki yerə bölünür:

Birincilər demişlər ki, işlərdə bizim heç bir ixtiyarımız yoxdur və bu (məsələ) aydındır, çünki bizim vücudumuzun maddəsi başlanğıcından indiyə qədər müxtəlif şəkillər və vəziyyətlərdə bizdən və bizim iradəmizdən asılı olmayaraq dolanmışdır (dövr etmişdir), indi də elədir; bizim nə azadlığımız vardır, nə də müdaxiləmiz. Buna görə bunlar öz işlərində qəza-vü-qədərə təslim olmuşlar. Onlar (əhli- təslim) təslimçilərdir (fatalistlərdir).

Digərləri isə demişlər ki, işlərdə bizim azadlıq və iradəmiz vardır; əgər belə olmasaydı, biz mükafata, yaxud cəzaya, yoxsulluğa, yaxud zənginliyə layiq olmazdıq. Bunlar isə səbəbçilərdir



(əhli-səbəb) – (deterministlərdir). İnsanların çoxusu bu əqidənin tərəfdarıdır və bu əqidə doğrudur.

Başqa bölgü üzrə (dünya əhli) dörd qismə bölünür: çünki bunlara görə, ulu Tanrı cisimlərdən əvvəl ruhları yaratmış və onlara demişdir ki, "mən sizin Tanrınız deyiləmmi?"[1]. O ruhların bəzisi "bəli!", bəzisi "xeyr!" demişdir. Sonra Tanrı sözü yenidən təkrar etmişdir. Bu dəfə təsdiq edənlərin bəzisi inkar etmiş, inkar edənlərin bəzisi isə təsdiq etmişdir. Bundan sonra ruhlar dağılışaraq tədriclə isimlər aləminə yönəlmişlər. Onların içərisində həm ilk, həm də son dəfə "yox" deyənlər kafir olmuş və iman gətirməmişlər. İlk dəfə təsdiq edib sonra inkar edənlər əvvəlcə mömin olmuş, sonra isə kafirə çevrilmişlər. Bunların əksinə olanlar isə əksinə olmuşdurlar. Belə bir gün "Yövmül-misaq" (Əhdi-peyman günü) adlanmışdır. Cəsədlər arasındakı birləşmə və ayrılma həmin günün saziş və ayrılmasının nəticəsidir. Bu isə (Peyğəmbərin) belə bir sözünə uyğundur ki, "Ruhlar səfərbər edilmiş ordulardır, həmin orduların təsdiq edənləri bir-biri ilə birləşmiş, inkar edənləri isə bir-birilə ziddiyyətə girmişdir".

Başqa bölgü üzrə (dünya əhli) beş yerə bölünür. Bu bölgü belə bir nəzərdən irəli gəlir ki, dünya ümumi quruluşu etibarilə vahid, lakin zahir və batin etibarilə ikidir.

Aləmin zahiri duyulan aləm – (aləmi-məhsus), surət aləmi – (aləmi-surət), görünən aləm – (aləmi-şəhadət), fel (həqiqət) aləmi – (aləmi-fel), cismani aləm – (aləmi-cismani), tərkib aləmi – (aləmi- tərkib), aşkar aləm – (aləmi-cəhr), yaranmışlar aləmi – (aləmi-xəlq) adlanır.

Aləmin batini isə mücərrəd aləm – (aləmi-məqul), məzmun aləmi – (aləmi-məna), gizli aləm – (aləmi-qeyb), imkan aləmi – (aləmi-qüvvə), ruhani aləm – (aləmi-ruhani), təcziyə aləmi – (aləmi-təfrid), sirlər aləmi – (aləmi-sirr), hadisələr aləmi – (aləmi-əmr) adlanır. Mücərrəd (aləm) duyğulara əsaslanır; duyğular isə bir-biri ilə əlaqədardır.

İnsanların bəzisi, yəni səfsətəçilər bunların (mücərrəd və duyulan aləmin) hər ikisinin həqiqət olduğunu əsla təsdiq etmirlər. Bəzisi isə, yəni təbiətçilər (materialistlər) ancaq duyulan (aləmi) təsdiq edir və mücərrədi təsdiq etmir. Bəzisi, yəni dəhri (ateist) filosoflar hər iksini təsdiq edir, lakin ehkamın qaydalarını təsdiq etmir. Bəzisi, yəni sabeilər (ulduzpərəstlər) bunların hamısını təsdiq edir, lakin şəriət və dini[2] təsdiq etmir. Bəzisi, yəni yəhudilər və xaçpərəstlər bunların hamısından əlavə şəriət və dini[3] də təsdiq edir. Bəzisi, yəni müsəlmanlar bunların hamısını təsdiq edir.

Tənasüx əhli demişlər ki, aləm təbiətən dairəvi hərəkət edir. Ülvü (yuxarı) varlıqlar dövr etməklə süfli (aşağı) varlıqlara təsir etməkdədirlər. Süfli varlıqlar da sonsuz olaraq dövr edirlər. Əhatədə olan ruhlar müxtəlif cisimlərdə dövr edir. Bütün zamanlarda müəyyən bir dövr başa çatır və yeni bir dövr başlanır. Dövrlər isə sonsuz olaraq bir-birinin ardınca davam edir.

Bunların sözünün nəticəsi belədir ki, müxtəlif cisimlər bir-birini dəyişən nəfslərin inkişaf yolundakı səadət və şəqavət dərəcələrindən ibarətdir. Beləliklə, xoşbəxt (ruh) bir cisimdən köçür və ondan yüksək bir cisimdə yerləşir.

Buna Nəsx (ruhun yerdəyişməsi) deyilir. Həqiqət belədir ki, bu məzhəb batildir, çünki onların dediyinə görə, dövrlər inkişafa çatmaq rütbəsinin dərəcələrindən ibarət olub inkişafa

[1] "Quran"ın "əl-Əraf" surəsi, 172-ci ayə.

[2] Əslində, "islamı" yazılmışdır ki, yanlışdır.

[3] Əslində, "salam" yazılmışdır ki, yanlışdır.

çatmaq isə imkan daxilindədir. Halbuki belə bir imkan içərisində qeyri-mümkünlük vardır. Bu qeyri-mümkünlük isə, şübhəsiz ki, dövrlərin sonsuzluğundan irəli gəlir.

Bütpərəstlər demişlər ki, göy mücərrədləri (fələklər) ruhlardan, ulduzlar isə onların cisimlərindən ibarətdir və bunlar Tanrı yanında bizim şəfaətçilərimizdir. Buna görə onların hər birisi üçün müəyyən bir surət təsəvvür etmiş, bu surətləri ona mənsub etmiş və bu münasibətə görə mədəniyyatdan onların şəkillərinə uyğun heykəllər düzəltmiş və onlara ibadət etmişlər. Bunlar öz üsullarını İdris əleyhissəlamdan ibarət olan Hermesə isnad etmiş və bütləri tanrı, yaradıcını isə tanrılar tanrısı adlandırmışlar.

Oda sitayiş edənlər, yəni Məcusilər (Atəşpərəstlər) demişlər ki, od ilk mənşədir.

Bəzi tədqiqatçılara görə, ilk ünsür Cəbərut (qüdrət) aləmidir ki, bu da Lahut (Tanrıya mənsub) aləmində nəşət etmişdir. Həmçinin demişlər ki, bu aləmdə ruhlar bərabər imiş, sonra ondan (Cəbərut aləmindən) Mələkut aləminə, yəni müfrədat (ayrı-ayrı) sadə varlıqlar aləminə enmişlər. Sonra həmin aləmdən mülk aləminə, yəni mürəkkəb varlıqlar aləminə enmişlər. Bu aləmdə isə üç məqam vardır: cəmadat (cansız əşya), nəbatat (bitkilər) və heyvanlar məqamı. Bu məqamlar ardıcıl olaraq dövr edərək Nasut aləminə (aləmi-nasuta), yəni insan aləminə çatır. İnsanın mənşədən aşağıya enməsi belədir. Əgər insan inkişaf etdikdən sonra qeyd etdiyimiz aləmlərdən bircə-bircə əlaqəsini kəsərsə, mənşəyinə çatar. Bu isə insanın yuxarıya yüksəlməsindən (suuddan) ibarətdir.

Kümun və zühur (gizlilik və zahir olmaq) nəzəriyyəsinə inananlar demişlər ki, yaranmış varlıqların hamısı birdən yaranmışdır və onlar bir-birinin içərisində, yəni ərəzlər mürəkkəblər içərisində, mürəkkəblər bəsitlər içərisində, bəsitlər mücərrədlər içərisində, mücərrədlər isə ilk ünsür içərisində gizli olmuşdur. İnsanın nütfədə, xurma ağacının isə çəyirdəkdə gizli olması buna misal ola bilər. Sonralar tədriclə aşkara çıxmış və öz xülasə (müxtəsər) şəkillərindən sonra təfsilatlı şəkillər əldə etmişlər.

## Dördüncü bab

## İNSAN HAQQINDA BİLİYƏ AİDDİR

İnsan nəfs (ruh) və bədəndən ibarətdir. Ruhun varlığı sabitdir, insan başqa heyvanlarla iradi hərəkətinə görə müştərəkdir. Lakin ağıllı tədbirləri, məsələn, ticarət, ziraət (əkinçilik) və sairə ilə heyvanlardan fərqlənir. Məlum olur ki, insanın başqa heyvanlardan üstünlüyünün, yəni tədbir və iradə etməsinin səbəbi nəfsdir.

Demişlər ki, ruh müstəqil (öz varlığından asılı olmayan) bir cövhərdir və cövhərlərə əlavə edilən ərəzlərin əksinə olaraq, zehni mülahizələri, (dərk etmək) qabiliyyəti vardır. Lakin ruh cisim deyildir, çünki cisim eyni zamanda iki surəti dərk edə bilməz. Halbuki ruhun ikidən də artıq surəti dərk etməyə qabiliyyəti vardır. Sonra ruh cismani də deyildir, çünki cismani əşyanın cismi hissələrə bölünməsi lazımdır. Halbuki ruh bəsit (bölünməz)dir. Sonra ruh nə maddədir, nə də surət, çünki maddə ilə surət bir-birindən ayrılmazdır, halbuki ruh (maddə və surətdən) ayrıla bilər. Beləliklə, isbat edildi ki, ruh bəsit bir cövhərdir və cisim deyildir. Həmçinin (ruh) cisimdəki imkan (qüvvə) olmadığı kimi, cismin surəti də deyildir.



Bəzi şəxslər demişlər ki, ruh bədəndən əvvəl törənmişdir. Bunlar (Tanrının) "sonra biz onu (insanı) başqa bir şəklə saldıq"[1] sözünə isnad etmişlər.

Ərəstu və onun tərəfdarları ruhun bədəndən sonra[2] törənməsini söyləmişlər və belə bir dəlil göstərirlər ki, əgər ruh bədəndən əvvəl mövcud olsaydı, sayca çox olardı və əgər (sayca çox olan bu ruhların) hər birisi üçün fərqləndirici (bir xüsusiyyət) təsəvvür etsək, onda ruhun mürəkkəb olması, yəni həm ümumi, həm də fərqlənmə cəhətlərinə malik olan bir şey olması lazım gələrdi. Halbuki ruh bəsit fərz edilmişdir. Beləliklə, labüd olaraq (əvvəlcə) bədən olmalıdır ki, ruhu növlərə görə şəxsi bölmələrə ayırsın.

(Ərəstuya) görə, bədən ruhun davam edib qalması üçün deyil, onun mövcudiyyəti üçün şərtdir.

Sonra deyilmişdir ki, ruh ürəkdə olan bölünməz bir hissədir.

Həmçinin deyilmişdir ki, ruh üç qüvvədən ibarətdir ki, onlardan birincisi, beyində olub hikmət mənşəyidir. İkincisi, ürəkdə olub qəzəb mənşəyidir. Üçüncüsü, qara ciyərdə olub şəhvət (ehtiras) mənşəyidir.

Sonra deyilmişdir ki, ruh mizacdan və əxlatın[3] etidalından ibarətdir.

Sonra deyilmişdir ki, ruh bədənin şəkli və əxlatın birləşdirilməsindən ibarətdir.

Sonra deyilmişdir ki, ruh həyatdan ibarətdir.

Sonra deyilmişdir ki, ruh beyində olan bir qüvvə olub hiss və hərəkət mənşəyidir.

Nəzzam demişdir ki, ruh bədəndə gəzişən, parçalanmayan və pozulmaz cisimlərdir.

Deyənlərin ən doğrusunu (Allah) demişdir ki, "(Ey Məhəmməd), de ki, ruh mənim Tanrımın işlərindəndir və sizə elmin az bir hissəsi verilmişdir"[4]. (Siz ruhu dərk edə bilməzsiniz).

Yenə deyilmişdir ki, ruh bədənin pozulmasından sonra qalmaqda davam edir; çünki o, mücərrəd və bəsit bir cövhərdir və onun varlığı bir həqiqət olduğuna görə, yox olmasının imkanı ilə bir yerə sığmaz; çünki belə bir imkanın həqiqətə çevrilməsi ilə iki əksliyin bir araya toplanması lazım gələrdi.

Bədənə gəlincə, o, mayn nütfədən əmələ gəlmişdir. Nütfə kürəcik şəklində olub, ona insanın bütün xüsusiyyətləri və əlavələri imkan şəklində əmanət verilmişdir. Belə ki həmin xüsusiyyətlər tədricən meydana gəlir. Nütfədəki bu imkan ilk ünsürdə və ya "Əflatun qəlibləri"ndə gizli olan varlıqlardakı imkan kimidir. Sonra həmin nütfə ana bətnində istilik vasitəsilə yetişir, öz növünə xas olan qabiliyyətə görə adi üzvlərə ayrılır, ünsüri (maddi) keyfiyyətləri qəbul edir və onda dörd təbiət əmələ gəlir, sümüklər, damarlar və sinirlər inkişaf edir, cismani şəkilləri təkmilləşir, içərisinə ruh verilir və qidalanaraq təbii təkmilləşməyə doğru yönəlir. Sonra bətndən çıxır və ruh onu üç mərhələdə idarə edir: birinci mərhələdə şəhvət (ehtiras) qüvvəsi – (qüvveyi-şəhəviyyə) vasitəsilə onu təbii inkişaf olan boyatmaq üçün qidalar cəzb etməyə hazırlayır.

İkinci mərhələdə qəzəb qüvvəsi – (qüvveyi-qəzəbiyyə) vasitəsilə onu (öz) növünə məxsus şəklinin afətlərdən qorunması üçün zərərli şeyləri rədd etməyə hazırlayır. Üçüncü mər-

[1] "Quran"ın "əl-Möminun" surəsinin 14-cü ayəsi.
[2] Mətndə səhv olaraq "əvvəl" yazılmışdır.
[3] "Əxlat" dedikdə qan, bəlğəm, sevda, səfra nəzərdə tutulur.
[4] "Quran"ın "İsra" surəsi, 85-ayə.

hələdə isə mələkə (hifz və vərdiş) qüvvəsi – (qüvveyi-mələkiyyə) vasitəsilə onu həqiqi inkişaf olan yaxşı əməllərə hazırlayır.

Duyğulara gəldikdə, onların zahiri və batini (növləri) vardır.

Zahiri duyğular beşdir ki, eşitmə, görmə, dadma, toxunma, iybilmə duyğularından ibarətdir. Filosofların fikrincə, batini duyğular da beşdir ki, ortaq hiss (hissi-müştərəkə), təsəvvür, xəyal, hafizə və özünüidarə (davranmadan) ibarətdir. Kəlam tərəfdarları (mütəkəllimlər) isə sonuncunu nəzərə almırlar.

Qüvvələr isə səkkizdir: bunlar da cəzb edən (cazibə), qidalandıran (ğaziyə), saxlayan (masikə), becərən (namiyə), törədən (müvəllid), surət verən (müsəvvirə), ifraz edən (dafiə), rədd edən və həzm edən (hazimə) qüvvələrdir.

## Beşinci bab

## CİNİN[1] VARLIĞI HAQQINDA

Bu (məsələ), istər ehkamca, istərsə də əqlcə şübhəsizdir. Ehkama gəldikdə, "Quran"da onun varlığı və oddan yarandığı qeyd edilir. Əqlə gəldikdə, filosoflar beş cövhərin, yəni maddə, surət, cisim, ruh və əqlin mövcudiyyətini isbat edərkən bunlardan fərqlənən başqa bir varlığın da (mövcudiyyətini) isbat etmişlər və onu üç qismə ayırmışlar: birincisi, mahiyyətcə xeyr olub, şəri olmayan varlıq ki, mələkdir. İkincisi, mahiyyətcə şər olub, xeyri olmayan varlıq ki, şeytandır. Üçüncüsü, həm xeyir, həm şər üçün qabil olan varlıq ki, cindir.

Ağıllı adamların bəzisi demişdir ki, nəfsdə üç qüvvə vardır: birincisi, təmiz (xalis) xeyirdən (məhzül-xeyr) ibarət olub mütməinnə (arxayın) nəfs adlanır. Bu qüvvə mələklərə mənsub bir qüvvədir ki, bütün yüksək xasiyyətləri özündə birləşdirir və peyğəmbərlər ilə övliyalara xasdır. İkincisi xalis şərdən (məhzül-şər) ibarət olub, əmmarə (pis işlərə cəlb edən) nəfs adlanır. Bu qüvvə şeytana mənsub bir qüvvədir ki, bütün yaramazlıqları özündə birləşdirir və kafirlərə xasdır. Üçüncüsü, həm xeyir, həm də şərə qabil olan qüvvədən ibarət olub ləvvanə (danlayan) nəfs adlanır. Bu orta vəziyyətdə olan bir qüvvədir ki, gah cəlb edən nəfsə meyil göstərir, gah da özünü danlayaraq arxayın nəfsə meyil göstərir və insanların (peyğəmbərlər və övliyalardan başqa) qalan hissəsinə xas olub cini əvəz edir.

Sufilər demişlər ki, şeytan insan təbiətindən ibarətdir ki, şəhvətlərə meyil göstərir. Əgər nəfs ona tabe olarsa, bütün yollardan azar və əgər onu özünə tabe edərsə, bütün təhlükələrdən qurtarar. İnsan mahiyyətini (insan təbiətini) deməkdən məqsəd belə bir məsələni qeyd etməkdən ibarətdir ki, insan törənmiş (yaranmış) varlıqdır. Əgər insan canişinlik (yer üzərində Tanrının canişini olması)[2] rəmzinə uyğun olaraq yer üzərindəki varlıqların bəzisi onun ixtiyarına keçərsə, yaxud adların (Tanrının adlarının)[3] öyrədilməsinə müvafiq olaraq elmlərin bəzisini mənimsəyərsə, özündən aşağı səviyyədə olan yaranmışlara lovğalıq etməz

[1] Mətndə katibin səhvi üzündən "cin" əvəzinə "hüsn" yazılıb.

[2] "Quran"ın "əl-Bəqərə" surəsinin 30-cu ayəsinə işarədir.

[3] Yenə orada, 31-ci ayə.



və Firon, yaxud Haman kimi qürrələnməz; ancaq özünün törənmə səbəbinə (Tanrıya) baxar, onun nemətləri qarşısında şükür edər və onun qüdrətini xatırlayar.

Aləmin vəziyyətləri, ondakı varlıqların keyfiyyəti və onun hislərinin kəmiyyəti haqqında bizim imkan daxilində əldə etdiyimiz bilik bunlardan ibarətdir. İnanırıq ki, bu məsələ bizim bildiyimiz və ya oxuduğumuzdan genişdir; çünki Tanrının sifətləri saysız-hesabsızdır və onların təzahür şəkilləri çoxdur. Beləliklə, əgər biz Tanrıya aid bir çox aləmləri (bilik sahələrini) dərk edə bilməsək, bu bizim biliyimiz və etiqadımıza qətiyyən zərər verməz.

Bilmək lazımdır ki, bu etiqadların çoxu barədə müxtəlif fikirlər daşıyan fazil adamların hamısı yekdilliklə dünya ləzzətlərindən könüllü olaraq vaz keçmiş və öz bacarıq və imkanlarına baxmayaraq, riyazət (tərki-dünyalıq) yolunu mənsəb və vəzifələr yolundan üstün tutmuşlar. Bu isə peyğəmbərlərin, filosofların və pak şeyxlərin yaşayış tərzində öz aydın əksini tapmışdır. Bunlar dünyanın və dünyada olan əşyanın mahiyyətinə diqqət yetirdikdə bunu anlamışlar: dünya elə bir yerdir ki, onun əhalisi daimi deyildir; o elə bir mənzildir ki, onda yaşayanlar davam etmirlər. Buna görə riyazətlər (əziyyətlər, çətinliklər) yolunu rahatlıqdan üstün tutmuşlar; çünki riyazətlərdən çıxmaq rahatlığa çatmaq deməkdir. Onlar az ilə kifayətlənmiş və artıq şeylərdən belə bir məqsədlə çəkinmişlər ki, həmin artıq şeyləri tərk etmək zamanı daha çox həsrət çəkməsinlər. Onlar başa düşmüşlər ki, dünyaya aid tələbat ancaq qazanmaqla əldə edilir, bu (tələbat) isə sonsuzdur, qazanmaq isə müəyyən istiqamət almağı tələb edir. Bu isə Tanrını tanımaq və ona ibadət etmək işinə doğru yönəltməyə mane olur. Əgər onlar bilsəydilər ki, ləzzətlər ancaq dünya nemətlərindədir və yoxsulluq müqabilində axirət nemətləri yoxdur, onlar dünya nemətlərini əldən verməzdilər. Halbuki bu nemətlər axirət nemətlərinə əlavə olaraq onlara xasdır.

## Üçüncü rükn

## VACİBƏ (Tanrıya) AİD BİLİK VƏ BU BİLİYƏ AİD (məsələlər) HAQQINDADIR

Bunda da bir neçə bab vardır:

### Birinci bab

### TANRIYA AİD BİLİYİ AXTARAN ADAMIN QABAQCADAN BİLMƏLİ OLDUĞU ƏSASLARDAN İBARƏT MƏSƏLƏLƏR HAQQINDADIR

Bu əsaslardan birisi:

Filosoflar demişlər ki, vahiddən ancaq vahid nəşət edə bilər. Onların sübutu belədir ki, həqiqi vahid hər cəhətdən vahiddir və ondan nəşət edən bir nəticə onunla eyni vəziyyətdə olmalıdır (vahid olmalıdır) və ondan qeyri vəziyyətdə başqa bir nəticənin nəşət etməsi mümkün deyildir; çünki əgər o iki nəticə iki (müxtəlif) vəziyyətlə nəşət etsə, lazım gələr ki, o vahid mürəkkəb olsun. Halbuki fərzə görə, o, bəsit vahiddir. Belə bir mühakimə ilə biz vacibin isbatı haqqında bir şey itirmirik. Ancaq həmin mühakimədən belə çıxır ki, o (vacib) şeyləri yarada bilməz. Belə bir mühakiməni rədd etmək daha yaxşıdır.

Mütəkəllimlər demişlər ki, ("vahiddən ancaq vahid nəşət edər" qanunu) yalnız yaranmış olan səbəblər və nəticələr haqqında təsəvvür edilə bilər. Halbuki vacib tam sərbəstliklə fəaliyyət göstərən (varlıq)dır və öz yaratdığını istədiyi kimi yaradır. Bu mühakimə bir də başqa şəkildə rədd edilir: (məntiq) qanununun tələbinə görə, mücərrəd ancaq mücərrəddən silsilə kimi nəşət edə bilər və beləliklə, lazım gələr ki, mürəkkəb əmələ gəlməsin. Halbuki aləmin mövcudiyyəti bunun əksini göstərir. Deməli, aləmin mövcudiyyəti bu mühakimənin yanlışlığına sübutdur.

Əgər "ilk ağıla iki nöqteyi-nəzərlə: (1) öz yaradıcısına nisbətən imkan nöqteyi-nəzəri, 2) öz illətinə nisbətən vaciblik nöqteyi-nəzəri ilə yanaşmalı və bu iki nöqteyi-nəzərlə mürəkkəb (şeylər) yaranmışdır" desən, onda ilk ağıl və mürəkkəb şeylər ya ilk mənşə ilə eyni zamanda və yaxud onun varlığından sonra ilk mənşədən nəşət etmiş olur və beləliklə, əgər onların hər ikisinin (ilk ağıl ilə mürəkkəb şeylərin) Tanrı ilə eyni zamanda varlığını hesaba alarsan, qanunu pozmuş olursan və əgər onların hər ikisinin (Tanrı ilə eyni zamanda) varlığını rədd edərsən, onda yoxun (mövcud olmayan şeyin – əqlin) varlığa təsir göstərməsi (yoxdan varlığın əmələ gəlməsi) qeyri-mümkün olur.

Başqa bir əsas. Sünnilər demişlər ki, vahiddən ancaq vahid törənə bilər. Onların sübutu budur ki, imkan daxilində olan vahid (şey) iki qüdrətə tabe edilə bilməz; çünki əgər həmin (şeyin) varlığı onların hər ikisindən asılıdırsa, onların hər birisinin sərbəst bir səbəbi olması lazım gələr və əgər birisi kifayət edirsə, digəri boşa çıxır. Bəzi fazil adamlar bu əsası iki müxtəlif cəhətdən qəbul etmişlər.



Başqa bir əsas. Vacib ancaq vahid ola bilər. Bunun izahı belədir ki, vacibliyin mənası mümkünün əksinə olaraq hərtərəfli ehtiyacsızlıqdan ibarətdir. Əgər iki vacib tapılarsa, onların hər ikisi sözün tam mənası ilə vaciblik məfhumuna uyğun olmalıdır[1] və beləliklə, onların hər birisinin bir fərqləndiriciyə ehtiyacı olur və lazım gəlir ki, onların hər birisinin tərkibində həm vaciblik, həm də fərqlənən əşya olduğuna görə mürəkkəb olsun. Halbuki mürəkkəb əşya öz tərkib hissələrinə ehtiyacı olduğuna görə, mümkün əşyadır.

Başqa bir əsas. Filosoflar demişlər ki, aləm qədimdir; çünki o, tam səbəbdən dərhal nəşət etmişdir. Buna görə də aləmdən əvvəl yoxluğun olmaması lazım gəlir; çünki ilkinlik zaman tələb edir. Zaman isə varlığa aid olduğundan yoxluqla bir yerə sığmaz.

Mütəkəllimlər isə deyirlər ki, aləm hadisdir (sonradan törənmişdir), hadis isə öz yoxluğundan qabaq mövcud ola bilməz.

Filosofların sözündən belə çıxır ki, qədim iki cürədir. Bunların birisi zatən qədimdir ("qədimi-zati", yəni o öz varlığı etibarilə başqasına möhtac deyildir). Digəri isə zamanca qədimdir[2] (qədimi-zamani), yəni ondan əvvəl zaman olmamışdır. Hadis (sonradan törəmə) də iki cürədir: (ibdai və zamani). İbdai – törənməsində başqasına möhtac olan hadisdir. (Zamani isə)[3] özü ilə səbəbi arasında zaman olan hadisdir. Vacibin isbatında bundan istifadə etsək, bir şey itirmərik. Filosof Prokl tərəfindən aləm haqqında irəli sürülmüş şübhəli məsələlər həmin mənada başa düşülməlidir.

Başqa əsas. Vacib iki cürdür: Birincisi, varlığından əvvəl yoxluq olmayan (vacibi-zati) zatən vacibdir. İkincisi, varlığından əvvəl yoxluq olan vacibdir.

Varlıq da iki cürdür: Birincisi, mütləq varlıqdır ki, Tanrının varlığı buna misaldır. Belə varlıq dəyişməzdir və başqa (kəsdən) alınmamışdır. İkincisi, alınan (əldə edilən) varlıq, mümkün varlıqdır. Belə varlıq dəyişiləndir və başqasından alınır. Ümumiyyətlə, varlıq dedikdə, bunların hər ikisi başa düşülür.

Yoxluq (ədəm) da iki cürdür: (Birincisi,) mütləq yoxluqdur ki, qeyri-mümkünün yoxluğu buna misaldır. (İkincisi,) nisbi yoxluqdur ki, mümkünün yoxluğu buna misaldır. Ümumiyyətlə, yoxluq dedikdə, bunların hər ikisi başa düşülür.

Mötəzililərə görə nisbi yoxluq şübhəsizdir.

Mövcud isə ya zehni (mücərrəd), ya da xarici (konkret) olur.

Başqa əsas. Varlığı caiz olan (vacib olmayan) hər bir şey özlüyündə və mahiyyətcə mümkündür; çünki əgər həmin şey öz səbəbi (illəti) şərti ilə nəzərə alınırsa, vacib olar və əgər səbəbsizlik şərti ilə nəzərə alınarsa, qeyri-mümkün olar.

Başqa əsas. Mütləq əqliyyata (rasional şeylərə) inanmaq olmaz. Bunun izahı belədir ki, filosoflar fərd (yeganə, xalis) cövhərin mövcudiyyətini əsaslı dəlillə rədd, mütəkəllimlər isə onu isbat etmişlər. Bu iki dəlil bir-birinə zidd olduğuna görə, əql onlardan birisinin yanlış, digərinin isə dürüst olduğuna hökm edir, çünki hər ikisinin (doğru) olması qeyri-mümkündür. Lakin əql onların hansı birinin doğru və ya səhv olduğunu müəyyən etmir; çünki əgər onlardan birisinin yanlışlığı mümkündürsə, digərinin də yanlışlığı mümkündür və nəticə etibarilə müt-

[1] Əslində, خير (üstün) idi, lakin tərcümədə حد (məfhum, tərif) kimi nəzərə alındı.

[2] Bu sözlər orijinal mətndə yoxdur, yəqin ki, katibin səhvidir.

[3] Bu da əsl mətndə yoxdur, görünür, qələm səhvidir.

ləq əqliyyata əsaslanan inam aradan getməli olur. (Bu məsələni açmaq üçün) bir ölçü lazım olur ki, o da şəriətdən ibarətdir. Hərçənd ki digər tərəfdən şəriətin qəbul etdiyi işdə əql əsas götürülür. Biz əqlin hökmünü ancaq elə vəziyyətlərdə qüsurlu hesab edirik ki, səbəblər, vasitələr və onların tətbiqi düzgün olmur və yaxud uydurmaçılığa yol verilir. Əgər (əql) belə nöqsanlara üstün gələrsə, əlbəttə ki, onun hökmü yanlış olmaz. Məsələn, peyğəmbərlərin vəhy qəbul etmək və qayda-qanun vermək barədəki əqli belədir. (Deməli), əqliyyatın hamısının yanlış olması barədə hökm etmirik; çünki bunların bəzisi doğrudur.

Başqa əsas. Demokrit demişdir ki, əşyanın əşyaya təsiri ağlabatan bir məsələ deyildir. Onun isbatı belədir ki, əgər varlıq mövcud olan bir şeylə bağlanarsa o, əldə olanı ələ gətirmək kimi (faydasız) olur. Və digər yox olan şeylə bağlanarsa, bir-birinə zidd olan varlıq ilə yoxluq bir yerə toplaşmalı olur. Bu fikrə əsaslandıqda yaranmışların mövcudiyyəti qeyri-mümkün olur. Halbuki yaranmışların mövcudiyyəti bu fikrin yanlışlığına sübutdur. Deməli, bu fikirdə səfsətə vardır.

İkinci bab

## DÖVR İLƏ TƏSƏLSÜLÜN YANLIŞLIĞININ İSBATI HAQQINDADIR

Dövr əşyanın asılı olduğu şeyin eyni vasitə ilə özündən asılı olmasıdır. Bu da qeyri-mümkündür. Təsəlsülə gəldikdə, bu, (əşyanın) sonsuz olaraq sıraya düzülmüş varlıqlardan (asılılığından) ibarətdir. Mütəkəllimlərə görə, əgər (sıranın) başlanğıcı yoxdursa, təsəlsül qətiyyən mümkün deyil, amma əgər başlanğıcı vardırsa, mütəkəllimlərin əksəriyyətinin fikrincə mümkündür.

Mühəqqiq Tusi demişdir ki, (təsəlsül) cayiz deyildir; çünki hər hansı ədəd (say) əgər müəyyəndirsə, (demək), onun müəyyənliyində sonu da vardır.

Filosoflara görə, hər hansı ədədin təklikləri mövcud, qiymətləri eyni (vahid) və sırası (tərtibi) varsa, onun mütləq sonu olmalıdır. Tərtibsizlikdə isə sonsuzluq caizdir.

Təsəlsülün yanlışlığını isbat etmək üçün bir neçə yol vardır.

Birincisi belədir – müəyyən sayıla bilən bir şeyin bir silsiləsi (sonsuz sırası) və həmin şeydən əvvəlkinin də başqa bir silsiləsi fərz edilərək onlar eyni başlanğıcdan bir-birinə rəbt edildikdə, əgər hər ikisi bərabərləşərsə, lazım gələr ki, az ilə çox bərabər olsun. Bu isə qeyri-mümkündür. Yoxsa, əgər az olan bitər, az olmayan davam edərsə, onda azın sonu olar, az olmayanın isə azdan ancaq sonlu say qədəri artıq olduğuna görə, hamısı (hər ikisi) sonlu olar.

Başqa yol. Əgər sonsuz olan (şeyin) məcmusundan bir parça götürsək, həmin parça ilə kəsilmiş məcmu arasında ya bir nisbət mövcud olar və ya olmaz. Əgər həmin parça ilə onun arasında nisbət varsa, lazım gələr ki, kəsilmiş olan birinci məcmunun, həmçinin ikinci məcmunun sonu olsun. Çünki sonlu ilə sonsuz arasında nisbət qeyri-mümkündür. Əgər onların arasında nisbət yoxdursa, lazım gələr ki, çox ilə az bərabər olsun. Bu isə yanlışdır. Çünki iki ədədin elə bir vəziyyətinə rast gəlmək olmaz ki, onlar həm bir-birilə bərabər, həm də bir-birindən artıq və ya əskik olsun.



Başqa yol. Silsilə (təsəlsül) bir-birilə əlaqədar olan xaricdə mövcud fərdlərin birləşməsindən ibarətdir və tam həqiqətə malik olması lazım gələr. Tamlıq isə öz hissələrinin öz içərisində mərkəzləşməsini tələb edir. Belə olmazsa, tamlıq əmələ gəlməz. Deməli, bütün mərkəzləşmiş (şeylər) sonlu olmalıdır.

Nəticə belədir ki, təsəlsül uydurma bir şeydir, o yoxdur və mümkün deyildir. Onun yanlışlığını isbat etməyə can atmaq artıq (boş) bir zəhmət olar. Biz ağıllı adamlar içərisində təsəlsülə əsaslanan və onu etiraf edən bir şəxsə rast gəlmədik.

Üçüncü bab

## VACİBİN VARLIĞINI İSBAT ETMƏK HAQQINDA

Bu (məsələ) şübhəsizdir, onun müxtəlif isbat yolları vardır. O cümlədən, birisi Hüdus (törənmə) yoludur. Hüdus yoxluqdan sonra əmələ gəlməkdən ibarətdir. Mütəkəllimlər əvvəlcə aləmin törənmiş olduğunu, sonra onun törədicisinin əzəli olduğunu isbat edir və deyirlər ki, aləm əyandan (xarici varlıqlardan) və ərəzlərdən, ərəzlər varlıqlardan, varlıqlar isə hərəkət, sükunət, birləşmə və ayrılmadan ibarətdir. Hərəkət (bir şeyin) iki anda iki yerdə olması, sükunət isə (onun) iki anda eyni bir yerdə olmasıdır. Birləşmə iki cismin iki məkanda elə yerləşməsidir ki, onların ikisinin arasına başqa bir cövhərin girməsi mümkün olmasın. Ayrılma isə onların (iki cismin) iki məkanda elə yerləşməsidir ki, onların arasına başqa bir cövhərin girməsi mümkündür. Bu vəziyyətlər, şübhəsiz ki, əvəz edilən və dəyişəndir. Onların törənmiş olması sübutu bundan ibarətdir ki, onlar varlıqdan sonra yox olur və yoxluqdan sonra (xarici varlıqlara) möhtacdır. Bunlar (əyan) hadisələr üçün yer (məkan) (vəzifəsi görür). Hadisələrin yerləşdiyi bütün yerlər (məkanlar) isə törəmədir və hər bir törəmənin (törənmişin) törədiciyə ehtiyacı vardır. Deməli, aləmin törədiciyə ehtiyacı vardır. İstənilən də bundan ibarət idi.

Birisi də imkan (vasitəsilə isbat etmək) yoludur.

İmkan varlıq və yoxluğun zəruri olmamasından ibarətdir. Mütəkəllimlər[1] əvvəlcə aləmin imkanını (mümkün olmasını), sonra aləmin vacid (var edən) yaradıcısı olmasını isbat edərək deyirlər ki, varlıq iki növdür: vacib, mümkün. Mümkün isə var olmaq üçün vacibə möhtacdır. Aləm konkret fərdlərin və ərəzlərin məcmusundan (toplusundan) ibarətdir. Məcmu isə fərdlər olmadan əmələ gələ bilməz və fərdlər (məcmudan) başqadır. Sonra təsirə məruz qalan şeyin nə özü təsiredici ola bilər, nə də onun bir hissəsi, çünki hissə həmin şeyin özünə və ya özündən başqa digər şeyə təsir göstərə bilməz. Deməli, məcmu üzərində təsir ancaq kənardan olmalıdır. Bütün törənmişlərdən kənarda olan şeyin özü də törənmiş ola bilməz. Deməli, o, vacib olmalıdır.

Birisi də kəşf əhlinin yoludur. Bunlar demişlər ki, onun (Tanrının) varlığı xarici varlıq deyildir, o heç bir şərtdən də asılı deyildir. Nə ümumi şəkildə asılıdır, nə də məhdud şəkildə. O nə küllidir, nə də cüzvi, nə ümumidir, nə xüsusi, nə təkdir, nə də çox, nə ziddi (əksi) vardır, nə də tayı, şeylər onun vasitəsilə mövcud olmuşdur. Onun mövcudiyyəti mahiyyətinə əlavə

[1] Nüsxədə فالحكم getmişdir ki, فالمتكلم olmalıdır.

edilən varlıq vasitəsilə deyildir. Beləliklə, əgər düşünsən, başa düşərsən ki, o, əyan (xarici varlıqlar) və ərəzlərin, yəni mümkünatın sifətlərinə malik deyildir. O, yoxluğa məruz qalmaz və yoxdan əmələ gəlməmişdir. Hər şeyi özündə birləşdirir və əhatə edir; hətta yoxluq və qeyri-mümkün (şeylər də) ümumi imkan əsasında ona aiddir (tabedir). O, əzəli və əbədidir, yeganə varlıqdır. Onun çoxlu rütbələri və hər bir rütbədə isə onun münasibəti və adı vardır. Dəyişən vəziyyətlərdə onun əlaqələri vardır. Vacib belədir.

Ərəstu başqa yolla isbat edərək demişdir ki, biz hərəkət edənləri müxtəlif cəhətlər və vəziyyətlərdə görürük. Hər bir hərəkət edənin hərəkətvericisi olmalıdır. Əgər bu hərəkətvericinin özü də hərəkətdədirsə, onda bu söz (məsələ) təsəlsülə uğradığına görə, heç bir nəticə verməz. (Məsələnin) belə olması üçün hərəkətsiz olan bir hərəkətverici əsas götürülməlidir. Bu hərəkətvericidə heç bir qüvvə (daxili imkanı) olmamalıdır; çünki əgər onda qüvvə (daxili imkan) varsa, onda başqa bir şeyə ehtiyacı olar ki, onda olan qüvvəni (daxili imkanı) həqiqətə (işə, əmələ) çevirsin; çünki o, mahiyyətcə imkandan həqiqətə doğru hərəkət etmir. Deməli, (onun) həqiqəti imkandan daha əvvəldir; çünki həqiqət olan hər bir şey imkan daxilində olan hər hansı bir şeydən daha əvvəldir. Lakin varlığı imkan daxilində olan hər bir şeyin təbiətində bir mənəvi qüvvə (potensial) vardır ki, o da imkan və caizlikdən ibarətdir. İmkan dairəsində olan belə bir şeyin həqiqətə çevrilməsi üçün bir vacibə ehtiyacı olduğu kimi, hər hansı bir hərəkət edənin də hərəkətvericiyə ehtiyacı vardır. Deməli, vacib, mahiyyətcə elə bir zatdır ki, onun varlığı başqasının varlığından alınmamışdır və ondan başqa hər hansı bir varlıq həqiqətdə ondan (imkandan asılı olmadan) əmələ gəlmişdir.

Şeyx Əbu Əli ibn Sina isə başqa yolla isbat edərək demişdir ki, hər hansı sonlu və ya sonsuz bir məcmu (toplu) imkan dairəsində onların birləşməsindən ibarət olsa, mahiyyət etibarilə ya vacib və ya mümkün olmalıdır. Əgər (həmin məcmu) mahiyyət etibarilə vacib, onların hər birisinin varlığı mümkün olarsa, onda varlığı vacib olanın mövcudiyyəti mümkün olanlardan asılı olar. Bu isə yanlışdır. Yoxsa, əgər o (məcmu) mahiyyətcə mümkündürsə, mövcud olmaq üçün bir vacibə ehtiyacı olur ki, onu vücudə gətirsin. Bu vücudə gətirən onun ya xaricində, ya da daxilində ola bilər. (Daxilində olduqda) onların (məcmunun tərkib hissələrinin) birisi vacibülvücud olmalıdır, bu isə yanlışdır; çünki (fərzə görə) onların hər birisi mümkünülvücud idi. Buradan belə nəticə çıxır ki, vücuda gətirən onların xaricində olmalıdır. İstənilən də bundan ibarət idi.

Bu barədə başqa bir yol da vardır ki, o da bundan ibarətdir:

Əgər varlığın mövcudiyyəti özündəndirsə (öz-özünə mövcuddursa) onu vacib və əgər mövcudiyyəti başqasındadırsa, onu mümkün adlandırırıq. Deməli, mümkünün varlığı aydındır.

İndi vacibin isbatına aid danışım. Bunu bildikdə deyərsən: hər hansı bir varlıqda mahiyyətcə vaciblik məzmunu varsa, o, vacibdir, yoxsa, mümkündür. Əgər bu mümkün (öz varlığını əldə etmə) ehtiyacında bir vacibə gedib çatırsa, onda qarşıya qoyulmuş məsələ isbat edilmişdir. Yox, əgər o, sonsuz olaraq təsəlsülə uğrayırsa və desən ki, onun tərkib hissələrindən heç birisinin bir təsirediciyə ehtiyacı yoxdur, bu yalandır və əgər desən ki, ehtiyacı vardır, lakin həmin yaradıcının özünün də başqa bir yaradıcıya ehtiyacı vardır, belə ki bir ehtiyacı olanın başqa bir ehtiyacı olana arasıkəsilmədən ehtiyacı olur. Beləliklə, bütün tərkib hissələri ilə yoxluqdan əmələ gəlmiş bir məcmunun mövcudiyyətinə etiraf etmiş olursan və belə nəticə



çıxır ki, onun tərkib hissələri qətiyyən mövcud olmamalıdır. Bu isə yanlışdır (çünki o, mövcuddur) və əgər desən ki, məcmunun vəziyyəti onun tərkib hissələrinin əksinədir, yəni xarici müəssirə (yaradıcıya) ehtiyacı yoxdur, bununla sən məcmu üçün mahiyyətcə vaciblik məzmunu isbat edir və eyni zamanda imkanın həqiqətdən əvvəl olmasını təsdiq edirsən. Nəticə etibarilə hissələrin tamdan əvvəl olduğu meydana çıxır ki, bu da boş sözdür. Sonra əgər desən ki, biz nə tamlıqla maraqlanırıq, nə də hissələrə və təsəlsülə inanırıq, bu dəlikdir. Biz də belə bir dəlikliklə maraqlanmırıq.

Vacibin isbatına aid olan istilahların yekunu belədir. Lakin hər kim bu məsələnin daha artıq izahı ilə maraqlanırsa, onun (Məhəmməd peyğəmbərin) "hər kim özünü tanısa, Tanrısını da tanıyar" sözünü əsas götürməlidir.

Bu sözü deyənin məqsədi belə ola bilər. Əgər arif adam bilsə ki, onun özünün mahiyyəti, sifətləri və əməlləri vardır və əməlləri onun mahiyyətindən sifətlər vasitəsilə nəşət edir və bilsə ki, onun mahiyyəti törənmişdir, başa düşər ki, hər bir törənmiş törədici vardır.

(Bu sözü deyənin qərəzi) belə ola bilər ki, arif adam özünün cismi, cövhəri və ərəzi olduğunu başa düşdükdə, ərəzin dəyişən, dəyişənin törənmiş, cismin hadisələr məhəlli, mahiyyətin isə cismin bir hissəsi olduğunu anladıqda, aləmin də taylarından ibarət olduğuna görə, törənmiş olduğunu bildikdə bilər ki, hər bir törənmişin törədicisi vardır.

(Bu sözü deyənin məqsədi) belə də ola bilər ki, arif adam öz vücudunun mahiyyəti haqqında həm icmal şəklində, həm də təfsilatı ilə düşündükdə özünün nütfədən ölümə qədərki vəziyyəti haqqında fikir yürütdükdə külli işlər, məsələn, varlıq, yoxluq, sağlamlıq, xəstəlik, yaşlılıq və uşaqlıq haqqında düşündükdə bilər ki, onun sərbəst olan bir idarəedicisi və qədim bir hərəkətvericisi vardır.

(Bu sözü deyənin məqsədi) belə də ola bilər ki, arif adam öz bədəninin zahiri və daxili üzvlərinin tərkibinə, həmin üzvlərdə yerləşmiş olan duyğular və qüvvələrə, üzvlərdən nəşət edən əməllərə (fəaliyyətlərə), bədənindəki nizamın həmin duyğular və qüvvələrə əsaslandığına baxdıqda belə bir məsələ ilə tanış olar ki, bütün bu müxtəlif vəziyyətlər bədənin hissələrindən birisinin (təsiri nəticəsi) deyildir; çünki bədənin hissələrindən hər hansı birisi imkandan həqiqətə doğru hərəkətdədir. Bu isə xarici hərəkətvericiyə möhtacdır. Beləliklə, bədənin ruhuna etiraf edər. Sonra tamın hissə ilə müqayisəsi əsasında aləmin tərkibini bədənin tərkibi ilə müqayisə edər və bilər ki, nizamın səbəbi olan və fəaliyyətlərin nəşət etməsinin hərəkətvericilərindən ibarət göylərdə və yerlərdəki ruhani və cismani şeylərin idarəedicisi və xarici hərəkətvericisi vardır.

(Bu sözü deyənin məqsədi) belə də ola bilər ki, arif adam öz zatının varlıqlar içərisində idrak, qüvvət və ixtiyar (azadlıq) etibarilə seçilməsini (üstünlüyünü) və bunların vasitəsilə kainatı mənimsəməsini (kainat üzərində) öz hökmranlığını başa düşdükdə, həmçinin öz idrakı, qüdrəti və ixtiyarının onun idrakı, qüdrəti və ixtiyarından artıq olmadığını anladıqda bilər ki, onun idrakı, qüdrəti və ixtiyarından üstün olan bir idrak, qüdrət və ixtiyar vardır.

(Bu sözü deyənin məqsədi) belə də ola bilər ki, arif adam öz zatının mahiyyətini öyrənməyin, həmin mahiyyətin imkanı nəzərə alınaraq, qeyri-mümkün olduğunu başa düşdükdə bilər ki, vacibin zatının mahiyyətini öyrənmək də həmin mahiyyətin vacibliyi nəzərə alınaraq qeyri-mümkündür.

Sufilərə görə (bu sözü deyənin məqsədi) budur ki, varlıq vahiddir[1] və hissələr tamdan, tam isə hissələrdən ibarətdir. (Buna görə) hər kim özünü tanıyarsa, Tanrısını da tanıyar.

Kəşf əhli deyirlər ki, ruh və cövhəri (mahiyyəti), mücərrədliyi və mücərrəd ruhlar aləminə aid olması etibarilə bədəndən fərqlənir və bədənlə əlaqəsi idarəetmə və fəaliyyət əlaqəsindən ibarətdir. Sonra ruhun zat ilə də əlaqəsi vardır. Ruh ilə bədənin əlaqəsi bədənin də ruh kimi həmişəlik olaraq yaşaması və öz mövcudiyyətini davam etdirməsi ilə nəticələnir. Lakin bədən ruhun (zahiri) şəkli, onun təzahür etdiyi yer, onun aydın görünən aləmdəki inkişafları və qüvvələrinin təzahür etdiyi yer olması etibarilə ona (bədənə) ayrılmaz surətdə möhtacdır və bədəndə nəzəriyyətçilər yanında məşhur olan iki (məfhum) – nüfuz (hülul) və birləşmə məfhumları əsasında cərəyan edir. Necə ki Tanrının mütləq varlığı (sair) varlıqlarda cərəyan edir və bu nöqteyi-nəzərdən onlar bir-birindən heç də fərqlənmir.

Hər kim ruhun bədəndə necə zahir olmasını, ruh ilə bədənin eyniyyət və fərqlənmə cəhətlərini bilsə, Tanrının da şeylərdə necə zahir olmasını, Tanrı ilə şeylərin eyniyyət və fərqlənmə cəhətlərini bilər və beləliklə, hər kim "özünü tanısa, Tanrısını da tanıyar".

Dördüncü bab

## TANRININ ZATINA AİD BİLİK HAQQINDADIR[2]

Tanrının zatına aid bilik haqqında insanlar arasında fikir ayrılığı vardır.

Bəziləri demişlər ki, iki nöqteyi-nəzər əsasında Tanrının zatına aid biliyə əql vasitəsilə yol tapmaq olmaz.

Birincisi belədir ki, bilik ancaq hədd və şəkli təsəvvür etmə vasitəsilə dərk edilə bilər. Hədd və şəkli təsəvvür etmə isə hüdudlanmış və təsəvvür edilən şeyin (fikirdə) tərkibini tələb edir. Halbuki Tanrı hər cəhətdən bəsitdir.

Digəri belədir ki, əql yaradılmış bir şey olduğundan yaradıcının zatı əqldən əvvəl, əql isə öz yaradıcısından sonradır. Beləliklə, əql özündən əvvəlkini deyil, ancaq özündən sonrakını dərk edə bilər.

Bəziləri demişlər ki, Məsih (İsa) Allahdır və fikirlərini isbat etmək üçün onun ölüləri diriltməsini əsas götürmüşlər. Bunların sırasına nəsranilərin bəzisi daxildir.

Bəziləri Tanrının bədənlərdə hülulunu (nüfuz edib onunla qarışmasını) düzgün hesab edirlər. Bunlar hülulilər və qülüvv edən (həddini aşmış) adamlardır.

Bəziləri demişlər ki, Tanrı odur və belə sübut göstərmişlər ki, İbrahim (peyğəmbər) od içərisinə atdırıldıqda od ona hörmət etmiş və yandırmamışdır. Məcüsların (atəşpərəstlərin) bəzisi belə düşünür.

Bəziləri də demişlər ki, təbiət Allahdır. Bunlar isə dəhrilər (materialistlər)dir.

Lakin aydındır ki, birinci fikir həqiqətdir və bunun sübutu (Məhəmməd peyğəmbərin) sözüdür ki, "biz səni (Tanrını) lazımınca tanıya bilmədik".

[1] "Vahiddir" ifadəsindən məqsəd panteizm – vəhdəti-vücuddur.

[2] Əslində, dördüncü bab "Tanrının zatına aid bilik haqqındadır" sərlövhəsi düşmüşdür.



Beşinci bab

## SİFƏTLƏRƏ (TANRININ SİFƏTLƏRİNƏ) AİDDİR

Sifətlərə aid bilik haqqında insanlar arasında fikir ayrılığı vardır.

Bəziləri, yəni filosoflar və mötəzililəri demişlər ki, sifətlər zatın əlavəsi deyildir (Tanrının sifətləri onun zatının eynidir). Bunlar belə sübut göstərirlər ki, sifətlər əlavə olsaydı, ya nöqsanlı bir şeyi təkmilləşdirmək üçün olardı, ya da heç mənası olmazdı.

Bəziləri, yəni əşərilər deyirlər ki, sifətlər zatın əlavəsidir və belə sübut göstərirlər ki, sifətlər ilə zat bir-birindən fərqlənən məfhumlardır.

Bəziləri, yəni Əbu-Haşim əl-Əşəri və onun tərəfdarları demişlər ki, sifətlər nə mövcud olan, nə də mövcud olmayan hallardan ibarət olub varlıqla yoxluq arasında vasitələrdir (orta vəziyyətdədir).

Bəziləri, yəni Əbu-Haşim əl-Əşəri və onun tərəfdarları demişlər ki, sifətlər "on" sayının içərisində olan "bir" kimi nə Tanrının zatı, nə də onun zatından başqa bir şeydir. Bunların sübutu belədir ki, başqalıq (fərqlənmə) zatiliyi tələb edir, (başqa olan şeyin özünün də zatı olmalıdır). Halbuki sifətlər zat deyildir və əgər sifətlər zata əlavədirsə, ondan başqa şeylər deyildir, çünki fərqlənmə iki zat arasında ola bilər.

Bəziləri, yəni sufilər deyirlər ki, sifətlər zatın icmalının təfsilatıdır və kainat onların təzahür yerləridir.

Bəziləri, yəni Cahiz və Bağdad mötəzililəri (sifətləri) heç də təsdiq etmirlər; çünki (onlara görə) əlaqədar şeylər olmadan onların mənası yoxdur.

Sifətlər ya sübutiyyə (müsbət), ya da səlbiyyə (mənfi) sifətlərdir. Müsbət sifətlər gözəl isimlər də adlanır.

Bu sifətlərdən biri budur ki, Tanrı qadirdir və bəzi filosofların zənnincə, Tanrının işləri vacib olaraq ondan nəşət edir.

Onlardan (sifətlərdən) birisi də budur ki, o (Tanrı), əzəli iradə sahibidir; belə ki onun iradəsində nə yeniləşmə (təkrar), nə də gecikmə vardır.

Birisi də budur ki, o hissetmə mənasında deyil, dərketmə mənasında eşidən və görəndir.

Birisi də budur ki, o diridir; çünki ancaq diri fəaliyyət mənşəyi ola bilər.

Birisi də budur ki, o danışandır; çünki əmr edən və nəhy edəndir.

Birisi də budur ki, o təkdir; çünki iki olsaydı, biri-birinə maneçilik törədər və pozğunluq əmələ gətirərdilər.

Mötəzililər bu sifətlərdən başqa bir də Tanrının mövcud olması sifətini artırırlar; çünki onlara görə, yoxluq (məfhumu) vardır.

Filosoflar deyirlər ki, Tanrının sifətləri onun zatının eynidir, Tanrının elmi hərtərəflidir, onun qüdrəti bütün şeylərin mənşəyidir, onun iradəsi bütün şeylərə mərhəmətindən ibarətdir. (Bütün bu sifətlər) Tanrının zatında çoxluq təsəvvürü olmadan (nəzərə alınır). Bu nöqteyi-nəzərdən çıxış edərək onlar dünyanın törənmiş olmaması haqqında mühakimə yürüdürlər; çünki onların dediyinə əsasən, (Tanrının) yaratmaq haqqındakı elmi müəyyən məsləhət, qüdrət və iradə əsasında (və bunlarla eyni zamanda) olduğuna görə, (yaradılmış şey) zamanca

(Tanrıdan) sonra ola bilməz. Beləliklə, bu sifətlərin qədimliyi (Tanrının zatı kimi qədim olması) aləmin də qədimliyini tələb edir. Pakizədir o kimsə (Tanrı) ki, onun qüdrəti razılaşmaqdan (başqasının razılığından), həyatı ölümdən, elmi köhnəlməkdən, iradəsi təxirdən, qulağı və gözü duyğulardan, vahidliyi çoxluqdan və sözü yalandan iraqdır.

Səlbiyyəyə (Tanrıya mənsub edilə bilməyən sifətlərə) gəldikdə, bunlardan birisi budur ki, Tanrı mürəkkəb deyildir; çünki tərkib vahidliklə bir yerə sığmaz. Halbuki Tanrı hamının qəbul etdiyi kimi vahiddir.

Bunlardan birisi də budur ki, Tanrı məkan və cəhət (səmt) daxilində deyildir; çünki məkan və cəhət (səmt) onun cisim olmasını tələb edir. Halbuki mücəssimənin (Tanrının cisim olduğunu qəbul edənlər) və müşəbbihənin (Tanrını yaranmışlara oxşadanların) iddiasının əksinə olaraq (Tanrı) cisim deyildir.

Bunlardan birisi də budur ki, Tanrı kədər duymaz; çünki ələm (kədər) ziddin (məqsədəuyğun olmayan şeyin və ya hadisənin) nəticəsidir. Halbuki Tanrıya zidd yoxdur.

Bunlardan birisi də budur ki, Tanrıda ləzzət (almaq) sifəti yoxdur; çünki ləzzət təsir qəbul etmək nəticəsi olub (canlıların) mizacına aid olan bir şeydir. Halbuki Tanrı ondan iraqdır.

Filosoflar demişlər ki, Tanrı öz zatını dərk edəndir və öz zatını dərk etmək isə ən böyük ləzzətdir, lakin bu, ləzzətdən başqa bir şeydir – zövqdür. Fərq burasındadır ki, zövq daimidir, halbuki ləzzət ötəridir.

Bunlardan birisi də budur ki, Tanrı birləşmə qəbul etməz; çünki birləşmə iki şeyin bir şeyə çevrilməsindən ibarətdir. Halbuki Tanrı zatən vahiddir.

Bunlardan birisi də budur ki, Tanrı ərəz deyildir; çünki ərəzin cismə ehtiyacı vardır. Halbuki Tanrı möhtac deyildir.

Bunlardan birisi də budur ki, Tanrı özündən başqa digər şeyə oxşamır; çünki oxşamaq xüsusiyyətlərinin fərqləndiriciyə ehtiyacı vardır. Ehtiyacı olan şey isə vacib ola bilməz.

Altıncı bab

## TANRININ İŞLƏRİ HAQQINDADIR

Filosoflar demişlər ki, işlər hərəkətlərdən ibarətdir. Hərəkət isə kəmiyyət, keyfiyyət, məkan və s. ilə əlaqədardır ki, bunlar da cisim üçün zəruri olan şeylərdir. Beləliklə, cisimlikdən iraq olan (Tanrı) bunlardan da iraqdır. Buna görə filosoflar işləri tamamilə Tanrıdan inkar etmiş və demişlər ki, qüdrətin iş ilə əlaqədar olması işin özü deyildir. İş isə ancaq cisimdən nəşət edir. Bu fikir mötəzililərin fikrinə yaxındır.

Cəbrilər (fatalistlər) deyirlər ki, bəndələrin (insanların) bütün işləri Tanrının qüdrəti ilə yerinə yetirilir və Tanrı tərəfindən insanlar üçün yaradılır. Allahın təyinatı qarşısında insan qüdrətinin heç bir təsiri yoxdur. Bu fikir bəzi filosofların dediyi (sözə) uyğundur ki, cisimlər maddə (həyula) ilə surətin tərkibindən ibarətdir. Maddə (həyula) isə heç olan (yox ola bilən) təbiətdir. Əgər o (təbiət), yoxluğun iştirakı ilə təsir göstərərsə, lazım gələr ki, yoxluq varlığa təsir göstərsin. Bu isə qeyri-mümkündür. Bu (fikir) əşərilərin (fikrinə) yaxındır.

Əşərilərdən olan İmam-əl-Hərəmeyn demişdir ki, insanın qüdrəti və imkanını inkar etmək əqlin rədd etdiyi şeylərdəndir. Onun qüdrətini təsdiq etmək isə qüdrətini inkar etmək kimi təsirsiz (mənasız)dır. Müəyyən vəziyyətdə təsirin təsdiq edilməsi də təsirin inkar edilməsi kimi ağlabatan bir şey deyildir. Beləliklə, insanın etdiyi (iş) ilə onun qüdrəti arasında təsadüfi olaraq deyil, həqiqətən bir nisbətin olması şübhəsizdir. Deməli, o, insanla onun qüdrəti arasında bir səbəbin olmasını təsdiq edir. Belə ki insan qüdrətinin həmin səbəbə olan nisbəti (o səbəbin) qüdrətə olan nisbətinə bərabər olur.

Mötəzililərdən olan Cübbai və onun oğlu Əbu-Haşim həm xeyri, həm də şəri bəndəyə (insana) isnad etmişdir.

Sümamə-əl-Məğribi isə demişdir ki, (insandan) baş verən işlər edəni olmayan işlərdir. Bəndədə (insanda) ancaq iradə vardır, işlər isə fitri olaraq insandan nəşət edir. Cahiz də ona (bu fikrə) tərəfdardır.

Mötəzililər, ümumiyyətlə, deyirlər ki, bəndənin (insanın) öz gördüyü işlərində sərbəstliyi vardır. Buna görə də səvab (mükafat) və ya cəzaya layiqdir.

Əşərilər, ümumiyyətlə, deyirlər ki, Tanrının iradəsi vahid və əzəlidir. Belə ki həmin iradə Tanrının işlərinə və insanların istər xeyir, istərsə də şər işlərinə dair bütün nəzərdə tutulmuş şeylərə aiddir. (İnsanların istər xeyir, istərsə də şər işləri) insanların özünün əldə etdiyi işlər deyil, onlar üçün yaradılmış işlərdir.

Yeddinci bab

## YAXŞILIQ VƏ PİSLİK HAQQINDADIR

Ümumiyyətlə, gözəllik (yaxşılıq) və çirkinlik (pislik) üç növdür. Kamal (bitkinlik) və nöqsan (çatışmazlıq); mülayim və qeyri-mülayim ki, onu əmələ gətirmək və ya tərk etmək lazım olur.

Bundan (yaxşılıq və pislik məfhumlarından) məqsəd (nədir)?

Əşərilərin dediyinə görə, əqlə əsasən çirkinlik və gözəllik qətiyyən yoxdur, bu ancaq şəriətdə belədir. Mötəzililər isə deyirlər ki, əql açıqcasına ədalətin gözəlliyini, zülmün isə çirkinliyini təsdiq edir. Şəriət isə bunu inkar etmir. Əqlə uyğun olan hər bir şey şəriətə də uyğundur.

Səkkizinci bab

## XEYİR VƏ ŞƏR HAQQINDADIR

Filosoflar demişlər ki, ilk varlığın istər tamamilə, istərsə də qismən pis olması qeyri-mümkün idi; çünki o, sırf xeyirdən nəşət etmişdir. Bununla isbat edilir ki, ilk yaradıcıdan nəşət edən varlıqlar da sırf xeyirdir və şər əsla yoxdur.

Şeyx Əbu Əli ibn Sina demişdir ki, xeyir bir şeyin varlığından və yaxud onun bitkinliyinin olmasından, şər isə bir şeyin yoxluğundan və yaxud onun bitkin olmamasından ibarətdir. Bir şeyin ilk əvvəldən şər olaraq əmələ gəlməsi qeyri-mümkündür; çünki onun yaradıcısı xalis xeyirdir. Bununla isbat edirlər ki, nəfs (ruh) ilk əvvəldən xalis xeyir olaraq əmələ gəlmişdir və beləliklə, bütün yaxşı işlər həqiqətən deyil, imkan dairəsində mövcuddur; çünki (insanın) əməldə bitkinliyi onun (mövcudluğu) zamanından sonraya aiddir. Bu bitkinlik tədriclə əqlin təsiri vasitəsilə imkandan həqiqətə çevrilir. Deməli, əqlin həqiqətə çevirdiyi (işlər) xeyir işlərdir; çünki (bu işlər) bitkinlik vasitələri (səbəbləri)dir. Lakin (əqlin) həqiqətə çevirmədiyi (işlər) şər işlərdir. Çünki (bu işlər) nəfsin (ruhun) çatışmaz vəziyyətdə qalması səbəbləridir.

Əbül Həsən əl-Əşəri belə fikirdədir ki, bütün işlər Tanrıdandır və belə izah edir ki, xeyir ilə şər də Tanrıdandır, insanın isə ancaq kəsb etmək iradəsi vardır. Belə ki, əgər xeyir istərsə onu kəsb edər, səvaba çatar və əgər şər istərsə, onu kəsb edər və cəzasını görər. Beləliklə, iradə insanın, qüdrət isə Allahındır.

Mötəzililər isə deyirlər ki, xeyir ilə şərin nəfsə (ruha) aid olması əqlcə isbat edilmişdir. Xeyir ilə şər qarşısındakı səvab, yaxud cəza əql ilə nəfsdən asılıdır.

Aydındır ki, hər iki fiqrə (əşəri və mötəzili) baş vermiş iş qarşısında insanın səvab və ya cəza almalı olduğu barədə birləşirlər. Onların münaqişəsi ancaq qüdrət ilə iradə və qüdrət ilə iradənin nisbəti haqqındadır.

Əşərilər deyirlər ki, iş insanın iradəsi və Tanrının qüdrəti ilə yerinə yetirilir. Mötəzililər isə deyirlər ki, iş insanın qüdrəti və iradəsi ilə həyata keçir. Əşərilər deyirlər ki, mötəzililərin fikri şirkdir (Tanrıya şərik tutmaqdır); çünki onlar cisimlər üçün bir yaradıcı, işlər üçün də bir yaradıcı fərz edirlər. Mötəzililər isə deyirlər ki, əşərilərin fikri şirkdir; çünki onlara görə, iş ancaq Tanrının qüdrəti və bəndənin (insanın) iradəsi ilə baş verir. Lakin həqiqət belədir ki, hər iki təriqətin fikri şirk deyil; nəzakətin riayətində təkid etməkdən ibarətdir. Belə ki əşərilər yaradıcılıq adının Tanrıdan başqa digərinə verilməməsini, mötəzililər isə yaramaz işlərin ancaq bəndəyə (insanlara) aid edilməsini nəzərə almışlar.

## Doqquzuncu bab

## TANRIYA VACİB OLANLAR HAQQINDADIR

Əşərilər deyirlər ki, Tanrı zatən kamildir. Vaciblik elə bir məsələdir ki, onu yerinə yetirməyən məzəmmət[1] edilməlidir. Əgər Tanrı bir işi yerinə yetirmək vəzifəsi daşısaydı və onu

[1] Əslində, لزمهم sözü düşmüşdür.



həyata keçirməməklə məzəmmətə layiq olsaydı, məzəmmət bir nöqsandan ibarət olduğuna görə lazım gələrdi ki, Tanrı nöqsanlı olub və ancaq o vəzifəni yerinə yetirməklə yetkinləşəydi.

Mötəzililər isə Tanrının vəzifədar olmasını bir neçə səbəbə görə təsdiq edirlər.

Birincisi, Tanrı (bəd əməl sakinlərini çəkindirmiş[1]) və yaxşı əməl sahibini mükafatlandırmağa söz vermişdir. Deməli, öz vədəsini yerinə yetirməyə borcludur.

İkincisi, Tanrının qüdrətinə nisbətən işlər bərabərdir (Tanrı heç bir işdə çətinlik çəkmir). Buna görə Tanrı borcludur ki, (məxluqata) daha çox xeyirli olan işlər görsün və Tanrı (bu işdə) hamıdan çox səlahiyyətdardır.

Üçüncüsü, Tanrı adildir. Buna görə borcludur ki, zalimi cəzalandırsın.

Dördüncüsü, Tanrı bəşəriyyəti ruziyə möhtac yaratmışdır. Buna görə borcludur ki, onlara ruzi versin.

[1] Əslində, ووعد المسيئين ifadəsi düşmüşdür.

Dördüncü rükn

## PEYĞƏMBƏRLİK VƏ ONUNLA ƏLAQƏDAR (məsələlər) HAQQINDA BİLİYƏ AİDDİR

Bu rükndə səkkiz bab vardır.

Birinci bab

### İNSANLARIN PEYĞƏMBƏRƏ OLAN EHTİYACI HAQQINDADIR

Bu (məsələ) bir neçə dəlil ilə isbat edilir.

Birincisi, filosofların dəlilidir:

İnsan təbiətən mədənidir. Mədəniyyət və cəmiyyətə əsaslanır. Cəmiyyət də öz qarşılıqlı iş əlaqələrində qanuna möhtacdır ki, intizamın səbəbi olan mədəniyyətdə pozğunluq əmələ gəlməsin. Buna görə, labüd olaraq elə bir vicdanlı qanunverici olmalıdır ki, Tanrı tərəfindən müqəddəs bir nəfsə və mələklərə aid əxlaqa nail olmuş olsun və beləliklə, əmrlər və nəhylər (qadağalar) barədə onun rəhbərliyi doğru olsun. Belə bir qanunverici peyğəmbərdən, qanun isə şəriətdən ibarətdir.

Çöllər və dağlarda yaşayan və yolunu azmış adamlardan ibarət olan cəmiyyətlərin pozulub dağılmaması o demək deyildir ki, yuxarıdakı dəlil saxtadır. Tanrı adildir, o yaratdığı hər hansı bir xalqa həm mərhəmət, həm də sübut olaraq bir peyğəmbər göndərmişdir ki, gedəcəkləri yolu göstərsin və məşğul olacaqları ibadəti təyin etsin. Ancaq bu xalqların bəzisi zaman keçdikcə öz nəfslərinə tabe olmuş, əmr edilmiş yolu unutmuş, ibadətin çətinliklərini tərk etmiş və öz güzəranlarını yaxşılaşdırmaq üçün könülləri istədiyini saxlamış, allahlığı öz bütlərinə mənsub etdikləri kimi, bu vəziyyəti də özlərinə mənsub etmiş və (Tanrının) nemətini (şəriəti) inkar etmişlər.

Miletli Empedokl isə demişdir ki, mənşədən nəşət edən ilk (varlıq) birinci üzv (ünsür) olmuşdur ki, onda həm məhəbbət (cazibə), həm də qələbə (rədd etmə) var imiş. Ondan əqli-küll, əqldən nəfsi-küll, nəfsi-külldən isə mürəkkəb varlıqların nəşət etməsi xatirinə təbiət meydana gəlmişdir. Sonra nəfsi-küll özündən yuxarıdakına, yəni əqlə baxmış və onu sevmişdir, çünki bu nəfs (əql kimi) mücərrəd idi və ondan istifadə edərək gözəlliyi əxz etmişdir. Sonra özündən aşağıdakına, yəni təbiətə baxmışdır; çünki təbiət də (nəfs kimi) çoxcəhətli, mürəkkəb idi. Təbiət mürəkkəb varlıqlara çox meyl etdiyinə görə nəfs və əqldəki gözəlliklərin heç birisindən istifadə etməmişdir. Təbiətdən bir-birinə zidd olan varlıqlar əmələ gəlmişdir. Bunların sırasında sadə şeylər, o cümlədən əsaslar (ünsürlər) və mürəkkəb varlıqlar, o cümlədən mizaclar və qüvvələr olmuşdur. Təbiət mürəkkəb varlıqlarla məşğul olmuş, əqlə və nəfsə mənsub aləmləri unutmuş və tərkib aləmində cismani-şəhvani ləzzətlərə məftun olmuşdur. Sonra nəfsi-küll təbiətin məftunluğunu və coşmasını gördükdə öz hissələrindən birisini ona (təbiətə) nazil etmişdir ki, təbiətdəki coşqunluğun qarşısını alsın, onun unutduğunu yadına salsın, anlamadığını ona öyrətsin, onu bulaşdığı murdarlıqlardan



paka çıxarsın və çirklərdən təmizləsin. Dəyişkən (havadan ibarət olan) bu hissə təbiəti əqli-küll və nəfsi-küllə doğru sövq edir. Belə ki onu gah məhəbbət üzrə və lütf ilə dilə tutur, gah da özünü yüksək tutaraq, zorakılıqla və qılınc gücünə onu çağırır (hədələyir).

İkincisi (Peyğəmbərin isbatı üçün ikinci dəlil), (aləmi) öz vücudumuzun vəziyyəti ilə müqayisə edək. Bizim bədənimiz vardır. Bədənin isə üzvləri və hissələri vardır. Bu üzvlər və hissələr yaxşı və yaxud pis işlər görməyə qabildir. Bədəndə hər şeyə (bütün üzvlərə) müsəllət olan və fitrətən şəhvətləri sevən təbiət vardır. Bu təbiət o alətləri özünün tədbirinə uyğun olaraq işlədir. Əgər təbiət təsəllüt tapa bilərsə, bədəndə pozğunluq əmələ gələr; çünki onda bədənin əsasları (ünsürləri) bir-birinə üstün gələr (ünsürlərin tənasübü pozular) və iş görən alətlər tənasüb halından çıxar. Belə bir pozğunluğu ancaq əql düzəldə bilər. Əql təbiətin qüvvələrə hakim olmasının qarşısını alır və onu yaxşı işlərdə işlədir.

Bədənin əqlə olan ehtiyacını isbat etdikdən sonra təsəvvür edək ki, aləm bədənə, aləmin əhalisi bədəndəki qüvvələrə, iblis təbiətə, peyğəmbər isə əqlə oxşayır. Bununla yəqin edirik ki, aləmin intizamı ancaq peyğəmbər ilə mümkün ola bilər.

Üçüncüsü, insan nəfs ilə bədəndən ibarətdir. Bunlardan birisi nəcib və ruhani bir cövhərdir; digəri isə cismani qaba bir kütlədir. Bunların hər ikisi öz mənşəyinə doğru meyl göstərir və öz yoldaşı tərəfindən cəlb edilir. Əgər nəfs bədəni cəzb etməklə, onu heyvani şəhvətlərin ləzzətindən çəkindirərək paka çıxarıb yüngülləşdirərsə, qayıdan zaman (öləndə) onunla birlikdə (Ərşin) ən uca yerlərinə (cənnətə) yüksələr. Necə ki Məhəmməd, İsa və İdrisin bədənləri belə olmuşdur. Yoxsa, əgər bədən nəfsə üstün gələrək onu öz xidmətçisinə çevirib öz xeyrinə işlədərsə və öz yaramaz işlərinə şərik edərsə və beləliklə, onu tutqunlaşdıraraq ağırlaşdırarsa, onunla birlikdə ən alçaq yerlərə (yəni cəhənnəmə) enər. Necə ki Qarun, Haman və Fironun ruhu belə olmuşdur.

Lakin bədənin ruhu cəzb etməsi işi ruhun bədəni cəzb etməsi işindən bir neçə səbəbə görə daha asandır.

Birincisi budur ki, ruh yüngül, bədən isə ağırdır. Yüngül şeyin ağır şey tərəfindən dartılması ağır şeyin yüngül şey tərəfindən dartılması kimi ola bilməz.

İkincisi budur ki, ruh təbiətən yuxarıya qalxmağa, bədən isə aşağıya düşməyə meyil göstərir. Ağır şeyin yüngül şey ilə birlikdə aşağı düşməsi yüngül şeyin ağır şey ilə birlikdə yuxarı qalxmasından asandır.

Üçüncüsü budur ki, bədənin inkişafı təbiidir və xarici köməyə ehtiyacı yoxdur. Halbuki, ruhun inkişafı kəsibdir, xaricdə olan bir öyrədiciyə ehtiyacı vardır və əgər öyrədici olmazsa, nöqsan halında qalar və nəticə etibarilə nöqsanlı şey kamil şey tərəfindən məğlub olar.

Deməli, insanı inkişafa doğru yönəltmək lazımdır. Belə ki insanlardan birisi Tanrının mərhəməti və onun verdiyi istedada nail olaraq vəhy və ilham almaq səciyyəsinə malik olsun və beləliklə, ruhların öyüd-nəsihət vasitəsilə təmizə çıxarsın və bədənləri (dini) tapşırıqlar vasitəsilə tərbiyələndirsin. Belə bir kamil şəxs peyğəmbərdən, onun məsləhət üçün verdiyi (qanun) isə şəriətdən ibarətdir.

Dördüncüsü, insanın, feyz qəbul edərək biliklər kəsb etmək istedadı vardır. Bu (bilmək istedadı), onda fitri deyildir və gərək biliksizlikdən biliyə doğru özünü inkişaf etdirsin. Feyzin mənşəyi vardır. Həmin feyz istedada malik olan (adama) o mənşə tərəfindən onun istedadı

qədər verilir. Əgər bu feyz vasitəsiz olaraq verilsəydi, hamıya bərabər şəkildə verilərdi. Bu isə qeyri-mümkündür. Yoxsa, əgər feyz mücərrəd əql vasitəsilə verilsəydi, fikirlərdə fərqlənmə olmazdı: çünki əqlin həddi-büluğa çatmış bütün (insanlara) bərabər olaraq aid olması doğrudur. Beləliklə, müəyyənləşir ki, feyz vasitəsi Tanrının bir mərhəməti olub istedad nailiyyəti, dərketmə üstünlüyü və rütbə yüksəkliyi nöqteyi-nəzərindən yeganə (bir fərd) olan (şəxsdə) ruhani cövhərin saflığı, mizacın tənasübü, nəfsin pakizəliyi, mələklərlə sıxı xəlvətə çəkilməsi, dünyanın boş işləri ilə az məşğul olması (xüsusiyyətləri ilə) birləşir. Ona görə ki bəzən ruhani aləmə yönələrək bəşər qüvvəsinin imkan verdiyi qədər (bilik) kəsb etsin, bəzən də cismani aləmə qayıdıb bədən işlərini paklıq və ibadət vasitəsilə idarə etsin və mənşədən (yaradıcıdan) arası kəsilmədən rəhbərlik alıb başqa nəfslərə fayda versin. Necə ki bulud suyu dənizdən götürüb çöllərə yağdırır ki, bitkilər becərilsin. Həm feyz alan, həm də feyz verən belə bir (şəxs) peyğəmbərdən, feyz isə şəriətdən ibarətdir.

Beşincisi, Tanrı insanı başqa varlıqlardan üstün tutmuş və onu dərketmə, qüdrət və ixtiyar (azadlıq, sərbəstlik) feyzlərinə nail etmişdir. Belə bir ehsanı təkmilləşdirmək nemətlərin daha yaxşı kamilləşməsini tələb edir; çünki keçmiş (əvvəlki) nemətlər insanları yaxşı yollara rəhbərlik etməklə, müvəffəqiyyətlər və nailiyyətlər vasitələrini onlara bildirməklə təkmilləşir. Bütün bunlar insanlar içərisindən gözəl, doğruçu, sağlam düşüncəli, yüksək dərəcədə sədaqətli, inanılmış və ləyaqətli bir şəxsin seçilib irəli çəkilməsini tələb edirdi ki, o, insanlara yaxşı-yamanı fərqləndirən ehkamla birlikdə göndərilsin. Belə bir inanılmış və seçilmiş (şəxs) peyğəmbərdən, onun ehkamı isə şəriətdən ibarətdir.

Altıncısı, Tanrı insanları öz qüdrəti ilə yaratmış və onlara əql vermişdir ki, Tanrını tanısınlar. Əgər insanlar əqlə əsaslanan dəlillərlə Tanrını tanıyaraq ona layiqincə ibadət etməyi öz öhdələrinə götürsəydilər, haradan biləydilər ki, Tanrının xoşuna gələn ibadət necə olmalıdır?! Buna görə, insanlara Tanrının istəyini əhatə edən qayda-qanunları öyrədən bir öyrədici lazım idi. Bu öyrədici onların özündən olmalı idi ki, onlarla qaynayıb-qarışsın və ondan çəkinməsinlər. O isə öz sözlərində doğruçu, əməldə düzgün və Tanrının mərhəmətinə nail olmalı idi. Belə bir öyrədici peyğəmbərdən, onun öyrətdiyi isə şəriətdən ibarətdir.

Kəşf əhli demişlər ki, həqqin zahiri və batini vardır. Batində mütləq qeybə aid olan (ancaq Tanrı tərəfindən başa düşülən) həqiqi vəhdət vardır. Çoxluq və təklik (ümumilik və xüsusilik) isə sabit olan zahiri şeylərin mövcudiyyətində olur. Zahirdə isə çoxluq həmişə vardır və ondan ayrı düşə bilməz. Çünki zahir adlar və sifətlərin təzahürüdür və onun çoxluğu həmin (adlar və sifətlərin) xüsusiyyətlərindən irəli gəlir. Buna görə (adlar və sifətlərin) hər birisinin xüsusi bir şəkli olmalıdır ki, nəticə etibarilə çoxluq lazım gəlir. Lakin (adlar və sifətlərin) hər birisi özünün təzahürünə, nüfuzuna və hökmlər (tələb etdiyinə) görə xaricdəki şeylər haqqında çəkişmə və münaqişə əmələ gəlir; çünki onların hər birisi zahiri isimlər ünvanı ilə digərini pərdələyir. Beləliklə, məsələnin ədalətli bir münsifə ehtiyacı olur ki, o bu barələrdə rəy versin, dünya və axirətdə onların intizamını qorusun və onların hər birisini istər zahiri, istərsə də batini inkişafa çatdırsın. Belə bir münsif peyğəmbərdən ibarətdir.



İkinci bab

## İSMƏT (PEYĞƏMBƏRİN GÜNAHSIZLIĞI) HAQQINDADIR

Peyğəmbərlik (nübüvvət) günahsızlıq (ismət) tələb edir. Bəzi adamlar risalət (peyğəmbərlik) vaxtından başqa, bəziləri isə dəvət (dini təbliğat) zamanından başqa peyğəmbərin kiçik günahlar etməsini caiz (yolveriləsi bir iş) hesab edirlər. Bəziləri peyğəmbərin peyğəmbərliyə çatmazdan əvvəl böyük günahlar, bəziləri isə istər peyğəmbərlikdən əvvəl, istərsə də peyğəmbərlik dövründə kiçik günahlar etməsini caiz bilirlər.

(Peyğəmbərin) günahsız olmasını rədd edənlər bir neçə səbəbə əsaslanırlar.

Birincisi, "Quran"da açıqcasına qeyd edilən sözlərə. Məsələn, "Adəm günah etdi"[1], "Səni şaşqın vəziyyətdə görüb yola gətirmədimmi?"[2] sözləri və "Quran"ın açıqcasına göstərdiyi bu kimi ayələrə.

İkincisi, ismət (məsumluq, günahsızlıq) elə bir xüsusiyyətdir ki, ona malik olan (şəxsi) günah etməkdən çəkindirir. Əgər belə bir xüsusiyyət peyğəmbərdə olarsa və buna görə o, günah etməzsə (günah edə bilməzsə), deməli, o, savaba (Tanrı tərəfindən verilən mükafata) layiq olmaz.

Üçüncüsü, (Allah) özü demişdir: "(De ki,) mən sizin kimi adamam"[3]. Bu o deməkdir ki, insan günahsız ola bilməz. Belə olmasaydı, onunla mələklərin fərqi olmazdı.

Lakin birinci dəlilə iki yolla cavab vermişlər (rədd etmişlər).

Birincisi, "Quran" təfsir edilə bilər (təfsir ilə aydınlaşar) və onu təfsir etməkdən heç bir zərər gəlməz.

İkincisi, müarizə (bir yerə sığa bilməyən fikirlərin ziddiyyəti) vasitəsilə (aydın olar), çünki əgər müəyyən bir ayə yalan ola bilən bir günaha dəlalət edərsə, eyni zamanda həmin günahın düzgünlüyü ehtimalının olmamasını da doğurmuş olar.

İkinci dəlilə isə iki yolla cavab vermişlər.

Birincisi, məsumluq aid olduğu şəxsin günah etməsinə mane olsa belə, həmin şəxsin ixtiyarını (azadlığını) əlindən almır. Necə ola bilər ki, bir şəxs ibadətə aid işin kəmiyyəti, növü və gecikməsi barədə faili-muxtar (sərbəst fəaliyyətdə) olsun, lakin ibadət ilə günahı (bir-birindən seçib ayırmaq işində faili-muxtar) olmasın?!

İkincisi, günah etmək elə bir işdir ki, cəza ilə nəticələnir. Günah etməmək isə sabit bir şey (fəaliyyət) deyildir. Günah etməmək insanın öz vəziyyətində qalmasından (fəaliyyətsizliyindən) ibarətdir. Halbuki ancaq əməllər (fəaliyyətlər) savaba layiqdir.

Üçüncü dəlilə isə üç yolla cavab vermişlər.

Birincisi, insanda günahsızlıq (ismət) əsasdır. Günah isə sonradan baş verən bir işdir və əməlin şüurlu olaraq yerinə yetirildiyi zaman baş verir. Nə üçün bəzi şəxslərdə əsas vəziyyətin davamı və bu vəziyyətin təsadüfi olaraq baş verən bir iş vasitəsilə dəyişilməməsi mümkün olmasın?

İkincisi, insanlarda adət fitri bir xüsusiyyətdir. Nə üçün bəzi şəxslərin ibadətlə çox məşğul olduğuna görə günaha heç də etina etməməsi mümkün olmasın?

[1] "Quran"ın "Taha" surəsi, 121-ci ayə.
[2] "Quran"ın "Vəz-Zuha" surəsi, 7-ci ayə.
[3] "Quran"ın "əl-Kəhf" surəsi, 110-cu ayə.

Üçüncüsü, günah elə bir tərkib hissəsi deyildir ki, onsuz insan mükəmməl olmasın. Bəzi şəxslərin öz tanrısına qətiyyən müxalifət etməməyə müvəffəq olması nə üçün qəbul edilməsin?

## Üçüncü bab

## BİZİM PEYĞƏMBƏRİN PEYĞƏMBƏRLİYİ HAQQINDADIR

Bizim Peyğəmbərin peyğəmbərliyi həm onun olduğu (yaşadığı), həm də olmadığı zamanda (ölümündən sonra) isbat edilmişdir.

Onun olduğu (yaşadığı) zamandakı peyğəmbərliyi iki hadisə ilə sübut edilir.

Birincisi, ağızdan-ağıza bizə qədər gəlib çatmış olan parlaq möcüzələri və aydın kəramətləri vasitəsilə. Bunlar rəvayət edilməyə ehtiyacı olmayan saysız-hesabsız möcüzələrdir.

İkincisi, yəhudilər və xaçpərəstlərin təsdiqindən ibarətdir ki, bunlar, ədavətlərinə baxmayaraq, keçmişdən onun haqqında xəbər vermişlər. Müddəaya aid müxalifətçinin ən kiçik sözü (etirafı) iddia edənin əlindəki sənədlərin ən güclüsü kimi hesab edilə bilər.

Onun olmadığı (ölümündən sonrakı) zamanda (peyğəmbərliyi) iki hadisə ilə (isbat edilir).

Birincisi, onun əmr və yaxud qadağan etdiyi düzəlişlər. Belə ki bizə əmr etdiyi işlər, bizim ürəyimizə yatmasa belə, yerinə yetirildikdə onların məsləhət olmasını və həmin əmrin doğruluğunu göstərir. Həmçinin bizə qadağan etdiyi işlər, bizə dözülməz görünsə belə, yerinə yetirildikdə onların yaramazlığını və həmin qadağanın doğruluğunu göstərir.

İkincisi, onun dediyi "məndən sonra peyğəmbər olmayacaqdır" sözünün doğruluğu. Belə ki bizim zəmanəmizə qədər hər hansı bir möcüzə ilə öz peyğəmbərliyini sübut edən bir şəxs çıxmamışdır.

## Dördüncü bab

## ONUN (MƏHƏMMƏDİN) BAŞQA PEYĞƏMBƏRLƏRDƏN ÜSTÜNLÜYÜ HAQQINDADIR

Bu (məsələ) bir neçə dəlil əsasında isbat edilir.

Birincisi bundan ibarətdir ki, peyğəmbərlik məsələsi davamiyyət tələb edir (peyğəmbərsiz bir dövr olmaz); çünki peyğəmbərlik dünya işlərini nizama salır, bütün pozğunluqları düzəldir, Tanrı ilə insanlar arasında əlaqə yaratmaq vasitəsidir və buna görə də peyğəmbər bütün zamanlar üçün zəruridir. Lakin hər bir peyğəmbərin müəyyən zamanı və ehkamı olmuş, onların zamanı və ehkamı aradan gedərək bizim peyğəmbərin zamanı gəlib çatmışdır və həmin zaman onun ehkamı ilə zinətlənmişdir. Belə ki həmin ehkam (başqa peyğəmbərə) köçürülmədən qiyamət gününə qədər qalacaqdır. Deməli, hər bir baqi (qalan şey) fani (şeydən) üstün olduğuna görə ehkamı ləğv edilməyən şəxs də ehkamı ləğv edilən şəxslərdən üstündür.

İkincisi. Bəşəriyyətin imkanında olan elmlər və fənlər aləmin başlanğıcından bizim zamanımıza qədər peyğəmbərlər, filosoflar və alimlər vasitəsilə tədricən həqiqətə çevrilmişdir.



Ata-babalardan qalmış olan bütün keçmiş üstün cəhətlər (biliklər) bizim peyğəmbərin başqa ümmətlərdən (din tərəfdarlarından) üstün olan ümməti (tərəfdarları, müsəlmanlar) vasitəsilə Peyğəmbərimizin şərəfli ehkamının üstünlüyü sayəsində təkmilləşmiş (və hazırkı şəklə düşmüşdür). Deməli, bizim peyğəmbər hamısından üstündür.

Üçüncü budur ki, bütün peyğəmbərlərin peyğəmbərliyinin sübutu müəyyən möcüzələrdən ibarət olmuşdur. Lakin o peyğəmbərlərdən sonra həmin möcüzələrdən heç bir əsər qalmamışdır. Halbuki bizim peyğəmbərin möcüzələrindən birisi olan "Quran" peyğəmbərdən sonra olduğu kimi qalmış və bütün zamanlar üçün qiyamət gününə qədər olan peyğəmbərliyinin şahidi olaraq qalacaqdır. Beləliklə, möcüzəsi daha artıq yaşayan və daha sabit olan (peyğəmbər) hamısından üstündür.

Dördüncüsü, keçmiş peyğəmbərlərin şəriətlərindəki ehkam öz təsirini bağışlamaq üçün möcüzəyə möhtac olmuşdur. Halbuki bizim peyğəmbərin ehkamı, yəni "Quran" öz-özlüyündə möcüzədir. Bu isə bizim peyğəmbərin üstünlüyünü göstərən ən güclü sübutdur.

Beşincisi, merac məsələsindən ibarətdir ki, (bizim peyğəmbər) bu barədə yeganədir. Deyirlər ki, Peyğəmbər merac gecəsində ərşə doğru qalxdığı zaman göylərin hər birisində peyğəmbəri aparan mələklər ondan geri qalmışdılar (onun getdiyi yerlərə mələklərin daxilolma ixtiyarı yox idi). Sonra (meracın keyfiyyəti haqqında) soruşduqda (peyğəmbər) demişdir ki, bu ancaq bəşəriyyətin seçmə fərdinə müyəssər ola bilər və (Tanrı ) öz əmrini sizin bilmədiyinizdə zahir etmişdir.

Bəziləri peyğəmbərliyi bir neçə dəlil əsasında inkar etmişlər.

Birincisi, Tanrı bizə ağıl və sərbəstlik nemətləri bağışlamış və bizi məqul şeyləri dərk etdiyimizə görə özünün yaratdığı başqa şeylərdən üstün tutmuşdur ki, Tanrının zatını və sifətlərini öyrənək və öz işlərimizi ağlımız vasitəsilə sərbəstcəsinə idarə edək. Əgər biz işimizi öz tayımıza tapşırsaq, belə ki o bizi heyvanlar və yaxud cansız varlıqlar kimi kefinə uyğun olaraq dolandırsın, ağlımızın nifrət etdiyi işləri görməyə bizi məcbur etsin və təbiətimizə uyğun olan işlərdən bizi çəkindirsin, onda bizimlə heyvanlar arasında nə kimi fərq olar və bizim ağlımızın faydası nədir?

Əgər yaradılmış qeyri-bərabərdirsə, bu, ədalətə ziddir və əgər bərabərdirsə, bizim ağıllarımız bizə kifayətdir.

İkincisi, Tanrı təkamülün tələbinə uyğun olaraq bizi xilqətcə kamil yaratmışdır ki, onun (Tanrını) dəlillər (istidlal) əsasında dərk edək, taysız və oxşarsız bilək. Necə ola bilər ki, Tanrı bizim öz taylarımızı bizə peyğəmbər göndərsin. Onları tanımağı və onlara itaət etməyi, Tanrını tanıdığımız və ona itaət etdiyimiz kimi bizə vacib etsin, onlara dua etməyi öz ibadətləri sırasına keçirsin və onları bizə hökmran edib bizdən üstün tutsun?

Üçüncüsü, onlar (peyğəmbərlər) insanların ürəyini sehr ilə məftun edən sahirlərdir ki, insanları (bu yolla) öz əmr və nəhylərinə tabe etmişlər. Buna görə də onların (peyğəmbərlərin) hər birisinin müəyyən dövrü olmuşdur ki, həmin dövr başa çatdıqda (sehrləri də) ləğv (batil) edilmişdir.

Dördüncüsü, peyğəmbərlik iddiası rəyasət iddiasıdır. Rəyasət də ulduzların uğurlu görünüşündən asılıdır. İnsanlardan hər kim uğurlu vaxtda anadan olarsa, heç də ləyaqəti olmadan rəyasətə və yüksək rütbəyə çatar.

Birinci (iddiaya) iki dəlil ilə cavab vermişlər.

Birincisi, feyz qəbul etmək istedadı nöqteyi-nəzərindən insanların bir-birindən fərqlənməsi aydındır. Bu fərqlənmə zəruri olaraq insanların bəzisinin digərindən üstün olmasını tələb edir. Deməli, nöqsanlı (adamların) mükəmməl adamlara tabe olması və ümumi məsələlərdə onlardan tərbiyə öyrənməsi vacibdir.

İkincisi, əgər ağıllar ümumiyyətcə müvəffəqiyyətli olsaydı, təqlid edilən adamın ağlı istifadə edən şəxsin inamını özünə cəlb etməzdi; çünki təqlidi qəbul etmək ancaq onun ağlı vasitəsilə olur. Beləliklə, etiraz müəyyən bir əqidənin inkarından ibarətdir və müxalifətçinin əqidəsinin inkar edilməsi müxalifətçini öyrənmək deməkdir. Deməli, sabit olur ki, ağıllar qeyri-bərabər olduğuna görə müəllim lazımdır.

İkinci (iddiaya) belə cavab vermişlər ki, ünsürlərdən əmələ gəlmiş varlıqlar dərəcə etibarilə bir-birindən fərqlənir. Belə ki, bitkilər göyərib artdığına görə cansız varlıqlardan üstündür. Heyvanlar iradi hərəkətə malik olduğuna görə bitkilərdən üstündür. İnsan ağıl və ixtiyara malik olduğuna görə heyvanlardan üstündür. Peyğəmbərlər isə peyğəmbərlik feyzinə malik olduğuna görə başqa insanlardan üstündürlər.

Bu o deməkdir ki, peyğəmbərlik feyzi ancaq xasdır; çünki bu feyz ümumi olub bütün insanlara aid ola bilər. Fərq burasındadır ki, feyzin peyğəmbərdə təzahür etməsi peyğəmbərə xasdır; çünki əgər feyzin təzahür etməsi hamıya aid olsaydı, intizama səbəb olan fərq aradan gedərdi. Buna görə filosoflar demişlər ki, əgər bütün insanlar bərabər olsaydılar, onların hamısı həlak olardılar. Deməli, bəşər cəmiyyəti öz məsləhətləri xeyrinə peyğəmbərlərə təzim etməlidir.

Üçüncü iddiaya (belə cavab vermişlər ki, Tanrının) hikməti hər hansı bir şeydə müəyyən əsər və xasiyyət qoymuşdur. Belə ki insanların bəzisi təcrübələr əsasında müəyyən hissələri tərkib etməyə və ya sözləri birləşdirməyə nail olur və nəticə etibarilə müəyyən və məxsus şeylərdə ya məsləhət olan təsirlər əmələ gətirir ki, kəramətlər, duaların təsiri və tibb elminin götürdüyü ölçülərdən ibarətdir; yaxud da məsləhət olmayan təsirlər əmələ gətirir ki, bu da hoqqabazlıq və ya sehrdən ibarətdir. Mürəkkəb şeylərdə əmələ gətirilən bu təsirlərin bütün (nəticələri) müxalifətçinin iddiası qarşısında dəlillər kimi istifadə edilir. Lakin peyğəmbərliyə sehrbazlıq nisbəti vermək sehrbazlığın özündən də yaramaz işdir; çünki peyğəmbərlik Tanrının mərhəmətindən nəşət edir və həmişə müəyyən məsləhətlərə uyğundur.

Dördüncü iddiaya (belə cavab vermişlər ki,) ulduzların təsiri həmin təsirlərin yerindən asılı olaraq ölçülür; çünki bu təsirlər qabiliyyətsizliyə xas olmayıb, qabiliyyətlərə də aiddir.

Əgər deyilərsə ki, tutalım, insanın peyğəmbərə ehtiyacı olması doğrudur, bəs peyğəmbərin başqa adamlardan fərqlənməsi üsulu necə ola bilər? Çünki məsələnin ümumi şəkildə qoyuluşundan peyğəmbərin üstünlüyü nəticəsi çıxmır (hamının peyğəmbər ola bilməsi nəticəsi çıxır) və məsələnin xüsusi şəkildə qoyuluşundan (ancaq müəyyən şəxsin peyğəmbər ola bilməsindən) də belə nəticə çıxır ki, fərqləndirənin biliyi fərqlənənin (peyğəmbərin) özünü əhatə etməlidir (başqasını peyğəmbər bilən şəxs peyğəmbərin özündən də artıq biliyə malik olmalıdır). Bu isə qeyri- mümkündür.

Bu iddiaya cavab olaraq (yuxarıda) demişdim ki, peyğəmbərliyin nişanələri çoxdur.

Onların sırasında möcüzələri qeyd etmək olar. Möcüzə xariqə işlərdən birisini yerinə yetirməkdən ibarətdir ki, peyğəmbərliyin doğruluğunu isbat edən şahiddir.



Deyilmişdir ki, ünsürlərdən ibarət olan təbiətlərin müqəddəs ruhlara itaəti bədənin digər ruhlara olan itaəti kimidir. Bu isə müqəddəs cənaba (Tanrıya) doğru təvəccöhün (üz çevirməyin) nəticəsidir. Hər kim sədaqətlə Tanrıya itaət edərsə, Tanrıdan başqa digər şeylərin hamısı ona itaət edər. Hər kim təbiəti öz ruhunun ixtiyarına verərsə, hər kim həvəsdən imtina edərsə, təbiətləri öz ixtiyarına keçirməyə qadir ola bilər. Hər kim yaradıcıya itaət edərsə, yaranmışlar da ona itaət edər.

O cümlədən, (peyğəmbərlik nişanələrindən) biri də qeybə aid (gizli) şeyləri bilməkdən ibarətdir. Bu xüsusiyyət ruhani bir işdir. Yuxarıda deyilmişdir ki, aləmin özü və onun hadisələrinin qeyd siyahısında ümumi surətləri vardır ki, bunlara Əflatuna görə, "Əflatun qəlibləri" (müsüli-əflatuniyyə,) kəşf əhlinə görə, cəbərut (qüdrət) aləmi (aləmi-cəbərut) və şəriət əhlinə görə, lövhi-məhfuz (hifz olunan lövhə) deyilir. Bu surətlər heç vaxt dəyişilmir və onların timsalı şəhadət aləminə (dünyaya) göndərilir. Bunlar doğru və ya xəta (nadürüst) işlərin mənşəyidir; çünki əqlin şeylərə aid və onların əmələ gəlməsindən əvvəlki təsəvvürə əgər o uyğundursa, belə bir təsəvvür düzgündür; əks təqdirdə isə düzgün deyildir. Əgər ruh bədəndən ayrılmaqdan qabaq cismani pərdələr (manelər) və bədənə aid hadisələrdən təcrid edilərək, həmin siyahıdakıları qəbul edərsə, o siyahıdakı əzəli və əbədi şeylər onun üzərində nəqş edilər və belə bir rütbəyə malik olan adam keçmişdən və gələcəkdən xəbər verər.

Həmçinin demişlər ki, əgər ruh örtüklərdən (manelərdən) təcrid edilərək müqəddəs cənaba (Tanrıya) müraciət edərsə, göydəki mücərrəd şeylər müxtəlif şəkillərə düşərək onu qarşılayar, keçmiş və gələcək şeylər haqqında ona xəbərlər verər. Filosoflara görə bu şəkillər mələklərdən və onların verdiyi xəbərlər, vəhy və ilhamdan ibarətdir.

O cümlədən, (peyğəmbərlik nişanələrindən) birisi də əməllər və sözlərin keyfiyyətidir. Əgər onların (peyğəmbərlərin) əməllərinin izləri və sözlərinin nəticələri ümmətin (xalqın) əməl və sözləri ilə müqayisədə sırf xeyirdən ibarət olub heç bir pozğunluğa səbəb olmazsa və faydası həddi-büluğa çatmış bütün adamlara aiddirsə, belə bir şəxs peyğəmbərdir. Yoxsa (onun) əməl və sözləri özlərinə qarşı müəyyən qərəzlər əsasında olarsa, peyğəmbər deyildir; çünki peyğəmbərlərdə Tanrının əxlaqı vardır və onların əməllərinin qərəzi insanlar üçündür, necə ki Tanrının əməlləri də belədir.

## Beşinci bab

## İMAMƏT HAQQINDADIR

İmamətin vücudu zəruridir; çünki islamın (daimi olaraq) yaşaması üçün şəriət ehkamı davam etməlidir. Halbuki qanunvericinin məcazi həyatı (dünyadakı həyatı) daimi deyildir. (Buradan belə nəticə çıxır ki,) ölkələrdə müxtəlif əsrlər ərzində nizam-intizam ancaq imamın vücudu ilə mümkün ola bilər. Peyğəmbər, Tanrının sәlavatı ona və onun övladına olsun, belə demişdir: "Hər kim öz zəmanəsinin imamını tanımadan ölərsə, cahiliyyət (azğınlıq, nadanlıq) içərisində ölər".

İmamın təyin edilməsi məsələsində insanlar arasında müxtəlif fikirlər vardır:

Sünnilər deyirlər ki, imamət icra (xalqın əksəriyyəti) tərəfindən həyata keçirilir (seçilir), ehkam və yaxud təyin əsasında irəli çəkilmir. İmamlar dörd xəlifədən ibarətdir ki, məlum olan sıra və qayda əsasında xəlifə olmuşlar.

Mötəzililər deyirlər ki, imamlıq dinin (islam dininin) əsaslarından biridir. Peyğəmbər onu ləğv edə bilməz. Deməli, imamət ehkam (Tanrının göstərişi) və təyin vasitəsilə məsumluq və kəramət şərtilə əmələ gəlir. Bunlar (mötəzililər) eyni zamanda iki imama tabe olmağı düzgün hesab edirlər.

Mühəkkəmilər aləmdə imamın heç olmamasını caiz (yararlı) bilirlər.

Muxtarilər demişlər ki, Əlidən sonra Məhəmməd ibn-Hənəfiyyə, ondan sonra isə onun oğlu Haşim imamdır.

Zeydilər demişlər ki, imamət fatimilərin (Məhəmmədin qızı Fatimə nəslində olanların) haqqıdır və başqalarının imamətini caiz bilmirlər.

İmamilər deyirlər ki, Peyğəmbərdən sonra Əli bilafasilə imamdır.

İsmaililər demişlər ki, Cəfərdən (yeddinci imamdan) sonra İsmail (Cəfərin oğlu) Allahın əmrinə əsasən imamdır.

On iki imama inananlar deyirlər ki, imamət ardıcıl olaraq və Peyğəmbərdən sonra fasiləsiz surətdə Əli və onun övladlarına, yəni Həsən, Hüseyn, Abid, Baqir, Sadiq, Kazim, Rza, Təqi, Nəqi, Əsgərə və intizarı çəkilən Mehdiyə xasdır.

Batinilərin imamət haqqında başqa fikirləri vardır. Onlar deyirlər ki, iki aləm vardır: ruhani və cismani. Bu iki aləm mənşədən birlikdə nəşət etmişdir və kəmaldan nöqsana doğru tənəzzül edir. Sonra mənşəyə mənsub olana qədər nöqsandan kəmalə doğru qayıdır. Cismani aləm zahiri aləmidir. Bu aləmin idarəedicisi peyğəmbərdən ibarətdir ki, şəriətin zahiri ehkamı əsasında hökm edir. Ruhani aləm isə batini aləmidir. Bu aləmin idarəedicisi isə imamdan ibarətdir ki, məqul (əqli) və mənəvi ehkam əsasında hökm edir. Elə buna görə də bunlar (batinilər) peyğəmbərin deyil, imamın gizli olmasını (gözə görünməməsini) düzgün hesab edirlər. Necə ki bədən (peyğəmbər kimi) gizli deyil, ruh isə (imam kimi) gizlidir.

Bəzi qülüvv edənlər (ifratçılar) demişlər ki, Tanrı bəzi vaxtlar insan şəklində gözə görünür. Onu (insanlar) peyğəmbər və imam adlandırırlar. Bunlar insanları həqiqi dinə və düz yola çağırırlar.

## Altıncı bab

## MƏHŞƏR (HESAB ÇƏKİLƏN YER VƏ YA GÜN) HAQQINDADIR

Buna aid bir neçə məsələ vardır.

Birincisi, məhşərə inanmaq məsələsidir ki, islamın əsaslarının ən böyüyü, intizam vasitələrinin ən şəraflisi və çox bilici məlikin (padşahın – Tanrının) ibadətinə aid ehkamın həyata keçirilməsi səbəblərinin ən möhkəmidir; çünki insan təbiəti elə yaranmışdır ki, o, fitri olaraq ehtiraslardan ləzzət alır və cismani həzlərə meyil göstərir. Halbuki bunlardan zərər görür. İnsanı bu işlərdən çəkindirə bilən (bir şey) vardırsa, ancaq qiyamət qorxusu və cəza dəhşətindən ibarətdir.

Demək olmaz ki, şəriət ehkamı və ya xalq tərəfindən verilmiş qayda-qanunların qorxusu və ya nemətlərin aradan getmək təhlükəsi (ehtiraslar və cismani ləzzətlər qarşısında) müəyyən maneələr təşkil edir və bu kifayət edər; çünki istər şəriət ehkamı, istərsə də insanlar tərəfindən verilmiş qayda-qanunlar, həmçinin nemətlərin aradan getmək təhlükəsi belə bir maneə təşkil etmir. (Məsələn,) bir çətinlik qarşısında olan adam nemətin aradan getmək təhlükəsi barədə heç də düşünmədən xilas olmaq məqsədilə özünü öldürür.



İkincisi, qiyaməti isbat etmək məsələsidir ki, bu da bir neçə dəlilə görə izahsız deyil, əql əsasında sabitdir.

Birincisi, (dini) təkliflər. Çünki bu təkliflər çətin (taqətdən salan) işlərdir və mükafat tələb edir. Belə bir mükafat isə ancaq öləndən sonra mümkündür; çünki (dini) təkliflər bütün həyat boyunca davam edir.

Demək olmaz ki, nəfsin (insanın) yoxdan vücuda gəlməsi, həyatın ləzzəti və bilikləri dərk etməyin özü-özlüyündə nemətlərdir, dini təkliflər isə həmin nemətlər qarşısında şükür etmək deməkdir və mükafat tələb edən artıq işlər deyildir. Ona görə ki dünyada ləzzətlə ələm bir-birinin ayrılmaz hissəsidir. Belə ki biz ancaq ələmdən sonra ləzzəti, məsələn, xəstəlikdən sonra sağlamlığı dərk edirik, həmçinin varlıq ləzzəti qarşısında yox olmaq qorxusundan törənən ələm, həyat ləzzəti müqabilində ölüm qorxusundan törənən ələm və biliklər ləzzəti qarşısında təhsil zəhmətindən törənən ələm vardır. Beləliklə, əgər ləzzət şükür tələb edirsə, ələm də mükafat tələb etməli olur.

Deyilmişdir ki, insanın vücudu əvvəldən axıra qədər xalis ələmdən ibarətdir və şükür tələb edən heç bir ləzzət yoxdur; çünki vücudun başlanğıcı cəhalət dövrü, sonu isə zəiflik və ölüm qorxusu dövrüdür; bu iki dövr arası da həyat vəsaiti əldə etmək uğrunda zəhmətli çalışmalar dövrüdür. Beləliklə, (dini) təkliflər şübhəsiz olaraq mükafat tələb edir.

İkincisi, insanlar arasında həyat şəraitinin dərəcəsi etibarilə fərq vardır. İnsanlar arasında eləsi olur ki, yoxsulluq ələmi içərisində ölür, eləsi də olur ki, varlılıq ləzzəti içərisində ölür. Əgər haman yoxsul bəd əməl və həmin varlı yaxşı əməl sahibi olmuşsa, iş öz qaydası ilə getmişdir; varlılıq yaxşı əməlin mükafatı, yoxsulluq isə bəd əməlin cəzası olmuşdur. Lakin əgər iş əksinə olarsa, eyni zamanda həm yaxşı əməl sahibi, həm də yoxsul olan adam yoxsulluq ələmi qarşısında müəyyən bir əvəzə çatmalı olur; çünki yersiz olaraq ələm üçün yaranmamışdır.

Demək olmaz ki, yoxsulluq və yaxud varlılıq tənbəllik və yaxud çalışma ilə əlaqədar olub ancaq Tanrı tərəfindən qismət olmuşdur; çünki çalışmanın şərti bədən sağlamlığı nailiyyəti və maneçilik göstərən hadisələrin olmamasından ibarətdir. Halbuki xəstə olan və hadisələrə uğrayan adam həyat şəraiti yarada bilməzsə, təqsirkar deyildir. Deməli, maneçiliklərin səbəbi Tanrıya aid olur və Tanrı bunun əvəzini çıxmalıdır. Belə bir əvəz də ancaq ölümdən sonra ola bilər.

Üçüncüsü, insan təbiəti şəhvət və qəzəb qüvvələri vasitəsilə əlverişli şeyləri özünə cəlb etmək və zərərli şeyləri rədd etmək (qabiliyyəti) əsasında qurulmuşdur; çünki bu iki qüvvə təbiətin (insan təbiətinin) bəzi cəhətlərini ələ keçirərək bir məzlumun varını əlindən almağa və yaxud onu zülm ilə öldürməyə səbəb olur. Əgər bunun qarşısında cəza verilməzsə, ədalət pozulmuş olar. Buna görə lazımdır ki, cəza ölümdən sonra tətbiq edilsin.

Dördüncüsü, dinlərdə və əqidələrdə olan fərqlərin düzgün və ya xəta olmasından ibarətdir. Etiqadlar müxtəlifdir və (məsələlərin) həqiqəti dünyada əqlin nəzərindən gizli qalır. Buna görə də hər hansı bir etiqad sahibi məsələnin həqiqətini bilmədən öz etiqadı ilə məhdudlaşır. Beləliklə, əgər birisi düzgün (doğru), birisi isə xəta etiqada malik olan iki şəxs ölərsə, həqiqətin üstü açılacaq bir vaxt olmasa, düzgün (doğru) ilə xəta bir-birindən fərqlənməz. Deməli, ədalət tələb edir ki, fərqləndirmək üçün (müəyyən) bir vaxt olsun ki, o vaxt doğruçu fəxr etsin və xətakar (öz xətasını) etiraf etməyə məcbur olsun.

Beşincisi, başqa varlıqların əksinə olaraq insanın kamalı (sonradan) kəsb edilir (fitri deyildir); çünki insan öz həyatının başlanğıcında, biliksiz olduğuna görə nöqsanlıdır və öz ömrünün əvvəlindən sonuna kimi bədən alətləri vasitəsilə istedadı qədər ləzzətin kamal həddinə, eyni zamanda kamal ləzzətinə çatanadək getdikcə təkmilləşir. Ortadakı (uşaqlıq ilə qocalıq arasında olan həyat dövrü) ləzzət, kəsbetmə (öyrənmə) zəhmətləri ilə qarışıqdır. Kəsbetmə (öyrənmə) dövrü bitdikdən və imkan daxilində olan şeylər həqiqətə çevrildikdən sonra zəhmətlər bitir, əldə edilmiş biliklər mükəmməl dərəcədə qalır və lazım gəlir ki, insan çəkdiyi zəhmətlərin ləzzətinə çatsın. Ona görə ki kəsbetmə hədərə getməsin. Lakin lazımdır ki, o, ləzzətə ölümündən sonra çatsın; çünki kəsbetmə müddəti ölənə qədər davam edir.

Əgər desən ki, bu dəlillər (ancaq) cismani maadın (ölülərin o dünyadakı bədənləri əsasında dirilməsinin) isbatı üçün əsas ola bilməz[1], çünki bilikləri kəsb etmək üçün bədən ruhun alətidir və ruhun təkmilləşməsindən sonra alətə ehtiyacı yoxdur və şübhəsiz ki, ruh müqəddəsdir və ülvidir, bədəni idarə etmək zəhmətini isə bilikləri kəsb etmək xatirinə qəbul etmişdir və beləliklə, öz inkişafına çatdıqdan sonra nə üçün bədən darısqallığını tərk etməsin, bədənin kəsafətindən yaxa qurtarmasın, mücərrəd olaraq öz məbdəinə doğru qayıtmasın və əbədi ləzzətini davam etdirməsin?!

Hətta deyilmişdir ki, (bu məsələ) nəfsin (ruhun) özündən asılıdır. Əgər o, kəsbetmə zəhmətini yerinə yetirərsə və fani ehtiraslı ləzzətlərdən vaz keçərək təkmilləşərsə, deməli, ondan (bədəndən) əlaqəsini kəsmiş və alətlərdən (bədən üzvlərindən) ehtiyacını kəsərək ləzzət almış və ruhanilərlə qaynayıb-qarışmış olur ki, bu onun behiştindən ibarətdir. Əksinə, əgər fani ləzzətlərlə məşğul olaraq kəsb etməkdən qəflət edərsə, onda necə vardısa, elə dünyadan çıxmış olur, hətta fani ləzzətə olan yorucu meylin əziyyəti üstəlik olaraq buna əlavə olur ki, bu onun cəhənnəmindən ibarətdir. Beləliklə, ruhani behişt və mənəvi cəhənnəm məlum olduğuna görə cismani maada ehtiyac yoxdur.

Bütün bunları bir neçə dəlil əsasında rədd edərək deyirəm ki:

Əvvəla, ruh alətlərə (bədən üzvlərinə) hakim olaraq ləzzətlərə çatır. Özü də mücərrəd bir cövhərdir ki, bədəndən sonra (öləndən sonra) qalır. Ləzzət və yaxud ələmi dərk etməyin adi aləti duyğulardan ibarətdir. Duyğular isə bədənin ləvazimatından ibarətdir. Beləliklə, ləzzətlər və ələmləri tam şəkildə nə adi yolla, nə də mənəvi olaraq bədənsiz dərk etmək mümkün deyildir.

İkincisi, ruh ilə bədənin əlaqəsi aşiq və məşuqun əlaqəsi kimidir. Onların arasındakı ünsiyyət zaman keçdikcə şiddətlənir. İstəklinin ayrılığından törənən ələm ruhun xüsusiyyətlərindəndir. Beləliklə, ruh üçün bədənsiz tam şəkildə ləzzət ola bilməz.

Üçüncüsü, insan ruh ilə bədənin birlikdə olmasından ibarətdir. (İnsan) növünü və yaxud şəxsiyyətini onlarsız təsəvvür etmək olmaz. Bunlardan biri digəri olmayan, tələb edilən zaman zalimdən məzlumun haqqını almaq işi ilə məşğul ola bilməz. Beləliklə, ədalət (ruh ilə bədəndən mütəşəkkil) şəxsiyyətin (məsuliyyətini) qarşıya çıxarır ki, bu da cismani maadın lüzumunu tələb edir.

Demək olmaz ki, kəsif olan bədəndə ruh əzab çəkdiyi halda, bədəndən yaxa qurtardıqdan sonra necə ola bilər ki, yenə də ona doğru meyil göstərsin?! Bədən ruhun əzab çəkdiyi yerdir. Ona görə ki bədən quruluşca, məişətcə və hadisələr qarşısında dəyişkən olması etibarilə ruhdan fərqlənir. Ünsiyyət vasitəsi ancaq o zaman əmələ gələ bilər ki, nifrət səbəbləri aradan getsin.

(Buna cavab olaraq) demək olar ki, öləndən sonra ruhun (qiyamətdə) bədənə qayıtmasında ləzzət və ya ələm təkmilləşmə vasitələrindəndir; çünki əgər ruh əzaba layiqdirsə, bədən

[1] Mətndə səhvən "ola bilər" yazılmışdır.





ondan ötrü ən mənfur bir şeydir (onu pis işlər görməyə məcbur etmişdir), hətta ondan (ruhdan) qətiyyən ayrılmayan zəncir və qandallardan ibarətdir. Yoxsa əgər ruh (mükafata) layiqdirsə, bədən onun ən gözəl tələbatıdır ki, onun mütənasibliyini, gözəlliyinin bəzəyini və itib-batmaq təhlükəsi olmadan öz arzularına çatmasını təmin edir; hətta ruh üçün bədən mükəmməl surətdə və daimi olaraq içərisində ləzzət aldığı saraylardan da üstündür.

Dördüncüsü, (ləzzət və ələm dedikdə) doğruçunun (Tanrının) verdiyi xəbərlərə uyğun olaraq və onlara əsasən insanlar arasında adi və hissi (duyğu ilə dərk edilən) ləzzət və ələm nəzərdə tutulur; çünki həmin doğruçunun insanlara verdiyi şad xəbərə görə, Allah bəndələri insanlar arasında olan adi ləzzətlərdən – saraylar, ipək parçalar və meyvələrdən aldıqları ləzzətlərdən (axirətdə də) istifadə edəcəklər. Həmçinin o (Tanrı) öz bəndələrini (axirətdə də) zəncirlər, qandallar, od və şaxta (kimi) ələmlərlə qorxutmuşdur. Buna görə doğruçunun dediyi sözə uyğun olaraq lazım gəlir ki, bunlar (ləzzətli və ələmli şeylər) adi və hissi şəkildə axirətdə də olsun. (Bu məsələni) təfsir etməyə ehtiyac yoxdur.

Beşincisi, dünyada Allah dostlarının riyazəti (əziyyəti) və Allah düşmənlərinin nemətlərdən istifadə etməsi (dəlilindən ibarətdir); çünki əgər Tanrının mərhəməti ancaq dünyəvi ləzzətlərə, məsələn, arzu edilən yeməklərə, paltarlara, nikahlara (evlənmək) və sairəyə nail olmaqdan ibarət olsaydı, belə nailiyyətlərə Tanrının dostları daha layiq olardılar və bu nemətlərin hamısı onlara qalardı. Lakin Allah dostlarının riyazəti və düşmənlərinin nemətləri buna işarədir ki, dostlarının neməti vəd edilmiş (əbədi) qalan (axirətə aid) nemətlərdir. Həmçinin düşmənlərinin əzabı da qalan (axirətə aid) əzablardır.

Aydındır ki, istər rahatlıq, istərsə də möhnət iki qisimdir. Bir qismi dünyaya aid və ötəridir; bir qismi isə axirətə aid və həmişəlikdir. Lakin insanların bəzisi ötəri rahatlığı həmişəlik rahatlıqdan üstün tutmuşdur; bəzisi isə ötəri möhnəti həmişəlik möhnətdən üstün tutmuşdur.

Məhşəri iki dəlil əsasında inkar edənlər vardır. Birincisi, yox olan şeyin bərpa edilə bilməməsi (dəlilidir). Bunlar demişlər ki, yox olan şey tamamilə sıradan çıxır və onun sabit bir mahiyyəti yoxdur. Buna görə də onun qayıtması barədə mühakimə yürütmək olmaz.

İkincisi, cismani maadın qeyri-mümkün olması (dəlilidir). Bunlar demişlər ki, əgər bir insan başqa bir insanı yeyərsə, yeyilmiş insanın bir hissəsi yeyən insanın hissəsinə çevrilir və beləliklə, onların hər ikisini tam şəkildə bərpa etmək qeyri-mümkündür.

Birinci dəlilə belə cavab vermişlər ki, yoxluğu mütləq (mənada hesab etməkdən) ibarət olan bu mühakimənin doğru olmaması həmin mühakimənin əleyhinə bir sübutdur; çünki ölən insan tamamilə sıradan çıxmır (yox olmaq başqadır, ölmək başqa).

İkinci dəlilə isə (belə cavab vermişlər) ki, insanın əsas hissələri (üzvləri) vardır ki, həmin hissələr qiyamət günündə bir yerə toplanır, yeyilmiş insanın hissəsi isə yeyən insanın əsas hissələrindən deyildir.

## Yeddinci bab

## RUHUN ÖLÜMDƏN SONRA VƏ QİYAMƏTDƏN ƏVVƏLKİ VƏZİYYƏTİ VƏ ONUN LƏZZƏT VƏ ƏLƏMƏ ÇATMASI HAQQINDA BİLİYƏ AİDDİR

Bu məsələ həm ehkam, həm də əql vasitəsilə isbat edilə bilər.

Ehkam vasitəsinə gəldikdə, Tanrının belə bir sözünü (qeyd etmək olar): "Allah yolunda öldürülənləri ölü hesab etməyin!"[1]

---

[1] "Quran"ın "Ali-İmran" surəsi, 169-cu ayə.

Əql vasitəsinə gəldikdə (belə demək olar) ki, ruh zatən müdrikdir və bədəndən uzaqlaşmaqla ləzzət və ələmi dərketmə qabiliyyəti ondan ayrılmır.

Əgər deyilərsə ki, məsələn, yaxşı əməlləri etibarilə bərabər olan iki adamdan birisi Nuh əyyamında, digəri isə bizim zamanımızda ölmüşdür. Əgər onların hər ikisinin ruhu qiyamətə kimi bərabər ləzzət aparırsa və sonra behişt ləzzətləri də bərabər olarsa, onda qabaqkının (qabaqca ölənin) ləzzəti sonrakının ləzzətindən müəyyən müddət qədər artıq olar. Bu isə sonrakının zərərinədir. Yoxsa, əgər sonrakının ləzzətinə həmin ləzzətin əvəzi artırılarsa, lazım gələr ki, (müəyyən müddət) bitdikdən sonra artırılan ləzzət kəsilsin. Belə olmazsa, ədalətsizlik olar. Behiştdə isə kəsilən ləzzət yoxdur.

(Bu iddianın cavabında) deyirik ki, ölümdə qiyamət günü arasındakı ləzzət behişt nemətlərinin intizarını çəkmək ələmi ilə qarışıqdır. Beləliklə, o iki adam ləzzət və ələm etibarilə ancaq bərabər şəkildə behiştə daxil olacaqlar.

Həmçinin demişlər ki, ruhlar bədəndən ayrıldıqda göyə doğru yönəlir; çünki ruhlar göylərə mənsubdur (ülvidir). Bu ruhların bəzisi keçmişdə heç bir günah etmədiyinə görə yuxarı qalxır, özünün fələklərdəki yerində yerləşir və məlum günədək (qiyamətə kimi) tam olmayan ləzzətlər aparır; bəzisi isə günahlara bulaşdığına görə göylərə doğru yuxarı qalxmaq istədiyi zaman mələklər onlara mane olur və beləliklə, od kürəsində yerləşir və məlum günədək (qiyamətə kimi) tam olmayan ələm içərisində qalır.

Həmçinin demişlər ki, ruhlar bədənlərdən ayrıldıqda yaxşı ruhlar dünya əhlinin yaxşı ruhları ilə ünsiyyət saxlayır, yaxşı işlərdə onlara yardım göstərir və onlarla gəzir; pis ruhlar isə pis ruhlar ilə ünsiyyət saxlayır və pis (şər) işlərdə onlara kömək edir və onlarla gəzir. Qiyamətə qədər işin gedişi belədir.

## Səkkizinci bab

## MİZAN (TƏRƏZİ), SİRAT (KÖRPÜ) VƏ HAQQ-HESAB HAQQINDADIR

Bunların hamısı sabitdir; çünki doğruçunun (Tanrının) xəbərinə əsaslanır və əql tərəfindən rədd edilməzdir.

Bəzi tədqiqatçılara görə, dünya ləzzətlə ələmin qarışığından ibarətdir; lakin axirət bütün ləzzətlərin bir tərəfdə və bütün ələmlərin başqa tərəfdə toplanmasından ibarətdir. Birinci behişt adlanır ki, möminlərin yeridir; ikincisi isə od (cəhənnəm) adlanır ki, kafirlərin yeridir.

Mötəzililər isə bu iki yer arasında başqa bir yerin də olduğunu təsdiq edirlər. Onların sübutu bundan ibarətdir ki, iyman oda (cəhənnəmə) daxil ola bilməz; günah isə behiştə daxil olmaz. Buna görə lazım gəlir ki, günahkar mömünin o iki yer arasında bir yeri olsun.

Tanrı daha yaxşı bilər.



# YEDDİ CAM

❖ ❖ ❖

Qəflət yuxusundan o zaman kim oyanıb mən,
Söz bayrağı qaldırdım uzaq göylərə yerdən.
Güldü nəzərimdə mənim hər elm və hikmət,
Gəzdim yol alıb sənət ara xeyli imarət.
Meyxanə kimi dəbdəbəli, sevgili mənzil,
Həm piri-muğan tək üzü xoş mürşidi-kamil.
Mən görmədim heç yerdə, şikayətlə dedim: – Dövr
Neyçin bu qədər zülm edərək verməmədir cövr?
Rəyi bəyənilmiş bir ağıllı, qoca insan,
Müşkül işimi böylə açıb söylədi: – Ey can,
Arzu kələfində vurulan bu düyün, əlbət,
Əql üzrə doğub, dövrana, gəl, eyləmə töhmət.
Gör əqd fəzasında neçə dürlü xəyal var,
Bihudə və boşdur dediyim həm bu xəyallar.
Əql ilə aləm, bil ki, əkizdir bu cahanda,
Əqlin yoxalırsa, gedəcək ahü fəğan da.
Meydən tələb eylə, məzədən istə dəva sən,
Gəz badədə axtar həmişə dərdə şəfa sən.
Dövri-qədəh ilə dolanır bil ki, bu aləm,
Gəz dövri-qədəhdən tapasan şadlığı sən həm.
Vurma yaralı qəlbinə dağ çərxi-fələkdən,
Bu yeddi bağı seyr eləyib mey gülü dər sən.
Səyyarələrin seyrinə baxdıqca tutulma,
Ver könlünü bu yeddi dənə mey dolu cama!
Şadlıq elə daim dolanıb nurlu Günəştək,
Bir həftə qızıl badədə öz zövqünü sən çək.
Yekşənbə olunca o qədər iç ki, bu meydən,
Ta huşə gəlib yeddicə gün məst olasan sən.
Gər badə üçün yoxsa pulun söylə, Günəş, Ay
Sındırsın haman qürsünü, versin sənə bir pay.
Düşənbəni düşənbəyədək iç bu şərabı,
Meydən elə cəm atəşini söndürən abı.
Gər lazım isə məclisinə qənd, şəkər, sən
Ay qürsünü sındırmağı gəl istə fələkdən.
Öylə ki, seşənbə günü mey dəydi dodağə,
Dövr etdir onu yeddicə gün salma ayağə.
Gər zahid olan etsə sənə zərrə əziyyət,
Sərxoş görünən Mərrixə qıl tezcə işarət.
Çərşənbə günü badə ilə üz-üzə gəlsən,

Bir həftə onun dövrünü heç yığmagilən sən
Qoy könül evi nura batıb həzz ilə dolsun,
Qoy məclisinə peyki-Ütarid nədim olsun.
Pəncşənbə günü öylə ki aldın ələ camı,
Bir həftə bu növ ilə keçir sübh ilə şamı.
Gər məclisinə düşsə sənin başqa xəyallar,
Huşyar görünən Bərcisə ver dürlü suallar.
Cümə gününü sahibi-dillərlə bərabər,
Mey iç gələcək cüməyədək böylə sərasər.
Gər məclisinə lazım isə qəlbi açan saz,
Et bircə işarətlə gözəl Zöhrəni rəqqas.
Şənbə yetişincə o qədər iç ki, bayıl sən.
Ta ki gələcək şənbə günü bir də ayıl sən.
Gər bir acıdan şübhələnib qorxuda qalsan,
Peyki-Zühəli qapıda xidmətçi qoyarsan.
Söz ver o gözəl Saqiyə öz eşqini saçsın,
Könlüm üzünə bağlı olan yolları açsın.
Alsın bu fəqirin yükünü dərdli dilindən,
Qaldırsın ayağə tutaraq meylə əlindən.
Bir mey ki ağıl mülkü üçün nurlu çıraqdır,
Nəinki ağıl, şamü səhər ondan uzaqdır.
Bir mey ki şəriət oxusun onda nizamı,
Bir mey ki şəriət deməsin küfr-həramı.
Piri-muğanın eşqi ilə Saqidən, ey can,
Mən bağrı yanıq eylə ki, aldım ələ bir cam.
Könlüm evi yüksəldi göyə, nəşəyə doldu,
Ondan üzümə, mərifətə yol açıq oldu.
Bomboş ürəyim oldu mənim sirlər ocağı,
Allah kömək olsun sənə, ey sehrli Saqi!
Mey vermək ilə qıflı açıb dərdli dilimdən,
Sordun ki, sənə gizli qalan sirlər açım mən?!
Öylə isə gəl indi məni-aşiqi mey ver,
Doldur qədəhi, durma daha peydəri-pey ver.
Ver səbi-məsani adına yeddidə gəl dur,
Ver, ver ki, içim, qıyma mənə, kasəni doldur.

## BİRİNCİ CAMIN KEYFİYYƏTİ

Ey saqi, ey od məclisinin rəhbəri, tacı,
Bir odlu su ki onda olur dərdin əlacı.
Ver bol-bol içim, qoyma məni atəşə həsrət,



Onsuz da, başım dərdli olub çəkmiş əziyyət.
Ver atəşə bənzər o suyun xoş əməlindən
İçdikcə sənə gizli qalan sirlər açım mən.
Mey ver ki, o xoş ətirlərin üstümə saçsın,
Yüz arzu xəzinəm üzümə qapısın açsın.
Bir mey ki onun rəngi qızıl, qırmızı qandır,
Bir mey ki cahan içrə tamam müşkül açandır.
Ver, ver mən içim, eylə məni qafil özündən,
Qəmli işimi müşkülə salma, fəqirəm mən.
Ol gün ki əzəl camını mən xəstəyə verdin,
Açdın dilimi, canlı bir insana çevirdin.
Gün yetdi, zaman çatdı, ürək, dil səsi gəldi,
Qondu başıma cami-əzəl nəşəsi gəldi.
İndi gəl otur, dinlə məni, dinlə dərindən,
Sirlər qapısın lay-lay açım dinlə, eşit sən!

## NEY İLƏ SÖHBƏT

Bir gün oturub başda fərəh, qəlbdə min raz,
Meyli ürəyim Neylə məni eylədi dəmsaz.
Sordum ona: "Ey qəm elinin taci-qüruri,
Neyçin sarısan, anlat o qəlbindəki şuri?!
Söylə, de görüm, ah, nə yanıq nalələrin var,
Solğun yanağından tökülən jalələrin var!"
Ney gizli olan sirrini bax böyləcə açdı,
Qəlbindəki gövhərləri ətrafına saçdı.
Ney söylədi: "Ey halımı məndən soran həmdəm!
Ol dəm ki ədəm idi yerim, bilməz idim qəm.
Asudə gəzərdim, nə deyim çərxi-qəzayə,
O öz həsədindən məni qərq etdi bəlayə.
Gah tərpənişim yeldən olub, gülmüşəm hər vəqt,
Bəzən də ki atəşlər ilə eylədim ülfət.
Bəzən ulu torpaqdan alıb nəşvü nümanı,
Bəzən də sudan toplayaraq zövqü səfanı.
Sərkəşliyimin bayrağını ərşə ucaltdım,
Şadlıqlar içində göyərib qol-budaq atdım,
Tacir kimi tay bağlayaraq şaldan, ipəkdən,
Mən sahibi-nemət kimi pul vermədim əldən.
Məğrur elədi könlümü bu cahü cəlalım,
Qaçdı, çox uzaq qaçdı bütün dərdü məlalım.

Birdən bu qəza, çərxi dolanmış nə gətirdi,
Aydın günümü qapqara bir şamə yetirdi.
Dostlar dəyişib oldu mənə ən qatı düşman,
Növrəstə gözəllər çəkilib getdi yanımdan.
Əvvəlləri sevdalı küləklər yaman əsdi,
Xain çıxaraq qollarımı, qəddimi kəsdi.
Dostluq ətəyin toplayaraq çəkdi su məndən,
Yüzlərcə zərər verdi o ataş, bunu bil sən.
Aldı ürəyimdən bütün aramımı torpaq,
Getməkdə görüb istədi öz varını torpaq.
Doldu acılarla ürəyim, söndü, qaraldı,
Bax böyləcə düşdüm, bədənim soldu, saraldı...
Ancaq ki dünən sübh çağı bostanda gəzirkən
Olduqca əcaib halı bir seyr elədim mən.
Bir kəndli gəlib ordaca bir meynəni tutdu,
Ondan şərab aldı, əvəzində verərək su.
Meynə verilən bu suyu aldı və içən tək
Açdı sinəsin, söylədi: – Gəl qənd, şəkər çək!
Qurtarmadı heç kəs dəyişən hadisələrdən,
Bu çərxi-fələk hər kəsə bir oldu əzəldən,
Hər kəs nə verib, itməyəcəkdir, qalacaqdır,
Öz verdiyinin bəhrəsini tez alacaqdır.
Bu dəhrdə almaq ilə vermək sözü, ey dil,
Bir rəsmi-zaman oldu əzəldən, bunu sən bil.
Ol fikridəyəm, ərz-niyaz günləri ruzgar,
Versin o şeyi ki, yenə təkrar alacaqlar.
Ahənglərim də bu işə yetmək üçündür,
Bu fikrə, bu sevdaya şükür etmək üçündür.
Zənn etdiyimin gərçi xilafı ola, ey can!
Bihudə və boşdur, o qədər qorxmuram ondan.
Oddan, qara torpaq ilə həm ab-həvadən,
Tapdım iki-üç gün göyərib nəşv-nüma mən.
Verdiklərini sonra hamı qapdı apardı,
Ancaq mənə o qaldı ki, əslimdə nə vardı.
Neyçin saralım mən bu işin dərdü qəmindən?!
Dünyaya gəlirkən nə gətirmişdim özüm mən?!
Sən də, a Müğənni, dilə gəl, könlümü, bir aç,
Ney ilə bu ətrafı işıqlandır, alov saç!
Çör-çöp kimi yandır məni bu atəşə, yandır!
Könlüm evini şam kimi nurlandır, amandır!
Qəm vermə Füzuliyə, düyün vurma dilindən,



Qaytar o qərarı geri ki, aldın əlindən.
Xoş məstlərin halına ki, şamü səhərlər
Meyxanələrin küncünü asudə gəzərlər.
Hər şeylərini vəqf edərək badəyə candan,
Öz əllərini çəkdilər alver yaxasından.

## İKİNCİ CAMIN KEYFİYYƏTİ

Ver, Saqi, o Nuhun gəmisi rahəti-canı,
Ver ki, məni qərq etdi bu qəm, dərd tufanı.
Gül tək saralıb-soldu həyatım acı qəmdən,
Ver, ver ki, içim, bəlkə, tapım, Saqi, nicat mən!
Ver, Saqi, ver ol zahir edən ism ilə zatı,
Ver, ver o ağıl Xizri üçün abi-həyatı.
Nəfsilə ölən gözlərimə nur tökülsün,
Pəjmürdə düşən qönçələrim bir daha gülsün.
Ver, Saqi, ver ol ayna kimi badeyi-canı,
Bir badə ki əks eyləyir o, cümlə cahanı.
Ver, ver ki, içim, təşvişimi ta eləyim kəm.
Ver, ver ki, görünsün gözümə büsbütün aləm.
Agah elədin öylə ki, bu feyzi qədəhdən,
Bu badə ilə nəşəmi artır, tamam et sən.
İkinci qədəh ilə ürək qüvvət alıb ta
İzhar eləsin hər şeyi-batində nə varsa.

## DƏF İLƏ SÖHBƏT

Mən bir gecə olduqca gözəl bəzm düzəltdim,
Şadlıq evini orda qurub bərqərar etdim.
Güldürdüm o bəzmi, bəzədim sözlə, kababla,
Nur verdim ona badə ilə, şamla, şərabla.
Bu dairədə Dəf də durub tüğyan edirdi,
Divanəyə bənzər köpürüb tufan edirdi.
Sordum ona: "Ey qəddi bükülmüş qoca insan!
Derlər ki, çıxıbsan hər ötən yaxşı-yamandan.
Dostluqlar ilə dopdoludur dostluğun, ey can,
Hər bir dəridən sonra da var bir dəri əlan.
Vəcd gülşəninin yarpağısan, başqadır halın.
Qəm-qüssə əlindən yaranıbdır bu zavalın.

Hikmət kitabından yaranan bircə vərəqsən,
Elm əhli, deyirlər ki, alır dərsini səndən.
Artıq yetişib vəqti bizə göstər ədalər,
Gəl ayna kimi dünyanı sən əks elə, göstər.
İncə danışıqla bizə hər sirri bəyan et,
Bu fani həyatın açaraq əslini öyrət!
Gəl! Gəl ki, Firidunların o şadlıq ilindən,
Bu dövrə qalan bir dənəsən, dürdanəsən sən.
Sök qəlbini, tök sirləri, et hər şeyi izhar,
Söylə, de görək, bir harada qaldı o şahlar?!
Noldu o Firidunü Keyin axırı, kamı,
Kim saldı o Cəmşidin əlindən dolu camı?!
Qəbrin evinə möhtac olub ömr edən onlar,
Sülh eylədilər, ya ki hələ davadadırlar?!
Bu firqə içində, de görüm, qışmı, baharmı,
Dostluq çiçəyi qönçələnib, yoxsa ki xarmı?!"
Dəf böylə cavab verdi sanıb saydığım halə,
Ondan sorulan gizli işə, sirli suala:
– Onlar, – dedi, – indi hamı asayişə yardır,
Dünyanın işindən çox uzaq, ayrı – kənardır,
Nə məmləkət üstündə çəkib dərd, olub xar,
Nə heçliyə getməklərinə ağlayır onlar.
Nə boş, havayı bir həvəsə doğru gedirlər,
İndi səni öz yanlarına dəvət edirlər.
At boşluğa bu fani cahanı, daha bəsdir,
Gəl çəkmə cahan qeydini çox, çünki əbəsdir.
Artıq həzər et, rəxnə vurub sök bu həsari,
Qoyma gözünü yolda, dağıt tök bu həsari.
Bu fani cahan mülkünə göndərdi ki, onlar,
Məndən eşidib öyrənəsən çoxlu yalanlar.
Bu aləmə bağlı qalasan hər zaman, hər an
Alsın səni ağuşinə bu şübhəli dövran...
Meyvə gətirən bir ağacı kəsdilər onlar,
Bir dairə kəsdi bu ağacdan iti minşar[1].
Atəşlər içində əridib daşları yeksər
Hazırladılar boynum üçün dürlü pərəklər.
Dilsiz başı onlar ayırıb öz bədənindən,
Soydu dərisin taki bu gün hasil olum mən.
Olduqca şərafətli, nəcabətli üç həmdəm,
Bir ərrə, bir od, bir də qılıncdan yedilər qəm.

[1] Minşar – ərəbcə mişar deməkdir, şeirin vəzni xatirinə işlənib.



Dəf şəklinə düşdüm qurtarıb, taki bir axşam,
Surətlə, gözəlliklə üzüm aldı bir itmam.
İndisə yetən hər avara, hər bir ədəbsiz,
Silləylə vurur şamü səhər, həm də səbəbsiz.
Bir an bu zamanın olaraq dərdinə qafil,
Bir mən tərəfə meyl elə, bari mənə ver dil!
Bu xəznə, bu gövhər nə bilirsən ki, neyindir?
Hardan düşünürsən ki, o rahətlik içindir?
Dəhrin hər olan cövrünü, gəl, at ürəyindən,
Öz qəlbinə, həm özgələrə vermə əzab sən.
Sən də, a Müğənni, dilə gəl köhnə zamandan,
Keçmiş olan-olmazdan elə bir bizə elan.
Çərxi-fələyin silləsinin zərbi gücündən,
Dəf tək soyulan min dəridən söylə, danış sən.
Söylə o Füzuli ki düşüb dərdə məlaldan,
Birdəfəlik öz könlünü çəksin o mahaldan.
Xoş ol kəsə ki, camı tutub qəlbinə həmdəm,
Bilmir gecə-gündüz nədi, ya ki nədi dərd, qəm.
Hər gün mey içib, zövqə batıb, məst düşübdür,
Bilmir ki, bu aləm nədi, sərməst düşübdür.

## ÜÇÜNCÜ CAMIN KEYFİYYƏTİ

Ey Saqi, əl at badəyə, ol cövhəri-meydən,
Bir mey ki onun arzusunu göylərə yerdən
Cəmşidlər aparmış, ver içim, yüksəlim, ey cam,
Ver, ver ki, odur, Saqi, könül mülkünə sultan!
Ver ki, onu içdikcə olum bir ulu Cəmşid,
Bir badə ki şövq ilə yanır indi də Cəmşid.
Ver, sinələri yandıran ol sağəri, Saqi!
Ver, gülsün onun şövqü ilə könlüm otağı.
Sərxoşluğa, ver, od vuraraq, yandıraraq mən,
Atəşkədəlik qapısını çırpım ürəkdən.
Gəl, Saqi, o reyhan qoxulu badəni doldur,
Bir badə ki keyfiyyəti-insanlığa yoldur.
Ver, ver mən içim, könlümə min dürlü şəfəq saç,
Sirrin qapısın, gəl, üzümə bir də mənim aç!
Vermə yaralı qəlbimə bundan belə zillət,
Cam ilə, səbu ilə, tez ol, nəşəmi yüksəlt!
Ver, nitqim açılsın bu gələn cam ilə birdən,
İçdikcə sənə təptəzə bir rəmz açım mən.

## TAR VƏ ÇƏNG İLƏ SÖHBƏT

Məclis quraraq bir gecə bir eyş sayağı,
Nur səpmiş idi hər tərəfə badə çırağı.
İçdikcə başım qızdı, ürək zövq ilə doldu,
Bir xeyli zaman Tar ilə Çəng həmdəmim oldu.
Sordum ona: "Ey zari-zəbun, söylə, nə çarə,
Neyçin yenə dağ-daş əridir səndəki nalə?"
Tar öz-özünə qovrularaq sirr sapından,
Açdı düyünü, söylədi: "Ey həmdəmim insan!
Nemət verənim vardı mənim, bil ki, əzəllər,
Bağlanmış idi qəlbinə qəlbimdəki tellər.
Əl vurmuş idim eşqinə, eşqilə yanardım,
Ehsan dənizində özümü qərq sanardım,
Bu yolda deyildi mənə varlıq sözü heç yar,
Lütfilə yarandım, alaraq qəlbimi onlar
Nemətdən uzaq tulladı, başlandı fərağım,
Hicran qəmi oldu mənim ol qəmli çırağım.
Düşdüm bir uçuq daş kimi, endim ucalıqdan,
Çevrildi vüsal, gündüzüm oldu şəbi-hicran.
Çərxin bu işindən olub avarə, yıxıldım,
Dəhrin azarından ürəyim yandı, sıxıldım.
Dönmüş fələyin qat-qat olan dərdi, bəlasi,
Bu növ ilə zar etdi olub qəlbimə asi.
Hər yüksəlişin dərdi həyatım boyu, ey dil,
Mey tək, məzə tək etdi özümdən məni qafil.
Keçmişki cəmiyyət daha heç düşmədi yadə,
Əvvəlki həvalər uçaraq getdi də badə.
Qəti-nəzər etdim o hala, bir daha qəlbən,
Sərriştəni, bəlkə, taparaq bir də tutum mən.
Düz-doğruca bir məqsədə sahib olub ondan,
Öz məqsədimi hasil edim taki uzaqdan.
Lakin bu fərəh, zövq ümidsizliyə yetdi,
Faniliyə düşdüm də ömür heçliyə getdi.
Yüz xarlıq ilə birisi məni tutdu, apardı,
Bu halsa bütün əqlimi, huşumu qopardı.
Sandım aparırlar yenə də dərdə, bəlayə,
Həsrət qoyacaqlar fərəhə, zövqə, səfayə.
Bağlanmış apardı məni mənzilə bu insan,
Tapşırdı da təliminə bir katibin əlan.
Bu, bəxti cavan, qəddi bükük bircə qocaydı,
Yaxşıyla yaman görmüş idi, fikri ucaydı.



Enmiş görünürdü başı dəhrin əzabından,
Fikrində idi öz işinin hər zaman, hər an.
Görmüşdü mənim tək başı çox möhnəti-ruzgar,
Ruzgarı da daim görünürdü gecə tək tar.
Əhvali-qəm əyyamını biz öyrənərəkdən,
Təhqiq elədik halımızı xeyli dərindən.
Bu söylədiyim şəxs o şəxs idi, o candı
Ki, xilqətimin tərpənişi onla yarandı.
Bambaşqa olub il uzunu surəti-halı,
Arxamca gəzib ta ki tapa köhnə vüsalı.
Bu dövrdə hər bir peşədən qafil olub mən,
Sevdim onu ruhən, o da çün sevdi ürəkdən.
Tapdım, mənə nemət verən ol insanı tapdım,
Axır mənə nemət verən ol bir canı tapdım.
Biz xeyli zaman qüssəli səhralara getdik,
Şükrə ki yenə bir-birinin vəslinə yetdik.
Bihudə, əbəs sanma mənim sözlərim, ey can.
Sanma, vururam mən sənə dəm, həm də yalandan.
Bir də bu fəsad dünyanın ayini əzəldən,
Ta axıradək bu cürədir, yaxşı düşün sən.
Hal əhlinə məlum olan işdir bu bayaqdan,
Ki vəsl sözü daima doğmuş o fəraqdan.
Gər zülmi-fələk ayrı salırsa, bu da yeydir,
Bir gün gələcək, onları birləşdirəcəkdir.
Sən də, a Müğənni, eləmə qəlbini çox təng,
Bas bağrına, bas qəlbinə, bərk tut ki, düşər çəng,
Çox qəm yeyirəm, dada yetiş, nəşə ver, hal ver.
Hicranımı al, tulla, əvəz dadlı vüsal ver!
Bir vəsl ilə nakam Füzuliyə fərəh saç,
Canlandır ölən zövqünü, puç keyfini bir aç!
Xoş badə içən məst xərabatiyə, hər an,
Badə aparıb əqlini, həm huşu başından,
Bilmir ki, bu dünyada nədir möhnəti-hicran,
Heç bir xəbəri yoxdu vüsal ayrılığından.

## DÖRDÜNCÜ CAMIN KEYFİYYƏTİ

Gəl, Saqi, dər ol laləni ver nəşə bağından,
Bir lalə ki, könlüm köz olub şövqü dağından.
Ver, ver nə qədər sağdı canım, ver, bu çiçəklər
Bir gün gələcək qəbrimin üstə bitəcəklər.

Gəl, Saqi, ver ol badəni, ol qırmızı rəngi,
Bir badə ki, ancaq o silir dildəki jəngi.
Ver, ver ki, içim həddən aşan çoxlu qəmim var!
Ver ki, bu fəna dəhrdə min bir ələmim var!
Ver, Saqi, mərəz məlhəmini, dərdə dəvanı,
Təşvişli ürəkçin yaranan yaxşı şəfanı.
Ver, ver ki, içim, yandı könül, artdı kədər, qəm,
Ver, Saqi ki təşvişimə yoxdur mənim həmdəm.
Artır ki, açılsın sifətim şövqü fərəhlə,
Sonra oturub şövqü fərəflə məni dinlə.
Dördüncü gələn zövq ilə ta bülbül olum mən,
Qoy sirlərin izharı üçün bir dil olum mən.

## UD İLƏ SÖHBƏT

Yüz nəşə ilə bir gecə bir bəzm düzəltdim,
Mən bu işi bir hikmət üçün bərqərar etdim.
Bir Ud sədası bu zaman qalxdı həvayə,
Yandım, tütünüm çıxdı mənim övci-səmayə.
Sordum ona: "Ey sirlər ilə eyləyən ülfət!
Sirr xəzinəsinin xəznədarı, sahibi-nemət!
Söylə, de görüm bir, necə şeydir ki, cahanda,
Sirr əhli də sənsən, bu hava ilə yanan da!
Kimlər sənə öyrətdi bu atəşli nəvanı,
Şahlıq ağacım yandı eşitcək bu havanı.
Bu söhbəti gəl eylə mənə büsbütün izhar,
Bu işlərinin pərdələrində, de, nə sir var.
Ki, təzə havalar adına çox diribaşsan?!
Candan xəbərin var belə cansız yaşayırkan!
Bir parça ağacsan ki, havandır sarı tellər.
Bir zərrə qığılcım onu atəşdə kül eylər!
Fikrim budu, gər olsa idi dərdli fəğanın,
Bu vəqtə kimi qalmaz idi zərrə nişanın,
Qafilsən özündən ki, gülür daima halın,
Asudədi qəlbin, ürəyin, yoxdu məlalın.
Öz dərdini öz arzun ilə söyləməyirsən,
Dindirməsələr, heç şeyi izhar eləmirsən".
Mürvətli olan Ud eşidib söylədi: "Ey can,



Heç bir xəbərim yoxdu sanıb saydığın haldan.
Əzzəl günü ki hazır olub çıxdım arayə,
Ondan bəridir düşdü canım zövqü səfayə.
Bu nəşə, bu zövq aldı təmamən məni məndən,
Məstlik qapısın sındıraraq çıxdım o gündən.
Heç bilmədim onlar mənə axır nələr etdi,
Onlar məni neyçün və nədən ötrü düzəltdi.
Məndən deyil, əlbət, bu doğan xəstə fəğanlar,
Ustadıma sor şadlığımı eyləsin izhar.
Bu qəlbi sökən dərdli həzin nəğmələrimçin,
Ustadıma get söylə mənim mərhəba min-min.
Təkcə mənə məxsus da deyil nəşəli hallar.
Burdan pay umar bəzmdə huşsuz oturanlar.
Onlar da gəzir bixəbər öz hali-qəmindən,
Öz işlərimin axırını bilmirəm həm mən.
Ancaq məni bu dünyada bir təkcə quran var,
Yalnız tək onun çalması min nəqş edir izhar.
Bu karxanada mən ilə sən alətik, ey dost.
Sənətdən uzaq ayrı, kənar xilqətik, ey dost".
Udun ulağın bur, a Müğənni, edib ülfət,
Aşkar eləsin taki nədir əsl həqiqət.
Bur, bur ki, uca səslə açıb dil bizə bir-bir,
Öz zatü sifətini əyan eyləyəcəkdir!
Gəl doğruluğu zahir elə indi məcazdan,
Zənn etmə Füzuli açacaq sirləri əlan.
Xoş ol kasə ki, şamü səhər məst, düşüb əldən,
Piri-muğana oldu mürid can ilə dildən.
Sərməstliyindən tuta bilmir yer ayağı,
Bilmir ki, piyalə nədi, ya hardadı Saqi.

## BEŞİNCİ CAMIN KEYFİYYƏTİ

Ver, Saqi, o Kövsər qarışan mey dolu camdan
Ol cam ki, behişt huriləri təşnədir ondan.
Ver, Saqi, Əlinin quluyam, eşqə vəfadar,
Bu çeşmədən, onsuz da, mənim cüzi payım var.
Ver, Saqi, yetər, durma, Yəmən ləllərindən
Ta nuş eləyim, sən də qopar əqlimi məndən!

Al, al ki, əql sevdası divanəsər etdi,
Al, əqlə olan hacətim artıq boşa getdi.
Aşiq ürəyin əldə tutan, ver ki, bu camdır,
Ver, ver ki, onun xasiyyəti sirlər açandır.
Ver, bihuş olub ta yıxılım qolların üstə,
Ver, bihuş olub sən də əvəz sirrimi istə.
Ol lalə kimi rəngli küpün ağzını dur aç,
Bu cam ilə gəl xəstə düşən ruhuma nur saç.
Ver ki, bu camın qəlbə yatan nəşələrindən,
Sirr xəznəsinin yollarını bir də açım mən.

## SETAR İLƏ SÖHBƏT

Bir gün namaz üstündə durub qəlb ilə əlbir,
Açmaqda idim sirlərimi Allaha bir-bir.
Bəzən ayaq üstündə durub, gah əyilirdim,
Gah səcdə qılıb göylərə bəzən çəkilirdim.
Birdən bu ibadət ilə sərməst görünən mən,
Qalxdıqda setarın səsinə tezcə yerimdən.
Ol dəm ürəyimdən yoxalıb qaçdı da saat,
Yırtıldı bu səsdən həya pərdəm mənim, heyhat!
Sordum ona: – Ey, dürlü sədalər verən iblis
Kafər kimi gəl olmagilən odlara bais.
Neyçin yaranıb tərpənişin qəlbə əziyyət,
Yoxsa ki xəyaldan çəkilib xofi-qiyamət?!
Şeytan kimi hiylə evinin gövhərisən sən,
Min dürlü bəla xəznəsinin gövhərisən sən.
Bir tordu sənin qolların üstündəki saplar,
Bir tor ki, ömür bağçasının mürğünü ovlar.
Yüz yerdən azı öz belini bağlamısan sən,
Taət izini ta qapasan dildən, ürəkdən.
Hansı sinəni gərçi o gövdən vətən etdi,
O sinədən Allaha ibadət yoxa getdi.
Bir barmağı ki öz sinənə cəlb elədin sən,
Asudəliyin təsbehini tulladı əldən.
Gəl sən də mənim tək elə əndişə bu oddan,
Et tövbə ki, qorxan çəkinər öz günahından.



Bu dəm dilə gəldi o xəbər sahibi Tənbur,
Üz tutdu əzəl, sonra mənə söylədi: "Bir dur!
Gəl olma, – dedi, – gizli qalan pərdəni yırtan,
Vurma üzümə, olsa da eybim, sən, ey insan.
Bu yolda çox oldu mənə dost, həmnişin, həmdəm,
Heç bir kişinin etirazından yemədim qəm.
Bu günsə məni tullayaraq rədd eləyirsən,
Yoxdursa köməkçin belə də eyləmə gəl sən.
Dünyanın işindən xəbərin zərrəcə yoxdur,
Xoşbəxt çox isə dünyada, bədbəxt də çoxdur.
Allahın o ehsan dənizi qüsl məkanı,
Bir yer ki, o yer adlanılır əfv divanı.
De, məntək adamdan oraya tozmu qonar heç?!
O yerdə günah qəmləri çəkmək xatadır, keç!"
Qafilmisən aya, o kərəm süfrələrindən?
"O hər şeyi qavrar", bunu dərk eylə dərindən.
Rəğbət elə Tənbura, Müğənni, gəl ürəkdən,
Rəğbət açarilə ona da bir qapı aç sən.
Aç bir qapı ki, zahir olub nəşələr ondan,
Qəlblər gülərək daim olar gül kimi xəndan.
Tərkində Füzuli bulunub qorxmaz əzabdan.
Bu hali-büsatdan qoparar nəşələr hər an.
Xoş ol kəsə ki məst oyana qəbr otağından,
Bihuş aparıb eyləyələr daxili-niyran.
Bu zülm evinin qəmdən acı zülmü, əzabı,
Xatırlada əhvalına min qətrə şərabı.

## ALTINCI CAMIN KEYFİYYƏTİ

Gəl, Saqi, mənə indisə ver bir iri gövhər,
Ver bir iri gövhər ki, odur nəşəyə cövhər.
Ver, ver ki, içim ta tutulum feyz ilə şövqə,
Alsın məni məndən, tutaraq cismini zövqə.
Ver, Saqi, o saf yaqut ilə dopdolu camı,
Bir cam ki, tapar cümlə əqil onda nizamı.
Ver, ver ki, bu tər ləl ilə ömrüm başa çatsın,
Ver ki, saralan çöhrəmi al rənglə qızartsın.

Bir mey ki, odur çarə tapan, son verən ahə,
Bir mey ki, gəda içsə dönər ən ulu şahə.
Ver mayeyi-izzət suyunu, ver ki, yazıq mən
Şah zövqünü ta ki ayırım zövqi-gədadən.
Ta qəlbimə mey zövq verib gözlərimə nur,
Bir cam dəxi lütf elə, qıl məclisi pürşur.
Altıncı qədəhdən qonaraq əqlə fərasət,
Tapsın ürəyim halını izharə cəsarət.

## QANUN İLƏ SÖHBƏT

Bir gün gecə bir məclisimiz vardı ki, ondan
Çox-çox uzağa qaçmış idi dərd, qəm, hicran.
Xoş nəğmələr ilə edərək aləmi məmnun,
Bir huri, mələk üzlü çalırdı iri Qanun.
Sirr sandığına xeyli onun oxşarı vardı.
Qapısını əqil xəznədarı təkcə açardı.
Bir lövh ki, basıb yar kimi öz bağrına bir baş,
İşlərdi onun sinəsinə nəqşini nəqqaş.
Həm bir gəmi ki, vardı içərisində gümüş, zər.
Atmış yükünü sahilə coşqun, dəli yellər.
Bir dərdli, həzin nəğmə eşitcək durub ondan
Sordum ki, de, ey nazlı mələk, işvəli canan!
Eşqin çəmənindən nə gözəl qönçələr üzdün?
Bu işvədə oldun bütün aşiqlərə üstün.
Heyrətdəyəm, heyrətdəyəm ancaq sənə, çün sən
Aşiq adama oxşamayırsan əməlindən.
Aşiqlərin əhvalı budur: şamü səhərlər
Onlar qəm əlindən acı göz yaşı tökərlər.
Qorxaq kimi onlar qəm əlindən gülü xardır,
Böyründəsə yüzlərcə əzab, zülm oxu vardır.
Onlar elə bir xəstə ki, yox dərdinə qəmxar,
Tapşırdı təbib dəstinə öz canını onlar.
Aylar ilə, illər ilə onlar çəkib hicran,
Bir başqaca şey görmədilər vəslin adından.
Çox-çox ucadır nisbətən aşiqlərə rütbən,
Söylə, de görüm, yoxsa məgər ayrıdı şivən?!



Cananənin aydın təbinin dilbərisən sən,
Daim ona həmağuş olub birgə gəzirsən.
Bir yastıq olubdur başına dost üzü hər an,
Dostun üzünədir sifətin, həm də ki, ey can,
Aylı görə bilməm səni heç yar qucağından,
Arzun, tələbin çünki çatır büsbütün ondan.
Mümkündü səninçün gecə-gündüz yarı sevmək,
Dildarın əlindən yapışıb qəlblə öpmək.
De, hansı səbəb saldı da bu rütbəyə böylə,
Bu xəstəyə öz sirrini gəl doğruca söylə!
Canana yetişmək yolunun sarbanı ol, gəl,
Mərdanə iş öyrət bizə, dərd dərmanı ol, gəl!
Qanun dedi: "Ey mən kimi süst rəyli insan,
Mən çox demişəm sən sanayıb saydığın haldan,
Bunlarla fəqət qalmadı razı mənə dost, yar,
Aldanmadı bu hiylələrə, uymadı onlar.
Rüsvayçılıq etdim özümü dərdə salıb mən,
Məxfi işin üstündə bütün keçdim özümdən.
Kim hər nə dedi, mən qulaq asdım, qəbul etdim,
Baş əydim ona, mən özümü adi qul etdim.
Baxdım və göz oldum ki, qılıb dostuna hörmət,
Huş əhli edə, bəlkə, mənə bircə nəsihət.
Varkən deməyə məndə ağız, sakit olub mən,
Bir kəlmə də söz söyləmədim heç kəsə qəlbən.
Gər cismimi kəsdi bir adam çıxmadı qanım,
Yüksəlmədi aləmlərə atəşli fəğanım.
Əhli-dilə mən bağlayaraq bel, açaraq sər,
Axtardım ürəklərdə səadət uzun illər.
Bu növ ilə ta canı qəbul eylədi canan,
Çatdım böyük ehsanlara, xələtlərə ondan,
Öymə özünü, dost sənə ram olsun, amandır,
Eşq əhli, bu bir qayda ki, rüsvayi-cahandır.
Sən də, a Müğənni, oxu, Qanundan al ibrət,
Neyçin səni pul böylə əsir etdi, nə hacət?!
Aşiqlik hara, pul hara, et bir bunu izhar?!
Gəl qorxma pulun yoxluğuna, ağlama zinhar.
Sən simü zər ilə görürəm zarsan, a fərsiz,
Yansan da Füzuli kimi yan, atəşə zərsiz.

Xoş ol kəsə ki, çıxmadı heç bir zaman haldan,
Sağər kimi dörd bir tərəfə etmədi cövlan,
Bir xılt kimi o, mey küpünün altına yatdı,
O xılt kimi daim meyə doğru qədəm atdı.

## YEDDİNCİ CAMIN KEYFİYYƏTİ

Gəl, Saqi, ver ol qəndü şəkər zövqlü balı,
Bir şey ki, açır qönçə kimi dərdi-vüsalı.
Ver, ver mən içim, etmə məni bir daha təlxkam,
Təlxkamlıq ilə saxlama cam tək məni sübh-şam.
Saqi, o kəmal ilə dolu nəşə ki vardır,
Bir nəşə ki, hal əhlinə, kamillərə yardır.
Ver, ver ki, içim, uçsun uzaq dərdü məlalım,
Bu cəhdlə artsın daha da əqlü kəmalım.
Gəl, Saqi, o yaqut kimi xoş rəngli camdan,
Namus şişəsiyçin əzəli bir daş olandan,
Ver ki, üzümə zövqü şəfa nəqş eləsin qoy
Bu könlümə namus ilə ar bəxş eləsin qoy.
Artır daha da məstliyimi, ta ki içib mən,
Yeddinci qədəh ilə olum qafil özümdən.
Bu nəşə ilə mən keçirib zövqli hallar,
Utanmayaraqdan eləyim halımı izhar.

## MÜTRÜB İLƏ SÖHBƏT

Bir yerdə idim bir gecə mən Mütrüb olanda,
Bir cənnətə çevrildi mənim məclisim onda.
Sordum ona:
– Ey qəlbim açan həmdəmim insan,
Qaldır göyə min nəşə duyaq, bəlkə, sazından.
Mütrüb eşidib qalxdı, haman sazsız əliylə,
Cismiylə, başiylə və o mənalı diliylə,
Nitqiylə tutub qollarını bağladı sazın,
Kəsdi yolunu, qarşısını saxladı sazın.



– Bu rütbə nədir? Sordum ona, söylə bir, ey yar,
Bir rütbə ki, zatında tapılmaz dolaşıqlar?
Mütrüb dedi:
– Ruhani olan feyzdi, feyzim,
Nadanlıq olar, qeyrə könül verme, nə lazım?!
Qeyri kəsə bu dəhrdə meyl etmə, ey insan.
Dost sirrini dostun ürəyindən eşit hər an.
Öz sirrini açma Neyə, saxla onu pünhan,
Çün ağzı açıqdır, danışar hərzəvü hədyan.
Dəfdən uzaq ol ki, işi ah ilə fəğandır,
Bir sillə ilə hər şeyi dünyayə açandır.
Öz sirrin ilə Çəngi dəxi eyləmə məhrəm,
Çün kim qulağın bursa, açıb söyləyəcək, həm.
Öz sirrini Tənburə də gəl açma ki, səndən,
Gizli işini öyrənəcəkdir sənə düşmən.
Qanundan uzaq gəz, ona sirr açma, kənar dur,
İzhar eləməkçin çün onun yüz dili vardır.
Bu firqə haram oldu bütün xalqa ki, onlar.
Dünya bazarında hamı yolbilməz olurlar.
Söylə, de görüm, mazidən heç bir xəbərin var,
Ki, bir neçə rədd etdi əmanətləri ruzgar?!
Çün cansız olanlar tuta bilməzlər əmanət,
Ruzgar sənə tapşırdı ki, min dürlü xəyanət,
Yad əldən onu qoruyasan ta uzun illər.
Bir gün də gəlib səndən ala tapşıran əllər.
Hər cansıza gəl sən eləmə sirrini izhar,
Qorx ki, bu qəza, çərxi dolanmışda xilaf var!
Hikmətlər açan nitqdən heç olma uzaq sən,
İnsan bədənində budu can, çünki əzəldən.
Huş əhli xəyal etdi ki, guya bu cahanda,
Dinməz oturanlar ölü, can var danışanda.
Bu dünyada yalnız qalacaqdır quru bir ad,
Sən də elə söz söylə ki, daim olasan yad.
İş vaxtı sən ol sözləri gəl eylə ki, təkrar,
Təkrarı üçün tənə yeyib olmayasan xar.
Öylə elə ki, başdan-ayağa sözün, əlbət
Aydınlada bilsin bizə min dürlü şəriət.

Qəlbində olan dinini gəl eyləmə izhar!
Öz sözlərini daima nəql et açıq-aşkar.
Hər vaxt, a Müğənni, ki əlin yetdi üsulə.
Məclis bəzəyən ol o günü əhli-qəbulə.
Qeyrilərin əhvalını vəsf etmə, uzaq qaç,
Bir kəlmədə öz halınızı nəql edərək aç.
Füzuli kimi mən də qalıb dəhrdə çun lal,
Gəlmir hünərim nəql edib aşkar eləyim hal.
Xoş ol kəsə, hər yerdə mənim tək dolu camdan,
Meydən, məzədən söhbət açar daima, hər an.
Bir mey, məzə ki, hər kəsə ta ruzi-əzəldən,
Keyfiyyəti məlumdur, heç düşmədi əldən.



# FARSCA QƏZƏL VƏ QƏSİDƏLƏRİN SƏTRİ TƏRCÜMƏSİ

## QƏZƏLLƏR

Ey könül qanı, sevgi onun kuyində məni rüsvay etdi,
Bir paltar geydir ki, orada məni kimsə tanımasın.

Rəqib sənin kuyində nə vaxtadək mənlə yanaşı oturacaq?
Kaş ahimin ildırımı ya onu yandıra, ya məni.

Onun üzünün odunun uzaqlığından yerim külxan oldu,
Nəhayət, sevgi məni qara torpağa çökdürdü.

O pərinin qətlimə verdiyi fərman vədəsi baş tutmur,
Bu qəflət ya bu gün, ya sabah məni öldürər.

Sevgilim hər bir başsız-ayaqsız məclisin şəmi olur,
Qeyrət odu məni başdan-ayağa necə yandırmasın?

Tənhalıq dərdi yalnız məni ağlatmır.
Qəm gecəsi həmdəmsizlikdən şəm də ağlayır.

Bundan sonra, Füzuli, sevmək zövqünü tərk etdim,
Nə mənim dünyaya həvəsim var, nə də dünyanın mənə.

***

Məşşatə o qıvrım saçın hörüyünü ələ aldıqda,
Əlinin qısqanclığından Çində nafənin qarnı sancılanar.

Zülfünün qoxusu yadı ilə nə vaxtadək canım gecələr
Çıxıb səhər nəsiminin yolunu gözləsin?

Qələm xəcalətin qorxusundan nəqqaşın əlini cəld tutar,
Onda ki nəqqaş o qaməti çəkmək üçün qələm götürər.

O ay üzünü günəşə göstərmə, saqın,
Məbada o ayna günəş bulağından nəm ala.

Ay üzünün şəmindən çıraq yandırdı, istəyir
Bundan sonra günəşdən az işıq alsın.

Mən sənin lütfünlə diri idim, onu tərk etdin, bundan sonra,
Bəlkə, dirilik şamim zülm şimşəyindən od ala.

Naseh, Füzulini könül ahının göz yaşından mən etmə ki,
Belə qoşun toplayıb ələm qaldırsa, aləmi tutar.

***

O muğ balası məndən könül və dini tərk etməyi istəyir,
Sevgi yolunda bundan da möhkəm olmağımı istəyir.

Eşq aləmində könüldən, dindən keçmək xəta deyil,
O Çin bütü nə istəyirsə, onu edərəm.

Bir nəfəs naləsiz və kədərsiz ola bilmirəm,
Nə edim, yar məni nalə edən və kədərli istəyir.

Könül sənin astanında sakin olmaq istəyir,
Əməli nədir ki, gözəl behişt istəyir?!

Gah dünyanı gəzən, gah guşənişin olmaq özümlə deyil,
O məni gah elə, gah belə istəyir.

Kirpiyin kimi mərdümdən necə uzaq gəzməyim?!
Sənin xumar gözlərin mənim guşənişin olmağımı istəyir.

Sənin qapının torpağında Füzulinin qədri ucaldı,
Alçaq qullarının sırasında yerləşmək istəyir.

***

Könül sənin sevgi atəşini bərk tutubdur,
Elə quş belə yüksəkliyə azaraq uçmuş.

Mən eşqimdən ki səndən ötrü aləmdə rüsvay olmuşam,
Sənin camalının şöhrəti bütün aləmi tutubdur.

İçimin atəşi bayıra şölə püskürməsin deyə,
Könül yaralarının başına məlhəm qoydu.



Fələk tağının altından dayanmadan keç,
Çünki bu köhnə bina göz yaşımdan nəm çəkibdir.

O qıvrım saçları tutan əl
Təkəbbürdən cənnət qapısının həlqəsinə toxunmaz.

Dövranın saqisinin iltifatına arxalanma,
Sənə verdiyi camı Cəmşiddən alıbdır.

Sevgi qəminin arzusu varsa, bəid deyil, çünki
Könlümüz onun şad könlündən kədərlidir.

Bizim onun şad xatirindən sildiyi ürəyimiz
Əgər eşq qəmini arzulayırsa (bu arzu) uzaq deyil.

Sənin İsa ləbinin uzaqlığından ənbər zülfünün
Nə üçün matəm tutduğuna heyrət edirəm.

Füzulidən şadlıq rəsmini gözləmə ki,
Sənin ayrılığından qəm və kədərlə üns tutmuşdur.

***

Yenə də qapının torpağı havası başıma düşübdür,
Hər nə varsa onda, mənə bu hava düşübdür.

Mənim üçün ahü naləddən yaxşı nə ola bilər ki, indi
İşim sənin kimi zalim gözələ düşübdür.

Nə üçün gözündən mənə sarı bir baxış olmur,
Məgər insanlıq qaydası aradan gedibdir?

Səba yarın zülfündən düyünü açdıqda,
Dərd bəsləyən könlümün işini düyünləyibdir.

Mən hara, bəladan xilas olmaq hara, belə ki könlüm,
Ona görə ki bu zövqün rütbəsi üstündür.

Füzuli sənin yolunun torpağına düşübdür,
Gəl ki, sənsiz bir qərib yatağa düşübdür.

***

Pəriüzlü gözəllərin sevgisindən necə bir an uzaq olum,
Dünyaya bir iş üçün gəlmişəm, işsiz necə olum?

Qamətini görcək huşumu itirib özümü bilmədim,
İlahi, onun yerişini görəndə halım necə olacaq?

Dünya sıxıntısında könüldən, candan usandım,
Sevgilimdən ayrı bir evdə əğyar ilə necə olum?

Onun hüzurundan uzaqda sızlamağıma mane olma,
Onun hüzurunda deyiləm, sızlamayım, nə edim?

Varlıq aynasındakı əks kimi özümdən xəbərsizəm,
Mənim varlığım onu görməklədir, onsuz necə olum?

Rəqibləri görmək istəmirəm, ya rəb, necə edim,
Rəqiblər yarın həmdəmidirlər, mən yarsız necə olum?

Üzünü görməsəm, dözə bilmirəm, kuyindən getməyəcəyəm,
Füzuli, bülbüləm, gülsüz, gülzarsız necə olum?

***

Nə qədər ki, olmuruq, bir sevgilinin qəmi ilə olmuşuq,
Bir laləüzlünün dərdi və dağı ilə olmuşuq.

Aşiqliq etibarı və cünun ləzzəti olmadan
Heç bir ölkə və diyarda olmamışıq.

Bizim işimiz bütün ömür boyu aşiqliq olmuşdur,
Allaha şükür, əbəs iş görməmişik.

Bizim ömrümüzdən heç vaxt elə bir an keçməmişdir ki,
Biz bir gözəl əlindən cigəri qan olmayaq.

Harada olsaq, gülüzlülərin zülmündən
Naləsiz, gözü yaşsız olmamışıq.



Bizim yerimiz qəm bucağından başqa bir yer olmamış,
Heç vaxt bağ və bahar fikrində olmamışıq.

Füzuli, həmişə könül arzusunda qərq olmuşuq,
Bu dənizdən heç vaxt qıraqda qalmamışıq.

***

Cananımın vüsal xəlvətinin məhrəmi oldu çıraq,
Can telinə qibtədən çıraq od vurdu.

Çırağın od içində bir teli var, hər an
O yanar üzü və pərişan zülfü yadıma salır.

Ey laləüzlü, vüsal günü ürəyimə bir dağ çəkdin,
Hicranımın qaranlıq gecəsi üçün çıraq yaxdın.

Sevgi yolunda qaranlıq hicran gecəsi üçün qəm etmirəm,
Ataş saçan ahım bu yolda çıraq olmağa kifayət edər.

Sənin vüsal zövqünün vücudu ilə məndə varlıq axtarma,
Sənin görüşün sübhdür, yanar canım çıraqdır.

Başqasına sarı baxmamağım üçün şölə ağlar gözümə,
Sənsiz yanar çırağım odlu milini çəkir.

Çıraq harada gizli yanmağımı dilə gətirdi,
Yüz pərvanənin ürəyi mənim halıma yandı.

Sənin üzündən iraq gecələr çırağımızın işığı yoxdur,
Ona görə ki çıraq göz yaşımızdan nəm çəkir.

Ey fənər, şəmin atəyini yığıb bir yana qoy,
Çünki bu gecə bir ayüzlüdən otağımın çırağı var.

Evim, Füzuli, qəm gecəsində işıqlanmaz,
Parlaq günəşdən fələk işıqlı çıraq yandırsa da.

***

Könül məni buraxıb o ürəkçalan aya meyil etdi,
Ona görə ki oddan alov qalxdıqda yuxarıya meyil edər.

Yarılmış sinəm həsrət oxu ilə necə dolmasın ki,
Mən məhrum olduğum halda ox qabı onun yanında yerləşir.

Ey möhtəsib, mey camına hirsli baxma, qorxuram,
Sənin qara əksindən saf badə bulansın.

Dünya mükafat yeridir, mümkün deyil ayüzlü saqi
Mey dolu cam əvəzinə qanla dolu könülü almasın.

Qəm, dərd, bəla, möhnət, qüssə və rüsvaylıq,
Bu altılıq birtərəfli aşiqlərlə həmişə vardır.

Rahatlığın ləzzətindən danışma, heç bir şəhd möhnət zəhərindən
Daha şirin deyil, qafil olma, gahdan ondan dad.

Füzuli, dünyada məşəqqətsiz heç bir rahatlıq yoxdur,
Xoş-naxoş, nə olur-olsun, keçinmək lazımdır.

***

Dərdü əzabın çoxluğu ilə yar bizi tanıyır,
Lakin çox bildiyi halda onu az söyləyir.

Sevgili ilə könlümün nə kimi bağlılığını məndən soruşma,
O elə bir sirdir ki, könlüm ilə sevgilim bilər.

İşim ağlamaq olduqda ondan vəfa gördüm, Allaha şükür,
Elə adama işim düşübdür ki, işin qədrini bilir.

Hər kəsə məhəbbətinin miqdarınca lütf edir,
Bu ölçü bilən uşağın xasiyyətinin quluyam.

Əğyar paxıllıq üzündən yarımıza bizdən pis desə,
Nə qəm, çünki yar bizi əğyardan yaxşı tanıyır.



Zülfünün sevdası möhnətlərini məndən soruşun,
Qaranlıq gecənin sıxıntısını xəstə bilər.

Füzuli, ürək sirrini dilə gətirməyə lüzum yoxdur,
Çünki pərişan ürəyimdə nə varsa, sevgilim bilir.

***

Sənin sevginlə öldükdə kaş qapında torpaq olum,
Gahdan küləklə qalxıb başına dolanım.

Sənin xəncərinin yadı ilə bir böyrümdən o biri böyrümə çevrildikdə
Hər bir sümüyüm bir xəncər olur.

Gözəllərin şami başına dolandığın anda,
Ey pərvanə, başına qurban olum, mənim əhvalımı söylə.

Heyran olmaqdan şirin canım çıxdı, cənım haçanadək
Can bəsləyən dodağından iraqda acılıqların əsiri olacaq.

Sən tərləmiş çöhrəni göstərən vaxt,
Gözümü açıb tər gül yarpağına heyran oluram.

Ey fələk, məni onun astanasının torpağından götür,
Mənim zəhmətimdən dincəl, nə vaxtadək yatağının tikanı olacağam?

Füzuli, piri-muğan qapısının torpağına yol açdım,
Gəl abi-həyata doğru, sənə bələdçi olum.

***

Hər gecə ağlamaqla qan içində boğuluram,
Səhər başımı köpük kimi qandan çıxarıram.

Dedim sənin sevgi istəyini könlümdən çıxarım,
Könlüm mənə tabe olmur, əlacım nədir?

Nə vaxtadək gülüzlülərin gül yanaqları yadı ilə
Üzümü cigər qanı ilə lala kimi edəcəyəm.

Sinəmin yarasına pambıq məlhəm üçün deyil,
İstəyirəm könlümün yanar odunu çoxaldım.

Könül sevdası dodağından söz açmaqla əskilməz,
Dəliyə yüz ovsun oxusan da, fayda verməz.

Naseh, cünunu tərk etməyin ağıllı iş olmaz,
Dəliyə hər iki dünyada zaval yoxdur.

Gözümdən, Füzuli, torpağa su axıdıram,
Bəlkə, içimin yanar odunu söndürəm.

***

Səndən, gözəl, yaxşılıq şivəsini bilən büt yoxdur,
Elə bir pəriüzlü ki, məni sənin əlindən qurtara, yoxdur.

Sevgilimə min namə yazdım, nə faydası var,
Lütf edib ona çatdıran bir kimsə yoxdur.

Hər kəs həyat nəqdini sənin əlinə tapşırar,
Lakin səndən kam ala bilən bir adam yoxdur.

Keçmişlərin sərgüzəştlərini zəmanə sərlövhəsinə bircə-bircə
Yazmışlar, lakin onu oxuyan bir arif yoxdur.

Hamımız dünya qəmi əsirik, ancaq himmət Rəxşini
Bu dünya darısqallığından çıxara bilən yolçu yoxdur.

Meyə nədən meyil edim, sınamışam, o da
Sevgi qəminin yanğısını söndürə bilmir.

Dünya mülkünə, Füzuli, könül vermə, buraya
Çoxları gəlmiş, lakin qalan bir kimsə yoxdur.

***

Söz verdin ki, vəfalılara cəfa etməyəsən,
Yaxşı ilqardır, ah, əgər əhdinə vəfa etməyəsən.



Ey qaşı kaman, sənin oxuna nişanə mənəm,
Xəta etməmək üçün başqasına baxma.

Məlahət mülkünün sultanı olduğun üçün rəva deyil
Mən dərvişin hacətini yerinə yetirməyəsən.

Gözünə naz sürməsi çəkiblər, lakin,
Bu şərtlə ki, bizə sarı heç baxmayasan.

Demirəm ki, mənə nə üçün zülm edirsən,
Sən rəhimsiz, mən dilsiz, niyə də etməyəsən?

Ey könül, onun qəmzəsindən mərhəmət gözləmə ki,
Özünü bəla oxuna hədəf etməyəsən.

Eşq yolu, Füzuli, çox xətərlidir, məgər ki,
Təqva ətəyini əlindən buraxmayasan.

***

Özümə söz verdim ki, daha faydasız bir iş görməyim,
Cəfakar gözəllərə sarı getməyim.

Gözəllərin sevgisinə tövbə elədim, necə olur-olsun,
Axırı budur ki, daha nalə-əfğan etmərəm.

Bədxah rəqiblərin zülmündən nə vaxtadək dad çəkim,
Yaxşısı bu deyil ki, heç bir nigara meyil etməyim?

Nə vaxtadək əğyar dərdi çəkim, istəyirəm
Bundan sonra heç bir yarın söhbətini arzulamayım.

Rindlər söhbətindən özümü bir yana çəkim,
Bütlərdən öpüş və görüş arzusunda olmayım.

Tənhalıq feyzi ilə könül yarasına məlhəm qoyum,
Bir lalə yanaqlının vurğunluq həvəsinə düşməyim.

Məsləhət budur ki, bundan sonra bir guşədə oturam,
Füzuli kimi bağ və bahar həvəsində olmayam.

***

Ya rəbb, o dərdsiz dərdimə dərman edər, ya yox?
Bir dərdə düçarəm, ona çarə edər, ya yox?

Ona dərdimi söyləyirəm, ancaq bilmirəm
O, dərdlilərin halına rəhm edər, ya yox?

Acılıqla canə gəldik, ey meh, o gülüzlüdən soruş
Gör, vüsal şəhdi ilə hicran zəhrini sovuşdura bilər, ya yox?

Ahım daşı əridir, ürəyim hələ də titrəyir ki,
Görəsən, o ilqarsızın ürəyinə əsər edəcək, ya yox?

Sənin başına dolanmaqdan başqa bir arzum yoxdur,
Bilmirəm, fələk istədiyim kimi dolanacaq, ya yox?

Sənin vüsal şərbətindən rüsvalıq zövqünü dadmayan bir kəs,
Haradan biləcək ki, mey ağılda nöqsan yaradar, ya yox?

Yaralı könlümdən oxunu çəkdikdə bildim ki,
Bədən can verdikdə qorxuya düşər, ya yox?

Sən nazın sərxoşusan, Füzulinin halından xəbərsizsən,
Hardan biləsən ki, hər gecə ahü fəğan edir, ya yox?

***

Qoşa zülfünü cəfa verməк üçün düyünlədin,
Yer üzündən vəfa rəsmini sildin.

Sənin kirpiklərinin qəmzəsinə biz bağlanan kimi,
Gözlərin bütün toplumuzu dağıtdı.

Elə adam yoxdur ki, cəfa rəsmini səndən yaxşı bilsin,
Sən bu cəfa rəsmini kimdən öyrəndin?

Çərxin çevrəsindən himmət başımı uca tutdum,
Nə vaxtadək hər bir baş-ayaqsızdan minnət çəkim?



Bir ömürdür ki, yolunda torpaq olmuşam ki, gahdan
Mənə sarı gələsən, ayağının altını öpəm.

Çərxdən hər an mənə bir bəla nazil olur,
Əyilmiş qamətim bəla quşu üçün cələ olubdur.

O büt Füzulinin könlü və dini qəsdində olsa,
Naseh, səni Allah, mane olma, əziyyət vermə.

***

Qəmdən köynəyimi çəkib tikələdikdə,
Göz yaşı bədənimi xalqdan gizləyir.

Əyilmiş qəddimlə kuyinə necə gedim?
Kirpiyimin tikanı ətəyimdən tutubdur.

Qəmin gözümdən danələr axıdır,
Xırmanımı fəna küləyinə verir.

Ey sənə qul olduğum, əlindən gəlmədi ki,
Boynumu qolunun tuğuna çəkəsən?

Hər yandan mənə arzu yolunu bağladın,
Göz yaşım çevrəmi tutunca.

Möhtəsib, mey piyaləsinə hirsli baxma,
İşıqlı güzgümü qaraltma.

Qəmdən ölmüşəm, öz yasımı saxlayıram,
Füzuli, sızlamağımı qınama.

***

Mən kiməm ki, sənin kuyin mənə məskən olsun?
Kuyinin torpağı hər ləhzə mənim nəzərimdə olsun?

Könlümün əhvalını kimsə sənin yanında dilə gətirməz,
Mənim şəmim, könlümün əhvalı sənə aydındır.

Düşmən haçanadək səninlə dostluqdan sevinəcəkdir?
Mənim əhvalım haçanadək sənin üzündən düşmənin istədiyi kimi olacaq?

Ey şəm, öz kuyinin başında bizi yandırma,
Hayıfdır ki, sənin kuyinin gülşəni külxən olsun.

Mənim canım, qiyamətədək həyatdan ad çəkmərəm,
Əgər öləndən sonra sənin kuyin mənim mədfənim olsa.

Bircə oxunla qəm-qüssədən bizi xilas et,
Haçanadək can qəmi, bədən dərdi çəkəcəyik?

Ey gül, Füzulini qapının torpağından uzaqlaşdırma,
Bülbülün gülşəndən gözəl yeri yoxdur.

***

Hər kəsin ki, ah şimşəyindən çırağı yoxdur,
Hicran gecəsi sənə sarı yol tapa bilməz.

Hər kəsin ki, dəmirdən ayna kimi könlü yoxdur,
Sənin üzünə bircə dəfə baxmağa tabı yoxdur.

Kimsənin ki, daimi göz yaşı və ahı yoxdur,
Səni sevmək iddiasında olsa da, şahidi yoxdur.

Sənsiz ağıl, könül və can heyrandır,
Padşahı olmayan bir əsgər kimi.

Könül vəslini istər, lakin hər ləhzə,
Gahdan bir görüşməyə tabı yoxdur.



Qamətimi sənin mehrin hilal kimi edibdir,
Səndə olan nə günəşdə var, nə də ayda.

Füzulinin, ruzgarın qəm-qüssəsindən
Piri-muğan qapısından başqa pənahı yoxdur.

***

Könül vüsalının zövqünü tapmaqla saqi və sağərdən keçdi,
Səfalı xəlvətinin həmdəmi olub aydan, günəşdən keçdi.

Göz yaşlarım astananı təvaf etmək arzusundadır,
Başdan keçdiyinə görə istədiyini edə bilər.

Hər kəs ki, qarşısına gələndən iynə kimi keçə bilsə,
Məsiha kimi ayağını fələyin başına basa bilər.

Aşiqlik rəsmini kimsə məndən yaxşı bilməz,
Ona görə ki ömrüm gümüşbədənli gözəllər yolunda keçdi.

Ahımın şimşəyi axırda dönmüş ulduzumu yaxdı,
Aman bu möhnətdən ki, ahımın şimşəyi ulduzdan keçdi.

Şadam ki, söz gəlib mənim sevgimə çatdı
O mələksima aydan hər yerdə söz düşəndə.

Füzuli, Bağdad əhlində mehribanlıqdan əsər yoxdur,
Hayıf mənim ömrümdən ki, bu ölkədə səmərəsiz keçdi.

***

Vurğunluq mən heyranın rəftarından parladı,
Eşq Fərhaddan bədən, məndən can tapdı.

Şirinin nəqşini qonaq etmək üçün
Sərgərdan Fərhad Bisütunda məskən saldı.

Fərhadın qanının qisasını tələb etmirsə,
Şirinin şəkli nə üçün Bisütunun ətəyindən tutmuşdur?

Dağyaranın Bisütuna sarı atdığı lalə deyil,
Yanar könlünün dağladığı qanlı sinəmdir.

Bisütun işi Fərhada müşkül idisə də,
Şirin canını verib işini asanlaşdırdı.

Könül qana qərq oldu, ya da sənin oxun içimin yanğısından,
Canımda yanıb peykana şöləsindən od vurdu.

***

Bizdəki həyat dostun qılıncının cövhərindədir,
Ruhumuz cövhər olsa da, onun qılıncının cövhəridir.

Bir aləmim var ki, fələyin günəşinə möhtac deyil,
Gecə-gündüz gülüzlü ayların mehri ilə işıqlanır.

Onun oxu bizi öldürsə də, əzabdan qurtardı,
Doğrudan da, gözəllərdən hər nə gəlsə gözəldir.

Bizim ömür bağımızdan abi-həyat kəsildi, hələ də
İstək meyvəsi arzu budağında gizlənir.

Artıq-əskik varlıq məhfilində bircə feyzin təsiridir,
Qədəhdə fərq olsa da, şərab bir kuzədəndir.



Nikbətnəfəsli tənhalıq ixtiyar etsə də, şərsiz olmaz,
İlan qabıq salsa da, zəhərini itirməz.

Cananın mənzilini, Füzuli, kimsə bilmir haradadır,
Gördüyüm hər bir kəs başını ayaq eləyib axtarır.

***

Ləl dodağının mücrüsündə yüz dərdin əlacı var,
O bizə möhtac deyil, bizim ona yüz ehtiyacımız var.

Ay mənzil-mənzil gərdəkdə gedir, şayəd
Üzünün günəşindən əhvalı pozulubdur.

Gözümün lövhəsində sənin xalının əksi
Aca calaq olunmuş abnusdan gözəl görünür.

Sinəmi yar, gözümü də qan edib çıxar,
Ölkəni tutub tövcü təyin etmək şahların işidir.

Başımın kəsilməsi qorxusundan könül qəmini gözləmişəm,
Tacir bac vermək qorxusundan mətaini gizləyər.

Gözümün ağı sənin xəttinin əksindən rövnəq alır.
Aydındır ki, gümüş sikkə ilə rəvac tapar.

Ucalıq istəsən, Füzuli, fələk kimi qeydsiz ol,
Başında günəşdən tac olsa da, yerə vur.

***

Başımda üzünün şəmi sevdası olmadıqca
Sinəm yanıqlı, könlüm yüz tikə, gözüm yaş deyildi.

Sevgin könlümün yaxasını tutduğu gün,
Varlığımda yoxluq libasından başqa bir şey qalmadı.

O gün ki mənim canımda sənin qılıncının cövhəri-şövqü var idi,
Aləmdə cisimdən və cövhərdən ad-san yox idi.

Əzəl gündən tənhalıq dərdi mənə nəsib oldu.
Görünür, bu dərdə başqa kimsə qabil deyilmiş.
Dünyada aşiqlikdən başqa bir iş tutmadım,
Nə edim, mənə görə bundan başqa yaxşı bir iş yox idi.

Qəm evimin qapısının heç vaxt qan seli açmadı,
Məgər ki, bəladan yüz dəstə məni görmək üçün qapıya gəlməyə idilər.

Bundan qabaq Füzulinin əhvalını pis görmürdüm,
Görünür, könlündə dilbər dərd-qəmi yox idi.

***

Aşiqlikdə bir sevgilinin qəmindən başqa bir işim qalmadı,
De, ağıl başımdan getsin, onunla bir işim qalmadı.

Kirpiklərim göz yaşı seli ilə gözümün çevrəsindən getdi,
Gülüzlülərin xəyalı yolunda tikan qalmadı.

Dözümsüzlük qılıncı aşiqləri qəm zindanından qurtardı,
Sızlayan əsir könlümdən başqa bir məhbus qalmadı.

Gücsüzlük məni ayaqdan salacaq, çünki göz yaşı seli
Aləmdə söykənmək üçün qoymadı bir divar qalsın.

Hamı mənim ürəksıxan söhbətimdən usanıb getdi.
Qəm məhfilində naladan başqa bir həmdəm qalmadı.



Dünya bazarında öz mətaimi kimə göstərim,
Mənə sirlərinin cövhərinə xiridar qalmadı.

Ömrümün nəqdi, Füzuli, qəm günlərində xərcləndi,
Əyyamın qəmlərini izhar etmək üçün qəmxar qalmadı.

***

Boy atdın, gözüm bəla oxuna hədəf oldu,
Cilvələndin, ixtiyarımın yüyəni əlimdən çıxdı.

Günəş hər səhər yolunun torpağı üzərinə başını qoyur,
Bu şərəfdən başını fələkə ucaltmağa haqqı var.

Dünən gecə göy təzə ayı dolandırmaq zövqündə idi,
Sən qaşının guşəsini göstərdin, o zövq məhv oldu.

Sənin ləlinin həsədindən ləl mədəndə qana boyandı,
Sədəfdəki inci dişinin xəcalətindən suya döndü.

Ürəyim sinəmi odladı, nalələrimdən bu, aydın görünür,
Çünki dəfi oda artıq tutduqca əfğanı ucalar.

Kirpiklərim hər tərəfdə yuxu alayına qəsd etmək üçün səf bağladı.
İki səf arasında göz yaşımın əcəb mənzərəsi var.

Füzuli, daim aşiq ol, badə iç,
Dur bir iş gör, ömrünü boş yerə tələf etmə.

***

Gümüşbədənli gözəllərin sevgisi məni heyran edir,
Əhvalimdən büt kimi məni xəbərsiz qoyur.

Sənin gözlərinin bəbəyi könülə yüz cəfa vermək əzmindədir,
Könülə yetirdiyini mənə çatdırmaq niyyətindədir.

Fələk qanımı tökmürsə, məhəbbət üzündən deyil,
Bundan bətər etmək günü üçün məni saxlayıbdır.

Ey saqi, sərxoşluğum sənin camının nəşəsindən deyil,
Başqa bir sevda məni belə divanə edibdir.

Yolunda uşaqlar kimi dayanmışam ki, cəld süvari
Gəlib məni çevikliklə yerdən götürsün.

Bir evə gedib qapısını köpük kimi bağlayaydım,
Haçanadək dövran məni külək kimi dərbədər edəcək?

Füzuli, mey camı kimi necə qızıl göz yaşı axıtdım,
Onun ləlinin arzusu mənim cigərimi qan etdi.



## QƏSİDƏLƏR

Ey türbəsi ilə Nəcəfin rütbəsini yüksəldən,
Sən ən qiymətli incisən, Nəcəfin torpağı onun sədəfi.
Bədrüddüca sənsən, sənin doğub batmağınla
Bətha nur alır, Nəcəf şərəfə nail olur.
Günəş səni görmək xətrinə,
Sidq ilə dua oxuna nişanə olmuşdur.
Sənin türbən çevrəsindəkilər qəndil deyil,
Səni təvaf etmək üçün
İşıqlı könüllər sıraya düzülmüşlər.
Sənin rəmzlərini alçaqlar dərk elə bilməzlər,
İnci hara, tısbağanın üzgüçülüyü hara?
Su Kövsərdən, ot behiştdən belə olsa,
Bu su və o ot sənin Düldülün üçün gəlmişdir.
Sənin şəfqət novbaharından və qəhrinin odundandır
Cənnətdəki təravət və cəhənnəmdəki od-alov.
Qələbə baharına saçılmaq üçün sənin atının
Vuruş çağında ağzının köpüklənməsindən gözəl şükufə yoxdur.
Ay Günəş kimi dərgahına üz qoysa
Qapındakı torpaq onun üzündəki ləkəni silər.
Adəm öz nəslindən səni seçdi,
Atanın sevgisindən övladın nütfəsi bəlləndi.
Sənin zatının sirrini tanımağa necə nail ola bilər
O adam ki "mən ərəfə" məzmunundan xəbəri olmaya?
İstərəm gündə min kərə sənin təvafına çatam,
Çünki hər təvafda günahımın yükü yüngülləşir.
Sümüyümün iliyi sənin sevginlə yoğrulmuşdur,
Sinəmdəki ürək səni yad etməklə çırpınır.
Bu sevginin sümükdən çıxması imkansızdır.
Bu sevincin sinədən uzaqlaşması mahaldır.
Məni ney kimi bənd-bənd ayırsalar,
Yaxud sinəmin dəf kimi dərisini soysalar,
Hadisələr günəşinin qızmarından qorxmuram,
Çünki sənin vilayət bayrağın çiynimdədir.
Günahın qorxusu mənə sarı yol tapdıqda
Sənin şəfaətinin səsi gəlib, "Qorxma", – dedi.
Allaha şükür ki, əzəldən mənim həyatım
Sənin yolunda sərf olundu, mənasız tələf olmadı.
Başqaları kimi deyiləm ki, qiyamət günü
Keçmiş günahlara faydasız təəssüf edim.
Kimsə məndən şükürdən başqa bir şey eşitməyəcək,

O gün ki hamıdan təəssüf fəryadı qopacaqdır.
Göz yaşı axıtmağın, sinə çak etməyin nə faydası?
O adam üçün ki sənin razılıq ətəyindən tutmasın.
Ey ürəyi dərya, çün Füzulinin nəzmi sənə nəzir deyilir,
Ümidi var ki, bu xəzəf səndən cəvahir qiyməti tapsın.
Ruh bədənlə rəfaqət edib bir olduqca,
Səhər gecədən doğulub, aralarında ixtilaf olmayınca,
Gecə-gündüz davam etdikcə cismim və ruhun
Nəcəf türbəsinin xidmətində ola.

***

Həqiqətdə Allaha yaxın olmağa səbəb olan itaət
Kərbəla çölünün məzlumunun dərgahı torpağını təvaf etməkdir.
Xoş halına o adamların ki, göz nurunun qüvvəsi üçün,
Nəzərlərində daim onun qibləsi dayanır.
Xoş o tələb edənin halına ki, hacətini istədiyi vaxt
Kərbəla yolunun torpağı onun gözündə tutiyadır.
Xoş o ziyarətçinin halına ki, elə bir ziyarətgahda
Gah sidq ilə namaz qılır, gah da riyasız niyaz istər.
Gah o çöldə susuz qalanı yad edib göz yaşı axıdar,
Gah da o qapının torpağına səcdə etmək üçün ikiqat olar.
Gah pərgar kimi məzarı nöqtəsi başına dolanar,
Gah da bir nöqtədə dayanmayıb hərəmi dolanar.
Kərbəla dünyanın qədim viranəsində bir xəzinədir,
Lakin elə bir xəzinə ki, cəvahiri Övliya şahının cəvahiridir.
Hikmət xəzinədarı o şərəfli xəzinədə
Lafəta (Əli) incisi ilə dolu mücrüsü saxlanan qəribə sandığı var.
Ya da o rövzə bir gülüstandır ki, baxanda
Güllərinin rəngi Mustəfa övladının qanından rəng almışdır.
Türbəsinin havası istidirsə, təəccüblü deyil,
Yanar ürəklərin atəşindən havası sınacaqdır.
Torpağında su şor çıxırsa, yeri var,
Ona görə ki o suyun qaynağı bizim göz yaşımızdır.
O türbə və o rövzədə fərqlənmək üçün
Canla könül arasında müxtəlif bəhslər var.
Can bəhs edir ki, o rövzə behiştə bənzər,
Könül etiraz edir ki, o ikisi nə vaxt bir-birindən ayrı olmuş.
Səmanın bütün yüksəkliyi ilə bərabər,
Yer özünü səmadan üstün tutsa, rəvadır.
Kərbəlanın şərəfli səhrası Yerin bir parçasıdır,



Kərbəla Hüseyn ibni-Əli Murtəzanın məkanıdır.
O imami zahir və batin ki, məhz səfa olduğundan
Zahiri kimi batini də dünyanı əks etdirən ayinədir.
Ona sarı üz tutan nə vaxt nakam getmişdir?
Ona sığınan hər bir kəs nə vaxt məhrum olmuşdur?
Onu ziyarət edənlərin yolundan qalxan tozun rütbəsi,
Ucalığına görə yüksək göylərin dərgahında qərar tutur.
Yəsib və Bətha şahsüvarı, ins-cins imamı,
Şəkil və məna padşahı, iki aləmin şahıdır.
Sədaqətlə inam bəsləyənlərin könlünə həyat bəxş edən,
Nakəs vəfasızların cəfa qılıncı ilə öldürülən.
O pak məsumu qətlə yetirən üsyankarlar
Qiyamət günü Xeyrənnisa (Fatimə) həzrətlərindən yüz xəcalət çəkəcəklər.
Dünyada Hüseynin qanının dəvası izi durduqca
Yüz minlərlə ədəbsiz ölüb-itməklə qarşılaşacaq.
O bəxtəvərə uğur olsun ki, daim dünyada
İxlas üzündən bu sorğu-sualın niyyətindədir.
Salam sənə, ey əhli-nəzərin gözünü işıqlandıran,
Salam sənə, ey dərgahı bizim hacətgahımız olan.
Elə bir dərdli yoxdur ki, sənin lütfündən dərman tapmadı,
Dərgahının torpağı dərd əhlinin şəfa ocağıdır.
İltifat kölgəni Füzulinin başından çəkmə,
Çünki o həm biçarə, həm yalqız, həm də binəvadır.
Qəriblikdən öz silkinə hələ də yol tapmayır,
Hər nə istəyir etsin, xəta qorxusu təsəvvürünə gəlir.
İstəyirəm Allah ona elə bir iş ruzi etsin ki,
O pərişana onun xeyri və sənin razılığın olsun.

***

Dil yaxşıdır ki, Allahın birliyini söyləsin,
Əgər elə olmasa, ağızda dil olmasa, yeydir.
Eşq olsun o kamil yaradana ki, iki aləm də
Onun cızmış olduğu kainatın əbədi naxışıdır.
Əzəli sənətinin kamalı şanlı bir əkinçidir
Ki, bədən tarlasında ruhum suyunu axıtmışdır.
İllətsiz qüdrətinin fəzası bir dəniz kimidir
Ki, ağıl gözü o dəryada sərgərdan bir qayıqdır.
O şəxsin ruhuna min salavat olsun.
Ki, insanlar içindən o həzrətin seçilmişidir.
Nəbiyyi-ümmi, Məkki, Məhəmmədi-Qurəşi,

Bəşər növünün pənahı, dünya xalqlarının başçısı.
Onun zatı sifətinin tərifində bu yetər
Ki, onun damadı həzrəti-şahi-mərdan (Əli)dır.
Vəli, valı, vala, adil ürəkli Əli,
Dövri-fələyin nizamı,Yeri və zamanı nəzmə salan.
Səltənət təxtinin şahı, insan və mələk imamı
Ki, onun vəsfi, sözsüz, Allahın sifətləri kimidir.
İndi onun möcüzələrindən bir rəvayət eşit
Ki, onu eşitməklə könül və can təzələnir.
Deyirlər ki, o rəyi kafi olan imam elə ki,
Mədinədən çıxıb Kufədə sakin oldu,
Hər bir diyardan ona sarı axışdılar,
Öz dərdlərinə hamı ondan dərman tapdı..
O zaman Bəsrə xalqı arasında var idi,
Övliya şahını canu dildən sevən və etiqad bəsləyən.
İki yetkin cavan, iki pak nəsil,
İki xalis müsəlman, iki inam axtaran.
Hər iki qardaş, əslində, bir dənizdən iki inci,
Hər iki qardaş bir mövsümdə bir bostanda açılmış çiçək.
O dünya sərvərinin ayağını öpmək şərəfinə nail olmaq niyyətilə
Bəsrə şəhərindən Kufəyə sarı yollandılar.
Qəzadan yol əsnasında səfərin ağrısından
Böyük qardaşın canında tabü təvan qalmadı.
Oraya çatdı ki, az qaldı onun yorğun bədənindən
Yaydan ox çıxan kimi canı çıxsın.
Ağzını açıb qardaşına bir vəsiyyət elədi:
Ey könlümün muradı və nigaran gözümün istəyi!
Vəfa fidanından baş qaldırmış ilk qönçə idik,
Ümid var idi ki, xəndan gül olacağıq.
Sən şahın dərgahına töhfə üçün yaşa,
Mənim açılmış şükufəmin baharı xəzan oldu.
İki özünə görə rəngi olan ləl idik,
Şahın xəzinəsinə sarı mədəndən yollanmışdıq.
Hadisələr daşı mənə dəyib beləcə sındırdı,
Sən o xəzinəyə hədiyyə olmaq üçün daim yaşa.
Lakin vəsiyyətim budur ki, ey qarındaşım,
Sən Səlmanın ağası dərgahına çatdıqda,
Məni unudub könlündən çıxarma.
Mənim niyazımı çatdırıb, salamımı söylə.
Könlünün lövhəsindən adımın naxışını silmə,
Onun yanında mən itkinin macərasını söylə.



De ki, ey şanlı fikirli və mübarək simalı,
Filan adam sənin dərgahının torpağı arzusunda idi,
Qapının torpağı yadı ilə həyatını badə verdi.
Səni yad etməklə yaşadığı kimi, yadınla da öldü.
Öldü, səni görmək arzusu canında qaldı.
Getdi, canı və könlü sənə çatmağa nigarandır.
Hələ ürək dərdini söyləyib qurtarmamış,
Ruhunun quşu bədənimdən uçub getdi.
Vəfa zirvəsinin hüma quşu idi, pərvaz edib,
Qəm-qüssə səhrasından behişt bağına yönəldi.
Böyük qardaşın ürəyi hicranda yandı.
Dövranın belə dolanmasına göz yaşı axıtdı,
Hicranın yalqızlığından sızladı.
Qürbət qəmi, yolun əziyyəti, ölüm vahiməsi
Cavanı çulğalayıb heyran qoymuşdu.
Qardaşını necə dəfn etməyi düşünürdü,
Dünya xəzinəsini necə torpağa tapşıra idi.
Birdən Xızır kimi bir atlı bir yandan
Abi-həyat bulağından daha iti yerişlə çatdı.
Dəvəyə minmiş mübarək bir kəs ki onun dəvəsinin ayağı,
Feyz çölündən keçmək üçün hərəkətdə idi.
Onun dəvəsinin ayağından iz qalan hər yerə
Min Saleh və Veysi-Qərən alnını qoymuşdu.
Üzünə niqab salmışdı, lakin onun heybətindən
Göydə günəş zərrə kimi titrəyirdi.
Dil açıb ona fəsahətlə ləfz ilə
Nə dedi, dedi ki, ey dövrandan əzab çəkmiş,
Qəm-qüssənin şiddətindən huşunu itirmə.
Gəl, gəl bu pak lövhü məndən al,
Bir an öz ölünün burnuna tut ki,
Onun rayihəsindən sənin ölün cana gələr.
Cavan, buyurduğu kimi lövhü aldı,
Ölmüş cavanın tez burnuna tutdu.
Ölmüş cavan o lövhdən həyat feyzi tapdı,
Ağır yuxudan oyanan adam kimi yerindən qalxdı.
Böyük qardaşda kiçik qardaş elə ki
Həyat gördü, sevinc dəryasında elə qərq oldu ki,
Huşunu itirib özündən xəbərsiz düşdü.
Torpaq üzərində özünün göz yaşı kimi gilləndi.
Bircə anda qəribə hadisə baş verdi,
Diri öldü, ölü nicat tapıb dirildi.

O əhvaldan sonra ikisi də gözlərin açdıqda
Lövhədən, dəvədən, dəvə minəndən iz-əsər yox idi.
Cavan hal-qəziyyəni qardaşına söylədi:
Onun ölməsindən, lövhün əsərindən, kəramətli şəxsdən.
Bir anlığa o hadisənin heyranı oldular,
Görəsən, bu uyğunun nəticəsi idi, ya xəyalın və gümanın?
Heyrət içində yenə də yola düşdülər,
Şənlik və şadlıqla Kufə şəhərinə çatdılar.
Yüz şövq ilə Kufə məscidinə qədəm qoydular,
Göz yaşı axıda-axıda şahın üzünə göz açdılar.
O adamın xoş halına ki, hədsiz intizardan sonra,
O adamın xoş halına ki, sonsuz arzudan sonra
Gözünü ürəyi istədiyi dostunun üzünə aça,
Cananın üzünün səhifəsini mütaliə edə.
İnsan və mələklər imamı Əli Əbu Talıb
Nəvaziş edib, ehsan rəsmini yerinə yetirib
Yolun sərgüzəşti keyfiyyətindən xəbər aldı.
Qərəzi bu idi ki, gizli yolu xalqa göstərsin.
Cavanın ölümü, o lövh və dəvəyə minmiş şəxs,
Dərdə düçar olub dərman tapmaq hadisəsi
Elə ki kiçik qardaş tərəfindən danışıldı,
Bütün kişilərin əmiri şanı-yüksək Əli,
Xalqın arasında o yeniyetməyə belə buyurdu;
Ki, ey müşkülü Allah tərəfindən asan olan,
Əgər bir daha o lövhü görsən,
Arifcəsinə tanıya bilərsən?
Gavab verdi ki, billah, o lövhün təsəvvürü
Mənim can səhifəmdə naqş bağlayıbdır.
De, necə elə bir mübarək lövhü tanımayım ki,
Zəmanə qəmindən məni xilas etmişdir.
Nəcəf taxtinin əmini, pak sərvin kölgəsi
Cibindən haman lövhü cəld çıxartdı.
Cavan o qəribə lövhü görcək tanıdı,
Şahın ayağının torpağına düşüb həyəcanla dedi:
Ya imami-zaman, bizim etiqadımız dürüstdür.
O sənsən ki sifatın imkandan üstündür.
Səndən başqa kimdir ki, həm hazırdır, həm qayib?
Səndən başqa kimdir ki, həm sərvərdir, həm sultan?
Allahın Rəsulunun ruhu, Tanrının sirri sənsən,
Hədisin əsli və "Quran"ın mənası sənsən.
İsiyi-Məryəmin ruh bağışlayan nəfəsinin yardımçısı,



Musiyi-İmranın işıq saçan əlinə güc verən.
Sənin elminin məzhəri Allahdır və sən də onun məzhəri,
Səni nadan adam Allahdan necə ayıra bilər?
Rəvayətdir ki, o möcüzdən çoxlu adam,
Sidq ilə iman şərbəti camını içdilər.
Əlidir ki, bütün dünyanı müsəlman etdi,
Qılınc zərbəsi və dəlil-sübut təsiri ilə.
Əlidir ki, onu sevənlərin könlü və gözü
Hər cür xəbislik, pislik və şeytanlıqdan uzaqdır.
Ey könül, Əlinin vəfası yolunda başdan keç,
Çünki bu yolda ölmək əbədi həyatdır.
Min şükür ki, yazıq Füzuli canla, könüllə
Həmişə Əlinin aciz mənqəbəxanıdır.
Üzünü Peyğəmbər övladının dərgahına qoyub,
Mərvan övladına lənət deməyə adət edibdir.
Ümid var ki, dolanan günbəz durduqca,
Ümid var ki, dövran gərdişi davam edincə,
Zamanın padşahının cahü cəlalı kölgəsi,
Həmişə Murtəza kərəmi sayəsində bərqərar olsun.

***

Qalx, ey dövran yerişli, fələk gövdəli dəvə
Ki, ayağının pəncəsi bədirlənmiş ay, boynun hilal kimidir.
Ey yerişi dövran kimi olub, lakin onun kimi rəhmsiz olmayan,
Harada qərib gördün vətəninə yetirirsən.
Sən o səhralar keçən, biyaban yetirməsisən
Ki, sənin varlığınla biyabana çəmən qısqanır.
Harada bir an olsan, yerində dişin və ayağınla
Bütün tikanlar silinib yerində gül açar.
Mənə bir heyranlıq üz verib ki, tikan yedikdə
Dəyərini ağzından buraxdığın gümüş kimi köflə ödədin.
Yerdən aldığın tikanın halallığı üçün
Bahasına mücründəki dəyərli incini verdin.
Təriqət əhlinə rəhbərlik etmək sənə yaraşar
Ki, Saleh və Veys-Qərinlə həmqədəmsən.
Sənin dağ kimi kürəyinin çulu zərbaf atlasdan
İpin günəş kimi nur şüası saçmalıdır.
Haçanadək diz çöküb fəryad edəcəksən?
Məgər cüvəllağı fələyin zülmündən şikayət edirsən?
Sən zalim deyilsən, bu qəribədir ki, məzlumlar kimi

Sənin əlindən zəng daima fəryad edir.
Sarvanın yollanmaq sədasının cavabında
Sənin tərpənişinlə zəng sözə gəldikdə
Elə bir ürək olmaz ki, zəng kimi dəmirdən ola.
Yeniyetməsən, lakin əyintili çərxin qəm yükündən
Aşiqlər kimi sinəndə köhnə dalğalar var.
Tükünün qoxusu nafə kimi elə burulmuşdur ki,
Xütən ahusunun nəfəsi rayihəsindən xoşdur.
Gah misilsiz, tək cəvahir kimi yalqız gəlirsən,
Gah da Ədən incisi kimi sapa düzülüb nizamla gəlirsən.
Gah çərxdən açılan ip kimi qabarırsan,
Gah da iynə kimi bir ipə bağlanırsan.
Qayğıkeşliklə gah hamının yükünü çəkirsən,
Gah da etinasızlıqla heç bir yükün altına girmirsən.
Sən bütün yıxılmışları yerdən götürürsən,
Bütün avaraların sənin lütfündən məskəni var.
Mən də yıxılmışam, lütfən mənə sarı gəl,
Mən də avarayam, naz edib məndən uzaq gəzmə.
Dünən eşitdim, Hicazdan İraqa getmək əzmindəsən,
Yenə də Zabuldan Yəmənə karvanı çəkirsən.
Ta səadətli bir zamanda Yəsribi ziyarət edəsən,
Əmin-amanlı yolla yükü Bəthaya çatdırasan.
Mən maaş qeydində qalıb oranın qəmini çəkirəm
Ləyəndə yanar şam kimi ayağım bağlı, könlüm yanıqdır.
O mülkə qədəm qoyduqda onun şükrünə ki,
Qəza sənə oraya getmək gücü vermişdir.
İstərəm mən ürəyi odlanmışın peyğamını
Sünnət kimi deyil, vacibat kimi çatdırasan.
Mənim könül qəmimi Bəqidə yatanlara deyəsən,
Mən xəstə tərəfindən üzünü Həsən dərgahına qoyasan.
O Əli vəliəhdinə ki, ehsan yolundan nitqi
Düşmənin zəhəri əvəzinə bal vermişdir.
Onun sevgisi ilə dolu olmayan könül can düşmənıdır,
Onun yolunda fəda olmayan baş bədənə yükdür.
Mələklər onun məzarını təvaf etməyi arzulayırlar
Ki, onun gizlidə və aşkarda olan faydasını kəsb etsinlər.
O tayfanın gəl-gedi üçün qəza hər tərəfdə
Fələyin damına ulduzlarla deşik açdı.
O deşiklərdən hündürdə olan qüds xəlvəti
Hər gecə məzarının şamı ilə işıqlanır.





Ey Zəhra mədəninin parlaq cəvahiri ki, səndən
Əvvəl o mədəndən bir cəvahir çıxmamışdır.
Sənin bütün istəklərin qəza hökmü kimi icra olunmalı,
Sənin bütün hökmlərin qəti əməllər kimi sarsılmazdır.
Məzarın gözəl işlər tarlasının xırmanıdır.
Sənin nurlu günbəzin hər yerə kölgə saldı,
Günəş təzim və təvazö üzündən oradan qalxdı.
Bəqi sənin məzarının feyzindən elə şərəf tapdı ki,
Ölən vaxt ora hər kəsin dəfn yeri olsa,
Behiştdən hurilər ipək paltarını tikmək üçün
Təbərrüklə onun kəfənindən sap istərlər.
Bəlaların qarşısında kərəmin yenilməz səddir,
Fitnələrin qarşısında hörmətin alınmaz qaladır.
Sənin pak bədənin qəbul ayələrinin mənzilidir,
Sənin gül kimi açılmış ürəyin ülvi gülşənin qönçəsidir.
Sənin razılıq yolunda gedən kəs bilməz ki, nədir,
Əməldə tövbə verən, tövbə eləyən və tövbə sındıran.
Dərgahının xidmətinə qabil olan, iş əsnasında,
Yer üzünün ən şərəflisi, zamanın ən gözəlidir.
Ey haqqın mədədi ilə, vilayət nailiyyətləri ilə
Boynunu əlaqələr zəncirlərindən azad etmiş.
Bəs ki, heç vaxt səndən bir günah baş verməmiş,
Bəs ki, təsəvvürünə xətalı bir fikir gəlməmiş,
Tövbənin sənin boynunda heç bir minnəti yoxdur,
Ulu Tanrının yardımı minnətindən başqa bir şey yoxdur.
Bir acıdil dedi ki, dünya işvəli bir qadındır,
Dünya acıqlanıb dedi ki, qadın adlandırmaqla mənə sataşma.
Kişi olan bir kəsin mənə təcavüz əli dəyməyib,
Kişinin əli dəyməyən bakirə nə üçün arvad olsun?
Ey əhram qurşağı bağlamış, hərəmin təvaf etməkdən
Üz döndərmə ki, gözəl yol budur.
Bu misilsiz ticarətdə sən, yəqin ki,
Xəzinə-xəzinə cəvahir fayda taparsan.
Yazıq Füzulinin fəqr qəmini yad et
Ki, qəm və möhnət əlində əsirdir.
Qəbul Misrinin Yusif kimi şahı olsan,
Gahdan qəm evində sakin olanı yad et.
Ümid var ki, niyaz əhlinə Kəbə evi
Günahların xəsarətindən sığınacaq olduqca,
Hərəmeyn həccindən iki dünyanın asayişini tapasan.
Həsəni təvaf etməklə mən də yaxşılıqla kamıma çatam.

***

Əhsən, hər bir vaxt zülfünün rayihəsilə zövqüm xoş olur, dimağım təzələnir,
Xəyalın könlümdən, sevgin başımdan heç bir zaman ayrı olmaya.
Vüsal zülalın Kövsər şərabı, kuyin hərimi-cənnət fəzası.
Hicrin bəlası – cəhənnəm əzabı, ayrılıq gecəsi – məhşər səhəri.
Sənsən gözəllərin rövnəqini sındıran, gül səni görcək xəcil olur,
Sən gülsən, lakin danışan gül, bütsən, lakin qoynu səmənli büt.
Hüsnün ətrafında min möminin bütpərəst olması əfsanə olubdur,
Eşqinin qılıncı ilə min kafir bütdən ülfətini kəsibdir.
Səndən sarı mən özümə biganə, sən isə məndən xəbərsiz,
Hicrindən öldüm, nə çarə edim?
Mən ilə ülfət sənə münasib deyil, sənsiz də məndə taqət qalmamış,
Qanla dolu gözümə, qəmli canıma rəhm etmədin, bizdən
İki xəndan dodağı, iki qıvrım saçı, iki fitnə gözü, iki bəzəkli yanağı gizlətdin.
Qayıdıb gəlməyin ümidi ilə intizarında
İki Əlimiz ürəkdə, iki ayağımız palçıqda, iki gözümüz yolda,
İki qulağımız qapıda qalmış.
Sənsən aşiqlərin könlünü çalan, hər vaxt dilrübalıq edir
Dür saçan dodağın, mirvari dişlərin, xuraman qəddin, müənbər xəttin.
Mənəm məlamət yolunu tutan, hüsnün dövründə dilə düşən,
Ağlar gözlə, üryan bədənlə, yanan canla, pərişan halla.
Al göz yaşı sürətlə axdığından sarı üzümdə yüz arx açmış,
Əhvalımı yazdığı üçün səhifəyə sətir çəkmiş.
Sənsən hər könülü ovlamaq, hər başa qəsd etmək, hər bədənə işgəncə vermək üçün
Vəfasızlıqla qəmzədən bir ox, işvədən qılınc, nazdan xəncər çəkibsən.
O üzün fikri ilə, o boyun yadı ilə, o xəttin qoxusu ilə
İztirabdan ürəyim oda, başım balışa, canım yastığa düşübdür.
Fəraq gecəsində könüldən çıxan ataş ulduzu yandırdı,
İndi onun qığılcımından ulduz əvəzinə göz bəzənmişdir.
Üzünün şamından canıma od düşüb şölə çəkdi,
Belə ki göz yaşım qəmin şiddətindən daşıb başımdan keçdi.
Göz yaşımın nəmi könlümün atəşindən daim əskilməsə
Və əgər yaşlı gözüm həmişə ürək atəşinə su tökməsə,
Göz yaşımın selindən yer üzü dağılar.
Ahımın ildırımından bir qorla yaşıl göy dağılar.
Qara saçlarının qaranlığından günüm gecədir,
Eşqinin dərdindən gücsüzəm, çarə edənim yoxdur.
Ümid edirəm, İmam işimin düyününü açsın.
Haqq olan İmam, mütləq vəli, "Quran" əmini, insanların seçilmişi,
Kişilərin əmiri, Xorasan şahı Əli Musa Rza Cəfər.



Şanlı bir insan ki, əgər zatının binası varlığın əsası olmasaydı,
Yeddi atanın dörd anaya yaxınlaşmaq üçün ülfəti olmazdı.
Vilayət şahı dinin əmanətini saxlamaq üçün ona tapşırmışdır,
Haqqın vilayəti şah Qənbərdən şəri irslə ona çatmışdır.
Elminin yolu yeddi dəryadan dörd qaynağa yol çəkmişdir,
Xülqünün nəsimi səkkiz gülşəndən yeddi ölkəyə ətir saçmışdır.
Ərəb yüksək nəsəbindən böyük həzz almış,
Əcəm türbəsini təvaf etməklə həcci-əkbərə nail olmuş.
Ulduzların şahına məhəbbət üzündən qələbə bayrağı verməsəydi,
Adətin xilafına olaraq, dünya ona qoşunsuz təslim olmazdı.
Ona qul olmaq şahlıqdan min qat üstündür,
Hər kəs onun qəbuluna çatsa, dərgahının kiçik nökəri olarsa,
Zillət torpağına düşməz, xaqan təxtini arzulamaz.
Zəlalət yolu ilə getməz, qeysər tacını başına qoymaz.
Möcüzələrindən qərib bir rəvayət yadımdadır, söyləyim,
Onu eşitməklə dil-damağın sevinib ətirlənər.
Belə eşitdim ki, günlərin birində Rza müridlərindən bir cavan
Çox yoxsul və pərişan halla dəniz kənarında oturmuşdu.
Birdən haqqın iradəsi onun üzünə səadət qapısı açdı,
Su adamlarından biri dənizdən çıxıb quruya gəldi.
Yoxsul cavan onu tutub ehtiyatla bərk-bərk bağladı,
Əsir su adamı əzabdan sızlayıb dedi: qardaş,
Məni bağlamaqdan sənə nə fayda var, burax dənizə gedim,
Dənizin təkindən sənə min cəvahir töhfə gətirim.
Cavab verdi, ola bilməz, məni aldatma, hara buraxıram?
Buraxsam, mahaldır, bir də yanıma gələsən.
Su əsiri Xorasan şahı adına and içib dedi:
Məndə yalan yoxdur, bu andımı qəbul elə.
Heyran qalıb ondan soruşdu: sən ki insan arasında olmamısan,
O şahı haradan tanıyırsan, ona sarı səni kim aparıb?
Dedi: necə ola bilər mən o şahənşahı tanımayım ki, qılıncı
Bu sahələrdə bizi əjdaha əfisinin ağzından xilas edib.
Bundan neçə zaman irəli bizim şəqavətimiz iqtizasınca
Bu yerlərdə iri, qorxunc bir ilan məskən saldı.
Hər vaxt burağan kimi dənizin kənarında dolaşır,
Bizdən istədiyicən ovlayıb, yeməyi bizdən idi.
Onun öldürücü qəmindən bizim fəryadımız göyə ucalırdı.
Əcəba, birdən qeybdən bir şah zahir oldu,
Əlində parlaq ildırım kimi bir qılınc, altında gurlayan bulud kimi bir at.
Cövlan edəndə onun heybətindən aslanların ürəyi titrəyirdi.
Bizim odumuza bir su tökdü, əfinin üzərinə qılınc çəkdi,

Qılıncının parıltısından tikana od düşən kimi əfinin canına od düşdü.
Bircə zərbə ilə ikiyə böləndü, ilahi, bu nə gücdür
Ki, bir işarə ilə bir cəmaəti şərdən qurtardı.
Onun feyzini gördükdə biz ayağının torpağını öpdük,
Soruşduq, sən haradansan, dedi: Heydər nəslindənəm.
Yeddincə nəqib, Xorasan şahı, aləm imamı Rzayi-Kazim
Ki, könül əhlinə ayağının torpağından Kövsər suyuna işıqlı yol var.
Onun işarəsi bizim boynumuza itaət boyunduruğu saldı,
Onun kəraməti bizim vilayəti bütün tutdu.
Vəsilə bu oldu ki, bizdə ayağının torpağına inam hasil oldu.
Bu inama görə bizim rütbəmizin göydən uca olması şayandır.
Mürid cavan bu hekayəti eşitcək bir-bir bəndini açdı,
Dedi: yanılmışam, onu sevəni incitmək olmaz.
Bəndi açıldıqda su əsiri dənizə düşüb bir zamandan sonra,
Min cəvahir çıxarıb: hər birinin dəyəri bir xəzinə qızıl,
İmam gərək belə olsun ki, onun möcüzündən hər kəs muradına çatsın,
Əsir azad olsun, yoxsul dərhal varlansın.
Ey səxavətinin sədası dənizi, qurunu tutmuş imam,
Aləmin intizamı, məscidin çırağı, minbərin rövnəqi sənsən.
Üzünün iki ayı gözəlliklə hər iki aləmə işıq saçmış,
Məqamının sarayının dörd həddi dörd dəftərdə təsbit olumuşdur.
Elm dəryandan rəhmət şərbəti hər zaman hər yana axmışdır,
Mərhəmət süfrənin neməti bütün dünyaya şamildir.
Hərçənd ki ay üzündə şərqin çırağısan, lakin deyim ki,
Heç vəchilə nurlu üzünü qərb əhlinə göstərmirsən.
Fələk Günəşi şərqdən qərbə ona görə gətirir ki,
Kim olur-olsun sənin üzünü o səhifədə görsün.
Şahım, Füzuli sənin qapını təvaf etmək arzusundadır,
Belə ki bu yolda quş kimi qanad çalmaq istər.
Ümidim var yol üzərində olan manеə örtüyü ortalıqdan qalxa,
Allahın lütfü ilə könülümün istəyi xoşluqla nəsibim ola.

***

Bəla bəzmində hər kim təvəkkül camını içdi,
Qəm, möhnət xumarlığının başağrısını az çəkdi.
Zəfər zövqünün nəşəsi bəla bəzmi badəsindədir,
Xoş o sərxoşun halına ki, bu badəni mərdanə başına çəkdi.
Yaxşı ad sorağında olan bəladan qorxmaz,
Xəzinə istəyən əjdahadan çəkinməməlidir.
Sevgi yolunda can nəqdini verməyi caiz bilən,



Şübhəsiz, mülk təzə gəlinini qoynuna alar.
Ucalıq məqamı buluda ona görə nəsib oldu ki,
İldırım şüası ilə dənizə və quruya qılınc çəkdi.
Dünən gecə sübhə kimi fələyin əynində zireh var idi,
Səhər açılan kimi başının qorxusundan qalxanı başına çəkdi.
Dara rütbəli, Firidun məqamlı, Cəm cəlallı şahın
Ölkəni almaq üçün çəkdiyi şəmşirdən çəkinirlər.
O ulduzu uca ki, gözünün qabağında cızıldı,
İşıqlı könül lövhəsinə çəkdiyi hər bir naxış.
O asiman rütbəli ki, ülvi qüdrəti ilə
İqbalının pəncəsi fələyin tacını başından aldı.
Cəm cəlallı, fələk hündürlü şah ki, qapısı torpağından
Qalxan hər bir toz yaşıl göyə baş vurdu.
Səltənət dəstgahı ilə aləmin sahibqıranıdır,
Ölkə almaq üçün hər yerə ki, o, qoşun çəkdi.
Atına göylər aydan gümüş nal vurdu.
Yükünü dəvə qatarı kimi Yeddi ulduz çəkmişdir.
İstəyinin naxış vuranı şahların tamaşası üçün
Kəsra hökmü büsatına Qeysərin şəklini çəkmiş.
Diyarı bəzəmək üçün razılıq nəqqaşının qələmi
Dara ölkəsinin təxtinə İskəndərin şəklini çəkdi.
Qələbə qartalı üfüqlər arasında olan ölkələri
Öldürülmüş ov kimi yemləmək üçün qanadı altına almış.
Nəyə rəğbət etdisə, ondan kam aldı,
Himməti nədən nifrət etdisə, ondan üz döndərdi.
Elə bir sərvər ki, mülkünün bəzmini parlatmaq üçün əzəldən
Saqiyi-Kövsər əlindən himmət camını içmişdir.
Vilayət gülüstanında qələbə çiçəklərinin açması üçün
Rütbəsinin fidanı Heydər bulağından su içmişdir.
Vuruş günü cövlan etdiyi meydanın burulğanı
Hünərini isbat üçün hər bir igidin gözünə mil çəkmiş.
O mələk simalı şahın ruzgar əhlinin üzərinə açdığı
Ehsan süfrəsi bəşərin qüdrətindən kənardır.
Kərəm göstərən vaxt onun ehsan xırmanından
Qarışqa yuvasına arpa yerinə cəvahir daşıyar.
Bəxşişindən fələk yerin zəifliyini yad edib
Ağırlıqdan, yükü salmasın deyə, qənbər çəkdi.
Məqsədinə çatmaq üçün dövrandan məđəd istəməz,
Padşah nə üçün gərək nökərindən minnət çəksin?
Könlümün təmənnası nə üçün gərək tabeinin nazını çəksin?
Ey fələk qüdrətli, mələk rütbəli ki, himmət əlin

Hər bir sərvərin əzəməti üzərinə əlçatmaz pərdə çəkmiş.
Qılıncının vahiməsi qafil olmaq rəsmini aləmdən götürdü,
Hər bir ölkənin cigərlilərinin qulağından pambığı çıxartdı.
Azğınların qəflət yuxusundan oyanması üçün ruzgar
Sənin şəmşirinin naxışını yastığın üzərinə çəkdi.
Sənin iqbalın o qədər ki, bulud kimi qoşunu
Gah şərqə, gah qərbə çəkdi.
Qoşununun izlərindən yer üzünün səhifəsinə
Zəfər xəttini yazmaq üçün sətir çəkmişdir.
Külək sənin qüdrət dərgahından dənizə bir toz apardı,
Dərya o tozu yaşlı gözünə sürmə elədi.
Gərdunda əzəmətli əxlaqından mələk bir söz dedi,
Şövqünün dağını Bərcisin, Ayın və Günəşin könlünə çəkdi.
Şahlıq təxtü tacı üzərində sənin adına yazmış,
Çünki əzəldən ulu Tanrı bu rütbəni sənin adına yazmış.
Sərvərim, aləmdə qapın xalqın niyaz yeridir,
Bu səbəbdən bəxt Füzulinin bu qapıya çəkib gətirdi.
Ümidim var ki, sənin hökmlərini yerinə yetirsin
O kimsə ki, gözəllərin üzünə ənbərdən bir xətt çəkdi.

***

Könlümün üzü yenə Kərbəlaya sarıdır,
Xəstənin rəğbəti şəfa ocağınadır.
Kərbəla çölünün yolunun tozu
Ali-Əbanın məzlumluğundan xəbər verir.
Bu səbəbdən nəzər əhlinin gözündən
Tutiyadan daha çox yaş axıdır.
Şəhid şahın susuz dodağının zikri
Bizim xəstə ürəyimizə şəfa verən şərbətdir.
O kimsə ki əlsiz-ayaqsız xəstə üçün də
Onun qapısını təvaf etmək niyyəti də dərmandır.
O kimsə ki Kərbəla hadisəsindən sonra da
Onun qələbəsini arzu etmək də yanında olub vuruşmaq kimidir.
Fatimənin şərəfli övladının şərəflisi,
Əliyyi-Murtəza övladının ağası.
Onun ali sarayının çinli hərrəsi,
Zalım düşmənin xurma ağacını kəsən mişardır.
Əli oğlu Hüseynin dərgahına
Üz qoyan əcr almaq ümidindədir.
Niyyətim budur ki, təvaf etdiyimə görə
Əməlimin cəzası behişt olmalıdır.



Əlbəttə, xəcalət çəkər əgər bir adam
Ondan soruşsa ki, başqa behişt haradır.
Hər bir ibadətdə insanın qərəzi.
Allaha yaxın olmaq şərəfinə nail olmaqdır.
Hər kəs o şahın qapısını təvaf etdi,
Bu müddəanı qəti bildiyinə görə
Ürəyimdə belə bir qayğı oyanır ki,
Başqa ibadətin nə üçün qayğısını çəkir.
Ey qəzavü qədərin sənin razılığınla olan,
Və ey bütün işləri təqdir ilə uyuşan.
Könlün şəhid olmağına razılıq vermişdi,
Düşmənin qələbəsi o razılığın təsiri idi.
Yoxsa azğın düşmən haradan
Mustəfa övladı ilə vuruşa tab gətirərdi?
Düşmən fəsadın zühuru üzündən,
Hərçənd ki özünü təsbit etmək üçün Allahı dandı.
Sənin möcüzünə bu yetər ki, indi ondan
İz qalmamış, fəna örtüyünə bürünmüşdür.
Sənin əlamətlərinin izləri
Əbədi olaraq varlığın əlindədir.
Haqqın bütün məzhəblərində hamılıqla
Sənin qatilin Allahın lənətinə layiqdir.
Dünyada çox sınadıq,
Heç bir ürək bəladan uzaq deyil,
Sənin üçün könül evi əzab-əziyyət,
Qəmlə dolu matəm daxmasından başqa bir şey deyil.
Hamının ağlayan gözünün bəbəyi
Sənin üçün əza saxlayıb qara geymiş.
Hamının göz bəbəyi matəmə bürünmüş,
Xalqın gözü başdan-başa yas saxlayır.
Dost səndən niyə gərək ümidsiz olsun,
Düşmənin də istəyi lütfünə şamil olur.
Füzulinin sənə işi düşübdür,
Onun çarəsini et, çox binəvadır.

***

Üzünün şamının havası canıma od saldı,
Gizli yanğımın hekayəsini dillərə saldı.
Şəkər dodağından tamahımı kəsmişdim, lakin
Sənin təbəssümün məni yenə də gümana saldı.
Qəza, ehtimal ki, həsəd üzündən mən ilə sənin

Bir yerdə olmağımızı istəmədi ki, hicranla ayırdı.
Sənin vüsalını istədiyim vaxt fələk
Min bəla tikanını mən yazığın yoluna atdı.
Ah oxu atmaq üçün kaman kimi olmuş qəddimi
Çərx sındırıb gözəllərin yolu üstə atdı.
Əgər o oxdan xəsarət görmək gümanı yox idi,
Onda nə üçün zorla bu yayı sındırdı?
Məndən bir iz qalmadı, çərx hər an
Bu nişanəsiz torpağa min ox atdı.
Mənim bədənim səma kimi oxla dolmuş,
O oxlarla ki hadisələrlə səma atdı.
Mənim gözümdə zəmanənin heç bir qədri qalmadı.
Onun üçün inayət gözünü məndən çəkdi.
Ey zalim fələk, bundan sonra mənə sarı
Zülm və ihanət oxu atmaq olmaz.
Ona görə ki mənim başıma xeyirli kölgəsini
Zamanın sərvəri ədalətli bayrağını saldı.
Afərin səma əzəmətli o cənaba ki, hökm meydanına
Şəninin yüksəkliyini hərtərəfli saldı.
Onun şəfəqqətinin xalqa yardım vədi var,
Onun rəhmli olması ölkəyə əmin-amanlıq işığı saldı.
Zəmanənin əlində zülm qılıncı və cövr xəncəri var idi,
Onun səlamətini görcək tez əlindən saldı.
Qəza dünya şadlıq evinin nəqşəsini çəkəndə
Əsasını onun vüqar dağının daşından saldı.
Cəfər bəyin gülşəninin baharının cahü cəlalı
Ki, onun ədaləti dünyaya cənnət rövnəqi vermiş.
Ey rütbəsi yüksək olan, o sənsən ki, cahan xəzinədarı
Sənin yolunun torpağına dənizin, qurunun məhsulunu tökmüş.
Ümuma şamil olan lütfünün nemətí maaş üçün
Bütün yoxsulların qarşısına süfrə açmış.
Sənin cəlalının düşməninin xanimanına
Həsədin yaxıcı ildırımı çaxan vaxtı od saldı.
Füzuli ixlas üzündən harada ki bir an,
Sənin tərif incini söz meydanına saldı.

***

Gül gəldi, yenə gülşəndə cənnət lətafəti var,
Yer tər otdan səma rəngi almışdır.
Axar su çəməndə əyri-üyrü bir yol salmış,



Çəmənlə su səma ilə kəhkəşana bənzəyir.
Lalənin yarpağından bir löhzə qətrə-qətrə şeh damır,
Gülüzlü məhbublar kimi lalənin dür saçan ləli var.
Su güzgü kimi qönçənin əksini fidandan almış,
Gülbədənli gözəllər kimi suyun dilbər şəkli var.
Bilmirəm səba hər an gülün qulağına nə deyir,
Görünür, yazıq bülbüldən peyğamı var.
Səba bülbülün peyğamını gülə çatdırır, lakin
Faydası yoxdur, gülün qulağın şehin cəvahiri ağırlaşdırıb.
Bülbül gülə öz niyazını deyir, bilmirəm
Ki, məzacı incələrə könül dərdini söyləməyə dili var.
Gözəllik istintaqı gülü özündən çıxarmış,
Haradan bilir ki, bülbülün dadü fəryadı nə üçündür?
Gülün qüruruna bax, bülbülün sirrini yaxşı bilir,
Bilir ki, pislik etməyənin ömrü əbədi olar.
Hava qönçədən fidanın qoluna bir tilsim bağladı
Ki, o tilsim onu hər bəladan qorusun.
Baharın guya təşrif gətirməsi xəbəri gəldi ki, qönçədən,
Xoş gəldin demək üçün fidan yüz ağız açdı.
Bağın içində gecələr suyun axması yersiz deyil,
Gülün gözəllik mətaini qorumaq üçün keşik çəkir.
Gülşənə sarı belə getmə, qənimət bil ki,
Könlün hər bir cəvahiri istəsə, bu karvanın var.
Buludun avazından qafil olma, sözə qulaq as,
Qafillər üçün dilində nəsihət sözü var.
Çəməndə fidan güldən başına qalxan çəkdi,
Elə bildi ki, göy qurşağının yayında bir ox var.
Suyun səsi hər ləhzə haray çəkib quşlara deyir:
"Bismillah, hər kəsin gülüstan meyli var, gəlsin".
Firidun, ya Cəmşidin aləmdə cürbəcür bəzəklərdən,
Şad olan könülləri indi bağvanda var.
Fələk gizli saxladığı lütfü qönçə kimi aşkara çıxartdı,
Gizləməkdən usandı, haçanadək gizləsin?
Mülkü bəzəməkdə və aləmi parlatmaqda gül fəslinin, mütləqa,
İş bilən əmirinin gözəl tədbirinin xasiyyətləri var.
Afərin o rəyi mübarək, səma rütbəli, mələk şanlıya
Ki, hər bir ucadan şanı yüksəkdir.
Əsrin yeganəsi, misilsiz Cəfər bəy ki, xilqətdə
Zamanın bütün fərdlərindən şərəfi ucadır.
Calalı himmətinin ucalığından istəsə torpağı
Burulğan kimi fələyin başına qaldırar.

Daş astanasında qalmaqla cəvahir olar,
Mədənin hər bir feyzini astanasında tapmaq olar.
Ədalətdəndir ki, Süleymanın abad mülkündə
Cəlalının istiqlalı ilə Ənuşirəvan təxti var.
Sədaqətdəndir ki, iqbalının ovlayan minqarı,
Övliya bürcünün qartalları kimi yuva birləri var.
Ey ədalətli, fikri parlaq, saf qəlbli sərdar
Ki, sifətlərinin dənizinin ölçülməz dalğaları var.
Zəmanə sənin vəsfini söyləməyə dodağını açmır,
Yəni məşhur olan bir mətləbi söyləməyə lüzum yoxdur.
Dünyada olan bütün xalqdan tərif sənə layiqdir çünki,
Dünyada hər kəsin hər bir fəziləti varsa, o səndə var.
Biliyi olan hər kəs bilir ki, sən
İncə ağılda hər bir incə ağıllıdan üstünsən.
Mələk insan surətində olmur, lakin hər kəs,
Yəqin ki, sənin şənində bu gümandadır.
Allah şahiddir ki, Füzuli səndən uzaq olan müddətdə
Elmdən, bilikdən məhrum, cismü canı məlala düçar olmuşdur.
Get-gəl etmədən həmişə bir yerdə sakindir, lakin
Ayağının torpağı yadı ilə daim göz yaşı axıdır.
Çarə aramaq üçün nə bir həmdərd tapır,
Nə də sirrini söyləmək üçün mehriban həmdəmi var.
Nə yoxsullar silkində özünə yer tapa bilir,
Nə də məqam və rütbə sahibləri yanında yeri var.
Yoxsulluq içində gah Ruma getmək əzmində olur,
Gah da ehtiyacdan Hindistana yola düşmək xəyalında olur.
Özünün yaxşılaşması yolunu itirib, indi bilmir
Ki, öz balına necə çatsın, özünü necə dolandırsın.
Bu qədər qəm-kədərlə necə xatiri şad olsun
Ki, sənin məhəbbət naxışın can səhifəsindədir.
Bu iqbalın yardımı ilə yüz dərdə dərman olur,
Çünki gahdan o astananın torpağını öpməyə əl tapır.
İlahi, güldən, nəsrindən, sünbüldən iz qaldıqca,
İlahi, dünyada baharın adı-sanı durduqca,
Dünyanın sevinc bəxş edən gülzarını çəmən bəzədikcə,
Dövlətinin baharı xəzan vahiməsindən iraq ola.

***

Ey Kərbəla möhnətsərası sakini, səlam!
Ey Kərbəla möhtacı və giriftarı, səlam!



Ey Kərbəlanın hər bəlasına dözən, səlam!
Ey Kərbəlanın hər bəlasına düçar olan, səlam!
Ey Kərbəlanın tikanı sənə cəfa qılıncı olan, səlam!
Ey Kərbəlanın cəfa tiği ilə öldürülmüş, səlam!
Ey daimi göz yaşı və ürək ahına düçar olan, səlam!
Ey Kərbəlanın abü havasının xəstəsi, səlam!
Ey qəm gülzarının açılmayan qönçəsi, səlam!
Qəmdən Kərbəla zindanında ürəyi sıxıntıda qalmış,
Səlam, ey Kərbəlada yer edib öz feyzi ilə
Məhəbbət əhlinin könlündə Kərbəlaya yer etmiş.
Səlam, ey hər diyarın dirilərinin türbən yanındakı
Ölülərin halına həsəd apardıqları Kərbəla!
Ey Kərbəla şəhidi, sənin türbəni təvaf etmək üçün
Kərbəlanın qəm artıran fəzasını seyr etməyə rəğbət etdim.
Sənin qəm-qüssəni yad etdim, qəm-qüssədən
Kərbəlanın fəzası ürəyimdə dar göründü.
Kərbəlada qəza gözümün bəbəyindən qan axıtdı,
Deyəsən, əzəldən Kərbəlanın istəyi belədir.
Kərbəlada hər kəs gözündən ürək qanı axıtmasa,
Kərbəla macərasından, deməli, agah olmamışdır.
Fələk Kərbəla torpağını sənin qanınla yoğurdu,
O palçıqdan Kərbəla üçün niyaz istənildi.
Yeri vardır ki, əgər iyləsələr, qan iyi gəlsin
Dünya durduqca Kərbəla binasından.
Sərvərim, qana bulaşmış dodaqlarını yad etməklə,
İşim Kərbəla göyərtisi kim qan udmaqdır.
Mənə bu yetər ki, ölsəm, son mənzilim
Kərbəlanın ruh verən, könül açan pak torpağı olsun.
Kərbəla sənin ehsan süfrəndir, fələk hər an
Bütün aləmə Kərbəla sədasını yetirir.
Gələn hər bir kəs öz səyi və istedadına görə
Kərbəla ehsanı dənizindən pay alır.
Əlimizdə olan təsbeh deyil, bəlkə,
Kərbəlanın dəyəri bəlli olmayan incilərindən neçə danədir.
Ey Kərbəla şəhidi, inayətini məndən azaltma,
Çünki sən Kərbəla şahısan, mən isə Kərbəla dilənçisi.
Ürəyimdə bir dərdim var, günaha batmaq qorxusundan
Kərbəla şəfa ocağından bir şərbət istəyirəm.
Müddətdir ki, Füzulinin məkanı Kərbəladır,
Kərbəladan başqa onun başqa yerə meyli yoxdur.
Ümid edirəm əbədi olaraq heç vaxt

Arzular Kəbəsi olan Kərbəladan üz döndərməyəm.
Səyi-Mərvə kimi Allahın lütfü əcrlər verər
Bizim səfalı Kərbəla torpağındakı səyimizə.

***

Vəfasız dünyanın dərdini çəkən bizlərik,
Dərdə adət edib, dərmana möhtac deyilik.
Heç vaxt ürəyimizin dərdini söyləməmişik,
Şəfa nüsxəsini harada gördük pozduq.
Zəmanənin adamlarından əsla vəfa görmədik,
Vəfa arzusu ilə özümüzə yüz cəfa etdik.
Bütün aləmdən başqa yer deyil, tənhalığı seçmişəm,
Bu tənhalıqla özümlə də aşina olmamışam.
Biz o firqəyik ki, çərxin mədarı daim
Aramızda təfriqə salmışdır.
Kirpiyimizdən hər an hər yana sel axıdırıq, lakin
Məcranı ifşa etməkdə ağzımız şam kimi qapalıdır.
Biz o pərişan dəstəyik ki, hübab kimi
Heç yerdə toplanmamız baş tutmamışdır.
Harada ki bir arzu evi tikdik,
Hadisələr burulğanı onu bada verdi.
Fələyin dövründən məhəbbət rəsmi umduq, lakin
O güzgüdə istəyimizin tərsindən başqa bir şey görmədik.
Bu çevrədə pərgar kimi çox qaçdıq,
Məqamımızın yüksəkliyi üçün ayağımızı baş elədik.
Lakin yolumuzun sonunda yenə də
Əvvəldə olduğumuz məqama gəlib çatdıq.
Bizik ki yağışın damcısı kimi torpaqdan
Bir ömür kəsb havanın ardınca getmişik.
Əvvəl ülvi aləmin seyrinə üz tutmuşuq,
Axırda öz alçaq təbiətimizin ardınca getmişik.
Bizik vücud güzgüsündən təsvir kimi,
Özündən xəbəri olmayan tərs düşmüş insan surəti kimi,
Nə fəsaddan agahıq, nə də varlığın halını bilirik.
Nə fəna qəmini çəkirik, nə də yaşamaq qayğısına qalırıq.
Baqi qalmaq keyfiyyəti ulu tanrıya məxsusdur,
Bizim varlığımız belə bir rütbəyə ucala bilməz.
Yaranmışlarda fənaya uğrayan vücuddur,
Bizdə hanı o vücud ki, fənaya qabil olsun?
O mən deyiləm ki, məndən xalqın qulağına çatır,



Hər nəfəsdə min şənlik artıran səs.
Lakin elə deyiləm ki, dərdin məzaqını tanıyam,
Məndə də o səsin zövqünün arzusu var.
Küfr üzündən mənasız surət mənim üçün həmişə
Riya bütxanəsinin bəzəyi kimi olmuşdur.
Xalq məni məzəmmət edir, mən əhvalımı bilmirəm,
Könlümün əda etmək yolunu heyranlıq bağlamışdır.
Xalqın tənəsi tədbiri, nəhayət, öz işini gördü,
İndi məni bu günə salmışdır.
Öz varlıq libasımı oda yaxdım, lakin hələ də
Ətəyim fələyin əsarət əlindən qurtarmayıb.
Dövranın əlindən işimə ipək sapı kimi
Yüz düyün düşmüş, açarım yoxdur.
Lakin ümid var ki, səhərin fəcri kimi
Bu düyünü Murtəza məhəbbəti əsəri açsın.
Bir şah ki, onun adını çəkməyincə
Qönçə düyününü açmaq səba yelinə müyəssər olmaz.
Bir şah ki, onun iradəsi olmasa, müşkül ki,
Fələk qara örtüyünü səhərin üzündən çəksin.
Bir şah ki, onun kərəm fidanı fəqr əhlinə
Hər an hər yarpaqdan yüz pay bağışlamış.
Baxışı daşa cəvahir qiyməti bağışlamış,
Kərəmi yoxsulluğa dövlət paltarı geydirmiş.
Vilayət təxtinin şahənşahı, haqqın vəlisi,
Din sultanı, tanınmış imam, övliya şahı.
Nəbi şəriətini küfr yolundan təmizləyən əsl,
Peyğəmbərimizin ənbiyaya üstünlüyünü göstərən əsas.
Onun pak zatı Kəbə sədəfini inci ilə doldurmuş,
Onun torpağının feyzi yeri göydən şərəfli etmiş.
Mustəfanın mübarək merac gecəsinin şərhi,
Ümumi kəramətinin nüsxəsindən bir siyahədir.
Kərbəla səhrasının qanla yoğrulmuş torpağı
Ataş kimi yanan laləzarının bağçasıdır.
Onun məzarının ziyarəti istəyi sayəsində Nəcəfin qumları
Xalqın gözündə səmasından bir toplunun başına
Bir zərrə məhəbbət günəşindən işıq saçsa,
Misal üçün hüma kölgəsi ona hayil olsa,
Bəxtsizlik nişanəsi olar.
Onun Kəbəsinin dərgahı hacət qapısıdır,
Orada hacəti söyləməyə ehtiyac yoxdur.
Ey dərgahı xalqın ehtiyacını ödəyən,

Və ey qapısından hamının ehtiyacı alınan,
Qeyb örtüyündə gizlənmiş hər bir hikmətin
Rəyinlə üzündən gizlənmə örtüsünü götürdün.
Bir hadisənin baş verməsi üçün əgər
Qəza könlündə min ildən bəri qəsd düyünlənmişsə,
Sənin parlaq rəyin ona razılıq verməsə,
Mümkün deyil ki, baş tuta bilsin.
Adəm ki, yaranışında ondan haqqın əmrinə və
İtaətinə tabe olmaqdan başqa bir şey istənilmirdi,
İşin əvvəlində sənin kimi bir imamı yox idi,
Ona görə itaəti xəta şübhəsindən xali deyildi.
İndi sənin arxanda bir ömürdür ki, Nəcəfdə
Hədərə verdiyi itaətlərinin qəzasını qılır.
Sənin qılıncın elə bir seyqəldir ki, hər vaxt
Şəriət aynasının çirk pasını silmişdir.
Sənin hökmünə baş əymək dinə tabe olmaqdır,
Sənin fərmanından boyun qaçırmaq küfrə yuvarlanmaqdır.
Hər kəsin dünya və aqibət işlərinə
Azca meyli olsa, həqiqətdə gədadır.
İki dünyada səndə olan gözütoxluqdan
Məlum oldu ki, səndən başqa padşah yoxdur.
Bir qoşunun önündə sənin kimi bir çıraq olduqda,
Əlbəttə, qələbə kölgə kimi ardınca gələr.
Hər bayrağın altında sənin kimi pak nur olsa,
Günəşə və Aya bayrağın kölgəsini salar.
Kimdən qorxusu olar o adamın ki, könlünə
Sənin məhəbbətinin davamlı ipinin ucu bağlana.
Ya Murtəza, bizim səndən başqa pənahımız yoxdur,
Harada olsaq, ümidimiz və pənahımız sənsən.
Səndən başqasına əsla etibar etmərik,
Heç vaxt səndən başqasına pənah aparmarıq.
Sənə olan sevgimizə arxalanıb mükafat umuruq.
O gün ki Allah yaxşı əmələ cəza verəcək.
Yüz ümidlə öz əməlimizə söykənirik,
Çünki sənin astanan daşı bizə mütəkkədir.
Biz üzümüzü sənin dərgahının qızıl məcərinə, sanki
Saman kimi kəhrəba dərgahının torpağına qoyduq,
O torpağı dəyərləndirib qızıla tutduq.
Hərçənd ki cavanlığımızı qulluğunda keçirdik,
Bu qədər qulluqla kifayətlənməyimiz yetərli deyil.
Yaxşısı budur ki, qocalığımızda əyilmiş qəddimizi,



Sınıq sümüyümüzü həsir kimi dərgahına salaq.
Sakin olmaq niyyəti ilə dərgahına
Əyilmiş qamətimizlə başqa bir tağ gətiririk.
Ya Murtəza, biçarə Füzuli yalqızdır,
Yar-yoldaşından əlaqəsini kəsmişdir.
O düz yolla gedən müxtəlif kütlə arasında,
Üstüva xətti kimi heç kəsə mayil deyil.
Lütfünü onun halına şamil etmək çağıdır,
O dərdməndi bu bəladan qurtarasan.
O səni mədh edən şəkər yeyən tutidir,
O hara, qarqa-quzğunla müsahib olmaq hara?
O, qüds çəməninin, qüds bağının bülbülüdür,
O hara, belə bir qara türkün əsarəti hara.
Neçə məkrli ipi sehr üzündən firon,
Haçanadək onun gözündə əjdaha edəcək?
Yədi-beyzanı qoltuğundan çıxarmaq çağıdır,
Sehr edənlərin mərəkəsinə əsanı atasan.
Musa möcüzünə rəğbət etmirlər,
Bu həyasız qövm buzova tapınırlar.
Kafirləri darmadağın etmək qərarına gəlmək vaxtıdır,
Qılıncı siyirib hərb etmək niyyətində olasan.
Din yolunda səndə olan adət üzrə.
Gözəl səyinlə haqqı nahaqdan ayırasan.
Onda ürəyimcə fəsahətin gözəllik bağında,
Tuti təbim söz qoşar.
O günü görməyim ki, təvəqqe üzündən
Ali-Əlidən başqasına mədh söyləyim.
Ömrümdə Əli və onun övladından başqasına
Hər bir mədh yazmışamsa, İlahi, tövbə edirəm.
Fələk möhnət və qəm cəvahirinin xəzinəsidir,
O xəzinənin açarı məhərrəmin hilalıdır.
Qürrəli məhərrəm ayında şənlik axtarma,
Çünki bu şəhrin (ayın) şadlıq və sevinc malı azdır.
Bəlaya təslim olmaq hər adamın hünəri deyil,
Bu davranış Peyğəmbər əhli-beytinə məxsusdur.
Ali-Rəsula azar verməyə səhl baxma, bu fəsad
Fələyin insana tənəsinin əsas məqsədidir.
Ey cövr rəftarlı fələk, elə bir şahın düşməni oldun ki,
Onun dostluğundan sənin binan möhkəmdir.
Ey fələk, Nəbi övladının aradan getməsi asan iş deyil,
O, Allahın hökmü misalına üzük qaşının naxışıdır.

Aləmin ətəyinin qəm əlində qalması yersiz deyil,
Nəbi Əhli-Beytinin əziyyət çəkməsi aləmin işidir.
Əgər aləmin islama məhəbbəti olsaydı,
Əhli-Beyt ətəyini heç vəchlə buraxmazdı.
O gün ki çərx bəla binasının tərhini tökdü,
Bəla daşını Kərbəla şahının yoluna atdı.
Dövranın Zəhra ürəyindən başqa nişanəsi yox idi,
Hər bəla oxu ki qəza yayından buraxıldı,
Ruzgar hər bir cəfa odu alışdırdıqda
Şam kimi Ali-əba ürəyinə tuşladı.
Nə yazıq ki, şəriətin dünyaya nur saçan günəşini
Çərxi-fələk kölgə kimi fəna torpağına saldı.
Bir sərv ki kölgəsi islamın pənahı idi,
Müxalif havanın tərsliyindən yerə sərildi.
Ey burlağan, fələyin başına torpaq ələ,
Ey bulud, Ayın, Günəşin işığını söndür.
Bu əzada mindən çox göz dür saçır,
Hüseyn üçün ağlayan bizim gözümüzdür.
Kərbəla torpağına baxmaqla bizim gözümüzdən
Hər baxışda tutiyanın tökdüyündən çox yaş axır.
Dirilik bulağından gözün çəkdiyi su
Kərbəla çölünün susuzları üçündür.
O göz torpaq altında çürüyüb dağılmasın ki,
Mustafa övladının qəmində yaş axıdır.
Günəş Şahi-Şəhidə yardım etmədi,
Qüssədən öz qılıncını daşa çalsan rəvadır.
Şam əhlinin dəf olunmasında Əhli-Beytə yar olmadı,
Sübhün Ali-Nəbi məhəbbətindən dəm vurması yalandır.
Hüseynin matəmi yalnız bu dünyada deyil,
Bundan artıq matəm və müsibət o dünyadadır.
Bu gün Nəbinin pak ruhu onun matəmini saxlayır,
Behiştin qəsri onun matəm sarayıdır.
Bu gün Peyğəmbər övladının matəm günüdür,
Bu gün Heydər övladının öldürülən günüdür.
Yüz bəla və möhnət çiçəyinin açdığı gündür,
Zəhrayi-əzhər üzünün cızıldığı gündür.
Peyğəmbər bağının yarpaqtökən günləridir,
Pak şəriətin gülşəninin xəzan mövsimidir.
Bu gün şəhidlər şahının Kərbəlada əhvalı,
Ruzgarın cövründən pərişan və solğundur.
Gah düşmən qoşununun müharibə qəmində,



Gah da arvad-uşaq və bacının qeydində.
Gah cigərinin parası hicrində ürəyi qan olmuş,
Gah da qardaş qanı ilə saçını qızartmışdır.
Ey qan saçan gözüm, onun üçün ağlayıram,
Qardaşlıq məqamıdır, mənə yardım et.
Ey gözüm, Kərbəla vaqiəsi günü gəlib çatdı,
Dərd əhlinə bəla nazil olmaq vaxtı çatdı.
Aləm könül ahının tüstüsündən qara geyindi,
Yəni ağla ki, əza günü gəlib çatdı.
Ey könül, ahını fələyin qulağına çatdır,
O zülm ki Yeziddən Ali-əbaya yetdi.
Şəhidlər şahının qəmindən yenə də göz yaşımız
Yer üzünü tutub səma səthinə çatdı.
Kərbəla səhrasının susuzlarının yadı ilə
Göz yaşımızın nəmi balığın olduğu yerə çatdı.
Küfr əhlinin cövründən nalələr etdik,
Belə ki səsimiz göydə Məsihaya çatdı.
Yerin badəsi qəm-qüssə zəhri ilə doldu,
Hamının könül şüşəsinə cəfa daşı dəydi.
Az adam olar ki, bu əhvala az ağlasın,
Allahın rəhmətini fövt etməklə özünə zülm etsin.
Qəm Kərbəla şənində gəlmiş bir ayətdir,
Kərbəla eyvanının qaməti qəmdən ikiqatdır.
Kərbəla səhrası qumları xəttinin məzmunu
Əhli-Beytin susuzluğunu bəyan etməkdən başqa bir şey deyil.
Ey könül, göz yaşı ilə Kərbəlaya sarı get,
Kərbəla sakinlərinin əhvalını sor.
Haşimi süvariləri hara getdilər,
Kərbəla meydanı sahəsi nə üçün boşdur?
Səhradan Hüseynin çadırını kim yığdı,
Kərbəla sultanının ordusu haçan köçdü?
Fərat suyu əsla hayan durmadı,
O gün ki Kərbəlanın yaxasını qəm ələ keçirdi.
O günahın üzründəndir ki, daim
Kərbəla ətəyinə niyaz kefi vurur.
Hər vaxt istədim Kərbəlanı vəsf edəm,
Ağlamaq onun bir cüzvünü əda etməyə qoymadı.
Ey könül, Ali-Əlinin məhəbbətilə güvən,
Hər vaxt Yezidə lənəti şüar elə.
Mənim işim ixtiyarsız olaraq Yezidə lənət deməkdir,
Sən də bütün işlərdən bunu özünə peşə et.

Şümrə, Ənəsə, Şeysə müxalifət oxu vur,
Bədbəxt Übeydin pis gününü istə.
Düşmənə lənət oxumağın vacib olması sözsüzdür,
Kimsədən gizlənmə, onu aşkar et.
Ey müddəi, Murtəza yolunun xilafına getmə,
Zülfüqar şahının qılıncından həzər et.
Ya rəbb, xəstə Füzulini Ali-əba mədhində
Daim etibar dairəsinin qütbü et.
Ya rəbb, Ali-Əlinin bəqasını davam etdir,
Ali-Əlinin bədxahını zəlil et.

***

Bağdad yeddi ölkə toplusunun bəzəyidir,
Çünki yeddi sərvərin şahlıq taxtidir.
Qəsrinin sahəsi yeddi şamla işıqlanmışdır,
Pak türbəsi yeddi gülüstanla ətirlənmişdir.
Yeddi gülün gülzarı yeddi cəvahirin sədəfidir,
Yeddi mədənin məkanı, yeddi ulduzun səmasıdır,
Yəni yeddi pak imamın yeridir.
Birinci, o şah ki fələyin atı ona ram olmuş,
Onun səyinin şərəfi ilə din güclənmişdir.
Fələyin qəddi ona hörmət üçün ikiqat olmuş,
Məqamının yüksəkliyi aləmə bəllidir.
Onun adı Ələm, Əliyyi-Aliyi-Əladır,
Keyvan onun qulamının qulamıdır.
Cövlangahı sayir səyyarədən üstündür.
İkinci qütb Hüseyni-Əli, şahi-Kərbəladır,
O düz yol gedən ki, hər bəlaya dözdü.
Bəla ona qulluq etmək kəmərini bağlayınca
Onun qəbul etməsilə hər yerdə etibar qazandı.
Qəzavü qədərdən bəla ona qismət olduqda
Bəlaya təslim olmaq səadəti sayəsində
Dərgahının alçaq qulamı Sədi-Əkbərdir.
Üçüncü ay elə bir şahdır ki, dərgahına səcdə etmək
Min bəhrənin əldə edilməsi sərmayəsidir.
Musiyi-Kazım, o din şahı ki öz kəmalı ilə
Xalqın üzünə daim lütf qapısı açırdı.
Əsla qəhr etməyi yox idi, qəhrə lüzum yox idi.
O ki varlıq məbdəindən şərri uzaq etmək üçün
Mərrix niyabətində qılınc vurandır.
Dördüncüsü, Məhəmməd Təqi, o din başçısı ki,



Doğru adamların düzgün yolunun rəhbəridir.
Onun yolunda fələklər üz yerə sürtmüş
Hər səhər dördüncü göydən könül sevgisi ilə.
Günəş alnını onun dərgahına sürtür,
Onun işi budur, bundan başqa bir səbəb yoxdur ki,
Hökuməti batıdan doğuya qədərdir.
Beşinci məsum Əli hadidir ki, əzəldən
"Ləm-yəzəl" iqbal ayəsi onun şənindədir.
Zatı hər zəlalət və zillətdən pakdır.
Zəhranın o ən yaxşı nəvəsi ki, misal üçün
Əgər Zöhrəyə xətayi-ləhvdən nöqsan çatsa,
Bu şərəf rütbəsi var ki, Zöhrəyə əvəz,
Dərgahının ən alçaq kənizi yetər.
İzzət və cəlal şəbistanı çırağı olan altıncı şam,
Mələk heşmətli, ərş məqamlı şahənşah,
Sədaqət sahiblərinin həqiqətlərə yol göstərəni,
Böyükdən kiçiyədək Allahın mərhəmətinə vasitə olan,
Zəmanə iftixarı, Əskəri, o dinpənah şah
Ki, rütbəsi Günəşin səhifəsi və Ayın lövhəsinə
Ütarid qələmi ilə vəsfləri yazılmışdır.
Yeddincisi izzət və ehtiram bağının gülü
Ki, dövranın dairəsi onun üçün qiyam etmişdir.
İmamların sonuncusu, fələyin qütbü, xalqın qibləsi,
Din sultanı Məhəmməd Mehdi ki, böyük-kiçik
Səhər-axşam onu görmək intizarındadır.
Ayın dövrü onu görməklə başa çatar,
Onun sübhü məhşər gününün səhəridir.
Həqiqətdə bu yeddi sərvərin yümnündən,
Bağdadla Hicaz arasında fərq qalmayıb.
Bağdadlıların fitnədən qorxusu yoxdur,
Bəlanı dəf etmək üçün yeddi çarə edəni var.
Bu yeddi arxa ilə yeddi ölkədən ehticları yoxdur.
Allaha şükür ki, Füzulinin üzünə açılmış,
Bu torpaqdan hər bir qapı ki, fələk o qapının torpağıdır.

***

Yenə Məhərrəm oldu, şad könlümə qəm gəldi,
Təzə Ayın yayından ürəyimə qəm oxu sancıldı.
Kərbəla mələklərin ahu naləsi ilə doldu,
Matəm səsi bütün aləmin qulağına çatdı.

Məhərrəm şənlik xəzinəsi qapısına hilaldan qıfıl vurdu,
İşıqlı gün getdi, aləm qara geyindi.
Qurban bayramının şənlik paltarını Məhərrəm nillədi,
Şadlıq mövsimi başa çatdı, matəm növbəsi gəldi.
Kərbəla macərasını az tutma, əzəldən
Bunun üçün idi ki, mələkdən Adəmə bir tənə çatdı.
Kərbəla bustanında qəm göyərtisi təzələndi,
Qaliba o göyərtiyə matəmli gözdən su çatdı.
Könül əgər gözdən yaş axıtmaq istəsə, vaxtıdır,
Göz əgər istəsə ürək qanı töksün, dəmi çatdı.
Bu qəmin məni zar ağlatmaq vaxtı çatdı,
Kirpiklərimin tikanı cigər qanından gül açdı.
O gün günümüz ürək tüstüsü ilə matəm gecəsi oldu.
O gün gəldi ki, ürəyimizdə qəm nəsimi əssin,
Zəmanə gözəlinin şənlik zülfü pərişan olsun.
O gün gəldi ki, Kərbəla susuzları
Yaşlı gözdən axar su tələb etsinlər.
Bu nə zülmdür, ey fələk ki, qəmlə söndürmüsən
Qədr gecəsinin şamını ki, şamlıları sevindirəsən.
Rəsul övladını öldürmək qəsdi asan iş deyil,
Bu işdə qəzanın da dəxaləti bəid deyil.
Yaranqmışların ən pisi gərək olsun ki, on günlük kam almaq üçün
O dünyanın zəlili, bu aləmin rüsvası olsun.
Hər bir pis işdən pisi Kərbəla Şəhidini qətl etməkdir,
Onun qatili Allahın ən pis bəndəsidir.
Zalim fələk din mülkündə bir rəxnə salmışdır,
Din mülkünün günəşini yerə salmışdır.
Ali-Əli ürəyinə düşmən oxlarının vurulması
Şəriətin ipinə düyünlər salmışdır.
Kərbəla çölünün qumu bəla oxuna tuş gəldi,
Ona görə qalxan kimi üzü qırışıbdır.
Məzlumların qanını necə tökməsin ki, qum süfrəsini
Səma Kərbəlada bu iş üçün döşəmişdir.
Kərbəlada hər yanda yananlar qəndil deyil,
Həzin ürəklərə qəm ildırımı od salmışdır.
Kərbəla torpağında axar qum naxış salmış,
Ya da onun torpağı acığından alnına qırış salmış.
Hər tərəfdə burlağandır, ya da hər tərəfdən Kərbəla
Uca göylərə tənə oxları atmışdır.
Günəşin gözünə ah mili çəkmək gərək,
Çünki bu əhvalı görür və Ay kimi azalmır.



Ey fələk, Zöhrayi-Əzhər ürəyini qan etmisən,
Peyğəmbər övladının nahaq qanına qəsd etmisən.
Ey Səma, naqis seyrindən razı deyiləm,
Öz zülmünü Peyğəmbər övladına göstərmisən.
Ey utanmaz fələk, etdiyindən utan,
Parlaq günəş bulağını bulandırmısan.
Ey zalim dövran, hər an sənin əlindən necə nalə etməyim?
Hüseynə və onun övladına hədsiz zülm etmisən.
Ey Kərbəla, sənin qumlarının naxışları əbəs deyil,
Öz ürəyinin əhvalının surətini çəkmisən.
Ey səba, Kərbəla kimi başqa qəmxanə harada var?
Yeddi ölkəni seyr edən, səndən soruşuram.
Kərbəla çölünün qövqası qiyamətdən əskik deyil,
Kərbəla macərasının heç bir sonu yoxdur.
Ah o gündən ki, dövranın zülm etməkdən başqa işi yox idi,
Kərbəla şahı qəmli idi, qəmküsarı yox idi.
Məzlumlar şahı təzə Ay kimi şəfəqdə
Qana qərq olurdu, nəfəs almaq üçün yarı yox idi.
Hər ləhzə gözündə yaş seli və ürəyində ah şimşəyi,
Hər yana dönürdü yardımçısı yox idi.
Zülm nəsimindən hər an yüz qəm gülü açırdı,
Kərbəla çölünün düşmən oxundan başqa tikanı yox idi.
Ah o çağdan ki, Kərbəla şahı kimsəsiz idi,
Nalə və fəryaddan başqa həmdəmi və munisi yox idi.
Kərbəla torpağının ətrafında qan dəryası dalğalanırdı,
O torpağın nöqtəsinin burulğandan başqa pərgarı yox idi.
Şahi- şəhidin ürək qəmindən heç kəs agah deyildi,
Ümid evi viran idi, memarı yox idi.
Onun ağrısı yarın hicranı və əğyarın möhnətindən idi,
Dost-düşməndən ona yetən əziyyət idi.
Hər yana Kərbəlanın axar qumu axır,
Ya fələk Kərbəla arasında başı aşağı dolanır.
Kərbəla haşimi Rəsulun övladı xəzinəsidir,
Kərbəlanın şəni nə qədər desələr, ondan üstündür.
Kərbəla torpağını fələk o qədər ki, başına tökür,
Yavaş-yavaş Kərbəlanın məkanı Ərş olacaqdır.
Dostlara Kərbəla dastanını söyləmək üçün.
Bulud ağlayır, məgər məzlumlardan danışıldı
Kərbəla bostanının göyərtilərinin dilindən?
Hər zaman din baharının güllərinin yadı ilə mənim
Ürəyimə Kərbəlada olduğu kimi hər bir qəm tikanı batır.

Öz qan axıdan gözlərimin quluyam ki, insanlıqdan
Kərbəla susuzlarının yadı ilə su axıdır.
Kərbəla susuzları göz yaşı müştaqıdırlar,
Ona görə ki göz yaşını pak su görmüşlər.
Ey könül, şad ol, Murtəza nəqdi gəlib çatacaqdır,
Ədalət bağında mərhəmət küləyi əsəcəkdir.
Qayimi-Ali-əba gələcək və şirk əhlindən,
Ali-Mustəfa qanının intiqamını alacaqdır.
Təzvir rövnəqini onun qılıncı sındıracaqdır,
Şübhələr örtüyünü onun qılıncı sındıracaqdır.
Dünyada ədalət səsi və sədası yüksələcəkdir,
Bu yerdən zülm və haqsızlıq quzğunu uçacaqdır.
Alçaq şamlıların zülm şamı təbah olacaq,
Qələbə və zəfər şərqində doğruçu səhər doğacaqdır.
İntizarda olan İmam xalqın başçısı olacaq,
Azğın düşmən fəna və məhv olmaq yolunu tutacaq.
Aləmin qulağı Füzulidən onun ədaləti pənahında
Din düşmənlərinə aşkara lənət eşidəcək.
Nəhs Yezidə və İbni-Ziyada lənət olsun,
Hər kəs mömindir desin: çox olsun və az olmasın.



# FÜZULİ ADINA YAZILMIŞ ŞEİRLƏR

## QƏZƏLLƏR

***

Gəl bəri, lütf eylə, ey sərvi-güləndamım mənim,
Şol ləbi canpərvərindən verginən kamım mənim.

Səndən ayrı həqq bilir, ey nazəninlər sərvəri,
Möhnətü qəmlə keçər, hər sübh ilə şamım mənim.

Düşməsin heç kimsə, ya rəbb, mən kimi candan cüda,
Ya əzəldən böylə yazılmış sərəncamım mənim.

Verme ki, zahid mana qorxu cəhənnəmdən, saqın,
Cənnətimdir arizi, zülfü dürür damım mənim.

Keçməsin heç kimsənin miskin Füzuli tək günü,
Hər keçər qəmlə fəna dünyada əyyamım mənim.

***

Qalmışam qürbətdə heyran, zarü giryan, neyləyim?
Xəstəvü rəncurü bimarü pərişan neyləyim?

Olmuşam dərdə giriftarü qəmindən, ağlaram,
Çünki etməz bu fələk dərdimə dərman, neyləyim?

Gərçi dövran dolanır hər ləhzə çoxlar rəyinə,
Dönmədi hərgiz mənim rəyimcə dövran, neyləyim?

Ta ki vəslindən cüda düşdümdəmi xoş olmadım,
Eylədi hicran məni hər ləhzə giryan, neyləyim?

Bilmişəm sübhi-vüsalin qədrini şami-firaq,
Leyk yandırdı məni dərdində hicran, neyləyim?

Gərçi pünhan eylədin mehrin Füzuli könlünə,
Könlümün şəhri qəmindən olsa viran, neyləyim?

***

Yolunda can verən kimi dərunumda əlamət bar,
Şəhidi-tiği-eşq olmağə könlümdə şəhadət bar.

Məni gəl öldürüb qurtar bəladən, çünki ey xuni,
Nə səndə mərhəmət, nə məndə səbrü taqət bar.

Töküldü gözlərim yaşı, nəzər qılmadın, ey məhru,
Düşübdür ulduzum, düşkün sitarəmdən nəhusət bar.

Əfəndim, padişahimsən, kimə varıb edəm şikva,
Mənə çox cövrü zülm etdin, sənə səndən şikayət bar.

Gədayi aləmin sultani, sultani gəda eylər,
Şərabi-eşqi-dilbərdə, Füzuli, özgə halət bar.

***

Sübhdəm gülzar içində çaldı bülbül ərğənun:
Əyyuhəl-üşşaq qumu innəkum latüsməun[1].

Ərğəvan tutdu piyalə, nəstərən doldurdu cam.
Mütrüba, çal nəğməyi, ya əyyühəl-müstəğfirun[2].

Hər görənlər hüsni-xəttün, oxudu səd afərin,
La bi-şəyin əhsənu illa qəlilən tüşkərun[3].

Gözlərim sərxoş olanda badeyi-pürxun içər
Ziri-ləbdə çağrışır saqi Vəlahum yühzənun[4].

Sən, Füzuli, yar yolunda can verirsən aqibət
Eşidənlər deyələr: "İnna ileyhi raciun"[5].

[1] Tərcüməsi: Ey aşiqlər, qalxın, siz onu duymursunuzmu?
[2] Tərcüməsi: Ey tövbə edənlər.
[3] Tərcüməsi: Hər bir yaxşılığa, az da olsa, təşəkkür edərsiz.
[4] Tərcüməsi: Onlar kədərlənməzlər.
[5] Tərcüməsi: Biz ona qayıdacağıq ("Quran" ayəsidir).



***

Bəndeyi-mömin olan çeşmi tərü giryan olur,
Çeşmi-giryan olmayan, əlbəttə, biiyman olur.

Vəsvəsə şeytan qoyub, ana ibadət eyləyən,
İncidir xəlqi-xudayi, aqibət Mərvan[1] olur.

Adını hacı qoyub, Həccac[2] ondan yaxşıdır,
Bəhsilə həccə gedən çöllərdə sərgərdan olur.

Qaldı bir ümmidimiz Şahi-vilayət beytinə,
Göstərə bir doğru yol ol dəmdə ki, divan olur.

Nuhun sanduğuna gəşti-təkapuymuş pənah,
Etiqad eylə, məbada, bir zaman tufan olur.

Ey Füzuli, bu cahanda etibarın qalmamış,
Düzədur yüz min imarət, axiri viran olur.

***

Nəvavü saz ilə mey nuş edənlər dilrübalərdir,
Çəkən dərdü bəla bəzmi-qəm içrə binəvalərdir.

Pərişan etmə kakül başin üçün, ey pəripeykər
Ki, hər bir kakülün tarində yüz min mübtəlalərdir.

Gəl, ey zahid, əgər əhli-yəqini görmək istərsən,
Özündən bigüman biganə olmuş aşinalərdir.

Keçib, dildarə yar olmaq dilərkən, müddəalərdən,
Səni yarından əğyar eyləyən bu müddəalərdir.

Cəfavü cövrü çox, dilbərlərin mehrü vəfası az,
Füzuli, çək əlin, nə etmək olur, bu bivəfalərdir.

[1] Mərvan-Bəni Üməyyə – xəlifələrdən biri.
[2] Həccac İbni Yusif – qaniçən, zalım hökmdar.

## MÜLƏMMƏLƏR

Qurbane xale ruyət, ey şuxe-bərg susən,
Hüsni-çenin nədidəm, xorşid, ya qəmərsən?

Əz hali biqəraran əfsus qafeli to,
Bər zəxm karsazi sədheyf bixəbərsən.

Pərvanəvar dovrət kərdəm ki, to biyayi,
Manəndi-şəm suzəm, məni qoyub gedərsən.

Qoftəm ke, yare-mən baş əz ruye-lotf fərmud,
Vallah, xahəmət şod gər nazimi çəkərsən.

To hakimiyü soltan, mayim bəndəfərman,
Kəsra soxən nəbaşəd gər qanimi tökərsən.

Çəndan ke can bedadəm ta aməndi bedəstəm,
Əknun çe çarə sazəm, mən ağlaram, gülərsən.

Yek buseyi əz on ləb kərdəm tələb be səd əcz,
Vallah, xahəmət dad gər əlimi öpərsən.

Çun buse dad qofta: ey yar beşnov əz mən,
Vallah, xahəmət koşt bir kimsəyə deyərsən.

Əz eşqi to Füzuli hər ruz zarü geryəd,
İmruz ruze-lotfəst, gər əlimi dutarsən.



## TƏRCÜMƏSİ

Ey süsən yarpağı, gözəl üzündəki xala qurban,
Belə gözəllik görməmişəm, günəşsən, ya aymısan?

Təəssüf ki, qərarsızların halından qafilsən,
Yaraya çarə etməkdə, yüz heyf ki, xəbərsizsən.

Pərvanə kimi dövrəndə dolandım ki, gələsən,
Şam kimi yanıram, məni qoyub gedirsən?

Dedim ki, mənim yarım ol, nəzakətlə buyurdu ki,
Vallah, əgər nazımı çəksən, olaram.

Sən hakim və sultansan, biz fərman quluyuq,
Qanımı da töksən, heç kəsin sözü olmaz.

Nə qədər can verdim ki, səni ələ gətirim,
İndi nə çarə edim, mən ağlayıram, sən gülürsən.

O dodaqdan yüz yalvarışla bir busə istədim,
Dedin, vallah, əlimi öpsən, verərəm.

Elə ki busə verdi, dedi: Ey yar, məndən eşit,
Bir kimsəyə desən, vallah, öldürərəm.

Füzuli sənin eşqində hər gün ağlayır.
Bu gün lütf günüdür, əgər əlimi tutsan.

***

Yek dəm biyavü benişin, ey bərge-ruye-susən,
Mimirəm əz bərayət, salub məni gedərsən.

Besyar can bedadəm, ta amədi bedəstəm,
Əknun çe çarə sazəm, mən ağlaram, gülərsən.

Ey mədəne-lətafət, ey gənci-hüsni-afət,
Canha fədaye-rahət, mən gəlmişəm, gedərsən.

To hakimiyü sultan, ma cümlə bəndəfərman,
Kəsra soxən nə başəd, gər qanımı tökərsən.

Dər eşqe to Füzuli hər ləhzə zarü giryan,
İn ruz ruze vəslət, gər əlimi tutarsən.

### TƏRCÜMƏSİ

Ey üzü süsən yarpağı (yarım), bir dəm gəl otur,
Mən sənin uğrunda ölürəm, sən məni buraxıb gedirsən.

Çox canlar verdim, əlimə keçəsən deyə,
Şimdi nə çarə edim, mən ağlayırkən, sən gülürsən.

Ey gözəllik qaynağı və ey bəla gözəlliyinin xəzinəsi,
Canlar yoluna fəda olsun, mən gəlmişkən sən gedirsən.

Sən hökmedici sultansan, biz hamımız buyruqçu qullarıq,
Əgər qanımı axıdırsansa da, kimsə bir söz söyləməz.

Füzuli sənin eşqinlə hər an inləməkdə, yanıq-yanıq
ağlamaqdadır,
Mənə yardım əlini uzadıb əlimdən tutduğun gün aşiqin
məşuqə qovuşduğu vəslət günüdür.



## MÜSTƏZAD

Ey sərvi-səhi, sən gələli seyr ilə bağə,
Baş çəkmədi ər-ər,
Çox ali-nəsəblər özünü saldı əyağə,
Qul boldu sənubər.
Sünbül özünü zülfünə bənzətdi nigarın
Bildi ki, xətadır,
Dağlarda bitər yüzi qara, başı aşağə,
Qayğulu, mükəddər.
Zülfün barıdan könlümə sevda yeli əsdi,
Reyhanmudi bilmən?
Hansı çəmənin qoxusudur gəldi dimağə,
Can oldu müəttər?
Sən tək pərinin mənzili viranə gərəkdir,
Ya çeşmələr üsti,
Könlüm kimi viranəvü gözümdü bulağə,
Qon ey pəri peykər!
Şol halun içün zülfünə çoxlar dolaşıbdur,
Ancaq məni sanma.
Bir danə içün gör neçə quş düşdü duzağə,
Dam oldu müsəxxər.
Bir cami-şərab istədim, ey saqi, əlindən,
Sərxoşmudu, bilmən?
Çeşmin məni öldürməgə yapışdı bıçağə,
Çəkdi mana xəncər.
Dünyadə Füzulinin gözi ağlayıb ötsə,
Yüzün həvəsindən,
Rəhmət yağışı torpağının üstünə yağə,
Qəbri ola ənvər.

***

Çünkim gözümə gəlmədi hərgiz xəyali-xab,
Saqi, gətir piyaləvü, doldur şərabi-nab.

Fürsətdürür bu gecə gəlin, içəlim mey,
Şəmilə mütrübü mənü saqiye-müşk-nab.
Məmur dut nəşat ilə can məskənin müdam,
Neçə-neçə bu dəhr edər xanələr xərab.

Zərraq zahidin içəlim qanını səbuh,
Məhrum sufinin qılalım bağrını kəbab.
Hərgiz zəmanə kimsəyi xoşnud qılmadı,
Hər fikr namüvafiqü, hər fel nasəvab.

Zaye keçirmə fürsətini, ağla hər nəfəs,
Bu ömrü-nazənin çü bilirsən, qılır şitab.

Gəl, ey hərif, şimdi nəsihət qəbul qıl,
Cövr eyləmə Füzuliyə, hacət degil itab.

## QİTƏ

Qəlbi-nadan olur həmişə siyah,
Laləvəş gərçi ruyi əhmər olur.
Yüzü fəzl əhlinin riyazət ilə
Zəri-xalis misali əsfər olur.
Gər zəif olsa cismi-danişmənd,
Ərəbi at, çünki lağər olur.



## DÜBEYTİLƏR

Yovmüs-sual həzrətə ərz eyləyim, əgər,
Əltafü mərhəmətlə qulundan cavab ala.
Dünya evinə qonduq, oturduq bir-iki gün,
Layiqmidir kərimə qonaqdan hesab ala?

Nükteyi-eşqi neçə surətilən
Əhli məna ilə təsrih etdik.
Kəsrəti-vəhdətə qıldıq təbdil,
Cümlədən üzləti tərcih etdik.

Lənət ol nadanə kim, bir kimsədən bir kimsəyə,
Bir cigərgah olacaq söz nəql edə gercək, yalan.
Çün xəbər həm sidqə, həm kizbə lubdur möhtəmil,
Ol sözü kəndi demiş olur o şəxsə bigüman.

Kəşf et niqabini, yeri-göyü münəvvər et,
Bu aləmi-ənasiri firdovsi-ənvər et.
Ver ləblərini, cuşə gətir hövzi-kosəri,
Ənbər saçını tök, bu cahanı müəttər et.

***

Ey qazi, sənə dəviçi yəzdan olacaqdır,
Məhşər ərəsatında ki, divan olacaqdır.

Həşr içrə "səcədtü" əməli çün bula mənə,
Rüşvət rəqəmi naminə ünvan olacaqdır.

Dövründə yetimin ki gözü yaşı rəvandır,
Bir gün səni qərq etməyə ümman olacaqdır.

Rüşvət gəmigin durmaz, iliklərin əmərsən,
Qarnın yarılıb bir gün ürək qan olacaqdır.

Bu sazı ki sən pərdələr ardında çalarsan,
Sanma ki, anın nəğməsi pünhan olcaqdır.

## MÜXƏMMƏS

Başə getməz gah mənimdir, gah dövran özgənin,
Mən firib aludi-vəsləm, əhdü peyman özgənin,
Sanma kim, təndə mənimdir, gördüyün can özgənin,
Ataşi-eşqi mənim canımda, canan özgənin,
Vəh mənim bağrımdürür büryan, mehman özgənin.

Bunca nuş etdim, əsər yox badeyi-gülfamdə,
Badeyi-dövran mükərrər zəhr əzibdir camdə,
Olmadım xali fəğandan sübhdə nə şamdə,
Gecələr ta sübh olunca bir qaranqu damdə,
Ağlamaq, yanmaq mənim, ol şəmi-suzan özgənin.

Bəs ki can verdim cahanda səy edüb canana mən,
Yetmədim canan vüsalinə, yetişdim canə mən.
Nisyə verdim hər mətai cəm edib dükkanə mən,
Nəqdimi təlana verdim, qalmışam viranə mən,
Bir füzuləm munda mən, bazarü dükkan özgənin.

Neyləyim, aram edib bir yerdə dil tutmaz nizam,
Aqibət ki, almadım fani cahandan intiqam.
Yaş töküb qumru kimi qəddin həvasilə müdam,
Gözlərim qan-yaş töküb əfğan edər hər sübhü şam,
Sərv bir qeyrin kənarında, gülüstan özgənin.

Gərdişi görcək şəha qaşın çəmən yayı vücud,
Mahi-növ sandı, ona təzim edib qıldı sücud,
Neyləyim, dilbər bizi bir ləhzə qılmaz yadbud,
Ey Füzuli, dərdi-hicran canə həmdəmdir nə sud?
Can bədəndə mehmandır, dərdi-canan özgənin.



# HƏDİQƏTÜS-SÜƏDA

**Bismillahir-Rəhmanir-Rəhim**

**Rəbbi işrəh li sədri və yəssir li əmri və əhlül uqdətən min lisani yufqəhu qəvli.**

## DİBAÇƏ

Ya Rəb, rəhi-eşqində bəni şeyda qıl,
Əhkami-ibadətin bana icra qıl.
Nəzzareyi-sün'ündə[1] gözüm bina qıl,
Övsafi-həbibində dilim guya qıl.

Həzrəti-Məliki-mütə'ali-müqtədir və mün'imü müntəqimü mütəkəbbir əzzəmə sultanihu və izzə şə'nihu Kitabi-vacibüt-təkrim və kəlami-lazimüt-tə'zimində meydani-məhəbbət bəlakəşlərün və badiyeyi-iradət mütə'əttişlərün bu xitabi-müstətablə sərəfraz etmiş ki, "Və lənəbluvənnəkum"[2], yə'ni ey şahrahi-sədaqətdə səbati-qədəm də'vasin qılanlar və ey təriqi-vəfadə lafi-istiqamət urub şərəfi-imtiyazə talib olanlar, əgərçi ərqami-səhayifə-e'tiqadınuz bizə vazeh və keyfiyyəti-rüsumi səlahü fəsadınuz bizə layeh, əmma sizə dəxi mə'lum olmaq üçün sizi imtahan edərüz "bi-şe'yin"[2] bir nəsnə ilə "min əl-xovfi[3]" ki, ol ibarətdür ya tərği-bi-ibadət üçün bimi-üqubati-üxrəvidən, ya zühuri-rütbeyi-təsalimü təvəkkül üçün tərsi-məsayibi-dünyəvidən, "vəl-cu'i"[4] ki, ol ibarətdür; ya inkisari-sövləti-quvayi-şəhəviyyə üçün qəhti-şərabü tə'amdən, ya nifazi-əhkami-şər'iyyə üçün irtikabi-siyamdən "və nəqsin min-əl-əmvali"[5] ki, ol ibarətdür, ya bəyani-izhari-inqiyad üçün ixraci-xümsü zəkatdən, ya kəsri-tüğyani-nəfs üçün taraci-hadisatdən "vəl-ənfusi"[6] ki, ol ibarətdür, ya vasiteyi-kühulətlə tənqisi-qüvayi-nəfsaniyyədən, ya vəsileyi-əmrazlə tə'tili-cəvarihi-cismaniyyədən; "vəs-səmərati"[7] ki, ol ibarətdür ya qilləti-fəvakihdən ki, nəticeyi-bağü bustandür, ya fövti-övladdən ki, səmərəyi-şəcəreyi-növ'i-insandür. Və məratibi-imtahan bəyan olduqdan sonra buyurmuş ki, "Və bəşşirissabirin"[8], yə'ni bəşarət ver, sabirlərə, "əlləzinə", anlar kim, "İza əsabəthum musibətün"[9] əgər vaqe' olsa bir müsibət anlara "Qalu innə lillahi və innə ileyhi raci'un"[10], yə'ni məbdə'i-vücudimiz Xaliqi-əkbərdir və aqibətüləmr, ana rücuimiz müqərrərdür. Hər ayinə bu ayəti-kərimə fəhvasindən və bu ibarəti-şərifə imasindən müstəfad olunan oldur ki, ammeyi-übbadə ümumi-bəla şamildür və cəmi'i-ərbabi-səlahü fəsad imtahan üçün "Və lənəbluvən-

---

[1] Bu əsərdə tərtibçinin təklifi ilə apastrof işarəsini saxladıq. Çünki ərəb-fars sözləri ilə zəngin olan mətndən bu işarə çıxarıldıqda sözlərin mənası əhəmiyyətli dərəcədə dəyişirdi.

[2] Sizləri imtahan edərik (Qur'an, 2, 155).

[3] Bir şeylə

[4] Qorxudan

[5] Aclıqla

[6] Mal (yə'ni var-dövlət) çatışmazlığı

[7] Canların (nəfslərin)

[8] Məhsulların (azlığı ilə)

[9] Səbr edənlərə müjdə ver (Qur'an, 2, 155).

[10] Özlərinə bir bəla yetdiyi zaman

[11] "Biz Allaha aidik və qayıdışımız da Onadır" deyirlər (Qur'an, 2, 156).

nəkum"[1] həsrinə daxildür. Əmma ol cümlədən məvaqii-məsaibdə daməni-təmkin dutub müztərib olmayanlar və məsadiri-nəvaibdə xatirə təskin verüb izhari-cəzə' qılmayanlər iste'dadi-təşrifi-başarət bulmuşlar və müstəhəqqi-tövfiqi-təqərrüb olmuşlar. Şe'r:

Talibi vərteyi-məsaibdə
Şərəfi-səbr sərfəraz eylər,
Səbrdür ol məhək ki, möhnətdə
Küfrü imanı imtiyaz eylər.

Bu ibarət kütubi-səmavidən mənquldur ki, "Mən əhəbb əv uhibbə səbbə əleyhi'l-bəlai"[2], yə'ni hər bəndeyi-müqbil ki, mühib olmağa ləyaqət buldu, ya məhbub olmağa qabil oldu, lacərəm, kəndüsin hədəfi-sihami-bəla və mənzili-nüzuli-ina qıldı, həmişə səbzeyi-sədaqət gülzari-tinətdə barani-bəladan nəşvü nüma bulur və çirağı-məhəbbət xəlvəti-xilqətdə ataşi-möhnətdən rövşən olur ki, "Əl-bəla'u li-l vəla'i k'əlləhəbi li'z-zəhəbi".[3] Şe'r:

Möhnətəfzayi-məhəbbətdür bəla
Kim, bəla ataş, məhəbbətdür təla.

Bu məfhumə mütabiq və bu məzmunə müvafiq ol ki, Həzrəti-risalət buyurmuş ki, "İnnə'-llahə izə əhəbbə qovmən əbtəlahum"[4] yə'ni hər tayifə kim, məhəbbəti-Mə'budə ixtisas bula, müqərrərdir kim, möhnətə əsir və bəlaya giriftar ola. Əmma məratibi-vəla mühaziyi-dərəcati-bəladır və mə'arici-bəla müvafiqi-təbəqati-vəla. Bu nüktəyə müş'ir və bu mə'niyə müxbirdir ol ki, Həzrəti-risalətdən sual olduqda ki, "Əyyu'n-nəsi əşəddu bəlaən"[5], yə'ni nə güruh ola növ'i-insandan ki, şiddəti-bəla ilə mə'ruf və kəsrəti-ina ilə mövsuf? Buyurdular ki, əl-Ənbiyau, yə'ni sərapərdeyi-nübüvvət məhrəmləri və təşrifi-risalət möhtərəmləri. Zira məratibi-möhnətləri dərəcati-məhbbətlərində məqrundur və rif'əti-mənzilətləri şiddəti-müsabətlərində məzmun. Və sual olunduqda: "Və min bə'dihum?"[6] Buyurdular ki, "Summəl-əmsəlu"[7], yə'ni təriqi-müsabirətdə anlara şəbih olanlar və caddeyi-mütabiətdə anlara iqtida qılanlar. Və bu nüktə övliyaullahə işarətdür ki, ayinədari-həqayiqi-ənbiya olub, aləmi-surətdə əhkami-nübüvvət icra edüb mərasimi-şəriət ehya edərlər. Və sual olunduqda ki, "Və min bə'dihim"?[8] Buyurdular ki, "Sümmə Fi'l əmsəlü"[9], yə'ni şimeyi-təqva və şiveyi-səlahdə övliyayə şəbih olanlar və anlara mütabiət qılanlar. Və bu məzmun ətqiyayi-ənam və süləhayi-firqeyi-islamdan ibarətdür ki, səvalihi-ə'mal ilə sayir xəlqdən imtiyaz bulmuşlar və məhasini-əf'al ilə əqranü əmsalə faiq olmuşlar. Şe'r:

[1] Sizləri imtahan edərik ("Quran", 2, 155).
[2] Sevən də, sevilən də bəladan qurtara bilməz.
[3] Qızıla ataş gərək olduğu kimi, sevənlərə də bəla gərəkdir.
[4] Allah bir qövmi sevərsə, onlara bəla verər.
[5] İnsanlar içində ən çox bəlaya uğrayanlar kimdir?
[6] Onlardan sonra kimlərdir?
[7] Onlara bənzəyənlər.
[8] Onlardan sonra kimlərdir?
[9] Digər bənzəyənlər.



Nə müxlis ki, dərgahi-mə'budə əqrəb,
Hümumi əşəddü bəliyyati əs'əb.
Əcəb bir qədər qürb kim olsa vaqe',
Olur afəti-ruzigarə müqərrəb.

Filvaqe', aləmi-fənadə mö'mini-mütəəllim və münkiri-mütənə'im olmaq məhzi-məsləhət və eyni-hikmətdir, ta mülki-bəqadə idraki-fövti-ne'mət münkirə mövcibi-təzayüdi-ələm vaqe' ola və ehsasi-ədəmi-ələm mö'minə baisi-təzaüfi-ni'əm olub sürurin ziyadə qıla. Şe'r:

Bilməsə kafər nədir ne'mət, nə bilsün ruzi-həşr
Kim, nə lütfün məzhəridir mö'mini-pake'tiqad.
Qılmasa mö'min ələm idrakın, olmaz müttəle'
Kim, nə tə'zib ilədir duzəxdə ərbabi-fəsad.

Hər ayinə mizani-bəla müməyyizi-məratibi-vəla olmağın mə'lum oldu və sübut buldu ki, növ'i-insandan bargahi-mə'budə əqrəb firqeyi-ənbiya və zümreyi-övliyadür. Zira şərayiti-tə'zimi-adabi-ibadət və mərasimi-icrayi-şəriət və irşadi-ümmət anlara bir əmrdir cəmi'i-bəliyyətə şamil və bir hökmdür cümleyi-ləzzatə hail. Və bu dəxi müqərrəri-cümleyi-üqəla və məqbui cəmi'i-füzəladır ki, əfzəli-ənbiya Həzrəti Mustəfadır səlləallahu əleyhi və səlləm. Zira cəmi'i-ənbiyanun ümməti ana mövdu'dur və islahi-cəmi'i-təvaifi-müxtəlifə və üməmi-mütənəvviə ana mərcu'dur. Lacərəm məcmu'i-ənbiyadən rütbəsi əfzəl və bəliyyati ətəmmü əkməldür. Və ol Həzrət bu mə'nayə mütabiq və bu məzmunə müvafiq buyurmuş ki, "Və ma'uziyə nəbiyyun mislə ma'uzitu"[1]. Və dəlili-sadiq bu də'vayə oldur ki, təvarixi-sələfdə məstur və əlsineyi-xəvassü əvamdə məşhur olan ənbiya bəlalarının heç biri mü'adil olmaz və imkani-münasibət bulmaz Həzrəti-Rəsulullahın sənadili-Qureyşdən çəkdigi cəfalərə və süfəhayi-ümmətdən gördügi bəlalara. Ol cümlədəndir vaqieyi-dəşti-Kərbəla və hadiseyi-qətli-Hüseyn bin Əliyyi-Murtəza ki, qüdveyi-xanədani-risalət və zübdeyi-dudmani-nübüvvətdür. Bi təkəllüf, ana mütə-vəcceh olan müsibət Həzrəti-Rəsulə nisbət kəmali-ihanət və nihayəti-həqarətdir.

Həzrəti-imam Yafei "Kitabi-Mir'atül-Cinan"də Həsən Bəsri nəqli ilə İbn əl-Bəzzazdən rəvayət etmiş ki, "Vaqieyi-Kərbəlada Əhli-Beytdən on altı nəfər sahibsəadət şərbəti-şəhadət içmişlər ki, zəmanində hər biri biməadil və əsrində hər biri bimməmasil idi". Və "Məsabihül-qülub"da məzkurdur ki, Kə'ibul-Əxbar bir gün əxbari-sələf nəql edərkən dedi: "Ey qövm, məsaibi-cəmi'i-əzmənəyə vaqif oldum və nəvayibi-məcmu'i-təvaifə ittila' buldum. Vaqieyi-Kərbəladan əs'əb hadisə mütaliə qılmadım və andan ə'zəm müsibətə müttəle olmadım. Həqqa ki, Həzrəti-Hüseyni-məzlum şəhid olduqda, yeddi əflak qan ağladı". Dedilər: "Ya, Əba İshaq, hərgiz əflak qan ağlarmı?" Dedi: "Vəylukum innə qətləl-Hüseyni əmrun əzimun"[2], yə'ni ey bidərdlər, qətli-Hüseyn əmri-əzimdür. Zira ol Həzrət məqbuli-Rəbbülələmin və cigərguşeyi-Seyyidül-mürsəlin və fərzəndi-Seyyidi-Övliya və nuri-dediyi-Fatimeyi-Zəhra və yadigari-Həsəni-Muctəba və güzideyi-Ali-Əbadür. Qəsəm ol Vacibül-vücudə ki, Kə'bin ruhi onun

[1] Heç bir peyğəmbər mənim kimi əziyyət çəkməmişdir.
[2] Yazıqlar, Hüseynin öldürülməsi böyük məsələdir.

qəbzeyi-qüdrətindədür, nəqli-səhihlə təhqiq etmişəm ki, Hüseyni-məzlumun ləqəbin məlaikeyi-asiman Əba Əbdullah əl-məqtul və məlaikeyi-ərz Əba-Əbdullah əl-Məzbuh və məlaikeyi-dərya Hüseyni-şəhid deyüb, ol şəhid olduğu gündən qiyamətədək məlaikeyi-səmavidən bir güruh rövzeyi-mübarəkinə mücavir olub əzasinə məşğuldurlar və hər şəbi-cüm'ə yetmiş bin mələk ziyarətinə gəlüb sübhədək əzasinə iştiğal edüb, sübh olduqda hədiyyeyi-səvablə səvame'i-ibadətlərinə müraciət qılurlar. Beyt:

Hökmdür kim, cəmi'i-xəlqi-cəhan,
Mələkü insü cinnü vəhşü tüyur,
Əqlü nəfsü ənasirü əflak,
Ülvivü süflivü ünasü zükur
Dutalar matəmi-Hüseyni-şəhid,
Edələr ahü nalə ta dəmi-Sur.
Bu müsibətdən olmayan agəh,
Ola Əhməd şəfaətindən dur.
Ruzi-Həşr olmaya nəsibi anun
Nəzəri-lütfi-Kirdigari-Qəfur.

Bu dəxi cümleyi-əxbari-səhihədəndür ki, "Mən bəka ələl-Hüseyni əv təbaka vəcəbət ləhul-cənnət"[1], yə'ni hər kim, Hüseyn üçün ağlaya, ya bir kimsənəyi ağlada, vacib ola ana düxuli-cənnət. Şeyx Carullahi Əllamədən nəqldür ki, "Mən təşəbbühə bi-qovmin fə-huvə minhum"[2] müqtəzasincə əgər təqliddə dəxi giryan olub bə'zi kimsənəyi-giryan etsə, ol cümləyə daxildür və ona dəxi ol səvab hasildür. İmam Rzayi-Buxaridən rəvayətdir ki, "Xaki-Kərbəla bir tinəti-pakdür kim, anda töxmi-şəhadət tökülmüş və nihali-müsibət dikilmişdür; əgər cuybari-dideyi-nəmnakdən onları sirab etsələr, "Əd-dünya məzrə'ətul-axirəti"[3] müqtəzasincə rövzeyi-rizvandə ol toxmun nəticəsi əsmari-əsari-ləzzəti-nə'imi-müəbbəd olub intifayi-neyrani-qəhri-İlahi qıla. Şe'r:

Xaki-paki-Kərbəladür ol mübarək büq'ə kim,
Anda təhsili-mətalib eyləmək asan olur.
Əşk tökmək, ah çəkmək zaye' olmaz ruzi-Həşr,
Kambəxşi-çeşmi-pürxunü dili-suzan olur.
Əşki-alın qətrəsi gülbərgi-gülzari-behişt,
Dudi-ahın məddi nəxli-rövzeyi-rizvan olur.

Əlminnətu lillah kim, firqeyi-əhli-İslamə və zümreyi-əshabi-imanə bu səadət müyəssər və bu adət müqərrər olubdur ki, hər mahi-məhərrəm təcdidi-mərasimi-matəm edüb, ətrafü cəvanibdən mütəvəccihi-dəşti-Kərbəla olurlar və ol türbəti-şərifdən büq'ə-büq'ə məcalis və məhafil qurub təkrari-vəqaye'i-Kərbəla ilə şühəda dağı-müsibətin tazə qılurlar. Şe'r:

[1] Kim Hüseyn üçün ağlar və ya ağladarsa, ona cənnət vacib olur.
[2] Kim özünü bir qövmə (tayfaya) bənzədirsə, o da o qövmdəndir.
[3] Dünya axirətin tarlasıdır.



Məhərrəmdür bəhari-gülşəni-qəm,
Nəsimi-dilkəşi ahi-dəmadəm.
Ol eylər səbzeyi-müjganı nəmnak,
Könüllər qönçəsinə ol salur çak.

Əmma cəmi'i-müddətdə, məcalis və məhafildə təqrir olunan vəqaye'i-Kərbəla və keyfiyyəti-əhvali-şühəda farsi və ta-zi ibarətində bəyan olmağın əşrafi-ərəb və əkabiri-əcəm təməttö' bulub, ə'izzeyi-ətrak ki, cüzvi-ə'zəmi-tərkibi-aləm və sinfi-əkbəri-növ'i-bəni-Adəmdür, sətri-zayidi-səhayifi-kütub kibi süfufi-məcalisdən xaric qalub istifayi-idraki-həqayiqi-əhvaldən məhrum qalurlardı. Bu səbəbdən iqtizayi-ümumi-matəmi-Al zəbani-hal ilə bən xaksarə təərrüz etdi və dəsti-təərrüzlə giribanım dutdu ki, "Ey pərvərdeyi-xani-ne'məti-feyzi-Şahi-Kərbəla, Füzuliyi-mübtəla, nola, gər bir tərzi-mücəddədə müxtəre' olsan və himmət dutub bir məqtəli-türki inşa qılsan ki, füsəhayi-türkizəban istimaindən təməttö' bulalar və idrakı-məzmunində ərəbdən və əcəmdən müstəğni olalar". Şe'r:

Təkrari-zikri-vaqi'eyi-dəşti-Kərbəla,
Məqbuli-xassü amü siğarü kibardür.
Təqrir edənlərə səbəbi-izzü ehtişam,
Təhrir edənlərə şərəfi-ruzigardür.

Bən ki, bu nəsihəti işğa qıldum və bu xidmətin məhzi-səadət olduğun mühəqqəq bildüm, ədəmi-istita'ət və qilləti-bəza'ətdən ihtirazü ictinab etməyüb əncaminə təvəccöh qıldum. Əgərçi ibarəti-türkidə bəyani-vəqaye düşvardür, zira əksəri-əlfazı rəkik və ibarəti nahəmvardür, ümid ki, himməti-övliya itmaminə müsaid ola və əncaminə müavinət qıla. Şe'r:

Ey feyzrəsani-ərəbü türkü əcəm,
Qıldun ərəbi əfsəhi-əhli-aləm,
Etdün füsəhayi-əcəmi İsadəm,
Bən türkzəbandan iltifat eyləmə kəm.

İlahi! Vaqifi-keyfiyyəti-hal və alimi-dəqayiqi-əf' ali-aləmsən, bilürsən ki, səndən qeyr mü'in və müzahirim yoxdur və ətrafü cəvanibdə hasid və müanidim çoxdur. Əmimi-məkarimindən və kəmali-mərahimindən təvəqqö' budur ki, bu binayi-mücəddəd tə'mirində və bu mülki-müəbbəd təsxirində əlfaz və mə'anidən cəmi'i-məsalihim mühəyya qılasan və əshabi-həsəd və ərbabi-inad hücum etdikcə bana mü'in və müsa'id olasan: "İnnəkə əla küllü şey'in qədir"[1].

Hala əlsineyi-ərəbdə məzkur olan Məqtəli-Əbu Mihnəf və Məsrə'i-Tavusidür ki, Seyyid Rəziyəddin Əbülqasim Əli bin Musa bin Cə'fər bin Məhəmməd ət-Tavusi kəmali-təhqiq və tədqiq ilə əsnadi-mö'təbərdən nəql edüb itmaminə ehtimam etmiş. Və əfvahi-əcəmdə məş-

[1] Sən, əlbəttə, hər şeyə qadirsən (Qur'an, 3, 26).

hur olan kitabi-"Rövzət üş-şühəda"dür ki, Həzrəti-əfsəhül-mütəkəllimin Mövlana Hüseyn Va'iz tətəbbö'i-təvarix və təfasir edüb diqqətlə yazmağın rəvayətləri dərəceyi-səhhətə yetmiş və mən xaksarə niyyət oldur ki, əsli-tə'lifdə "Rövzət üş-şühəda"yə iqtida qılub sayir kütubdə olan nükati-qəribələri mümkün olduqca ana əlavə qılam və "Hədiqət-üs-süə'da" ilə mövsum edüb on bab və bir xatimədə surəti-tə'lifinə itmam verəm, inşəallahu Rəhman və bitövfiqihi.

Babi-əvvəl: Ənbiya əhvalın bəyan edər.
İkinci bab. Həzrəti-Rəsulun Qüreyşdən çəkdügi cəfaləri bəyan edər.
Üçüncü bab: Həzrəti-Seyyidülmürsəlin vəfatın bəyan edər.
Dördüncü bab: Fatiməyi-Zəhra vəfatın bəyan edər.
Beşinci: Həzrəti-Murtəza Əli vəfatın bəyan edər.
Altıncı: İmam Həsən əhvalın bəyan edər.
Yeddinci: Həzrəti-İmam Hüseynin Mədinədən Məkkəyə gəldügün bəyan edər.
Səkkizinci bab: Müslim Əqilin vəfatın bəyan edər.
Doqquzuncu bab: Həzrəti-İmam Hüseynin Məkkədən Kərbəlaya gəldigün bəyan edər.
Onuncu bab: İmam Hüseynin şəhid olduğun bəyan edər.
Xatimə: Müxəddərati-Əhli-Beytin Kərbəladan Şamə getdigün bəyan edər. Şe'r:

Ya Rəb, müsafiri-rəhi-səhrayi-möhnətəm,
Tövfiq edüb rəfiq bana sidq rəhbər et.
Sərmənzili-muradə yetür, sərbülənd qıl,
Məhrum qoyma, cümlə muradım müyəssər et.



## BABİ-ƏVVƏL

## BƏ'Zİ ƏNBİYAYİ-İZAM VƏ RÜSULİ-GİRAM SURƏTİ-ƏHVALLARIN BƏYAN EDƏR

### FƏSLİ-İBTİLAYİ-ADƏM ƏLEYHİSSƏLAM

Möhnətsərayi-xilqət və darülbəlayi-fitrətdə müsibətzədələr pişvası və dilşüdələr müqtədası Həzrəti-Adəmi-Səfidir, əleyhissəlam. Şe'r:

Adəm ki, fəzayi-aləmə basdı qədəm,
Əndubü bəlaya oldu əvvəl həmdəm.
Məxsusdur Adəmə bəlayi-aləm,
Aləmdə bəla çəkməyən olmaz adəm.

Hənuz Adəmi-Səfi təngnayi-ədəmdən fəzayi-vücudə gəlmədin və xəl'əti-xilqət geyüb əfsəri-kəramət birlə sərəfraz olmadın məla'ikə zəbani-tə'n uzatdılar və anı hədəfi-tiri-tə'n etdilər ki, "Ə'təc'əlu fiha mən yufsidu fiha?"[1] Rəvayətdir ki, ibtidayi-xilqətdə həzrəti-Məliki-Cəlil Əzrailə hökm etdi ki, cəmi'i-cəzayi-zəminin hər cüzvindən bir qəbzə xak alub Bətni-Nü'mandə cəm' qıla və bir səhabə əmr etdi ki, qırx gün ol toprağın üzərinə baran töküb tərbiyətinə məşğul ola. Və bu xidmətə mə'mur olan səhab otuz doqquz gün dəryayi-ələm və çeşmeyi-qəmdən nəm çəkərdi və ol toprağə barani-möhnət tökərdi. Qırxıncı gün ki, möv'idi-itmam idi, bir neçə qətrə bəhri-fərəhdən götürüb, üzərinə saçub surəti-təxmirin itmamə yetürdi və peykəri-itmamın zühurə gətürdi. Bu səbəbdən müqərrər oldu ki, tinəti-bəşəriyyət əksəri-övqat mənbəti-riyahini-qəm ola və həqiqətdə asari-sürur nihayəti-nüdrət və kamali-qillət bula. Şe'r:

Adəmin qəm birli toprağın müxəmmər qıldılar,
Anda dərdü möhnətə mənzil müqərrər qıldılar.
Mövqidi-nirani-ənduh eyləyüb tərkibini,
Səfheyi-canində nəqşi-qəm müsəvvər qıldılar.

Əlqissə, Adəm vücudə gəlüb, "Ya Adəm uskun əntə və zövcükəl-cənnətə"[2] işarətilə sakini-behişt oldu və miveyi-şəcəruyi-mənhiyyədən qeyr cəmi'i-tənə'ümatın təsərrüfünə rüxsət buldu. İblis ol halə vaqif olub, bünyadi-həsəd qılub vəsileyi-marü tavusilə behiştə girdi və Adəmə vəsvəsə verdi və rahi-zəlalət göstərdi. Və Adəmin iblisə məğlub olduğuna səbəb oldu ki, məzhəri-əf'ali-sütudə və məsdəri-xisali-həmidə idi, kizbü xilafə imkan verməyüb İblisin sözün məhzi-nəsihət təsəvvür etdi. Şe'r:

[1] Orada fəsad törədənimi [xəlifə] tə'yin edəcəksən? ("Qur'an", 2, 30)
[2] Ya Adəm, sən zövcənlə cənnətdə sakin ol! ("Qur'an", 2, 35)

Ey xoş ol safi-təbiət kim, zəmiri-pakinə
Yetməyə mütləq bu kim, aləmdə məkrü hiylə var.
Ey xoş ol sahibsəxavət kim, dəmi-izhari-cud,
Düşmənin məqsudin öz nəf'inə eylər ixtiyar.

Rəvayətdir ki, şəcəreyi-mənhiyyə meyvəsin Adəm və Həvva tənavül etdikdən sonra gərdi-idbar çehreyi-etibarlərin dutub və əfsəri-izzət fərqi-iqtidarlərindən düşüb və xəl'əti-kəramət bədənlərindən intiza bulub və surəti-halləri digərgun olub müztərib və mütəhəyyir qaldılar və məsnədi-izzətdə ikən mö'təkifi-zaviyeyi-hirman oldular. Xidmətlərinə Rizvan mə'mur ikən onlardan nifrət qıldı və sərayi-sürurləri mə'mur ikən seyli-hadisədən viran oldu. Ol biçarələr məkşufuləvrə qalub həya qılmağın hər dirəxtə ki, pənah üçün mütəvəccih olurlardı, anlardan fərar edərdi. Bu halətdə Həzrəti-izzətdən nida gəldi ki, "Ya Adəmu ə'fərarə minna"[1]. Adəm ayıtdı: "Bəl həyaən minkə"[2], yə'ni səndən fərar etməzəm, kəndü fe'limdən şərməndəyəm. Şe'r:

Büzürgvar Xudaya, isaəti-əməlim
Bəni mükərrəm ikən xarü xaksar etdi.
Budur cəzası anın kim sana müxalif olub,
Həvayi-nəfs müraatin ixtiyar etdi.

Aqibət bərgi-əncirdən setri-övrət edüb fərmani-qəza cərəyanilə behiştdən çıxmağa əzm etdilər. Adəm Həvvanın əlin dutub behiştdən dişrə qədəm basdıqda bir saət yəminü yəsarə baxub təvəqqö' edərdi ki, məşriqi-kərəmdən afitabi-əfvü əta tülu edüb zülməti-hirmanə iza'ət verə və övci-inayətdən səhabi-atifət peyda olub gülzari-ümidə təravət yetürə. Heç bir canibdən rayiheyi-murad istişmam etməyüb və heç bir tərəfdən dərdinə dərman yetməyüb naümid qədəm dişrəyə basdıqda lisaninə kəlimeyi-Bismillahir-rəhmanir-Rəhim cari oldu. Cəbrail ayıtdı: "Ya Adəm, bir dəm təvəqqüf et, ola ki, bu kəlimeyi-təyyibə bərəkatindən əbvabi-mərhəmət iftitah bula və şəqavət səadətə mübəddəl ola". Xitab gəldi ki, "Ey Cəbrail, Adəmə nişə mane' oldun?" Cəbrail ayıtdı: "İlahi, səni Rəhman və Rəhim ismilə yad etdi. Nola ki, dəryayi-rəhmətin mövcə gəlüb və bəhri-inayətin mütəlatim olub bu sərgəştəyi vərteyi-bəladan bir kənarə çəksə və gülzari-ümidinə səhabi-məkrümətün barani-rəhmət töksə". Nida gəldi ki: "Ey Cəbrail, bənüm rəhmətim ammdır, əgər bu gün Adəmə təəllüq olsa, bir nəfsə məxsus olmuş ola. Səbr et ki, ərseyi-dünyadan mülki-üqbayə təvəccöh qıldıqda və dari-fənadən mə'mureyi-bəqayə race' olduqda, kəndüyə və bin-bin övladinə izhari-kəmali-tərəhhüm qılam və hövli-Qiyamətdə cəmi'i-mücrimlərinə pənah olam". Şe'r:

Zəhri kərim ki, hər dəm ümumi-mərhəməti,
Ətayə cümleyi-xəlqi ümidvar eylər.
Zəhi cəvad ki, mücrimləri təsəlli edüb,
Həmişə əfvi-günahilə iftixar eylər.

[1] Ya Adəm, bizdənmi qaçırsan?
[2] Bəli, sizdən həya etdiyimə görə.



"Kənzül-həqayiq"də məsturdur ki, Adəm behiştdən ixrac olduğuna səbəb bu idi ki, mütəərrizi-eşq iqtizayi-darül-məlam edüb mülazimi-ərbabi-məlamətdir, ana darüssəlam münasib olmaz və əhli-səlamət ixtilatilə rövnəq bulmaz. Şe'r:

Əgər məlamətə səbr eyləməzsən, ey qafil,
Məlamət eyləmə eşqi, yürü səlamət ilə.
Kəmali-eşq məlamətdədür, xəyal etmə
Ki, eşq zövq verə, olmasa məlamət ilə.

Və ol nihali-dilrüba ki, şəcəreyi-münhiyyə surətində Adəmə göründü, şahidi-məhəbbət idi və ol nəhyi tənzihindən qərəz izdiyadi-rəğbət idi ki, "Ən-nəfsu hərisun əla-ma muni'ə yümkün"[1] ki, əgər ol şəcərə mən' ilə ixtisas bulmasaydı və nəhy ilə məmnu' olmasaydı, Adəm kəsrəti-ləzzati-təna'ümatdan ana pərva qılmayaydı və şiddəti-iştiğali sairi-əzvaqdən ana mültəfit olmayaydı. Şe'r:

Lütfdür hər cövr kim, üşşaqinə ol mah edər,
Qılmağa nəzzarə qafil olanı agah edər.
Hər cəfasində həbibin bin inayətdür nihan,
Kim ki qafildir, cəfasindən anın ikrah edər.

Aşiqə mə'şuqdən cəfa eyni-vəfadür, andan qafil olmaq ana bir çəfadür. Şe'r:

Nə xoşdur ol ki, məhbub ola pürfən,
Könüldə dost ola və dildə düşmən.
Cəfasində vəfalər ola məzmun,
Olub eyni-tələb mən'inə məqrun.
Fərarə ola zahirdə tələbkar,
Vüsalə ola batində xəridar.

Əlqissə, Adəmə hökm oldu ki, "Ey Adəm, əgər muradın behişt isə, müyəssər oldu. Qənaət qıl və şəcəreyi-münhiyyə ətrafinə gəlmə, mütləq ana mail olma və mühəqqəq bil ki, anın meyvəsi ənduhü möhnət və sayəsi zülmətü heyrətdir". Adəm təbiəti müqtəzasincə behişti çün görmüşdü, andan rəğbət götürüb şahidi-məhəbbətə könül vermişdi, lacərəm ləşkəri-bəla ki, lazimeyi-eşqdir, ana mülazim oldu və girdabi-möhnət ki, eyni-dəryayi-məhəbbətdir anı əhatə qıldı. Şe'r:

Eşq də'vadır cəfa çəkmək günah,
Gər güvah olmazsa də'vadır təbah.

Sultanül-Arifin, qüddisə sirrəhu, buyurmuş ki, xilqəti-Adəmdən müqəddəm şahidi-məhəbbət cilveyi-zühur etməgə bir məzhər istərdi və ol zaman ki, dəbdəbeyi-ibadəti-İblis mülk və

[1] İnsanlar qadağan olunan şeylərə hərisdirlər.

mələkutu dutdu, şahidi-məhəbbət anın ittisalinə meyl etdi. Əmma sultani-qeyrət ol ittisalə rüxsət verməyüb və anın zövqi-vüsalın İblisə layiq görməyüb həmişə pərdeyi-xəfa və xəlvəti-ğəbadə saxlardı, ol vəqtədək ki, dəsti-qüdrət rüxsareyi-Adəmdən niqabi-ədəm götürüb anı məscudi-məlaik qıldı və Adəm şərəfi-kəramət bulub mənzuri-eyni-ə'yani-mümkinat oldu. Şe'r:

Münəvvər oldu cəhan pərtövi-cəmalindən,
Müşərrəf oldu zəman dövləti-vüsalindən.

Şahidi-məhəbbət nüzhətsərayi-behiştdə şəcəreyi-münhiyyə surətində kəndüsin ana ərz etdi və Adəm ixtiyarsız valeh olub, həm anda təmənnayi-müvasilət damənin dutdu. Əmma pərdədari-hərəmsərayi-iradeyi-Rəbbani və hacibi-dərgahi-bargah məşiyyəti-tə'yidi-Sübhani mən' etdi ki: "Ey Adəm, bu ərusi-zibanın hilyeyi-zinəti gövhəri-əşki-çeşmi-pürnəm və bu müxəddəreyi-rə'nanın zivəri-behcəti yaquti-şö'leyi-ahi-dəmadəmdir və cənnət fəzayi-fərəhəfzasində bu müyəssər olmaz və behişt sərayında bu hüləl surət bulmaz. Təhəmmül et ki, dari-dünyada bu zinətlər ilə müzəyyən olduqdan sonra anın əqdi-təzvici sana müyəssər olur və ol zinətlər bu ərusin rövnəqi-cəmalın ziyadə qılur". Şe'r:

Ərusi-eşqə zivər ruyi-zərdü əşki-gülgundur,
Dili-suzanü cismi-dərdnakü çeşmi-pürxundur.
Bu zivər hasil olmaz bəzmgahi-səhni-cənnətdə,
Mətai-xaneyi-möhnətfəzayi dünyəyi-dundur.

Pəs Adəm ki, aşiqi-biqərar idi, naçar və'deyi-vüsal və ümidi-ittisal ilə tərki-behişt edüb, möhnətxaneyi-dünyayı ixtiyar etdi və həvayi-məhəbbətdə zövqilə daməni-səbr dutdu. Hökm oldu ki: "Ey Adəm, Həvvadən mübaidət ixtiyar et və mülki-fərağətdən təcavüz edüb səri-kuyi-bəladə qərar et ki, həngami-vüsal münqəzi oldu və əyyami-fəraq gəldi və zəmani-müsahibət əncam bulub əvani-müfariqət oldu". Şe'r:

Ey maili-rahət, qəmə həmrah olğıl,
Dəm zövqdən urma, həmdəmi-ah olğıl.
Ey came'i-hər sifət, vüsali buldun,
Hicran ələmindən dəxi agah olğıl.

Əlqissə, miqrazi-inqirazi-müddət rişteyi-müvafilət peyvəndi qət' edüb və Adəm Həvvadən müfariqət qılub hər biri bir diyarə düşdü və hər biri yüz bin bəlaya sataşdı. Adəm vadiyi-Sərəndib sərgərdanı olub, Həvva sahili-dəryayi-Hində düşdü. Şe'r:

Nə işdir, ey fələk, dildari dildarindən ayırmaq,
Cəfakeş aşiqi yari-vəfadarindən ayırmaq.



Adəm və Həvva kəndü halətlərinə giryan və cəmi' i-məlaik onların vaqiələrinə heyran olub iki yüz il bu növlə pərişanlıq çəkdilər və əşki-nədamət tökdülər. İbn-Əbbasdən nəqldir ki, hərgah ki, Adəm yadi-behişt edərdi, bihuş olub özündən gedərdi. Həzrəti-İzzətdən nida gəldi ki: "Ey Cəbrail, Adəm qəribdir, anınla müanisət qıl". Bir gün Adəm Cəbraildən sual etdi ki, "Ey ənisü cəlisüm, Həvvadən nə xəbərin var?" Cəbrail ayıtdı ki, "Ol sakini-sahili-dəryayi-Hind olub, sənin fəraqinlə giryandır və işi həmişə ahü fəğandır". Adəm ol xəbər istima'indən bihuş olub aləmi-müraqibətdə gördü ki, Həvva sahili-dəryadə əbrvar seylabi-sirişki dəmadəm töküb der ki: "Ya həbibi Adəm ə'ca'iun əntə əm şəb'anun ə'labisun əntə əm uryanun ə-na-imun əntə əm yəqzanun"[1]. Adəm cəvab vermək tədarükündə ikən özünə gəlüb Həvvayi görməyüb bir növhə qıldı ki, Cəbrailə təzəlzül düşüb sual etdi ki: "Ey Adəm, bu nə halətdir?" Adəm surəti-vaqiəsin bəyan etdikdə Cəbrail ol xəbərdən mütəəssir olub münacat etdi ki: "Ya Rəb, bu qəribi-biçarəyə rəhm et". Xitab gəldi ki: "Ey Cəbrail, vəqt oldu ki, gülzari-ümidə nəsimi-məqsəd güzar qıla və ol nəsimlə qönçeyi-məqsud açıla". Şe'r:

Ahi-ataşbari üşşaqın sirayətsiz degil,
Aqibət hər qəm yetər payanə, qayətsiz degil.

Əlqissə, Adəmin tövbəsi qəbul olub, duası icabət buldu. Mühəqqiqlərdən nəqldir ki, səbəbi-qəbuli-tövbeyi-Adəm üç nəsnə idi: biri həya və biri büka və biri dua. Əmma həyası ol qayətdə idi ki, ibtidai-xilqətdə üç yüz il baş qaldırub yuxarı baxmadı və yəminü yəsarə nəzər buraxmadı. Əmma bükası ol mərtəbə bulmuşdu ki, hücumi-seylabi-əşkdən rüxsarində cuybarlər əyan olub və Fərat və Dəclə kibi ondan vühuş və tüyur təməttö' bulub derlərdi ki: "Nə xoş abi-xoşgüvar və nə şərbəti-sazgardır". Adəm ol sözü istehzayə həml edüb bir gün münacat etdi ki: "Ya Rəb, vühuşü tüyur bənim abi çeşmimə təməsxür edərlər və abi-şura şərbəti-xoşgüvar derlər". Nida gəldi ki: "Ey Adəm, heç cövhər gövhəri-əşki-əhli-niyazdan ə'la və heç şərbət zülali-sirişki-mərdümi-pakbazdən əclə degil". Filvaqe', bir gövhər ki, mə'dəni dideyi-ərbabi-nəzərdir, xaki-məzəllətdə qalmaz və bir cövhər ki, bənim töhfeyi-dərgahimdir, mühəqqər olmaz. Şe'r:

Vəh nə mə'dəndir səvadi-çeşmi-tər kim, andadır
Daneyi-dürri-sirişkü ləm'eyi-nuri-bəsər.
Ol birində rütbeyi-me'paci-dərgahi-qəbul,
Bu birində qüvvəti-keyfiyyəti-feyzi-nəzər.

Əmma duayi-Adəm bu idi ki, "Ya Rəb, Məhəmməd və Ali-Məhəmməd həqqi üçün tövbəmi qəbul et". Bir gün bargahi-İzzətdən nida gəldi ki: "Ey Adəm, Sən Məhəmmədi nə bilürsən ki, zeyli-şəfaətinə mütəməssik olursan?" Adəm ayıtdı: "Ya Rəb, Məhəmmədin ismi-şərəfin səfheyi-saqi-ərşdə sənin nami-lətifinə müqarin gördüm və bildim ki, andan əşrəf və əfzəl xəlqin yoxdur, ana təvəssül edərəm". Şe'r:

[1] Ey dostum Adəm, acmısan, toxmusan, geyimlimisən, çılpaqmısan, yatmışmısan, yoxsa oyaqmısan?

Əsəri-nuri-Mustafayi görün,
Xatəmi-xeyli-ənbiyayi görün.
Nuri-rə'yi çirağı-aləmdir,
Abi-ruyi şəfi'i-Adəmdir.

Və Adəmin bir müsibəti dəxi qətli-Habil idi. Rəvayətdir əhli-təfsirdən ki, qəbuli-tövbədən sonra Adəm Həvvayə mülhəq oldu və igirmi növbət Həvva hamilə olub, hər növbət bir qulam və bir cariyə ondan zühurə gəldi. Və şəriəti-Adəmdə hər bətnin cariyəsi qeyri bətnin qulaminə verilmək adət ikən, ittifaqən Habilin həmzadı olan İqlimya nam cariyə Qabil həmzadı olan Yəhuda nam cariyədən əcməl vaqe' oldu və Adəm Habil həmzadı olan cariyəyi Qabilə hökm qıldı və Qabil adəti-məsnunəyə qail olub, qəbul etmədi ki, İqlimyayı Habilə verüb kəndü Yəhudayə qənaət qıla və sayir övladi-Adəm kibi müti' və münqadi-şər' ola. Mükabirə qıldı ki: "Ey Adəm, bu müddəa əsəri-məhəbbətindir, nə ki müqtəzayi-şəriətin". Adəm ayıtdı: "Əgər bənim səlahimə razı olmazsan, mürafiənizi Qaziyi-hacatə rücu edüb anın əmrinə razı olun və anın hökmünə mütabiət qılun". (Anların) biri müzare'idi, məzru'atindən bir qaç xuşə hazır edüb və biri çoban idi, bir qoyun mühəyya qılub bir ərsədə qoyub şərt etdilər ki, hər kimin qurbanı məqbul olursa, İqlimayı ol təsərrüf qıla. Mütərəssidi-hökm olduqda aləmi-qeybdən bir bərqi-lame çıxub Habilin qurbanın təsərrüf qıldı və Qabilin qurbanı məəttəl qaldı. Bu vasitədən atəşi-həsəd Qabilin binayi-ixtiyarın yaxub və seylabi-rəşk mə'mureyi-qərarın yıxub Habilin həlakinə əzm etdi və himmət dutdu. Adəm mütəvəccihi-ziyarəti-Beytül-müqəddəs olduqda fürsət bulub, məşğuli-xab ikən anı həlak edüb, qırx gün başı üzərinə götürüb gəzdirdi, zira bilməzdi ki, nə etmək gərək. Bir gün gördü ki, bir qürab bir hüfrə məhfur edüb bir qürabi-meyiti dəfn etdi. Andan irşad alub, Habili dəfn edüb üzərindən getdi. Şe'r:

Rəşkdir canə iztirab salan,
Rəşkdir aləmi xərab qılan.
Rəşkdir mövcibi-cəfayi-Yəzid,
Rəşkdir kim, Hüseyni etdi şəhid.

Əlqissə, Adəm Beytül-müqəddəsdən müraciət qıldıqda cəmi'i-övladı istiqbal edüb, Habil anların silkində olmamağın istifsar etdikdə dedilər: "Bir neçə gündür ki, qayib olubdur". Adəm müztərib olub yeddi gün təcəssüsü təfəhhüs etdi, səkkizinci gün məlalətlə uyğuya getdi. Vaqiəsində gördü ki, Habil aiudeyi-xakü xun olub istiğasə edər ki: "Ya əbətah əl-qiyas!"[1] Adəm iztirab ilə bidar olub fəryad etdikdə Cəbrail hazır olub ayıtdı: "Ey Adəm, bu nə fəğandür?" Adəm surəti-vaqiəyi bəyan edüb Habilin halın sordu. Cəbrail ayıtdı: "Habili Qabil həlak edüb bir mövze'də dəfn etmişdir". Adəm bünyadi-növhə qılub təzərrö' etdi ki: "Ey bəradər, anın məzarın bana göstər". Cəbrail Adəmi Habilin məzarı üzərinə gətürüb və Adəm anın məzarindən topraq hicabın götürüb gördü ki, peykəri pozulmuş və ə'zası parə-parə olmuş. Ağazi-növhə qılub ruyi-təzərrö' bargahi-biniyazə dutdu və münacat etdi ki: "Ya Rəb, Qabil

[1] Ey ata, yardım et.



sənin hökmindən təcavüz qılub və bənim hörmətim dutmayub, bu məzlumi qətl etmiş, cəzasın ver". Həzrəti-İzzətdən nida gəldi ki: "Ey Adəm, müqərrər etdim ki, nisfi-əzabi-duzəx Qabilə mənsub ola və ol əzab içində müəbbəd qala". Ey əzizlər, hərgah ki, Adəm hörmətin dutmayub anın fərzəndin qətl edən bunca əzabə müstəhəqq olur, mə'lumdur ki, Həzrəti-Rəsulun ki, Adəmdən əşrəf və əfzəldir, hörmətin dutmayub əksər övladın şəhid edən bunca nə tə'zibə istehqaq bulub dəvamla nə üqubətdə qalur.

"Səhifeyi-Rəzəviyyə"də məsturdur ki, qatili-Hüseyn duzəxdə bir atəşin tabut içində məhbus ola ki, rayiheyi-kərihəsindən əhli-duzəx nifrət qıla. Bitəkəllüf, Hüseyni-məzlumin qətli vaqieyi-ə'zəm və hadiseyi-əkbərdir və ol çəkdigi möhnət Adəm çəkdigi möhnətdən bətərdir. Əgərçi Adəm behiştdən cüda düşüb vadiyi-qürbətdə sərgərdan oldu, əmma Həzrəti-Hüseyn Mədineyi-mütəhhərə və Məkkeyi-mü'əzzəmə və Rövzeyi-Rəsulullahdən məhrum olub qürbəti-Kərbəlada azar və iza buldu. Və əgər Adəm bir fərzəndinin qətlindən münzəcir olub məlalət çəkdi, ol Həzrət övladi-mütəəddid şəhadətin müşahidə qılub əşki-nədamət tökdü. Şe'r:

Möhnəti-Adəm degil manəndi-ənduhi-Hüseyn,
Filməsəl bir şö'lədir bərqi-bəladan ol şərər.
Əşrəfi-xəlqi-cəhanın əksəri-övladını
Qətl edən dünyadəvü üqbadə olmaz bəhrəvər.

## FƏSLİ-İBTİLAYİ-NUH ƏLEYHİSSƏLAM

Badiyeyi-möhnət bəlakeşlərinin və badeyi-məhəbbət sərxoşlarının biri dəxi həzrəti-Nuh Nəbidir ki, doqquz yüz il hədəfi-sihami-siyasəti-süfəhayi-qövm oldu və səngdillər cəfasın çəküb səbr qıldı və də'vət etməkdən təqsir etmədi və dəqayiqi-təbliği-əhkami-İlahidə andan təkahül və təkasül zühurə yetmədi. Təzəllümdə məsturdur ki, ol vaze'i-qanuni-şəriət və ol gülzari-rəyahini-kəramətə hər gün səhabi-sitəmdən jaləvar ol miqdar səngi-siyasət yetərdi ki, cismi-lətifi lə'li-abdar kibi daşlar içində itərdi. Əmma yenə Cəbrail hazır olub, ol gü-li-bağı-risaləti laləvar cameyi-pürxun və ə'zayi parə-parə ilə daşlar içindən çıxarub, pərü balın ə'zasına sürüb, səhhət verüb üzərindən gedərdi və ol Həzrət yenə əncümənarayi-qövm olub kəlimeyi-"Qulu lailahə illəllah"[1] ibarətilə anlara ağazi-də'vət edərdi. Müddəti-ömründə bu təriqi məsluk edüb, üç qərnün qövmi ilə müdara qıldı, əmma gün-gündən qövmün cəfası ana ziyadə oldu. Bir gün bir müdbir bir fərzəndi-napəsəndinə Nuhu göstərüb nəsihət qıldı ki: "Ey fərzənd, bizim təriqimizdə bu şəxsə ihanət eyni-ibadətdir [və izhari-məlamət kəmali-taətdir] qafil olmayasan və təqsir qılmayasan". Ol həramzadə ayıtdı: "Ey pedər, olmaya bu vəsiyyət ədə olmadan əcəl yetüb bəni bu ibadət səvabından məhrüm edə". Pəs Həzrəti-Nuha mütəvəccih olub bir daşla cəbini-mübarəkin məcruh edüb məhasini-şərifinə qan rəvan oldu və ol seyli-xunablə dəryayi-bəlayi-tufan təməvvüc edüb Həzrəti Nuh dua qıldı ki: "Rəbbi inni məğlubun fə'ntəsir"[2]. Nəvəki-duası hədəfi-icabətə yetüb və əhateyi-tufan aləmi dutub cəmi'i-müxalif ğərqə oldu, həman Nuh tabe'lərilə qurtuldu. Şe'r:

Seyli-bidadü sitəmdir mənşəi-tufani-Nuh,
Olmasın qafil bəladan əhli-bidadü sitəm.
Xaneyi-zalim gedər seylabə manəndi-hübab,
Dutsa tufan aləmi məzlumə tufandan nə qəm.

"Kənzül-Qərayib"də məsturdur ki, zövrəqi-Nuh əyyami-tufanda hər tərəf seyr edərkən xitteyi-Kərbəlaya irişdikdə Hayiriyyə dedikləri mənzildə mütəhəyyir olub, təvəqqüf edüb hərəkətdən düşdü. Həzrəti-Nuh bu halətə heyrət etdikdə nida gəldi ki: "Ey Nuh, bu ol mənzildir ki, səfineyi-"Məsəlu Əhli-Beyti kə-məsəli səfinəti Nuhun"[3] bu mənzildə qərqeyi-girdabi-xun ola və Əhli-Beytin əksər əfazilü ə'yanın bu mənzili-daireyi-heyrətə buraxıb sərgərdan qıla. Filvaqe', təəmmül etdikdə münasib görünür hədisi-səhih müqtəzasincə səfineyi-Nuha Əhli-Beyti-risalət. Zira həvayi-nəfsi-əshabi-inadla dəryayi-məsayib mütəlatim olduqda və səhrayi-Kərbəlayi tufani-bəla əhatə qıldıqda hər kim Əhli-Beytə daxil idi, bəlayi-mə'siyətdən nəcat buldu və hər kim xaric idi, həlak oldu.

Rəvayətdir ki, Həzrəti-Hüseyn Mədinədən əziməti-Kufə qıldıqda yeddi yaşında bir mə'sumə-si olub mürafiqətinə qüdrət bulmamağın Ümm Sələmə xidmətinə qalmışdı və vaqiyeyi-Kərbəlada Həzrəti-İmam şəhid olduqda bir qurabi-mişkinbal pərü balın qanla rəngin edüb,

[1] Deyin: Allahdan başqa Tanrı yoxdur.
[2] Allahım, məğlub oldum, kömək et. (Qur'an, 54, 10)
[3] Əhli-Beytin vəziyyəti Nuh gəmisinin vəziyyətinə bənzər.



mütəvəccihi-Mədinə olub, Ümm Sələmə divari-sarayinə qonub bal əfşanlıq edərdi. Ol mə'sumə görüb, fərasətlə Hüseynin şəhadətin mə'lum edüb fəğan qıldı. Ümm Sələmə ayıtdı: "Ey məxdumə, nə vaqe' oldu?" Ol mə'sumə ayıtdı: "Ey əziz, qurab müxbiri-əhvali-Səfineyi-Nuhdur, qaliba bu gün Səfineyi-Əhli-Beyt tufani-bəlayi-dünyadan nəcat buldu və mühərriki-həvayi-qürbi-İlahi anları vərteyi-haildən vasili-sahili-nəcat qıldı. Və bu qürab andan gəlür və anlardan xəbər verür". Ümm Sələmə ayıtdı: "Bu vaqiənin bir nişanəsi var". Ol mə'sumə ayıtdı: "Nişanə nədir?". Ümm Sələmə ayıtdı: "Bir gün Həzrəti-Rəsul xəlvətdən dışrə çıxub bir müddət məks edüb müraciət etdi julidəmuy və qubaraludəruy". Dedim: "Ya Rəsulullah, bu küdurətə bais nədir?" Buyurdu ki: "Ey Ümm Sələmə, bu gecə bana İraqda bir məqam göstərdilər ki, ana Kərbəla derlər və ol mənzildə Hüseynin və bə'zi övladının qətlgahını ziyarət etdirdilər və bən ol mənzildən bir miqdar xak alub gəlmişəm". Və mübarək əllərin açub ol toprağı bana təslim etdi və buyurdu ki: "Bu toprağı bir şişədə hifz et". Ol gün ki, və'deyi-şəhadət yetər, bu şişədəki əczayi-türab övraqi-gül kibi qan rəngin dutar". Və bən ol toprağı hifz etmişəm.

Və bir rəvayət dəxi Qazi Əyaz kitabi-"Şəfa"dən nəql etmiş ki, Həzrəti-Rəsul Hüseyni-məzlumun qətlindən xəbər verüb zəmini-Kərbəladan ki, ona Təftəf derlərdi, bir qəbzə xak alub Ümm Sələməyə tapşurdu. Və bir rəvayət dəxi İmam Yafei "Mir'atül-cinan"da Ənəs bin Malikdən İmam Hənbəl vasitəsilə nəql edüb məstur etmiş ki, bir gün mələküs-səhab hüceyri-risalətə gəlüb Həzrəti-Hüseyn hazır oldu, qolların Həzrəti-Rəsulun boynuna buraxub mübarək gisularıyla bünyadi-müla'əbə qıldı. Mələküs-səhab ayıtdı: "Ya Rəsulullah, bu pərvərdeyi-ne'mətin olan fərzəndi-səadətməndini ümməti-bivəfa dəşti-Kərbəlada qətl edələr". Və Kərbəladan bir miqdar xak nümunə üçün Həzrəti-Rəsulə ərz etdi və Həzrət anı Ümm Sələməyə təslim etmişdi. Əmri-təqdir ilə Ümm Sələmə ol şişəyi hazır edüb mülahizə qıldıqda gördülər ki, ol xak xunab olmuş və ol nişanə vüqu bulmuş. Çün nişanə ilə Kərbəla vaqiəsinin keyfiyyətin bildilər, ağazi-müsibət qılub əzayə əzimət qıldılar. Şe'r:

Ya Rəb, nə fitnədir ki, xərab etdi aləmi,
Azürdə qıldı ruhi-Rəsuli-mükərrəmi.
Ə'yani-Ali-Əhmədə gərdun cəfa qılub,
Əşrafi-Əhli-Beytə rəva gördü matəmi.
Va həsrəta ki, buldu xələl seyli-fitnədən,
Şər'in binayi-mütqinü bünyadi-möhkəmi.
Gülzari-Kərbəlaya töküldü nihali-qəm
Xoşdur kim, anı eyləyə sirab göz nəmi.

## FƏSLİ-İBTİLAYİ-XƏLİLULLAH

Diyari-bəla müsafirləri və əqari-əna mücavirlərinün cümləsindən biri məhbubi-Mali-ki-Cəlil Həzrəti-İbrahim Xəlildür ki, ta xəl'əti-xilqətlə sərəfraz oldu və xəlvəti-xülllətdə şərəfi-məhrəmiyyət buldu, hərgiz hücumi-bəladan əman bulmadı və süduri-hadisədən fariğ olmadı. Cümlə bəladan biri oldur ki, Nəmrudi-mərdudun atəşi-istilası zəbanə çəküb və səhabi-təsəllüti barani-bəla töküb istid'a qıldı ki, ol təlayi-təmam-əyarə atəşi-suzanla tab verə və ol şəm'i-şəbistani yaxub, zülmətsərayi-küfrinə nuri-sürur yetürə. Əlqissə, Həzrəti-İbrahim mancəniqə girdikdə və məlaikə anı atəşə mütəvəccih gördükdə münacat etdilər ki: "Ya Rəb, cəmi'i-bəni-Adəmdən bir kimsənədir ki, sənün əhədiyyətinə mö'tərifdür və ibadətünlə müttəsifdür, anı yandırmaq istərlər. Rüxsət ver ki, müavinət qılub anı bu təhlükədən xilas edəlim". Həzrəti-İzzətdən xitab gəldi ki: "Mülazimətinə gedün, əgər müavinət istərsə, mələd edün". Bu işarətlə Mələküs-səhab hazır olub ayıtdı: "Ey Xəlil, rüsxət versən seylabi-siyasətlə ə'danın naireyi-fəsadın müntəfi qılub, binayi-inadın fənayə verməyə hazır olmuşam". Və mələkül-ərz ayıtdı: "Əgər işarət olsa qövmi-Nəmrudi Qarun kibi təhtüs-sərayə çəkməyə əzimət qılmışam". Həzrəti-Xəlil ayıtdı: "Ey ümmali-karxaneyi-dünya və ey hüffazi-qəvanini-nizami-əşya! Səlahi-behbudimdə bənim ixtiyarım və dostdan gələn dərdin dərmaninə bənim iqtidarım yoxdur". Şe'r:

Dərdlə xürsənd olan dərdinə dərman istəməz,
Zövqi-möhnət birlə aşiq rahəti-can istəməz.
Hər kimi istərsə canan aləmi-eşqində fərd,
Səbr edər tənhalığa, ənsarü ə'van istəməz.

Bu mülahizələrdən sonra ki, Həzrəti-Xəlil mancəniqdən cüda olub atəşi-suzanə düşməgə qərib oldu, Cəbraili-Əmin ol şəm'in pərvanəvar başinə çizginüb ayıtdı: "Ey Xəlil, "həl ləkə min hacətina", yə'ni hacətin varmı? Həzrəti-Xəlilullah ayıtdı: "Əmma ileykə fəla", yə'ni ehtiyacım var, əmma sana yox?". Cəbrail ayıtdı: "Məděd istə andan ki, ana möhtacsan". İbrahim ayıtdı: "Əlləmhu bi-hali həsbi'ən-su'ali", yə'ni onun elmi halimə, mane'dir sualimə. Şe'r:

Qafil olmaz dərddən dərdə giriftar eyləyən,
Aşiqi-arif degil dərdini izhar eyləyən.
Əl çəkün dərdim əlacindən ki, təhqiq etmişəm,
İstəsə səhhət verür bimarə bimar eyləyən.

Filvaqe' bir aşiqi-sadiq ki, yardən qeyri kəndüyə əğyar bilür, əğyar tədbirilə yar dərdinə dərman qılmağı kəndüyə ar bilür. Rəvayətdir ki, İbrahimin kəmali-istiğnası-dəryayi-rəhməti mövcə gətirüb xitab gəldi ki: "Bəndən qeyrə-ümid dutmayanı bən də qeyrə möhtac etməzəm". Və bə'zi demişlər ki, Xəlilin cəvabı Cəbrailə bu olduki: "Bən məhvi-dustəm, heç düşmən görməzəm ki, bu cəfaləri andan biləm: haşa ki, dust cəfasindən şikayət qılam: "Yəf'əlullahü ma-yəşau və yəhkumu ma-yuridu"[1]. Bu göftarə müqarin nida gəldi ki: "Ya naru kuni bər-

[1] Allah diləyini yetirər və istədiyi şeyə hökm edər.



dən və sələmən əla-İbrahim", yə'ni ey atəşi-suzan sələmət olğıl Xəlilə nitə kim ol təbiəti-bəşəriyyətdən çıxub məhzi-ixlas oldu, sən dəxi təbiətindən çıxub ehraqı işfaqə təbdil et. Şe'r:

Gülşəni-ümmid əbri-səbrdən sirab olur,
Səbr qılsan ab gövhər, səng lə'li-nab olur.
Tirə olmaz kəsbi-zülmət eyləyüb hər xanə kim,
Cilvəgahi-pərtövi-xurşidi-aləmtab olur.

Və Həzrəti-Xəlilin bir müsibəti dəxi zibhi-İsmaildir ki, lisani-tənzilə cari olmuş ki: "İnnə haza lə-huvə'l-bəlau'l mubin"[1]. Rəvayəti-səhih və nəqli-sərihdir ki, bir gün Həzrəti-İsmail seydgahdən rüxsari-qübaraludlə Həzrəti-İbrahimin hüzurinə gəldikdə və Həzrəti-İbrahim nəzəri-iltifatlə ol afitabi-aləmtabın səfheyi-rüxsarın mütaliə qıldıqda silsileyi-gisuyi-müşkbarindən hər səri-mu bir rəgi-caninə peyvənd və şə'şəeyi-cəmali-pürnurindən hər rişteyi-şü'a bir üzvündə bənd olub, ləzzəti-didarində məhv oldu və təmaşayi-rüxsarində cümlə nəqdi-vücudun sərf qıldı. Şe'r:

Təalallah, bu nə rüxsari-mərğubi-dilaradır
Ki, dil dərkində aciz, can təmaşasində şeydadır.

Lacərəm silsileyi-qeyrəti-eşqi-İlahi mütəhərrik olub, rabiteyi-məhəbbəti-məcazinin inqita'i lazım gəldi və mə'şuqi-müşfiq aşiqi-sadiqin əğyardən qət' etməgə təvəccöh qıldı. Şe'r:

Yar istəməz ki, aşiqi əğyarə yar ola,
Hər ləhzə bir tərəddüd ilə biqərar ola.
İstər ki, lövhi sadə olub nəqşi-qeyrdən,
Peyvəstə kəndü nəqşinə ayinədar ola.

Əlqissə, çün Xəlilin qəlbini [məhəbbəti-] İsmail məmlu qıldı, vaqiəsində divani-qəzadən hökm oldu ki: "Ey məhrəmi-sərapərdeyi-xillət və ey müqtədayi-ümmət, əgər caddeyi-məhəbbətimdə sabitqədəmsən, bəndən qeyridən rəğbət götür və bu məftunu olduğun cigərguşənin rişteyi-həyatinə tiği-inqita' yetür". Şe'r:

Öylə kim mə'şuqi aşiq qeyrə dəmsaz istəməz,
Aşiqin mə'şuq həm qeyr ilə həmraz istəməz.

İbrahim ol uyqudan bidar olduqda Hacərə ayıtdı: "Ey həmsəri-mehriban, İsmailə təcdidi-libas birlə zivər [ver] ki, dost mehmanı olur". Hacər həsbül-işarə ol xurşidi-asimani-lətafətün sünbüli-gisuyi-müşkbarın şanələyüb və əndami-lətifün əlbiseyi-əlvanlə müzəyyən qılub mühəyya qıldıqda İbrahim ayıtdı: "Bir rəsən və bir tiğ dəxi həmrah eylə". Hacər ayıtdı: "Ya Xəlilullah, söhbəti-əhbab səbəbi-rabiteyi-ittisal olur. Tiğ ki, aləti-qət'dir, anda nə münasib və

[1] Yə'ni ki, bu bəla bir imtahandır ("Qur'an", 37, 106).

məcmə'i-əshab məhəlli-həlli-işkal olur, rəsən ki, aləti üqdədür, anda nə vacibdür?" Xəlilullah ayıtdı: "Şayəd bir qurban etmək lazım gələ və bağlamağa və kəsməgə tiğ və rəsən zərurət ola".

Əlqissə, İbrahim və İsmail Hacərə vida edüb rəvanə olduqda Hacər vərteyi-təfəkkürə düşüb mütəhəyyir qaldıqda İblis ki, mühərriki-silsileyi-fəsad və müə'ssisi-binayi-üdvanü inaddır, fürsət bulub əzm qıldı ki, xanədani-xillətə xiləl buraxa və mə'mureyi-nübüvvətin hiylə ilə yıxa. Bir piri-saleh surətində mütəməssil olub Hacərin xidmətinə gəlüb ayıtdı: "Ey saleha, bilurmüsən ki, İbrahim və İsmail qanda gedərlər?" Hacər ayıtdı: "Dost səlayi-ziyafət urmuş, ana icabət edərlər". İblis ayıtdı: "Ey qafil, qələt xəyal etmişşən, İbrahim İsmailin qanın tökmək istər. Tiğü rəsəndən əndişə nə olduğun bilmədünmi və surəti-halindən keyfiyyəti-[mə'alın] mülahizə qılmadınmı?" Və bu göftardən [İblisin] müddəası bu idi ki, cəmaəti-nisa riqqəti-qəlblə mə'rufdur və taifeyi-övrət qilləti-səbrü səbatlə mövsufdur. Hacər bu xəbərdən mütə'əssir olub iztirab qıla və Xəlilin əzimətinə mane ola. Hacər ayıtdı: "Ey piri-xərif, əcəb ki, sən İblis olmayasan? Zira Xəlil əğyar qətlindən fərar edərkən İsmail ki, yari-vəfadır, cəfasın rəva görərmi?" İblis ayıtdı: "Ey Hacər, vaqiəsində bu əmrə mə'mur olmuşdur". Hacər ayıtdı: "Xəlil kazib degil, fərmani-İlahi bu xüsusdə südur bulub, canibi-Həqdən işarət böylə oldusa, zülali-tiği-bəla çeşmeyi-abi-bəqadır və qeyrəti-xuni-İsmail laleyi-gülzari-izzü ə'ladır". Şe'r:

Canlə bizdən əgər xoşnud olur cananımız,
Canə minnətdir anun qurbanı olsun canımız.

İblis Hacərdən növmid olub Xəlilullah rəhgüzarın dutub ayıtdı: "Ey ə'qəli-zəman və ey əfzəli-əhli-cəhan, nə rəva ki, gülzari-nübüvvətin nihali-növrəsin ziynəti-gülşəni-iqtidar ikən vəsvəseyi-xabü xəyal ilə azürdeyi-tişeyi-cəfa qılasan və sədəfi-risalətin gövhəri-tabnakın zivəri-əfsəri-izzü e'tibar ikən dağdağeyi-fikri-mühal ilə girdabi-bəlaya salub mütəəssir olasan". Şe'r:

Bağbana, zinəti-gülzar olan şaxi-güli
Kəsmə, fövti-zinəti-gülzardən əndişə qıl.
Şad edüb əğyarını azürdə qılma yarını,
Rənci-yarü tə'neyi-əğyardən əndişə qıl.

Həzrəti-Xəlil bildi ki, ol bədbəxt İblisdir, dedi: "Ey müdbir, əgərçi miveyi-nəxli-həyatım və cövhəri-gəncineyi-zatım İsmaildir, həqqa ki, əgər hər rəgi-ə'zayi-tərkibim bir İsmail olsa və cümləsinin qət'inə əmri-Mə'bud südur bulsa, təvəqqüf etməyəm və təriqi-təxəllüf dutmayam". Şe'r:

Dərdi-eşqi-yar könlüm mülkünün sultanıdır,
Hökm onun hökmüdürür, fərman onun fərmanıdır.





İblisi-lə'in andan dəxi mə'yus olub, İsmaili tifl görüb fribə qabil təsəvvür qılub ayıtdı: "Ey güli-gülzari-nübüvvət və nihali-hədiqeyi-risalət, əzimətün nə yanadır?" İsmail ayıtdı: "Dost ziyafət xanəsinə". İblis ayıtdı: "Haşa, səni İbrahim zibh etmək tədarükündədir". İsmail ayıtdı: "Ey piri-gümrah, əgər bənim qətlim ana əmr olunmasa dəxi, anın itaəti bana əmr olunmuşdur, inqiyadində təmərrüdüm yoxdur; xüsusən ki, əmr olunmuş ola". Şe'r:

Canımı canan əgər istərsə minnət canimə,
Can nədir kim, anı qurban etməyəm cananimə.

Həzrəti-Xəlil ayıtdı: "Ey İsmail, bu bədbəxt İblisdir, hiyləsindən həzər et". İsmail İblisə səngi-ictinab atub dəf' etdikdən sonra, validi-saleh və vələdi-xələf ittifaqilə Minayə gəldilər. İbrahim tiğ çəküb rəsən çıqarub ayıtdı: "Ey fərzəndi-əziz, nazimi-kargahi-hikmət və müsəvviri-surətxaneyi-fitrətdən zibhünə hökm olubdur, səlahun nədir?" İsmail ayıtdı: "Ey validi-büzürgvar, bu fərmanə mövcib nə ola?" Xəlil ayıtdı: "Məhəbbət qəbuli-şirkət qılmaz və məhəbbətdə müşarikət münasib olmaz. Qaliba tüğyani-məhəbbətin mövcibi-təhriki-qeyrəti-Həzrəti-İzzət vaqe' oldu". İmail ayıtdı: "Ey əziz!

Əcəbən lil-mühibbi-kəyfə yənamun
Küllə nəvmin' əl-əl-muhibbi həramun-

demişlər[1]. Mə'şuq aşiqi həmişə bidar və cilveyi-hüsnündən xəbərdar istər, sən ki, də'vayi-eşqlə aludeyi-qəflət və asudeyi-xabi-rahət olasan, əcəbmidir ki, böylə xabi-pərişan görüb pərişanlıq bulasan".

Əlqissə, hər təqdirlə İsmail ol vaqiəyi kəndüyü şərəfi-ruzigar bilüb və ol səadətə mübahit qılub ayıtdı: "Ya-əbəti, if'əl matu'məru"[2].

"Ey pədəri-büzürgvar, İsmailə bədəl var, Həzrəti-Cəlilə əvəz yoxdur. Vahidi-Mütləq damənin dut, yoxsa İsmail kibi çoxdur". İbrahim ayıtdı: "Ey fərzəndi-girami, nə vəsiyyətün var?" İsmail ayıtdı: "Ey məxdum, üç vəsiyyətüm var: biri ol ki, zəmani-qətl ə'zayi-cismümi möhkəm bağlayasan ki, iqtizayi-ələmi-tiğ irişdikdə cismi-zəifimi biixtiyar iztirabə salub hərəkatimdən sana bir asib yetüb bana mövcibi-isyan olmaya". Şe'r:

Çəkməzəm qəm töksə qanım tiği-bürranın sənin,
Vəhmim andandır ki, pürxun ola damanın sənin.

Və bir vəsiyyətüm dəxi oldur ki, zəmani-zibhdə rüxsareyi-zərdimi yer yüzünə buraxub bəni bismil edəsən, olmaya ki, mütalieyi-səfheyi-rüxsarım etdikdə məhəbbəti-təbii icrayi-hökmə tə'xir verüb, qətlimə mane' olub bu surət səni təqsiritaətə müttəhim qıla. Və bir vəsiyyətüm dəxi oldur ki, darüs-sə'adətünə müraciət qıldıqda valideyi-mehribanı təsəlli edüb riayətin vacib biləsən və səbrü şükr təriqinə hidayət qılasan.

---

[1] Sevən bir kimsə necə yatar.
Sevən kimsəyə yuxu haramdır.

[2] Ey ata, sən əmri yerinə yetir (Qur'an, 37, 102).

Vəsaya tamam olduqda Həzrəti İbrahim İsmailin əllərin və ayaqların möhkəm bağlayub hülqi-mübarəkinə tiği-bidiriğ urduqda məlaikeyi zəminü asiman xürușə gəlüb təəccüb etdilər ki: "Ya Rəb, bu nə bəndeyi-əzimüşşə'ndür və müxlisi-ədimül-əqran ki, təriqi-məhəbbətdə ataşi-suzanə buraxsalar, təvafüt qılmaz və cigərguşəsinün qətlinə hökm edərlər, münzəcir olmaz?!"

Əlqissə, yetmiş növbət tiğ çaldı, qət' etmədi və o cismi-lətifə tiği-tizdən zərər yetmədi. Xəlilullah xəşmnak olub tiğini daşə çaldıqdə tiği-tiz zəban çəküb ayıtdı: "Ey Rəsuli-xuda, "Əl-Xəlilu yə murni bil-qət və'l-Cəlilu yənhani"[1] və bən mütərəssidi-hökmi-Cəliləm nə ki, tabei-əmri-Xəlil. Rəvayətdir ki, bu halətdə məlaikeyi-ülvi mütəəccib olub ayıtdılar: "Aya, İbrahim əsxamıdur ki, cigərgüşin qurban edər, ya İsmail əkrəmmidür ki, Həq rizası üçün tərki-can edər?" Həzrəti-Vacibülvücuddən nida gəldi ki: "Mən İbrahimdən əsxa və İsmaildən əkrəməm ki, İbrahimin qurban etmədən qurbanın qəbul edərəm və İsmailə sual hədiyyə irsal eylərəm".

Əlqissə, İbrahim mütəhəyyir ikən Cəbrail enüb qurban yetürdi ki, "Ey Xəlil, "Qəd səddəqtə-rö'ya"[2] bəşarət sana ki, qurbanın məqbul oldu və ibadətün dərəceyi-qəbul buldu və bu kəbşi-əzimülbərakatı İsmail əvəzinə qurban et". İbrahim nişati-təmamla bəndi-bəlayi İsmaildən götürüb ol qurbanə tiğ çalub İsmailə ayıtdı: "Ey fərzəndi-əziz, çün nəqdi-ibadətin sikkeyi-qəbul buldu və dərgahi-rizayi-Mə'bud çehreyi-mübarəkünə məftuh oldu, bu şükranə ilə bir dua qıl və bu fürsəti qənimət bilüb bargahi-Kibriyadən iltimasi-əfvü əta qıl". İsmail ayıtdı: "İlahi, peyğəmbəri-axirüzzəmanın ümmətinə rəhmət qıl ki, anlara olan əfvü əta həman bənadır". Cəvab gəldi ki: "Ey İsmail, hacətin qəbul oldu və duaların dərəceyi-icabət buldu". Şe'r:

Ey xoş ol bəndə kim, ibadətlə
Şərəfi-izzü e'tibar bula.
Kəndüsin qurtarub mə'asidən,
Qeyri xəlqün dəxi şəfi'i ola.

Həzrəti-Əli bin Musər-Rzadən nəqldir ki, İbrahim İsmail əvəzinə qurban etdikdən sonra xatiri-şərifinə xütur etdi ki: "Fərzəndimi qurban etməyə 'əzm etdigümdə xoş səvab hasil etdim". Həzrəti-İzzətdən vəhy gəldi ki: "Ey Xəlil, məcmui-xəlqdən kimi ziyadə sevərsən?" İbrahim ayıtdı: "Ya Rəb, sənə mə'lumdur: – Həzrəti-Məhəmmədi ki, əfzəli-kainatdır". Xitab gəldi ki: "Məhəmmədimi ziyadə sevərsən, ya kəndüni?" İbrahim ayıtdı: "Həqqa ki, Məhəmmədi". Xitab gəldi ki: "Anın övladın ziyadə sevərsən, ya kəndü övladını?" İbrahim ayıtdı: "Həqqa ki, anın övladını". Nida gəldi ki: "Ey Xəlilullah, anın ə'əzzi-övladını Kərbəlada şəhid edələr". İbrahim ol vaqiə istimaindən mütəəllim olub giryan olduqda nida gəldi ki: "Ey İbrahim, məzlumi-Kərbəla üçün bu bir miqdar təəllümün səvabi oğlun qurban etdiyin səvabindən ziyadədir".

Təəmmül edin, ey əshabi-fitnət və ey ərbabi-fərasət ki, şəhidi-Kərbəla üçün növhə qılmaq nə miqdar əməli-mə'cur və ibadəti-mə'surdur. Filvaqe, münasibdür əhvali-şəhidi-

---

[1] Xəlil mənə əmr edir, Cəlil isə qadağan edir.
[2] Sən yuxunu çin elədin ("Qur'an", 37, 105).



Kərbəla vəqaye'i-İbrahim və İsmailə. İbrahim əgər ataşi-Nəmrudə təvəccöh qıldıqda məlaikədən müavinət qəbul etmədi, şahi-Kərbəla dəxi məsayibi-Kərbəlada ləşkəri-cin və sipahi-mələkdən müsaidət istəyüb dəməni-istiğasə dutmadı. Və əgər İbrahim vaqiə hökmilə bir oğlun zibh etməyə iqdam etdi, şahi-Kərbəla dəxi vaqiə müqtəzasincə mütəəddid övladü ənsabın fəda qılub dərəcəyi-kəmalə yetdi; və əgər İsmail nəqdi-canın sərfi-rahi-Həqq etməgə müvəffəq oldu, Şahi-Kərbəla dəxi ol mərtəbəyi əhsəni-vəchlə hasil edüb şəhadətə-tövfiq buldu.

Əimmeyi-Əhli-Beytdən mənquldur ki, hər daneyi-sirişk kim, şühəda üçün gözdən tökülür, sədəfi-şərəfdə bir gövhəri-abdar olub, mizani-əməldə əksər səyyiati anınla rəf'olur və səhifeyi-ə'maldən əksər səvadi-xətayi ol məhv qılur. Şe'r:

Kərbəla təşnələrin yad qılub əşk tökən
Ətəşi-ruzi-cəzadən ələmü qəm çəkməz.
Şühəda halın anub şövqilə yanub yaxılan
Ələmi-şö'leyi-nirani-cəhənnəm çəkməz.

Şeyx Səhl bin Əbdullah demişdir ki: "Bən Aşura günü əşki-nədamət tökərdim və təəssüf çəkərdim ki, diriğa vaqieyi-Kərbəlada ol şahın mülazimətinə müvəffəq olmadım və məqdəmində səadəti-şəhadət bulmadım. Bu məlalətlə dideyi-nəmnakım uyquya getdikdə Həzrəti-Rəsuli vaqiəmdə gördüm, buyurdu ki: "Ey Səhl, Həzrəti-Zülcəlalın əzəməti haqqı üçün ki, hər qətreyi-əşk ki, bənüm fərzəndim müsibətində gözdən tökdün, ol qədər səvabə səbəbdir ki, hesabindən küttabi-divani-əflak acizdir. Və bu dəxi əxbari-mö'təbərdəndir ki, Həzrəti-Hüseyn ruzi-Qiyamət ərseyi-Ərəsatə çehreyi-xuna-ludlə gəlüb münacat edər ki: "Rəbbi şəfi'əni mən bəka əla müsibət", yə'ni, İlahi, rüxsəti-şəfaət ver bana anlar üçün ki, əşkbar olmuşlar və bu tə'ziyətimdə Əhli-Beytümə təşəbbüh etmişlər. Şe'r:

Xoş ol ki, yad qılub Kərbəla şəhidlərin
Zəman-zəman tökə lö'lö'i-şahvari-sirişk.
Gər olmaseydi qərəz matəmi-Hüseyni-şəhid,
Riyazi-didədə olmazdı cuybari-sirişk.

## FƏSLİ-İBTİLAYİ-HƏZRƏTİ-YƏ'QUB

Zümreyi-ərbabi-bəla və firqeyi-əshabi-ənanın biri Yə'qub Nəbi, biri həzrəti-Yusufu-siddiqdir. Həzrəti-İmam Rüknəddin əleyhirrəhmə tərcümeyi-"Sureyi-Yusif"də böylə təhrir etmiş ki, bir gün şəmseyi-eyvani-risalət və dibaçeyi-divani-nübüvvət mütəməkkini-məsnədi-rahət olub, dəryayi-iltifatın bir kənarində gövhəri-mə'dəni-vəfa Həsəni-Müctəba və bir kənarində sərvi-cuybari-səxa Hüseyn bin Əliyyi-Murtəza qərar dutub, gah ol gövhər nəzzarəsindən didəyə nur verürdi və gah bu sərvin müşahidəsində sinəyə sürur yetirürdi. Bu halə müqarin Cəbrail, Məliki-Cəlildən gəlüb səlam yetirüb Həsən və Hüseynə işarət qılub ayıtdı: "Ya Rəsulullah, ətuhibbuhuma?"[1] Həzrət buyurdu ki: "Nə'əm əvladuna və əkbaduna"[2]. Cəbrail ayıtdı: "Ya Nəbi, məhəbbətləri mütəsavimidir, ya mütəfavitmi?" Həzrəti-Rəsul ayıtdı: "La-fərqə beynəhuma[3], bir bəhri-mə'arif gövhərləridür və bir fələki-məkarim əxtərləridür". Cəbrail ayıtdı: "Ya Rəsulullah, bu şəhzadənin birin zəhri-cəfa ilə həlak qılub, birinün tiği-bidiriğ ilə bağrın çak edələr". Həzrəti-Rəsul ayıtdı: "Ya əxi mən yəf'əlu haza beynəhuma"[4]. Cəbrail ayıtdı: "Ya Rəsulullah, ümməti-bivəfalərin". Həzrəti-Rəsul ayıtdı: "Aya, nə cürmlə məqtul olalar və nə xəyanətlə bu cəfayə istehqaq bulalar?" Cəbrail ayıtdı: "Xəyanətdən müərra və cinayətdən mübərra". Həzrəti-Rəsul kəndusin bu bəlaya məxsus təsəvvür qılub bu cəfadən mütəəllim olduqda, Cəbrail ol həzrətün təsəlliyi-xatiri üçün Yusuf surəsin nazil etdi ki (nəhnu nəqussu ələykə əhsənəl-qisəsi)[5]. Şe'r:

Müsibəti-Həsənü möhnəti-Hüseyni-şəhid
Dəmi ki, oldu qəməfzayi-təb'i-paki-Rəsul,
Təsəlliyi-dili-paki-Rəsul üçün Həqdən
Bəyani-qisseyi-Yə'qubü Yusif etdi nüzul.

Və mənşəi-ibtilayi-Yə'qub oldur ki, ol Həzrətə Həqdən on iki övladi-zükur kəramət olunub cümləsindən sirətdə və surətdə Yusuf əkməl və əcməl vaqe'oldu. Netəki, Sərihi-Tənzil andan xəbər verir ki, haşəlillah mahaza bəşərən in haza illa mələkun kərim[6]. Şe'r:

Cəmali-bibədəlü fitneyi-xəvasü əvam,
Güli-həmişəbəharü məhi-həmişətəmam.

Eşqü məhəbbət mülazimi-hüsnü məlahət olmaq adəti-mə'hud olmağın dideyi-bəsirəti-Yə'qub Yusufun kəmali-cəmalinə bir qayətdə valeh oldu ki, baqi övladın fəramuş qıldı. Övladi-Yə'qub bu haləti müşahidə qıldıqda atəşi-rəşk mürüvvətlərin yaxub və seyli-həsəd binayi-məvəddətlərin yıxub Yusufun dəf'inə və rəf'inə himmət dutdular və qaideyi-müra'ati-übüvvətü üxüvvəti unutdular. Şe'r:

---

[1] Hər ikisini sevirsənmi?
[2] Əlbəttə, övladımız ciyərimizdir.
[3] İkisi arasında fərq yoxdur.
[4] Ey qardaş, o ikisinə kim bunu edər?
[5] Biz sənə hekayətlərin ən gözəlini söyləyirik ("Qur'an", 12, 3).
[6] Doğrudan da, bu insan deyil, çox gözəl bir mələkdir ("Qur'an", 12, 31).



Həva tündbadi binalər yıxar,
Həsəd atəşi xanimanlər yaxar.

Həmişə müqəddəmati-məkr tərtib edüb intizari-fürsət çəkərlərdi ol zəmanədək ki, Yusuf vaqi'əsində mehrü mahü sitarəyi kəndusinə sacid gördü və Yə'qubdan anın tə'birin sordu. Və anın bu mübahatindən həsədi-ixvan ziyadə olub bir mövsim ki, Yusufu-gül Misri-gülzarın sultanı olmuşdi və dəşneyi-seylab kəfi-məxzubi-xəvatini-Misr kibi ə'zayi-laləzarı parə-parə qılmışdı, övlad ittifaqlə, Yə'qubun xidmətinə gəlüb ayıtdılar: "Ey asimani-nücumi-səadət və ey mə'dəni-cəvahiri-fütüvvət, əbkari-rəyahin pərdeyi-xəfadən çıxub aləməfruz oldu və məşşateyi-növbəhar cəmileyi-cümleyi-cəhanı hilyeyi-əzharlə müzəyyən qıldı; səriri-sədayi-seylab: "Unzur ila-asari rəhmətüllah"[1], – deyüb sükkani-Beytül-əhzanə səlayi-seyri-səhra verür və zəbani-səbzeyi-növxiz: "İnnəməl-həyatud-dünya ləhvün və lə'bun"[2], – deyüb müjdəyi-təmaşayi-biyaban yetirür. Şe'r:

Çıxdı yaşıl pərdədən, ərz eylədi rüxsar gül,
Sildi mirati-zəmiri-pakdən zəngar gül.
San Züleyxa xəlvətidir qönçeyi-dərbəstə kim,
Çıxdı andan dəməni-çakilə Yusufvar gül.

Nola ki, bu mövsimdə Yusufa rüxsət verəsən ki, bir neçə dəm laləzar seyrindən gül kibi könlü açıla və səbzə nəzzarəsi nərgisi-şəhlasın münəvvər və bənövşə ətri dimaği-lətifin müəttər qıla. Yə'qub ayıtdı: "Ey əzizlər, Yusuf nazpərvərdi-məsnədi-rahətdir, tərəddüd cəfasinə təhəmmül etməz və tifli-naziktəb'dir, siba'ü ziyabə müqabil olsa müqavimətə qüdrəti yetməz". Övladı ayıtdılar: "Ey pədəri-büzürgvar, Yusuf bizüm hirzi-hərasətimizdə olsa gərək, həmleyi-sibaə nə məcal ya əsəri-hiyleyi-zibayə nə ehtima?" Əlqissə ənva'i-ilhahlə Yə'qub Yusufun fəraqinə riza verüb, əndami-lətifin müləvvən camələr ilə müzəyyən qılub, övladinə həmrah edüb sifariş etdi ki, xarici-dərvazeyi Kən'andə Şəcərətül-vida' altında bən gəlincə təvəqqüf edün, andan gedün. Anlar şəhrdən çıxub Şəcərətül-vidayə yetdikdən sonra Yə'qub dəxi mütəaqib gəlüb, Yusufu ixtiyarsız bağrına basub, yüzün yüzünə sürüb ayıtdı: "Ey övladi-əmcad, bəni Yusuf məhəbbətində məzur dutun ki, ixtiyar ilə degil". Şe'r:

Ləzzəti-zövqi-cəmalı dəmbədən əfzun olur,
Arizin gördükcə göz, könlüm betər məftun olur.

Yusufa ayıtdı: "Ey cigərguşə, hətta ki, əgər qüdrətim oleydi, səndən ayrılmazdım, əmma nedim zəifhaləm. Ey fərzəndi-dilbənd, cəhd qıl ki, bu gecə müavidət qılasan. "Ya binəyyə ləvbəqəytül-leylə lə-uhriqqu"[3]. Pəs Yusufə ağazi-nəsihət etdi ki: "Ey qürrətül-eyn, əlləylətül hublə[4], mə'lum degil ki, yarın ayineyi-ruzigar nə surət göstərər və bustani-aləmdə nihali-hikmət nə səmər verər". Şe'r:

---

[1] Allahın rəhmətinin əsərlərinə (izlərinə) baxır.
[2] Dünya həyatı yalnız əyləncə və oyundur.
[3] Ey oğul, gecə orada qalarsan, mən odlanaram.
[4] Gecə hamilədir.

Bu bəhri-nilgun bin mövc hər saət əyan eylər,
Ülüləbsarə bir-bir kəşfi-əsrari-nihan eylər.

"Hala sana dörd nəsihətim var: "Ya bunəyyə, la tənsiyəllahə[1], yə'ni mə'budunu unutma və iza vaqə'tə fi-bəliyyətin fəstə'in billahi"[2], yə'ni əgər bir bəlaya düşsən, mə'budundan müavinət istə və əksir min qəvli həsbiyəllahü və na'vəl vəkil[3], yə'ni bu kəlməyi çox zikr et: "La-tənsani fə'innilaənsakə"[4], yə'ni bəni fəramuş etmə ki, bən dəxi səni fəramüş etməzəm".

Rəvayətdir ki, Yusufun Bana nam bir həmşirəsi olub. Ol mütəvəccihi-səhra olduğu zəmandə uyğuda idi. Vaqisində gördü ki, Yusuf bir neçə gürgi-xunxarə giriftar oldu. İztirablə bidar olub Yusufu təfəhhüs etdükdə dedilər ki, mütəvəccihi-səhra olub. Fəryadü fəğanla şəhrdən çıxdıqda gördü ki, Yusuf Yə'qublə vida' etməkdədir. Ayağına düşüb təzərrö' qıldı ki: "Ey əziz, pərişan vaqiə görmüşəm, bu səfər əzimətin fəsx et; əgər təvəccöh lazım isə, bana mülazimətində olmağa rüxsət ver ki, müfariqətə taqətim yoxdur". Şe'r:

Şəbi-vida' səhərgahi-ruzi-hicrandır,
Əsasi-bünyeyi-fəryadü ahü əfğandır.

Əqlissə, iqtizayi-hökmi-qəza fəsxi-əzimətə riza verməyüb, Yusuf validi-büzürgvar və həmşireyi-vəfadar ilə vida' edüb ixvani-cəfakarlə rəvan olduqda Yə'qub Rubilə ayıtdı: "Sən əkbəri-övladımsan, Yusufu sana tapşırdum, səndən istərəm". Qaliba bu səhvdən ki, deməydi, Allaha tapşırdum, bunca firaqə səzavar oldu və bunca bəlalara istehqaq buldu. Şe'r:

Hiç məqsudə dəstərəs bulmaz,
Qeyri-Mə'budə e'timad qılan.
Vasilə-mənzilə-murad olmaz,
Unudub anı qeyri yad qılan.

Və bir məşrəbə şirü şəkər Rubilə təslim etdi ki: Yusufun təb'i-nazikində tabi-hərarətə taqət yoxdur, təşnə olduqda bu məşrəbdən hərarətinə təskin verəsüz və ziyadə təvəqqüf etməyüb Yusufu bana yetürəsüz ki, siz gələnədək bən mənzilimə getməzəm. Əqlissə, anlar rəvan olub və Yə'qub əsərlərinə nigaran qalub hər ləhzə bin ahi-cigərsuz çəkərdi və hər dəm bin qətrə sirişki-laləgun tökərdi. Şe'r:

Getdi ol sərv ki, kami-dili-divanə idi,
Mürği-can nuri-ruxi-şəm'inə pərvanə idi.
Qaldı hicrində könül müztəribü sərgərdan,
Ey xoş ol dəm ki, ana həmdəmü həmxanə idi.

[1] Ey oğul, Allahını unutma.
[2] Bir bəlaya düşsən, Allahdan kömək istə.
[3] "Və Allah mənə yetişər, o yaxşı bir vəkildir" – sözünü çox-çox təkrar et ("Quran", 3, 173).
[4] Məni unutma, yəqin ki, mən səni unutmaram.



Yə'qubun ərsəyi-müşahidəsində olduqca Yusufu qardaşları mükərrəm və möhtərəm dutub, gah kökslərinə alub və gah başlarına götürüb yürürlərdi. Şe'r:

Kimi köksündə eylərdi məqamın,
Kimi başda məqami-ehtiramın.
Kimi eylərdi gərdi-damənin pak,
Yolunda rəf'edərdi xarü xaşak.
Kimi təkrar edüb göftari-şirin,
Verürdi nazənin təb'inə təskin.
Güruhi-hiyləəngizü cəfacu
Kəmali-məkr ilə Yə'qubə qarşu
Qılub izhari-asari-tələttüf,
Qılurlardı qamu tə'zimi-Yusuf.

Çun imtidadi-bü'di-məsafət Yə'qubla övlad arasında hail oldu və rişteyi-məddi-şüaibəsəri-Yə'qub tiği-seyli-əşklə inqita' buldu, ol bivəfalar qüvvətdə olan kinlərin fe'lə gətürdilər və pərdeyi-müvasa və müdarayı aradan götürdülər və Yusufu ki, əfsəri-fərqi-rif'ət və gövhəri-taci-səadətləri idi, əmmameyi-matəm kibi başlarindən xaki-məzəllətə buraxdılar ki: "Ey sahibi-rö'yay-kazibə, məscudləri olduğun mehrü mahə istiğasə qıl sana ia'nət etsünlər və vaqiədə gördügün sitarələrdən təvəqqə' et [ki, hubuti]-əxtəri-iqbalinə müsaid olsunlar". Əlqissə, Yusuf övci-tə'zimdən həzizi-təxfifə düşüb hər kimə təvəccöh etdi, təərüz eşitdi və hər canibə ki, mail oldu azar buldu. Zülm əlilə əmaməsin başından alub və nə'leynin ayağından salub sünbüli-geysusin pərişan etdilər və xarü xara üzrə anı pabürəhnə yürütdülər. Şe'r:

Kəfi-payın cərahət qıldı pürxun,
Səmən bərgini xunab etdi mülgun,
Qubaraludə oldu mah ruyi,
Pərişan cə'di-muyi-müşkbuyi.
Kimə kim, eylədi dərdini izhar,
Ana, əlbəttə, andan yetdi azar.
Kimin kim, damənini dutdu ol pak,
Giribanını qıldı gül kibi çak.
Kimin kim, ayağına düşdü ol nur.
Başından qıldı rə'fət sayəsin dur.

Ol vəqtədək ki, dərəceyi-aftab irtifa' buldu və həva sineyi-suzani-Yə'qub kibi aləmsuz oldu, ataşi-ətəş cigər və sinəyə hiddəti-hərarət buraxdı və ləhibi-şiddəti-təəttüş xirməni-səbrü qərarın yaxdı. Şe'r:

Pəjmürdə qıldı sərvi-xuramanı qəhti-ab,
Gülbərgə düşdü tabi-hərarətdən iztirab.

Yusuf qayəti-iztirabdən Rubilə ayıtdı: "Ey bərədər, bən sənün xiteyi-himayətində və hövzeyi-hərasətindəyəm, bənim siğəri-sinnimə rəhm et və fəryadimə yet". Andan iltifat bulmayub Şəm'unə ayıtdı: "Ey bərədər, tiği-tüğyani-ətəş rişteyi-həyatım qət'indədür, nola bir qətrə su ilə naireyi-iztirabimə təskin verəsən və validi-büzürgvarım həmrah edən məşrəbədən cani-suzanimə rahət yetürərsən". Şəm'uni-bimürrüvvət ol məşrəbəyi toprağə tökübana vermədi və ol şirü şəkkəri tirə toprağə rəva gördü, ana layiq görmədi. Netə ki, dəşti-Kərbəlada bə'zi bədbəxtlər zülali-Fəratı ki, cəmi'i-məxluqə mübah ikən Ali-Mustəfadən qət' etdilər və təriqi-hidayət zahir ikən rahi-zəlalət dutdular. Şe'r:

Ruzi-rəzmi-Kərbəla rahi-xəta dutmuş Fərat,
Qılmamış Ali-Məhəmməd dərdinin dərmanini.
O səbəbdəndir bu kim, üzr ilə dutmuş müttəsil,
Eyləyib fəryad xaki-Kərbəla damanini.

[Əlqissə], Şəm'un ayıtdı: "Ey Yusuf, qarındaşlarından təvəqqö' etdigün qətreyi-ab dəşneyi-tiği-abdardür və təmə' eylədigün iltifat növki-xəncəri-xunxardur". Yusuf ki, və'idi-həlak eşitdi, məxafəti-qətlindən əklü şürbi fəramuş etdi. Şe'r:

Çü növmid oldu əfğan etdi Yusuf,
Düri-əşkini qəltan etdi Yusuf,
Cigər qanilə müjganun qılub nəm,
Nəmi-müjgan ilə derdi dəmadəm
Ki, ey seyli-sirişki-tündrəftar,
Çü mane' yox sana, lütf eylə zinhar.
Yürü Yə'qubə halimdən xəbər ver,
Qəmi-bie'tidalimdən xəbər ver.
Xəbər ver söylə, ey piri-bəlakeş,
Qılıbdur Yusufu gərdun müşəvvəş.
Olubdur xaki-zillət xaksarı,
Nə həmrazı, nə qəmxarı, nə yarı.

Aya, əgər Yə'qubi-pərişanruzigar Yusufu-xücəstəxisalı ol zillətlə görsəydi, nolurdu halı və gər Həzrəti-Mustəfa Kərbəlada Hüseynin əhvalinə müşahidə qılsaydı, nə qayətə yetərdi möhnətü məlalı. Şe'r:

Təhqiqi-möhnətü qəmi-Ali-Əba üçün,
Səhrayi-Kərbəlaya güzar eylə, ya Nəbi.
Hali-Hüseynə xaki-məzəllətdə qıl nəzər,
Əndişeyi-qəribi-diyar eylə, ya Nəbi.

Əlqissə, Yusuf cümlədən növmid olub, ruyi-təzərrö' qibleyi-münacata dutub ayıtdı: "İlahi, netə ki, nari-Nəmruddən Xəlilə nəcat verdün və tufani-iztirabında Nuha mədəd yetirdün, bana dəxi bu hadisədən aman ver". Yusufun nəsimi-münacatı Yəhudanın rövzeyi-zəmirində güli-riqqət açub Yusufə ayıtdı: "Ey bərədər, təvəhhüm etmə ki, bənim bəqayi-həyatimdən əsər olduqca sana əsəri-fəna yetməz və sərsəri-afət hisari-himayətimdə gülşəni-əhvalinə güzar etməz". Sair ixvan Yəhudanın zilli-himayətin Yusufun üzərində məmdud görüb, qətlindən təcavüz edüb bir qeyr tədbir etdilər. "Və əcmə'u ən yəc'əluhu fi-ğiyabətil-cubb"[1]. İttifaqən Kən'andan üç mil miqdarı dur bir çahi-bə'idülğəvr var idi məhcur; Yusufu ol çah üzərinə ilətüb buraxmaq tədarükündə olduqda, Yusuf ol vaqiə hövlindən iztirabə düşüb, ixvani-bivəfanın əllərin öpüb, ayaqlarına yüz sürüb istiğasə qılurdı, əmma faidə qılmazdı və heç birinün dili-səxti onun müruri-seyli-sirişkindən nərm olmazdı. Şe'r:

Dərda ki, dari-dəhrdə bir yar qalmadı,
Şərhi-qəmi-dil etməgə qəmxar qalmadı.
Tey qıldı cövr dövri-mürüvvət büsatını,
Mütləq büsati-dəhrdə dəyyar qalmadı.

Yusuf gördü ki, ümidi-nəcat yox, təzərrö' etdi ki: "Ey əzizlər, möhnət verün ki, iki rik'ət nəmazə qiyam edim". Dedilər: "Sən [nə bilürsən] nəmaz nədir?" Yusuf ayıtdı: "Əgərçi tifləm, əmma pədəri-büzürgvarimlə mehrabi-ibadətə çox təvəccöh edüb adət etməgin mə'lufum olmuşdur". Əlqissə, icazət alub nəmazə məşğul olduqda münacat etdi ki: "Ya Rəb, zimami-məhamım sənin qəbzeyi-iqtidarindədir, səndən himayət istərəm" – deyüb münacatından fariğ olduqda ol bivəfalar italeyi-dəsti-təğəllüb qılub bədəni-mübarəkindən pirahənin çıxarmaq istədikdə Yusuf ayıtdı: "Ey bimürüvvətlər, zindəyə setri-övrət və mürdəyə kəfən ləvazimdəndir. Nola gər pirahənimə mütəərriz olmayasız?!" Dedilər ki, xunalud edüb Yə'qubə göstərmək məsləhəti üçün pirahən bizə mətlubdur. Təzərrö' faydə qılmayub, bədəni-lətifin qönçəvar pirahəndən müərra qıldılar və muyi-miyaninə rişteyi-rəsən peyvənd edüb tirə çahə endirdilər. Şe'r:

Tənini pirahəndən qıldılar ur,
Gülün bərgi-səməndən saldılar dur.
Rəsənlər eyləyib ə'zasinə bənd,
Dərunin yaxdılar qəndil mənənd.
Müqəyyəd olmayub fəryadü ahə,
Anı endirdilər ol tirə çahə.
Şüa'i-nuri-ruyü bərqi-ahı
Münəvvər eylədi ol tirə çahı.

Əmma hənuz nisfi-rahi-qə'ri-çah qət' olmadan ol rəsəni silsileyi-rabiteyi-məhəbbətləri kibi qət' etdilər və ol biçarəyi tənha buraxıb ol çahın üzərinə xarü xaşak yığub üzərindən getdilər.

Rəvayətdir ki, Yusuf qeyrdən qət'i-ümid edüb kəndüsin Vacibülvücudə təslim etdi və qayəti-dəhşətdən bihuş olduqda Həzrəti-İzzətdən Cəbrailə hökm oldu: "Ya Cəbrail, əd-

[1] Onu quyuda gizlətməyi qərara aldılar ("Qur'an", 12, 15).

rik'əbdi[1]. Filhal Cəbrail Yusufu götürüb qə'ri-çahə yetürdi və hüləli-behiştdən setri-bədən verüb, pərübalin səhhət üçün cərahətlərinə sürüb və səri-mübarəkin xaki-məzəllətdən götürüb surəti-əhvalinə heyran ikən nida gəldi ki: "Ey Cəbrail, Yusufun bir neçə gün müanəsətin ixtiyar et ki, qəribdir. Bidar olduqda ana bənim səlamım yetür və müjdeyi-nəcat ver". Cəbrail ayıtdı: "İlahi, icazət ver ki, kəndümi ana Yə'qub sürətində göstərəm ki, qayətdə müştaqdır". Yusuf ol xabi-dəhşətdən bidar və ol sükri-möhnətdən huşyar olduqda Cəbraili Yə'qub sanub fəryadə gəldi ki: "Ya əbətah[2], gördünmü ixvani-bivəfa bana nə cəfalər qıldılar və nə üqubətlər ilə bəni bu zindani-bəlaya saldılar". Cəbrail ol iztirab taqət gətirməyüb ayıtdı: "Ey Yusuf, bən Yə'qub degiləm, Cəbraili-Əminəm, rəsuli-Rəbbül-aləmin". Həzrəti-Həqq sana səlamlar yetirür və fəraqi-validin xüsusunda tə'ziyət verür və hökm edər ki, bəlaya təhəmmül qılasan və səbrlə nəcatə ümidvar olasan. Şe'r:

Səbr qıl, səbr ilə məqsudinə səbr əhli yetər,
Səbr edən səbr ilə sərriştеyi-məqsud dutər.

Rəvayətdir ki, Yə'qub övladla vida' etdiyi mənzildən mütəhərrik olmayub ol müsafirlərin müraciətinə intizar çəkərdi və ləhzə-ləhzə yadi-rüxsari-Yusuf edüb, ahi-həsrət çəküb, didədən əşki-nədamət tökərdi ol zəmanadək ki, Yusufu-xurşid rəsəni-şü'a ilə qə'ri-çahi-məğribə nüzul etdi və qübari-küdurəti-zülmət dudi-dili-Yə'qub kibi səfheyi-ruzigarı dutdu. Qət'ən müsafirlərdən əsər peyda olmayub Yə'qubun iztirabı ziyadə olub derdi. Şe'r:

Bir xəbər ver, ey səba, sərvi-rəvanım qandadır,
Canımın aramı yox, arami-canım qandadır?
Neylədin, netdin, fələk, xurşidi-aləmtabimi,
Ol rüxi fərxündə, mahi-mehribanım qandadır?

Və dəmbədəm təxəyyül edərdi ki, aya, övci-əməldən əxtəri-muradım tülu'inin tə'xirinə nə səbəb vaqe' oldu ola və asimani-duadən ayəti-rəhmət nüzulinə nə mane' oldu ola? Şe'r:

Bəni dur etdin, ey dövri-fələk, bir mahsimadən
Ki, zövqi-vəsldir yegrək bana dünyavü üqbadən.
Şəbi-tarikdən, ey gərdun, qiyas etgil onun halin
Ki, düşmüşdür cüda bir aftabi-aləmaradən

Yə'qub təmam gecə bu sürudlə mütərənnim idi, ol vəqtədək ki, Yə'qubi-səfidmuyi-sübhisadiq Yusufu-xurşid iştiyaqindən ahi-sərd çəkdi və piri-gərduni-xəmqamətə ol ahi-sərddən riqqət qılub sitareyi-sirişkin tökdü. Yə'qub ədayi-nəmazi-sübh edüb, ol gün dəxi mənzilinə müraciət qılmayub, Şəcərətül-vida' altında sayəvar yerdən yerə mütərəddil olub, ol şəm'i-şəbistani-səadətün intizari ilə növhələr qıldı. Əmma ixvani-Yusuf ol əmri-qəbihə irti-

[1] Ey Cəbrail, quluma yetiş.
[2] Ey atacan.



kab etdikdən sonra ol gecə müraciətləri müyəssər olmayub, bir səhradə qalüb uyquya getdilər. Nisfül-leyldə Yəhuda sair ixvanindən məxfi, çah üzərinə gəlüb nida qıldı ki: "Ya əxi, əhəyyün əntə əm məyyitün?"[1] Yusuf ayıtdı: "Aya, sən kimsən ki, qəriblər halın istifsar edərsən?" Dedi: "Bən Yəhudayam, ey bəradər, nədir halın?" Yusuf ayıtdı: "Ey əziz, nola halı anın kim, qeyrilərdən cəfa gördükdə müavinətin istədigi qövmdən cəfa görüb, atəşi-fəraqi-pedər və naireyi-cəfayi-bəradərdən xirməni-həyatinə hirqəti-fəna yetə və xidmət üçün damənin dutan tayifə bidad üçün giribanın duta". Şe'r:

Qəribi-mülki-eşqəm, qeyri-əşkü ah, dərdü qəm
Nə bir müşfiq, nə bir munis, nə bir yarü nə bir həmdəm.

Yəhuda ayıtdı: "Ey bəradər, keyfiyyəti-halın mə'lumdur, vəsiyyətin var isə bəyan et". Yusuf ayıtdı: "Vəsiyyətim budur ki, validi-büzürgvarım hüzurində məclisi-cəmiyyətünüz in'iqad bulduqda bənim pərişanlığımı fəramuş etməyəsüz və cəhdiniz olduqca ol piri-əzizin könlün yaxub xatirin incitməyəsüz". Allah, Allah! Nə münasibdir bu vəsiyyət ana ki, Həzrəti-Sultani-Kərbəla İmami-Zeynəlabdinə vəsiyyət qıldı ki: "Ey fərzəndi-dilbənd, səlamımı süləhayi-ümmətə yetür və iltimas et ki, hər qanda bir məzlum və bir qərib müşahidə qıldıqda bənim qəribliyim və məzlumluğum yad edələr". Şe'r:

Ey qılanlar arizuyi-abi-Kövsər dəmbədəm,
Təşnə dünyadan gedən Ali-Rəsuli yad edin.

Macərayi-Kərbəla zikrin qılın şamü səhər,
Təb'iniz ol zikri-rə'fətbəxşlə mö'tad edin.

Rəvayətdir ki, Yəhuda hənuz müraciət qılmadan bəradərlər xəbərdar olub əqəbincə gəlüb giryan gördülər, dedilər: "Səbəbi-giryə nədir?" Dedi: "Bu qərib üçün ağlaram". Bəradərlər anı məlamət edüb səri-çahi möhkəm edüb mütəvəccihi-Kən'an oldular və Yusufun pirahənin bərgi-gül kibi xunin edüb siba'ə aldırdıq deməyə ittifaq qıldılar. Şəcərətül-vida'ə qərib olduqda Yə'quba mülazim olan Dina nam düxtəri-büləndəxtər gördü ki, övladi-Yə'qub gəlürlər, əmma Yusuf aralarında yoxdur, ə'zasinə lərzə düşüb müztərib olduqda Yə'qub ayıtdı: "Ey zəifə, bu nə rə'şədür?" Ol mə'sumə və ol məzlumə ayıtdı: "Ey pedəri-büzürgvar, övladın göründü, əmma Yusuf görünməz, bilməzəm nə hikmətdir". Şe'r:

Güllər açıldı, görünməz ol güli-xəndan, nə sud!
Çıxdılar səyyarələr, çıxmaz məhi-taban, nə sud!

Bu halə müqarin övladi-Yə'qub bildilər ki, hənuz Yə'qub Şəcərətul-vida' altındadır: hiylə ilə giribanların çak və məkrlə didələrin nəmnak edüb "Va-əxahu va-Yusufah"[2], – deyüb

[1] Ey qardaşım, dirisən, yoxsa ölü?
[2] Vay qardaşım, vay Yusif!

növhəyə başladılar. Dina surəti-hallərində məzmunə müttəle' olub Yə'quba xəbər verdikdə Yə'qubi-biçarə bihuş olub düşdükdə Dina fəryad etdi ki: "Ey əzizlər, Yə'qub əldən gedüb, ayaqdan düşdü, mədəd qılun". Övladi-Yə'qub ol piri-məzlumun üzərinə cəm' olub, Yəhuda ayıtdı: "Ey cahillər, bu nə fikri-xəta və əndişeyi-nasəvab idi ki, qıldınız, həqqa ki, bu tədbirin nəticəsi dünyada məlalətdir və axirətdə xəcalət".

Əlqissə, Yə'qubi-namuradi bihuş ikən ol xaki-məzəllətdən götürdülər və kəndü möhnətxanəsinə yetürdilər. Bir müddətdən sonra Yə'qub dideyi-nəmnak açub Yusufu istifsar etdikdə ol cəfaculər rişteyi-təzvirə tab verüb Yusufun pirahəni-xunaludun araya gətürdilər və siba'ü ziyabə töhmət buraxub, naləvü əfğanlərin əflaka yetürdilər. Yə'qub ol xəbərdən yenə bihuş olub, bir müddətdən sonra özünə gəldikdə ayıtdı: "Ənə-əynə"[1]. Dedilər: "Kəndü mənzili-kəramətində və məqərri-səadətindəsən". Yə'qub ayıtdı: "Haşa, çün Yusufum yoxdur, mənzilim mənzili-tə'ziyətdir və məqamım məqami-nədamət". Şe'r:

Nedərəm canü cəhanı, bana dildar gərək,
Nədürür canü cəhan, aşiqə didar gərək.

Əlqissə, Yə'qubi-həzin libasi-matəm geyüb və binayi-beytül-əhzan qılub, naləvü əfğanı bir qayətə yetürdi ki, məlaikeyi-asiman mütəsədde' olub münacat etdilər ki: "Ya Rəb, Yusufu Yə'quba vasil et, ya bizə rüxsət ver ki, yer yüzünə enib ana mürafiqət qılalum". Cəbrail ayıtdı: "Ya Yə'qub, əbkəytə bibukaikəl-məlaikətətə"[2]. Yə'qub ayıtdı: "Ey Cəbrail". Şe'r:

Bəsteyi-dami-qəmi-hicrani-yarəm, neyləyim,
Eyb qılman giryəmi, biixtiyarəm, neyləyim.

Yə'qubun abi-çeşmi-əşkbarı bir mərtəbədə rüxsəti cərəyan buldu ki, səvadi-mərdümi-çeşmin bəyazi-didədən məhv qıldı, nətəkim, "Səhihi-Tənzil" andan xəbər verür: "Və'bəyəzzət əynahu min-əl-huzni"[3].

Nəqldir ki, Həzrəti-İmam Zeynəlabdin vaqieyi-Kərbəladan sonra həmişə giryan idi, iltimas etdilər ki: "Ya İmami-zəman, kəsrəti-büka ilə iqdam etmə, səbr et". Ol Həzrət buyurdu ki: "Ey əzizlər, bəni mə'zur dutun". Şe'r:

Bir oğlundan cüda düşmüşdü Yə'qub,
Hücumi-girya qılmışdı gözün kur.
Əcəbmi girya qılsam bən ki, düşdüm
Neçə Yusuf kibi mə'sumdən dur.

Həzrəti-Yə'qub peyğəmbəri-mürsəldi, on iki oğlundan biri qayib olduqda və qayibin dəxi vüsalinə rica hasil ikən ol qədər ağladı ki, nöqteyi-səvadi-didəsin tiği-seyli-sirişk hək qıldı:

[1] Haradayam?
[2] Sən ağlamaqla, mələklər ağladı.
[3] Kədərdən gözlərinə ağ gəldi (Qur'an, 12, 84).



"Bən ki, validi-büzürgvarım və ə'mami-alimiqdarım və ixvani-büləndiqtidarım hüzurumda şəhadət buldular və biümidi-müraciət aləmi-bəqayə təvəccöd qıldılar, girya qılsam əcəbmidir?" Şe'r:

Bənim halım nə bilsin olmayan möhnət giriftarı,
Bəla azürdəsi, qürbət pərişanı, qəm əfgarı.

Rəvayətdir ki, övladi-Yə'qub Yusufu buraxıb getdikdən sonra hər zəman müavidət qılub əhvalın təcəssüs və təfəhhüs edərlərdi. Bir gün Malik nam bir tacirin güzarı ol çah üzrə düşüb Yusufu çıxardıqda övladi-Yə'qub xəbərdar olub üzərinə varub, "bu bizim qulumuzdur" – deyüb anı Malikə satdılar və sifariş qıldılar ki: "Bu bəndə gürizpadır, bəndü zəncirsiz qoyman və əbdi-asidir, istifayi-əklü şürblə tüğyan verməŋ".

Yusufu-siddiq anların kəlamatın istima' etdikcə təsdiq verüb səbr edərdi. Əmma bəndü zəncirə gəldikdə təvəqqüfsüz fəğanə gəldi. Malik ayıtdı: "Ey qulam, bəndeyi-gürizpayə bəndü zəncir lazımdır, nə fəğan edərsən?" Yusuf ayıtdı: "Ey Malik, bən bəndü zəncirdən ağlamazam, əmma ol gün yadimə gəldi ki, Həzrəti-Sultani-Bargahi-Kibriya, Maliki-duzaxə hökm edə ki, ta'atimdən mütəmərrid olanları səlasilü əğlalə çək. Aya, bana bu cəfaləri rəva görənlərin halı ol gün nolur, - deyüb ağlaram". Malik bu xəbərdən mütəəssir olub ayıtdı: "Ey qulam, kəlamatində əsəri-dərd var, bu bəndü bəlaya müstəhəqq degilsən, əmma xacələrün xatiri üçün bir dəm müqəyyəd olduğundan sonra səni itlaq edərəm".

Çün övladi-Yə'qub Yusufu müqəyyəd etdirüb Malikə təslim etdilər və getdilər, Yusuf Malikə təzərrö' etdi ki: "Ey Malik, lütf et, bəni bir dəxi xacələrim didarinə müşərrəf qıl". Malik ayıtdı: "Ey fəqir, bunca cəfadən sonra bu nə məhəbbətdir ki, səni anlara müştaq edər?" Yusuf ayıtdı: "Ey Malik, bunlar bənim məxdumlarımdır, bunlardan cəfa gördükcə ülfətim ziyadə olur". Malik təəccüb edüb avaz yetürdi ki: "Ey əşrafi-Kən'an, tə'cil etmən ki, bu bəndə bir dəxi didarınıza müşərrəf olmaq istər".

Övladi-Yə'qub təvəqqüf edüb, Yusuf zəncirin sürüyüb anlara mülhəq oldu, ayıtdı: "Ey əzizlər, hər cəfa ki, qıldınız sizə həlal edərəm, bu şərtlə ki, pedəri-büzürgvar riayətində ehmal etməyəsüz". Yəhuda giryan olub ayıtdı: "Ey Yusuf, hala bir müsibətdir vaqe' oldu, mərdanə olub cəhd et ki, xanədani-nübüvvətə seylabi-cəza'dən xələl yetürməyəsən". Şe'r:

Mərdanə gərək bəladə aşiq,
Üşşaqə cəza' degil müvafiq.
Bisəbr degil mürадə qabil,
Səbrilə olur murad hasil.

Əlqissə, Yusufu bir naqəyə bindirüb bir qulami-ziştruyi-tündxuy ana müvəkkil etdilər və mütəvəccihi-darülmülki-Misr olub məhmili-əzimət yürütdülər. Yusufu-biçarə hər mərhələdə cərəsvar fəğan qılub və hər mənzildə mütəhəyyir və bizəban qalub, ənva'i-küdurətlə gedərkən yolda məqabiri-Ali-İshaqə güzarı düşüb, validəsi məzarın görüb, ixtiyarsız naqədən kəndusin buraxub, ol qəbri qucaqluyub fəryad etdi: "Ya ümmah, mülahizə qıl ki, bəndələr kibi bey'ə girüb, sariqlər kibi zəncirə çəkilüb nə üqubətlərə giriftar olmuşam".

Qəbrdən avaz gəldi ki: "Ya vələdah ya qürrətə əynah fəsbir innəllahə mə'əs-sabirin"[1].

Sübh olduqda Yusufa müvəkkil olan qulam Yusufu naqə üzərində görməyüb təcəssüs edərkən gördü ki, bir qəbr üzərində oturub növhə edər. Bimühaba bir neçə təpançə ilə rüxsari-lətifin məcruh edüb ayıtdı: "Ey bəndeyi-asi, xacələrün sənin xüsusində sadiq olduqları mə'lum oldu". Yusuf heç cavab vermədi, əmma dərdlə bir ahi-sərd çəkdi ki, mülkü mələkuta qülqülə düşüb filhal, əbri-bəhar və rə'dü bərq peyda olub, bir tufan qopdu ki, əhli-qafilə mütəvəhhim olub dedilər: "Bu əlaməti-Qiyamətdir". Yusufun müvəkkili olan qulam ayıtdı: "Ey əzizlər, mən bu qulama bir neçə təpançə urdum, bu qulam bir təzərrö' etdi, bu əlamət zahir oldu". Malik ayıtdı: "Ey qulam, səbəbi-təpançə nə idi". Qulam ayıtdı: "Naqədən düşüb fərar etmək tədarükündə idi". Malik ayıtdı: "Zəncirlə fərar etmək olmaz". Yusufu hazır edüb ayıtdı: "Nişə naqədən düşdün?" Yusuf ayıtdı: "Valideyi-müşfiqəm qəbrin görüb ziyarətinə təvəccöh etdüm, bu zalım bəni bigünah incitdi, bən həm bir ah çəkdim ki, cəhanı tarik etdi". Şe'r:

Dudi-dildən çehreyi-xurşidə gər çəksəm niqab,
Ta Qiyamət əhli-dünyaya görünməz afitab.

Əhli-qafilə Yusufa nəzəri-e'tibar ilə baxub iltimas etdilər ki: "Ey cəvani-əhli-şə'n, bu küdurəti ayineyi-ruzigardən götür". Filhal, Yusuf göyə baxub ləbi-gövhərfəşanun duaya mütəhərrik etdikdə həvadən küdurət gedüb, səfaya mübəddəl oldu. Malik Yusufun bəndü zəncirin götürüb, faxir libasla müləbbəs edüb, mükərrəm və möhtərəm qıldı.

Ey əziz, Yusuf məzari-madər görüb fəğan etdikdə böylə müəssir oldu. Mə'lumdur ki, müxəddərati-hücreyi-risalət və xəvatini-sərapərdeyi-nübüvvət və əytami-əslabi-vilayət dəşti-Kərbəlada bədənsiz başları və başsız bədənləri görüb növhə qıldıqda nə əsər verüb.

Rəvayətdir ki, əzizi-Misr, Yusufu Malikdən alub, Züleyxanun xidmətin ana müqərrər qıldıqda və Züleyxa anın dami-məhəbbətinə giriftar olduqda, çün eşqi-Züleyxa aludeyi-məcaz idi, tabi-məlamət gətürməyüb, kəndusinə rahət və mə'şuqinə möhnət rəva gördü və daməni-pakinə çaki-töhmət buraxub, bəndü zindanla ona azarlar yetürdi. Şe'r:

Aləmi-eşq içrə oldur adəti-mə'hud kim,
Aşiq əhli-dərd olub, mə'şuq olan bidərd ola.
Hiç aşiq xatiri-mə'şuqə azar istəməz,
Mərd olan mə'şuqə cövr etməz məgər namərd ola.

Bir gün Züleyxa hökm etdi ki, Yusufu zəncirlə bir naqəyə bindirüb Misrin məhəllələrində gəzdirüb nida edələr ki: "Vəliyyi-ne'mət hərəmsarayində xəyanət qılanlarun cəzası budur". Bu xəbər şaye' olduqda Misrin dərü divarı nəzzarə əhlindən səhayifi-təsvir oldu. Zira müşahideyi-cəmali-Yusuf əhli-Misri qayəti-heyrətdən surəti-divar qıldı. Bu təriqlə seyr edərkən Züleyxa kisvəti-məchulla Yusufun güzərgahinə gəldi ki, halın görüb xələmatın istima' edə. Və bu halətdə Yusuf münacat edərdi ki: "İlahi, bigünahəm, sən vəqaye'i-əhvalimə vaqifsən, rəhm et". Şe'r:

---

[1] Ey övladım, ey gözümün nuru, səbr et, Allah səbr edənlərlədir.



Büzürgvar Xudaya, əsirü heyranəm,
Şikəstəhalü dilazürdəvü pərişanəm,
Müqimi-guşeyi-qəm, mübtəlayi-dami-ələm,
Əsiri-dərdü giriftari-bəndü zindanəm.

Cəbrail Həzrəti-Cəlildən gəlüb ayıtdı: "Ey Yusuf, bəndü zindandan ələm çəkmə ki, səngirizə həbsi-mə'adində müzayiqə çəkməsə, lə'li-abdar olub zivəri-əfsəri-səlatin olmaz və qətreyi-ab təngnayi-sədəfdə məhbus olmasa, dürri-şahvar olub məhbublar vüsalinə dəstrəs bulmaz. Ey Yusuf, Züleyxa güzərgahində durub mütərəssidi-istima'i-kəlamındır, hökmdür ki, cəza' qılmayasan və kəsrəti-ələmdən mütəşəkki olmayasan ki, Züleyxa əməlindən xoşnud olmaya və sənin məlalindən sürur bulmaya". Rəvayətdir ki, Yusuf Züleyxaya yetdikdə münadi lisanında bu cari oldu ki: "Haza qulamun min-Kən'an vəl-əzizü əleyhi ğəzban"[1].

Cəbrail ayıtdı: "Ey Yusuf, münadiyə cəvab ver ki: "Haza xəyrun min-ğəzbanir-rəhman və mə'siyətil-rəbban və duxulinniran və sərabilil-qətran"[2].

Yusuf bu əda ilə mütəkəllim olduqda Cəbrail ol sədayi Züleyxaya irişdürdi və Züleyxa münfə'il olub, kəndü mənzilinə müraciət qılub, cariyəsilə harisi-zindana irsali-pəyam qıldı ki: "Minbə'd bu qulama cəfa rəva görməyüb, bəndü zəncirin götürüb hüsni-riayətində təqsir etməyə".

Əlqissə, Yusuf yeddi il müqimi-guşeyi-zindan idi, əmma ol mərtəbədə əfğan edərdi ki, əhli-zindan derlərdi: "Ey əziz, gündüz nalə eylərsən, barı gecə təhəmmül et ki, bizə rahət müyəssər ola". Züleyxa bu hala müttəle' olduqda buyurdu ki: "Zindandan şari'i-ammə bir dəriçə açalar, ola ki, sadirü varid nəzzarəsindən Yusufun dili-biqərarinə bir qərar gələ". İttifaqən ol dəriçə canibi-Kən'ana açıldı. Hər gecə ki, səlabəti-hinduyi-zülməti-şəb ol güzərgahdan xəlqin tərəddüdün qət' edərdi, tənha Yusuf ol dəriçəyi məftuh edüb, canibi-Kən'andan mütəhərrik olan nəsimi müxatəb edüb, Yə'qubun əhvalın istifsar edüb, ana peyğamlar irsal edərdi. Şe'r:

Bir xəbər ver, ey səba, ol mahi-tabandan bana
Kim, qəmi-eşqində yüz qəm yetdi dövrandan bana.
Olma qafil, Tanrıçün, daim tərəddüd eyləyüb,
Gəh yetür bəndən ona peyğam, gəh ondan bana.

Bir gün bir ə'rabiyi-şütürsəvar şəhərdən mütəvəccihi-səhra ikən, naqə anı buraxıb biixtiyar Yusufun zindaninə müqabil gəlüb lisani-hal ilə Yusufə səlam verüb ayıtdı: "Ey pəsəndideyi-Məliki-Cəlil və ey şükufeyi-Bəni-İsrail, Kən'andan Misrə gəldim və hala Misrdən Kən'ana gedirəm; Yə'quba peyğamın varmı?" Yusuf ki, Yə'qub adın və Kən'an zikrin istima' etdi, fəryadü fəğanı asimana yetdi. Şe'r:

Səba, lütf etdin, əhli-dərdə dərmandan xəbər verdün,
Təni-bicanə candan, canə canandan xəbər verdün.

---

[1] Bu kən'anlı bir qulamdır və Əziz ona qəzəblənmişdir.

[2] Bu, Allahın qəzəbindən, Allaha qarşı olmaqdan, cəhənnəmə girməkdən və qatrana bulaşmaqdan daha xeyirlidir.

Bu halətə müqarin ə'rabi iztirab ilə gəlüb naqəyə taziyanə urmaq sədədində ikən zəminə hökm oldu ki, ə'rabiyi həbs edə. Ə'rabi müqəyyəd olduqda Yusuf nida yetürdi ki: "Ya əxələrəb, nə canibdən gəlürsən?" Ə'rabi ayıtdı: "Kən'andan gəlürəm". Yusuf ayıtdı: "Kən'anın qansı nahiyəsindən olurdun?" Ə'rabi ayıtdı: "Mənzilgahım çeşməsari-Bəni-İsrail və mərğzari-Ali-Yə'qubdur". Yusuf ayıtdı: "Ey bəradər, ol badiyədə heç bir dirəxti-barvər gördünmü ki, on iki budağı olub, birin sərsəri-afət qoparub bir müddətdir ki, əsli-dirəxt arizuyi-fər' ilə pəjmürdə və bixi-dirəxt iştiyaqi-şaxsarlə əfsürdədir?" Ə'rabi ayıtdı: "Bu nüktə əhvali-Yə'qubdan kinayətdir ki, on iki oğlundan birin itirüb, hala bir müddətdir ki, yollar üzərində bir möhnətxanə bina qılub, ismin Beytül-Əhzan qoyub, anda sakin olub, sadirü variddən xəbər sorar, əmma əsər bulmaz". Şe'r:

Hiç kim, ya Rəb əsiri-dərdi-hicran olmasun,
Mənzili Yə'qub nisbət Beytül-Əhzan olmasun.
Aşiqin bir dəm muradınca mədar etməz fələk,
Necə hər dəm gəlməsün fəryadə, giryan olmasun.

Yusufun dərdi bu xəbərdən ziyadə olub ayıtdı: "Ey ə'rabi, hala əzimətün nə canibədür?" Ə'rabi ayıtdı: "Badiyeyi-Hicaza əzm etişəm ki, anda məta'i-münasib alub Kən'ana müraciət qılam".Yusuf ayıtdı: "Bu ticarətdə nə miqdar fayidə mütəsəvvirdür?" Ə'rabi ayıtdı: "Yüz dirəm". Yusuf ayıtdı: "Sana bir yaqut verəyim ki, qiyməti igirmi bin dirəmdən ziyadə ola, bu şərtlə ki bu mənzildən Kən'ana müraciət qılub, Beytül-Əhzanə gedüb ol pirə səlamım yetürəsən və xaki-payinə niyazım ərz edəsən ki: "Ey Rəsuli-sahib-qəbul, zikrində olan qəribləri və fərağın çəkən binəsibləri həngami-dua fəramuş etməyəsən və səni unutmayanları unutmayasan".

Ə'rabi ayıtdı: "Ey əziz, ismin nədür?" Yusuf ayıtdı. Şe'r:

Səfheyi-çehrəmdə şərhi-möhnətim mərqumdur,
Zahirimdən batinim keyfiyyəti mə'lumdur.

İzhari-ism nə hacət?! Səhifeyi-surəti-halimdən keyfiyyəti-məalım mə'lum etmək olur, bu asarü əlamətimdən ol pirə xəbər verdikdə kim olduğum bilür". Şe'r:

Gör rüxi-zərdimdə, ey həmdəm, sirişki-alimi,
Ol güli-rə'naya bu rəng ilə bildir halimi.

Ey ə'rabi, əgər anın mərdümi-çeşmi rəhgüzari-seylabi-sirişkə məhv oldusa, bənim xalirüxsarım xuni-cigər girdabında nayab oldu və əgər anın məqamı Beytül-Əhzan isə, bənim mənzilim bəndü zindandır. Ey ə'rabi, bu yaqutu alub lə'li-sirişkimdən ol mə'dəni-mürüvvətə xəbər yetür ki, anı fərəhnak edüb duasın alasan, zira müstəcabüd-də'vətdir". Ə'rabi ayıtdı: "Bən giriftari-zəminəm, hərəkətə qüdrətim yoxdur". Yusuf ayıtdı: "Ey ə'rabi, bu naqə mübarəkdir, səndən müqəddəm badiyeyi-qürbət giriftarlarına sükkani-Beytül-Əhzan peyamın gətürdi və talibə mətlüb müjdəsin yetürdi; müstəhəqqi-üqubət degil, təərrüzündən təcavüz et".

Ə'rabi tövbə qılub ol müzayiqədən nəcat buldu və ol yaqutu alub canibi-Kən'ana rəvan oldu. Yusuf ol ə'rabi ardınca sirişk seylabın töküb deyərdi: "Ya ləytə Rahilə ləm təlidni"[1]. Şe'r:

Çün dəmi şad olmazam dövri-cəfa-əncamdan,
Kaş hərgiz doğmayaydım madəri-əyyamdan.

Əlqissə, ə'rabi Kən'ana yetüb, nisfül-leyldə Beytül-Əhzana gəlüb, Yə'quba səlam verüb ayıtdı: "Əssəlamu əleykə ya nəbiyullah, əs-səlamu əleykə əyyuhəl-məhmum, əssəlamu əleykə əyyuhəl-məğmum"[2].

Yə'qub ol sədadan bir fərəh ehsas edüb, hücrədən çıxıb ayıtdı: "Əleykəs-səlam, ey bəndeyi-Xuda, nə canibdən gəlürsən?" Ə'rabi ayıtdı: "Peyğamım var Misr canibindən: Və təmamiyi-hekayəti təfsil ilə şərh etdi. Yə'qub ol peyğamdan süruri-tam və nişati-təmam bulub muradına yetdi. Şe'r:

Əfakəllah, ey qasidi-xoşxüram,
Yetirdün bana dilbərimdən payam.
Rümuzi-nihan aşikar eylədün,
Bəni vəslə ümmidvar eylədün.

Ey ə'rabi, bu müjdə ilə cani-həzinimə kəlaməti-behcətasarla təmkin yetürdün və naireyi-hicranıma zülali-nöqteyi-göhərbarla təskin verdün, nə şükranə istərsən?" Ə'rabi ayıtdı: "Ya Nəbiyullah, dünya muradın Yusufdan hasil etmişəm, səndən nəcati-axirət üçün istid'ayidua qıluram".

Yə'qub ayıtdı: "İlahi, bu bəndeyi-məğbuli səkərati-mövtdən fariğ edüb, müstə'iddidüxuli-behişt qıl".

Bu hala müqarin naqə zəbani-hal ilə fəryad etdi ki: "Ya Nəbiyullah, vasiteyi-pəyam bən idim, bən dəxi duaya möhtacam".

Yə'qub ayıtdı: "İlahi, bu naqəyi behişt naqələrindən edüb, ana səbzəzari-cənnət məzrəte'in nəsib et".

Ə'rabi ayıtdı: "Ya Nəbiyullah, bu zəman zəmani-icabəti-duadır, ol əsiri-zindan üçün dəxi bir dua qıl".

Yə'qub ayıtdı: "İlahi, anı mətlubinə vasil edüb cəmi'i-muradın hasil et".

Allah, Allah, nə xoş münasibdür Yusufun cəfalar görüb və bəndü zindana düşüb, Yə'quba irsali-peyğam etdügi şəhidi-Kərbəlanın cəfayi-qövmdən tə'ərrüz bulub dəşti-Kərbəlada möhnətlərə giriftar olduqda rövzeyi-Rəsulullaha ərzihal etdiginə. Zəhi təhəmmül ki, ixvanü

[1] Kaş ki Rahilə məni doğmayaydı!

[2] Ey Allahın Peyğəmbəri, sənə salam olsun, ey sıxıntı içində olan, sənə salam olsun, ey qəm içində boğulan, sənə salam olsun!

əqarib bir-bir müqabilində şərbəti-şəhadət içüb, kəndü tənha qaldıqda mütəzəlzil olmadı və təğəyyür bulmadı. Şe'r:

Dərda ki, əhli-danişü idrak getdilər,
Məcruhü dilşikəstəvü qəmnak getdilər.
Alayişi-zəxarifə aludə olmayub,
Dünyaya pak gəldilərü pak getdülər.

Rəvayətdir ki, Hüseyni-məzlum ixvanü əqaribdən sonra tənha qalub münacat etdi ki: Ya Rəb! Misra':

Zarü tənha qalmışam yarü diyarımdan cüda.

Əhli-Beyti-risalət şahzadənin bikəsligin görüb, fəğana gəlüb bir tərəfdən bənati-mütəhərrat giriban çak edüb və bir tərəfdən üxüvvati-salihat xuni-cigər birlə nəmnak edüb və bir tərəfdən Həzrəti-İmam-Zeynəlabdin sədayi-fəğanın mütəvəccihi-əflak edüb, qülqüleyi-müsibət bir qayətə yetmişdi ki, fələki-birəhmin ol halətə rəhmi gəlüb, şiddəti-möhnət dövri-zalimi ol məzlumların halına mütəhəyyir etmişdi. Şe'r:

Bənzəməz Yusufun əhvalına əhvali-Hüseyn,
Nişə kim Yusuf olub bəsteyi-zənciri-mihən.
Düşdü zəncirə, vəli qılmadı zəncirsifət,
Tiri-bidadi-ədu cismini rövzən-rövzən.



## FƏSLİ-İBTİLAYİ-MUSA

Tiri-təhəmmül sərgəştələrinin və tiği-təvəkkül küştələrinin biri Həzrəti-Kəlimullahdür ki, qilləti-ə'vanü ənsarlə cəfayi-ali-Fir'on mütəhəmmil olub və süfəhayi-qövm azarına səbr qılub şükr edərdi. Filvaqe', anın şiddəti-əhvalı və kəsrəti-ihvalı şəbihdür vaqieyi-Şahi-Kərbəlaya ki, istilayi-ə'dadan münzəcir olub, tərki-rövzeyi-Rəsul [edüb] yarü diyarından məhrum qalub, dəşti-Kərbəlada mübtəlayi-dami-məsaib və bəsteyi-bəndi-nəvaib olduqda təhəmmül pişə qılub, mütəzəlzil olmadı və əqideyi-səlahı təğəyyür bulmadı. Şe'r:

Möhnəti-Musa degil manəndi-ənduhi-Hüseyn,
Fərqin etmiş anlarun mizani-ənduhi-bəla.
Şəm'i-bəzməfruzdur Vadiyi-eymən atəşi
Nari-aləmsuzdur bərqi-əlayi-Kərbəla.

## FƏSLİ-İBTİLAYİ-İSA ƏLEYHİSSƏLAM

Təriqi-məhəbbət sabitqədəmlərinin və sərapərdeyi-möhnət məhrəmlərinin biri İsayi-mücərrəddir ki, suzənvar əsbabi-dünyadan keçüb sərriştəyi-fəna dutmuş və tərki-təəllüqatifani edüb təriqi-təcərrüd ixtiyar etmiş. Cəmaəti-Yəhud anı töhmətlərə mənsub edüb, səlbinə iqdam etdilər və mütabiətində inhiraf qılub, təriqi-müxalifətin dutdular. Netə kim, Həzrəti-Şahi-Kərbəla təsərrüfi-hökmi-xilafətdən ki, istehqaqla ana ənsəbdir, təcavüz qılub mücavirəti-rövzeyi-Rəsulullah ixtiyar etmiş ikən və təərrüzi-əmri-səltənətindən ki, irslə ana əqrəbdir, e'raz edüb guşeyi-qənaət dutmuş ikən zələmeyi-ümmət sərsəri-həvayi-nəfslə zövrəqi-təmkinin dəryayi-bəlaya salub və sərriştəyi-ixtiyarın zuri-bazuyi-zülmlə əlindən alub, qərqeyi-girdabi-fəna qıldılar. Şe'r:

Qəsdi-qətli-İsiyi-Məryəm qılan saət Yəhud,
Eyləmişdi müztərib anı mücərrəd bimi-can.
Gör şəhidi-Kərbəla halın ki, həm can qıldı tərk,
Həm fəraqi-alü övladıyla oldu imtahan.



## FƏSLİ-İBTİLAYİ-ƏYYUB

Bəstəri-bəla bimarlarının və badiyeyi-fəna dilfigarlarının biri Əyyubi-bəlakeşdir ki, nəvidi-"İnnəllahə yuhibbu kullə qəlbin həzin"[1] dili-pakın məxzəni-cəvahiri-iştiyaqi-hüznü məlal etmiş və əqideyi-"Ənə indəl-munkəsirəti qulubəhüm"[2] həmişə dili-şikəstəsində təməkkün dutmuş. Zira sultani-səriri-Kibriyanın inayəti eyni-inadır və hakimi-divani-qəzanın iltifatı məhzi-bəladır. Şe'r:

Birdürür məsdəri-cəlalü cəmal,
Bir bilür qəhrü lütfü əhli-kəmal.
Gərçi əhvali-müxtəlif çox olur,
Birdir əsli-həqayiqi-əhval.

Rəvayətdir ki, Əyyubi-səbur zəmani-möhnətdən müqəddəm qırx il müdavimi-nəvali-ne'mət və müqimi-riyazi-rahət idi. On iki fərzəndi olub, hər biri istiqlal ilə bir Süleymani-zəman idi; və dörd yüz məmluku olub, bə'zi qatarlarına sarban və bə'zi rəmələrinə şaban və bə'zi bustanlarına bağban idi. Əmma hərgiz kəsrəti-təəllüqat anınla mə'budu arasında hayil olmazdı və istifayi-murad müdaviməti-zikrdən onu qafil qılmazdı. Məlaikə Əyyubun şiddəti-ibadətin və kəmali-itaətin görüb, təsəvvür qıldılar ki, ol ibadətə səbəb təysiri-mətalib və ol taətə bais hüsuli-məvahibdir; və güman etdilər ki, əgər izaleyi-ne'mət vaqe' olsa və istimrari-mövhibət xələl bulsa, anın şükrü şikayətə mübəddəl olur və binayi-e'tiqadı təzəlzül bulur. Lacərəm imtahan üçün bir gün Həzrəti-Cəbrail Məliki-Cəlildən gəlüb ayıtdı: "Ey Əyyub, bir müddətdir ki, məzhəri-asari-ne'mətsən və müqimi-guşeyi-rahət. Vəqt oldu ki, rahət diyarından möhnət mülkünə mütəvəccih olasan və netə ki, ne'mət ləzzətin gördün, möhnət zövqün bulasan".

Əyyubi-səbur ol xəbərdən əsla mütəğəyyir olmayub və təvəhhüm qılmayub ayıtdı: "Ey Cəbrail, bu dəxi bir ne'məti-qeyri-mükərrərdir ki, hər zaman bir aləmin seyri müyəssərdir". Şe'r:

Bilməzəm bən kəndü rə'yimlə ziyanü sudimi,
Bəndəyəm bən, padişahım yeg bilür behbudimi.

Əlqissə, Əyyub müntəziri-bəla və mütərrəsidi-'ina olub bir gün guşeyi-mehrabi-ibadətdə nəmazindən fariğ olub məşğuli-məvaizə ikən, bir tərəfdən şaban gəldi xəbər verdi ki, təmamiyi-rəmə seylaba qərq oldu və bir tərəfdən sarban gəlüb tə'ziyət yetürdü ki, cəmi'i-naqələrin sərsəri-səmumdan fəna buldu və bir tərəfdən bağban gəlüb afəti-jalədən bustan həlakın təqrir edüb fəğana gəldilər və bir tərəfdən xədəmü həşəm zəlzələdən qəsrü eyvanın inhidamın xəbər verüb növhə qıldılar. Əmma Əyyub çün müqəddəmədən vaqif idi, bu xəbərlərdən iztirab etməyüb və bu hadisədən xatirinə qübari-küdurət yetməyüb, Həqq zikrinə məşğul idi. Nagah xəbər verdilər ki: "Ey Əyyub, on iki oğlun əkbəri-övladın meh-

[1] Allah hər hüzünlü könlü sevər.
[2] Mən qəlbi sınıqların yanındayam.

mansərayində ziyafətə məşğul ikən səqfi-səray münhədim olub, on ikisi dəxi həlak oldu". İbtidayi-halətdə Əyyuba istilayi-cəzə' biixtiyar yol buldu, əmma yenə qeyrəti-məhəbbət mən'ilə səbr edüb duaya məşğul oldu. Şe'r:

Xatiri-yar əgər aşiqə azar istər,
Gərək azar çəkə aşiq əgər yar istər.
Küfrdür aşiqə əndişeyi-səhhət qılmaq,
Yar əgər aşiqini dərd ilə bimar istər.

Çün fövti-malü mənal və fövti-övladü əyal Əyyuba təğəyyür vermədi və binayi-e'tiqadına asibi-həvadis xələl yetürmədi, məlaikə ayıtdılar: "Ya Rəb, əfzəli-niəm şərəfi-səhhətdür və Əyyubi fövt olan ne'mətlərin istirdadına ümidvar edüb ibadətdə qayim edən ol ne'mətdir". Hökm oldu ki, imtahan üçün səhrayi-vücudu səriri-sultani-səhhət ikən seyrgahi-sipahisəqam ola və məcariyi-üruq və ə'zasında hər qətrə qan bir kirmi-xunxar olub məfasifi-tərkibində mənzil qıla. Bu möhnətlə dəxi səbrinə ixtilal və əqdi-əqidəsinə inhilal bulunmadı ol zəmanədək ki, kirmlər zəbanü qəlbinə düxul etdilər və təfəkkür rəhgüzarın bağlayub təzəkkür sərçeşməsin dutdular. Əyyubi-biçarə fəryada-gəldi və təzərrö' qıldı ki, "Rəbbi inni məssəniyəz-zurri"[1], yə'ni bana zərər mütəvəccih oldu, zira cəmi'i-aləmdə zikrü fikrinlə təsəlli olurdum və qəmü ənduh gördükcə zikrində fərəh və fikrində tərəb təmənna qılurdum, hala dil ki, aləti-fikrdür və zəban ki, səbəbi-zikrdür, mərəz taracına getməkdədür və bəni təfəkkürdən məhrum və münacatdən mə'yus etməkdədir. Haşa ki, bu hala riza verəsən və bu bəndeyi-müxlisi fikrü zikrindən məhrum rəva görəsən". Şe'r:

Zəban bülbüli-baği-zikrü sənadür,
Dil ayineyi-hüsni-sidqü səfadür.
Bəni bidilü bizəban qoyma, ya Rəb
Ki, bidilligü bizəbanlıq bəladür.

Həqqi-sübhanəhü və tə'ala, dili-mütəzzərre' və zəbani-mütəxəşşe'dən qəbuli-təvəqqö' qılub, cəmi'i-fövt olan ne'mətlərin istirdadına hökm qıldı və təni-məksurinin cəbbarı və diliviranının me'marı oldu. Ey əzizlər, əgər Əyyubi-səbur fövti-əmval və mövti-övladla mütəğəyyir olmayub səbr qıldı, şəhidi-Kərbəla dəxi xaniman yağmaya verüb və ixvanü övladü ənsabının mövtün müşahidə qılub sabir oldu. Və əgərçi həzrəti-Əyyubun bədənində dörd bin kirmi-xunxar mənzil dutdu, şəhidi-Kərbəlanın tənində yüz bin peykani-abdar qərargah etdi. Şe'r:

Demə kim şahi-Kərbəla ələmi
Qəmi-Əyyubi-dilfigarcədür.
Sanma kim, zəxmi-nişi-kirmi-zə'if
Zərbi-şəmşiri-abdarcədür.

[1] Ey Rəbbim, bu dərd mənə toxundu (Qur'an, 21, 83).



## FƏSLİ-İBTİLAYİ-ZƏKƏRİYYA VƏ YƏHYA

Cəfayi-fələk azürdələrinün və möhnəti-zəmanə əfsürdələrinün biri Zəkəriyyayi-məzlum və biri Yəhyayi-mə'sumdur. Rəvayətdir ki, bir gün Zəkəriyya mehrabi-ibadətində münacat etdi ki: "İlahi, şami-şəbabə sübhi-şeyb irişdi və rabiteyi-canü tən riştəsinə tabi-müxalifət düşdü. "Fəhib li min-də-dunkə vəliyyən", yə'ni inayət qıl bana bir xələfi-sahibtəqva və fərzəndi-pakizəliqa".

Həqq navəki-duasın hədəfi-icabətə yetürdi və Yəhyayi-mə'sumu ana verdi. Üç yaşına yetdükdə bir gün ətfali-məhəllə Zəkəriyya hücrəsinə cəm' olub Yəhyaya təklifi-ləhvü lə'b etdilər. Yəhya hücrədən çıxmayub cəvab verdi ki, "Ma'lil-lə'əbu xələqna"[1].

Əlqissə, ibtidayi-tüfuliyyətdə riqqəti-təmamla məcbul olub və tərki-ləhvü lə'b qılub, həmişə istima'i-əhvali-qiyamətə mayil və keyfiyyəti-hövli-məhşərə sayil idi və dörd yaşında Tövratı hifz etdi və on yaşında əhkami-şər'iyyənin künhünə yetdi. Şəbü ruz giryan olmağın və mahü sal əfğan qılmağın bir gün Zəkəriyya münacat etdi ki: "Ya Rəb, səndən bir xələf istədim ki, süruri-sinə andan müyəssər ola. Bana bir nütfə kəramət qıldın ki, andan rahətüm getdi və naləvü əfğanı bəni azürdə etdi".

Xitab gəldi ki: "Ey Zəkəriyya, sən bəndən fərzəndi-vəlişüar təmənna qıldun, budur vəlilər nişanı və salehlər şanı ki, həmişə giryan olalar və peyvəstə naləvü əfğan qılalar. Ey Zəkəriyya, hənuz sübhi-bəladan bu nişaneyi-səhərdür və ataşi-möhnətdən bu bir şərərdür; təhəmmül qıl ki, ənqərib bu şükufənin meyvəsin dərəcəksən və bu qönçənin gülün görəcəksən. Ey Zəkəriyya, vəqtdir ki, səni başdan ayağa ərrə ilə iki parə qılalar və Yəhyanın hülqünə tiğitiz həvalə qılub qətlinə mütəvəccih olalar". Şe'r:

Yar səndən tərki-can istər, götür candan təmə',
Hər nə andan qeyr görsən, qət' qıl andan təmə'.
Şəm'vəş canan səni çün yaxmaq istər müttəsil,
Ataşi-suzana gir, kəs abi-heyvandan təmə'.

Əlqissə, xövfi-Yəhya bir qayətdə idi ki, ol hazır olduqda Zəkəriyya üqubati-məşhərdən bir kəlimə bəyan və bir hərf əyan edə bilməzdi. Bir gün Yəhyadan qafil olub, qayib sanub zikr etdi ki: "Duzəxdə Ğəzban nam bir kuhi-ataşin var ki, andan seyli-əşk ilə güzər etmək olur və bədrəqeyi-suzü güdazla payana yetmək olur". Yəhya eşidüb dürrə'əsin buraxub canibi-səhraya rəvan olub, "Əl-veyl li-mən dəxələ Ğəzban"[2], – deyüb fəğana başladı. Zəkəriyya anın əhvalina müttəle' olduqda minbərdən yenüb validəsinə ayıtdı: "Ey zə'ifə, bu gün səhv edüb bir şəmmə əhvali-duzəxdən bəyan etdim: Yəhya istima' edüb fəğan qılub səhraya düşdü. Mürafiqət qıl, səhraya gedüb anı istifsar edəlim".

İttifaqla ol sitəmrəsidələr səhragərdü biyabannəvərd olub, üç gün səyahətə iştiğal qılub andan əsər bulmadılar və məqamına müttəle' olmadılar. Beyt:

[1] Biz oyun üçün yaradılmadıq.
[2] Vay olsun cəhənnəmə girənin halına!

Cana bənzər dilbərim bilmən məkanı qondadur,
Kim bilür aləmdə ənqa aşiyanı qondadur.

Dördüncü gündə bir şəbana yetüb sual etdikdə şəban ayıtdı: "Bən Yəhyanı görmədüm, əmma üç gündür bu kuhdən bir sədayi-dilsuz gəlür ki, istima'i hüzuruma mane' olur". Ol canibə təvəccöh etdükdə gördülər ağəşteyi-xakü xun olmuş, bixud yatub. Üzərinə gəlüb fəryad etdükdə iztirabla göz açub öylə sandı ki, mələkül-mövtdür, qəbzi-ruh etməyə gəlmiş. Təzərrö' qılub ayıtdı: "Ey mələkül mövt, ol qədər aman ver ki, pədəri-pirü madəri-zəifimi görüb vida' edim". Validəsi ayıtdı: "Ey cigərguşə, bənəm valideyi-dilfigarın və madəri-biqərarın". Yəhya xəbərdar olduqda fərar etmək tədarükündə ikən, ənvai-yəminlə təskin verüb və Zəkəriyya dəxi bir canibdən təzərrö' qıldı və anı mənzilə gətürdülər. Bir miqdar ədəs təbx edüb Yəhyaya ərz etdikdə Yəhya andan bir miqdar tənavül edüb meyli-xab etdikdə vaqiəsində xitab etdilər ki: "Ey Yəhya, məgər Ğəzbanı fəramuş etdin ki, qida tənavül edüb fərağətlə yatdın?" Yəhya bidar olub yenə iztirabla fəğan qılub səhraya düşdü və fəryadü fəğanı asimana irişdi. Rəvayətdir ki, Yəhya müddəti-ömrdə hərgiz xəyali-mə'siyət xatirinə yetürmədi və zikri-mənahi dilinə gətürmədi.

Nəqldir ki, ruzi-Qiyamət iki növbət nidayi-amm edələr, bir növbət Yəhya üçün bu ibarətlə ki: "Ey əhli-məhşər, nəzzarə qılun bu bəndeyi-mə'suma ki, hərgiz əndişeyi-xəta zəmirinə yetməmişdir və mütləq ləzzati-dünyəvi təsərrüf etməmişdir". Cəmi'i-aləm göz açdıqda Yəhyayi-mə'sumə müşahidə qılalar və günahkarlar şərmsar olalar. Və bir növbət dəxi Fatimeyi-Zəhra üçün nida qılalar bu ibarətlə ki: "Ey mə'şəri-bəşər, "Əzzü əbsarəkum"[1], yə'ni ey bəni-Adəm, göz yumun ki, Fatimeyi-Zəhra gəlür". Nəqldir ki, Fatimeyi-Zəhra ərəsati-Məhşərə bir növ'lə güzar edə ki, heç nazirin qüdrəti-nəzzarəsi olmuya və heç kim müşahidəsinə qüdrət bulmaya; kətfi-yəminində pirahəni-zəhraludi-Həsəni-Muctəba və kətfi-yəsarində cameyi-pürxuni-şəhidi-Kərbəla və kəfi-mübarəkində əmmameyi-xunini-Əliyyi-Murtəza qayəti-təzərrö' ilə daməni-ərş dutub təzəllüm göstərə ki: "Ya Rəb, fəryadıma yet". Cəbrail Həzrəti-Seyyidi-Kainata xəbər yetürə ki: "Ya Rəsulullah, Xatuni-Qiyamət daməni-ərşə əl urubdur və təzəllüm edüb, bargahi-ədalət dərgahında durubdur; vəqtdir ki, sərsəri-ahi-cangüdazından dəryayi-qəhri-İlahi təməvvücə gələ və aləmi qərqeyi-tufani-qəzəb qıla. Həzrəti-Seyyid istə'cal ilə ərş əyağına gəlüb Fatimeyi-Zəhraya nəsihət qıla ki: "Ey nuri-didə və ey arami-diliqəmdidə, bu gün ruzi-müavinətdir, vəqti-müxasimət degil və zəmani-riayətdir, əyyami-şikayət degil. Sən Həsənin pirahəni-zəhralud və Hüseynin cameyi-pürxunun ələ alub, bən gisuyi-qübaraludəmi açub dua qılalım və ümməti-günahkarlara şəfi' olalım ki, Ərhəmür-rahimin əhli-isyanə rəhmət qıla. Xüsusən ol kimsənələrə ki, məzlumlarımız müsibətində və şəhidlərimiz tə'ziyətində didələrin giryan və sinələrin büryan etmişlər və qayibanə övladımız əzasın dutmuşlar. Şe'r:

Əhli-Beytin yad edüb hər ləhzə abi-didəsin,
Zaye' olmaz əşk tökmək dideyi-xunbardan.
Bu müsibət əşkinün hər qətrəsinə ruzi-Həşr,
Əcrdir bin bəhri-rəhmət İzədi-Cəbbardan.

[1] Gözünüzü yumun!



Və əxbari-səhihədən nəqldir ki, Zəkəriyyayi-məzlum və Yəhyayi-mə'sumla müasir olan məliki-birəhmin bir mənkuhəsinin zövci-axirdən bir cəmilə qızı olub, kəndü pir olub, istid'a qıldı ki, qızın ol məlik əqdinə müqərrər qıla. Məlik Yəhya ilə bu xüsusda məşvərət qıldıqda. Yəhya riza verməyüb məliki bu əndişədən mən' etdi. Ol məkkarə münzəcir olub Yəhya kinəsin xatirinə dutdu. Bir gün məlik cami-istilayi şəhvətdən məst ikən, qarşusında ol məhbubəyi müzəyyən qılub ana göstərdi. Məlik anın vüsalına həris olub tələbi-müvasilət qıldıqda ayıtdı: "Bu surət Yəhyanın qanı tökülməyincə müyəssər olmaz və imkan bulmaz". Məlik Yəhyanın qətlinə hökm etdikdə üləmayi-əsr ayıtdılar: "Yəhyanın bi qətrə qanı yer yüzünə tökülsə, əczayi-üruqi-nəbat minbə'd peyvənd dutmuya və ruyi-zəmində bəhaim mütəmət-te' olmağa giyah bitməyə". Məlik hökm etdi ki, Yəhyanın başın bir teşt üzərində kəsüb qanın təhtəssərada dəfn edələr ki, yer yüzünə tökülməyə.

Əlqissə, cəlladlər müqərrər olub Yəhyanın qətlinə əmr olunduqda cəlladlar ayıtdılar: "Zəkəriyya müstəcabüd-də'vətdür oğlunun qətlin etməkdə anın duasından ehtiraz edərüz". Hökm oldu əvvəl Zəkəriyya qanın tökələr. Bu əzimətlə Zəkəriyyanın mənzilinə gəlüb Yəhyayı müqəyyəd etdikdə Zəkəriyya fürsət bulub bir canibə fərar etdi. Bə'zi kimsənələr Yəhyanı müqəyyəd edüb, bə'zi kimsənələr Zəkəriyya cüstücuyinə rəvan oldular. Zəkəriyya iztirabla gedərkən şiddəti-zə'fdən bitaqət olub, bir pənah istərkən bir dirəxti-ali görüb ana mütəvəccih olduqda dirəxt çak olub Zəkəriyyaya bətnində mənzil etdi. Zəkəriyya düxul etdikdən sonra surəti-iltiyam dutdu, əmma Zəkəriyyanın guşeyi-ridasın İblis çəküb dışra qoydu. Zəkəriyya təfəhhüsündə olanlar yetdikdə iblisi-lə'ini bir piri-saleh surətində görüb Zəkəriyya əhvalın istifsar etdikdə, İblis Zəkəriyyanın guşeyi-ridasın göstərüb ayıtdı: "Mətlubunuz bu dirəxt içindədür". Kafirlər Zəkəriyyanı dirəxtdən çıxarmaq tədarükündə ikən İblis ayıtdı: "Ey qövm, əgər qərəzünüz anın qətlidir, dirəxt içində müyəssər olur". Və anlara ikibaşlu bıçqu tə'lif edüb tə'lim etdi. Rəvayətdir ki, küffar Zəkəriyyanın fərqi-mübarəkinə ərrə qoyduqda Həzrəti-İzzətdən nida gəldi ki: "Ey Zəkəriyya, bu hökm [i-müta'] bənümdür, əgər mütəəllim olacaq olsan, ismin cərideyi-nübüvvətdən məhv olmaq müqərrərdür". Şe'r:

Aşiqəm dersən, bəlayi-eşqdən ah eyləmə,
Ah edüb əğyarı əsrarından agah eyləmə.
Eşq sultanı nə fərman etsə göstər inqiyad,
İctinab etmə, tənəffür qılma, ikrah eyləmə.

Zəkəriyya ayıtdı: "İlahi, çün bənim qanım sənin səri-kuyində tökülür, həqqa ki, əgər ərrəvar cəmi'i-əndamım zəban olsa, şükründən qeyri təkəllümə iqdam etməyəm və iztirab edüb təriqi-cəzə' dutmayam".

Əlqissə, ol ərrə ilə ol məzlumu fərqdən ta qədəm iki parə qıldılar, bir ah çəkmədi və dideyi-nəmnakından bir qətrə əşki-təzəllüm tökmədi. Beyt:

Ləzzəti-cövrü bilən cövrdən ikrah etməz,
Yarsalar cismini başdan ayağa, ah etməz.

Əmma Yəhyayı müqəyyəd edənlər bir teşt üzərində sərimübarəkin bədəni-lətifindən cüda qılub ol nabəkara hədiyyə etdilər və qanın bir çahi-bə'idül-ğəvrə tökdülər.

Rəvayətdir ki, qan hər il cuşa gəlüb gül kibi tazə olurdu ol zəmanədək ki, Büxtünnəsər nüsrət bulub anlardan yetmiş bin kafir qətl qıldı, ol xunrizdən sonra Yəhyanın qanı cuşdan sakin olub qərar buldu.

"Şəvahidün-Nübüvvət"də İmami-Zeynəlabdindən nəqldir ki: "Həzrəti-Hüseyn Məkkeyi-müə'zzəmədən Kufəyə təvəccöh etdikdə heç mənzilə yetməzdi ki, Yəhyayi-mə'sum macərasın zikr etməzdi. Və buyururdu ki, ruzigarın ədəmi-mürüvvətin və fələkin kəmali-vəqahətin görün ki, Yəhya kibi salehün səri-səadətməndin bir facirə hədiyyə etmiş". Və Sə'd bin Cübeyr, Əbbasdan rəvayətdir ki: "Bir gün Həzrəti-Rəsulullah xəbəri-vaqieyi-Kərbəladan mütəəllim olub təfəkkür edərdi ki: Aya, ol qəriblərin intiqamın zalımlardan kim alur ola? Həzrəti-İzzətdən vəhy gəldi ki: "Ya Rəsulullah, Yəhya bin Zəkəriyya üçün yetmiş bin kafir siyasətə yetdi, sənin fərzəndi-ərcmindün üçün yetmiş bin [kafir 40 siyasətə yetər]". Və bir rəvayət dəxi oldur ki, yetmiş kərrə yetmiş bin münafiq qətl olsa gərək. Filvaqe', bu və'də vəfaya yetdi, zira Muxtar bin Əbu Übeydeyi-Səqəfi və Müseyyib bin Qə'qa' Xüzai və İbrahim bin Malik Əştər Nəxə'i və Əbu Müslimi-Mərvəzi bir-birinə mütə'aqib xüruc edüb, səfheyi-ruzigardan əksəri-ə'dayi-Ali-Rəsulu məhv etdilər və qanlarından sirişki-məzlum kibi cuybarlar yürütdülər və "Üyunur-Riza"da məsturdur ki, "Mehdiyi-Ali-Məhəmməd qətəleyi-şühədayi-Kərbəlanın tətimmeyi-zürriyatın ruyi-zəmindən götürür və qaideyi-asarü şərti-intiqamı ol Həzrət yerinə yetirür. Şe'r:

Gər olmasaydı qərəz intiqami-xuni-Hüseyn,
Zühuri-Mehdiyə çəkməzdi intizar vücud.
Qəzaya qaideyi-səbr ixtira'indən,
Cəzayi-qatili-Ali-Rəsuldur məqsud.



## İKİNCİ BAB

## HƏZRƏTİ-RƏSULUN QÜREYŞDƏN ÇƏKDİGİ BƏLALARI BƏYAN EDƏR

Həzrəti-Sultani-bargahi-risalət və nazimi-kargahi-şəriət, gövhəri-gəncineyi-əsrari-hikmət, gülbüni-hədiqeyi-rəhmət dəri-xəzaneyi-nəsihət açub və dürci-lə'lindən cəvahiri-həqiqət saçub buyurmuş ki, "İnnə ə'zəmil-bəlai mə'ə ə'zəməl-vəlali"[1], yə'ni hər bəlaya bir cəza və hər ənaya bir əta müqərrər olmağın, məratibi-bəlavü əna irtifa' buduqca mədarici-cəzavü əta mürtəfe' olur. Və həmişə darüşşəfayi-mərhəmət əmrazi-möhnət mübtəlalarına mövqufdur və həmvarə övqati-təbibi-şəfaxaneyi-məkrəmət bimarlar müalicəsinə məsrufdur. Hər bəndeyi-sadiq ki, hədiqeyi-həqiqəti mənbəti-nihali-məhəbbətdür, lacərəm nihali-fitrəti mənməi-əzhari-məlalü möhnətdir. Yəhya bin Müaz Razi rəhmətullahi əleyh bir gün münacatında ayıtdı: "Ya Rəb, cərəyani-adəti-əhli-aləm bu təriqlədir ki, bir kimsənə bir kimsənəyə məhəbbət buraxsa, anın cəmi'i-cəvanibindən riayəti-xatirin kəndüyə lazım bilür və mümkün olduqca anın hüsuli-məramına mail olur; nə əcəbdir ki, sən məhəbbətlə sərəfraz etdigüni möhnətlə mümtaz edərsən". Nida gəldi ki, "Ey Yəhya, bənim təriqim xilafi-təriqi-əhli-aləmdir, anların əlameyi-məvəddətləri asari-mərhəmət, bənim nişaneyi-məhəbbətim möhnətü ələmdtr". Şe'r:

Rəncdür gənci-gövhəri-rahət,
Dərddür gülşəni-güli-rəhmət.
Ey xoş ol dərdməndi-qəmpərvərd
Ki, rəfiqi qəm ola, həmdəmi dərd.
Dərddən qeyr olmaya yarı,
Qəmdən özgə rəfiqü qəmxarı.

Bə'zi kütubi-səmavidən nəqldir ki: "Ey bəni-Adəm, hərgah ki, səyyadi-qəza səni nişaneyi-navəki-bəla qıla və cəlladi-fələk tiği-cəfa ilə qətlinə mail ola, "Fəqərri əynakə"[2], yə'ni dideyi-ümidini nuri-riza ilə rövşən edüb şükr qıl ki, əlameyi-məqami-ənbiyavü övliya və nişaneyi-hüsuli-mərtəbeyi-izzü ə'ladır. Bu müəyyəndir ki, bəlayi-növ'i-bəni-Adəm sane'ə əqrəb olmağın sair məxluqatdan ziyadədir. Zira ibtidai-xilqətdə çeşmeyi-xunabədən rizqi məqsum olub, kəmali-zillətə giriftar olur və qüdrəti-tərəddüd bulduqda üqubəti-tərbiyəti-ustad və ənduhi-tə'limü irşadla müəzzəb olub, bir müddət ol möhnətdə qalur və mərtəbeyi-büluğ hasil etdikdə, kəməndi-kəsbi-məişət və silsileyi-təklifi-ibadət qeydinə düşüb, gah qəmi-dünya [və gah xövfi-] axirət qərarın alur. Və bu dəxi mühəqqəqdir ki, rütbeyi-bəlayi-ənbiya cəmi'i-bəni-Adəmdən ə'lavü ə'zəmdir; və bəlaya səbr edüb iktisabi-qəbuli-qürb etmək ənbiyaya müsəlləmdür. Şe'r:

Ənbiyadür məzahiri-rəhmət,
Ənbiyadür xəzaini-hikmət.

---

[1] Yə'qin ki, bəlanın böyüyü ona sahib olmağın böyüklüyü ilədir.

[2] Gözünü işıqlandır.

Hər bəla kim, fələkdən etdi nüzul,
Ənbiya qıldı ol bəlayı qəbul.
Sipəri-navəki-qəm anlardur,
Anın üçün mükərrəm anlardur.

Və bu dəxi müqərrərdir ki, ol miqdar bəla ki, Həzrəti-Mustəfaya yetmişdir və ol miqdar zəhri-möhnət ki, ol Həzrət təcərrö' etmişdir, heç peyğəmbərə müyəssər olmuş degil və heç kim bəlaya anın kibi səbr qılmış degil. Əgər bir cür'ə şərbət içsəydi, ana zəhri-bəla məmzuc idi və əgər bir xirqə geysəydi, tarü pudü rəncü ina' ilə mənsuc idi. Filvaqe', bir bəlayi'-əzimdür mütəsəddiyi-icrayi-əhkam olub, mütəəhhidi-şəfa'əti-əhli-isyan olmaq və qəflətsərayi-rahətdə xabi-fərağət sərməsti olan bihuşlar üçün gecələr səbahədək bidar olub dua qılmaq. Zəhi kamil ki, əgər mübəşşiri-izzət bargahi-qədrin qabi-qövseynə çəksə, gərdi-təkəbbür daməni-iqtidarinə yetməzdi və əgər qaidi-hikmət giribani-şükuhin pənceyi-əczü inkisara tapşursa, dəsti-e'tiqadından daməni-təvəkkül getməzdi. Şe'r:

Kəmali-e'tidali-təb'i ol qayətdə kim bulmaz,
Təğəyyür gər zəminü asiman zirü zəbər olsa.
Təkəbbür eyləməz me'raca çıxsa payeyi-qədri,
Məzacı kəsr bulmaz fərşi-xaki-rəhgüzər olsa.

Mücmələn, divani-qəzadan ol Həzrətin nami-şərifləri mərqum olan bəlaların ibtidası oldur ki, hənuz validə bətnində ikən, validi-büzürgvarı vəfat edüb, sərrafi-ruzigar ol gövhəri-giranmayənün ləqəbin yetim qıldı və tövqi'i-rəfi'i-vücudi-şərifi bu tuğra ilə müzəyyən oldu. Beyt:

Nola gər olsa yetim düri-dəryayi-həya,
Gər yetim olsa, füzundur düri-dəryaya bəha.

Və Həzrəti-İzəd məlaikəyə xitab etdi ki: " Əgərçi həbibim [yetim]dir, bən ana vəli və vəkiləm". "Nə'məl-mövla və nə'məl-vəkil"[1].

Rəvayətdir ki, iki yaşına yetdükdə valideyi-möhtərəmləri Məkkədən Mədinəyə nəql edüb, ol Həzrəti validi-büzürgvarının ziyarətinə müşərrəf qılub müraciət etdikdə məriz oldu və Həzrəti-Rəsul ol məxdumənün şəm'i-balini olub, dili-suzan və dideyi-giryanla zar-zar ağlayub derdi. Şe'r:

Getmə, ey ruhi-rəvan, hicr ilə zar etmə bəni,
Yandurub firqətə bisəbrü qərar etmə bəni.
Nəzərimdən güli-rüxsarini pünhan edübən,
Xarxari-qəmi-hicr ilə figar etmə bəni.

Ol sədəfi-gövhəri-risalət və nihali-şükufeyi-nübüvvət bihuş ikən huşa gəlüb, dideyi-əşkbar açdıqda Həzrəti-Rəsulullahın çehreyi-mübarəkində əşki-həsrət görüb zəbanihal ilə bu nüktəyə mütərənnim oldu. Şe'r:

[1] Nə gözəl Mövla və nə gözəl vəkil.



Təbarəkallahu fikə min ğulami,
İn əsəhhə ma əbsərtə fil-mənami.
Və əntə məb'usun iləl-ənami,
Min indi zil-Cəlali vəl-ikrami[1].

Ey fərzəndi-səadətmənd, mən vaqiəmdə görmüşəm və hatifdən dəxi istima' etmişəm ki, sən peyğəmbəri-mürsəlsən. Əgər mən mülki-vücuddan iqlimi-fənaya mütəvəccih olsam, qəm çəkməzəm, zira sənin kibi yadigarım var". Şe'r:

Qəm degil gər danəyi məhv etsə dövri-ruzigar,
Çün nihali-barvər qalmışdır andan yadigar.

Rəvayətdir ki, ənduhi-müfariqəti-madəri-mehriban izafeyi-sairi-nəvaib və əhzan olub, səkkiz yaşına yetdikdə cəddi-büzürgvarı Əbdülmüttəlib ki, kafili-əncamü məhəmmi-məram idi, dari-dünyadan intiqal edüb, ol Həzrətə əmisi Əbu Talib mütəkəffil oldu və yigirmi yaşına yetdikdə beş il şəbanlıq [etdi] və ol sən'ət zimnində riayəti-ümmət kəmalına yetdi. Və yigirmi beş ildən sonra Xədicə həzrətlərinə ittisal edüb, qırxıncı ildə nüzuli-vəhy ilə müşərrəf oldu və qırx üçüncü ildə ağazi-də'vət qıldı. İbtidayi-də'vətində on il Məkkədə əhli-küfrdən ənva'i-şədayid və əsnafi-məkayid görüb cəfalar çəkdi. Nüsxeyi-"Zülalür-Riza"da məsturdur ki, [ol] Həzrətin səadətxanəsi iki cari-cayir arasında vaqe' olmuşdu: biri Əbu Ləhəb və biri Ütbə bin Əbi Müqət. Şe'r:

Gül necə qılmasun yaxəsün çak qüssədən,
Hər dəm yetər ona qəmi-qürbi-civari-xar.
Yaqut qəhr ilə necə xunindil olmasun,
Çəkmiş zəmanə xarədən ətrafına hisar.

Bə'zi təfasirdə məsturdur ki, Əbu Ləhəb mənkuhəsi Ümmü Cəmil əksəri-övqatda rəhgüzarlardan xarü xaşak cəm' edüb, gecələr ol güli-gülzari-risalət rəhgüzarına buraxırdı ki, ol Həzrət sübhdəm namaz üçün hərəmsəradan çıxdıqda qədəmi-mübarəki azürdə olub, məzaci-şərifi mükəddər ola. Tariq bin Abdullahdan nəqldir ki: "Bədvi-İslamda bir gün bazar içində bir şəxsi-mübarəksurət gördüm, cameyi-gülgünlə nida qılurdi ki: Ya qövm. "Qulu lailahə illallah və tuflihu"[2]. Və bir zalım anın göftarına təkzib edüb derdi: "Ey qövm, bu kəzzabdır, qövlinə e'timad etmən". Və zaman-zaman səngi-sitəm birlə ə'zasın məcruh edərdi. Sual etdim ki: "Bunlar nə tayifədür?" Dedilər: "Bu sürxcamə Məhəmmədi-Qüreşidür, xəlqi imana də'vət edər və bu inkarinə iqdam edən əmisi Əbu Ləhəbdir və əksəri-sənadidi-Qüreyş əbu Ləhəb tabe'i olub bu şəxsə gah sahir və gah şair derlər və gah kahin oxurlar və gah məcnundur deyə istehza qılurlar. Və ol Həzrət bu cəfaləri çəküb qət'ən də'vətdən xali olmazdı və şəraiti-səbrü təhəmmüldə təqsir qılmazdı və Həzrəti-Vacibülvücud onun təsəlliyi-

[1] Allah səni mübarək etsin, sən Cəlal sahibi tərəfindən göndərilmiş peyğəmbərsən.
[2] Deyin ki, Allahdan başqa Tanrı yoxdur və qurtuluşa çatın.

xatiri üçün ayətlər nazil edərdi, bu məzmunla ki: "Heç peyğəmbəri bir qövmə irsal etmədik ki, anı sehrə və cünuna mənsub qılmadılar və ana mü'anid və müxalif olmadılar. Bu təriqi-mühlikdə səbr edən mənzili-məqsuda yetər və təhəmmül qılan daməni-məqsud dutar. "Fəsbir kəma səbərə ulul-əzmi minər-rüsuli"[1]. Şe'r:

Ey xoş ol kim, eşq meydanındadır sabitqədəm,
Daməni-dildardan kəsməz əlin tiği-sitəm,
Öylə kim, meyxarələr zövqün ziyad eylər şərab,
Xuni-dil içmək qılur əfzun səfasın dəmbədəm.

"Rövzət ül-Əhbab"da məzkurdur ki, Ürvə bin Əbdullah Vəqqasdan sual etdilər ki: "Aya, Həzrəti-Rəsula sənadidi-Qüreyşdən mütəvəccih olan cəfalərin ki, əksərinə müttəle' oldun, qansı cəfa əşəddü əs'əb idi?" Ürvə ayıtdı: "Bir gün əkabiri-Qüreyş cəm' olub ol Həzrətin hekayətin araya gətürüb ayıtdılar: "Biz bu yetimin necə bir qüssəsin çəkəlüm, gəlin ittifaq edüb qanın tökəlim". Fatimə bu məşvərətdən xəbərdar olub giryan Həzrəti-Rəsul xidmətinə gəlüb ayıtdı: "Ya əbəti innəl-qavmə ə'zəmu ən-yəqtulukə"[2]. Həzrəti-Rəsul müztərib olmayub və əndişə qılmayub ayıtdı: "Ey fərzənd, bir miqdar su hazır et ki, əslihəyi-vüzu ki, silahül-mö'minindir, kəndümə mühəyya qılam və cövşənüs-səlat ki, hisnül-müslimindir, əgnimə alam". Pəs vüzu qılıb, hərəmsəradan çıxub Məscidül-hərama qədəm basdıqda bir miqdar səngrizə əlinə alub, "Şahətil-vücud"[3] deyüb, ol səngdillər tərəfinə buraxdı. Rəvayətdir ki, heç birinin göz açmağa fürsəti olmadı və heç biri ol əxtəri-bürci-səadətin tülu'inə ittila' bulmadı və ol səngrizələr hər kimə toxundu, həngami-hərbi-Bədr əlbəttə məqtul oldu. Netə ki, Əbu Cəhl və Ütbə və Şəybə və Üməyyə və Əmmarə hədəfi-tiri-duayi-müstəcab olub, ənsari-din əlində fəna buldular. Vaqieyi-Kərbəlada dəxi igirmi iki bin nəfər Şamidən və Kufidən Həzrəti-Hüseynin navəki-duasinə hədəf olub cümləsi ol ildə hər biri bir bəla ilə dünyadan getdi və hər birinə bir üqubət yetdi. Şe'r:

Bərmurad olmaz şəhidi-Kərbəla qanın tökən,
Əhli-Beytün seyli-əşki-çeşmi-giryanın tökən.

"Kənzul-ğəraib"də məsturdur ki, Əbu Cə'fər isnadilə ki: "Bir gün bir aşinayı gördüm ə'ma olmuş, sual etdim ki: "Ey bəradər, sən bina idin, səbəb nə oldu ki, nuri-bəsər zülməti-ə'maya təbdil oldu?" Cəvab verdi ki: "Ey əziz, vaqieyi-Kərbəlada bən daxili-sipahi-Übeydullah Ziyad idim. Ol vaqiədən sonra məqamimə müraciət etdikdə bir gecə vaqiəmdə gördüm ki, Həzrəti-Rəsul bir məscid içində mehraba yastanub oturmuş və ətrafü cəvanibində səhabə həlqə urmuş və Həzrəti-Hüseyn ə'zayi-məcruh və libasi-pürxunla mütəzəllimlər kibi qarşusunda durub ərzi-hal edər və şühədayi-Kərbəla qatillərin bir-bir gətürüb Həzrəti-Rə-

[1] Əzm sahibi peyğəmbərlər kimi səbr edər ("Qur'an", 46, 35).
[2] Ey ata, bu qövm səni öldürmək istəyir.
[3] Kəm gözlərə qarşı.



sul işarət eylər: "İzribuhu bissəyfi və əhriquhu binnari"[1] və zəbanilər anları qətl edüb oda yaxdıqca yenə həyati-mücəddəd bulub bir dəxi təkrarla ol əzaba giriftar olurlardı. Bən bu siyasətün səlabətindən təvəhhüm qılub Həzrəti-Rəsula pənah gətirüb istiğasə təriqilə ayıtdım: "Əssəlamü əleyküm ya Rəsulullah". Ol Həzrət səlamım almayub, qəzəb gözüylə baxub ayıtdı: "Ya əduvallah, ni-şə bənim hörmətim dutmadın". Dedim: "Ya Rəsulullah, Həq bilür ki, bən tiğ çəkmədim". Ol Həzrət buyurdu ki: "Tiğ çəkmədigində sadiqsən, əmma səbəbi-kəsrəti-səvadi-sipah idin". Buyurdu ki: "İlərü gəl, bu təşti-pürxuna nəzər qıl". Müşahidə qıldıqda gördüm bir təşti-pürxun. Dedi: "Ey bədbəxt, bənim cigərguşəm qanıdır". Pəs bir mil ilə ol qandan bənim gözümə çəkdi, hövl ilə bidar olduqda aləm gözümə tirə oldu. Şe'r:

Şəhidi-Kərbəla qətlinə rəğbət qıldın, ey zalim,
Sənə çəkmək əzabi-dünyəvü üqba müqərrərdir.
Təmaşayi-məsafi-Kərbəla qıldın, həzər qıl kim,
Məlamətgahi-tə'zibin sənin səhrayi-məhşərdir.

Məhəmməd İshaqdan nəqldür ki, ol Həzrət Əbu Talibin hisni-himayətində olduqca küffar filcümlə izasinə dəstrəs bulmazlardı və mütəərriz olmazlardı. Əmma firqeyi-əhli-islamdan hər qanda bir aciz və fəqir görürlərdi, mümkün olduqca təərrüz yetürərlərdi. Ol cümlədəndir ki, Üməyyə bin Xələf, Bilal Həbəşiyi hər gün Bəthaya iləhib üryan qılub, ə'zasinə hərarəti-afitabla qızmış daşları basub və bədəni-üryanla rigi-gərm üzərinə yaturub derdi ki: "Tərki-dini-Məhəmməd qılub Lat və Üzzaya iman gətür". Bilal edərdi: Ə'budu Əhəd, yə'ni vahid olan Mə'buda pərəstiş edərəm".

Əlqissə, ol meydani-mücahidət pəhləvanları və ol aləmi-iman sahibqiranları ənvai-bəlaya və əsnafi-inaya mütəhəmmil olub və səbr qılub derlərdi ki, bəla eyni-ətadür və cəfa məhzirica. Əmma tədriclə ol zalimlərin fəsadı ziyadə olub və mürurla dəryayi-isyanları tüğyan qılub bir qayətə yetdi ki, müsəlmanların qətlinə və nəhbinə dəsti-təğəllüb diraz etdilər və Əmmar bin Yasərin valid və validəsin bigünah qətl edüb, ol məzlumlara sitəmlər yürütdülər. Bə'zi səhabə bizzərurə Həzrəti-Rəsul işarətilə Həbəş canibinə hicrət edüb, bə'zi sayir biladü büqaə mütəfərriq olub, ə'vanü ənsari-din qillət bulmağın küffar ol Həzrət azarinə fürsət buldular. Bir gün güzarı sənadidi-Qüreyş məcmə'inə düşüb, Əbu Cəhl və Ədiy və sair süfəha hər canibdən tiği-zəban çəküb ol Həzrəti azürdeyi-cərahəti-tə'nü təşni' etdilər və ol Həzrət "İza xatəbəhümul-cahilunə qalu səlam"[2] təriqilə salik olub, mücadilə və müqatiləsiz keçüb bir guristan kənarında məlul və məhzun otururkən Əbu Cəhl qövli-qəbihlə iktifa qılmayub mürtəkibi-fe'li-şəni' olub, ol Həzrətə həddən ziyadə azar yetürdi.

Rəvayətdir ki, ol gün Həmzə məşğuli-seyd olub təmamiyi-ruz bir şikara zəfər bulmayub qəzəbnak müraciət qıldıqda, Məkkə dərvazəsində cariyeyi-Übeydi-Cə'dan istiqbal edüb ayıtdı: "Ey Həmzə, sənə şikar etmək və seydgaha getmək nə münasib ki, bəradərzadeyi-əzizinə himayətsiz olmağın Əbu Cəhl və sair süfəha ənva'i-ihanətlə izalər yetürdilər". Həmzə bu hekayətdən mütəəssir olub, mənzilinə gəldükdə gördü ki, mənkuhəsi giryan otur. Səbəb

[1] Qılıncla vurun və atəşlə yandırın.
[2] Cahillər onlara söz atırlarsa, müsəlmanlar "salam olsun" deyirlər ("Qur'an", 25, 63).

sorduqda ol dəxi cariyənin dağı-tə'nin tazə qılub ayıtdı: "Ya Əba Əmmar, nə müsibət bundan ziyadə ola ki, əşrafi-Bəni-Haşimə mütəhəmmil olmayan cəfaləri rəva görələr?". Həmzə ayıtdı: "Nə vaqe' olmuşdur?" Dedi: "Ey Həmzə, Əbu Cəhl bir qaç süfəha ilə Məhəmmədi dutub rüxsari-mübarəkin pərtövi-afitab kibi qubaralud etdilər". Həmzə ayıtdı: "Vaveylah, Əbu Talib qanda idi?" Dedi: "Kəndü məzrə'əsinə getmişdi". Dedi: "Əbu Ləhəb qanda idi?" Dedi: "Ol səngdil iltifat etməyüb, bəlkə ihanətə təhris edərdi ki, bu kəzzab və sahirdir". Dedi: "Əbbas qanda idi?" Dedi: "Əbbas pərvanəvar ol şəm'i-şəbistanın ətrafına çizginüb istişfa' edərdi, əmma qəbul etməzlərdi". Həmzə bu xəbərdən qayətdə mütəəllim olub zar-zar ağlayıb, əgərçi üç gün tə'amü şərab tənavül etməmişdi, mə'kul və məşrubə iltifat qılmayıb ayıtdı: "Məhəmmədin intiqamın Əbu Cəhldən almayınca tə'amü şərab bana həramdır".

Əlqissə, həzrəti-Rəsulu istifsar edüb rəvan olduqda hərəmi-Kə'bədə gördü məlul və mükəddər divara təkyə qılmış, ayıtdı: "Əssəlamu əleykə yəbnə əxi"[1], xatiri-mübarəkin xoş dut ki, intiqamın düşmənlərdən almağa gəlmişəm və mümkün olduqca dəf'i-ənduhi-xatirinə tədarük qılmağa əzimət qılmışam". Həzrəti-Rəsul ayıtdı: "Cəmi'i-əqrəbanun iltifatı bana cəfadır, əcəb ki, xilafi-adət səndən zühura gələ və təmənnayi-xatiri-naşadım ki, heç kimsənədən müyəssər olmaz, səndən müyəssər ola". Şe'r:

Çərx hərgiz səhv edüb rə'yimcə dövran etmədi,
Hiç kim dərdim bilüb, tədbiri-dərman etmədi.
Təngdil bir qönçəyəm mən kim, fələk hərgiz bəni
Növbəhari-lütf təhrikilə xəndan etmədi.

Həmzə giryan olub qəsəm yad etdi ki: "Ey bəradərzadeyi-əziz, həqqa ki, rizayi-xatirin hasil etmək bana lazımdur". Həzrəti-Rəsul ayıtdı: "Ey əmmi-büzürgvar, bənim rizayi-xatirim bəzli-mal və irtikabi-qital ilə hasil olmaz". Həmzə ayıtdı: "Bəs nə ilə hasil olur?" Həzrəti-Rəsul ayıtdı: "Ey Həmzə, əgər rizayi-xatirim istərsən, Vacibülvücudun vəhdaniyyətinə e'tiraf edüb lövhi-zamirini qübari-küfrdən pak et". Şe'r:

İzzü cahü dövlətü iqbalü mülki-aləmün,
Olma təhsilinə rağib kim fənaəncamdır.
Dövləti-islam kəsb etməkdə təqsir etmə kim,
Dövləti-baqi ki, derlər, dövləti-islamdır.

Həmzə ayıtdı: "Ey məxdumzadə, bu kəlimə ilə xatirin xoş olurmu?" Həzrəti-Seyyid ayıtdı: "Nə'əm". Pəs, Həmzə kəmali-ixlasü e'tiqadilə müsəlman olub, ol gərmiyyətlə Əbu Cəhlin dəri-sərayinə gəlüb gördü ki, əkabiri-Qüreyşlə oturmuş. Bimühaba, əlindəki yayla urub fərqinamübarəkin məcruh edüb ayıtdı: "Ey bədbəxt, səndən Məhəmmədə cəfa yetmək nə münasibdir?" Cəma'əti-Qüreyş anı qəzəbnak görüb ayıtdılar: "Ya Əba Əmmarə, bir kəzzab üçün bunca hiddət nə layiq?" Həmzə ayıtdı: "Ey bədbəxtlər, Məhəmmədi-Qüreyşi sadiq və əmindir və bən dəxi şəhadət verirəm onun sidqi-də'vasinə". Şe'r:

[1] Ey qardaşım oğlu, sənə salam olsun!



Lillahil-həmd olub küfrü zəlalətdən dur,
Düşdü könlüm evinə şəm'i-risalətdən nur.

Əşrafi-Qüreyş Həmzədən ol kəlimatı istima' etdükdə mütəvəhhim olub, irtifa'i-aftabi-dövləti-İslamdan əndişə qılub, Həzrəti-Rəsulun qətlinə bel bağladılar və Əbu Taliblə bünyadicidalü qital qıldılar. Və Əbu Talib dəxi Bəni Haşimi və Bəni Müttəlibi cəm' edüb ol sərvərin mühafizətü mü'avinətində yekcəhət oldu və cəmi'i-Bəni Haşim Əbu Cəhldən qeyr Əbu Taliblə ittifaq edüb, bir şö'bə olub, Qüreyşdən qət'i-ixtilat edüb, münakihə və mücadilə və müamilə aralarından götürüldü. Şe'r:

Sübhi-sadiq kibi tülu' qılub,
Nuri-şər'i-Məhəmmədi-Ərəbi,
Pərtövi-feyzin etdi aləmgir,
Bir-birindən ayırdı ruzü şəbi.

Əlqissə, üç il bu minvalla ruzigarları keçüb Əbu Talib vəfat etdi, üç ay keçdikcə Xədicə vəfat etdi. Andan sonra cəm'iyyəti-əhli-İslam bir miqdar xələl bulmağın və ə'vanü ənsar mütəfərriq olmağın küffar tüğyan təriqilə ol Həzrəti izhari-azar etdilər və təriqi-müanidət dutdular. Mücmələn, on il miqdarı Məkkədə cəfa çəkdikdən sonra hicrətə fərman yetüb Məkkədən Mədinəyə intiqal etdi. Anda dəxi 'əbədəyi-əsnam sədədi-müxalifətdə olub, mühəribə və müqatilələr vaqe' oldu və qəzveyi-Bədr ol zəmanda zühura gəlüb əmmzadeyi-Rəsul Übeydə bin Haris bin Əbdül Müttəlib şərəfi-şəhadət buldu.

## FƏSLİ-ŞƏHADƏTİ-ÜBEYDƏ

Keyfiyyəti-şəhadət oldur ki, çün məsafi-Bədrdə sipahi-İslam və ləşkəri-küffar müqabilə qıldılar, sipahi-küffar doqquz yüz əlli mübariz və ləşkəri-İslam üç yüz mücahid olub və təmamiyi-ləşkəri-İslamdə yetmiş mərkəb və altı zireh və səkkiz şəmşirdən qeyr yoxdi. İki canibdən səflər mürəttəb olduqda səfi-küffardan üç kimsənə meydana çıxdı: biri Ütbə bin Rəbi'ə, biri Şəybə bin Rəbi'ə, biri Vəlid bin Ütbə. Və ləşkəri-İslamdan dəxi üç mübarizi-ənsari onlara müqabil oldular. Küffar mübarizləri ənsar mücahidlərindən sual etdilər ku: Siz nə tayifədənsiz? Dedilər: "Ənsardan". Nida qıldılar ki: "Ey Məhəmməd, bizim ənsarla ədavətimiz yoxdur, bizə əqranımızdan mübariz göndər". Həzrəti-Rəsul Übeydə bin Harisi və Həmzə bin Əbdül Müttəlibi və Əli ibn Əbi Talibi anların meydanına irsal etdi. Müqabil olduqda, Übeydə bin Haris Ütbəyə müqabil olub və Həmzə Şəybəyə bərabər durub və Əli ibn Əbi Talib Vəlidə müqarin düşüb ibtidayi-hərbdə Həmzə zərbi-tiği-abdarla Şəybəyi həlak edüb və Əli tə'neyi-şəmşiri-saiqəbarla Vəlidi qətl qılub düşmənlərinə qalib oldular. Əmma Übeydə bin Haris və Ütbə bin Rəbi'ə bir-birin məcruh edüb, aqibət Ütbə Übeydəyə bir zəxmi-münkər urub ayaqdan buraxdı və Həmzə və Əli ittifaqla Ütbəyi qətl edüb, Übeydəyi götürüb Həzrəti-Rəsul xidmətinə yetürdilər. Übeydə bihuş ikən kəndü özünə gəlüb gözün açdıqda Xaceyi-Aləm cəmalın görüb ayıtdı: "Ya Rəsulullah, Ələstu şəhidən"[1]. Həzrət buyurdu ki, nə'əm, sən sərdəftəri-şühədasan". Və Übeydə ol halətə mübahat edüb darül-hərbdən müraciət etdükdə mənzili-Rövhadə darül-qərara intiqal etdi və mənzili-məqsuda yetdi. Şe'r:

Ey xoş ol kim, həyatı olduqca
Ömrü sərfi-rəhi-şəriət edə.
Müddəti-ömrü axir olduqda
Bu cahandan şəhadət ilə gedə.

[1] Şəhid deyilmiyik?



## FƏSLİ-ŞƏHADƏTİ-HƏMZƏ

Əmma Həmzənin şəhadəti bu vəchlədür ki, məsafi-Bədrdən sonra küffar ləşkəri cəm' edüb, üç bin müsəlləh və mürəttəb kafir Mədinəyə təvəccöh qıldılar. Və Uhud deməklə mə'ruf mənzilə yetdikdə Həzrəti-Risalət dəxi yeddi yüz mühacir və ənsarla onlara müqabil durub, bir növ'lə səf bağladı ki, kuhi-Uhud qəfadə və Mədinə müqabildə və kuhi-Ayn canibi-yəsarda vaqe' olub və kuhi-Aynın bir şikafı olub, kəmingah olmağa qabil olmağın Həzrəti-Rəsul Əbdullahi-Həbibi əlli kəmandarla anın hifzinə mə'mur etdi və müqərrər qıldı ki, əgər ləşkəri-İslam qalib və əgər məğlub olsa, anlar ol şikafdan inhiraf etməyələr və ol rəxnədən bir qeyr canibə getməyələr. İki canibdən ataşi-cidal işti'al bulduqda və bazari-müharibə gərm olduqda, cəmaəti-Qüreyşdən Təlhə bin Əbi Təlhə meydana gəlüb, Əli ibn Əbi Talib əlində həlak oldu və fərzəndi mübaşiri-hərb olub Həmzə əlindən təcərrö'i-şərbəti-fəna qıldı. Əlqissə, əbvabi-zəfər ləşkəri-İslama məftuh olub, ləşkəri-küffar inhilal və ixtilal bulmağın ələmləri nigunsar olub mütəfərriq olduqda, ləşkəri-islam qənaim dutmaqdə fürsəti qənimət bilüb, nəhbü qarətə təvəccöh qıldılar. Və rəxneyi-kuh müstəhfizləri ol halı görüb biixtiyar mənzillərindən münhərif olub, Əbdullah mən' etdikcə qabil olmayub qarətə mütəvəccih olmağın küffar ol məmərri xali görüb və ləşkəri qarətə məşğul bulub, ol məmərrə mütəvəccih olub, Əbdullahı bə'zi əshabla şəhid edüb, ləşkər əqəbindən çıxub həmlə qıldılar. Lacərəm əsəri-müxalifəti-Həzrəti-Rəsul mövcibi-təfriqeyi-ləşkər olub, küffar təğəllüb edüb, ləşkəri-İslam üç qism oldu. Bir qismi Mədinə canibinə fərar etdi və bir qismi Əli və Sə'd və Təlhə kibi Həzrəti-Rəsul mülazimətində qaldı və bir qismi dərəceyi-şəhadət buldu. "Rövzətül-əhbab"da məstürdur ki, ləşkəri-İslam həzimət edüb Həzrəti-Rəsulu tənha buraxdıqda ol Həzrət Əlidən qeyri xidmətində görməyüb ayıtdı: "Ya Əli, sən nişə sair cəmaətə mülhəq olmadın?" Həzrəti-Murtəza Əli ayıtdı: "Ya Rəsulullah, "İnnə li bikə usvətun"[1]. Şe'r:

Bir bəndəyəm ki, ruzi-əzəldən müti' olub,
Tövqi-vəfayi-əhdinə çəkmiş qəza bəni.
Nəqdi-həyatım eyləmişəm nəzri-tə'ətün,
Haşa ki, səndən eyləyə dövran cüda bəni.

Nagah cəm'i-mü'anidlər ol Həzrətə mütəvəccih oldular. Həzrət ayıtdı: "Ya Əli, bu cəm'i pərişan eylə". Murtəza Əli ol cəm'i pərişan və mütəfərriq qılub, əksərini Maliki-nirana tapşurdı. Ol halətdə Cəbrail nazil olub ayıtdı: "Ya Rəsulullah, kəmali-müxalisətdir bu ki, Əlidən zühura gəldi". Həzrəti-Rəsul ayıtdı: "Bəla, innəhu minni və ənə minhu"[2]. Cəbrail ayıtdı: "Və ənə minkuma"[3].

Rəvayətdir ki, mənzumeyi-"La fətə illa Əli la səyfə illa Zülfiqar"[4] hatifi-qeybdən ol gün sadir oldu. Ərbabi-həqaiq və əshabi-mə'arifə mühəqqəqdir ki, səbəbi-e'tilayi-rütbeyi-Murtəza ittiba'i-Həzrəti-Mustəfadır və ə'zami-mö'cizati-Nəbi vilayəti-Murtəzadır. Şe'r:

[1] Sən mənə bir örnəksən.
[2] Əlbəttə, o məndəndir və mən ondanam.
[3] Və mən hər ikinizdənəm.
[4] Əlidən başqa igid, zülfiqardan başqa qılınc yoxdur.

Təkmili-Murtəzaya səbəb qılsalar sual,
İqbali-ittiba'i-şəhi-ənbiya yetər.
Həqqiyyəti-Rəsula dəlil etsələr tələb,
Töv'ü itaəti-Əliyyi-Murtəza yetər.

Rəvayətdir ki, küffardan dörd mü'anid əhd etdilər ki, Həzrəti-Rəsula bir zərbət yetürələr və yer yüzündən İslam asarın götürələr. Biri İbn Şihab və biri İbn Qimmə və biri İbn Hümeyd və biri İbn Əbi Vəqqas. Əlqissə, əşrar qələbə edüb əbrar məğlub olduqda fürsət bulub İbni-Qimmə Həzrəti-Rəsulun cəbini-mübarəklərin ki, mətlə'i-afitabi-sidqü səfadır, səngi-cəfa ilə məcruh edüb, ol cərahətdən cari olan xunabəyi Həzrət pak edüb derdi ki, əgər bir qətrə bu qandan ruyi-zəminə tökülsə, bəlayi-asiman nüzul qıla. Və İbn Şihab bazuyi-şəriflərin ki, pənceyi-tabi-dəsti-təğəllübi-küffar idi, navəki-bidadla zəxmnak edüb və Əbi Vəqqas ləbi-ruhəfzalərin ki, Məsihi-ehyayi-mərasimi-din və maddeyi-həyati-şər'i-mübin idi, xəstə qılub onun əsərindən dəndani-rübaiyyələri şikəst buldu. Şe'r:

Lə'li-nabü dürri-siraba həcər versə şikəst,
Sanma kim, arta həcər qədri, dürü lə'l ola pəst.

Və İbn Hümeydi-həramzadə ol Həzrəti cərahətlərə məşğul görüb, şəmşiri-abdar həvalə qılub, Həzrət ol zərbdən ehtiyat edüb bir məğaka mütəhəssin olduqda rüxsari-ələmaraları ki, mənzuri-ənzari-əhbab idi, nəzərdən qayib olmağın İbn Hümeydi-məl'un təsəvvür etdti ki, xurşidi-asimani-şər' üfüqi-səadətdən nihan oldu və şəm'i-şəbistani-risalət intifa buldu. Mübahat edüb fəryada gəldi ki: "Sahibi-dəviyi-risalət əmrin təmam etdim. "İblis ol məl'unun mürafiqətilə nida qıldı ki: "Əla innə Mühəmmədən qəd qutilə"[1].

Rəvayətdir ki, avazi-İblis Mədinəyə yetüb dost və düşmən arasında şiya' bulub, firqeyi-əhbab məhzun və zümreyi-ə'da məsrur oldu. Əmma əndək zəmandan sonra Həzrəti-Rəsul ol məğakdan çıxub, səhabəyə mülhəq olub və bu ğəzvədə Həzrəti-Həmzə şəhadət buldu. Və keyfiyyəti-şəhadəti budur ki, Cübeyr bin Müt'im ki, əkbəri-ə'yani-Məkkə idi, Həbəşi nam bir məmluku olub, qayətdə mübariz idi. Bir gün dedi: "Ey qulam, məsafi-Bədrdə bənim əmmim məqtul olubdur və Məhəmmədin iki əmmi var; biri Həmzə və biri Əbbas. Və Əbbas Məkkədədir və Həmzə Mədinədədir. Bu iki kimsənədən birin qətl edə bilsən və əmmim intiqamın alsan, səni malımdan azad edərəm". Həbəşiyi-məl'un Həmzə qətlin qəbul edüb həmvarə mütərəssidi-fürsət idi. Və Hind ki, mənkuhəyi-Əbu Sufyan idi, anın atası dəxi Bədr məsafında məqtul olub, xatirində bu küdurət mütəməkkin idi: ol dəxi Həbəşinün əzmin mə'lum edüb, mü'əkkidi-fəsad olub ənvai-məvaidlə ol məl'unu təhris etdi. Və səbiyyeyi-Haris bin Amir dəxi ayıtdı: "Ey Həbəşi, bənim atam və qarındaşım məsafi-Bədrlə müsəlmanlar əlində qətl oldular, əgər sən Məhəmmədi, ya Həmzəyi, ya Əlini qətl edəcək olsan, səni mal ilə biniyaz edərəm". Şe'r:

Təmə'dir səri-fitneyi-ruzigar,
Təmə'dir qılan izzət əhlini-xar.

[1] İndi Məhəmməd doğrudan öldürülmüşdür.





Nihali-təmə' meyvəsidir fəsad,
Bəhari-təmə' səbzəsidir inad.
Təmə' dideyi-danişi kur edər,
Rüxi-şahidi-feyzi məstur edər.

Həbəşi ayıtdı: "Məhəmməd qətlinə qadir degiləm, zira səhabə anın mühafizətinə yekcəhətdürlər və Həmzə qətlinə dəxi iqdam edə bilməzəm, zira ol pəhləvani-sahib-səlabətdür. Əmma Əli növrəsidədir, hənuz əhvali-məsafa vaqif degil. Mümkündür ki, qətlinə fürsət bulam və ana qalib olam".

Əlqissə, ol əzimətlə Həbəşiyi-həramzadə müntəziri-fürsət idi ol vəqtədək ki, ğəzayi-Uhud vaqe' olub, nirani-müharibə işti'al buldu. Müqəddəmən Həzrəti-Əli qəsdin qılub gördü ki, şahbazi-ovci-La-Fəta qüraba seyd olmaz və şiri-bişeyi-Həl-Ətaya hər şağal nüsrət bulmaz. Andan təcavüz edüb Həmzə qəsdinə düşdü və Həmzə adəti-mə'hud üzərinə iki şəmşirlə məsaf edüb, hər canibə həmlə qılub süfufi-ə'dayi çak edərkən mərkəb bir nahəmvar yerdə i'tişar bulub, ayaqdan düşüb, kəndi piyadə qalub, bə'zi ə'zasından zireh dur olmağın Həbəşiyi-həramzadə fürsət bulub ana bir zərbi-nizə yetürdi ki, bir tərəfdən bir tərəfinə güzar etdi. Filhal kəlimeyi-şəhadət deyüb, nəqdi-rəvan xazini-cinana təslim etdi. Şe'r:

Ol şəhənşahi-əzimüş-şə'nə həngami-əcəl,
Tiği-düşmən oldu miftahi-dəri darüssəlam.
Çehreyi-iqbalinə açıldı əbvabi-nəcat,
Dustdan istərdi, düşməndən müyəssər oldu kam.

Və bə'zi bədbəxtlər anın dəxi hərbə ilə sinəsin çak edüb, cigərin parə-parə çıxarub Hindi-cigərxara hədiyyə ilətdilər. Və Hindi-bidövlət anın cigərin yeyüb və Həbəşiyə afərinlər oxuyub ehsanlar etdi. Rəvayətdir ki, ləşkəri-İslam mütəfərriq olan halətdə Həzrəti-Fatimə hüzurunda olan xəvatin ilə mütərəssidi-əxbari-Rəsul ikən bir sipahi Həzrəti-Rəsulun fövtündən xəbər verüb, Həzrəti-Fatimə ol xəbərdən bihuş olub kəndüyə gəldikdə biixtiyar Mədinə dərvazasından çıxub Ayişə və Səfiyyə və Həfsə və bə'zi müxəddərati-həramsərayi-ismət dəxi ittifaq edüb və Uhud dağına təvəccöh etdilər və hiddəti-fəryadü fəğanla lalələr kibi giribanların çak edüb, çeşmələr kibi didələr nəmnak qıldılar.

Əlqissə, Fatimə bir növhə bünyad qıldı ki, sədasından Uhud dağı mütəzəlzil oldu. Şe'r:

Buraxdı kuha səda naləvü fəğanı anın,
Axıtdı çeşmə yaşın çeşmi-xunfəşanı anın.

Əsəri-müsibət ə'zayi-lətifindən qüvvəti-rəftar alub, qayətdə bitaqət olub, sayəvar ol afitabi-övci-ismət bir kühən divara təkyə qıldı və ətrafında olan bir salihəyə təzərrö' qıldı ki, ol rəzmgaha rəvan olub Həzrəti-Rəsuldan bir xəbər gətürə. Ol salehə rəvan olub rəzmgaha yetdikdə güzarı şəhidlər üzərinə düşüb, qarındaşın məqtul görüb, iltifat etməyüb sür'ətlə andan keçdikcə oğlun dəxi gördü bir zəxmlə ağuşteyi-xakü xun düşmüş. Həyatından bir rəməq baqi

olub, təzərrö' etdi ki: "Ey madəri-mehriban, axır nəfəsdir, fərzəndi-müstəməndini səadəti-didarla müşərrəf qıl". Ol salehə ayıtdı: "Ey fərzənd, əgərçi ataşi-fəraqın cigərsuz və navəki-hicranın dilduzdur, əmma nedim, Həzrəti-Fatimə müntəziri-müraciətimdir, sənə məşğul ola bilmən, mə'zur dut". Andan dəxi bu üzrlə ötüb mə'rəkeyi-qitala qədəm basdıqda ol məcalda yetdi ki, Həzrəti-Rəsul məğakdan çıxub sayeyi-ələmdən qərar dutmuşdu; pabusi-şərifinə müşərrəf olub, sitayişlər qılub, ayıtdı. Şe'r:

Ey çirağı-xaneyi-şər'ü güli-gülzari-din,
Məlcəül-afaq, xeyrül-xəlq, fəxrül-aləmin.
Nuri-rə'yindən münəvvər dideyi-xurşidü mah,
Xaki-payindən müzəyyən səfheyi-ruyi-zəmin.

Təfsil ilə Fatimə əhvalın ərz edüb, iştiyaqın şərh qılub səlamın yetürdi. Həzrəti-Rəsul ayıtdı: "Ey məsturə, müraciət qılub, Fatiməyə həyatımdan bəşarət yetür və anı bənim hüzuruma gətür". Ol məsturə Həzrəti-Fatiməyə Seyyidi-Kainatdan bəşarət yetirub Həzrəti-Fatimə müztəribhal, üftanü xizan ol rəzmgaha yetdükdə Həzrəti-Rəsul istiqbal edüb ona təsəlliyi-xatir verüb, Həzrəti-Xatuni-Qiyamət ayıtdı: "Ey pedəri-büzürgvar, bu övrətə şükranə qəbul etmişəm". Həzrəti-Rəsul ayıtdı: "Ey məsturə, muradun nədür?" Ol övrət ayıtdı: "Təvəqqö'üm budur ki, ərseyi-qiyamətdə bana və evladıma şəfi' olasan". Həzrəti-Rəsul təvəqqö'ün qəbul edüb və ol övrət rüxsət alub şəhidlərinin üzərinə getdikdən sonra Həzrəti-Rəsul ayıtdı: "Aya, Həmzəyə nə vaqe' oldu ola ki, andan əsər görülməz?" Həzrəti-Rəsula Əli Həmzə şəhadətindən xəbər verdi. Şe'r:

Nə xəbərdir bu ki, xunabə tökər müjgandan,
Səbr alur cani-həzinü dili-sərgərdandan.

Həzrəti-Rəsul səhabə ilə Həmzənin üzərinə gəlüb, ə'zayi-parə-parəsin görüb nalələr çəkdi, növhələr qıldı və qayətdə mütəəssir və mütəəllim oldu. Zira əmmi-büzürgvar və bəradəri-rəza'i olub, hini-də'vəti-nübüvvətdə həvadarı idi. Bu halətə müqarin Səfiyyə ki, Həmzənin həmşirəsi idi, hazır olub, Həzrəti-Rəsul anı görüb oğluna ayıtdı: "Validəni bir tədbirlə gəlməkdən mən' edəgör ki, qarındaşın bu halla görməyə". Ol məxdumzadə anasına istiqbal edüb ayıtdı: "Ey valideyi-möhtərəmə, Həzrəti-Rəsulun rizası sənin müraciətündədir". Səfiyyə ayıtdı: "Ey fərzənd, istima' etmişəm ki, Həmzə şəhadət bulubdur və yəqin ki, bu müsibət rizayi-Xuda və Rəsul üçündür, təvəqqö'üm budur ki, bana dəxi tə'ziyətindən və müşahidəsindən bir səvab müyəssər ola". Həzrəti-Rəsul ol məzlumənin kəmali-himmətin və hüsni-ixlasın mülahizə qılub və rüxsəti-mülaqat verüb, ittifaqla əzasinə iştiğal etdilər. Həm ol saətdə Cəbrail gəlüb bəşarət gətirdi ki, Həmzənin səfheyi-asimanda ismi Əsədullah və Əsədür-Rəsul yazıldı.

Rəvayətdir ki, Həzrəti-Rəsul Həmzənin cənazəsi üzərinə nəmaz etdikdə yetmiş nəfər şəhidin cənazəsin hazır edüb, bir-bir üzərlərinə nəmaz etdikcə anın cənazəsin götürməyüb yetmiş kərrə üzərinə nəmaz qıldı. Nurül-Əimmeyi-Xarəzmidən nəqldir ki, Həmzə ikinci şəhiddir Əhli-Beytdən və Hüseyni-məzlum xatimüş-şühədadır. Və Həzrəti-Rəsul buyurmuş ki, Kərbəlada Hüseynlə yetmiş nəfər mücahid şəhid ola və anların üzərinə nəmaz qılmağa bir mö'min hazır olmaya, bənim Həmzə üzərinə yetmiş kərrə nəmaz etdigimin biri Həmzə üçündür və tətimməsi ol şəhidlər üçündür. Rəvayətdir ki, bir şəhid darül-hərbdə ayaqdan düşdüyü zəmandə hurul-eyn istiqbala gəlüb, onunla müsafihə qılur. Əlqissə, Həzrəti-Rəsul buyurdu ki, Həmzəyi cameyi-xunaludla dəfn edələr. Və darül-hərbi-Uhuddan müraciət edüb Mədinəyə gəldükdə hər canibdən şühədayi-Uhud üçün giryə istima' edüb, Həmzə sərayindən növhə istima' etməyüb, Həzrəti-Rəsul buyurdu ki: "Həmzənin bu şəhrdə əhli yoxdur 'əzasin dutmağa".

Məşhurdur ki, iki vəqt iki tayifəyə həsrət müstəvli olur: Sabah olduqda hər fərzənd ki, validəsinin kənarından durub şəfqətlər və mehribanlıqlar görür, yetimləri bikəslik ataşi yaxar; hər şam olduqda hər kim kəndü mənzilinə mütəvəccih olur, qərib olanların xatirini sərasiməlik möhnəti yaxar. Nəqldir ki, Peyğəmbər Mələkülmövtdən sual etdi ki: "Ey xazini-nüqudi-ərvah, bunca cigərlər ki, dağı-müfariqətlə yaxarsan və bunca xanimanlar ki, əcəl seylabı ilə yıxarsan, aya, heç kimsənəyə rəhmin gəlürmi?" Mələkülmövt ayıtdı: "Tərəhhüm nəqşin səhifeyi-xatirimdən Həzrəti-İzəd rəf' etmişdir. Əmma bu halla qəriblərin və yetimlərin halına rəhmim gəlür, zira istirdadi-əmanət zəmanı biri pedər və madər yad edüb abi-həsrət dideyi-qəmdidədən tökər və biri yarü diyari fəraqindən ahi-həsrət çəkər". Şe'r:

Seyli-əşki-yetimü ahi-qərib
Mövc urub şö'lə çəksə şamü səhər,
Qətrəsi səfheyi-zəmini dutub,
Şö'ləsi asimana edə əsər.

Rəvayətdir ki, cəmi'i-mühacir və ənsarın övratinə hökm oldu ki, Həmzənin sərayinə cəm' olub kəndü şəhidlərinün 'əzasın anda dutalar. Və Həzrəti-Rəsul mühacir və ənsarın ol fe'llərindən qayətdə xoşnud olub dua qıldı.

Ey əzizlər, mülahizə qılın ki, Həzrəti-Rəsul Həmzənin bikəsliginə rəhm etdiyi yerdə Kərbəlada Hüseynlə bunca övladı şəhid olub, matəmlərin dutmağa kimsənə olmadığı əcəldən əgər müqəddər olsa və anun rizası üçün cəmi'i-məxluqati-zəminü asiman 'əza dutsa qəribü əcib olmaz. İmam Mühyis Sünnə "Məalimüt-tənzil"də nəql etmiş ki: "Vaqieyi-Kərbəladan müqəddəm hümreyi-şəfəq yox idi, ol vaqiədən sonra zahir oldu. Şe'r:

Sanma kim, gülgun şəfəqdəndir sipehri-bivəfa,
Dəməni-dövranı dutmuş xuni-Ali-Mustafa.

"Şəvahidün-nübüvvə"də məsturdur ki, Əbdülməlik Mərvan məclisində bir gün vaqieyi-Kərbəla zikr olunurdu, Züheyri hazır idi, nəql etdi ki: "Ol gün həvaliyi-məscidi-Əqsada heç səngrizə yerindən götürmədilər ki, onun altında bir qətrə qan görmədilər". Və "Üyunür-Riza"-da məzkurdur Əli bin Musa-Rizadan ki, buyurmuş: "Cəddim Hüseyn şəhid olduqda asiman

xunbar olub, həqqa ki, yüz bin firişteyi-Rəhman anın intiqamın almağa əflakdan mənkəzixaka endilər, əmma rüxsət bulmadılar və hala Rövzeyi-mübarək üzərində muyi-jülidə və ruyi-xəraşidə ilə'əzasinə məşğuldurlar. Şe'r:

Kərbəla dəştində şahi-Kərbəlanın halına,
İttifaqi-amm olub məcmu'i-aləm ağladı.
Payeyi-ərşi-mü'əllada töküb Cibril əşk,
Rövzeyi-rizvanda ruhi-Nuhü Adəm ağladı.

## FƏSLİ-ŞƏHADƏTİ-CƏ'FƏR

Üçüncü şəhid Əhli-Beytdən Cə'fəri-Təyyardır. Rəvayətdir ki, Cə'fər cəm'i-səhabə ilə Həbəşə canibinə hicrət etdikdə Nəcaşi əleyhir-rəhmə anın irşadilə müsəlman oldu. Və qəl'eyi-Xeybər fəth olunduqda Həzrəti-Rəsul mülazimətinə müşərrəf olub, Həzrət anın xüsusunda buyurmuş ki, "Əşbəhtə xulqi və xəlqi"[1]. Filvaqe', bu nihayəti-tə'zimdür. Rəvayətdir ki, hicrətin səkkizinci ilində Həzrəti-Rəsul Cə'fəri Mürhil Ğəssani hərbinə irsal etdi və Mutə mənzilində küffara mülhəq olub ləşkəri-İslam üç bin mücahid və ləşkəri-Mürhil yüz bin müfsid olub qayət kəsrətdə idi. Əmma sipahi-zəfərpənahi-İslam kəsrəti-sipahi-ə'dadan əndişə qılmayub, bünyadi-müqatilə qıldılar. Əsnayi-müqatilədə Zeyd bin Haris ələmdari-sipah idi, şəhid olub, Cə'fər kəndü rayəti-nüsrətayəti əlinə alub və hücumi-küffar mərkəbin səqət edüb, piyada qalub, fəsəqəyi-füccar fürsət bulduqda, zərbi-şəmşir ilə bazuyi-yəminin bədənimübarəkindən cüda qıldılar. Ol şahbazi-övci-cəladət rayəti bazuyi-yəsara alub buraxmadı. Bazuyi-yəsarın dəxi qət' etdilər, rayəti dişilə dutub düşməyə qoymadı. Əlqissə, bir namərd bir zərbi-münkər urub ol məzlumu ayaqdan buraxdı.

Əxbari-səhihədə nəqldir ki, Həzrəti-İzəd hücubü əstarı rəf' edüb Həzrəti-Rəsulu Mutə mə'rəkəsinə müttəle' etmişdi. Və ol Həzrət dəmbədəm cəmi'i-əhvala müttəle' olub əshaba xəbər verirdi. Zeyd bin Haris və Cə'fər bin Əbi Talibin parə-parə olduqların e'lan edərdi və buyururdu ki: "Cə'fəri gördüm, behiştə girüb, yaqutdan iki şəhpər peyda qılub təyəran edər". Və bu dəxi Həzrəti-Rəsuldan nəqldür ki, buyurmuş: "Bən Cə'fəri gördüm mislimələk tüyuri-behiştlə pərvaz edər". Bu cəhətdən ana Cə'fəri-Təyyar derlər. Və bə'zi qisəsdə məsturdur ki, Cə'fərin yetmiş iki zəxmi olub düşdükdə heybətü səlabətindən heç kimsənə qətlinə iqdam edə bilməyüb axirül-əmr ə'da hücum edüb anı yerdən götürdükdə başın qaldırub münacat etdi ki: "İlahi, mənim qətlimlə əmizadəmin namusuna xələl yetürmə. Həq-tə'ala iki şəhbal iltifat edüb qüvvəti-pərvaz verdi ki, küffar içindən uçub Firdövsi-bərinə nüzul etdi. Şe'r:

Qətili-rəhi-eşq olan saliki,
Həqin iltifatı sərəfraz edər.
Məzəllət türabında görməz rəva,
Ülüvvi-məqamilə mümtaz edər.
Pərü bal peyda qılub lacərəm,
Tüyuri-behiştilə pərvaz edər.

Hərgah ki Əbdullah bin Ömər Cə'fərin övladın görürdü, bu ibarətlə tə'zim edərdi: "Əs-səlamu əleykə yəbnə zil-cinaheyn"[2].

Rəvayətdir Hüseyni-şəhiddən ki, Həzrəti-Rəsul Cə'fərin əhvalına müttəle' olduqda onun mənzilinə gəlüb Əsma binti-Ümeyşə ki, onun zövcəsi idi, hazır edüb, Cə'fərin ətfalını birbir nəvaziş təriqilə sərəfraz etdikdə Əsma ayıtdı: "Ya Rəsulullah, bu gün Cə'fərin övladını

[1] Yaradılışım əxlaqıma bənzəyir.
[2] Ey iki qanadlının oğlu, sənə salam olsun.

yetimlər təriqilə nəvaziş edərsən. Məgər Cə'fər şəhadət bulubdur?" Ol Həzrət giryan olub anlara səbrilə təsəlli verdi. Əbdullah ibn Cə'fərdən mərvidir ki, "Həzrəti-Rəsul gəlüb bizə tə'ziyət verdikdə ol qayətdə giryan idi ki, qətərati-əşk məhasini-şərifindən tökülürdi və buyurdu ki, "İlahi, Cə'fəri əhsəni-məqama və əczəli-səvaba irişdür və hala sən anın xəlifəsi olub əxlafını hisni-himayətində saxla". Və ol gündən sonra yenə gəlüb övladın əzadan çıxarub xatirlərin [ələ] aldıqda validələri yetimlər [üçün] təşəffö' etdikdə buyurdu: "Ə-təxafinə əleyhim və ənə vəliyyuhum-fid-dünya vəl-axirəti"[1].

Rəvayətdir ki, Cə'fərin səkkiz oğlu olub, ikisi-Övn və Məhəmməd Əsğər Hüseynlə Kərbəlada şəhid oldular. Rəhmətullahi əleyhuma[2].

Həzrəti-Rəsulullahın bir ibtilası dəxi fövti-İbrahimdür. Rəvayətdir ki, İbrahim hicrətin[*] igirmi ilində Mariyeyi-Qibtiyyədən mütəvəllid olub qabiləsi Müsəlləmə nam cariyə idi. Həzrəti-Rəsuldan nəqlidir ki, İbrahim mütəvəllid olduqda Cəbrail nüzul edüb təhniyə təriqilə ayıtdı: "Əs-səlamu əleykə ya Əba-İbrahim"[3].

Əlqissə, İbrahim bir il altı ay fəzayi-həyatda qalub civari-rəhmətə vasil oldu. Həzrəti-Rəsul anın fövtündən məhzun olub giryə ağaz etdikdə Əbdürrəhman (bin) Auf ayıtdı: "Ya Rəsulullah, sən [xəlqi] mən' etdün cəzə'dən". Həzrəti-Rəsul ayıtdı: "Bən giryədən mən' etmədim, xəraşi-ruy və kəşfi-ə'zadan nəhy etdüm, abi-çeşmi-matəmzədə barani-rəhmətdir və nişanirə'fət: "Əl-əynu tədmə'u vəl-qəlbu yəhzənu və la-əqvalə illa ma-rəziyə bihi rəbbəna"[4].

"Şəvahidün-nübüvvət"də məsturdur ki, bir gün Həzrəti-Rəsul Hüseyni bir dizi üzərinə və İbrahimi bir dizi üzərinə alub nəvazişlər edərək Cəbrail hazır olub ayıtdı: "Ya Rəsulullah, Həzrəti-Həq bu iki lö'löi-şəhvarı bir riştəyə müntəzəm qılub cəm' etməz, birinün dəf'inə riza verməк gərək". Şe'r:

Ey şəhriyari-məsnədi-təmkinü izzü cah,
Olmaz bir asiman iki xurşidə cilvəgah.

Həzrəti-Rəsul ayıtdı: "Əgər İbrahim fövt olsa, əksəri-alam bana mütəvəccih olur və əgər Hüseyn fövt olsa, bana və Murtəzaya və Zəhraya mütəəllim olmaq lazım gəlür. Bən müsibəti-xassı möhnəti-ammə ixtiyar etdüm". Ol vaqiədən üç gün keçdikdə İbrahim vəfat etdi. Ol vaqiədən sonra hərgah ki, Həzrəti-Rəsul Hüseyni əlinə alub iltifat edərdi, derdi ki: Mərhəba, ey fərzəndi-əzizimi fədası etdigüm cigərguşəm. Zəhi bədbəxtlər ki, böylə əzizə ihanət rəva görələr.

"Kənzül-ğəraib"də məsturdur ki, bir gün Hüseyn Həzrəti-Rəsul xidmətində idi, mənzilinə müraciət etmək murad etdi, əmma baran idi, getmək mütə'əzzir görünüb məlaləti-xatir zahir etdi. Həzrəti-Rəsul Hüseyni məlul görüb ayıtdı: "Nə vaqe'dür?" Hüseyn ayıtdı: "Ya Rəsulullah, baran mənə məcal verməz ki, mənzilimə gedəm". Həzrəti-Rəsul dua qıldı, baran təvəqqüf edüb Hüseyn mənzilinə mütəvəccih oldu. Qiyas edin ki, qətreyi-baran cəfasina mütəhəmmil olmayan ə'zayi-şərifinə səngi-sitəmdən nə cəfalar yetmiş ola. Şe'r:

[1] Dünya və axirətdə onların vəlisiyəm, nə üçün fikir edirsən?
[2] Allah ikisinə də rəhmət eləsin.
[*] Be'sətin olmalıdır (*red.*)
[3] Ey İbrahimin atası, sənə salam olsun.
[4] Göz yaşarır, ürək hüzn ilə dolur; Rəbbinizin rizasından başqa bir söz söyləmərəm.



Xari-navəkdən güli-ə'zası olmuş çak-çak,
Paymal etmiş qəm ol sərvi-rəvanı, ey diriğ.
İxtilafi-vəz'ü tüğyani-həvayi-müxtəlif,
Müntəfi qılmış çirağı-xanədanı, ey diriğ.

Həqqa ki, hər zərreyi-xak və hər cüzvi-əflak ta ruzi-Qiyamət hər zəman həzar naleyi-dilsuz çəksə müsibəti-Kərbəlaya vəfa qılmaz və ol möhnətzədələr 'əzasinə vafi olmaz.

## ÜÇÜNCÜ BAB

### HƏZRƏTİ-SEYYİDÜL-MÜRSƏLİN KEYFİYYƏTİ-VƏFATIN BƏYAN EDƏR

Həmişə dideyi-bəsirət birlə mütalieyi-övraqi-ləyalivü əyyam edən ərbabi-həqaiq və əshabi-mə'arifə mə'lum olmuşdur və həmvarə eyni-fərasətlə müşahideyi-müruri-sininü ə'vam qılan ülül-əbsəri-zəvil-əfham arasında vüzuh bulmuşdur bu ki, ə'yani-sabiteyi-mümkinə müstəlzimi-əhateyi-ədəmdür və əslinə race' olur hər mövcud ki, vücuduna 'ədəm müqəddəmdür. Şe'r:

Künci-bəqa sanma bu viranəyi,
Etməyə gör qiblə bu bütxanəyi.
Mehr götür günbədi-dəvvardən,
Rəsmi-vəfa umma bu qəddardən.
Mülki-vücudi ədəmabad bil,
Görmə vücudun, ədəmin yad qıl.
Açma cəhan zilinə çeşmi-həvəs,
Əqdinə bel bağlama, peyvənd kəs.
Dut ki, cəhan mülkini dutdun təmam,
Sud nə, çün mülkinə yoxdur dəvam.
Dəhr nədür, ayineyi-əksdar,
Surəti-ayineyi-bie'tibar.

Ey əziz, mütləq rəyahini-riyazi-imkana şəbnəmi-bəqadan əsəri-təravət yetməmişdür və səbzeyi-bustani-həayti-müstə'ar hərgiz səhabi-səbatdan kəsbi-rütubət etməmişdür. Kitabeyi-eyvani-binayi-aləm rəqəmi-"Kullu məxluqin yəmutu"[1]dur və kümreyi-tinəti-bəni-Adəm xəmirimayeyi-"Kullu mərzuqin yəmut"[2]dur. Məsnəvi:

Təmə' qılman vəfa mülki-cəhandan,
Vəfa qandan, bu fani mülk qandan.
Bu viran içrə sanman gənc yoxdur,
Cəvahirdən ləbaləb künc çoxdur.
Vəli adət bu olmuşdur ki, dövran
Qıla hər gənci bir topraqda pünhan.
Gər idrak eyləsən hər zərreyi-xak
Çəkibdür pərdəyə bin cövhəri-pak.

Nə bargahi-həşmətdir ki, taqü rəvaqi tarəmi-ə'layə yetdükdə seyli-fənadan təzəlzül bulub viran olmadı və nə nəqşi-kargahi-rif'ətdür ki, zinət və zibi dərəceyi-kəmal hasil etdükdə

[1] Bütün yaradılanlar ölür.
[2] Bütün rizqə çatanlar ölür.



baziçeyi-lö'bətbazi-dəhrdən surəti-təğəyyür bulmadı. Laləzari-səhrayi-imkandan məşami-idraka rayiheyi-"Kullu mən əleyha fan"[1] gəlür və zəmzəmeyi-bəzmi-cəm'iyyəti-ə'yandan səm'i-irfana işğayi-sədayi-"Kullu şey'in halikun"[2] qılur. Şe'r:

Dəhrdən arizuyi-kam etmə,
Bunda kam istəyib məqam etmə.
Fələki-tizgərdü tündxüram,
Hiç nakama verməmişdür kam.

Əlhəqq, bu xarzara güli-murad ümidilə zülali-həyati-girami tökən, xari-nədamətdən qeyr bəhrə görməmişdür və bustana şükufeyi-məqsəd təmənnası ilə nihali-təvəqqö' dikən zəhri-bəladan özgə meyvə götürməmişdür. İttisali-söhbəti xətəri-infisaldan xali olmaz və iltiyami-ülfəti zərəri-infikakdən aman bulmaz. Şe'r:

Dünyaya gələn gedər zəruri,
Müstəlzimi-qeybdür hüzuri.
Dövri-fələkün qərarı olmaz,
İqbalının e'tibarı olmaz.
Dutdun dutalım cəhanı yeksər,
Manəndi-Cəmü Qubadü Qeysər.
Nə sud çün aqibət gedərsən,
Əsbabi-cəhanı tərk edərsən.

Yəqin bilmək gərək ki, vəzi'ü şərif və qəvivü zə'if və alimü cahil və divanəvü aqil və məstü hüşyar və xüftəvü bidar mülki-ədəmdən hey'əti-mütəsaviyə ilə çıxub və aləmi-surətdə ətvari-müxtəlifə və övza'i-mütənəvvi'ə ilə süluk edüb, həngami-inqizayi-müddəti-ömr rəngi-təsavi dutub, şərbəti-"kullu nəfsin zaiqətül-mauti"[3] içmək müqərrərdür və e'tiqadü e'timad etmək gərək ki, xəl'əti-zühur geyüb feyzi-fitrət qəbul edənlərə idraki-təsəllüt "Əynəma takunu yüdrikəkumulmaut"[4] müqərrərdir. Şe'r:

Gəl, ey mülki-dünyayə məğrur olan,
Meyi-zövqdən məstü məsrur olan.
Giriftari-dami-bəlasan, saqın,
Əsiri-dəmi-əjdəhasan, saqın.
Giribanını pənceyi-ruzigar
Dutubdur həzər qıl sərəncami-kar.
Səni dami-qəbrə giriftar edər,
Başun möhreyi-rişteyi-mar edər,
Gələn bu güzərgaha getmək gərək,

[1] Hər şey fanidir ("Qur'an", 55, 26).
[2] Hər şey həlak olacaqdır ("Qur'an", 28, 88).
[3] Hər ruh ölümü dadır ("Qur'an", 29, 57).
[4] Harada olursuz olun, ölüm sizi yaxalar ("Qur'an", 4, 78).

Nüzul eyləyən rehlət etmək gərək.
Bulunmaz cahan kargahında kam,
Fərağət məqamı degil bu məqam.

Filvaqe, əgər bəqayi-bəşər mümkün olsaydı Xeyrül-Bəşər ki, nəqşi-nigini-"Və lakin Rəsulullahı və xətamən-nəbiyyin"[1]dir, bu təşriflə müşərrəf olmaq ənsəb idi; və əgər dəvami-Bəni-Adəm ehtimal bulsaydı, qaili-"Ənə seyyidu vələdi Adəm"[2] bu səadət istehqaqinə əqrəb idi. Dəlili-izaleyi-nəqşi təəyyinati-cismani bu yetər ki, Həzrəti-Xaceyi-Kainat "İnnəkə məyyütun və innəhum məyyitun"[3] xitabına müxatib olmuşdur; və şahidi-təğəyyüri-süvəri-səhayifi-imkani bu kifayət edər ki, əfzəli-aləm "Və macə'əlna li-bəşərin min qəblikəl-xuld"[4] xitabi-müstətabin işğa qılmışdır. Şe'r:

Dövri-zəmanənin ədəmi-e'tibarinə
Şahid şiya'i-vaqi'eyi-ənbiya yetər.
Ümmali-karxaneyi-əhvali-aləmə
Mövti-Nəbi əlaməyi-fövtü fəna yetər.

Bitəkəllüf ə'zəmi-məsaibi-şəhidi-Kərbəla mövti-Həzrəti-Mustəfadür, zira mövcibi-italeyi-əyadiyi-zülmü cəfadür. Mücmələn, keyfiyyəti-mövti-Həzrəti-Risalət oldur ki, ol şəm'i-şəbistani-risalət və xurşidi-asimani-nübüvvət hicrətin onuncu ilində ədayi-Həccül-Vida' etdükdə ərəfə günü sahəti-Ərəfatda bu ayəti-kərimə nüzul etdi ki: "Əl-yovmə əkməltu ləkum dinəkum və ətməmtu'əleykum ne'məti"[5]. Həzrəti-Rəsul bu ayətin məzmunundan istişmami-rayiheyi-intiqal edub və bu ibarətin məfhumindən ehsasi-irtihal qılub, mühəqqəq bildi ki, təngnayi-şəhadətdən fəzayi-fərəhəfzayi-qeybə təvəccöh etmək gərək və dari-fənadan mülki-bəqaya getmək gərək. Zira qərəz şərəfi-risalətdən bəyani-əhkam idi, təmam oldu və məqsud səadəti-zühurindən izhari-ne'məti-İslam idi, dərəceyi-kəmal buldu. Pəs, əkabirü əşrafi-səhabəyi cəm' edüb buyurdu ki: "Ey mühacirü ənsar, bəndən bu gün zəruriyyati-ümuri-dininiz təhqiq edün, fürsəti-iktisab fövt olmadan ki, və'deyi-müfariqət qərib olmuşdur və təriqi-mürafiqət intiha bulmuşdur". Və dəxi buyurdu; "Ey qövm, ərseyi-Qiyamət" [Yovmə] yənfə'us-sadiqinə sidquhum[6] qərargahıdır və və qaziyi-ruzi-cəza "Yovmə la yənfəu malun və la bənun"[7] güvahidir, əgər ol gündə sizdən sual olunsa ki, "Məhəmməd necə süluk etdi?" cəvabınız nədür? Səhabə ittifaqla ayıtdılar: "Ya Rəsulullah, səndən ədayi-risalət və ilqayi-nəsihət istima' etdik, şəhadət verirüz". Pəs Həzrəti-Rəsul əngüşti-səbbabeyi-qəmərşikaf canibi-asimana qaldurub ayıtdı: "Əllahumməşhədu"[8], yə'ni sən şahid ol".

---

[1] Lakin o, Allahın elçisi və peyğəmbərlərin sonuncusudur ("Qur'an", 33, 40).
[2] Mən Adəm oğlunun seyyidiyəm.
[3] Sən, əlbəttə, ölüsən və onlar da ölüdürlər ("Qur'an", 39, 30).
[4] Səndən qabaq heç bir bəşəri ölümsüz qoymadıq ("Qur'an", 31, 34).
[5] Bu gün dininizi təkmilləşdirdim, üzünüzə ne'mətimi tamamladım ("Qur'an", 5, 3).
[6] Sadiqlərə doğru sözlərinin fayda verəcəyi gün ("Qur'an", 5, 119)
[7] Övladın və malın fayda verməyəcəyi gün ("Qur'an", 26, 88)
[8] Allahım, şahid ol



Rəvayətdir ki, Həccül-Vida'dan müraciət qıldıqda əsnayi-təriqdə Ğədiri-Xum deməklə mə'ruf mənzildə cəmaətlə ədayi-nəmaz qıldıqdan sonra səhabəyə mütəvəccih olub buyurdu ki: "Ələstu bil-mümininə əvla min-ənfusihim"[1], yə'ni mö'minlərə deyilmiyəm nəfslərindən əvla. Hüzzari-məclis ittifaqla təsdiq verüb ayıtdılar: Nə'əm, ya Rəsulallah[2]. Pəs Həzrəti-Murtəzanın əlindən dutub ayıtdı: "Mən kuntu məvlahu fə-haza Əliyyun məvlahu", yə'ni "hər kimin mən mövlası idum", Əli anın mövlasıdür". Əllahummə 'adi mən adahu", yə'ni İlahi, anınla ədavət qılana ədavət qıl", "Və vali mən valahu", yə'ni anınla dost olana dostluq et; "Vəxzil mən xəzələhu" və anı xar dutanı xar dut, "Vənsir mən nəsərəhu" və ana nüsrət verənə nüsrət ver; "Vədirul-həqqə mə'əhu həysə ma kan" və müqarin eylə həqqi ana qanda olursa.

Rəvayətdir ki, [Ömər] Faruq Həzrəti-Murtəzanın əlin dutub təhniyə təriqilə ayıtdı: "Bəx bəx [ləkə] yəbnə Əbi Talib əsbəhtə [məvlayi və] məvlayi kulli mu'minin və mu'minətin"[3]. Şe'r:

Gəl ey rizayi-Rəsul istəyən zühura gətür,
Nişani-dövləti-tövfiqü vali mən vallah.
Ədavəti-Əsədullaha olma qail kim,
Sənə çəkilməyə şəmşiri-'adi mən 'adah[4].

Və bu kəlimati-hikmətamiz əsnasında ayıtdı: "Ey qövm, bəni aləmi-üqbaya də'vət etdilər. Ol halətə təvəccöh qılub hifzi-səlah üçün "Xəlləftu fikumus-səqələyn kitaballahi və itrəti"[5], yə'ni məzhəri-sirri-xilafətim iki əmri-əzimdir: biri Qur'an və biri Əhli-Beyt. Zinhar təriqi-mütabə'ətlərin-dən müxalifət qılman və rəsmi-mütavəətlərindən mütəcaviz olman ki, bunlar bir-birilə rabiteyi-təmam bulub, hövzi-Kövsər kənarında bana mülhəq olub asari-şükrü şikayət zahir etsələr gərək".

Zəhi ümməti-bivəfa ki, bu məzmun müsəhhəh olmuş ikən əqrəb zamanda təhrifi-məzmuni-Qur'an caiz görüb, Əhli-Beytə cəfalar rəva gördülər və dəşti-Kərbəlada övladi-Rəsula izalar yetürdilər. Şe'r:

Ey şəriət şərəfindən qafil,
Xələli-şər'ə dəmadəm mail.
Mustəfadan nə cəfa yetdi sənə,
Ol vəfapişə nə cövr etdi sənə
Ki, mükafatinə bidad etdin,
Özün azarinə mö'tad etdin.
Bünyeyi-şər'inə verdin təğyir.

---

[1] Mən mö'minlərə öz nəfslərindən daha üstun deyilmiyəm?
[2] Əlbəttə, ey Allahın elçisi.
[3] Xoş halına, ey Əbu Talibin oğlu, mən səni özümün, bütün mö'min qadınların və kişilərin mövlası kimi tanıyıram.
[4] Ona dost olana dost ol, düşmən olana düşmən
[5] Sizə iki şeyi tapşırıram(əmanət): Allahın kitabını və ailəmi.

Alü övladinə çəkdün şəmşir.
Ol səni sahibi-iman etdi,
Lütflər göstərüb ehsan etdi.
Sən anın zülm ilə irzin yıxdun,
Daği-bidad ilə canın yaxdun.

"Nurül-Əimmə"dən mənquldur ki, həngami-tüfuliyyətdə bir gün Hüseyni-məzlum ətfali-məhəllə ilə məla'ibəyə məşğul ikən Həzrəti-Rəsul hazir olub, anı dutmağa qəsd etdi. Hüseyn Həzrəti-Xacədən fərar edüb, hər tərəf təvəccöh qılub, Həzrəti-Rəsul mütə'aqib rəvan olub ayıtdı: "Ya Hüseyn, bu nə nifrətdir?" Hüseyn ayıtdı: "Ya Rəsulullah, nifrət degil, bəlkə təhərrüki-silsileyi-məhəbbətdür". Şe'r:

Dilbərin üşşaqdan eyni-tələbdür nifrəti,
Mən'dəndir mehri-tüğyani-məhəbbət şiddəti.
İntifayi-nari-şövq eylər zülali-ittisal,
Mən' miqdarincədir mətluba talib rəğbəti.

Məş'uq ki, aşiqdən ahəngi-güriz edər, atəşi-məhəbbət və bazari-tələb tiz edər. Əlqissə, Xaceyi-Kainat ol əhsəni-məxluqatı tərəddüdlə dutub asimana mütəvəccih olub dua qıldı ki, "Əllahummə əhibbəhu və hibbəhu"[1]. Həm ol saət aləmi-qeybdən xitab gəldi ki: "Ya Rəsulullah, bu məhəbbətlə mümtaz etdigün cigərguşə və bu iltifatla sərəfraz etdigün qürrətül'eyn dəşti-Kərbəlada şəhid olub dərgahi-aləmpənahimizə pədəri-büzürgvar və bəradəri-alimiqdarla hazır olub, biri bir hərbətlə və biri bir şərbətlə və biri bir zərbətlə şəhid olub təzəllüm etsələr gərək". Şe'r:

Birinün fərqi tiği-zülmdən şəq,
Dəmi-mö'cüz misali-bədr mütləq.
Birinün zəhrdən hali digərgun,
Məzaci təlx, gültək bağrı pürxun.
Birinün laləvəş cismində yüz çak,
Cigər qanilə cismi-çakı nəmnak.

Rəvayətdir ki, Həccül-Vida'da əyyami-Mina ayeyi-kərimeyi-"İza ca'ə nəsrullahi və'l-fəth"[2] nüzul edüb, Həzrəti-Rəsul Cəbrailə ayıtdı: "Ey müqərrəbi-dərgahi-üluhiyyət və məhrəmi-bargahi-rübubiyyət, qaliba həngami-təvəccöhi-aləmi-axirətdir". Cəbrail ayıtdı: "Ya Rəsulullah, "Və'l-axirətü xəyrun ləkə min-əl-aula"[3]. Həzrəti-Xacə bu ayət istima'indən və bu məzmun ittila'indən sonra təhiyeyi-əsbabi-intiqala və tərtibi-alati-irtihala məşğul olub, həmişə

[1] Allahım, onu sev və sevdir.
[2] Allahın qələbəsi və fəthi yetişincə. ("Qur'an", 110, 1).
[3] Sənin üçün axirət dünyadan daha xeyirlidir ("Qur'an", 93, 4).



kəlimeyi-təyyibeyi-"Subhanəkə əllahummə əğfirli innəkə əntəl-vəhhab"[1] təkrar edərdi. Səhabə ayıtdılar: "Ya Rəsulullah, bu kəliməyi təkrar etməkdən nədür qərəz?" Həzrəti-Rəsulullah ayıtdı: "Bəni aləmi-bəqaya də'vət etdilər". Və əsnayi-təkəllümdə giryan oldu. Ayıtdılar: "Ya Rəsulullah, mövtdən girye etmək Həzrətinizdən nə münasibdür, xüsusən ki, möhtərəm və məğfur olduğun müqərrərdür?" Həzrəti-Seyyid ayıtdı: "Bənim iztirabım anınçündür ki, bunca cəfa çəküb daireyi-imana çəkdigüm müsəlmanlar, aya bəndən sonra məkayidi-iblisə giriftar olub nə afətlərə müqarin olalar və nə möhnətlərə düşüb nə ihanətlər bulalar".

Əlqissə, ol afitabi-asimani-lütfü kərəm mütəvəccihi-dərgah olub, bir ay vəfatından müqəddəm səhabeyi-kübari Ayişə mənzilində cəm' edüb, anları bir-birinə sifariş qılub, bu dua ilə sərəfraz etdi ki: "Rəfə'kumu əllah hədakumu' əllah cəmə'kumu əllah, həfəzəkumu'-əllah, nəsərəkumu'əllah, vəfəqəkumu'əllah"[2] və şəraiti-duadan sonra vəsiyyət qıldı ki: "Ey qövm, bənim təvəccöhüm aləmi-bəqaya müqərrər oldu və afitabi-həyatım rüxsəti-qürub buldu, hörməti-Əhli-Beytümi sizə tapşurub, sizi tapşurdum ol padişahi-bizəvala ki, mülki-bəqasına xələli-intiqal tari olmaz və mir'ati-həyati-müəbbədi küdurəti-fəna bulmaz. Layiq oldur ki, həmişə təriqi-ta'ət məsluk edüb mütavə'ətindən müxalifət rəva görməyəsiz və qaideyi-əhkaminə ixtilafi-ara ilə xələl yetirməyəsiz, bir növlə süluk edəsiz ki, ruzi-Qiyamət sizün əf'alınız bəni şərmsar etməyə və dəməni-mübahatimə nəticeyi-ə'mali-zəmimənüzdən gərdi-xəcalət yetməyə".

Siğar və kibar Həzrəti-Rəsuldan bu əxbari-mühəvvəşi istima' etdikdə ittifaqla giryan olub ayıtdı: "Ya Rəsulullah, bu vaqieyi-hailə nə vəqt olsa gərək?" Buyurdu ki: "Ənqərib vüqupəzir olur". Dedilər: "Ya Rəsulullah "İyazən billah"[3] bu surət vaqe olsa, qüsli-şərifinizi qansı xidmətkarinə rücu edərsən?" Buyurdu ki: "Əqrabi-Əhli-Beytim qüslümə övladır". Dedilər: "Nə camə ilə cismi-mübarəküni dəfn edəlim?" Buyurdu ki: "Əgnimdəki cübbə ilə. Və əgər Misri hüllələr və Yəməni camələr dəxi olsa, caizdir". Dedilər: "Mərqədi-şərifin nə məqamda olmaq münasibdir?" Buyurdu ki, "Hala mütəvəttin olduğum mənzildə". Dedilər: "Sənə kimlər nəmaz etsinlər?" Buyurdu ki, "Təchizü təkfinim olduqda qəbrim mühəyya qılub cənazəmi qəbrim kənarında qoyub dışrə çıxun və bilmiş olun ki, nəmazimə iqdam edən əvvəl Cəbraildir, andan sonra Mikaildir və andan sonra Əzraildir və andan sonra İsrafildir cəmi'i-məlaikə ilə. Anlardan sonra siz gəlüb dəf'ə-dəf'ə də nəmaz edin, əmma ibtidayi-nəmaz Əhli-Beytimdən olsun". Səhabə biixtiyar naləvü zari edüb ayıtdılar: "Ya Rəsulullah, səni qəbrə kim endirsün?" Buyurdu ki: "Əqrəbi-Əhli-Beytim, güruhi-məlaikə müavinəti ilə ki, anlar sizi görüb siz anları görməyəsiz".

Vəsiyyət təmam olduqda hüzzari-məclis ilə müvadi'ə qılub, qaiblərə səlam irsal edüb buyurdu ki: "Bəndən sonra dari-dünyaya gəlüb şəriətimə iqtida qılanlara və qaibanə bənim risalətimə mötərif olanlara Qiyamətdək bəndən səlam olsun".

Andan sonra mütərəssidi-peyğami-vüsal və müntəziri-ittisal oldu. Əhyanən hicrətin on birinci (ilində) Səfər ayının igirmi səkkizinci günündə məqbəreyi-Bəqi' ziyarətinə mütəvəccih olub, sükkani-büq'eyi-Bəqi' üçün istiğfar edüb, ol miqdar dua qıldı ki, kəndüyə dəxi arzu oldu ki: "Ey kaş, bən dəxi bu büq'ə mədfunlarından olub bu duaya daxil olaydım".

[1] Ey nöqsandan təmiz olan Allahım, məni bağışla, çünki hər şeyi verən sənsən.
[2] Allah sizləri ucaltsın; doğru yola aparsın, birləşdirsin, qorusun, yardım etsin və uğur versin.
[3] Allaha sığınıram!

Rəvayətdir Əbu Hüreyrədən ki, demiş: "Bən hazır idim ki, Həzrəti-Rəsul ayıtdı: "Ey Əbu Hüreyrə, bana dəvami-həyati müstə'ari və liqayi-Pərvərdigari və düxuli-darül-qərari 'ərz etdilər, liqayi-Pərvərdigari ixtiyar etdim və tərki-masiva təriqin dutdum".

Nəqldir ki, bu gecə ol Həzrət mə'mur oldu ki, guristani-Bəqi'ə gedüb əmvatinə istiğfar edə, andan sonra şühədayi-Uhud qüburun ziyarət qılub anlar üçün şəfi' ola. Bu tərəddüd əsnasində ol Həzrətə bir süda' tari oldu ki, fərqi-mübarəklərin 'isabə ilə möhkəm bağlayub, Meymunə sərayinə gəlüb biixtiyar təkyə qıldı və buyurdu ki, "Eynə əna qədən", yə'ni yarın bənim mənzilim qandadır?" Fatimə ol Həzrəti müztərib görüb ümməhati-möminata ayıtdı: "Ey xəvatini-səadətxaneyi-ismət, Həzrəti-Rəsul mütəkəssirdir. Və hər gün bir mənzilə getmək mütə'əzzir görünür, bir mənzildə müqim olmasına razı olun". Müxəddərati-hücərati-risalət ol səlahə razı olub müqərrər etdilər ki, Həzrəti-Rəsul Ayişə mənzilində olub, hər biri xidmətin anda ədaqıca. Meymunə sərayindən çıxub, bir əli Murtəza kətfində və bir əli Əbbas kətfində Ayişə hücrəsinə gəlüb bəstərə düşdükdə hümmayi-mühriq peyda qıldı. Şe'r:

Afitabi-şər'inə, bulmuşdu övci-irtifa',
Lacərəm məhrur olur bulduqca rif'ət afitab,
Nola gər təb hiddətilə axsa cismindən ərəq,
Bərgi-güldür axıdır fərti-hərarətdən gülab.

Əbdullah Məs'uddan nəqldir ki: "Bən ol vəqt hazır idim, nəbzinə əl basdıqda hərarətlərin qayətdə ziyadə görüb ayıtdım: "Ya Rəsulullah, bu nə əcəb təbi-mühriqdir?" Buyurdu ki, "hər kimin mərəzi miqdarıncədür". Dedim: "Ya Rəsulullah, bu dərdə dəva nədir?" Dedi: "Ol Mə'bud həqqi üçün ki, bənim nəfəsim anın qəbzeyi-qüdrətindədir ki, heç kimsənəyə mərəz tari olmaz ki, günahları anınla tökülməz. Netə ki, badi-sərsərdən övraqi-əşcar və təsadümi-həvadan qətərati-əmtar".

Nəqldir Əbu Sə'id Xəzridən ki, demiş: "Mən hini-mərəz ol Həzrətə mülazim idim, üzərinə bir qətifə çəkilmişdi, hiddəti-hərarətləri qətifədən məhsus olub buyurdu ki: "Ənbiyanın məratibi ə'la olduğu kimi mərəzləri dəxi əşəddü əqvadür. Zira ənbiya möhnətlərinin ziyadə olduğun istid'a qılurlar və möhnət mövcibi-qürb olduğun bilürlər". Şe'r:

Rənci-rahət dilbərin dərdi dəvadır aşiqə,
Rənci bihəd ol səbəbdən dərdi bipayan olur.
Qafil olman dost dərdindən kim, olduqca füzun,
Mövcibi-təşrifi-lütfü şəfqətü ehsan olur.

**[Rübai:]**

Yarın ələmi-eşqi dəvadan yeg olur,
Xaki-səri-kuyi tutiyadan yeg olur.

Üşşaqa həbib eylədügi cövrü sitəm,
Qeyr etdügi lütfilə səxadan yeg olur.



Və buyurdu ki: "Bu mərəz ol zəhrin əsəridir ki, Ümmül-Biramoğlunun ziyafətində bana verdilər". Və hər müddətdə ələmi mücəddəd olub bir dəva ilə dəf' olurdu, əmma bu növbət həngami-rehlət olmağın iştidad buldu. Qaliba bədəni-şərifində ol zəhrin əsəri mülazim olmaqdan qərəz şərəfi-şəhadət idi.

"Ruhul-Ərvah"da məsturdur ki, çün bəhri-feyzi-nübüvvət və dəryayi-kəmali-vilayət birbirilə müqarin olub "Yəxrucu minhu-mal-lu'lu'ə vəl-mərcan"[1] müqtəzasincə Həsən və Hüseyn zühura gəldilər və ol şahzadələrün hər biri bir keyfiyyətə varis oldular, lacərəm Həzrəti-Həsən əkbər olmağın cəddi-büzürgvarlərinə iqtida qılub ələmi-zəhrlə dünyadan getdi və Həzrəti-Hüseyn əsğər olmağın validi-alimiqdarinə təşəbbüh qılub zərbi-tiğ ilə axirətə nəql etdi. Şe'r:

Zəhrdən təlx olalı lə'li-şəkərbari-Həsən,
Zəhr kamın hiç kim aləmdə şirin görmədi.
Olalı şəmşirdən pürxun təni-paki-Hüseyn
İstirahət bulmadı şəmşir, təskin görmədi.

Və bu dəxi bir münasibətdir ki, Həzrəti-Həsən Mədinədə cəddi-büzürgvarının mücavirətin ixtiyar qıldı və Həzrəti-Hüseyn mütəvəttini-İraq olub validi-alimiqdarınun mülazimi oldu. Şe'r:

Vadiyi-qürbətdə tənhalıqdan ikrah eyləyüb,
Murtəza Şibbiri həmxab etdi, Əhməd Şəbbəri.
Qıldılar qismət vilayət bəhrinin gövhərlərin,
Əkbər olan əkbəri hifz etdi, əsğər əsğəri.

Əlqissə, Həzrəti-Rəsul on dörd gün bimar olub qəzaya mütəvəqqif qaldı.

"Rövzətül-əhbab"da məsturdur ki, iştidadi-mərəzdə Fatimeyi-Zəhrayi hazır edüb, təriqitəvəddüd və qaideyi-təfəqqüd ri'ayətindən sonra ixfa ilə bir təkəllüm etdi ki, Fatimə giryan oldu. Andan sonra bir təkəllüm dəxi etdi ki, ənduhi nişata təbdil oldu. Ayişə ayıtdı: "Ya Fatimə, aya, ol ənduha vəsilə nə idi və bu nişata səbəb nədir?" Fatimə ayıtdı: "Ey müxəddəreyi-zəman, Həzrəti-Rəsul ibtidai-təkəllümdə buyurdu ki: "Ey Fatimə, hər il Cəbrail təbliği-əhkam üçün bir növbət gəlürdi, bi il iki növbət nüzul etdi, qaliba əcəlim qərib olmuşdur və həngamihəyatım dərəceyi-nihayət bulmuşdur. Bən bu xəbərdən mütəəllim olduqda buyurdu ki: Ey fərzəndi-əziz, qəm çəkmə ki, sənə bəşarət verirəm iki səadətə: biri ol ki, əfzəli-nisayi-əhlibehişt sən olursan və biri ol ki, Əhli-Beytimin cümləsindən müqəddəm sən bana mülaqat qılursən". Bu müjdə istima'indəki tiryaki zəhri-fəraqın bana sazqar edüb, süruri-lahiqdən ələmisabiqə təskin yetdi və buyurdu ki: "Ey Fatimə, çün cəmi'i-nisai-əhli-aləmdən sənin zürriyyatin ə'zəm və məqamın əfzəldir, lacərəm sənin bəliyyatın ətəmm və əkməldir; səbr et və təhəmmül pişə qıl". Qərəz bu ki, ol Həzrətin iştiyaqinə ki, əşəddi-bəliyyatdır, Fatimə səbr edüb təhəmmül pişə qıla. Filvaqe' əgər müjdeyi-ülüvvi-dərəcati-üxrəvi və bəşarəti-sümüvvi-mərtəbeyi-

[1] İkisindən inci və mərcan çıxır ("Qur'an", 55, 22).

mə'nəvi mövcibi-təskini-xatir olmasa, Həzrəti-Rəsulullah kimi sərvəri-xücəstəliqanın atəşi-fəraqinə və ələmi-iştiyaqinə təsəbbür və təhəmmül xarici-əhateyi-ehtimal və imkandır. Zira atəşi-cansuz və ələmi-cansitandır. Şe'r:

Xəncəri-hicranü tiği-qət'ü şəmşiri-fəraq,
Çak-çak eylərdi Zəhranın dili-əfgarını.
Verməsəydi və'deyi-vəslin verəndə Mustəfa,
Müjdeyi-zövqi-vüsalü dövləti-didarını.

Rəvayətdir ki, ol sərvərin təbi-mühriqi gəldikcə ziyadə olub və hərarəti-cismi-lətifi getdikcə təzayüd bulub, buyurdu ki, yeddi kuzə ilə yeddi quyudan su gətirüb üzərinə tökələr ki, xiffət bulub məscidə təşrif buyura. Həsbülişarə yeddi kuzə ilə yeddi quyudan su gətirib ol çeşmeyi-həyatın üzərinə tökdülər. Filcümlə xiffət bulub hücrədən dışrə çıxub, cəmaətlə nəmaz qılub, bir xütbeyi-hikmətamiz inşa qılub, istiğfar və istifa qıldıqdan sonra buyurdu ki: "Ənsar bənim xəvasımdır, anları girami dutun və xətalarından təcavüz qılun".

Və bir rəvayət dəxi oldur ki, Həzrətin mərəzi təzayüd bulduqda ənsarın qərarı qalmayub, məscidi-Nəbəvi ətrafında tərəddüd edərlərdi. Əbbas ol hala müttəle' olub, Mustəfaya ərz edüb, Həzrəti-Murtəza dəxi ona müvafiq şərhi-hal etdikdən sonra Həzrəti-Rəsul yerindən durub ayıtdı: "Ya Əli, ənsar nə derlər?" Murtəza Əli ayıtdı: "Ənsar derlər ki, haşa, əgər Həzrəti-Mustəfa dünyadan nəql edəcək olsa və bu müsibət vüquf bulsa, bizüm əhvalımız nolur və öhdeyi-riayətimizdən kim gəlür? Həzrəti-Rəsul ayağa durub bir əlin Murtəza kətfinə və bir əlin Əbbas kətfinə buraxub, məscidə gəlüb və minbər üzərinə çıxub qərar dutdu və həmdü sənaya müştəmil bir xütbeyi-bəliğ inşa qıldı və ənsarı mühacirə və mühaciri ənsara mübaliğeyi-tamamla sifariş qıldı.

Rəvayətdir Fəzl bin Əbbasdan ki, əyyami-mərəzdə bir gün Həzrəti-Rəsul bənim əlim dutub, hücrədən çıxub və mübarək başına isabə bağlayub minbər üzərə qərar dutdu və Bilala buyurdu ki: "Nida qıl xəlq cəm' olsun, anlara vəsiyyət qılam ki, bu axirin vasiyyətdir". Bilal həsbülfərmudə nidayi-am qılub və cəmi'i-xəlq hazır olub, ol Həzrət ədayi-xütbədən sonra buyurdu ki: "Ey firqeyi-İslam və zümreyi-ənam, bənim əcəlim qəribdür, zinhar bəndən bədənlərinizlə cüda olduqda könüllərinizlə cüda olman və netə ki, bən sizi fəramuş etməzəm, siz dəxi bəni fəramuş qılman. Ey qövm, heç peyğəmbər şərbəti-bəqa içməmiş ki, bən dəxi ol şərbəti nuş edəm". Və bir rəvayət dəxi oldur ki, buyurdu: "Ey qövm, sizə iblaği-əhkam etdim və səlahinizə iqdam qıldum və bəlalara mübtəla oldum; hala söhbətinizdən inqita' etmək məcalıdur və müfariqət qılmaq zamanıdır, kimin kim, məndə həqqi var, alsun və kimin kim, müşkili var, sual qılsun ki, bargahi-qürbə cəmi'i-də'vadan münəzzeh gedüb və dəməni-təcərrüdümü dəsti-tə'əllüq və təzəllüm dutmaya". Və ədadan sonra minbərdən enüb cəmaətlə nəmazi-zöhr əda qılub, yenə minbərə çıxub kəlimati-sabiqi təkrar qıldıqda hüzzari-məclisdən bir şəxs ayağa durub ayıtdı: "Ya Rəsulullah, sənin zimmətində bənim üç dirhəmim var". Həzrəti-Rəsul ol deynin ədasinə hökm edüb, Əli Murtəza əda qıldı. Andan sonra səhabədən Ükkaşə nam kim sənə ayağa durub ayıtdı: "Ya Rəsulullah, Təbuk səfərində naqəyə taziyanə həvalə qıldın, naqədən rədd olub bana irişdi, ol zərbdən qayətdə mütəəllim oldum. Hala qisas istərəm". Həzrəti-Rəsulullah ayıtdı: "Cəzakə'llahu xeyrən"[1], rəhmət sənə ki, bu qisası axirətə buraxmayub dünyada tələb etdin". Buyurdu ki: "Ey Ükkaşə, taziyanə mə'rufunmudur? Ükkaşə ayıtdı: "Bir ədimə dutulmuş taziyanədür". Həzrəti Rəsul ayıtdı: "Ol taziyanə Fatimə mənzilindədür, gətürsünlər". Səlman Fatimə sarayinə mütəvəccih olub hücrəsinə yetdikdə ayıtdı: "Əssəlamu-əleykum, ya Əhləl-Beyt". Səlmanın avazın eşidüb Fatimə ayıtdı "Ey Səlman, hacət nədir?" Səlman ayıtdı: "Filan taziyanəyi Həzrəti-Rəsul istər". Fatimə ayıtdı: "Ey Səlman, hali-mərəzdə taziyanədən qərəz nədir?" Səlman surəti-əhval şərh etdükdə Fatimə ayıtdı: "Həzrəti-Rəsul bimardır, anda qüdrəti-ehtimali-taziyanə yoxdur". Filhal Həsən və Hüseyni hazir edüb ayıtdı: "Ey cigərguşələr, cəddinüzə bir həq mütəvəccih olmuş və hüsni-ədalət anın ədasinə iqtiza edər, gedin və anın əvəzinə zərbi-taziyanə qəbul edün".

Səlman və Həsən və Hüseyn taziyanəyi alub məscidə gəldikdə, əhli-məsciddən xüruşü vəlvələ əflaka çıxub hər biri Ükkaşəyə ilhahi-əfv edərlərdi ki, bizə bir taziyanə əvəz bin taziyanə ur, Həzrəti-Rəsula mütə'ərriz olma və cismi-lətifin azürdə qılma. Həzrəti-Rəsul buyurdu ki: "Qisas bana mütəvəccih olduqda sizə taziyanə urulmaq münasib degil". Ükkaşə ayıtdı: "Ya Rəsulullah, bən ol gün üryan idim, sihhəti-qisas üçün sən dəxi üryan ol". Həzrəti-Rəsul dürrə'eyi-şərifi kətfi-lətifindən buraxdıqda sükkani-xətairi-qüds və hüzzari-məclisi-ünsdən xüruşü əfğan əflaka çıxub cəhana qovğa buraxdı. Ükkaşə ki, Həzrəti-Rəsulun kətfi-mübarəkində möhri-nübüvvətə nəzər qıldı, filhal ol möhri-mübarəkə yüz sürüb taziyanəyi əlindən saldı, dedi: "Ya Rəsulullah, bənim bu mübaliğədən iki qərəzim var idi: bir ol ki, sənin insafını xəlqə izhar edəm və biri ol ki, "Mən məssə cildi layəmissənnar"[2] müqtəzasincə bədəni-mübarəkinə üz sürəm və atəşi-duzəxdən aman bulam. Bu qəziyyədən sonra Həzrəti-Rəsul minbərdən yenüb xabgaha gəlüb, mərəzi təzayüd və təzaüf bulub, səm'i-mübarəki aləmi-qüdsdən səlayi-xani-nə'im işğa qıldı və tairi-ruhi-şərifi həbsgahi-dünyadan nüzhətgahi-bəqaya mütəvəccih oldu. Şe'r:

Qəribi-mülki-vücud etdi arizuyi-vətən,
Müqərrər oldu ki, ruh eyləyə vida'i-bədən.
İrişdi vəqt ki, şəhbazi-aşiyaneyi-qüds
Qıla iradət ilə tərki-həbsxaneyi-tən.

Rəvayətdir ki, ol halətdə Cəbrail nüzul edüb ayıtdı: "Ya Həbibullah, Pərvərdigari-aləm irsali-səlam edüb səni mövt və həyat arasında muxtar etdi. Əgər bəqayi-həyata talib isən həyatinə bəqa müqəddər olsun və əgər mövtə rağib isən sühulətlə müyəssər olsun. Şe'r:

Dünyəvü üqba bənim mülkümdür, ey fəxri-rüsül,
Sən bana bir bəndeyi-safidilü sahibvüqar.
Rə'y rə'yindür sənin, səndən bana yox imtina',
Eylədim ehsan sənə hər mülki etsən ixtiyar.

[1] Allah sənə xeyir versin!
[2] Mənim dərimə toxunana atəş toxunmaz.

Həzrəti-Rəsulullah ayıtdı: "Ey Cəbrail, ənani-ixtiyarımı Həzrəti-Həq rizasinə vermişəm və hüsni-e'tiqad ilə daireyi-təfvizü təslimə girmişəm: "Fə-inşa'ə əhyani və inşa'ə əmatəni"[1]. Şe'r:

Xaliqim yegrək bilür bəndən bənim behbudimi,
Bən ana tapşırmışam çoxdan ziyanü sudimi.

Rəvayətdir ki, axiri-mərəzdə üç gün Həzrəti-Rəsul çıxub cəmaətlə nəmaz etmədi və dördüncü gündə əşaül-axir vəqtində Bilal süddei-səadət dəstgaha və ətəbei-aləmpənaha gəlüb nida qıldı ki: "Əs-səlatu ya Rəsulullah"[2]. Həzrət istima' edüb buyurdu ki, Həq sənə əcri-xeyr verə. Bilal bir növbət dəxi ayıtdı: "Əs-səlatu ya Rəsulullah". Həzrət cavab verdi ki: "Ey Bilal, İzəd sənə müjdeyi-rəhmət yetürə". Bilal bir növbət dəxi ayıtdı: "Əs-səlatu ya Rəsulullah". Həzrət bihuş idi, cavab verməti. Bilal növmid olub giryan-giryan, cəma'ətə mütəvəccih oldu, ayıtdı: "Va ğəvsah vənqita'i rəcah və'ikisari zəhrah"[3] diriğa ki, əsli-rabitei-in'iqadi-cəmaət tərki-cəmaət qıldı və əsasi-bünyeyi-sünnət hifzi-silsilədən fariğ oldu. Şe'r:

Dərda ki, binayi-şər' viran oldu,
Cəm'iyyəti-İslam pərişan oldu.
Vermişdi fələk muradımız lütf qılub.
Guya ki, bu lütfdən peşiman oldu.

Ol əsnada cəmaətə Həzrəti-Rəsuldan fərman yetürdilər ki, Əbu Bəkri-Siddiq imamət qılub cəmaət münəqid ola. Həzrəti-Əbu Bəkr həsbülfərman mütəvəccihi-mehrab olduqda, surəti-mehrab zəbani-hal ilə Rəsulun taği-əbrusindən xəbər verüb, Əbu Bəkrin qamətin bari-heyrətlə rüku'dən müqəddəm xəmidə qıldı və müşahideyi-şəkli-mehrabdan çehrəsinə əbvabi-fəraq açıldı, biixtiyar əfğana gəlüb və cümlə səhabə anın ittifaqilə giryan olub, sədayi-növhələrindən Həzrəti-Rəsul xəbərdar olduqda Fatimədən sual etdi ki: "Bu nə qülqülədür?" Fatimə ayıtdı: "Ya Rəsulullah, səhabə şiddəti fəraqından fəğana gəlmişlər və mühasirü ənsarənduhi-müfariqətindən giryan olmuşlar". Həzrəti-Rəsul bir əlin Murtəza kətfinə və bir əlin Fəzl bin Əbbas kətfinə buraxub bir dəxi hücrədən çıxub cəmaətlə nəmaz etdi. Bə'zi kütübdə məsturdur ki, Ümm Sələmə demiş: "Bən əyyami-mərəzdə ol Həzrətə mülazim idim. Bir gün ləbi-şəkkərbarın mütəhərrik görüb mütəvəccihi-istima' oldum, eşitdim ki, münacat edər bu məzmunla ki: "İlahi, mənim ümmətimə ataşi-duzəxdən nəcat ver, Qiyamət hesabın anlara asan qıl".

Görün ol padişəhin ümmətə qəmxarlığın,
Ümməti-biədəbin zülmü sitəmkarlığın.

---

[1] İstəsə məni yaşadar, istəsə öldürər.
[2] Ey Allahın Rəsulu, sənə salam olsun.
[3] Fəryad, ümidim üzüldü, belim sındı.



Dedim: "Ya Rəsulullah, halın nədür?" Dedi: "Ey Ümm Sələmə, həngami-vida'dır və dəmi-intiza". Bu əsnada Murtəza hazır olub ayıtdı: "Ya Rəsulullah, vaqi'əmdə gördüm ki, bir zireh geymiş ikən üzərimdən çıxardırlar". Həzrət buyurdu ki, "Ol zireh bən idim ki, cəmi'i-məkkarədən sənin pənahın idim, vəqtdir ki, mən köçüb sən tənha qalub bəlalara giriftar olasan. Ey Əli, zinhar ki, diltəng olub cəzə' qılmayasan və müsabərətdən qeyr təriqə zahib olmayasan". Bu əsnada Fatimə dəxi giryan olub ayıtdı: "Ya Rəsulullah, vaqi'əmdə gördüm ki, əlimdə bir vərəqi-müshəf var ikən nagah əlimdən qeyb oldu". Həzrət buyurdu ki: "Ey Fatimə, ol vərəq mən idim, nəzərindən qeyb olsam gərək". Bu əsnada Həsən və Hüseyn hazır olub ayıtdılar: "Ey cəddi-büzürgvar, vaqiəmizdə gördük ki, havadə bir təxti-rəvan olub onun altında biz baş açuq yürürüz". Həzrəti-Rəsul ayıtdı: "Ey cigərguşələr, ol təxt mənim nə'şimdir ki, siz gisuyi-müşkbar açıb altında yürüyəsiz". Bu vaqi'ələrdən və tə'birlərdən Əhli-Beytin naləvü fəğanı bir qayətə yetdi ki, sədasın fələkdə mələk eşitdi. Şe'r:

Necə gözdən getməsün xunabə, canandır gedən,
Necə cismi-zar ayaqdan düşməsün, candır gedən.
Necə aləm olmasun əhli-nəzər çeşminə tar,
Çün nəzərdən çeşmeyi-xurşidi-rəxşandır gedən.

Rəvayətdir ki, əyyami-mərəzdə bir gün dəxi Cəbrail nüzul edüb ayıtdı: "Ya Rəsulullah, kənduni necə görürsən?" Həzrəti-Rəsul ayıtdı: "Ey bərадər, kəndumi məhmum və məğmum görürəm". Bir gün dəxi yenə bu sualı ayıtdı, yenə ol cavabı eşitdi. Üçüncü gün Mələkülmövt və İsmail nam bir mələk dəxi ittifaqla gəlüb Cəbrail ayıtdı: "Ya Rəsulullah, Mələkülmövt babi-səadətdə durub püxsət istər və heç bəni-adəmdən rüxsət tələb etməmişdir". Həzrət buyurdu ki: Ey Cəbrail, rüxsətdür. Mələkülmövt hücrə qapusından girüb səlam verüb ədəb təriqilə ayıtdı: "Ya Rəsulullah, Həq bəni sənin riayəti-xatirinə mə'mur etmişdir, əgər rüxsət olursa nəqdi-ruhunu xəzaneyi-behiştə təslim edəyim və əgər olmaz isə gəldiyim kibi Mə'budimə gedəyim". Həzrəti-Rəsul Cəbraildən yana nəzər qıldı, Cəbrail ayıtdı: "Ey Seyyidi-Kainat, Həzrəti-İzəd müştaqi-cəmalındür və ərvahi-ənbiya arizuməndi-vüsalın". Həzrəti-Rəsulullah ayıtdı: "Ey Mələkülmövt, sənin şəmşiri-səlabətin miqrazi-rişteyi-müba'idətdür və tiği-heybətün şəm'i-şəbistani-müvasilət. Xidmətində təqsir etmə ki, bən dəxi müştaqi-liqayam və arzuməndi-aləmi-bəqayam".

İbn Əbbasdan nəqldir ki, Həzrəti-Rəsulun vəfat günü Həzrəti-İzəd buyurdu ki, Mələkülmövt yer yüzünə yenüb rüxsət hasil etmədən Həzrəti-Rəsulun qəbzi-ruhi-şərifin qılmaya və küstaxanə mütəərriz olmaya. Mələkülmövt bin-bin məlaikə ilə əlbiseyi-müləvvən geyüb və ənvai-zibü zinnət ilə müzəyyən olub ol Həzrətin dəri-dövlət-sərayinə gəldilər. Mələkülmövt bir ə'rabi surətində mütəməssil olub rüxsəti-düxul istədi. Fatimə hazır idi, cavab verdi ki: "Ey ə'rabi, Həzrəti-Rəsul kəndü halına məşğuldur, hala məcali-mülaqat degil. Mələkülmövt səda bülənd edüb bir dəxi rüxsət istədi. Fatimə həm ol cəvabı verdi. Üçüncü növbət əşəddi-əsvatlə səda yetürdü ki, Həzrəti-Rəsul xəbərdar olub Fatimədən keyfiyyəti-halı sual etdi. Fatimə ayıtdı: "Ya Rəsulullah, bir mübrim ə'rabidür, rüxsəti-mülaqat istər, üzrlə məmnu olmaz və mə'zirət ana faidə qılmaz". Rəsulullah ayıtdı: "Ey Fatimə, bilirmisən ol ə'rabi kim-

dir". Fatimə ayıtdı: "Allahu və rəsuluhu ə'ləm"[1]. Həzrəti Rəsulullah ayıtdı: "Ol qate'i-ləzzat və müfərriqi-cəmaat, yə'ni Mələkülmövtdür, qəbzi-ruhum etməyə gəlmiş. Heç bab ana məsdud olmaz və heç kim dəf'inə çarə bulmaz. Rüxsətdən qərəz hörməti-xanədani-nübüvvətdir, yoxsa ana nə ehtiyaci-izzətü rüxsətdir". Fatimə bu vaqiə'dən müztəribülhal olub bihuş olduqda, Həzrəti-Rəsul Fatimənin sineyi-bikinəsinə dəsti-mübarəkin qoyub bixud olub, Fatimə kəndüyə gəldikdə Rəsuli bixud görüb, təsəvvür qıldı ki, aləmi-bəqaya təvəccöh qılmışdır. Fəryad edüb ayıtdı: "Va əbətah ma-halukə"[2]. Həzrət dideyi-əşkbar açub Fatiməyi giryan görüb ayıtdı: "Ey cigərguşə, ağlama ki, cümleyi-ərş sənin naləyi-zarindən fəğana gəldilər". Və kəndü mübarək əli ilə Fatimənin çehrəsindən sirişkin pak edüb münacat etdi ki: "Ya Rəb, bu dərdməndi bənim fəraqimdə səbr ilə mümtaz et". Pəs, təriqi-təsliyə ilə ayıtdı: "Ey Fatimə, bənim ruhum qəbz olunduqda kəlimeyi-"İnna lillahi və inna ileyhi raci'un"[3] təkrar edüb təhəmmül pişə qıl ki, hər insana İzəd hər müsibətdə əvəz verməK müqərrərdir və hər təhəmmülə bin təcəmmül müqəddərdir. Fatimə ayıtdı: "Ey sərvər, sənə əvəzmi olur? Bu hala müqarin ümməhati-möminatı cəm' edüb, cümləsinə təqvavü ta'ət və səbrü qəna'ət vəsiyyət qılub, Fatiməyə ayıtdı: "Həsən və Hüseyni hazır et". Həsən və Hüseyn hazır olub səlam verüb gıryan-giryan qarşusində durduqda cəmi'i-hüzzari-məclis ittifaqla giryan oldular. Şe'r:

Dəmi-vida'dır, ey çeşmi-tər, sirişk rəvan qıl,
Zəmani-hicrdir, ey dil, töküb sirişk fəğan qıl.

İmam Həsən çehreyi-pürqübar rüxsari-pürənvarinə sürüb və Hüseyn dideyi-əşkbar kəfipayi-ərş miqdarinə yetirüb fəğan edərlərdi. Ol Həzrət'əyni-işfaqla anlara nəzzarə qılub müfariqətlərindən ahi-həsrət çəkərdi və sirişki-riqqət tökərdi. "Məqtəli-Nurül-Ə'immə"də məsturdur ki, ol Həzrət hini-vəfatda Həsən və Hüseynə mütəvəccih olub derdi ki: "Ey diriğa, yetimlik qubarı çehreyi-əhvalinizi dutub bikəslik-əsəri surəti-ətvarinizdə peyda oldu və cəmiyyətünüz pozuldu. Aya, ümməti-bivəfa sizə nə cəfalar qılalar və nə bəhanə ilə mütəərriz olalar?" Bu təkəllüm əsnasında biixtiyar giryan oldu. Ümmi Sələmə ayıtdı: "Ya Rəsulullah, səbəbi-giryə nədir?" Həzrəti-Rəsul ayıtdı: "Əynəma bəkəytü rəhmətən liumməti"[4]. Yə'ni giryan olduğum ümmətim üçündür, zira hüsni-ehtimamla şərəfi-islam bulmuşikən və qabiliqürbi-İlah olmuşikən bəndən sonra İblis iğvasinə giriftar olalar və irtikabi-kəmali-mə'siyət qılalar. Həm anlara üqubəti-ilahi təvəccöh qıla və həm bənim sə'yim zaye'o la".

Rəvayətdir ki, ol əsnada Əli ibn Əbi Talibi tələb edüb. Həzrəti-Murtəza gəlüb ol Həzrət səri-mübarəkin bəstərdən qaldırıb, bə'zi lazım olan vəsiyyətləri əda qılub əmanətləri təslim etdi. Həzrəti-Əlidən nəqldir ki: "Həzrəti-Rəçul bana bin bab elm tə'lim qıldı ki, hər birindən dəxi bana bin bab məftuh oldu".

Əlqissə, Mələkülmövt ə'rabi surətində qapuda durub icazət tələb edirdi. Aqibət, rüxsət hasil edüb, hücrəyə girüb dedi: "Əssəlamu ələykə əyyuhən-nəbiyyi"[5]. Həzrəti-İzəd səlamlar

[1] Allah və elçisi daha yaxşı bilir.
[2] Atacan, necəsən?
[3] Biz Allaha aidik və qayıdışımız da onadır ("Qur'an", 2, 156).
[4] Ümmətimin rəhməti üçün ağlayıram.
[5] Ey Nəbi, sənə salam olsun!



yetürüb qəbzi-ruh etməyə fərman etmişdir, fərman nədür?" Həzrəti-Rəsul ayıtdı: "Ey Mələkülmövt, bənim səndən bir hacətim var; bənim ruhum qəbz etmə, Cəbrail gəlməyincə". Mələkülmövt ayıtdı: "Fərman sənindür". Bu hala müqarin Həzrəti-İzəd Rizvana buyurdu ki, behiştə ayin bağlayub hurü qıl-manı müzəyyən qıla və Maliki-duzəxə əmr etdi ki, nəvairi-cəhimə təskin verüb həyyatü əqaribin səmiyyati rəf'ola və sükkani-aləmi-mülkü mələkut və ərvahi-ənbiya və güruhi-mələ'i-ə'la istiqbala çıxalar və xüddami-hərimi-ərş ənvari-qüdsdən çırağlar yaxalar. Və bu məsaleh mürəttəb olduqdan sonra Cəbrailə hökm oldu ki, sündüsi-behiştdən bir məndil Həzrəti-Rəsula ilətüb xidmətinə müşərrəf ola. Cəbrail giryan-giryan gəldikdə Həzrəti-Rəsul ayıtdı: "Ey bəradər, bunun kibi halətdə bəndən mübaidət ixtiyar edərsən, səbəb nədir? Cəbrail ayıtdı: "Ya Rəsulullah, sənün xidmətin bəni səndən dur etmişdi, sənə bəşarət gətürmişəm, ya Rəsulullah, "Ən-nirani qəd uxmidət və'l-cinanu qəd züxrifət və'l-hurul-əyni qəd zuyyinət və'l-məlaikətu qəd səffət bi-qudumi ruhikəl'əziz"[1]. Şe'r:

İştiyaqi-dövləti-qürbündədir ərvahi-qüds,
Rəf' edüb zülmət hicabın ərz qıl didarını.

Rövzeyi-Rizvana vəslindən nəsib et növbəhar,
Hurü qılman bəzminə şəm' et məhi-rüxsarını.

Həzrəti-Rəsul ayıtdı: "Ey bərədər, bu bəşarətlər xoşdur, əmma mənə bir xəbər ver ki, bu xəbərlərdən əfzəl ola". Cəbrail ayıtdı: "Ya Rəsulullah, behişt səndən və ümmətindən müqəddəm cəmi'i-ənbiyaya və ümmətlərinə həram ola". Həzrəti-Rəsul ayıtdı: "Bu xəbər dəxi xoşdur, əmma bundan ə'la xəbərə müntəzirəm". Cəbrail ayıtdı: "Ya Rəsulullah, müqərrər oldu ki, ruzi-Qiyamət sibqətü təqəddümi-təfvizü şəfa'ət və tövfiqi-istehqaqi-rəhmət sənə verilə". Həzrəti-Rəsul ayıtdı: "Bu xəbər dəxi xoşdur, əmma bundan əşrəf xəbərə mütərəssidəm". Cəbrail ayıtdı: "Ey xazini-nüqudi-hikmət və ey əmini-gəncineyi-risalət, nədür məqsədin?" Həzrəti-Rəsul ayıtdı: "Ey Cəbrail, ümmətim fikrindəyəm, aya, bəndən sonra həlli-əşkalü iğlaqi-məhamm və təhqiqi-möhkəmatü mütəşabihati-ayati-kəlam və təmyizihəlalü həram və tədbiri-ləvazimi-şər'ü əhkam və nizami-qaideyi-İslama nə vəchlə iqdam edələr və dərdlərinə kimdən dərman bulalar?"

Cəbrail ayıtdı: "Ey sərvər, ənduh çəkmə ki, onları Həq-taala kəndi pənahində saxlayıb, Qiyamət günü sənin şəfa'ətüni onlara nəsib edə və ol miqdar günahlardan təcavüz qıla ki, razı olasan". Həzrəti-Rəsul ayıtdı: "Hala razı oldum, ey Mələkülmövt, xidmətinə qiyam et". Mələkülmövt ol Həzrətin qəbzi-ruhi-şərifinə məşğul olduqda ol Həzrət səqfi-səraya baxub deyərdi: "Ya rəfiqül-ə'la"[2]. Nagah bu kəlimə ilə aləmi-bəqaya intiqal etdi. Şe'r:

[1] Əziz ruhunun gəlişi üçün atəşlər söndürüldü, cənnətlər səhmana salındı, hurilər təzələndi və mələklər dəstə-dəstə dayandı.
[2] Ey ulu dost.

Uçdu ol tavusi-qüdsi-aşiyan,
Getdi ol şahənşəhi-ülvi məkan.
Gər cahana mümkin olsaydı bəqa,
Tərk edüb getməzdi andan Mustəfa.

Bu bir rəvayət dəxi oldur ki, Mələkülmövt Cəbrailin hüzurində ol Həzrətin ruhi-şərifin qəbz edüb, Cəbrail ə'layi-illiyyinə iletdi. Və Əli ibn Əbi Talibdən nəqldir ki: "Ol halətdə bən asimandan sədayi-"Va Muhəmmədah"[1] istima' etdüm".

Rəvayətdir ki, Həzrəti-Nəbidən sonra hərgiz Fatimeyi-Zəhrayı kimsənə mütəbəssim görmədi ol zəmanədək ki, Həzrəti-Rəsula vasil oldu və mütləq münbəsit olmadı ol vəqtədək ki, aləmi-bəqaya təvəccöh qıldı. Şe'r:

Ağla, ey Zəhra ki, səndən Mustəfadır fövt olan,
Mustəfa fövti zəminü asimanı ağladur.
Əfzəli-xəlqi-cahan çıxmış cəhandan lacərəm,
Bu müsibət cümleyi-xəlqi-cəhanı ağladur.

[1] Vay, Məhəmməd!



## DÖRDÜNCÜ BAB

## FATİMEYİ-ZƏHRA VƏFATIN BƏYAN EDƏR

Pərdədari-hərəmsərayi-qüdrət əbkari-aləmi-hücərati-ərvaha rüxsəti-təzvici-tə'əyyünati-işba' verdükdə hilyeyi-iste'dadi-alamla müzəyyən qılmadan xəlvətgahi-xəfadan münəssəi-zühura çıxarmaz və məşşateyi-nihanxaneyi-hikmət müxəddərati-nüfusun dəsti-təəllüqlərin daməni-əqdi-əbdana yetürdikdə hiləli-istehqaqi-səqamla zinət vermədən cülusi-məsnədi-şühuda rüxsət verməz. Şe'r:

Xakü əflak madərü pedəri,
Cüft olanda məgər nəticələri.
Ələmü şiddətü məşəqqət imiş,
Qəmü ənduhü dərdü möhnət imiş
Ki, cəhan içrə yox bulardan qeyr,
Həmnişini-sülukü həmdəmi-seyr.

Qaliba, ərusi-xudarayi-bivəfayi-cəhanın peyvəndinə rəğbət qılan və əqdi-ittisalinə rağib olan bilməz ki, anın mehri-müəccəli nəqdi-rəvan və cəhazi qətari-həfteyi-əyyama yüklü əmti'əyi-[möhnəti]-bikərandır və həmişə mənzilgəhi-fəraşi xaki-fəna və ətası əbri-bəla və həmvarə gülguneyi-rüxsarı məzlumlar qanıdür və lə'aliyi-ətrafi-binaguşi sitəmzədələr əşki-rəvanı. Şe'r:

Zali-məkkarədür cəhani-xərab,
Qəmzeyi-şuxi afəti-əhbab.
Rəngi-gülguneyi-üzari' əyan,
Didədən əhli-dərd tökdügi qan.
Tərfi-ruyində lö'lö'i-lala,
Gövhəri-əşki-aşiqi-şeyda.
Daneyi-xali-ruyi daği-cigər,
Türrəsi dudi-ahi-əhli-nəzər.
Müztərib xəstələr müdam andan,
Bulmamış hiç xəstə kam andan.

Mücmələn, zəmaneyi-qəddar və cəhani-sitəmkarın ədəmi-vəfasinə şahid bu yetər və qilləti-səfasinə dəlil bu kifayət edər ki, Bətuli-Zəhra kibi gövhəri-pakizə hərimi-qeybdən fəzayi-şühuda qədəm basduğı zəmandan pərdənişini-aləmi-bəqa olanadək bir dəm güli-rüxsarından qətərati-əşki-həsrət kəm olmadı və bir saət geysuyi-müşkbarından əqdi-məlal açılmadı. Gah möhnəti-tə'ni-xəvatini-Qüreyş çəkdi və gah ələmi-müfariqəti-pedəri-büzürgvarin görüb əşkiləlagun tökdü. Gah müfariqəti-Murtəza müsibətin gördü və gih əxbari-şəhadəti-övlad ona ələm yetürdi. Şe'r:

Vəh ki, dövrani-fələk Fatimeyi-Zəhranın,
Qönçeyi-lalə kibi qıldı qara bağrını qan.
Bir zaman keçmədi əyyami-həyatından kim,
Dili-pürxunini yandırmadı min daği-nihan.

Məhrəmi-hərimi-qəmxaneyi-suzü güdaz rüxsareyi-şahidi-razdan bu tərzlə pərdə salmış və Məryəmi-xameyi-müşkintərazdan Məsihi-təkəllüm bu təriqlə mütəvəllid olmuş ki, Həzrəti-Rəsulun Xədiceyi-Kübradan altı övladı olub, ikisi zükur: biri Qasim ki, Həzrəti-Rəsul anın ismilə mükənna idi və biri Əbdullah ki, təyyibü tahir deməklə mə'ruf idi. Və bənati-mütəhhəratın biri Zeynəb və biri Ruqiyyə və biri Ümm Külsüm və biri Fatimə idi. Və cəmi'i-övladı zəmani-İslamda mütəvəllid olub cümləsindən əsğər Fatimə idi və məcmu'i-əyyami-həyatində aləmi-bəqaya intiqal edüb təcərrö'i-zəhri-fəraqi Zəhradan qeyrə nəsib olmadı. Fatimə viladətində ixtilafi-rəvayət çoxdur. Bə'zi derlər ki, vaqieyi-Fildən iyirmi beş il keçdikdə mütəvəllid oldu. Şeyx Məhəmməd İmam Məhəmməd Baqirdən nəql edir ki, məb'əsdən beş il keçdikdə mütəvəllid buldu. Və "Rövzətül-Vaizin"də məsturdur ki, Xədicə Fatiməyə hamilə olduqda Həzrəti-Rəsul buyurdu ki: "Ey Xədicə, Cəbrail bana xəbər verdi ki, sədəfi-bətnində olan lö'lö'i-şahvar bir səbiy-yədir Fatimə nam ki, anın nəsli cəvahiri-rişteyi-imtidadi-zəman olub, Qiyamətədək təsəlsül bula və ol silsileyi-cəvahir gərdənbəndi-ərusi-kainat ola".

Rəvayətdir ki, müddəti-həml münqəzi olub, zəmani-viladət qərib olduqda, Xədicə xəvatini-Qüreyşdən qabilə tələb qıldı. Xəvatini-Qüreyş ayıtdılar: "Sən bizə 'asi olub Əbu Talib kəfalətində olan yetimə razı oldun, biz sənə intisab etməkdən ar edəriz". Xədicə bu xəbərdən mütəəllim ikən nagah xəlvətində dörd xatun xəvatini-Qüreyşdən və Bəni Haşim vəz'ində zahir olub, ana tə'zim etdilər. Xədicə anları müxəddərati-qəbaili-ərəb təsəvvür edüb, əslü nəsəblərin sual etdikdə ayıtdılar: "Ey Xədicə, Həq bizi sənin xidmətinə mə'mur etdi". Bu xatunların biri Sara zövcəti-Xəlil və biri Məryəm binti-İmran və biri Külsüm rəzieyi-Musa və biri Asiyə zövcəti-Fir'on; və bunlar sənə dünyada xidmətkar və axirətdə rəfiqü yar olalar. Pəs, biri yəminində və biri yəsarında və biri qəfasında və biri müqabiləsində qərar dutub, Fatimə mütəvəllid oldu. Tahirü mütəhhər aləmi-vücuda qədəm basdıqda nuri-rüxsarı asimana ələm çəkdi və rayiheyi-müşkbarından səfheyi-ruyi-zəminə qübari-əbirü ənbər çökdü. Şe'r:

Şər' gülzarinə rövnəq verdi bir növrəs nihal,
Asimani-dinə pərtöv saldı bir fərrux hilal.
Ol nihalın bərgü barindən dolub dəməni-dəhr,
Ol hilala qıldı ənvari-hidayət intiqal.

Rəvayətdir ki, həm ol saətdə behiştdə on ədəd huri, hər biri bir təşt və ibriqilə hazır olub, qabilə olan xatun ol ibriqlərdən abi Kövsər töküb, Fatiməyi qüsl edüb, bir kafurgun hərirə sarub, Xədicəyə təslim edüb qeyb oldular. Həzrəti-Rəsul qüdumi-Fatimədən xəbərdar olub hücrəyə gəldikdə, Xədicə Fatiməyi ol xirqə ilə Həzrəti-Rəsul kənarında qoyub, Həzrət ana Fatimə nam etdi və künyəti Ümmü Məhəmməd və ləqəbi Raziyyə və Mərziyyə və Məymunə və Zəkiyyə və Zəhradır və anın fəzaili həddən ziyadə və mənaqibi latü'əd və latühsadır.



"Rövzətül-Əhbab"da Ayişədən mənquldur ki, andan sual etdilər ki: Övrati-cənnətdən Həzrəti-Rəsul kimə ziyadə ehtiram edərdi? "Ayişə ayıtdı: "Fatimənin ziyadə hörmətin dutardı. "Dedilər: "Cinsi-zükurdan kimin ri'ayətin əfzun edərdi?" Dedi: "Əli İbn Əbi Talibin". Və bu xəbər səhhətə yetmişdir ki: "Fatimə biz'ətun minni"[1].

Rəvayətdir ki, Həzrəti-Rəsul bir ğəzaya mütəvəccih olub və Murtəzayi həmrah alub, Həsən və Hüseyn tifl olmağın mürafiqət qılmadılar. İttifaqən zəmani-qeybətlərində bir gün Hüseyn Mədinə xurmalığında seyr edərkən, Saleh bin Rüq'eyi-yəhudi fürsət bulub Hüseyni alub mənzilində pünhan etdi. Bir gün peyda olmayub, ataşi-müfariqət Zəhra cigərin yaxıb, yetmiş növbət hücrə qapısına gəlüb bir kimsənə bulmadı ki, anın mütalibətinə irsal edə. Aqibətüləmr İmam Həsənə ayıtdı: "Ey cigərguşə, Hüseyn qaib olmuşdur, tələb et". Həzrəti-Həsən iztirabla Mədinə bağına gəlüb, "Ya Hüseyn ibn Əli və ya qurrətə'əynən-Nəbiyyi eynə əntə"[2], – deyüb təcəssüs edərkən bir guşədən bir ahu çıxdı. İmam Həsən ayıtdı: "Ya zəbiy ə'raaytə əxi Huseynən?"[3]. Ahu Həq fərmanilə mütəkəllim olub ayıtdı: "Ey nuri-dideyi-Mustəfa və Murtəza, vey süruri-sineyi-Zəhra! Əxəzəhu Salih əbni Rüq'ə əl-yəhudi və əxbihu fibeytihi"[4]. İmam Həsən Salehi-yəhudinin mənzilinə gəlüb ayıtdı: "Ey Saleh, qarındaşım Hüseyn sənin mənzilindədür, mənə təslim et, tə'əllül etmə, yoxsa validəsinə ərz edərəm küngüreyi-gərduna kəməndi-ahi-cigərsuz atub və dəsti-niyazla dəməni-ərş dutub bir dua ilə cəmi'i-yəhud cinsin yer yüzündən götürüb və ya validi-büzürgvarinə surəti-halı şərh edərəm ki, tiği-abdar və Zülfiqarisainəkirdar ilə yer üzün yəhudilər qanından laləzar edər və ya cəddi-alimiqdarinə bu vaqi'ədən xəbər verürəm hədəfi-Qabi-qövseynə nəvəki-dua rəvan edüb taifeyi-Yəhuda müjdeyi-nüzuli-bəla gətürür və xirməni-cəm'iyyətlərinə bərqi-fəna yetürür". Şe'r:

Həzər qıl naleyi-məzlumdan, ey səngdil zalim
Ki, tiri-ahının peykanı gərdundan güzar eylər.
Sinani-bərqdir ahi-təzəllüm, ehtiraz et kim,
Əgərçi səngdilsən, zəxmi anın daşa kar eylər.

Salehi-Yəhudi ol fəsahətdən mütəəssir və mütəhəyyir olub ayıtdı: "Ey əziz, validən kimdür?" İmam Həsən ayıtdı: "Vali dəm səfvəti-xanədani-risalət və qüdvəti-dudmani-nübüvvət, sədəfi-səffətü ismət qürreyi-çöhreyi-elmü hikmət, nöqteyi-daireyi-mənaqibü məfaxir, ləmə'eyi-nasiyeyi-məhamidü məasir, mədəri-sadati məcmə'i-səadət, şəm'i-ərse'i-ərəsat, Bətuli-Əzra yə'ni Fatimeyi-Zəhra". Saleh ayıtdı: "Validən mə'lum oldu, validün kimdür?" İmam Həsən ayıtdı: "Validim şiri-Yəzdan, şahi-mərdan, mühəddidi-cəhati-məkarim, müxtəre'i-qəvanini-mərahim, müsəllili-qibləteyn, qürrətül-'eyni-seyyidüs-səqəleyn rəisül-övliya, ənisül-ənbiya yə'ni Əliyyi-Murtəza". Saleh ayıtdı: "Validin dəxi mə'lum oldu, cəddin kimdür?"

İmam Həsən ayıtdı: "Cəddim gövhəri-xəzaneyi-Xəlil, səməreyi-şəcəreyi-İsmail, nuri-qəndilitə'zimü təbcil, Həbibi-Məliki-Cəlil ol imami-müftərizüt-ta'ə ki, Məkkədə nəmazi-fəraiz qı-

[1] Fatimə məndən bir parçadır.
[2] Ey Əlinin oğlu Hüseyn, ey peyğəmbərin göz bəbəyi, haradasan?
[3] Qardaşım Hüseyni gördünmü?
[4] Yəhudi Saleh Rüq'ə onu götürdü və evində saxladı.

lub, Məscidi-Əqsada sünnət əda qıldı və əhvali-qüruni-sabiqə və ümuri-atiyəni əhkami-haliyyədən əvzəh buldu. Mənzili-fürqan, vazihi-iman, rəsuli-səqəleyn, məhrəmi-hərimi Qabi-qövseyn, cəddi-sibteyn, sərvəri-ənbiya yə'ni Məhəmməd Mustəfa".

Şahzadə ədayi-mənaqib qıldıqca seyqəli-kəlami-mö'ciznizamı Salehi-yəhudinin mir'ati-zəmirindən zəngi-küfrü zəlalət tədric ilə rəf' edüb və nükati-möizəamizi tə'siri-təmam qılub, qətərati-əşk gözdən töküb ayıtdı: "Ey şahzadə, təsəlsüli-ibarati-dilpəzirin kəməndi-gərdəni-can oldu və tərəşşühi-zülali-kəlimati-binəzirin hədiqeyi-e'tiqada tərvihi-təravət buraxub, riyazi-rəvanimi xürrəm qıldı". Şe'r:

Gövhəri-dəryayi-hikmətdir kəlami-dilkəşin,
Tairi-dil seydinə hər nüktəsi bir danədür.
Rişteyi-irfana canpərvər sözün dürlər düzər,
Söz budur kim, sən dedin, qeyrin sözü əfsanədir.

Ey nuri-didə, bəradərin sənə ol zaman təslim olunur ki, məni daireyi-imana çəküb kəlimeyi-İslam ərz edəsən". İmam Həsən ana iman ərz edüb, Salehi-yəhudi ixlasla müsəlman olub, Həzrəti-Hüseyni evindən çıxarub, üzərində bir təbəq dirəm nisar edüb Həsənə təslim etdi və Həsən Hüseyni Fatimə hüzuruna gətürüb şərəfi-qüdumindən möhnəti-müfariqət nəhayətə yetdi. Şe'r:

Ol ki, eşq içrə bəni şöhreyi-dövran etdi,
Getdi qəm, gəldi [fərəh, cümlə] küdurət getdi.

Salehi-yəhudi bir gündən sonra yetmiş nəfər yəhudi əqrəbasindən müsəlman edüb, dəri-hücreyi-təharət ziyarətinə gəlüb, dərgahi-aləmpənaha üz sürüb təzərrö' etdi ki: "Ey Mə'sumə, xəta qıldum, günahımı əfv et". Fatimə ayıtdı: "Ey Saleh, bən günahından keçdüm, əmma pədəri-büzürgvarimdən dəxi istifa tələb qıl ki, ol sərvəri övliya və sərdəftəri-əsfiyadır.

Əlqissə, Salehi-yəhudi Həzrəti-Mustəfa səfərdən müraciət edənədək səbr edüb, Murtəzanın xidmətinə müşərrəf olub surəti-halın ərz etdikdə Həzrəti-Murtəza ayıtdı: "Ey Saleh [bən] təcavüz qıldum, əmma cəddi-alimiqdarindən dəxi istid'ayi-əfv etmək gərək ki, seyyidi-ənbiya və əfzəli-xəlqi-Xudadır". Saleh giryan-giryan Həzrəti-Rəsul xidmətinə gəlüb ərzi-hal etdikdə Həzrəti-Rəsulullah buyurdu ki: "Bana şərti-İslamla mə'zirət məqbuldur; əmma Həsən və Hüseyn Həzrəti-İzəd möhtərəmləridür və anların izasindən əlbəttə Həzrəti-Həq mütəəzzi olmuşdur, istiğfar etmək gərək". Salehi-biçarə səhralara düşüb fəryadü fəğan edirdi ki. Şe'r:

Ya Rəb, əsiri-dami-bəlavü müsibətəm,
Müstəğrəqi-təlatümi-bəhri-zəlalətəm.
Bərqi-günah yaxdı binayi-vücudimi,
Rəhm et ki, zillət ilə tələbkari-rəhmətəm.

On yeddi gün sərgəştəvü sərasimə gəzüb təəssüf və təhəyyürlə növhələr qılub, on səkkizinci gündə Cəbrail Həzrəti-Rəsula səlami-Məliki-Cəlil gətürüb ayıtdı: "Ey Seyyidi-[Kainat], ol biçarənin tövbəsini qəbul etdim və günahına qələmi-əfv çəkdüm, bəşarət ver və müjdə yetür".



Ey əziz, təəmmül qıl və nəzər et gör ki, bir kimsənə Həzrəti-Hüseyni bir zaman məhbus edüb, xatiri-mübarəkin azürdə qılmağilə nə miqdar təzərrödən sonra məğfur oldu. Aya, nə ola anların əhvalı ki, də'vayi-İslamla ol mə'sumitiği-saiqəbarla parə-parə qılub, etdükləri əməldən istiğfar etməyələr və əsla daməni-təəssüf və təhəyyür dutmayalar. Şe'r:

Ey tökən zülmilə övladi-Rəsulun qanını,
Olmamış guya xəbər qovğayi-məhşərdən sana.
Məsti-cami-cəhdü qəflətsən özündən bixəbər,
Xövf yox Həqdən, xəcalət yox Peyğəmbərdən sana.

Hüzeyfə Yəmanidən nəqldir ki, "Bir gün Həzrəti-Rəsul xidmətində idim, məğrib nəmazın əda qılub fariğ olduqda, hücreyi-təharətə mütəvəccih oldu, bən dəxi əqəbincə rəvan oldum, [gördüm] bir şəxsi-mühib xidmətinə gəlüb anınla müşavirət qıldı və qaib oldu. Ol Həzrət bəndən vaqif olub ayıtdı: "Ey Hüzeyfə, nə hacətin var?" Ayıtdım: "Ya Rəsulullah, gəlmişəm ki, bənim üçün və validəm üçün tələbi-ğüfran edəsən". Buyurdu ki: "Ğəfərallahu ləkə və li-ummikə"[1] və buyurdu ki, "Ey Hüzeyfə, ol şəxs ki, bənümlə müşavirət edərdi, gördünmü?" Dedim: "Bəli, ya Rəsulullah". Buyurdu ki: "Ol bir mələkdür ki, hərgiz bundan əqdəm yer yüzünə nüzul etməmişdür. Həzrəti-İzəddən rüxsət hasil edüb bənim səlamımla müşərrəf olmağa gəlmiş. Bana bəşarət yetürdi ki, Fatimə seyyidətün-nisa'i-behiştdir və Həsən və Hüseyn behişt növcavanlarının seyyidləridir. Pəs, Fatiməyə ayıtdı: "Ey fərzənd, sənə bu səadət yetər ki, əfzəli-xəvatini-dünya və axirət olasan". Həzrəti-Hüseyni-Əlidən nəqldir ki, çün Həq-tə'ala behişti Adəm və Həvvaya ərzani qıldı və Həvvanın lətafəti-cəmali tə'siri-həvayi-behiştdən mütəzaif və mütəzaid oldu, bir gün Adəm diqqətlə Həvvaya nəzər salub və anın cəmalın mənzuri-nəzəri-e'tibar qılub ayıtdı: "Ey Həvva, aya, nəqqaşi-qüdrət kargahi-fitrətdə sənin peykəri-cəmiləndən əcməl surət çəkmişmi ola?" Filhal bargahi-izzətdən Cəbrailə hökm oldu ki, Adəmi firdövsi-ə'la seyrinə hidayət qıl. Adəm nüzhətsərayi-firdövsə qədəm basdıqda gördü bir büsati-mürtəfe' üzrə əlbiseyi-mükəlləl və mürəssə'ylə bir cəmilə qərar dutmuş ki, şə'-şə'eyi-nuri-cəmalindən sahəti-behişt münəvvər olmuş və lətafəti-rüxsarinə dideyi-hurü qılman mütəhəyyir qalmış, nurdan fərqi-mübarəkində bir əfsəri-dirəxşan və hər qulağında bir guşvareyi-qəltan. Şe'r:

Laleyi-rüxsarı olmuş zivəri-bağı-behişt,
Xaki-payi xüld bağın eyləmiş ənbərsirişt.
Sün' me'marı bina qıldıqda qəsri-hüsnünü,
Müşki-nabü laleyi-həmradan etmiş xakü xişt.

Adəm mütəhəyyir olub ayıtdı: "Ey Cəbrail, bu nə cəmilədir ki, müşahideyi-hüsnü heyrətəfza və mülahizeyi-cəmali dilrubadür". Cəbrail ayıtdı: "Bu, Fatimeyi-Zəhradır, binti-Məhəm-

[1] Allah sizi qovuşdursun, xoşbəxt və mübarək etsin, ikinizə xeyirli övlad bağışlasın.

mədi-Mustəfa və başındakı əfsəri-dirəxşan zövci Əliyyi-Murtəzadır. Bu guşvarələrinün biri Həsəni-Muctəbadır və biri Hüseyni-Kərbəla". Adəm ayıtdı: "Ey Cəbrail, bunlar nə zəmanun xəlqidir[lər]?". Cəbrail ayıtdı: "Ey Adəm, əgərçi bunlar aləmi-surətdə səndən zühur edəcəkdirlər, əmma xilqətləri dörd bin il səndən müqəddəm vaqe' olmuşdur". Şe'r:

Bən sərbüləndi-aləm idim aləm olmadan,
Xaki-dərin məqamım idi Adəm olmadan.
Dövlət buraxmış idi bəni asitaninə,
Adəm behişt xəlvətinə məhrəm olmadan.

Ayişədən mənquldur ki, bir gün Həzrəti-Rəsul üzərində bir kəsayi-pəşminə olub, Murtəza və Fatimə və Həsən və Hüseyni ol kəsay altına alub buyurdu ki: "İnnəma yuridullahu liyüzihibə ənkumur-ricsə əhləl-beyt?" və həm ol dörd kimsənənün xüsusunda buyurdu: "İnni hərəbə-li-mən hərəbəkum və sələmə li-mən sələməkum", yə'ni mən hərb edərəm anlarla ki, sizinlə hərb edər və sülh edərəm anlarla ki, sizinlə sülh edər.

Həzrəti-Fatimə səkkiz il Məkkədə mülazimi-Mustəfa olub kəramət və işaratının nihayəti yoxdur. Ol cümlədəndir bu ki, bir gün Həzrəti-Rəsul Məscidi-həramda divara təkyə qılub qərar dutmuşdu. Xəvatini-ərəbdən bir güruhi-müzəyyən və mürəttəb xidmətinə müşərrəf olub ayıtdılar: "Ya Məhəmməd, əgərçi millətlə səndən biganəyüz, əmma bir şəhərdə həmxanəyüz. Bu gün bir cəmiyyətümüz olub xəvatini-ərəb cəm'dür, iltimas edərüz ki, Fatimeyi-Zəhraya rüxsət verəsən ki, bizi müşərrəf qıla, şayəd hüsni-ixtilatla münqəti' olan rişteyi-ülfətimiz təcdidi-ittisal bula". Xaceyi-Kainat rəddi-sual caiz görməyüb iltimasların qəbül edüb buyurdu ki, siz gedin, bən Fatiməyi mütəaqəb irsal edəyim. Pəs Fatimə hüzuruna gəlüb ayıtdı: "Ey nuri-didə və ey nütfeyi-bərgüzidə, bizə divani-qəzadan hökm olmuşdur ki, cəfa gördükcə vəfa ərz edəyüz və biganəlik müşahidə qıldığca aşinalıq qılayuz". Şe'r:

Xardan xunrizlig gördükcə gül xəndan olur,
Səbr edən xeylü həşəm bidadinə sultan olur.
Möhnətə səbr eyləyən rahət bulur kim, Yusufa,
Səltənət təxtinin əvvəl payəsi zindan olur.

Ey Fatimə, bu gün xəvatini-ərəb bəndən hüzurini iltimas etdilər ki, cəmiyyətlərin feyziqüduminlə müşərrəf qılasan və bən dəxi qəbul etdim. İmdi şərti-vəfayi-əhd hüsni-rizayi-şərifindür". Fatimə ayıtdı. Şe'r:

Sən şəhənşahi-səriri-ədlsən,
Bən sənin bir bəndeyi-fərmanınam.
Ribqeyi-hökmündən etmən inhiraf,
Nişə kim, pərvərdeyi-ehsanınam.

Ey pədəri-büzürgvar, vəfayi-əhdinə iqdam edərəm, əmma mütəhəyyirəm ki, nə kisvətlə ol məhfilə girəm. Hala Ütbənin və Şeybənin və Əbu Cəhlin bənatü əzvacı əlbiseyi-əlvanla



məsnədi-rif'ətdə oturmuşlar, bən bu cameyi-mürəqqə' və çadiri-pəşminə ilə hazır olduqda Həmmalətəl-Hətəb bir yandan mütə'ərriz ola və Hindi-cigərxar bir tərəfdən təşni' qıla". Ey nuri-didə, anların nəzərləri qasirdir, nəzzareyi-aləmi-mə'na qılmazlar və aləmi-surətdən qeyr aləm olduğun bilməzlər. Şe'r:

Mərdümi-surətpərəstin himməti kutah olur,
Məhvi-surət zövqi-mə'nadan qaçan agah olur.

Bunu deyüb [Həzrəti-Fatimənin]əşki-həsrət dideyi-əşkbarindən rüxsarinə tökülürdü. Həzrəti-Rəsul ayıtdı: "Ey cigərguşə, məlul olma ki, bizə nisbət əlbiseyi-faxir libasi-təqvadür və taci-mürəssə' əklili-elmü rizadır; ərusi-növbaharın pirayeyi-cəmalinə nə e'tibar, çün sərsəri-xəzan təsəllütilə tarac olur və şahidi-şəm'in əfsəri-zərnigarinə nə e'timad, çün rişteyi-həyatın yel qət' qılur. Şe'r:

Məqsudin əgər din isə dünyadan keç,
Allaha yapış, cümleyi-əşyadan keç.
Tapşur nami-əşkü şö'leyi-ahainan,
Yə'ni ki, səradan və Sürəyyadan keç.

Bu mühavirə, əsnasında Cəbrail nüzul edüb ayıtdı: "Ya Rəsulullah, hökmdür ki, Fatiməyi ol cəmiyyətə irsal edəsən ki, yümni-qüdumindən bə'zi əsrari-nihan münkəşif olsa gərək".

Həzrəti-Rəsul buyurdu ki, ey Fatimə, Cəbrail irsalinə fərman yetürdi, Fatimə ayıtdı: "Ya Rəsulullah, bəndə müxalifət yox idi, əmma mülahizə qılırdın ki, dünya matəmsərayi-axirətdir, bu matəmsərada surü sürura hazır olmaq nə münasib, çün hökmi-müta'i İzəd müəkkəd fərmani-şərəfinüz vaqe' oldu, dəxi nə çarə". Pəs, müqnə'eyi-iffət fərqi-mübarəkinə alub və çadiri-ismət pərdeyi-bədəni-lətif qılub, hücrədən afitabi-taban kibi tənha dışraya qədəm basdı. Şe'r:

Tulu' etdi bürcündən ol afitab,
Buraxdı cəmalindən afaqa tab.
Qədəm xaka basdıqda ol nuri-pak,
Qənadili-nur oldu əczayi-xak.

Xəvatini-ərəb dideyi-qürur açub mütərəssid və müntəzir idi ki, Fatimə çadiri-parə-parə və cameyi-rüq'ə-rüq'ə ilə gəlüb bizim səriri-rif'ətümüz və əfsəri-şövkətimiz gördükdə ətəşi-həsrət binayi-vücudin yaxacaqdır və seyli-sirişk mə'mureyi-həyatın yıxacaqdır. Nagah gördülər heybət və səlabətlə bir xatuni-üzma və banuyi-kübra əncümənlərinə sayeyi-sə'adət buraxdı ki, şə'şə'eyi-nuri-cəmalindən basirə xirə olub, dəbdəbeyi-həşmətindən dideyi-əql heyrət alur. Fərqi-mübarəki əklili-mürəssə'ylə gərdunsay və bədəni-lətifi dibayi-mülənvvənlə cilvənümay, səlasili-lə'alidən qürreyi-cəbini pürzivər və həmaili-mütəlladan sərvi-xuramanı barvər. Ətrafü cəvanibində məhvəş cariyələr və gülrüxsar xadimlər: kimi şəqqeyi-çadiri-ismətin ədəb əlilə götürmüş ki, xakdani-dünyadan qübaralud olmaya və kimi daməni-miqnəeyi-iffətin dut-

muş ki, xarzari-dəhrdən azar bulmaya, kimi xaki-rəhgüzarinə gülabəfşan və udsuz və kimi məsmərri-mürurində xaşakrub və şəm'əfruz. Əlqissə, ol əsasü əsbabla ol məcmə'ə qədəm basdıqda xəvatini-sənadidi-Qüreyş ol şükuhü şövkətə və zibü ziynətə mütəhəyyir qalub və kim olduğun bilməyüb, təvəqqüfsüz sədri-məclisi ana təslim qılub, ayəti-qürurləri mənsux və surəti-cəmiyyətləri məmsux olub, bir-birinə ayıtdılar: "Aya, bu nə şəhzadədür ki, qəbailimizdə görməmişüz və bu nə əsbabi-təcəmmüldür ki, daməni-təmlikinə dəsti-təsərrüf yetirməmişüz". Şe'r:

Kimdir aya bu ki, nurilə münir oldu cəhan,
Məhi-rüxsarinədir dideyi-dövran nigəran.
Özü sərvər, qədi dilbər, rəvişi canpərvər,
Oturur şəm', durur sərv, yürür ruhi-rəvan.

Rü'bü dəhşətləri rəf' olub, nəzəri-əmmül qıldıqda təhqiq etdilər ki, Fatimə binti-Rəsulullahdır, tərtibi-müqəddəmatları əksi-mətlub nəticə verüb, bə'zi ki, cibilliyyətlərində iştidadi-küfr rüsux bulmuşdu, ol kəramati-sehrə həml edüb tabi-nəzzarə gətürməyüb məclisdən çıxdı; və bə'zi ki, qabili-islah idi, zəbani-mə'zirət açub ayıtdılar: "Ey məxdumzadə, səfa gətürdün və bizi topraqdan götürdün, mə'akilü məşaribdən xatiri-mübarəkin nə istərsə hökm et hazır olsun". Fatimə dürci-cəvahirdən gövhəri-məva'izə nisar edüb ayıtdı: "Ey əizzeyi-Qüreyş. Şe'r:

Biz cəhanı paymal etmiş cahanpeymalərüz,
Qülleyi-Qafi-qəna'ət bəsləyən ənqalərüz.
Fəqrilə̈ndir fəxrimiz, dünyaya rəğbət qılmanuz,
Cifəyə meyl etmənüz, tutiyi-şəkkərxalərüz.

Bizim maideyi-fəqrdən qidamuz təsbihü təhlil və hasilimiz ol qidadan tə'zimü təbcil; və kəlimeyi-"Əcu'u yovmən və əşbə'u yovmən"[1] pedəri-büzürgvarım mübahatıdır və ne'mətivilayətü kəramət ol sülukin bərəkatıdür. Əgər bizim rizayi-xatirimüz məqsud isə, zülməti-kufrdən fəzayi-imana çıxun və xəlvəti-e'tiqadınızda şəm'i-iman yaxun".

Əksəri-hüzzari-məclis Fatimənin ləfzi-gövhərbarindən mütəəssir olub, ol kəramətləri müşahidə qılub müsəlman oldu və şərəfi-iman buldu.

Və bu surət "Şəvahidün-Nübüvvət"də məsturdur: Rəvayətdir ki, müddəti-hicrətdən bir il tamam olduqda Fatimə doqquz yaşına və bir rəvayətdə on dörd yaşına və bir rəvayətdə iyirmi yaşına yetmişdi və əkabirü əşrafi-Qüreyşdən təzvicinə rəğbət etdikcə ol Həzrət buyururdu ki, Fatimə təzvicində müntəziri-vəhyəm. "Kitabi-Mənaqibi-Əbül-Müəyyəd Xarəzmidə" məsturdur ki, Hafiz Əbül-Mə'ali-Hüseyn bin Əlidən nəql etmiş ki, bir gün Həzrəti-Rəsul Ümm Sələmə sarayində idi, [bir mələk nüzul etdi] ki, igirmi başı olub hər başında bin dili var idi və hər dililə müsəbbih və mühəllili-İzədi-Cəbbar idi; və kəfi-dəsti fəzayi-asimana müqabil, şəkli mühib və şəmaili hail. Həzrəti-Rəsul anı Cəbrail təsəvvür qılub ayıtdı: "Ey bərадər, hərgiz səni bu surətdə gərməmişəm". Mələk ayıtdı: "Ey məliki-mülki-risalət, bana Sərsail der-

[1] Bir gün ac və bir gün toxam.



lər. Həzrəti-Həq bəni irsal etdi bir nuri bir nura tapşırmağa, yə'ni Fatiməyi Murtəzayaəqd etməyə". Həzrəti-Rəsul həsbülhökmi-İlahi həm ol saətdə Cəbrail və Mikail şəhadətilə Fatiməyi Murtəzaya əqd etdi. Və Şeyx Tirmizi kitabi-"Nəzmi-Darüs-Sibteyn"də zikr edər Ənəs bin Malikdən ki: "Bir gün Həzrəti-Rəsul xidmətində idim, bəşəreyi-mübarəkində asarivəhy zahir olub mütəcəlli olduqda buyurdu ki, "Ey Ənəs, Cəbrail gəlüb bana bu pəyamı gətürdi ki: "İnnəllahə yə'murukə ən-tuzəvvicə Fatimətən bi-Əliyyin"[1]. Ayıtdı əşrafi-mühacir və ənsarı cəm' et". Bən dəxi əmri-şərifi müqtəzasincə sənadidi-Qüreyşi cəm etdikdən sonra ol Həzrət xütbeyi-bəliğ əda qılub ayıtdı: "Ey qövm, əmri-Vacibülvücud və hökmi-nafizi-Mə'bud cari oldu ki, Fatimeyi-zəhrayı Əliyyi-Murtəzaya əqd edəm sizin şəhadətinizlə". Pəs Əliyyi-Murtəzanı hazır edüb ayıtdı: "Ya Əli, Fatiməyi sənə verdim, dört yüz misqal nüqreyi-xalis mehrlə, qəbul etdinmi?" Əli ayıtdı: "Ya Rəsulullah, qəbul etdim".

Və bir rəvayət dəxi oldur ki, Həzrət dua qılub buyurdu ki, "Cəm'ə Allahu beynəkuma və əs'ədəkuma və barəkə əleykuma və əxrəcə minkuma kəsirən təyyibən"[2]. Və kitabi-"Mənaqibi-Xarəzmi"də məzkurdur ki, Cəbrail Həzrəti-Rəsulun xidmətinə gəlib behiştdən bir miqdar sünbül və qərənfil gətirüb ayıtdı: "Ya Rəsulullah, Həzrəti-İzəd buyurdu ki, səhnibehişt müzəyyən olub və nihali-Tuba bara gəlüb və məlikə ərzi-əsma günü Adəm xətib olduğu mənzildə cəm' olalar və hurü qılman məcmə'i-sur mürəttəb qılalar; və Rahil nam firiştə ki, hicabi-bargahi-rübubiyyətdən və ə'yani-dərgahi-üluhiyyətdəndür, nurdan minbər qurub zəbani-fəsihilə xütbeyi-nikah inşa qılub, Fatiməyi Murtəzaya əqd bağlaya və məlaikə güvah olub kitabi-divani-qəzada səbt edələr, bu surət vaqe' olub, bən ki, Cəbrailəm bu əqdnamənin surətin bir hərirə təhrir edüb xəzini-behiştə təslim etdim. Və mühimmi-əqd sərəncam olduqda müxəddərati-hücərati-behişt təbəq-təbəq sünbül və qərənfil nisar edüb və nihali-Tuba gətürdügü şükufələri üzərlərinə saçub və ərayisi-həvra hüləlü hilyələrin rəhgüzarlərinə buraxub, qaideyi-sur mürəttəb oldu və bu gətürdügüm sünbül və qərənfil ol nisarlərdəndür". Və bir rəvayət dəxi oldur ki, nihali-Tuba rüq'ələr nisar etdi; ol rüq'ələrin hər birində bir müxlisin ismi mərqum olub məzmunu bu ki, behişt ruzi-Qiyamət əshaba vasil qıla. Ya Rəsulullah, sən dəxi Fatiməyi Murtəzaya əqd et". Pəs Həzərti-Rəsul ol əmr mövcibincə Fatiməyi Murtəzaya əqd etdi. Və Ümm Sələməyə buyurdu ki, Əlinin hücrəsinə varıb Fatiməyi təslim etdi. Ümm Sələmə rəvan olduqda Həzrəti-Rəsul dəxi nəmaz edüb, mütə'əqib rəvan olub, bir kuzə su gətürüb və lüa'bi-şəhdamizlə məmzuc edüb, üzərinə müəvvizəteyn və münasib ayətlər oxuyub Həzrəti-Əliyə ol kuzədən vüzu qıldırub təcərrö' etdürdikdən sonra Fatimənin sineyi-bikinəsinə saçub ayıtdı ki: "Əllahummə inni ə'izuha [bəkə] və zurriyyətəha minəş-şeytanir-rəcim"[3]. Və bir miqdar dəxi Murtəzanun ə'zasinə saçub ayıtdı: "Əllahummə kəma əzhəbtə ənir-ricsə və təhhərtəni fətəhhirhuma"[4]. Andan sonra dışra çıxmaq istədikdə Fatimə giryan oldu. Həzrəti-Rəsul ayıtdı: "Ey cigərguşə, ağlama, əl-minnətü lillah, səni bir kimsənəyə vermişəm ki, qədri cəmi'i-xəlqdən füzun və elmi cümlədən ziyadədir, ol bənim əqrəbi-Əhli-Beytim və əfzəli-ə'vanım və əşrəfi-ənsarımdür. Ol Mə'bud həqqiçün ki, bənim nəf-

[1] Allah sənə Əli ilə Fatiməni evləndirməyi əmr edir.
[2] Allah sizi qovuşdursun, xoşbəxt və mübarək etsin, ikinizə çoxlu övlad bağışlasın.
[3] Onu və övladını şeytan şərindən Allahın pənahına apardım (Qur'an, 3, 36).
[4] Allahım, məni təmiz etdiyin kimi o ikisini də təmiz et!

sim anın qəbzeyi-qüdrətindədür ki, səni bir kimsənəyə vermişəm ki, sultandır dünyada və seyyiddir axirətdə". Fatimə ayıtdı: "Ya Rəsulullah, mən qilləti-mal və üsrəti-haldan əndişə qılub Əli canibindən məlalət çəkməzəm, əmma xidməti-şərifindən filcümlə müfariqət lazım gəlüb, riqqətim onunçündür". Şe'r:

Səndən ayrılmaq mə'azallah bir ölməkdir bana,
Bil ki, ayrılmaqdan ölmək bəlkə yegrəkdir bana.

Rəvayətdir ki, Həzrəti-Fatimənin cihazı iki ədəd qəmisi-bürd və iki bazubəndi-nüqrə və bir qətifeyi-müraqqə' və bir qədəh və bir asyasəng və bir ardbiz və iki səbu və bir məşk və bir məşrəbə və iki nihali [ki,] birinin həşvi tiraşeyi-səxtiyan idi və birinin lifi-xurmadan və dört ədəd balış: iki pəşmdən məmlu və ikisi lifi-xurmadan məhşu. İmam Seyf "Kitabi-Sünənül-Cami"də nəql etmiş ki, münafiqlərin biri Mədinədə Murtəzaya tə'n edüb ayıtdı: "Ey Əli, sən əşcə'i-əhli-zəmanə və fəridi-yeganəsən, nişə bir kimsənə ilə ittisal etdin ki, şami çaştinə vəfa qılmaz və çaşt bulsa şam bulmaz; əgər bənim ittisalım qəbul etsəydün, sərayimdən sərayinədək cihazla məmlu qılaydım və sənin mə'işətinə cəmi'i-ömrümdə kəfil olaydım". Həzrəti-Murtəza ayıtdı: "Ey gümrah, bu əmr bənim tədbirimlə degil, "Əl-hukmu lil-lahil-əliyyil-kəbir"[1]. Şe'r:

Ey mürəssə' tac məğruru olan, bil kim, fələk
Hər kimi aləmdə bir rəng ilə eylər xaksar.
Lə'l sanma kim, firibi-firqeyi-ətfal üçün,
Rəng vermişdir qara toprağa dövri-ruzigar.

Və heç şək yox ki, Həzrəti-İzəd əhsəni-əhval bizə lütf etmişdür və xəzaneyi-iltifatindən əfzəli-məvahib bizə yetmişdür. Şe'r:

Biz məta'i-mülki-dünyadan fərağət qılmışuz,
Kimyayi-fəqrdən kəsbi-səadət qılmışuz.
Qeyrə et, ey çərx, ərzi-cahü mülkü mali kim,
Biz qənaət əhliyüz, fəqr ilə adət qılmışuz.

Rəvayətdir ki, Həzrəti-Əli tə'neyi cühhaldan mütəəssir olmayub istiğna təriqin məsluk etməgin nida gəldi ki: "Ey Əli, mütəvəccihi-asiman olub tamaşa qıl". Həzrəti-Əli nəzərə qıldıqda gördü ki, payeyi-ərşdən fəzayi-fərşədək dürü gövhər və müşkü ənbər yüklü naqələr; hər birinin [məhari] bir pəriçehrə qulam əlində və hər birinin üzərində bir mahpeykər cariyə. Nida qılurlar ki: "Haza cihazi-Fatimə binti-Rəsulullah"[2]. Həzrəti-Murtəza bu mövhibət müşahidəsindən və bu səadət mülahizəsindən məğrur olub, mütəvəccihi-hərəmsəray olduqda Fatimə istiqbal edüb ayıtdı: "Ya Əli, bana ərz edənləri sənə dəxi ərz etdilər. Əlminnətü lillah, cihazı gördün". Şe'r:

Mülki-dünyada bizi cahil mühəqqər görməsün,
Biz bəqa mülkün müsəxxər eyləyən sultanlərüz.
Aləmi-mə'nidə ə'ladır qamudan qədrimiz,
Gərçi surətdə həqirü bisərü samanlərüz.

Rəvayətdir ki, bir gün Xaceyi-Aləm buyurdu ki, Süleyman nəbi damadına bir tac mürəttəb etmişdi yeddi yüz danə [inci] ilə mürəssə'. Həzrəti-Əli hücreyi-təharətə gəldikdə Fatiməyə nəql etdi. Fatimə istima' etdikdə xatiri-şərifinə xütur etdi ki, şayəd Əli cihazü cihati-düxtəri-Süleymanı ol əzəmətlə eşidüb və bənim cihazımı bu həqarətlə görüb xəyal edə ki, Həzrəti-Rəsul Süleymanca gəlməz. Bu dəğdəğə xatirində idi ol vəqtədək ki, aləmi bəqaya rehlət etdi.

Bir gecə Həzrəti-Əli vaqi'əsində gördü ki, behiştə bir mürəssə' təxt mənsub olub, ətrafında hura səf çəküb, Fatimə üzərində qərar dutmuş. Və bir düxtəri-büləndəxtər nəhayəti-hüsnicəmalla nisar üçün iki təbəq cəvahir mühəyya qılub, müntəzirdir ki, Fatimə ana nəzər qıla. Həzrəti-Əli Fatimədən sual etdi ki, aya, bu kimdür? Fatimə ayıtdı: "Ya Əli, bu Süleyman qızıdur. Həq-tə'ala bənim xidmətümə mə'mur etmişdir. Ya Əli, bu əzizənin bir gün cihazı hekayətin nəql etdün və bu əndişə bənim xatirimdə idi və ol əndişədən ələm çəkdigimin əcrinə bu səadət müyəssər oldu. Ya Əli, ol tac əvəzinə ki, Süleyman nəbi damadına mürəttəb olmuşdu, həmli-livayi-həmd bana müqərrər oldu. Və livayi-həmd bir ələmdir ki, xasseyi-Həzrəti-Rəsuldur. İrtifa'i həddən ziyadə olub üç şəqqəsi var: biri Məğribdə və biri Məşriqdə, biri Məkkə üzərində. Bir şəqqəsinün üzərinə yazılmış ki: "Bismillahir-rəhmanir-rəhim"[1] və birinin üzərində "Əl-həmdu lillahi rəbbi'l aləmin"[2], və birinin üzərində "Lailahə illəllah Mühəmmədən Rəsulullah"[3]. Nəqldür ki, ərəsati-qiyamətdə ol livayi hazır edüb nida qılalar ki: "Qandadur ümməti-Məhəmmədi-ərəbi, qandadur təvabe'i-Xaceyi-Haşimi? Və Həzrəti-Nəbi ol livayi mübarək əlinə alub, təmami-ənbiya və övliya və kaffeyi-əhli-islam ol liva altında cəm' olub, netə ki, buyurmuş ki: "Adəmu və zurriyyətihi təhtəllivai-yovməl-qiyaməti"[4] və fərqi-mübarəkinə nurdan bir taci-[səbz] örünüb və həriri-əxzərdən bir xəl'ət geyüb, Büraqa binüb və sair ənbiya dəxi səvar olub və ol ələmi Həzrəti-Əli əlinə verüb, mütəvəccihi-behişt olalar.

Rəvayətdir ki, Həzrəti-Əlinin fərqi-mübarəkində ol ələm bir tac [hey'ətində] məlhuz olunub, nida qılalar ki, "Ya Əli butac əfzəlmidür, yoxsa ol tac ki, Süleyman nəbi damadına vermişdi?".

İmam Nəcməddin [Ömər], rəziyəllahü ənhu,[5] rəvayət edər ki, bir gün Həzrəti Rəsul Fatimə hücrəsinə gəlüb, Fatiməyi məlul görüb, səbəbi sual etdikdə ayıtdı: "Ya Rəsulullah, üç gündür

[1] Hökm ulu və böyük Allahındır.
[2] Bu, Rəsulullahın qızı Fatimənin cehizidir.

[1] Mehriban və rəhimli Allahın adı ilə.
[2] Aləmlərin yaradanı olan Allaha həmd olsun.
[3] Allahdan başqa Tanrı yoxdur və Məhəmməd Allahın elçisidir.
[4] Adəm və övladı Qiyamət günü himayəm (bayrağım) altındadır.
[5] Allah ondan razı olsun.

ki, sarayımdə mə'kulat qismindən nəsnə yoxdur və Həsən və Hüseyn müztərib olmuşlar. Və bu əhvalı Həzrətünizdən məxfi dutaram, əmma bu gün Həsən və Hüseynin iztirabın [ziyadə] gördüm, derlər ki: "Aya, aləmdə heç tifl riyazəti bizim riyazətimizə yetərmi?" Ey pədəri-büzürgvar, Həzrətünizdən rüxsət olurmi ki, küstaxanə dərgahi-İlahidən bir təvəqqö' edəm. Xaceyi-Aləm ayıtdı: "Ey fərzənd, Həzrəti-İzəd müxlislərin küstaxlığın qəbul edər". Fatimə icazət edüb iki rik'ət namaz qılub, mübarək əllərin götürüb ayıtdı: "Ya Rəb, bilürsən ki, övratün və ətfalın riyazətə taqətləri olmaz, ya taqətimizcə möhnət müqərrər et, ya möhnətimizcə taqət müyəssər et". Bu duayı təmam etdikdə, zə'fdən bihuş olub, həm də ol saət Cəbrail nüzul edüb ayıtdı: "Ya Rəsulullah, Fatimənin naleyi-dilsuzi məlaikeyi-asimanı xüruşa gətürdi, fəryadına yet". Həzrəti-Rəsul hücrəyə girüb gördü Fatimə ixtiyarsız düşmüş. Fərqi-mübarəkin dizi üzərinə alub, pənceyi-qəmərşikafın sinəsi üzərinə qoyub dua qıldı ki: "Ya Rəb, Fatiməyi ələmi-cu'dən mühafizə qıl". Xaceyi-Kainatun rayiheyi-gisuyi-müşkbarindən istifadeyi-qürbət qılub kəndüsinə gəldikdə üzərində minbə'd ələmi-cu' ehsas etmədi. [Fatimədən nəql-dir ki: "Ol dua bərəkatindən həyatim olduqca kəndimi hərgiz ələmi-cu'ə mübtəla görmədim"].

"Dürəri-Mə'aric"də məsturdur ki, bir gün Həzrəti-Rəsul Fatimənin hücrəsinə gəlüb təfəqqüd təriqilə ayıtdı: "Ey fərzənd, halın nədür?" Fatimə ayıtdı: "Ya Rəsulullah, əlminnətü lillah, fəqrimiz bir qayətə yetmişdir ki, mənzilimizdə üç gündür əsəri-tə'am bulunmaz". Həzrət buyurdu ki: "Əllahummə ənzil əla Muhəmmədin və Əhli-Beytihi kəma ənzəltə əla Məryəmi binti İmran"[1]. Dedi: "Ey Fatimə, mətbəxə təvəccöh edüb mülahizeyi-hikmət qıl". Fatimə mətbəxə təvəccöh edüb, əqəbincə Həsən və Hüseyn rəvan olub gördülər cəvahirlə mürəssə' bir kasə içində bir miqdar tə'am. Fatimə ol kasəyi götürüb Həzrəti-Rəsul xidmətinə yetürdi və Həzrət buyurdu ki: "Qulu bismillah"[2]. Pəs, Nəbi və damad və Fatimə və Həsən və Hüseyn ol tə'amın tənavülinə məşğul oldular. Rəvayətdir ki, yeddi gün ol tə'amdan tənavül edərlərdi tükənməzdi; bir gün İmam Həsən hücrədən çıxub, əlinə bir miqdar ol tə'amdan alub, bir yəhudi övrət görüb tələb etdi. İmam Həsən kərəmi-cibilli müqtəzasincə imsak etməyüb iltifat etdikdə əsəri-ittila'i-naməhrəmdən ol kasə və tə'am qayib oldu və Həzrəti-Rəsul buyurdu ki, əgər bu halət vaqe' olmasaydı, hərgiz münqəte' olmazdı.

Bə'zi təfasirdə məsturdur ki, bir gün Həzrəti-Rəsul Fatimə hücrəsinə gəlüb ayıtdı: "Ey cigərguşə, üç gündür tə'am tənavül etməmişəm, mənzilində mə'kulat qismindən nə var?" Fatimə ayıtdı: "Ya Rəsulullah, bizə dəxi bu halət vaqe' olmuşdur". Həzrəti-Rəsul mə'yus çıxdıqda Fatimə xəcalət çəküb dua qıldı ki: "İlahi, məni bu xəcalətdən qurtar və bir tə'am kəramət qıl". Duaya müqarin Fatimə gördü ki, astaneyi-hücrədə bir qərib durub, bir kasədə bir miqdar tə'am bir xadimə verdi ki, bu hədiyyədir. Fatimə ol tə'amı alub, Hüseyni Rəsul ehzarinə rəvan etdi. Həzrət hazır olduqda ol tə'amı hüzurinə gətürdilər. Gördi ki, əsla ət'immeyi-dünyaya şəbih degil. Həzrət bu ibarətlə Fatimədən sual etdi ki, "İnni ləki haza"[3]. Həzrəti-Zəhra bu cavaba mülhim oldu ki: "Huvə min'indi'llah yərzuqu mən-yəşa'u biğeyri-hesabin"[4]. Bu xəbərdən Həzrəti-Rəsul münbəsit olub bildi ki, mətbəxi-qeybdəndir, şəraiti-sipas əda qılub

[1] Allahım, İmran qızı Məryəmə ne'mətini göndərdiyin kimi Məhəmmədə və Əhli-Beytə də göndər.
[2] Bismillah deyin!
[3] Bu sənə hardan gəldi?
[4] Allahdandır, Allah istədiyi kimsəyə saysız rizq verir ("Qur'an", 30, 37).



ayıtdı: "Ey cigərguşə, əlminnətü lillah ki, Həzrəti-İzəd sənə mərtəbeyi-binti-İmran nəsib etdi". Pəs, Əli və Fatimə və Həsən və Hüseyn ol tə'amdan tənavül edüb, sair Əhli-Beytə dəxi hissə irsal etdilər. Şe'r:

Nola gər ən'amını amm etsə xani-lütfdən,
Ol ki, xasü amm xani-lütfünün mehmanıdır.
Nola gər Məryəmdən əfzun görsə nəqdi-pakini,
Ol ki, İsa bir kəminə bəndeyi-fərmanıdır.

Və bu xəbər dərəceyi-vüzuha yetmişdür və bu nüktə cəmi'i-aləmdə iştihar etmişdür ki, Həzrəti-Rəsul Fatiməyi cəmi'i-Əhli-Beytdən ziyadə görüb, tə'zimində mübaliğə qılurdı. Və Həzrəti-Fatimə ol Həzrəti kəndü ruhi-şərifindən ə'əzz və əşrəf bilürdi.

Əmma raviyi-əxbari-cigərsuz və haviyi-asari-qəmənduz bu tərzlə tətmimi-hekayət qılmış və bu təriqlə [mütəmmimi]-rəvayət olmuş ki, Xaceyi-Aləm aləmi-fənadan mülki-bəqaya intiqal etdikdə zəminü zəman mütəzəlzil olub, qayəti-hərqəti-[zəmin cinnü] insü vühuşü tüyuru fəğana gətürdi. Və kəmali-riqqət təmami-nizami-aləmə xələl yetürdi və mərkəzi-xak fərqi-əflaka gərdi-məlalət saçdı və xəzini-nihanxaneyi-qəza afərinişi yüzünə əbvabi-küdurət açdı. Şe'r:

Dəhr nüzhətxaneyi-iqbalı viran eylədi,
Gənci-İslamı fələk topraqda pünhan eylədi.
Tey qılub rahət büsatın dəhrdən fərraşi-çərx,
Surəti-cəm'iyyətin xəlqin pərişan eylədi.

Bu vaqieyi-hailə və hadiseyi-nazilə vüqu bulduqda və cəmi'i-əhli-aləm növhəyə məşğul olduqda, Həzrəti-Murtəza Fatiməyi-Zəhraya ayıtdı: "Ey cigərguşeyi-Həzrəti-Xeyrül-Bəşər və ey zübdeyi-ərbabi-Peyğəmbər, təhacümi-məsaibdə təhəmmül şiveyi-ərbabi-vəfa və [tüğyani]-nəvaibdə təsəbbür qaideyi-Əhli-Beyti-Mustəfadır. Olmaya ki, hücumi-seylabi-sirişk pərdeyi-hicabı afitabi-cəmalindən buraxub və atəşi-ahi-cigərsuz xirməni-səbr qərarın yaxub, sədayi-fəğanindən naməhrəmlər xəbərdar olalar və surəti-iztirabindən bidərdlər fərəh bulalar. Səbr et və təhəmmül pişə qıl ol zəmanadək ki, afitabi-aləmtab Həzrəti-Rəsulullah kibi münzəviyi-zaviyeyi-hicab və sayənişini-səhabi-niqab olub və asiman zümreyi-əhli-matəm kibi cameyi-müşkfam geyüb, rüxsarində qətərati-sirişki-kəvakib zahir qılub tərəddüdi-naməhrəm münqəti ola və hər kimi məqamında təskin bula. Ol vəqt Həzrəti-Mustəfanın məzari-şərifin ziyarət edüb, dərdi-dilin ərzə yetür və suzü güdazla ol Həzrətə şəm'i-məzar olub, keyfiyyəti-mafiz-zəmirin zəbana gətür". Şe'r:

Ey xoş ol saət ki, dildar ola, dəyyar olmaya,
Yar ola xəlvətdə, ətrafında əğyar olmaya.
Yar halın yara izhar etməyə fürsət bulub,
Müddəi agah, naməhrəm xəbərdar olmaya.

Həzrəti-Fatimə Murtəzayi-Muctəbanın nəsihətindən təcavüz etməyüb ol daği-nihanla qanlar udub və suzi-dilini pünhan dutub qönçeyi-lalə kibi növbahari-və'dəyə müntəzir və mütərəssid olub səbr etdi ol vəqtədək ki, çirağı-xəlvətxaneyi-tarəmi-çaharüm intifa bulub, şiddəti-zülmətdən qəriblər fəğanı asimana yetdi. Həzrəti-Zəhra şiddəti-qəmdən bihuş ikən göz açub Həzrəti-Murtəzaya təzərrö etdi ki: "Ya Əli, nə vəqt ola?" Murtəza Əli ayıtdı: "Ey Fatimə, şəbi-deycurdan bir sumn keçmişdür". Fatimə ayıtdı: "Ya Əli, rüxsəti-ziyarət müyəssər olurmu? Murtəza ayıtdı: "Ey Fatimə, rüxsət müyəssər olur, bu şərtlə ki, sədayi-bülənd ilə fəğan etməyəsən". Pəs Fatimə qiyama gəlüb, Həzrəti-Murtəza hidayət qılub rövzeyi-mübarəkə gəldilər və dideyi-Zəhra ki, mərqədi-Mustəfaya düşdü, fəryadü fəğani mələ'i-ə'laya irişdi; əyaqdan düşüb, bu sürudla mütərənnim və bu əda ilə mütəkəllim oldu. Şe'r:

Ey fələk, darüş-şəfayi-şər'i viran eylədin,
Əhli-dərdi mübtəlayi-daği-hirman eylədin.
Pərdeyi-idbara çəkdin çehreyi-iqbalimi,
Cəm' edüb yüz qəm bana halım pərişan eylədin.
Asimani-şər' xurşidinə göstərdin zəval,
Mahi-mülki tirə topraq içrə pünhan eylədin.
Gər desəm, kafirsən, ey gərdun, əcəb yox nişə kim,
Qəsdi-qətli-müqtədayi-əhli-iman eylədin.

Zar-zar ağladıqca Həzrəti-Murtəza təskin verüb derdi: "Ey Fatimə, [növhədən səbr] ə'la və əsvəbdir və cəza'dən təhəmmül övla və əsvəbdir". Fatimə ayıtdı: "Ey əmmzadeyi-əziz, bəni mən' etmə ki, əfzəli-cəhanun müfariqəti ə'zəmi-məsaibdür".Və bu bir beyt Həzrəti-Rəsulullah mərsiyəsində Həzrəti-Zəhradan sadir olan əbyatdəndür. Şe'r:

Sübbət 'əla məsaibun ləv-ənnəha,
Səbbət ə'ləl-əyyami sirnə ləyaliya[1].

Nəqldür ki, mərqədi-mübarəkdən bir qəbzə xak alub, dideyi-əşkbarinə dutub ağazi-növhə qıldı bu məzmunla ki. Şe'r:

Hicri bağrım qan edən gülbərgi-xəndanım qanı?
Rahəti-cani-həzinü cismi-suzanım qanı?
Dideyi-nəmnakimə tar oldu aləm, ey fələk,
Ləm'eyi-rüxsari-xurşidi-dirəxşanım qanı?

Və bu xəbər səhhətə yetmişdir ki, Həzrəti-Rəsulun vəfatından sonra hərgiz Fatimə təbəssüm etməmişdür və mütləq səfheyi-xatirindən küdurət getməmişdür; ol qayətdə ki, bir gün əhli-Mədinə əfğanindən müt'əzzi olub dedilər: "Ya binti-Rəsulullah, ya gündüz nalə qılub gecə

[1] Başıma elə müsibətlər gəldi ki, gündüzün başına gəlsəydi, gecəyə dönərdi!



aram dut, ya gecə növhəyə məşğul olub gündüz təhəmmül et ki, xəlqə bir vəqt rahət mümkün ola". Həzrəti-Zəhra xəlqin ol iltimasın qəbul edüb gecələr növhə qılub, gündüz daği-səbrlə cigərin dağlayub təhəmmül edərdi. İmam Cə'fəri Sadiqdən nəqldür ki, ifrati-girya beş kimsənədə münhəsirdir: biri Adəm ki, behişt fəraqindən nalan idi və biri Yə'qub ki, Yusuf hicrindən giryan idi və biri Yusuf ki, Yə'qub yadilə pərişan idi və biri Fatimeyi-Zəhra ki, Həzrəti-Rəsulun atəşi-fəraqindən büryan idi və biri Əliyyi-Zeynəlabidin ki, qırx il vaqieyi-Kərbəladan sonra layənqəte' sirişkəfşan idi". Rəvayətdir ki, Müflih nam bir bəndəsi olub, bir gün ayıtdı: "Ya İbni-Rəsulullah, olmaya ki, bunca giryəndən həlak olasan?" Dedi: "Ey Müflih həqqa ki, girya bana biixtiyar gəlür, hərgah ki, mə'rəkeyi-Kərbəlada validi-büzürgvarimin və ixvanü ə'mami-alimiqdarinin təşnələb şəhid olduqların və övratü ətfali-Əhli-Beytin güruhi-füccara əsir olub ihanət çəkdiklərin yad edərəm, kəndümi giryədən mühafizət qıla bilməzəm". Şe'r:

Düşdükcə yadimə ələmi-dəşti-Kərbəla,
Könlüm fəğanü naləyə biixtiyar olur.
Gəldikcə yadimə ləbi-xüşki-şəhi-şəhid
Biixtiyar çeşmi-tərim əşkbar olur.
Əyyam üçün bəlalərə salmışdürür bəni,
Bən gördügüm bəlaləri kim görsə zar olur.

Əlqissə, Həzrəti-Rəsulun vəfatindən bir rəvayətdə üç ay keçdikdə və bir rəvayətdə altı ay keçdikdə bir gün Həzrəti-Murtəza mənzilinə gəlüb gördü ki, Fatimə bir miqdar xəmir edüb və övladi-əmcadinin gisulərin yumağa bir miqdar gil müxəmmər qılub və rəxtlərin yumağa bir miqdar su hazır etmiş. Həzrəti-Murtəza ol halətə heyrət edüb ayıtdı: "Ey məxdumeyi-zəman və ey müxəddəreyi-cəhan, hərgiz dünya əşğalinə sənin bu miqdar iltifatın görməmişəm; aya, bu nə hikmətdür ki, bu gün üç əməl əncaminə iqdam etmişsən?" Həzrəti-Zəhra qətərati-əşk dideyi-əşkbarindən töküb ayıtdı: "Ey tacdari-Həl-Əta və ey şəhsüvari ərseyi-La-Fəta, və ey xətibi-minbəri-Səluni və ey varisi-mərtəbeyi-Haruni və ey güli-baği-"Vali mən vallah"[1] və ey atəşi-daği-"Adi mənə'dah"[2] və ey tirazi-məsnədi-sidqü səfa və ey razdari-Həzrəti-Mustəfa və ey şiri-bişeyi-həqiqət və ey kəştiyi-lücceyi-təriqət və ey şükufeyi-gülzari-Əbu Talib və ey əsədullahi-ğalib və ey mehtərü behtəri-əhli-zəminü zəman və ey mə'dəni-cövhəri-Hüseynü Həsən, "Haza fəraqun beyni və beynəkə"[3] rə'yi-üqdəgüşay və zəmiri-aləmarayinə məxfi və məstur buyrulmaya ki, rişteyi-ittisali-suri miqrazi-qəza ilə inqita bulub və müddəti-müqaribəti-məcazi müruri-ömrlə münqəzi olub, vəqt oldu dəsti-təəllüqüm daməni-dövləti-mülazimətindən dur və dideyi-ümidim müşahideyi-pərtövi-cəmalindən məhcur ola. Şe'r:

Vəqt oldu ki, şami-hicr ola sübhi-vüsal,
Təğyirpəzir ola bu keyfiyyəti-hal.

[1] Ona dost olana dost ol!
[2] Ona düşmən olana düşmən ol!
[3] Səninlə mənim aramda fərq budur.

Vəqt oldu ərusi-vəsl olub pərdənişin,
Ərz eyləyə şahidi-qəmi-hicr cəmal.

Ey Əli, dün gecə Həzrəti Rəsulullahı vaqiəmdə gördüm, balinim üzərinə durub, hər tərəf mülahizə qılub fəryada gəlüb ayıtdım: "Ya Rəsulullah, fəraqindən həlak oldum, aya qandasan?" Həzrətül-Rəsul ayıtdı: "Ey Fatimə, sənə bəşarət verməyə gəlmişəm, dəmdir ki, rabiteyi-qeydi-həyati-müstə'ari qət qılub, məzyəqi-təngnayi-fənadan fəzayi-bəqaya qədəm basasan. Ey Fatimə, sən gəlməyincə getməzəm. Əgər dövləti-vüsalim istərsən, şitab eylə və sə'y qıl ki, yarın gecə bana mehman olasan". Və bən bidar oldum və hala ol ümidlə müvtəvəccehi-aləmi-bəqayam. Ya Əli, əgərçi sənin atəşi-ələmi-fariqətin cigərsuzdur və möhnəti-müba'idətin qəmən-duz, əmma ol Həzrətin dəxi müjdeyi-vüsalı dilfiruzdur; ətmək tədarükün etdiğum oldur ki, yarın sən müsibətimə məşğul olduqda övladım əndişeyi-qida çəkməyələr və rəxt yuduğum oldur ki, bəndən sonra qeyrlərdən məmnun olmayalar. Gisulərin yuduğum oldur ki, mə'lum degil ki, məndən sonra qəmxarlıqların kim edə".

Ey əziz, Fatimə onların gisularına qübar qonmaqdan mükəddər olurdu [və camələri gərdalud olmaqdan izhari-məlalət [qılurdı.] Ah, əgər görsəydi dəşti-Kərbəlada rüxsarləri ağüşteyi-xakü xun və bədənləri xuni-cigərdən laləgun. Şe'r:

Kərbəla dəştində Xatuni-qiyamət, ah, əgər
Qərqi-xun görsəydi Şahi-Kərbəlanın halini.
Hiç şək yox kim, qılurdı Kərbəla toprağini,
Qərqi-xun, gözdən tökübseylabi-əşki-alini.

Əlqissə, Murtəza Fatimədən ol xəbəri-cangüdazi istima' etdikdə əşki-nədamət dideyi-qəmdidədən rəvan edüb ayıtdı: "Ah, bu nə möhnəti-mücəddəddür ki, yenə yüz verdi və bu nə bəlayi-qeyri-mukərrərdür ki, yenə fələk zühura gətürdi. Ey Fatimə, hənuz validi-büzürgvarın daği-fəraqı mərhəmpəzir olmadan və pədəri-alimiqdarın ələmi-iştiyaqı təskin bulmadan sən dəxi cana bir daği-tazə yaxmaq və dili-virani saiqeyi-müsibətlə yaxmaq rəvamıdur?" Şe'r:

Ah kim, hər dəm fələk dərd üzrə dərdim arturur,
Göstərür bir dərd, bir dərdinə dərman etmədən.
Bağrımı büryan edər hər ləhzə bir bərqi-bəla,
Bir bəlaya hüsni-tədbir ilə dərman etmədən.

Fatimə ayıtdı: "Ey Əli, ol müsibətdə [səbr etdin, bu möhnətə] dəxi təhəmmül qıl və bir zəman bəndən qafil olma və ri'ayətimdə tə'əllül qılma ki, axır nəfəsdir". Bu kəlimatı əda qıldıqca nəmi-dideyi-əşkbarla şahzadələr rəxtlərin tər qılurdı və atəşi-ahla əkmək üçün tənuri gərm edərdi və derdi: "Ey cigərguşələr, aya bəndən sonra sizin halınız nolur?" Həsən və Hüseyn bu xəbərdən mütəəllim olub girya ağaz etdilər. Fatimə ayıtdı: "Ey nuri-didələr, bir zəman guristani-Bəqi'ə varub bənim üçün dua qılun". Onlar mütəvəccih olduqda bəstəri-istətə təkyə qılub Murtəzaya ayıtdı: "Ey həmsəri-xücəstəliqa, vəqti-vida'dür, həlal et". Həzrəti-Əli ahi-həsrət çəküb ayıtdı. Şe'r:

Va həsrəta ki, yaxdı bəni atəşi-vida',
Ya Rəb ki, münqəte' ola ayini-inqita'.

Bu hala müqarin Əsma binti-Ümeyşəyi tələb qılub dedi: "Ey Əsma, bir tə'am mühəyya qıl ki, cigərguşələrim mü'avidət qıldıqda tənavül qılalar və qoyma ki, bənim yanıma gələlər və bəni bu halla görüb pərişan olalar".

Əlqissə, şahzadələr guristani-Bəqi'dən müraciət qıldıqda Əsma istiqbal edüb anlara tə'am təklif etdikdə şahzadələr ayıtdılar: "Bizim hərgiz validəmizdən ayrı tə'am tənavül etdigimiz yoxdur". Əsma ayıtdı: "Ey əzizlər, validənizin cüzvicə küdurəti var, siz tə'am tənavül edin". Dedilər: "Ey Əsma, bizə validəmizdən cüda tə'am sazgar olmaz". Əlqissə, tərki-tə'am edüb hücrəyə gəldikdə gördülər Fatimə təkyə qılub, Həzrəti-Əli balini üzərində giryan oturur. Şahzadələrə ayıtdılar: "Ey cigərguşələr, bir zəman Rövzeyi-Rəsulullah üzərində varub dua qılın". Şahzadələr ita'ət qılub rəvan olduqda Fatimə ayıtdı: "Ya Əli, bir zəman bəndən qafil olma ki, əncami-ömrdür". Şe'r:

Həyatimdən həman bir dəm qalıbdır olma qafil kim,
Müyəssər ola zövqi-dövləti-vəslin dəmi-axir.
Həyati-müstə'arim kisvətin tarac edüb gərdun,
Kəfəndən əynimə geydirmək istər xəl'əti-faxir.

Həzrəti-Əli ayıtdı: "Ey Fatimə, bu xəbər istima'inə qüdrətim yoxdur". Fatimə ayıtdı: "Bu xəbər vaqi'eyi-bitədbir və hadiseyi-bitə'xirdir". Şe'r:

Sındırdı nihali-ömrümü badi-əcəl,
Can mürğinə dam qurdu səyyadi-əcəl.
Tən rabitəsin ruhdan istər qıla qət'
Şəmşiri-siyasət ilə cəlladi-əcəl.

Fatimə Əli kənarində bihuş olub, bir zəmandan sonra özünə gəlüb, Əlini giryan görüb ayıtdı: "Ya Əli, həngami-tə'ziyət deyil, zəmani-vəsiyyətdir". Əli ayıtdı: "Ey Fatimə, vəsiyyətin nədir?" Fatimə ayıtdı: "Dörd vəsiyyətim var: biri ol ki, bəndən sənə nisbət bir tərki-ədəb vaqe' oldusa, əfv edəsən". Əli ayıtdı: "Haşa ki, səndən tərki-ədəb sadir olmuş ola; həmişə sən bənim qəmxarım idin və peyvəstə qəmgüsarım". Dedi: "İkinci vəsiyyət oldur ki, bənim övladımı möhtərəm dutub anlardan bir küstaxlıq sadir olsa, təcavüz qılasan və üçüncü oldur ki, bəni gecə vəqtində dəfn edəsən ki, zəmani-həyatimdə dideyi-naməhrəmdən məstur olduğum kibi, hini-vəfatimdə dəxi nə'şimə ənzari-pərişan mütə'əlliq olmaya və dördüncü vəsiyyətim oldur ki, bənim ziyarətimdən qədəm çəkməyəsən və həmişə bəni duadan unutmiyəsən". Şe'r:

Çün bəni səndən fələk naçar məhcur eyləyə,
Xaki-payindən bəlakeş başumı dur eyləyə.
İltimasım səndən oldur kim, qübari-məqdəmin,
Ruhimi bir dəm mülaqatilə məsrur eyləyə.

Bu vəsaya əsnasində Həzrəti-Əli fəryada gəlüb zəbani-hal ilə ayıtdı. Şe'r:

Dildar buraxdı tərhi-qəmxaneyi-hicr,
Saqiyi-zəmanə dutdu peymaneyi-hicr.
Dərda ki, sərayi-vəsl ikən təkyəgəhim,
Vəqt oldu məqamım ola viraneyi-hicr.

Ayıtdı: "Ey Fatimə, sənin vəsiyyətlərin dərəceyi-qəbula yetidi, əmma bənim dəxi sənə üç vəsiyyətim var, ərz edəyim. Biri ol ki, bəndən sənə təqsiri-mülazimət vaqe' oldusə, Həzrəti-Rəsula şikayət qılmayasan; ikinci ol ki, Həzrəti-Rəsulullaha səlamımı yetürəsən; üçüncü oldur ki, bəndən ol Həzrətə izhari-şükr edəsən".

Fatimə Əlinin vəsiyyətlərin qəbul edüb mükalimə qılmaqda ikən nagah bir xüruşü qülqülə sədası gəldi. Həzrəti-Əli mütəvəccih olduqda gördü Həsən və Hüseyn "Va ummah va musibətah"[1], – deyüb fəryad edərək gəldilər. İztirabla hücrə qapusinə gəlüb ayıtdı: "Ey cigərguşələr, bu nə halətdir?" Ayıtdılar: "Ey dəri-mədineyi-elmi-Rəsuli-Xuda və ey şiribişeyi-La-Fəta, validəmizlə vida' etməgə gəlmişüz". Həzrəti-Əli ayıtdı: "Ey nuri-didələr, nə bildinüz [ki, validəniz] bu halətdədür?" Dedilər: "Ey pədəri-büzürgvar, sənin fərmani-şərifin müqtəzasincə Rövzeyi-Rəsulullah ziyarətinə mütəvəccih olduqda səm'imizə bir səda irişdi ki, "Fatimə yetimləri gəldi". Nagah mərqədi-mübarəkdən nida gəldi ki: "Ey nuri-didələr, təvəqqüf etməyüb müraciət qılun ki, validəniz didarinə müşərrəf olub vida edəsiz; zira mütəvəccihi-aləmi-axirətdir və hala İbrahimi-Xəlil və İsmaili-Zəbih və Musiyi-Kəlimullah və İsayi-Ruhullah və sair ənbiyayi-mürsəl və ərvahi-qüds onun ruhi-pakının istiqbalinə gəlmişlər". Biz bu xəbərdən mütənəbbih olub iztirabla müraciət qıldıq. Bu sözü deyüb Fatimənin ayağına düşüb növhə bünyad edüb təzərrö etdilər ki: "Ey məxdumeyi-möhtərəmə, dideyi-iltifat açub bu qürbət mübtəlalarinə bir nəzər qıl və göftara gəlüb bu badiyeyi-bəla sərgəştələri ilə təkəllüm et". Şe'r:

Bir nəzər qıl kim, dəvayi-dərdi-bimari-fəraq,
Bir nəzərdir nərgisi-mərdümşikarindən sənin.
Bir təkəllüm qıl ki, ərbabi-mətalib məqsədi,
Bir təkəllümdür ləbi-gövhərnisarindən sənin.

Avazləri Fatimənin səm'i-mübarəkinə irişüb, dideyi-mərhəmət açub, anları kənarinə çəküb, qətərati-əşki-həsrət dideyi-əşkbardan töküb ayıtdı: "Ey yetimlər, aya bəndən sonra sizin keyfiyyəti-əhvalinüz nolur?" Ol əsnada cəmi'i-övladı cəm edüb, zükurun ünasa və ünasın

[1] Vay anam, vay müsibətlərim!



zükura əmanət təriqilə təslim edüb və məcmu'in Həzrəti-Murtəzaya tapşurub və cümləsin Vacibülvücuda mövdu edüb və hər vəchlə var isə Həsən və Hüseyni bir dəxi Rövzeyi-Rəsul üzərinə göndərüb, Ümm Sələmədən su istəyüb, qüsl edüb, əfxəri-libasin geyüb, vəsəti-sərayində fəraş buraxdurub təkyə qıldı canibi-eymənə və bazuyi-yəmin rüxsarinə baliş edüb Əsma binti-Ümeyşə ayıtdı: "Bir gün hini-mərəzdə Cəbrail Həzrəti-Rəsul xidmətinə gəlüb, behiştdən bir miqdar kafur gətirüb və ol Həzrət bir qismin kəndüsinə hifzi-kəfən qılub bir miqdarin bənim üçün və bir miqdarin Əli üçün bana təslim etmişdi və filan məhəldədir, gətür ki, kəndü hissəmi alub Əli hissəsin sənə təslim edəyim". Əsma binti-Ümeyşə həsbülfərmudə ol kafuri gətirüb, kəndü hissəsin alub Əsmaya ayıtdı: "Bir zəman dışrə çıx ki, bənim Mə'budumla razi-dilim ərz edəcək zəmandır". Əsma dışrə çıxdıqda istima etdi ki, Fatimə derdi: "Ya Rəb, Rəsul hörməti həqqiçün və Əliyyi-Murtəza qədriçün və övladi-mə'sumim kəramətləri içün ki, ümməti-günahkarə rəhmət qılasan və asilər cərayiminə qələmi-əfv çəküb mütərəhhim olasan". Bu halətdə Əsmaya girγə qalib olub, Fatimə anın giryəsindən xəbərdar olduqda ayıtdı: "Ey Əsma, demədimmi bir zəman bəni halümə qoy və bir zəmandan sonra təfəhhüs et: bəndən avaz gəlürsə yanümə gəl və əgər gəlməz isə bilmiş ol ki, Pərvərdigarimə vasil olmuşam". Əsma bir zəman dışrədə təvəqqüf etdikdən sonra nida qıldı ki: "Ya qürrətül'əyni-Rəsulullah!" Cəvab eşitmədi, bir dəxi dedi: "Ya seyyidün-nisa!" Cəvab eşitmədi, iztirabla hücrəyə girüb rüxsari-mübarəkindən cameyi-xab alub gördi ki, aləmi-bəqaya intiqal etmiş. Və Əsma müztəribhal olub fəğana gəldikdə Həsən və Hüseyn hazır olub ayıtdılar: "Ey Əsma, validəmiz halı nədür?" Əsma səbr etməyüb başından miqnə'əsin buraxub, giribanın çak edüb, şahzadələr bu vaqi'ədən xəbərdar olduqda kəsrəti-iztirabla Həzrəti-Murtəza xidmətinə mütəvəccih oldular. Həzrəti-Murtəza əşrafla ibadətdə ikən Həsən və Hüseyn fəryadın istima' etməyin surəti-haldan xəbərdar olub bihuş olduqda, hüzzari-məclis Həsən və Hüseynə ayıtdılar: "Ey şahzadələr, bu nə əfğandır ki, şiri-bişeyi-şüca'əti və əjdəhayi-fəzayi-vilayəti ayaqdan buraxdı?" Ol şahzadələr ayıtdılar: "Necə ağlamayalım və necə fəryad etməyəlüm ki, sərvi-riyazi-isməti sərsəri-əcəl paymal etdi, növbəhari-iffət və təharətə xəzani-fəna təğəyyüri yetdi". Şe'r:

Bizi fəryada gətürdi fələki-kəcrəftar,
Necə əfğanlar edüb qılmayalım naləyi-zar?!
Verdi cəm'iyyəti-əhvalimizə dövr xələl,
Saldı ayineyi-iqbalimizə dəhr qübar.
Qıldı növmid bizi səbzeyi-pəjmürdə kibi,
Fərqimizdən götürüb sayəsini əbri-bəhar.

Ey əshabi-qəmxar və əhbabi-qəmgüsar, Zəhrayi-[əzhər] və Bətuli-mütəhhər qafileyi-"İrcə'i ila rəbbikə raziyətən mərziyyə-tən"[1] rəfaqətilə canibi-Darüs-Səlama "Vallahu yəd'u ila daris-səlam"[2] müqtəzasincə təvəccöh qıldı və təngnayi-məziqi dünyadan ruyi-iradət münhərif edüb, meyli-gülzari-Xüldi-Bərin və məcami'i-ə'layi-'illiyin və xidməti-seyyidül-mürsə-

[1] Sən ondan, o da səndən razı olaraq Rəbbinə tərəf dön ("Qur'an", 89, 28).
[2] Allah istədiyini cənnətə də'vət edər ("Qur'an", 5, 25).

lin etdi. Təmamiyi-əshabü əhbab surəti-halə ittila' bulduqda Həzrəti-Murtəzayla ittifaq edüb, ağazi-növhə qıldılar və Həzrəti-Murtəza bu müsibətdə bir mərsiyə inşa qıldı ki, bə'zi əbyatı budur. Şe'r:

Li-kulli ictima'in min-xəlileyni firqətun,
Fə-kullul-əza dunəl-firaqi qəlilun.
Və innə iftfiqadi Fatimətə bə'də Əhmədin.
Dəlilun 'əla ən-la-yədumə xəlilun[1].

Əhməddən sonra Fatiməni də qeyb etməyim dostluğun davam etməməsinə dəlalət edir.

Yə'ni hər ictimaə bir iftiraq müqərrərdür və hər bəla fəraqa nisbət mühəqqərdir və Həzrəti-Rəsuldan sonra Fatimə fövti dəlildür ana ki, heç cəmiyyətin dəvamı olmaz və heç ülfət səbat bulmaz. Şe'r:

Qayəti-dövri-ruzigar budur,
Hali-dövrani-bimədar budur
Ki, fəraqa mübəddəl ola vüsal.
Yetə aləmdə hər kəmala zəval.

Filvaqe', gər nəzəri-tə'əmmül qılsan, Zəhrayi-əzhər vəfatı Həzrəti-məzlumi-Kərbəlaya nisbət əşəddi-məsaib və əs'əbi-nəvaibdür, zira hənuz nihali-təbiəti gülşəni-surətdə nəşvü nəma bulmadan və hilali-vücudi-şərifi asimani-xilqətdə bədri-təmam olmadan validevi-müşfiqinün sayeyi-mərhəməti və madəri-mehribanın zilli-rif'əti fərqi-mübarəkindən götürüb və anın tərbiyətin fələki-bimürüvvət qeyrə möhtac edüb, bəlalara mübtəla və möhnətlərə aşina qıldı. Şe'r:

Hər zəman üşşaqı bir dərd ilə dövran zar edər,
Bu çəmən hər ləhzə bir möhnət gülün izhar edər,
Dərd tə'limin verüb gərdun təriqət tiflinə,
Bu bəlalar dərsdir kim, dəmbədəm təkrar edər.

[1] İki sevgilinin birləşməsi ayrılıqla qurtarar. Başqa iztirabın tə'siri ayrılıq acısından azdır.



**BEŞİNCİ BAB**

**HƏZRƏTİ-MURTƏZA ƏLİ VƏFATIN BƏYAN EDƏR**

Həzrəti-mühəymini-mütə'al və məliki-biintiqal əmmət ətiyyatihi və təbət bəliyyatihi kəlami-mö'ciz nizamda buyurmuş ki: "Və la-təhsəbən-nə'lləzinə qutilu fi-səbil'illahi əmvatən bəl əhya'ən ində rəbbihim yərziqun"[1] zahirən bu ibarətün mətlə'i-məzmunindən lame' olan afitabi-sirri-hikmət və bu kəlamın çeşmeyi-məfhumindən tərəşşüh qılan zülali-mə'rifət oldur ki, meydani-'əna gülzari-rəyahini-ətadür və şəmşiri-fəna çeşmeyi-zülali-bəqa. Hər ayinə küffar əlində ölmək abi-həyatın zülməti-cəfaya iqdam edüb, küffar əlində olan şərbəti-şəhadət içməkdən ibarətdür. Şe'r:

Ləzzəti-ənduhü zövqi-dərd idrak eyləyən
Eyşi-dəhrü işrəti-dünyayə pərva eyləməz.
Şahidi-feyzi-bəqa hüsnün təmaşagah edən
Nəqşi-zail surəti-fani təmənna eyləməz.

Mücmələn, zəbani-süluki-ərbabi-hal və lisani-hali-əshabi-süluk ittifaqla bu məzmuna guyadür və bu mə'naya çehrəgüşadır ki, qəbuli-riyazat və irtikabi-məsaib cəmiyyəti-əsbabi-rahət və neyli-istifayi-mətalibdən övladür. Lacərəm firqeyi-ənbiya ki, səbqəti-iqbali-təqərrüb bulmuşlar, ixtiyarla saliki-təriqi-müsibətü bəla olmuşlar və zümreyi-məşayixi-ərbabi-inkişaf ki, seyri-aləmi-vəhdət qılmışlar, möhnəti rahətdən müqəddəm bilmişlər və kaffeyi-hükəma ki, bali-istidlal ilə həzizi-imkandan övci-idraki-mə'rifəti-vücuba pərvaz etmişlər, daməni-tərki-tə'əllüqat və təriqi-nəfyi-tənə'ümat dutmuşlar. Şe'r:

Bəla bali-şəhbazi-iqbal olur,
Səfabəxşi-ayineyi-hal olur.
Gülü nərgisü-gülşəni-e'tibar,
Dili-çakdür dideyi-əşkbar.

Filvaqe', xəzaneyi-hikmətdə bəladan əşrəf gövhəri-nəfis olsaydı, əhibbayi-Həzrəti-İzzət ana talib olurlardı və xani-hikmətdə müsibətdən ənfə'nəvalə surəti-ehtimal bulsaydı, xəvassi-bargahi-qürbi-İlahi ana rəğbət qılurlardı. Şe'r:

Anı görmə ki, fələk bir neçə dəm,
Kimə həmdəm fərəh eylər, kimə qəm.
Anı gör kim, çıxacaq aləmdən
Kim fərəhdən çıxarü, kim qəmdən.

[1] Allah yolunda öldürülənləri ölü sanmayın, onlar diridirlər və Allahın yanında ne'mət sahibləridirlər.

Əlhəq, isbati-istehsani-bəlaya bu şahid yetər və hüccəti-istilayi-rütbeyi-müsibətə bu istidlal kifayət edər ki, bəla ənbiya və övliya mülazimətində dərəceyi-kəmal bulmuş və müsibət məhrəmi-sərapərdeyi-nübüvvət və vilayət olub, Əhli-Beyt ixtisasinə müşərrəf olmuş. Ol cümlədəndür Həzrəti-Şahi-Vilayət Əliyyi-Murtəzanun i'tilayi-rütbeyi-ibtilası və bidayəti-ömrdən nihayətədək meydani-bəlada iste'layi-dərəcati-möhnətü bəlası. Əsəhhi-əqavili-mənqulə və əsəddi-əsanidi-məqbulədən müstəfad olub "Şəvahidün-Nübüvvət"də məsturdur ki, Həzrəti-Əli bin Əbi Talib imami-əvvəldir ə'immeyi-isna əşərdən və mənaqibü fəzaili andan ziyadədür ki, imdadi-xamə ilə təhrirə gələ, ya müsa'ideyi-zəban ilə məzkur ola. İmam Əhəd Hənbəldən nəqldir ki, demiş: "Əkabiri-səhabənin heç birindən ol miqdar fəzail və mənaqib ki, Əli ibn Əbi Talibdən yetmişdir, yetməmişdir". Və viladəti-şərifi amul-fildən otuz il keçdikdə hərəmi-Kə'bədə Rəcəb ayının on üçündə cümə günü vaqe' olmuş.

Şeyx Müfəyddən nəqldir ki, diyari-Yəməndə Müsrim nam bir abidi-müttəqi var idi, əzhədi-zühhadi-ruzigar idi. Şe'r:

Səhifeyi-əməli-nəqşi-masivadan pak,
İrişməmiş ətəginə qübari-mərkəzi-xak.

Və yüz doxsan il ömrü guşeyi-ibadətdə keçüb, mültəfiti-hali-rüzgar olmamış və səccadədən qeyr mənzilə qədəm basmayub, mehrabdan qeyr surətə nəzər salmamış. Bir gün münacatında ayıtdı: "İlahi, hərəmi-möhtərəmün sükkanindən və Kə'beyi-müəzzəmənün ə'yanindən birinün didarinə müşərrəf olmaq təmənnasindəyəm, müyəssər et". Duayi-biriyası icabətə yetüb, Əbu Talib ki, əşrəfi-ə'yani-Məkkə və əfzəli-əşrafi-Kə'bə idi, bir səfərdə ikən rəhgüzarı ol zahidi-niknam və abidi-alimaqamun məqaminə düşüb ziyarətinə təvəccöh etdi. Müsrim Əbu Talibin şəraiti-tə'zimindən sonra keyfiyyəti-əhvalın istifsar etdikdə Əbu Talib ayıtdı: "Məkkə diyarində Bəni-Haşim qəbiləsindən Əbd-Mənaf oğlu Əbu Talibəm". Müsrim bu xəbərdən münbəsit olub, təkrarla tə'zim etdi ki: "Əlminnətü lillah, muradım hasil oldu və du'ayi-biru'unətim əsr qıldı". Dedi: "Ey Əbu Talib, əxbari-salifədən bizə yetişmişdür ki, Əbdülmüttəlibin iki nəbirəsi olub, biri Əbdullah sülbindən zühura gəlüb izhari-sirri nübüvvət qıla və biri Əbu Talib zəhrindən zahir olub məvdə'i-zühuri rümuzi-vilayət ola və nəbi otuz yaşına yetdikdə vəli dünyaya gələ. Aya, ol nəbi ki, dideyi-dövran müntəziri-dövləti-didari və çeşmi-zəmanə müştaqi-pərtövi-rüxsaridir, zühur etmişmi ola?" Əbu Talib ayıtdı: "Ey Şeyx, bəli, Məhəmməd mütəvəllid olub, hala iyirmi doqquz yaşındadur". Müsrim ayıtdı: "Ey Əbu Talib, bundan Məkkəyə müraciət etdikdə ol müqərribi-dərgahi-mə'buda bəndən səlam yetür və ərz et ki, Müsrim şəhadət verür ki, Xaliq fərdü bihəmtadır və sən anın peyğəmbərisən. Ey Əbu Talib, səndən mütəvəllid olan əzizə dəxi səlamım yetürüb ərz edəsən ki, sən dəxi vəsiyyi-peyğəmbərsən, netə ki, anda nübüvvət təmam ola, səndə vilayət ixtimam bula". Əbu Talib ayıtdı: "Ey əziz, bu göftarın həqiqətinə bir bəyan istərəm". Şeyx ayıtdı: "Bismillah". Əbu Talib müqabiləsində bir qurumuş dirəxti-ənar gördü, imtahan ilə ayıtdı: "Ey şeyx, istərəm ki, bu dirəxti-xüşkdən bərgü bar göstərəsən". Şeyx dərgahi-Mə'buda ruyi-təzərrö' dutub ayıtdı: "İlahi, ol nəbi və vəli həqqiçün ki, həqiqətlərinə e'tiraf edüb sifətlərin bəyan etdim, bəni şərməndə etmə".



Filhal ol dirəxti-xüşk barvər olub, iki tazə ənar səmər verdi. Şeyx ol ənarlərdən Əbu Talibə verüb, Əbu Talib ol ənarlərin birin parələyib iki danəsin tənavül qıldı.

Rəvayətdir ki, ol danə bir nütfəyə sirayət edüb məbdəi-vücudi-şəxsiyyəti-Əli ibn-Əbu Talib oldu və hümreyi-rüxsareyi-Şahi-Mərdan lə'li-rümman kibi ol əsərdəndir.

Əlqissə, Əbu Talib ol müjdədən xürrəmü xəndan olub, nəqli-məkan qılub Məkkəyə müraciət qıldıqda, sülbi-şərifindən ol nütfə Fatimə binti-Əsəd bətninə intiqal etdi və müddəti-həmli münqəzi olduqda, Fatimə binti-Əsəddən nəqldir ki: "Bən xaneyi-Kə'bə təvafində idim, əsəri-mihaz zahir olub, dördüncü şəvtdə Həzrəti-Rəsul bəni gördü, fərasətlə əhvalimə müttəle' olub ayıtdı: "Ey Fatimə, təvafı təmam etdinmi?" Ayıtdım: "Xeyr". Buyurdu ki: "Təvafı təmam et, əgər müzayiqə bulsan, hərəmi-Kə'bəyə gir".

Və kitabi-"Bəşairül-Mustəfa"da nəql etmişlər ki, Fatimə binti-Əsəd təvafi-Kə'bə edərkən Əbbas bin Əbdülmüttəlib və cəm'i-Bəni-Haşim anın əqəbincə təvafa məşğul ikən nagah Fatiməyə əsəri-təlq zahir olub, dışrə çıxmağa məcalı qalmayub münacat etdi ki: "Ya Rəb, bana viladəti asan qıl". Filhal divari-Beytullah şəqq olub Fatimə nəzərdən qayib oldu və biz xaneyi-Kə'bəyə girüb əhvalına müttəle' olmaq istədük, müyəssər olmadı. Üç gün qaib olub dördüncü gün hərəmdən çıxdı, əlində Əli ibn-Əbu Talib".

İmamül-Hərəmeyn nəql etmiş ki, hərgiz Əlidən müqəddəm bu səadət kimsənəyə müyəssər olmamışdır ki, nəfsi-hərəmdə mütəvəllid ola və andan sonra dəxi olmayacaqdır. Şe'r:

Murtəza bir düri-dəryayi-vilayətdir kim,
Hərəmi-Kə'bədir ol dürri-yətimin sədəfi.
Qeyrdən əşrəf əgər olsa anınçündür kim,
Hərəmi-Kə'bədən ol kəsb qılıbdur şərəfi.

Əlqissə, Fatimə binti-Əsəd hərəmi-Kə'bədən Həzrəti-Murtəzayı çıxarub hücrəsinə gəlüb, adət üzərində anı məhdə bağladıqda, Əbu Talib hazır olub istədi ki, rüxsari-şərəfin görə. Niqabinə əl urduqda Əli pənceyi-Xeybərguşa ilə Əbu Talibün əlin mən' edüb rüxsarinə pəncə urub çöhrəsin xəraşidə qıldı və validəsi dəxi təqərrüb edüb istədi ki, riza'inə iqdam edə; mən' edüb, anun dəxi rüxsarın məcruh etdi. Əbu Talib mütəhəyyir olub ayıtdı: "Ey Fatimə, bu tifli nə ismlə mövsum edəlüm?". Fatimə ayıtdı: "Ey Əbu Talib, bu tiflün pəncəsində əsəd səlabəti var, Əsəd demək münasibdür".

Əbu Talib ayıtdı: "Bənim səlahım budur ki, Zeyd ismilə mövsum edəm".

Xəbəri-viladətin Həzrəti-Rəsul eşitdikdə fərəhnak olub, Əbu Talib sərayinə gəlüb sual etdi ki, bu tiflün ismin nə müqərrər etdinüz? Hər kim ixtiyar etdigin bəyan etdikdə, Həzrəti-Rəsul ayıtdı: "Bənim səlahım budur ki, ismi Əliyyi-alihimmət ola".

Fatimə ayıtdı: "Həqqa ki, bən dəxi hatifdən bu ismi eşitdim".

Və bir rəvayət dəxi oldur ki, valid və validə arasında ism üçün niza olub, istixarə təriqilə mütəvəccihi [Hərəmi] Kə'bə olub, Fatimə ruyi-niyaz dərgahi-biniyazə dutub ayıtdı: "Ya Rəb, hərəmi-şərifində kəramət qıldığın nütfeyi-lətifə səndən tə'yini-ism iltimas edərüz". Bu niyaz əsnasində bami-Kə'bədən səda gəldi ki, ismi-şərifin Əliyyi-ə'la qılun. Hər nə təqdirlə nami-

mübarəkin Əliyyi-aliqədr qoydular. Həzrəti Rəsul istədi ki, məhd üzərinə varub Murtəzayla mülaqat edə. Fatimə ayıtdı: "Ey bərادər, dəlirانə getmə ki, bu tifl şirxislət və qəzənfərsəvlətdir; olmaya ki, həzrətinizə nisbət bir biədəblik edə". Həzrəti-Rəsul ayıtdı: "Ey Fatimə, Əli bana nisbət təriqi-ədəb ri'ayət edər". Pəs mütəvəccih olub, Həzrəti-Murtəza məsti-xab ikən rayiheyi-gisuyi-Rəsulullahı istişmam edüb, dideyi-həqiqətbin açub mülahizeyi-nuri-rüxsari-nəbi qıldı və zəbani-hal ilə bu məqala mütərənnim oldu. Şe'r:

Şükr kim, oldum müşərrəf dövləti-didarinə,
Dideyi-xunbarimi açdım güli-rüxsarinə.
Olmadı zaye' ədəm mənzillərin qət etdigüm,
Vasil oldum pərtövi-xurşidi-pürənvarinə.

Əlqissə,ol şiri-bişeyi-vilayəti Həzrəti-Rəsul məhdindən açub, kənarinə alub, təhniyə təriqilə ayıtdı. Şe'r:

Mərhəba, ey qibleyi-ərbabi-izzü ehtişam,
Xeyrməqdəm, ey şəhi-əshabi-qədrü ehtiram.
Bən ki, məb'usəm cəhan əhlini də'vət qılmağa,
Qılmadım sən gəlmədən bu əmrə iqdamü qiyam.
Zati-pakın intizar idi nə pünhan qeyrdən,
Mövcibi-tə'xiri-izhari-nübüvvət vəssəlam.

Və hər zəman zəbani-mö'cizbəyanlərin bərgi-gül kibi [qönçeyi-] dəhaninə qoyub lü'abindən ki, sərçeşmeyi-əsrari-"Və ma yəntiqu'ənil-həva"[1]-dır, şərbəti-"Haza lu'abu Rəsulillah fifəmi"[2] təcərrö etdirdi. Rəvayətdir ki, Həzrəti-Murtəzaya Əbu Talib mən'i-indən qərəz oldur ki, ibtidayi-xilqətdə Həzrəti-Rəssullə müsahifə qıla və riza'i imtina'indən məqsud bu ki, ağazi-fitrətdə lü'abi-lisani-Rəsulullahdan mütəcərre ola. Şe'r:

Qətrə-qətrə zülali-mə'rifəti,
Əbr dəryadan iktisab etdi.
Feyzi-həq ol hilalı etməgə bədr
Qabili-nuri-afitab etdi.

Əlqissə, təştü afitaba hazır edüb Mustəfa yədi-qəmərşikaflə Əlinün qüslinə mübaşirət etdi.

Rəvayətdir ki, canibi-yəminin qüsl etdükdə işarətsiz canibi-yəsarə münqəlib oldu. Həzrəti-Rəsul bu hala müttəli olduqda giryan oldu, Fatimə ayıtdı: "Ey bərادər, səbəbi-girya nədür?" Həzrəti-Rəsul: "Ey Ffatimə, bən bu tifli ibtidayi-xilqətdə qüsl edərəm, bu tifl bəni nihayəti-ömrümdə qüsl edər və bən qüsl etdikdə bu tifl canibi-yəmindən canibi-yəsarə kəndu münqəlib olduğu kibi, mən dəxi kəndu münqəlib oluram".

[1] O meylinə (həvəsinə) görə bir şey söyləməz ("Qur'an", 53, 3).
[2] Ağzımdakı Allahın Rəsulunun tüpürcəyidir.



Əlqissə, Həzrəti-Rəsul ol düri-şahvarı peyvəstə sədəfvar kənarində tərbiyət qılub qəmxarlığın edərdi və ol qönçeyi-növrəsin əbri-bəhar kibi üzərinə gəlüb gedərdi.

Murtəza beş yaşına yetdükdə mülki-Hicaz qilləti-əmtardan mövridi-məlali-qəht oldu və ədəmi-əğziyədən əhvali-xəlq iztirab buldu. Və Əbu Talib əyalmənd idi. Bir gün Həzrəti-Rəsul Əbbasa ayıtdı: "Sən təvangərsən və Əbu Talib fəqirülhal və kəsirüləyal. Münasib oldur ki, şiddəti-qəht zail olanadək hər birimiz Əbu Talibin bir fərzəndinə mütəkəffil olalım və ana mə'işət xüsusində müavinət qılalım". İttifaqla Əbu Talib hüzurinə gəlüb şərhi-hal etdikdə Əbu Talib ayıtdı: "Əqili bənimlə qoyun, baqi övladımla siz bilərsiz". Əbbas, Cə'fəri-Təyyarı alub, Həzrəti-Rəsul Əliyyi-Murtəzayı qəbul qılub, Əli Həzrəti-Rəsul kəfalətində idi ol zəmanədək ki, Cəbrail ana müjdeyi-rüxsəti-də'vət yetürdi və Həzrət ana iman gətürdi. Və Həzrəti-Əlinin bir künyəti Əbu Turabdi və bu ləqəbdən beğayət xoşhal olurdu. Və təsmiyə vəchində əhval müxtəlifdir.

"Şəvahidün-Nübüvvət"də məsturdur ki, bir gün Həzrəti-Rəsul Fatimə hücrəsində gəlüb Əlini hazir görməyib təfəhhüs etdikdə Fatimə ayıtdı: "Ya Rəsulullah, bə'zi qəziyyədən məlaləti-xatir bulub dışrə çıxdı, qaliba ki, məscidə təşrif buyurdu". Həzrəti-Rəsul məscidə gəlüb gördü ki, ridayi-mübarək bədəni-lətifindən dur olub, cismi-şərəfi aludeyi-qübar olmuş, Həzrəti-Rəsul ol qübarı pak edüb səda yetürdi ki: "Qum ya Əba Turab"[1].

Əmmar Yasirdən nəqldir ki, ğəzveyi-Əntərdə bən və Əli bir dirəxt sayəsin xabgah edüb təkyə qılmışdıq. Həzrəti-Rəsulun güzarı üzərimizə düşüb avaz yetürdi Həzrəti-Murtəzaya ki: "Qum ya Əba Turab" və buyurdu ki: "Ya Əli, xəbər verirəm sənə cəmi'i-xəlqdən əşqaiki bədbəxtdir, biri ol ki, Saleh naqəsin zibh etmiş və biri sənin məhasini-şərifin qanınla rəngin edər".

Və Həzrəti-Əlinün bir künyəti dəxi Əbər-Reyhaneyndür. Cabir Əlidən nəqldür ki, Həzrəti-Rəsul üç gün vəfatından müqəddəm Murtəzaya ayıtdı: "Ya Əbər-Reyhaneyn, sənə vəsiyyət edirəm iki reyhana hifzin ki, biri Həsən və biri Hüseyndir; ya Əli, ənqərib sənün iki rüknün münhədim ola və iki üzvün inqita' bula. Filvaqe' öylə oldu: əvvəl Həzrəti-Rəsul fövt olub, andan sonra Həzrəti-Fatimə vəfatı surət buldu.

Həzrəti-Əlidən nəqldür ki, buyurmuş: "Bən cəfa çox çəkdüm gərdişi-rüzgardan və cövr çox gördüm aləmi-qəddardan, cümləsindən əs'əb üç müsibət idi və cəmi'sindən ə'zəm üç möhnət idi; biri vəfati-Həzrəti-Rəsul ki, cəmi'i-məhalikdə pənahım və qamu məkarihdə ümmidgahım idi, anun vəfatindən sonra hərgiz hücumi-nəvaib bana kəm olmadı və təə'rrüzi-ə'dadan xatirim aman bulmadı". Şe'r:

Ey xoş ol günlər ki, bu ümmidgahım var idi,
Möhnəti-aləm hücumində pənahım var idi.
Bən fəqirə cövr qıldıqca əduyi-süstray,
Ərzi-halım etməgə bir padişahım var idi.

İkinci müstbət fövti-Zəhra idi ki, Mustəfadan sonra həmrazım və cəmi'i-vəqaye'də çarəsazım idi. Çehreyi-bəqa pərdeyi-xəfaya çəküb şəbistani-eyşim tirəvü tar və külbeyi-əhzanımı mövqidi-nirani-iztirabü iztirar etdi. Şe'r:

[1] Qalx, ey Əbu Turab!

Dövrdən vəh ki, nəsibim qəmi-hicran oldu,
Güli-bağı-əməlim qönçəyi-hirman oldu.
Dağımə rahət üçün pənbeyi-rahət basdım,
Tutulub ol dəxi bir atəşi-suzan oldu.

Və üçüncü möhnət cigərguşələrim şəhadətinin xəbəri idi ki, Rəsulullahdan mə'lum etdüm".

"Şəvahidün-Nübüvvət"də məsturdur ki, bir səfərdə Həzrəti-Murtəzanın güzarı dəşti-Kərbəlaya düşüb giryan olub buyurdu ki, bu məqamdır məqtəli-əkabiri-şühəda və bu məkandür mövze'i-dima və ə'azimi Ali-Əba. Səhabə surəti-hal istifsar etdikdə ayıtdı: "Bu mənzildə bir taifə məqtul olalar ki, hesabsız behiştə düxul bulalar". Və bundan ziyadə izah etmədi. Və heç kim bu sirrin həqiqətinə yetmədi ol zəmanədək ki, vaqieyi-Kərbəla surət buldu və səfki-dima'i-Əhli-Beyt vaqe oldu. Əlhəq, bu vaqiənin nəsimi-təzkarından açılan gülbərgi-nədamətün hər bərgi bir şö'leyi-cigərsuzdur və bu hadisənin səhabi-əxbarindən sirab olan gülzari-möhnətün hər nihalı bir navəki-dilduzdur. Şe'r:

Min cigər oldu qan bu vaqi'ədən,
Tirə oldu cəhan bu vaqi'ədən.
Həm yedi əxtər eylədi əfğan,
Həm doquz asiman bu vaqi'ədən.
Gəldi fəryada yerdəvü göğdə
Mələkü insü can bu vaqi'ədən.

Əlqabi-Həzrəti-Murtəza binihayətdir, ol cümlədəndir Əmirün-Nəhl və Yə'subəddin və Kərrar və Əsədullah.

"Firdövsil-Əxbar"da Mü'az bin Cəbəldən nəqldür bu xəbər ki: "Hubbu Əliyyun Həsənətin la-təzürru mə'əhusəyyi'ətün və büğzu Əli səyyi'ətun la-tənfə'u mə'əha həsənətun"[1].

Bir gün Həzrəti-Rəsul Murtəzanın cəbini-mübarəkün öpüb, Əbbas bin Əbdül Müttəlib ayıtdı: "Ya Rəsulullah, bu şəxsi sevərmisən?" Həzrəti-Rəsul ayıtdı: "Ey Əbbas, bu şəxs bənim məhbubumdür və gümanım yoxdur ki, bunun məhəbbətindən təğafül etmək bana mümkün ola.

Ey Əmmi-büzürgvar, hikməti-Haq hər peyğəmbərin zürriyyətin kəndu sülbində mövdu edüb, bənim zürriyyətümi bunun sülbündə müqərrər edüb, Qiyamətədək [bənimlə] şərikinəsəb olmuş".

İmam Tirmizi əleyhir-rəhmə nəql etmiş ki, Səlmana sual etdilər ki: "İfrati-məhəbbət Murtəzaya səbəb nədür?" Səlman ayıtdı: "Həzrəti-Mustafadan eşitdüm ki, buyurdu [hər kim bəni sevər, Əlini sevər və] hər kim Əlini sevməz, bəni sevməz". Və Həqtə'aladan anınçün dua [qılmış] ki: "Ya Rəb, məhəbbət qıl anınla ki, Murtəzaya izhari-məhəbbət qıla və ədavət qıl anınla ki, [Murtəzaya] ədavət qılmağı kənduya lazım bilə". Şe'r:

[1] Əlini sevmək elə bir xeyirdir ki, heç bir pis əməl ona zərər yetirməz,
Əliyə düşmənçilik elə pis əməldir ki, heç bir xeyir fayda verməz.



Fərzdir kim, ola siğarü kübar,
Maili-hübbi-Heydəri-Kərrar.
Anın üçün demiş Rəsulullah,
Həzrəti-Həqqə vali mən valah.
Ey ki, lütfi-İlaha talibsən,
Ruzi-məhşər nəcatə rağibsən,
Olma ol şahə düşməni-bədxah,
Hədəfi-tiri-"adə mən 'adah".[1]

"Şəvahidün-nübüvvət"də İmam Müstəğfiri isnadilə məsturdur ki, süləhayi-zəmandan bir müttəqiyi-pake'tiqat və bir abidi-safinihad demiş: "Bir gecə vaqi'əmdə gördüm ərəsati-Qiyamət qaim olmuş və mühasibi-qəza xəlqi-əvvəlinü axirin hazır edüb, nəsbi-mizan qılmış. Və bən mütəvəccihi-Sirat ikən Həzrəti-Rəsuli gördüm kənari-hövzi-Kövsərdə, Həsən və Hüseyn saqi olub səhrayi-məhşər mütə'əttişlərin sirab etməyə tə'yin olunmuşlar. Bən dəxi iştiyaqi-təmamla xidmətlərinə müşərrəf olub bir cür'ə iltimas etdim". Həzrəti-Rəsul ayıtdı: "Sənə rəşəhati-Kövsərdən nəsib yoxdur". Mə'yus olub ayıtdım: "Ya Rəsulullah, illətimən' nədür?" Dedi: "Ey qafil, [sənün] civarində bir şəqi var, saqiyi-Kövsər məzəmmətin eylər və sən əhvalını müttəle'sən, mən'inə iqdam etməzsən". Dedim: "Ya Rəsulullah, mən'in eyləsəm həlakım qəsdin eylər". Həzrəti-Rəsulullah bir mücərrəd tiğ verüb buyurdu ki, bu tiğlə ol məl'unu həlak et. Bən dəxi vaqi'əmdə anı qətl etdim, Rəsul xidmətinə müraciət etdikdə Hüseynə əmr etdi ki, bana su verə. Nişati-təmamla bidar olduqda sübh idi. Nagah eşitdim ki, fəryad edüb derlər ki, "Filan kimsənəyi bu gecə bəstərində zibh etmişlər". Hakim xəbərdar olub, cəmi'i-həmsayələrin töhmət ilə həbs edüb, bən dəxi ol güruha daxil idim. Çün bilirdim ki, həmsayələrin ol qəziyyədən xəbərləri yox idi sidqdən nəcat istəyüb, hakimə surəti-vaqi'ə şərh etdim. Hakim mühibbi-xanədan idi, kəlamimə təsdiq edüb ayıtdı: "Ey əziz, bən dəxi anın həqiqəti-əhvalinə müttəle' idim, kəndu cəzasinə yetmiş, Cəzakəllahu xeyrən"[2]. Şe'r:

Tiği-batin tiği-zahirdən betər xunriz olur,
Zahirü batində şəmşiri-vilayət tiz olur.

Və bu dəxi "Şəvahidün-Nübüvvət"də məsturdur ki, İbrahim bin Hişam Məxzumi Mədinədə vali ikən, hər cüm'ə xəlqi minbər əyağinə cəm' edüb və kəndi minbərə çıxub Murtəzaya məzəmmət edərdi. Bir cümə minbər əyağində bana xab qələbə edüb vaqiəmdə gördüm ki, Həzrəti-Rəsulun mərqədi-mübarəki şəqq olub, kafurgun libasla bir kimsənə çıxub ayıtdı: "Ey Əbdullah, səni bu məl'unun kəlimatı mükəddər etməzmi?" Dedim: "Bəli, ya Rəsulullah, məlul edər, əmma nə çarə hökmi-hakimi-müta'dır". Dedi: "Ey Əbdullah, müşahidə qıl ki, ana qəhri-İlahi nə siyasət göstərir". Bidar olub nəzər etdikdə gördüm, minbərdən düşüb həlak oldu. Şe'r:

[1] Ona düşmən olana düşmən ol!
[2] Allah xeyir versin.

Cami-büğzi-Murtəza nuş eyləyən nakəslərə,
Saqiyi-dövran verür zəhri-həlahil aqibət.
Həm görürlər aləmi-surətdə asari-bəla,
Həm çəkərlər bəndü-əğlalü səlasil aqibət.

Rəvayətdir ki, ğəzveyi-Xeybərdə Həzrəti-Rəsul buyurdu ki: "Yarın rayəti bir kimsəyə versəm gərək ki, çehreyi-mübarəkində nuri-"Yuhəbbətullah və rəsuləhu"[1] dirəxşan və nasiyeyi-pakində nişani-"Yuhəbbullah və rəsaləhu"[2] əyan ola. Sabah olduqda rayəti Murtəzaya verdi. Və bu dəxi bir rəvayətdir ki, hini-mühasireyi-Taif, Həzrəti-Rəsul Əli bin Əbu Talibi hazır edüb zamani-təvil anınla müşavirət qıldı. Ləşkər mütəhəyyir qalub ayıtdılar: "Aya, sahibi-vəhyə nə ehtiyaci müşavirət?" Həzrəti-Rəsul vaqif olub ayıtdı: "Bən kəndu rə'yimlə ana şərhi-raz etməzəm. Həzrəti-İzzət təczi etmişdür". Və bu xəbəri-səhih Kəsandə Tirmizi isnadilə mənquldur ki. Şe'r:

Ol idi məhrəmi Rəsulullah.
Sirri-zatü sifatdən agah.
Katibi-nəqşi-nameyi-tənzil,
Xazini-gənci-xateyi-tə'vil.
Afitabi-sipehri-fəzlü kəmal,
Növbəhari-riyazi-cahü cəlal.

Ol sultani-səriri-Səluni ki, afitabi-keyfiyyəti-zatı "Məşriqi-Əliyyun minn və ənə minhu"-[3]dən lame' və əxtəri-sifatı "Ya Əli əntə minni bi-mənziləti Harun [min Musa]"[4] sipehrindən tal'e'dür və xəzneyi-övsafindən "Ənə mədinətul'-elmi və Əliyyun babuha"[5] bir gövhərdür, rişteyi-dürri-iştihara müntəzəm və hədiqeyi-məhasin və mənaqibindən "Səluni 'əmma dunəl-ərş"[6] bir qönçədür, nəsimi-izahü ittihazahdən mütəbbəsim. Və cümlə fəzaidən elmi ol qayətdə idi ki, bir gün [payeyi-minbəri] pabusi-şəriflə müşərrəf qılub buyurmuş ki: "Ruhum qəbzeyi-qührətində olan Mə'bud həqqiçün ki, əgər fərman yetüb Zəburü Tövrat və İncil təkəllüm qılsalar, bən cəmi'i-əsrarlərindən xəbər verəydim və anlar ittifaqla bana təsdiq verürlərdi". Və ibadəti ol mərtəbədə idi ki, hər gecə xəlvətindən bin təkbir istima' olunurdu qeyri-təkbirati-fəraizi və sünəni-mə'hudə. Hilmi ol dərəcədə idi ki, bir gün bir bəndəsini yetmiş kərrə ərfə'i-əsvatla tələb qıldı, cəvab eşitməyüb, müqalibəsinə təvəccöh etdükdə gördü ki, hücrə qapusində durmuş, ayıtdı: "Nişə cəvab verməsdün?" Ayıtdı: "Ya Əli, istədüm ki, səni bu imtahana mə'mur edəni qəzəbnak edərəm, yə'ni İblisi". Və ol bəndəyi azad etdi, müddəti-ömründə mə'aşın qəbul etdi.

[1] Allahı və Rəsulunu sevər.
[2] Allah və Rəsulu onu sevər.
[3] Əli məndəndir və mən ondan.
[4] Ey Əli, sən mənə Harunun Musaya olduğu qədər yaxınsan.
[5] Mən elm şəhəriyəm, Əli isə onun qapısıdır.
[6] Ərşdən başqa məndən nə istəsəniz soruşun.



Həqqa ki, bu nihayəti-hilmdir. Və təvaz'i ol qayətdə idi ki, zəmani-xilafətində ki, həddi-Məğribdən Səmərqəndədək təhti-hökumətində idi, Kufədə piyadə tərəddüd edüb, irtikabi-rükubi-xeyl etməzdi. Bir gün bə'zi həvayic alub kəndi götürüb, xadimlərinün biri ayıtdı: "Ya Əmirəlmö'minin, bu xidmət rücu'in bəndəyə iltifat et". Buyurdu ki, "Əbul-'iyal əhəqqu ən yəhmilə"[1]. Xadimə ayıtdı: "Sən xəlifeyi-zəmansan və sultani-cahan, bu əməl sənə nisbət məvacibi-təxfifdür". Buyurdu ki, "La-yənqusur-rəculə min əkmalihi iza həmilə liiyalihi"[2].

Və səxavəti ol mərtəbədə idi ki, aləmi-fanidə dörd dirhəmi olub birin sirlə, birin cəhrlə və birin gecə və birin gündüz təsəddüq edüb, şə'ni-şərifində ayəti-"Əlləzinə yunfiqunə əmvaləhum bil-leyli vən-nəhari sirrən və 'əaniyə-tən"[3] nazil olub və cümlə aləmə intişar və iştihar buldu. Və fəqrü faqəyə ehtmalı ol miqdar idi ki, keyfiyyəti-ayəti "Və yut'imunət-tə'ala əla hubbihi miskinən və yətimən və əsirən"[4] məzmununda dərəceyi vüzuha yetmiş və dərəceyi-kəmali-ehsanı [ayəti] kərimeyi – "və yutun əzzəkatə və hum raki'unə"[5] mə'nasını sabit etmiş.

Rəvayətdir ki, bir gün zəmani-xilafətində xəzaneyi-beytül-mala girüb, cəmiyyəti-simü zər gördükdə ayıtdı: "Ya həmra ya beyza ğurra qeyri"[6], yəni ey zəri-zərdrüsxar, və nüqreyi-natəmam'əyar, cilveyi-dilrüba və işveyi-üqubətfəza ilə qeyrə qürur verün ki, bən sizə öylə təlaq verməmişəm ki, müraciəti mümkün ola və hər bir qayətdə sizi tərk etməmişəm ki, təcdidi-müsahibət surət bula". Şe'r:

Olsa zər xurşid, anı hifz etməzəm gərdunmisal,
Nüqrə mah olsa xurşidvəş salman nəzər.
Rif'ətim babindədir xaki-siyəh xurşidü mah,
Himmətim yanindədir toprağə yeksan simü zər.

Və cümleyi-kəramətindən biri oldur ki, payi-dövlət rikabi-səadətə basdıqda iftitahi-tilavəti-Kəlam edüb, sədrizinə mütəməkkin olub, bir rikaba dəxi qədəm basınca xətm edərdi. Və "Şəvahidün-Nübüvvət"də məsturdur ki, Əsma binti-Ümeyş Fatimədən nəql etmiş ki: Şəbi-zifaf ərşeyi-ərz anınla təkəmmül etdiyin istima' etdim. Sabah olduqda təhəyyür təriqilə Həzrəti-Rəsula ol halı əpz etdikdə səcdeyi şükr edüb buyurdu ki: "Ey Fatimə, başarət sənə ki, zövcünə səadəti-təfzil verüb, İzəd yer yüzünün xəlqindən əfzəl etdi". Və bu dəxi "Şəvahidün-nübüvvət"də məsturdur ki, Hərbi-Siffinə təvəccöh etdikdə qilləti-ab vaqe' olub, ləşkər yəminü yəsara tərəddüd edərkən bir deyrə yetdülər. Rahibi-deyr xəbər verdi ki, filan mənzildə bir çeşmə var. Ləşkər mütəvəccih olduqları səmtdən münhərif olub, ol canibə inantab olduqda Həzrəti-Əli ayıtdı: "Qeyr canibə getmən". Həm ol mənzildə bii səxrə görüb işarət etdi ki, götürün. Cəmi'i-ləşkər hücum edüb ol səxrəyi götürməkdən aciz oldular. Həzrəti-[Əli] əngüşti-Xeybərgüşayla ol səxrəyi götürüb altından bir çeşmeyi-zülali-xoşgüvar çıxub, təmami-ləşkər sirab olduqdan sonra yenə ol səxrəyi çeşmə üzərinə qoyub dəfn etdirdi. Rahib bu kə-

[1] Yükdaşıma haqqı ailə başçısına düşər.
[2] İnsanın kəmalı ailəsinə yük daşımaqla azalmaz.
[3] Onlar ki, gecə-gündüz, gizli və aşkar mallarını Allah yolunda xərcləyirlər ("Qu'ran", 2, 274)
[4] Onun (Tanrının) məhəbbəti xatirinə yoxsula, yetimə və əsirə yemək verirlər ("Qu'ran", 71, 18)
[5] Onlar zəkat verirlər və rüku edirlər ("Qu'ran", 5, 55).
[6] Ey altun və gümüş, başqasını aldadın!

raməti görüb ayıtdı: "Ey əziz, sən Rəsulmusan?" Dedi: "Yox, mən vəsiyyə-Rəsuləm". Rahib ixlasla Rəsulullaha iman gətürüb müsəlman oldu. Həzrəti-Əmir səbəb sual etdikdə ayıtdı: "Ya Əbəl-Həsən, mütəqəddimlərimizdən intiqal idi və kitablərimizdə məstudur ki, bu möv-ze'də bir çeşmə var, anın izharı müyəssər olmaz, illa Rəsula, ya vəsiyyi-Rəsula. Və bu gün bu kəramət səndən zahir oldu, mə'lum etdim ki, sən vəsiyyi-Rəsulsan, muradimə yetdüm".

Əlqissə, tərki-deyr edüb, mülaziməti-Şahi-Mərdan ixtiyar edüb, mülazimətində mühari-bələr qılub səadəti-şəhadətə yetdi. Şe'r:

Xidmət əhlinə simü zər vermək,
Şahi-mülki-Hicaza adətdür.
Hasili-xidməti-nəbiyyü vəli
Şərəfi-rütbeyi-şəhadətdür.

Həqqa ki, Həzrəti-Əliyyi-Murtəzanun övsafi-həmidə və əxlaqi sütudəsinə istida'yi-həsri-təhrir və da'iyeyi-zəbti-təqrir xarici-əhateyi-qüdrəti-bəşər və və müşahideyi-surəti-əhval mafövqi-im'ani-nəzər[dir]. Ol cümlədəndür ğəzvi-Bədrdə və hərbi-Uhudda məlhuz olunan asari-nüzuli-La-Fəta və müqatileyi-Əmrü Əntər və müharibeyi-Mərhəbi-yəhudi və qəl'i-babi-Xeybər və Hərbi-Ütbə və Şeybə. Şe'r:

Bir sərvərin ki, şöhreyi-hüsni-xisaliçün
Vəssafı Həl-Əta ola, məddahı İnnəma,
Layiq degil ki, eyləyə xurşidi-zatının
Damani-ittisalını aludə hər Süha.

Rəvayi-gülzari-süxən və ancümənarayi-əxbari-köhən ol şəhriyari məsnədi-imamət və şah-bazi-övci-vilayətin mənaqibindən əczlə inani-təsərrüf mün'ətif və münhərif qılub, əxbari-vəfatindən bu təriqilə şəmmeyi-bəyana gətürmiş və zühura yetürmiş ki, çün məsnədi-xilafət məqdəmi-şəriflərilə ərşsay oldu və cülusi-mübarəklərlə hər mərkəzində qərar buldu, ittifaqən vaqi'eyi-Cəməl və Siffin vaqe' olub, qəziyyeyi-həkəmeyi surət bulduqda, ol mə'rəkədən Kufə-nün übbadü zübadınun dört bin nəfər kimsənə ol şəhriyarın təhti-livayi-nüsrətindən çıxub itatətindən təmərrüd edüb dedilər: "La-hükmə illa-lillah"[1] və səkkiz min namərd dəxi ətrafü əvabindən anlara mülhəq olub, İbn Kəvakeyi kəndulərinə sərdar edüb xüruc etdilər və Həz-rəti-Murtəza İbn Əbbası risalət təriqilə anlara irsal edüb nəsihət qıldı, qəbul etməyüb ayıtdı-lar: "Çün Əli həkəmeynə razı oldu, biz andan mübərra olduq". İbn Əbbas mə'yus müraciət qılub, Həzrəti-Şahi-[Vilayət] qiyami-hüccət içün bizzat anlara müqabil durub nəsihət etdik-cə inadləri ziyadə oldu. Ayıtdılar: "Ya Əli, günahi-'əzim etmişsən, əgər təbə qılub yenə təc-didlə tərtibi-sipah edüb mütəvəccihi-Şam olsan və müharibə qılsan səninlə müsalihə edərüz və əgər bu müsalihəyə razı olmazsan səninlə hərb edərüz". Həzrəti-Əli ayıtdı: "Siz [ibtida] hərb etməyincə bən hərb etməzəm".

[1] Hökm Allahındır!





Əlqissə, hər canibədən ləşkər cəm olub təhiyyeyi-əsbabi hərb etdükcə Həzrəti-Əli anlara iltifat etməzdi, ol zəmanədək ki, fəsadları qaideyi-e'tilaldan mütəcaviz olub müsəlmanlara təğəllüb və təsəllüt edər oldular və da'iyə qıldılar ki, Həzrəti-Əmir mütəvəccihi-Şam olduğun təhqiq etdikdə, Kufəyə təvəccöh edüb qarət qılalar.

Ləşkəri-İslam bu xəbərdən mütərəddim olub ayıtdılar:

"Ya Əli, Xəvaric dəf'in etməyincə heç yana getmək olmaz və bu fəsadın zərərindən təğafül etmək olmaz". Şe'r:

Həqir görmə əduyi ki, əqrəbi-kurun,
Dəmi düşəndə fəsadı füzundur əjdərdən.
Təsəvvür etmə ki, xəsmi-qəvidən ola əyan,
Məzərrəti ki, yetər düşməni-mühəqqərdən.

Həzrəti-Əmir bir növbət dəxi İbn Əbbası irsal edüb nəsihət etdi, əsəri-icabət görməyüb, yenə kəndü bizzat anlara müqabil durub nəsihət etdikdə, ol cümlədən Kəva ki, əmiri-Xəvaric idi, on nəfər əqrəbasilə Xəvaricdən rücu' edüb və səkkiz bin dəxi "Ət-tövbətü əl-tövbətü" – deyib, Xəvaricdən dönüb ləşkəri-islama mülhəq oldular və baqiyi-Xəvaric Əbdullah bin Vahibi və Qərqus bir Züheyri kəndülərinə əmir edüb, canibi-Nəhrəvana təvəccöh qıldılar və Həzrəti-Əmir rayəti-zəfərayət mütəhərrik edüb, əqəblərincə rəvan oldu. Həzrəti-Rəsul bu tayifəyə Mariqin deyüb, Həzrəti-Əmirə müxalifətlərindən xəbər verməşdi və Cəbrail bunların xəbərin Rəsula gətürmişdi.

Və "Şəvahidün-Nübüvvət"də məsturdur ki, Həzrəti-Rəsul Murtəzaya xəbər verdi ki, hərb edəcəksən Mariqin cəmaətilə, yə'ni Xəvariclə. Və sərdarləri Zülşədil nam bir məl'un ola, püstaninisa kibi sinəsində bir ləhmi-zaid ola. Və "Nüsəxi-İsfəhani" dəlailində əsnadi-dürüstlə Əbu Sə'id Xəzridən mənquldur ki. "Həzrəti-Rəsul xidmətində idim, qisməti-qənaimə məşğul idi. Bəni-Təmimdən Zülxuvəysərə nam bir kimsənə hissəsinə razı olmayub ayıtdı: "Ya Rəsulullah, riayəti-ədd qıl. Həzrəti-Rəsul buyurdu ki. "Bən ədl etməsəm, kim edər". Faruq ayıtdı: ["Ya Rəsulullah, rüxsət ver ki, bu biədəbi cəzasinə yetirəyim". Həzrəti-Rəsul] ayıtdı: "Ya Ömər, səbr et ki, "ənqərib əmsalü əqranidə xitteyi-İslamdan çıxalar, necə ki, qövsi-qəvidən tiri-pərran və xürud edələr əfzəli-əhli-İslama. Və mehtərləri bir müdbiri-siyahçərdə olub, kətfində pestani-nisaya şəbih bir ləhmi-zaid ola". Həqqa ki, bən ki, Əbu Sə'idəm, bu kəlimatı Həzrət-Rəsuldan istima' etdüm və müşahidə qıldum ki, Əli bu tayifə ilə hərb etdi və qütəla arasında mehtərlərin bulub ol nişanəyi anda gördüm". Şe'r:

Zəbani-Mustəfa mö'ciz bəyandır,
Çü Cəbrili-Əminə həmzəbandır.

Rəvaytədir ki, təvəccöhi-qəzayi-Xəvaricdə, ləşkəri-Həzrəti-Əmir-Nəhrəvan qürbündə bir deyrə yetüb, rahibi-deyr bir nərə urdu ki: "Ey ləşkəri-İslam, əmirinizə e'lan edin bu canibə gəlsün". Həzrəti-Əmir vaqif olub, inani-səadət ol canibi-mün'ətif edüb, deyrə yetdikdə rahib ayıtdı: "Ey sərvəri-ləşkəri-İslam, bu günlər sitareyi-tale'i-İslam hübutamaildiz. Səbr et ki,

dərəceyi-süudayetüb qəvi ola". Həzrəti-Əmir ayıtdı: "Ey rahib, də'viyi-hökmi-nicum edərsən, filan sitarədən bana xəbər ver". Rahib ayıtdı: "Bən bu sitarədən vaqif degiləm". Həzrəti-Əmir ayıtdı: "Ey rahib, məlum oldu ki, əhvali-asiman məlumun degil, əhvali-ərzdən xəbər sorayım; hala qədəm basdığın mənzildə nə mədfundur?" Rahib ayıtdı: "Bilməzəm. Bir zərfdir bu nişanə ilə və içində bir miqdar dirəm var bu ədədlə və bu nəqş və sikkə ilə". Rahib ayıtdı: "Ey əziz, bu mükaşifə sənə qandan hasil oldu?" Həzrəti-Əmir ayıtdı: "Rəsullullahdan ki, xəbər vermişdi və buyurmuşdu ki, bir ləşkərlə hərb edəsən, anların ləşkərindən ondan əksik qurtula və sənin ləşkərindən ondan əskik şəhid ola". Rahib mütəhəyyir olub, imtahan üçün qədəmi altındaki yeri həfz etdikdə ol zərf müqərrər olan dirəm və nişanə ilə çıxub, rahib, filhal imanə gəldi və Həzrəti-Əmir mülazimətin ixtiyar edüb, xilmətindən Nəhrəvana mütəvəccih oldu. Şe'r:

Hər səadətməndə kim, tövfiqi-dövlət yar olur,
Vaqifi-sirri-nihanü kaşifi əsrar olur.

Nəqldir ki, Cəndüb ibn Əbdullah Əzdi demiş: "Bən Murtəzayla hərbi-Cəməl və Siffində həmrah idim, əgərçi vilayətində şəkkim yox idi, əmma Nəhrəvana nüzul vaqe' olduqda bu xatirimə yetdi ki, hərbinə iqdam etdigimiz tayifə cəm'i-zühhadü übbaddır, bunları qətl etmək əmri-əzim görünür. Sübhdən ləşkərdən dışra çıxub, sinanü rümhüm dili-zəminə möhkəm qılub, sipərim sayəban edüb, sayəsində qərar dutmuşdum. Həzrəti-Əmir tənha bəndən yana güzar edüb ayıtdı: "Ey Cəndüb, suya gümanın varmı?" Mətreyi-pürab var idi, təslim etdim, nəzərimdən qayib olub müddəti-təvildən sora peyda oldu. Təcdidi-vüzu qılmış yanımda qərar dutdu. Bu hala müqarin bir sipahi peyda olub Həzrəti-Əmir ayıtdı: "Ey Cəndüb, bu sipahidən əhli-Nəhrəvan əhvalını sual et". Sual etdikdə sipahi ayıtdı: "Müxaliflər Nəhrəvanı keçdilər". Həzrəti-Əmir ayıtdı: "Haşa, qələtdir bu xəbər". Sipahi mübaliğə qıldı ki, "Vallah Nəhrəvanı übur etdilər". Bu hala müqarin bir sipahi dəxi gəlüb bu xəbəri müəkkəl qıldıqda Həzrəti-Əmir hiddət ilə ayıtdı: "Əlbəttə, bu xəbər qələtdür, necə keçərlər Nəhrəvanı ki, anların mövzeyi-səfki-dəmaləri bu canibdədir". Bunu deyüb yerindən durdu. Mən bu göftari tərəddüdüm təmyizinə mizan etdüm və xatirimdə müqərrər qıldum ki, əgər də'vası kizb olub, əhli-Nəhrəvan übur etmiş olalar, anınla qital edənlərin müqtədası bən olam və əgər göftari səhih olub übur etməmiş olalar, ana canımı cümlədən müqəddəm fəda qılam". Haqqa ki, Nəhrəvana qərib olduqda gördüm ki, rayati-müxalif hənuz yerindən mütəhərrik olmamış və ol ləşkərin bir fərdi übur etməmiş. Bən rə'yimdən münfə'il ikən Həzrəti-Əmir qəfadan gəlüb kətfimi dutub ayıtdı: "Ey Cəndüb, həqiqəti-hal mə'lum oldumu?" Dedim: "Bəli, ya Əmirəlmö'minin". Şe'r:

Ol ki, sidqü sihhəti-göftarına şəkkak ola,
Ana qabildir ki, şəmşirinlə bağrı çak ola.

Rəvayətdir ki, kənari-Nəhrəvanda sipahi-Xəvaric səbzeyi-ləbi-cuybar kimi səf çəküb durduğun və ələmlərin cövlana gətürdüklərin görüb, sipahi-şahi-ələmpənah biixtiyar mütəvəccih



olub, bünyadi-karzar qıldılar və ol səfin sipahisin səfheyi-ruyi-zəmindən götürməgə mütəvəccih oldular. Ləşkəri-küfr və İslam və sipahi-nur və zəlam bir-birilə mümtəzic olub, naireyi-cidalü qital işti'al bulub, bir nəbərd oldu ki, hər nəqşi-nə'li-səmənd bir hüfreyi-qəbr olsaydı, qütəla dəfninə vəfa-qılmazdı və hər zərreyi-qübar bir kuhsar olsaydı, xunabə seylinün rəhgüzarin duta bilməzdi. Şe'r:

Xakə xun tökdü zəxmdən bədxah,
Lə'li-nab oldu nə'li-Düldüli-Şah.
Oldu miqrazi-Zülfüqarə şü'ar:
Qət'i-əqdi-səlasili-füccar.

Axirüləmr, sübhi-zəfərdən afitabi-fəth tülu' edüb, ləşkəri-İslama pərtöv buraxdı və afitabi-məhceyi-livayi-İslam şö'leyi-ataş olub sipahi-ə'danun fərahəm qıldığu əsbabi-tədbirü əmti'ə tədarükün yaxdı. "[Fəhəb li] Vəllahu yü'əyyidu [bi-nəsrihi] mən-yəşa'u"[1]dən nəsimi-inayəti-"Fə-qəd ca'əkumul-fəth"[2] mütəhərrik olub və sərçeşmeyi-"İnna fətəhna ləkə fəthən mubina"[3]dən zülali-məkrəməti-"Nəsrun minəllah"[4] tərəşşüh qılub, ləşkəri-İslam mənsur və sipahi-ə'da məqhur oldu və sitareyi-əhli-Həq hüsuli-sə'adət qılub əxtəri-ərbabi-bütlan əsəri-vəbal buldu.

Hər sipahın ki, olur sərdarı Şahi-övliya,
Hiç şəki yox kim, nə yan əzm eyləsə mənsur olur.
Hər yana kim salsa pərtöv, rövşən eylər aftab,
Qanda kim, əbri-bəhar etsə güzər, mə'mur olur.

Rəvayətdir ki, ol dörd bin bədbəxtdən üç bin doqquz yüz doxsan bir nəfər məqtul olub doqquz nəfər fərar etmişidi və ləşkəri-İslamdan həman doqquz səadətmənd dövləti-şəhadətə yetmişdi. Həzrəti-Əmir əmrilə küştələr arasında Züşşədid dedikləri məl'uni buldular, həm ol nişanə ilə ki, Həzrəti-Rəsulullah xəbər vermişdi.

Əlqissə, Həzrəti-Sultani-Vilayət fəthi-Nəhrəvan mühimmatın sərəncam edüb, məsnədi-istiqlalda mütəməkkin olduqda, əkabirü əşrafa üz dutub ayıtdı: "Kimdir ki, Kufəyə fəthnamə ilətüb nüsrətimizdən xəbər verə?" Əbdürrəhman bin Mülcəmi-Muradi əyağa durub ayıtdı: "Əgər icazət olursa, bu xidmətin əhliyəm". Həzrəti-Əmir ayıtdı: "Ey İbn Mülcəm, sənün bundan ziyadə xidmətin bizə yetəcəkdür, mərdanə olğıl".

Rəvayətdir ki, İbn Mülcəm diyari-Misrdən olub, Həzrəti-Osman qətlinə gələn qövm ilə həmrah gəlüb Kufədə qalmışdı. Və bir rəvayət dəxi oldur ki, Həzrəti-Əmir mütəvəccihi-hərbi-Xəvaric ikən hər canibdən ləşkər tələb edüb, Yəməndən İbn Mülcəm gəlmişdi və hər kim bir töhfə gətürdikdə anın bir şəmşiri-abdarı olub, hədiyyə təriqilə Həzrəti-Əmirə 'ərz etdi.

[1] Allah dilədiyinin qələbəsinə yardım yetirər! ("Qur'an", 3, 13).
[2] Sizə fəth (açılış, qələbə) qismət etdi ("Qur'an", 8, 19).
[3] Biz sənə həqiqi uğur verdik ("Qur'an", 48, 1).
[4] Yardım Allahdandır! ("Qur'an", 62, 13).

Həzrəti-Əmir andan inhiraf edüb, hədiyyəsin qəbul etmədi. İbn Mülcəm xəlvətdə Həzrəti-Əmir hüzuruna gəlüb ayıtdı: "Ey şahi-Düldülsəvar və ey karfərmayi-Zülfiqar, neyşə xəlq arasında bu bəndəni şərmsar edüb hədiyyəsin rədd etdin?" Həzrəti Əmir ayıtdı: "Ey İbn Mülcəm, necə almaq olur səndən bir tiği ki, sənün muradın bəndən anınla hasil olur?" İbn Mülcəm bu xəbərdən mütəvəhhim olub bünyadi-cəzə' qıldı ki, "Ya Əmirəlmö'minin, haşa ki, həzrətinizə nisbət bəndən tərki-ədəb sadir ola. Həqqa ki, sənin dövləti-mülazimətün təmənnasında tərki-vətən qılmışam və sənin həvayi-xidmətin təvəllasında müqimi-diyari-qürbət olmuşam". Şe'r:

Haşalillah ki, sənə bən yar ikən əğyar olam,
Nəqzi-peymani xilafi-əhd edüb qəddar olam?!
Arizuyi-dövləti-dünyavü din etməzmiyəm,
İstəməzmi xatirim aləmdə bərxürdar olam?!

Həzrəti-Əmir ayıtdı: "Ey bivəfa, şək yoxdur ki, sən ayineyi-həyatıma qübari-fəna yetürürsən və şaibə yox ki, sən xanədani-vilayətdən zövqü səfa əsərin götürürsən. Şe'r:

Biganədür təriqi-vəfadan cibillətün,
Bidaddır işin, sitəmü cövr adətün.
Lafi-vəfayi-əhd urursan, vəli nə sud,
Çün hifzi-əhd qılmağa yoxdur mürüvvətün.

İbn Mülcəmün ə'zasinə vəhmdən lərzə düşüb rüxsari-bişərmində xilafi-adət ərəqi-xəcalət zahir olub ayıtdı: "Ya Əmirəlmö'minin, əmr et dəsti-namibarəkmi qət' etsünlər ki, bu zərər əndişəsi müztəfe' ola". Həzrəti-Əmir ayıtdı "Heç qisas cərayimə təqdim etməz, əmma müxbiri-sadiq bana bu vaqi'ədən xəbər vermüşdür".

Və bir rəvayət dəxi oldur ki, İbn Mülcəm Xəvaricdən idi, əmma Həzrəti-Əmir Nəhrəvana təvəccöh etdükdə fürsəti-fərar bulmayub, ləşkəri-İslam içində qalmışdı və Həzrəti-Əmirə mülazim olmuşdu. Əlqissə, Həzrəti-Əmir ol məl'unun iltimasın rədd etməyüb, Xəvaric fəthnaməsin verüb Kufəyə rəvan etdi. İbn Mülcəm Kufəyə yetdikdə şəhrə ayin bağladub, əşrafü əkabirə fəthnaməyi ibraz etdi. Bu məzmunla ki: "Sipasi-biqiyas ol münşiyi-əhkami-divani-qüdrət və mümliyi-ərqami-ünvani-hikmətə ki, təsəddiyi-ümuri-həllü əqdi-aləmi və təsərrüfi-əhvali-növ'i-bəni-adəmi min heysül-istehqaq xatəmi-ənbiya Məhəmmədəl Mustafaya müfəvvəz edüb, bu xüsusda mübəşşiri-vəhyü ilhamla bəşarətnamələr irsal etmiş. Və dürud-namə'dud ol padşahi-mülki-risalət və sultani-səriri-nübüvvətə ki, "Əntə minni bimənziləti-harun"[1] işarətilə andan nəsəqi-hifzi-nizam və tərvici-kargahi-İslam bana yetmiş. Həqqa ki, əhateyi-hökmi-cəhanmüta'im həm məhruseyi-dünya, həm mə'mureyi-üqbaya şamildür [və mücahidlərə nə'im baqi və mü'anidlərə cəhim haildür.] Şe'r:

[1] Sən mənə Harun yaxınlığındasan.



Afitabi-dövlətim şəm'i-cəhanəfruzdur,
Nuri-bəzməfruzi-aləm, nari-aləmsuzdur.

Qərəz, bu müqəddəmədən oldur ki, daireyi-itaətimdən çıxub haşiyeyi-Nəhrəvana cəm' olan tayifeyi-tağiyeyi-Xəvaric qəl'ü qəm'inə ləşkəri-zəfərəsərim, rayəti-əziməti-ğəza mütəhərrik qılub, tövfiqi-cəhad təmənnasilə mütəvəccih olduqda, ol bədbəxtlər "eynəmə təkunu yudrik-kumul-mövt"[1] müqtəzasincə məfərri-nəcat və məcali-fərar bulmayub, naçar müqabilə gəlüb, xaşakvar kəndülərin şö'leyi-tiği-saiqəbarinə urub, mübaşiri-cidalü qital oldular. Əmma əqrəb zəmanda əshəli-vücuhla təlatümi-əmvaci-dəryayi-ləşkəri-İslamdan girdabi-fənaya düşüb əzabi-həyata rahəti-məmatı ixtiyar qıldılar. Şe'r:

Tiğümi ə'daya nüsrət bərqi-suzan eylədi.
Feyzi-dövlət şəm'i-iqbalım füruzan eylədi.

İmdi gərəkdür ki, ə'yanü əşrafü xassü ammi-əhli-Kufə bu xəbərdən mübtəhic və məsrur olub, təriqeyi-şükrü sipas mər'i və məsluk edələr, vəssalam". Rəvayətdir ki, müjdə sürurindən şəhri-Kufədə bir neçə gün ayin bağlanub, xəlq eyşü işrətə [məşğul] ikən bir gün İbn Mülcəm darül-əmarədən kəndü sərayinə gedərkən bir qəsrdən sədayi-dəf və nay istima' edüb, ihtisab təriqilə mən' etmək sədədündə olub, ol qəsrə düxul etmək tədarükündə ikən qəsrdən bir neçə müzəyyən və dilfərib övrət çıxub ol cəm' içində bir məhbub müşahidə qıldı ki, ol əsrdə andan əhsənü əcməl yox idi. Şe'r:

Buti kim, qəmzəsi qarətgəri-İslamü imandür,
Xurami fitneyi-dövran, nigahi afəti-candür.
Xumari-nərgisi-məsti açılmaz ta ki, içməz qan,
Giriftarinə rəhm etməz, dəmadəm içdigi qandür.

Əlqissə, şö'leyi-ataşi-rüxsari İbn Mülcəmün xirməni-qərarinə bir nairə buraxdı ki, ol siyəhrüzgarın canın yaxdı. Şe'r:

Xəncəri-müjgana eylərmi həvəs canın sevən,
Büt sücudindən həzər qılmazmı imanın sevən?!

Əlhəq, binayi-imanı möhkəm olsaydı, qəmzeyi-məhdudi-məcazidən rəxnə bulmazdı [və əsasi-əqlində səbat olsaydı, seyli-hadiseyi-eşqi-həvaidən mütəzəlzil olmazdı]. Ol bədbəxtin binayi-əqidəsi süst və peymani-imani nadürüst olmağın bu nəzərdən intidam bulub və bu təvəccöhdən mütəzəlzil olub, niyazi-aşiqanə ərz edüb ayıtdı. Şe'r:

Ey xurami əql bünyadindən istehkam alan,
Cilveyi-naz ilə əhli-eşqdən aram alan,

[1] Harada olursunuz olun, ölüm sizi mütləq yaxalar ("Qur'an", 4, 78).

Qandadır, ya Rəb, məqamin, ismü övsafin nədür?
Kimdür aya, şərbəti-lə'li-ləbindən kam alan?

Ol məkkareyi-səhharə ləbi-sehrəngiz açub ayıtdı: "Qəbileyi-Bəni Təmimdənəm və ismim Qütamədir və bir müddətdür ki, rəqəbeyi-təsərrüfümdən silsileyi-tə'əllüqi-təzvic mürtəfe'dür və xatəmi-qeydi-nikah ənamili-təcərrüdümdən müntəze'dür". Şe'r:

Gühərim riştədən mübərradür,
Cövhəri-fərdü-dürri-yektadür.

Qütamənün ləzzəti-göftari ələveyi-eşqi-rüxsar və zövqi-rəftar olub, İbn Mülcəmi-məl'unun şövqi ziyadə olmağın ayıtdı: "Ey nazənin, bən xəridari-gövhəri-vüsalın və müştaqi-dövləti-ittisalinəm, nola gər şərifi-qəbul ilə sərəfraz və səadəti-riza ilə mümtaz edəsən". Şe'r:

Eyləsən rəğbət dilü candan tələbkarəm sana,
Nəqdi-canım nəzri-vəslindür, xəridarəm sana.

Qütamə ayıtdı: "Bu bir əmri-'əzimdür, övliyamla məşvərət qılmadan müyəssər olmaz və əqrəba və ənsabdan rüxsət almayınca surət bulmaz". Qütamə mənzilinə mütəvəccih olub, İbn Mülcəm müntəziri-cəvab olub dışrada durduqda ol məl'unə əlbiseyi-əlvanla arayişi-qeyri-mükərrər qılub və cəvahiri-gunagunla myzəyyən olub. Şe'r:

Pirayədən ziyad olub büt lətafəti,
Dövranın oldu fitnəsi, dünyanın afəti.

Cilveyi-naz ilə [qürfə] üzərinə gəlüb, İbn Mülcəmə ərzi-didar edüb cəvab verdi ki: "Ey talibi-vüsalim və müştaqi-cəmalim olan sərgərdanü heyran, gövhəri-ittisalim qiyməti giranmayə və öhdəsindən çıxan mütəsərrif olur və şahbazi-vüsalim büləndpərvazdür, seydinə qüdrət bulan rəğbət qılur". Şe'r:

Hər kim istər vəsli-canan, tərki-can etmək gərək,
Yoxsa həsrətlər çəküb, ahü fəğan etmək gərək.

İbn Mülcəmi-bədbəxt dami-eşqə giriftar və məta'i-vəslə xəridar idi, təzərrö'lə ayıtdı: "Ey məxdumə, mehrin nədür?" Qütamə ayıtdı: "Bənim mehrim üç nəsnədür: biri üç bin dirəmi-Bəğdadi və biri cariyeyi-cəmilə və biri qətli-Əli ibn Əbu Talib". İbn Mülcəm ayıtdı: "Ey Qütamə, nəqdü cariyə məqbuldur, əmma qətli-Əli əmri-əzimdür və şüğli-vəhim". Qütamə ayıtdı: "Nəqdü cariyədən təcavüz etdüm, əmma qətli-Əli əqsayi-muradımdır, zira bənim qarındaşımla on nəfər əqrəba və ənsabım ləşkəri-Xəvaricdən idi. Anın şəmşiri-abdarı ilə şərbətifəna içmişlər, andan bu intiqamı almayınca qərarım olmaz və bu mühimmi kifayət qılmayan vüsalimdən bəhrə bulmaz". Bu mübaliğə əsnasında İbn Mülcəmin yadına Əli bin Əbu



Talibün gövtanı gəlüb ayıtdı: "Qaliba ki, bu əmr müqəddər olmuşdur və bu hökm səhifeyitəqdirdə təhrir bulmuşdur". Ol bədbəxtin irqi-nifaqı mütəhərrik olub ayıtdı: "Ey Qütamə, bu əmri qəbul edərəm bir zərblə, bəndən razı olasan". Qütamə ayıtdı: "Qəbul etdüm və bə'zi kimsənələr dəxi sənə mü'in və müzahir olmağa tə'yin edərəm. Əmma kəlamında sadiq isən, şəmşirini bana təslim et, ta şərtdən təcavüz etməyəsən". İbn Mülcəm şəmşirin ana təslim edüb, ol bədbəxt dili-pürkinə ilə mənzilinə rəvan oldu.

Rəvayətdir ki, ol gün Həzrəti-Əmir sə'adəti-iqballa ğəzayi-Nəhrəvandan müraci'ət qılub, cəmi'i-əhli-Kufə istiqbala çıxub tə'zim və təkrimlə ol şəhriyarı şəhrə gətürdilər və Həzrəti-Əmir məscidi-camеə yetdükdə hərəmsərasinə getmədən Düldüldən yenib məscidə qədəm basdı. İki rik'ət namaz qıldı və cəmii-övladü əşrafü ə'yani hazır edüb, payeyi-minbəriqüdumindən müşərrəf qılub, bir xütbə ağaz etdi həmdü sənaya müştəmil və bir nə'ti-Mustafaya möhtəvi. Və xasü ammı təriqi-və'zlə behiştə ümidvar və üqubati-duzəxdən xəbərdar etdikdən sonra canibi-yəminə nəzər salub İmam Həsənə ayıtdı: "Ya bunəyyə kəm bəqa min şəhrina haza"[1] və tərəfi-yəsara mail olub İmam Hüseynə ayıtdı: "Ya bunəyyə kəm məza min şəhrina haza"[2]. Dedilər: "On beşinci gündür". Və ol şəhri-Rəməzan idi. Pəs, dəsti-mübarək məhasini-şərifinə urub ayıtdı: "Bu ayda bu mükərrəm [yer] bənim qanımla xəzab olur və bənim qatilim bu məclisdədür". İbn Mülcəm bu təkəllümdən heybəti-'əzim alub xəlvətdə Həzrəti-Əmir xidmətinə gəlüb ayıtdı: "Ya Əmirəlmö'minin, səndən iltimasım budur ki, əmr edəsən ki bənim əllərümi qət' edüb siyasətə yetürələr". Həzrəti-Əmir ayıtdı: "Haşa ki, günahdan müqəddəm qisasa hökm edəm, əmma Rəsul bana xəbər verdi ki, sənin qatilün qəbileyi-Muradidən olub, bir murad üçün sənə zərbət ura, əmma muradına yetməyə. Ey İbn Mülcəm, sənə xəbər verəyim ki, sidqi-kəlamımı andan təhqiq edəsən. Əyyami-tüfuliyyətdə sənə mürəbbi olan bir yəhudi övrət idi və ol yəhudi bir gün qəzəb təriqilə sənə ayıtdı: "Ey naqeyi-Salehi zibh edən şəqidən əşqa". İbn Mülcəm ayıtdı: "Səddəqtə ya Əmirəlmö'minin"[3]. Bu nişanədən beğayət mütəəssir olub münfəil oldu.

Əlqissə, Həzrəti-Əmir şəraiti-məva'iz və nəsayihdən sonra məsciddən mənzilinə buyurub, bir gecə İmam Həsən məqamında iftar edərdi və bir gecə İmam Hüseyn mənzilində, əmma üç löqmədən ziyadə tənavül etməzdi. Ayıtdılar: "Ya Əmirəlmö'minin, qilləti-tə'ama səbəb nədür?" Dedi: "Və'deyi-mülaqati-Həq qərib olmuşdur, qərəzim ri'ayəti-təharətdür".

Rəvayətdir ki, Rəməzan ayının on doqquzuncu gecəsində ki, möv'idi-qətl idi, ol səbahədək ta'ətü ibadətə məşğul olub, hər saət səhni-sərayə çıxub, asimanə nəzər qılub, intizariva'də çəküb dedi ki: "Sədəqə Rəsulullah. Həqqa ki, hərgiz Rəsulullahın qövlü xilaf olmaz və lövhi-qəzadə təhrir olan xətti-təqdir mütləqa təğəyyür bulmaz". Şe'r:

Hər nə kim, təqdirdür, təğyir bulmaz, ey könül,
Lövhi-təqdirün xəti hərgiz pozulmaz, ey könül.

Ol zəman ki, mürği-səhər bu müsibətxaneyi-məlaləfzada suzü güdazla zəmzəməyə ağaz etdi və müəzzinlər sürudi ərbabi-ibadət səm'inə yetməyə və'də yetdi, ol müqtədayi-aləm və

[1] Ey oğlum, bu ayımızdan neçə gün keçdi?
[2] Ey oğlum, bu ayımızdan neçə gün qaldı?
[3] Ya Əmirəlmö'minin, doğru söylədin!

pişvayi-növ'i-bəni-Adəm vüzu tazə qılub dışra çıxmağa əzm etdikdə, ittifaqən ol sərayi-fərəhfəzada bir neçə mürğabi olub, rəhgüzarinə gəlüb, daməni-ismətin dutub zəbani-hal ilə fəryada gəldilər. Bənati-mütəhhərat anların mən'inə iqdam etdükdə Həzrəti-Əmir ayıtdı: "Ey cigərguşələr, mən'e tmən ki, bunlar bənim matəmim dutanlardır". İmam Həsən ayıtdı: "Ey məxdum, bu nə fali-namübarəkdür?" Həzrəti-Əmir ayıtdı: "Ey fərzəndi-səadətmənd, könlüm bu gün şəhadətimə şəhadət verür". Bəs cəmi'i-övladın hazır edüb, bir-bir məvaidə qılub bu məzmununi bəyana çəkərdi. Şe'r:

Canə yetdim möhnətü dərdü bəlayi-dəhrdən,
Eylədim əzmi-səfər möhnətsərayi-dəhrdən.
Meyli-seyri-laləzari-cənnət etdüm neyləyim,
Qönçəvəş könlüm dutuldu təngnayi-dəhrdən.
Necə bir avarə qılsun gərdişi-gərdun bəni,
Necə, bir könlüm figar olsun cəfayi-dəhrdən?!

Əlqissə, mütəvəccihi-məscid olub, bangi-nəmazın ədə qılub, nəmaza məşğul oldu və rəğbəti-təmamilə adəti-mə'hud üzrə dərgaha təvəccöh qıldı. Həm ol gecə İbn Mülcəmi-bədbəxt Qütameyi-məl'unə sərayinə gedüb və Qütameyi-bədsəadət İbn Mülcəmün tiği-bidiriğin zəhrlə sirab edirüb və Mərvan Təmimi və Şis ibn Bəhri-Əşcə'i peyda qılub, anın mü'avinətinə müqərrər qılmışdı. Ol üç həramzadə təmami-şəb məşğuli-şürbi-xəmr olub, kilabmanənd sübhdən məsti-xab ikən Qütamə ki, müntəziri-izhari-fəsad idi, avazi-bangi-nəmaz istima etdikdə ol qafilləri bidar edüb ayıtdı: "Ey bixəbərlər, durun ki, Əli məsciddə tənhadır". İbn Mülcəmi-biəman ol [iki bədbəxt ilə], əfzəli-zəmanın qətlinə yekcəhət olub, sür'ətlə məscidə gəlüb, kəndusin xab edənlər silkinə buraxdı. Həzrəti-Əmir təhiyyəti-məscid ədasından sonra xüftələri bidar etməgə təvəccöh qılub, ibn Mülcəmi ki, müqəddəmi-ərbabi-qəflət idi, mübarək qədəmilə tənbih edüb ayıtdı: "Qum və səlli"[1]. Və təcavüz edüb, yenə mehrabə gəlüb nəmaza məşğul oldu. İbn Mülcəm ol iki bədbəxti dəxi oyadub ayıtdı: "Durun, fürsət qənimətdür". Və "Tarixi-Təbəri" və bə'zi təvarixdə böylə məsturdur ki, Əmir hənuz bangi-nəmaza məşğul idi ki, ol həramzadələrün ikisi məscid qapusının iki tərəfində durub və İbn Mülcəm məscidə girüb müqərrər etdilər ki, müqəddəm ol iki namərd zərbə edələr, əgər heç biri kargər olmasa, İbn Mülcəm təmam edə.

Əlqissə, Həzrəti-Əmir məscidə qədəm basdıqda, Mərvan Təmimi tiğ buraxdı, rədd olub tağı-dərgahi-məscidə uğradı. Anın əqəbincə Şis ibn Bəhr şəmşir həvalə qıldı. Kargər olmayub fərar etdilər və Həzrəti-Əmir dilü canla şəhadətə rağib olmağın iltifat etməyüb nəmaza iştiğal etdikdə İbn Mülcəmi-bədbəxt fürsət bulub, səcdeyi-uladan baş götürdükdə fərqi-mübarəkinə şəmşiri-zəhralud yetürdi. İttifaqən ol mövze'yə yetdi ki, ruzi-hərbi-Xəndəq Əmr bin Əbdüvəd tiğilə qıldı.

Həzrəti-Əmir ayıtdı: "Fuztu bi-rəbbil-kə'bəti"[2], yə'ni dami-qəmdən nəcat buldum və dairei-ələmdən azad oldum.

[1] Qalx və namaz qıl!
[2] Kə'bənin sahibinə and olsun ki, xilas oldum.



İbn Mülcəmi-bədbəxt bu hərəkət südurindən sonra fərar edüb, avazə düşdü ki: "Qutilə Əmirulmu'minin"[1].

Əhli-Kufə siğarü kibar mütəvəccihi-məscid olub və Həsən və Hüseyn ittila' bulub cameyiçak və dideyi-nəmnakla hazır olduqda, gördülər qəndili-mehrabi-imamət səngi-bidadla şikəst bulmuş və nihali-nəxlistani-vilayət sərsəri-cəfa ilə paymal olmuş. Səri-niyaz qədəmi-mübarikinə qoyub fəğanə başladılar. Və Həzrəti-Əmir dəmbədəm fərqi-mübarəkindən xunabəyi alub, rüxsari-lətif və məhasini-şərifinə sürüb mübahat edərdi ki, "əlminnətü-lillah, sə'adəti-şəhadət nəsibim olub, bu nişanə ilə tövfi-bargahi-kibriya və mülaqati-Həzrəti-Mustəfa və müşahideyi-didari-Zəhra və müsafiheyi-Həmzeyi-seyyidi-şühəda və müxaliteyi-Cə'fəri-Təyyar etsəm gərək və bu seylabi-xunabla zövrəqi-muradım rəvanə olub mənzili-məqsuda yetsəm gərək". Şe'r:

Şükr kim, bağı-muradım gülü açıldı bu gün,
Həq bəni vasili-iqlimi-bəqa qıldı bu gün.

Şəhzadələr "Va veyla va musibətah"[2] – deyüb və xassü ammi-Kufə şəraiti-'əzaya iqdam edüb derlərdi. Şe'r:

Ey sipehri-bivəfa, bihudə dövran eylədün,
Qəsdi-din etdin, binayi-şər'i viran eylədün.
Sərnigun qıldın ibadət minbərü mehrabini,
Mə'bədi-İslami topraq ilə yeksan eylədün.
Ləşkəri-İslami qoydun sərvərü sərdarsız,
Noldu, ey zalim ki, qəsdi-Şahi-Mərdan eylədün?!

Əlqissə, Həzrəti-Əmirin zəxmin bağlayub sual etdilər ki: "Sənə kimdən vaqe' oldu bu cəfa?" Buyurdu ki: "Səbr edün, 'əyan olacaqdır, yəqin ki, bu əməl mürtəkibin Həq rüsva qılacaqdur". Bu hala müqarin Şis ibn Bəhr fərar edüb gedərkən bir kimsənə anı müztərib görüb sual etdi ki: "Məgər sənsən qatili-Əmirəlmö'minin?" İnkar etmək istədi, zəbaninə iqrar cari oldu. Xəlqi-Kufə onu ləgədkub etdilər. Əmma İbn Mülcəmi-münafiq məsciddən çıxub, hücrəsinə girüb əsbab və əslihəsin buraxmaqda ikən Kufə əhlindən bir kimsənə anı gördükdə gümana düşüb ayıtdı: "Məgər sənsən qatili-Şahi-Mərdan?" Ol məl'un "la" deməkdən "nə'əm" dedi. Ol kimsənə giribanın dutub məscidə gətürdi.

Və bir rəvayət dəxi oldur ki, məsciddən çıxub səhraya mütəvəccih ikən Həmədan qəbiləsindən bir kimsənə anı gördü əlində şəmşiri-xunalud, cür'ət edüb ol məl'unu dutub, hücumi-ammlə bağlayub, məscidə gətürdi. Həzrəti-Əmir ol məl'una itab təriqilə ayıtdı: "Ey bəradər, məgər bəndə ləyaqəti-əmarət yox idi ki, vücudum rəf' etməgə iqdam etdün". Dedi: "Mə'azəllah". Həzrəti-Əmir ayıtdı: "Pəs, nə bais oldu ki, övladimi yetim qoyub xanədanimə rəxnə buraxdun?" İbn Mülcəm ayıtdı: "Ya Əmir, həsənatdan qeyr səndən mənə yetməmişdür, əmma

[1] Əmirəlmö'minin öldürüldü.
[2] Vay başımıza gələn müsibət!

nə çarə, "Kanə əmrullahi qədərən məqdurən"[1]. Həzrəti-Əmir buyurdu ki: "Anı həbs edün və bən həyatda olduqca bən tənavül etdigüm tə'amü şərabdan ana verün və cəfa qılman. Əgər bən bu qəziyyədən nəcat bulsam, səlah bənimdür və əgər nəcat bulmasam, ol bənə bir zərb urdu, siz dəxi ana bir zərb urun".

Həsbül-fərman İbn Mülcəmi həbs edüb, Həzrəti-Əmiri Həsən və Hüseyn bir fəraş üzərə götürüb məsciddən çıxardılar. Ol saət əsəri-sübhi-sadiq peyda olmuşdu. Həzrəti-Əmir ayıtdı: "Ey cigərguşələr, bəni mütəvəccihi-məşriq dutun". Mütəvəccihi-məşriq olub ayıtdı: "Ey sübhi-sadiq, ol Pərvərdigar həqqiçün ki, anın şövqilə giribanım çakdür, ruzi-məhşər şəhadət verəsən ki, Həzrəti-Rəsuldan tə'limi-nəmaz alduğum gündən bu günədək sən bəni qafil bulmayub, həmişə bən sənə istiqbal etmişəm". Andan sonra təvəccöh asimana edüb ayıtdı: "İlahi, bu əhvala sən güvahsan; ruzi-məhşər ki, yüz iyirmi dörd bin peyğəmbər və ərvahi-övliya və şühəda ərş altında hazır olalar, şəhadət verəsən". Hüzzari-məclis xüruşü qülqülə ağaz etdilər. Şe'r:

Cəhanı əbri-afət qərqi-seyli-iztirab etdi,
Dili-əhli-vəfani ataşi-heyrət kəbab etdi.
Mədəd kim, dövri-zalim ruzigarın rövnəqin pozdu,
Fəğan kim, aləmi gərduni-dunpərvər xərab etdi.

Əşrafi-Əhli-Beyt iztirabi-təmamla fəryadü fəğan etdikcə Həzrəti-Əmir anlara təsəlli verüb derdi: "Ey şahzadələr, bən Mustəfa xidmətinə və Zəhra söhbətinə müşərrəf oluram, bənim üçün təəssüf çəkmən və cəzə' qılman; zira bu gecə vaqiəmdə gördüm ki, Həzrəti-Rəsul astini-mübarəkilə çehrəmdən qübari-küdurət pak edərdi. Bu dəlildir ki, çehreyi-canimdən qübari-bədən rəf' olur". Şe'r:

Xoş ol zəman ki, çıxub Yusifim bu zindandan,
Qübari-tən ola mərfu' çehreyi-candan.

Rəvayətdir ki, Həzrəti-Əmir üzərinə cərrah gətürdilər. Cərrah ol zəxmi-münkərə nəzər qıldıqda fəryada gəldi ki, "Bu, zəxmün şəmşirinə zəhrab vermişlər, cərəhati qabili-əlac degil". Və bir rəvayət dəxi oldur ki, cərrahdan müqəddəm Ümm Gülsüm İbn Mülcəmi həbsdə görüb ayıtdı: "Ey bədbəxt, bu nə əndişeyi-batildi ki, qıldun Həzrəti-Əmirə, behər hal sənün zəxmin əsər qılmaz, əmma sənün halın nolur?" İbn Mülcəm ayıtdı: "Ey xatun, bən ol tiği bin altuna alub və bin altun dəxi verüb zəhrlə sirab etmişəm, cərəhətindən aman mümkün degil". Və bu vaqi'ə Rəməzan ayının igirmi birində idi. Həzrəti-Əmir vəsiyyət yazub, övladları ilə vida' edüb, Ümm Gülsümə ayıtdı: "Ya binti, əğliqi 'la əbikil-babə"[2]. Ümm Gülsüm hicrə qapusın məsdud edüb, Həsən və Hüseyn dışrada giryan-giryan otururkən nagah bir səda eşitdilər ki, bir hatif derdi: "Əfəmən yəlqa finnarə xeyrun əmmən yə'ti aminən yovməl-qiyaməti"[3]. Və bir hatif dəxi derdi: "Bəli mən yə'ti aminən yovməl-qiyaməti"[4].

[1] Allahın işi təqdir edilmiş qədərdir ("Qur'an", 33, 38).
[2] Ey qızım, atanın qapısını ört.
[3] Atəşə atılanmı, yoxsa qiyamət günü əmin olaraq gələnmi daha xeyirlidir ("Qur'an", 41, 40).
[4] Əlbəttə, qiyamət günü əmin olaraq gələn daha xeyirlidir.



Və bir rəvayət dəxi oldur ki, hücrədən "Lailahə illəllah Muhəmmədən Rəsulullah"[1] kəliməsin istima' etdilər. Şahzadələr biixtiyar hücrəyə girdikdə gördülər aləmi-bəqayə intiqal etmiş.

"Şəvahidün-Nübüvvət"də məsturdur ki, Əhli-Beyt demişlər: "Həngami-vəfati-Murtəza qeybdən bir səda gəldi ki: "Çıxın hücrədən, bu bəndeyi-pake'tiqadi kəndu halinə qoyun". Biz hücrədən çıxdıqda hücrədən bir səda gəldi ki: "Diriğa, Məhəmmədi-Mustəfa vəfat etdi və Əliyyi-Murtəza şəhid oldu. Aya, kimdür anlardan sonra ri'ayəti-ümmət qılan!" Bir hatif dəxi nida yetürdi ki, anların sirətlərilə mütəxəlliq olan avaz sakin olduqda hücrəyə girdük, gördük müğəssəl və mükəffən olmuş. Üzərinə nəmaz qılub götürdük. Və bir rəvayət dəxi oldur ki, Həzrəti-Əmir vəsiyyət etdi ki: "Bən köçdükdə divari-səradən bir lövh peyda olur, bəni ol lövh üzərinə buraxun, gögdən kəfən və hənut zahir olur, təğsilü təkfinim təmam olduqda, bəni bir tabuta qoyub səhni-sərada qoyun. Üzərimdə bir növbət İmam Həsən və bir növbət İmam Hüseyn nəmaz edüb, tabuti götürün, hər qanda ki, səri-tabut meyli-xak edərsə ol büq'əyi həfr edün. Sacdan bir tabut çıxar bəni ol tabutla anda dəfn edün". Və bu dəxi "Şəvahidün-Nübüvvət"də məsturdur ki, Həsən və Hüseynə vəsiyyət etmiş ki: "Məni tabuta qoyub götürün, Qəribeyn deməklə mə'ruf zəminə ilətüb anda bir zümürrüdfam həcər zahir olur, bənim mədfənim andadür".

Vəsiyyət müqtəzasincə əməl qılub, hala məşhur olan məqamda dəfn etdilər və təə'rrüzi-süfəhadan ehtiraz edüb, qəbri-mübarəkin məstur qıldılar. Və həmişə məstur idi ol zamanədək ki, Harunərrəşid müstövli oldu. Bir gün ol nəvahidə şikar edərkən bir püştə gördü ki, bə'zi canvərlər onda mütəhəssin olmuşlar və hər necə ki cəvarih buraxdılar canvərlərə meyl etmədilər. Bu hala mütəhəyyir olub bir pirə ol qəziyyə sirrin sual etdikdə ayıtdı: "Əcdadimdən istima' etdüm ki, mərqədi-Əli ibn Əbi Talib bundadur". Harunərrəşid tərki-şikar edüb, ol mövze'də təcəssüs edüb, əsərin görüb mə'mur etdi. Əyyami-həyatında anı ziyarətgah etmişdi.

Əlqissə, şahzadələr Şahi-Mərdanı gecə ikən götürüb Kufədən çıxarub vəsiyyət etdügi mənzildə dəfn etdürüb müraciət qıldıqda 'əzaya məşğul olub, xəlqi-şəhr dəf'ə-dəf'ə gəlüb şəraiti-tə'ziyət əda qılurlardı. Əmma hər necə istifsar edələrdi ki, şahzadələr Həzrəti-Əmirün mərqədi-münəvvəri və məşhədi-mü'əttəri qandadur, ta ziyarəti-şərifinə müşərrəf olub qibleyi-hacat edəlüm. Şe'r:

Billah ol şahi-şəhriyar qanı,
Sərvəri-əhli-ruzigar qanı?
Cümleyi-dərdimiz təbibi olan,
Məzhəri-lütfi-kirdigar qanı?
Ol əgər getdi isə aləmdən,
Ol məqam etdügi məzar qanı?

Qət'ən əsər bulmazlardı [və] məzarından vaqif olmazlardı. Rəvayətdir ki, Həsən və Hüseyn Həzrəti-Əmiri dəfn edüb müraciət qıldıqda bir fəqirə sataşdılar ki, avazi-həzinlə fəğan edər-

[1] Allahdan başqa Tanrı yoxdur və Məhəmməd Allahın rəsuludur.

di; halın sorduqda ayıtdı: "Ey əzizlər, bən qəribi-məhcuram, möhnətim çox, qəmxarım yox". Dedilər: "Bu övqatda qəmxarın kimdi?" Dedi: "Bir il miqdarı idi ki, hər gün bu şəhərdən bir şəxs üzərimə gəlüb bənimlə müanisət qılub, cəmii-mayəhtacım hazır edüb gedərdi". Dedilər: "İsmi nədür?" Dedi: "İsmin sordum, cəvab verdi ki, bənim mərhəmətim rizayi-Həq içündür, şöhrət içün degil". Dedilər: "Surətü hey'əti nədür?" Dedi: "Bən ə'mayəm, əmma bu qədər bilürəm ki, iki gündür üzərimdən qədəm çəküb əhvalımdan nəzəri-iltifat diriğ edübdür". Dedilər: "Nişaneyi-ətvarı nədür?" Dedi: "İştiğali-təsbih və təhlildür; həqqa ki, sədayi-təsbihü təhlilinə məlaikədən cəvab eşitdim, bəlkə dərü divardan tə'zimü təkrimin ehsas etdim və hər saət mücalisətimdən məsrur olub derdi: "Miskinun caləsə miskinən və qəribun caləsə qəribən"[1]. Şahzadələr bu xəbərdən giryan olub ayıtdılar: "Ey dərviş, bu nişanələr Əli bin Əbu Talib nişanələridir". Və dərviş ayıtdı: "Ey məxdumzadələr, ana nə vaqe' oldu?" Dedilər: "Bir bədbəxt anı şəhid etdi və hala biz anın mərqədindən gəlirüz". Dərviş ol xəbərdən müztərib olub, fəğana başladı, ayıtdı: "Ey şahzadələr, cəddi-büzürgvarınız və pədəri-alimiqdarınız hörməti həqqiçün ki, bəni ol sərvərin məzarı üzərinə hidayət qılun". Şahzadələr rəhm edüb, bir əlin Həsən və bir əlin Hüseyn dutub Həzrəti-Əmirin mədfəni-şərifinə yetürdilər. Ol dərviş qəbr üzərinə düşüb ayıtdı: "İlahi, bu mərqədi-şərif hörməti həqqiçün bəni qəmxarsız qoyma, ol qəmxara vasil et". Duası müvafiqi-hökmi-qəza olub, filhal nəqdi-can nisari-mərqədi-Şah etdi". Şe'r:

Qətrə dəryaya ittisal etdi,
Zərrə xurşidə intiqal etdi.

Şahzadələr ol dərvişin üzərinə nəmaz edüb həm ol mövze'də dəfn etdilər. Filvaqe', vəfati-Şahi-Mərdan Şəhidi-Kərbəlaya nisbət ə'zəmi-məsaib və əkbəri-nəvaib idi. Zira cəmi'i-məkkarədən hisni-həsin və hisari-mətin olub, mənhəci məaribdi. Lacərəm qürubi-aftabi-şövkəti mövcibi-istilayi-zülməti [-zülmü] fəsad olub, izaleyi-zilli-rə'fəti baisi-iqtizayi-tüğyani-üdvanü 'inad oldu. Şe'r:

Şahın himayətində ikən hərgiz etmədi,
Gülzari-xanədana nəsimi-bəla güzər.
Qətlindən ol şəhin nəmi-xunab çəkmədən
Ali-Əbaya nəxli-bəla vermədi səmər.

---

[1] Miskinlə miskin kimi otur və qəriblə qərib kimi.



## ALTINCI BAB

## İMAM HƏSƏN HƏZRƏTLƏRİ ƏHVALIN BƏYAN EDƏR

Həzrəti Sultani-səriri-Kibriya və maliki-mülki-"Tö'til-mulkə mən tə'şau"[1] xəvasi-dərgahi-rif'ət dəstgahinə irşad təslimü təvəkkül qılub, cəvabi-tə'nü təərrüz tə'lim etmiş ki "Qul lən yusibəna illa makətəbəllahu ləna huvə məvlana və ələllahi fəl-yətəvəkkəlil-mu'minunə"[2] və nəvvabi-bargahi-aləmpənahinə ihdayi-səbili-səbrü təhəmmül edüb, bu ibarətlə təskin və təmkin vermiş ki, "Və-ma-səbrukə illa billahi"[3]. Şe'r:

Sənə gər mənzili-məqsudə yetməkdir murad, ey dil,
Pərişan gəzmə hər canib, rəhi-səbrü təhəmmül dut.
Tərəddüd pəncəsindən cəhd edüb qurtar giribanın,
Kəfi-ixlaslə damani-təslimü təvəkkül dut.

Həqqa ki, nihali-rizayi-İzədi-Cəbbar cuybari-təslimü təvəkküldən sirab olmayınca andan ictinab etməz, dəvami-ne'mət və tə'tifi-əzhari-bəqayi-sə'adət mümkün olmaz və çirağı-iqbali-qürbi-dərgahi-İlah atəşi-səbrü təhəmmüldən izaət almayınca əhli-zülmət sərasın münəvvər qılmaz. Şe'r:

Kimi kim, sevər saqiyi-ruzigar,
Ana sağəri-səmmi-qatil verür.
Kimün kim, bilür ehtiramın rəva,
Ana cami-zəhri-həlahil verür.

Çün, vüqu'i-məsaib və hüdusi-nəvaib lazimeyi-vücudi-aləmdür, bəlkə əksəri-əczayi-tərkibi-aləm hürufi-ələmdür, lacərəm hər məzərrətləri müsibəti-qeyri-mükərrər və əhli-cəzə' həmişə müəzzəbi-müsibət olmaq müqərrərdür. Şe'r:

Cəzə' taqdirə çün təğyir verməz,
Qəzayi-mübrəmə tə'xir verməz.
Bəla vəqti ana rəğbət xətadür,
Bəla üzrə cəzə' həm bir bəladür.

Əlhəq, daireyi-təslimü təvəkkül bir həsari-müstəhkəmdür ki, mütəhəssinlərinə şəbixuni-sipahi-nəvaibdən əsəri-afət yetməz və məqami-təfviz bir hisni-mətini-mübrəmdir ki, mütək-

---

[1] İstədiyinə mülk verirsən ("Qur'an", 3, 26).
[2] De ki, Allahın bizə təqdir etdiyindən başqa bir şey baş verməz. O bizim mövlamızdır və mö'minlər yalnız Allaha arxalanırlar (sığınırlar) ("Qur'an", 9, 51).
[3] Səbrin yalnız Allahın yardımı ilədir ("Qur'an", 16, 127).

kinlərinə hücumi-seylabi-hadisə tə'siri-afət etməz. Hər ayinə dövran bəzminün zəhri-müsibəti əhli-təslimə şəhdi-səfadür və fələki-cəlladın tiği-siyasəti ərbabi-təfvizə miftahi-gəncineyi-ətadür. Şe'r:

Mə'nidə zəhrlə dolu bir şişədir sipehr,
Andan pür eyləyüb qədəhi-mehri hər səhər
Saqiyi-dəhr xəlqə bərabər dutar, vəli,
Təhsin ana ki, etməyüb ol zəhrdən həzər
Nuş edə öylə kim, şəhi-dünyavü din Həsən,
Nəqdi-nəbi, çirağı-mələk, zübdeyi-bəşər.
Pabəsteyi-səlasili-hüsni-rizayi-dust
Sərməsti-nəş'eyi-meyi-xunabeyi-cigər.

Bu məzmun məsturi-şərəfnameyi-"Şəvahid"dür, bəlkə, mö'təqidi-əkabiri-ərbabi-əqaid ki, Həzrəti-İmam Həsən ikinci imamdır ə'immeyi-isna əşərdən və künyəti-şərifi Əbu Məhəmməd və ləqəbi-lətifi Nəqi və tövfiqi-viladəti hicrətin üçüncü ilində Rəməzan ayının əvasitində Mədineyi-münəvvərədə vaqe' oldu. "Səhifeyi-Rəzəviyyə"də məsturdur ki, Əsma binti-Ümeyşdən nəql olunub ki, demiş: "İmam Həsən viladətində mən qabilə idim. Ol afitabi-övci-sə'adət asimani-ismətdən füruzan olduqda və nihali-gülşəni-vilayət hədiqeyi-iffətdən nəşvü nəma bulub fəzayi-vücuda gəldikdə Həzrəti-Rəsul vaqif olub, Fatimə hərəmsərasinə sayeyi-sə'adət buraxub, şahzadənün izarinə əmr etdi. Bən İmam Həsəni bir kəhrəbayi xirqəyə sarub xidmətinə gətürdüm. Həzrəti-Rəsul lütflə ayıtdı: "Ey Əsma, sənə kərratla deməsaid ki, bənim övladımı sarı xirqəyə sarma". Bən dəxi həsbülişarə anı bir kafurfam xirqəyə sarub mübarək əlinə verdüm, Həzrət ana təlqini-bangi-nəmaz edüb, Həzrəti-Əlidən sual etdi ki, "Bu tiflə nə nam tə'yin etdün?" Murtəza ayıtdı: "Ya Rəsulullah, övladın təsmiyəsində həzrətinə təqəddüm etməzəm, əmma xatirimdə bu idi ki, səlahi-şərəfin olsa Hərb [təsmiyə] edəm, ya Həmzə".

Həzrət [m-Rəsul] buyurdu ki: "Hökmi-Xuda müqəddəmdür". Bu halətdə Cəbrail nüzul edüb ayıtdı: "Ya Rəsulullah, [Həzrəti Əliyyi-Ə'la] [sənə] səlam irsal edüb buyurdu ki, Əli sənə Musaya Harun mənziləsindədür, anın oğlun Harun oğlunun ismilə mövsum et". Həzrət buyurdu ki, anın ismi nədür? Həzrəti-Cəbrail ayıtdı: "Şəbbər və Şəbbər siryani dilində Həsən deməkdür". Pəs həsbülhökm ol məxdumzadənin ismi-şərifin Həsən etdilər. Rəvayətdir Ənəs bin Malikdən ki, İmam Həsən əşbəhi-övlad idi Həzərti-Rəsulullaha və "Səhifə"də Bən Ğarib nəqlilə məsturdur ki: "Gördüm bir gün Həzrəti-Rəsul İmam Həsəni köksünə alub buyurdu: "Əllahummə innə uhibbəhu fəhibbihi"[1], yə'ni bu şahzadəyi bən sevərəm, sən dəxi [sev]". Və dəxi buyurdu ki, "Bən bu şahzadəyi sevərəm və sevəni dəxi sevərəm". Əbu Hüreyrədən mənquldur ki, dedi: "Hərgiz İmam Həsənün rüxsari-şərifin görmədüm km, ləzzəti-fərəhdən çeşmimi çeşmə-çeşmə şadabi-sürur tökmədi.

---

[1] Allahım, onu sevirəm, sən də sev!



Bir gün Həzrəti-Rəsul məsciddə ibadətə məşğul ikən İmam Həsən hazır olub kənari-şərifinə çıxıb gisuları ilə mülaibə edərdi; Həzrəti-Risalət rüxsarin rüxsarinə sürüb derdi: "Əllahummə əhibbəhu və əhibbə mən yühibbəhu"[1]. Şe'r:

Məhi-gərduni-iffətü ismət,
Həm Həsən namü həm həsənsirət.
Əvvəlin gövhəri-xəzaneyi-cud,
Axirin nəqşi-kargahi-vücud.
Mətlə'i-nəzmi-Əhli-Beyti-Nəbi,
Nuri-çeşmi-Məhəmmədi-ərəbi.
Lə'li-nabi ki, ruhpərvər idi,
Qeyrəti-şəhdü rəşki-şəkkər idi.
Dövri-zalimdən oldu zəhraşam,
Zəhr lə'lin qılub zümürrüdfam.
Cigərin parə-parə qıldı anın,
Əxgərini şərarə qıldı anın.
Amm olub bir şərarənin əsəri,
Bir cigər dağı oldu hər şərəri.

Sünəni-Tirmizidə məsturdur İbn Əbbasdan ki, Həzrəti-Rəsul bir gün İmam Həsəni kətfi-mübarəkinə alub dışra çıxdı. Səhabədən biri ayıtdı: "Nə'əm əl-mərkəbu"[2]. Həzrəti-Rəsul iltifat təriqilə ayıtdı: "Nə'əm ər-rakibu"[3]. "Şəvahid"də məsturdur ki, bir gün Həzrəti-Rəsul məclisə gəlüb, İmami-Həsəni hazır edüb hüzzara ayıtdı: "Bənim bu xələfim seyyiddür və sərvərdür və əqrəb zəmanda bunun səbəbilə-islah ola iki güruhun arasında". Və övzəhi-dəlaili-fəzaili-Həsən və Hüseyn bu yetər ki, Həzrəti-Rəsul buyurmuş ki, "Əl-Həsənu vəl-Huseynu seyyida şubbani əhlül-cənnəti"[4]. Və kitabi-"E'lami-Vəra"da İbn Əbbasdan nəqldür ki dedi: "Bən Həzrəti-Rəsul xidmətində idim, Fatimə giryan-giryan gəlüb ayıtdı: "Ya seyyid, Həsən və Hüseyn hücrədən çıxub müddəti-qeybətləri imtidad buldu və Həzrəti-Əli hazır degil ki, mütalibət qıla, çarə nədür"? Həzrəti-Rəsulullah ayıtdı: "Ey Fatimə, qəm çəkmə ki, Həzrəti-İzəd anların hifzinə bizdən övladır". Pəs, du'a qıldı ki, "İlahi, ol şahzadələri əgər dəryada isə zövrəqi-inayətlə kənara yetür və əgər səhrada isə bədrəqeyi-hidayətlə mənzilə gətür". Filhal Cəbrail nüzul edüb ayıtdı: "Ya Rəsulullah, anlar əfazili-əhli-dünya və ə'azimi-əhli-üqbadır və validələri anlardan ə'ladür; heç ələm çəkmə, ol şahzadələr Bəniün-Nəccar həzirəsində asayişdədürlər və Həzrəti-İzəd iki firiştə anlarun hifzinə müvəkkil edüb, balü pərlərin anlara ğita və fəraş edüb xidmətlərinə məşğuldürlər".

Həzrəti-Rəsul ol həzirəyə rəvan olub, İmami-Həsəni götürdi və İmam Hüseyni bir firiştə götürüb gəlürkən Əbu Əyyubi-Ənsari firiştəyə ehsas etməyüb təsəvvür etdi ki, şahzadələ-

---

[1] Allahım, onu sev və onu sevəni də sev!
[2] Nə gözəl bir minik.
[3] Nə gözəl bir minici.
[4] Həsən və Hüseyn cənnətdəki gənclərin seyyididir.

rin ikisi dəxi Rəsulullahdədür. Təhəhhüm qılub ayıtdı: "Ya Rəsulullah, bu iki şahzadənin birin bənə ver bən götürəyəm ki, həzrətinizə səbükbarlıq hasil ola". Həzrəti-Rəsul ayıtdı: "Ey Əyyub, bunlar mükərrəmlərdür dünyada və möhtərəmlərdür üqbada. Validələri kəndülərdən əşrəfü əfzəl". Pəs, canibi-səhabəyə təvəccöh qılub ayıtdı: "Ey qövm, xəbər verəyim sizə cəddü cəddə cəhətindən əşrəf kimdür?" Dedilər: "Kimdir, ya Rəsulullah?" Buyurdu ki, "Həsən və Hüseyn ki, cəddləri Rəsul və cəddələri Xədiceyi-binti-Xüveylədür, əşrəfi-qəbaili-ərəb". Dedi: "Xəbər verəyim valid və validə cəhətindən kimdür əşrəf?" Dedilər: "Kimdür?" Dedi: "Həsən və Hüseyn ki, validləri Əli ibn Əbi Talibdür və validələri Fatimə binti-Rəsulullah". Dedi: "Xəbər verəyim sizə ki, xalü xalə cəhətindən kimdür əşrəf?" Dedilər: "Kimdür? Dedi: "Həsən və Hüseyn ki, xalləri Qasim ibni-Rəsulullah və xalələri Zeynəb binti-Rəsulullah". Dedi: "Xəbər verəyim sizə əmmü əmmə cəhətindən kimdür əşrəf?" Dedilər: "Kimdür?" Dedi: Həsən və Hüseyn ki, əmmləri Cəfəri-Təyyar və əmmələri Ümmü Hani binti-Əbi Talib. Şe'r:

Qandadur böylə bir şərəflü nəsəb,
Mə'dəni-fəzli-izzü elmü ədəb.
Sifəti-Həzrəti-Hüseynü Həsən
Cümleyi-kainatədür rövşən.
Ol biri paki-nəqdi-Mustəfəvi,
Bu biri nuri-çeşmi-Murtəzəvi.
Ol biri bədri-asimani-kəmal,
Bu biri sərvi-cuybari-cəmal.
Ol biri afitabi-övci-yəqin,
Bu biri gülbüni-hədiqeyi-din.
Hər biri bir hümayi-cilvənüma,
Rəfə'əllahu iqtidarəhuma"[1]

Rəvayətdir ki, İbn Zübeyrlə səfərdə ikən bir gün nəxlistana yetdilər ki, nəxllərində əsəri-təravət qalmamışdı! Anda qərar dutub İbn Zübeyr arzu qıldı ki, nolaydı bu dirəxt[lərdə] rütəb zahir olaydı. Həzrəti-İmam Həsən ruyi-niyaz dərgahi-biniyaza dutub, du'aya iştiğal edüb duası icabətə yetdi. Filhal bir nəxl təravət peyda qılub rütəb zahir etdi. Bə'zi şəkkaklar anı sehrə həml etdikdə, Həzrəti-İmam ayıtdı: "Bu sehr degil, əmma əsəri-feyzi-Həzrəti-Rəsulullahdür". Əlqissə, ol şahzadələrə mənsub olan kəramatü vəlayat əhateyi-həsrə gəlməz və bu müxtəsərdə mərqum olmağa qabil olmaz". Şe'r:

Həsən vəsfinə yoxdur həddü qayət,
Vəfa qılmaz ana həsri-rəvayət.
Sözü zikri-səfi hər əncüməndür,
Dəlili-hüsni ol bəs kim, Həsəndür.

[1] Allah onun ikisinin qüdrətini ucaltsın.



Əmma raviyi-əxbari-cigərsuz və haviyi-əsari-qəmənduz bu təriqlə ol şəhzadeyi-aləmpənahun vəqayei-əhvalindən xəbər vermiş və bu sürudla zümzümeyi-əxbari-şəhadətin-məsami'i-əhli-ruzigara yetürmiş ki, çün Həzrəti-Şahi-Övliya səriri-xilafəti ol Həzrətə təslim edüb, əhkami-şər'iyyə nəfazın ana tövfiz etdi və növbəti-riyasəti-ümmət tədriclə ol padşahi-rif'ətdəstgaha yetdi, ol Həzrət şəraiti-tə'ziyət ədasindən sonra xassü ammı cəm' edüb, payeyi-minbəri qüdumi-şərifilə müşərrəf qılub, ol qaimməqami-Həzrəti-Mustəfa və nayibmənabi-Həzrəti-Murtəza lisani-bəliğ və zəbani-fəsihlə bir xütbə ağaz etdi və moizəsindən sonra nida qıldı ki: "Ey sükkani-sərapərdeyi-hökmi-şəriət və ey hüzzari-xətireyi-təqvavü təharət, bənəm ibnül-başir, bənəm ibnül-nəzir, bənəm varisi-sultani-təxti-risalət, bənəm canişini-hakimi-mülki-vilayət. Cəddi-pakim sizi dini-həqqə də'vət etdi və validi-büzürgvarimdən sizə sə'adəti-hidayət yetdi. Hala bən dəxi sizi anların təriqinə ehda qıluram və mühəqqəq bilun ki, bana iqtida anlara ittibadür və bana müxalifət anlara imtina'dür".

Bu hala müqarin Əbdullah ibn Əbbas ayağa durub ayıtdı: "Ey qövm, bu məxdumzadə fərzəndi-Rəsulullahdür, sizdən iqrari-təv'i-imamət və izhari-bey'ət istər, nə dersiz?" Cəmi'i-hüzzari-məclis fəryad etdilər ki, "Səmi'na və ətə'na"[1]. Qaideyi-bey'ət təmam olduqdan sonra İbn Mülcəmi hazir edüb ayıtdı: "Ey bədbəxt, Həzrəti-Əli sənə nə yaman etmişdi?" İbn Mülcəm ayıtdı: "Ey şəhzadə, olacaq vaqe' oldu. İmdi əgər icazətin olsa, hakimi-Şam ki, məsnədinə sahibi-də'vadür, anın qətlin qəbul edərəm". Həzrəti-İmam Həsən tətvili-kəlama fürsət verməyüb bir zərblə ol məlidi həlak edüb buyurdu ki, cəsədi-məlidin ehraq etdülər. Ol canibdən xatir təsəlli etdükdən sonra nizami-mülkü millət və nəsəqi-əhkami-dinü dövlət iştiğalında olub, əndək zəmanda otuz bin mücahid hey'ətə girdi və cəmi'yyəti-əsakiri-nüsrətmə'asir məsnədi-xilafətə rövnəq verdi. Şe'r:

Buldu xurşidi-cəhantabi-xilafət irtifa,
Şö'leyi-aləmfüruzu saldı hər canib şüa.

Bu xəbərdən hakimi-Şam mütəzəlzil olub, altmış bin mübarizlə mütəvəccihi-zəbti-İraq oldu və Həzrəti-İmam Həsən qırx bin mücahidlə Kufədən çıxub istiqbal təriqilə Əbdürrəhman deyrin müxəyyəmi-xiyami-nüzuli-orduyi-hümayun qıldı. Ol mənzildən Qeys bin Sə'di iki bin namdarla təleyi-sipahi-zəfərpənah edüb, kəndü mütə'aqib rəvan oldu. Mərhələ-mərhələ gedərkən sabati-Mədainə yetdükdə istirahət təriqilə bir neçə gün təvəqqüf etdi. Çün şahzadə əksəri-övqatda zikr edərdi ki, "Bən ixtiyarla mürtəkibi-xüsumət olmazam və kimsə ilə səltənəti-dünya içün münazıə qılmazam", həvayi-nəhbü qarət üçün cəm olan ləşkər şəhzadənin təvəqqüfündən güman etdilər ki, anda müharibə meyli yoxdur. Bu əndişə əqidələrin fasid edüb, müvafiq ikən müxalif oldular və italeyi-əyadi təğəllüb edüb cəmi'i-əsbabü cihazın yəğma qıldılar. Və Həzrəti şahzadə bə'zi xasla mütəvəccihi-Mədain olub, gedərkən Xəzrəc bin Dəhiyyə Əsədi ki, çoxdan mütərəssidi-fürsəti-azar olub kəmində idi, fürsət bulub şahzadəyə bir zəxm urub, bə'zi mülazimlər dutub anı parə-parə qıldılar. Əmma Həzrəti-İmam ol zəxmdən qayətdə münzəcir olub, Mədaində qəsri-əbəzi nüzuli-icmal ilə müşərrəf qılub, cərrahlar müalicəsinə iştiğal etdilər.

[1] Eşitdik və itaət etdik ("Qur'an", 2, 285).

Əlqissə, şahzadə müavinətinə və mütavi'ətinə e'timad etdügi əhli-Kufədə vəfa görməyüb "Əl-sulhu xeyrun"[1] müqtəzasincə hakimi-Şamla bə'zi şürut üzərinə ki, təfsili anın mövcibi-məlaldür, müsalihə qıldu, Mədinəyə mütəvəccih oldu.

Rəvayətdir ki, bir gün Əli bin Təmir Həmədani Mədinədə ol Həzrətə ayıtdı: "Ya İbn Rəsulullah, Müaviyə müsali-həsinə səndən riza münasib degildi". Cəvab verdi ki: "Ey Əli, biz gəncineyi-hikmət xəzanədarləriyüz və meydani-vilayət şəhsuvarləriyüz, bizə mə'lum olan sizə məsturdur və biz idrak etdiyimiz əsrar sizin idrakinizdən durdur. Hənuz iki canibdən cidalü qital üçün mühəyya olan ləşkərin və'deyi-xunrizi təvəqqüf və tə'xirdədür, vəqtsiz təvəccöhlərinə hakimi-Qəza riza verməz və xəl'əti-xunabə xəzaneyi-hikmətdən Hüseyni-məzluma verilmişdür, bənim iqdamımı zəmanə rə-va görməz. Ərseyi-heycada Hüseyn üçün səfi-qatil mürəttəb edən bəzmi-bəlada bənim üçün zəhrinabdan cami-ləbaləb mühəyya qılmışdur və Hüseyni-məzluma İraqda mülazimәti-Murtəza müqərrər olunduqda bana Mədinədə mülazimәti-Mustəfa müqəddər olmuşdur". Şe'r:

Fərmanbərüz, müxalifətə yox macalımız,
Hər hökm kim, olur Səmədi-karsazdan.
İltər bəni Hicaza müqimi-İraq ikən,
Ol kim sürür Hüseynt İraqa Hicazdan.

Filvaqe', hər əmr bir vəqtə məxsusdur və hər vəqt bir əmrə mütəə'liq. Bitəkəllüf əgər Müaviyənin mü'asiri Hüseyn olsaydı, səlahi-zəman müqtəzasincə müsalihə etmək müqərrər idi və əgər Yəzidlə İmam Həsən müqabilə qılsaydı, müqatilə etmək namüyəssər idi. Və hər birinün məqamı əzəldən müqəddər idi və bidayədən müqərrər.

"Şəvahidün-Nübüvvət"də məsturdur ki, Həzrəti-İzəd Bəni-Ümməyə mülkin Həzrəti-Rəsula ərz etdikdə, Həzrəti-Rəsul gördü [əşrari-Bəni-Üməyyə] bir-birinin əqəbincə minbərə çıxarlar. Bu haləl ol Həzrətə düşvar gəlüb, mütəfəkkir olduqda təsliyeyi-xatir üçün sureyi-"İnna ə'təynakə'l-Kovsər"[2] nüzul etdi ki, ibarətində olan "əlfi şəhrin"-Bəni Üməyyənin mülkinə müş'irdür; [və əṭayi-Kövsər tənə'ümmati-aləmi-bəqadan müxəyyər] qərəz [bu] mülki-fani əvəzinə onlara Hövzi-Kövsər verilmişdi.

Və bir rəvayətdir ki, İmami-Həsən müsalihə etdikdən sonra Mədinəyə müraciət qıldıqda, ərbabi-ədavət təhriki-silsileyi-fitnədən təvəhhüm edüb, ol Həzrətin dəf'inə və rəf'inə iqdam edüb, bə'zi fəsad əhlinə əngiz etdilər ki, ol Həzrətin Bəsrədə vaqe' olan əhibbasindan otuz səkkiz nəfər mö'mini-müvəhhidi bəhanə ilə qətl edüb, ənva'i-qəbahət zühura gətürdilər. Həzrəti-İmam ol halətə ettila' bulduqda, Əbdullah ibn Əbbas ilə mütəvəccihi-Diməşq olub, rəhgüzari Mosulə düşüb, Sə'd Mosuli[ki, Əmiri-Mosul idi] təşrifi-şərəfindən xəbərdar olub, istiqbala çıxub, nəhayəti-e'zazü ehtiramla xidmətlər qılub, şahzadə bir neçə gün anda istirahət görüb, andan müsafir olub diyari-Diməşqə yetdikdə valiyi-Şam əşrafü əkabiri-Şamla istiqbala gəlüb, kəmali-e'zazla şəhrə ötürüb mərasimi-xədəmatində mübaliğələr qıldı və Həzrəti-İmam xatirində olan qəziyyələri şərh edüb, münasib cavablar aldı.

---

[1] Sülh xeyirdir.

[2] Biz sənə Kovsər bağışladıq.



Əlqissə, xitteyi-Diməşqdən yenə Mosula müraciət qıldıqda bu növbət Sə'd mənzilinə nüzul etməyüb, Həsən nam bir aşinasının mənzilinə qədəm basdı və da'iyə qıldı ki, bir neçə gün Mosulda tərhi-iqamət buraxub istirahət bula. Güruhi-ə'da ki, həmişə mütərəssidi-fürsət idi, ol mizbanın əqidəsini və'deyi-mal ilə Həzrəti-İmamdan münhərif qılub, şişə-şişə zəhrlər irsal etdilər ki, mətu'matində və məşrubatində müyəssər olduqca məmzuc edüb verə. Ol bədbəxt üç növbət Həzrəti-İmama zəhr verdi, əmma bəqayi-müddəti-həyat manei-tə'sir olub, əsəri təmam etmədi, əmma mövcibi-təğəyyüri-məzac olub təb'i-şəriflərin mükəddər edərdi və ol mizbanın əhvalina Həzrəti-İmam müttəle' oldu, əmma izhar edüb infi'al verməzdi. Şe'r:

Ah kim, dünyada bir yari-müvafiq qalmadı,
Qəmgüsarü munisü qəmxarü müşfiq qalmadı.

Və hər növbət ki, şahzadə təkəssüri-məzac peyda qılurdı, du'a bərəkatilə səhhətə mübəddəl olurdu. Mizban aciz olub surəti-hal [ol silsileyi-fəsad mühərriklərinə]'ərz etdi ki: "Üç növbət zəhr verdüm, əsər qılmadı". Bu növbət bir şişə-zəhri-həlahil irsal etdilər ki, əgər Həzrət istişmami-rayihəsin qılsa, fənadan aman bulmaz və əgər səfheyi-vücuda surətin çəksələr, nəsimi-həyat kainata güzər qılmaz. İttifaqən ol qasidi-ərbabi-məfasid gəlirkən istirahət üçün bir mənzildə, düşüb, məsti-xab olduqda bə'zi siba'ü bəhaim anı həlak edüb, bu hala müqarin Həzrəti-İmamın bir mülazimi gəlürkən ol məqtuli görüb və ol şişə və naməyi alub Həzrəti-İmama gətürdi. Həzrəti-İmam mütali'ə qıldıqda, mövcibi-xəcaləti-mizban olmasun deyü, pünhan etdi, əmma Sə'd Mosuli Həzrəti-İmamın rəngi-mübarəkin qəzəbdən mütəğəyyir görüb həqiqəti-məktubu sual etdikcə Həzrəti-İmam məşğuli-əhadisü təfasir olub, ol sirrin ifşasına rəğbət etməzdi. Aqibətüləmr Sə'di-Mosuli Həzrəti-İmamın müsəllayi-şərifi altından ol naməyi bir təqriblə alub mütaliə etdikdə, qəyətdə müztərib olub, Həzrəti-İmamdan icazətsiz məclisdən dışra anı hazır edüb ayıtdı: "Ey bədbəxt, Mustafa və Murtəza və Zəhradan sənə nə tə'əddi vaqe' olmuşdu?" Ol bədbəxt ayıtdı: "Haşa, anlar məhzi-məkarimdürlər". Sə'd ayıtdı: "Ey bidövlət, bəs nə bais oldu ki, övladına qəsd edərsən?" Və ol namə və zəhri izhar etdi. Ol bədbəxt inkar etdikdə buyurdu ki, mülazimlər ənva'i-ihanətlə ol pəlidi həlak etdilər.

Əmma Həzrəti-İmam münkəsir və münzəcir Mosuldan çıxub Mədinəyə təşrif buyurdu. İttifaqən Mərvani-Həkəm onda idi. Ol bədbəxt zahirən Həzrəti-İmama izhari-məhəbbət edərdi, əmma batində təriqi-'ədavətə süluk edüb, həmişə dəf'inün tədbirində idi. Bir gün Ənsunə nam bir dəllaliyə ayıtdı: "Ey Ənsunə, Cə'də binti-Əş'əs Həzrəti-İmam Həsənün hərəmi-möhtərəmidür və bilürəm ki, Həsənin mütə'əddid əzvaci olmağın xatiri anın tərəfindən cəm' degil. Filvaqe', heyfdir ki, ol hüsnü cəmala övqatı zaye keçüb, müddəti-ömründə ixtiyar və iqtidar bulmaya. Və mən istima' etmişəm ki, Yezid bin Mü'aviyə kərratla zikr edərdi ki, anın təzvici bana ənsəbdür. Ey Ənsunə, əgər Cə'dənin mizacın İmam Həsəndən münhərif edüb bu mühimmi kifayət edəcək olsan, cəmii-muradın hüsulinə kəfiləm".

Ənsuneyi-rusiyah ol əmri qəbul edüb, andan çıxub İmam Həsən sərayinə təvəccöh etdi. İttifaqən Həzrəti-İmam ol gün ixvanü ənsabla seyrə çıxmışdı. Cə'də tənha idi və Mədinədə

Əsma ilə mə'ruf idi. Ənsuneyi-məl'unə ağazi-təkəllüm qılub, hər canibdən müqəddimələr tərtib edüb, təqriblə izhari-müddəa qıldı ki: "Ey banuyi-mükərrəm, vey xatuni-müəzzəm, əlminnətü lillah, daməni-kəmali-cəmalın qübari-nəqsdən mü'ərra və cəmi'i əsbabi-kəmalun mühəyyadır. Hala sənün ol vəqtündür ki, həmişə silsileyi-cəm'iyyət müntəzəm olub məclisün eyşü işrətdən xali olmaya və mütləq nəsimi-təfriqə gülşəni-cəm'iyyətünə güzər qılmaya. Nə münasibdür bu ki, övqatın bir zahid həbaləsində sərf ola ki, əksəri-övqatı ibadətdə sərf olub, guşeyi-mehrabi əbruyi-müqəvvəsdən əhsən bilə və dərəcati-minbərə silsileyi-zülfi-mü'ənbərdən yegrək təvəccöh qıla. Xüsusən ki, hər iki gündən bir məhbubəyə meyl edüb, təriqi-'əqdü təlaqa adət etmişdür və çox övrətlərə aləmi-müfariqəti yetmişdür".

Cə'də ki, ol kəlimatı eşitdi və ol göftari-nasəvaba qulaq dutdu, münafiqzadə idi və abavü əcdadı Murtəza tiğilə dünyadan, getmişdi, lacərəm cibillətində olan əsəri-nifaq mütəhərrik olub, abavü əcdadının intiqamın almağa müttəsil müqimi-məkməni-intizar idi, bu sözlərdən mütəəssir olub və intiqama fürsət bulub ayıtdı: ["Ey Ənsunə, təriqi-tədarük nədir?" Ənsunə ayıtdı:] "Ey xatun, mühəqqəq bilmiş ol ki, Yezid bin Mü'aviyə bu xidmət müqabiləsində səni mütəsərrifi-hökmi-xilafət edüb, müqəddəmi-xəvatini-hərəmsəra qılur, hala tədarük oldur ki, İmam Həsən dəf'inə iqdam edəsən".

Cə'deyi-bivəfa Həzrəti-İmamın qəsdinə kəməri-kin bağlayub və Ənsunə ol mənzildən çıxub Mərvana surəti-hal ərz etdikdə Mərvan bir miqdar zəhr irsal edüb, Cə'də ol zəhri əngəbinə məmzuc edüb Həzrəti-İmama verdi. Həzrət ol əsəli-məsmum tənavülündən bihüzur olub, istifrağ edüb, rövzeyi-Rəsulullah üzərinə varub ərzi-niyaz etməklə şəfa buldu, əmma Cə'dəyə bədgüman olub anın mənzilinə tərəddüd etməz oldu.

Bir gün dəxi təfəqqüdi-əhval təriqilə, Cə'dənün mənzilinə güzar etdikdə Cə'də ayıtdı: "Ya İmam, Mədinə xurmalığından bir miqdar rütəb gətürmişlər, rəğbət etməzmisən?" Həzrəti-İmam rütəbə rağib idi, buyurdu ki, gətür. Hazır olduqda Cə'dəyə əmr etdi ki, sən dəxi mürafiqət qıl. Cə'də məsmüm olmayan rütəbdən tənavül qılub, Həzrəti-İmam mülahizə qılmayub rütəbi-məsmumdan yeddi danə tənavül qıldı. Yenə mizaci-şərifi mütəğəyyir olub ayıtdı: "Ey Əsma, bu rütəbdən mizacım mütəğəyyir oldu, hikmət nədür?" Cə'də anva'i-üzrlə rəf'i-güman edüb, Həzrəti-İmam andan çıxub yenə rövzeyi-Rəsulullaha ki, darüşşəfayi-əhli-dərddir, təvəccöh qılub şəfa buldu. Bir gün ixvanü ənsabın cəm edüb ayıtdı: "Ey əzizlər, bən bu şəhərə gəldigim zəmandan bu günədək bir dəm rahətdən dəm urmadum və bir sa'ət istirahət görmədüm. Səlahım oldur ki, Mosula varub, təbdili-abü həvadan təməttö' bulam və dami-küdurətdən ola ki, azad olam". Pəs, İbn Əbbas və bə'zi xəvasla mütəvəccihi-Mosul olub və ol büq'eyi-mübarəkə yetüb tərhi-iqamət buraxdıqda avazeyi-vüsuli-mövkəbi-humayuni Şamə yetüb, məhruseyi-Diməşqdə bir ə'ma var idi ki, düşməni-xanədani-Heydəri-Kərar idi, vüsuli-məqdəmindən xəbərdar olub, dili-pürkinə ilə Mosula təvəccöh qılub, növki-əsasın zəhrlə sirab edüb Həzrəti-İmamın mülazimətin ixtiyar etdi. Bir gün əsasın hər yerə basub tərəddüd edərkən ittifaqən növki-əsayi-zəhraludla Həzrəti-İmamın payi-mübarəkin məcruh qıldı qayətdə ki, Həzrəti-İmam ah edüb ayaqdan düşdü. Əbdullah ibn Əbbas və bə'zi müxlislər istədilər ki, ol bibəsirətə siyasət göstərələr. Həzrəti-İmam mane' olub mürafi'əsin Qiyamətə buraxdı. Əlqissə, Mosulda rahət bulmayub, azari-dəmadəm çəküb derdi. Şe'r:



Dərda ki, dəmi dəm urmadım rahətdən,
Qurtulmadım ənduhü qəmü möhnətdən.
Hər büq'ədə kim meyli-iqamət qıldum,
Ol büq'ə mükəddər oldu bir afətdən.

Əlqissə, ol zəxmin müalicəsinə cərrahlar gətürdilər. Cərrahlar gördükdə ayıtdılar: "Bu zəxmün sinanın zəhrlə sirab etmişlər". On beş gün miqdarı tədbirlər edüb, şəhzadə ol zəxmdən nəcat buldu. Və ol ə'ma intiqamın alub, Mosuldan çıxub Diməşqə gedərkən Əbbas Əli üzərinə həvalə olub əsasın əlindən alub yenə ol əsa ilə ol məl'unu həlak etdi.

Rəvayətdir ki, şəhzadə Mosulda dəxi qərar dutmayub yenə Mədinəyə mütəvəccih oldu, əmma Cə'dənin sərayinə tərəddüd etməyüb, anın küdurətin ziyadə qılmağın peyvəstə müntəziri-fürsət idi, ta ki, şəbi-cüm'ə Səfər ayının iyirmi doqquzunda bir miqdar əlməsi-sudə alub Həzrəti-İmam olan mənzilə mütəvəccih oldu və xatirində müqərrər etdi ki, əgər görsələr, izhari-şövqü təhəssür qıla və əgər görməsələr, müddə'əsın hasil edüb bərmurad ola. Mənzərə üzərinə gəldikdə gördü ki, şəhzadə məşğuli-xab və ətrafü cəvanibdə olanlar qafil. Sakin-sakin balini-mübarəkin üzərinə gəlüb gördü su içdigi kuzənün ağzı məxtumdur, əlməsi-sudəyi kuzə üzərində olan hərir üzrə qoyub mütəhərrik etdikcə hərirdən keçüb suyə məmzuc oldu və ol bədbəxt sür'ətlə müraciət edüb mənzilinə getdikcə şəhzadə bidar olub Zeynəbə ayıtdı: "Ey həmşireyi-əziz, hala vaqi'əmdə gördüm cəddimi, bana izhari-iştiyaq etdi. Bir miqdar su ver ki, atəşi-fəraqa təskin verəyim". Zeynəb ol kuzənin möhrün açub İmam əlinə verdikdə, Həzrəti-İmam ol kuzədən bir cür'ə nuş etdikdə əlməsi-sudə əczayi-cigərindən rişteyi-rabitəyi qət' edüb parə-parə qıldı. Həzrəti-İmam ayıtdı: "Ah, bu nə şərbəti-nasazgardı ki, dərunimə atəş buraxdı və bu nə cür'eyi-naxoşgüvardı ki, canü cigərim yaxdı". Həm ol saət Həzrəti-Hüseyni hazır edüb ayıtdı: "Ey bəradəri-əziz. Şe'r:

Zəhri-qəmi-ruzigar kar etdi bana,
Gör bu sitəmi ki, ruzigar etdi bana.
Hər zülm ki, zimnində idi dövranın,
İzhara gətürdi aşkar etdi bana.

Məxfi və məstur olmaya ki, hala cəddimi vaqi'əmdə gördüm, əlimdən dutub rizayi-behişti bana 'ərz edüb buyurdu ki: "Ey fərzənd, bəşarət sənə ki, dami-bəladan nəcat buldun və möhnəti-zəmanədən xilas oldun, yarın bənim hüzurumdasan".

Bidar olduqda, bu kuzədən bir şərbət su içdim, cigərim doğrandı, guya ki, zəmani-rehlətdir, həlal et".

Həzrəti-Hüseyn giryan olub, ol kuzəyi əlinə alub istədi ki, imtahan üçün təcərrö' edə. İmam yerə urduqda ol kuzə sınub, ol zəhr tökülüb, əczayi-ərziyyə tə'sirindən şax-şax olub cuşa gəldi. Əlqissə, şahzadənün cigəri-mübarəki yetmiş parə olub hülqi-şərifindən töküldü. Şe'r:

Sərsəbz qıldı gülbüni-bağı-vilayəti
Sirabi-zəhri-nab qılub cövri-ruzigar.

Ol səbz gülbün üzrə dili-parə-parədən,
Qıldı bəhari-hadisə bərgi-gül aşkar.

Ol dəm ki, afitabi-zərrinfam fələki-minafamda irtifa'i-məqam buldu, ol Həzrətin rəngi-mübarəki zümürrüdfam olub, ətrafında olan əhibbadan sual etdi ki: "Rəngim nə gunədur?" Dedilər: "Səbzdür". Həzrəti-Hüseynə baxub ayıtdı: "Səddəqə Rəsulullah"[1]. Hüzzari-məclis istifsari-məzmun etdikdə ayıtdı: "Cəddi-büzürgvarim bir gün buyurdu ki, rövzeyi-cinanda seyr edərkən əhli-aləmin bir-bir məqamların bana ərz etdilər. İki qəsr gördüm, biri lə'ldən və biri zümürrüddən ki, şü'aləri afitabi-tabana tə'n edərdi. Rizvandan sual etdüm ki, bu qəsr kimlərə mənsubdur? Dedi: "Biri İmam Həsənün və biri İmam Hüseynindür". [Dedim] aya, ixtilafi-lövnə səbəb nədür? Rizvan xamuş olub bən mübaliğə qıldıqda Cəbrail ayıtdı: "Ya Rəsulullah, Rizvan şərm edər, bən ərz edəyim: qəsri-zümürrüdgun İmam Həsənə mütəalliqdir, anınçün ki, vəqti-vəfat zəhr içüb, rəngi-zümürrüdfamla dərgaha gəlür və qəsri-gülrəng İmam Hüseynə mənsub, anınçündür ki, tiği-abdarla qərqi-xun olub behiştə təvəccöh qılur". Şe'r:

Nəmi-tərəşşühi-zəhr ilə rəng qıldı 'əyan,
Səfayi-səfheyi-ayineyi-üzari-Həsən.
Məgər ki, cür'eyi-zəhr idi qətreyi-baran
Kim, anda etdi 'əyan səbzə laləzari-Həsən.

"Şəvahid"də məsturdur ki, İmam Həsən zəhr ilə mütəğəyyirül-hal olduqda Hüseyn sual etdi ki: "Ey məxdum, kimə gümanın gəlür?" İmam Həsən ayıtdı: "Ey bəradəri-mehriban, bən bildigimi sən dəxi bilürsən, əmma qəmmazlıq bizdən zahir olmaq münasib degil, həm səbr övla və ənsəbdir".

"Fəslül-Xitab"da Xacə Parsadan nəqldür ki, Həsənə altı kərrə zəhr verdilər tə'sir etmədi, aqibət əlmasi-sudə əsər qıldı.

Rəvayətdir ki, İmam Həsən ol sirri-nihanı araya buraxmayub, xəfada Cə'dəyə ayıtdı: "Ey yari-namehriban, vey banuyi-cəfakari-azarrəsan, noldu ki, həqqi-xidmətim fəramuş qılub hörmətim dutmadın və cəddü babam hörmətin ri'ayət etmədin? Hala bən sənün mürafi'əni divani-həşrə buraxdum, dünyada səni rüsva etməgi münasib görmədüm və sənə azar yetirmədüm. Əmma bilmiş ol ki, hər murad üçün ki, bu şüğlə iqdam etdin isə, ol murada dəstrəs bulmazsan və hər kim üçün ki, bu zəlaləti qəbul etdün isə, andan bəhrəmənd olmazsan". Bu mü'atibədən sonra Həzrəti-Hüseyni və sair övladın və əshabın hazır edüb, təqva və təharətə vəsiyyət qılub, Ümm Gülsümə ayıtdı: "Ey həmşirə, Qasimi gətür". Qasim hazır olduqda əlindən dutub İmam Hüseynə təslim edüb ayıtdı: "Ey bəradər, filan qızını bu fərzəndimə verəsən və'dəsi irişdükdə". Bu hal Səfər ayının igirmi doqquzuncu gecəsində idi. Rəvayətdür ki, gecənin bir sülsü keçdikdə nərgisi-şəhlasın açub İmam Hüseynə baxub ayıtdı: "Ey Hüseyn, bu övladımi sənə tapşırdum və səni Vacibülvücuda". Və kəlimeyi-şəhadət zəbani-mübarəkinə cari olub dövləti-bəqaya faiz oldu. Şe'r:

[1] Rəsulullah doğru söyləyib.



Sərv qəddi çəməni-xüldə xuraman oldu,
Hurü qılmana rüxi şəm'i-şəbistan oldu.
Cövhəri-zatı olub ricsi-əlayiqdən pak,
Məhrəmi-bargəhi-rəhməti-qüfran oldu.
Gərçi ol xatiri-cəm' ilə səfər qıldı, vəli,
Dili-əhbab fəraqində pərişan oldu.
Mərdümi-dideyi-ərbabi-nəzər əşk töküb,
Nəmi-əşkilə könül evləri viran oldu.

Cəmi'i-ixvanü əxəvat ağazi-tə'ziyət qılub, ol Həzrətə təchizü təkfin mürəttəb etdikdən sonra məqbəreyi-Bəqi'də cəddəsi Fatimə binti Əsəd mücavirətində dəfn etdilər. Və ömri-şərifi əsəhhi-əqavillə qırx yeddi ildir. Rəvayətdür ki, mərasimi-tə'ziyətindən sonra Mərvani-Həkəm əndişə qıldı ki, əgər Hüseyn İmam Həsən qatilin təfəhhüs edüb, şişeyi-zəhrü əlmas qissəsin mə'lum edəcək olursa, əhval müşkil olur; tədbir edüb Cə'dəyə e'lan etdi ki: "Ey qafil, Hüseyn surəti-halindən xəbərdar olub sənin tədarukundədir". Cə'deyi-bisə'adət "Əlxainu xa'ifun"[1] müqtəzasincə filhal fərar edüb kəndusin Mərvanun mənzilinə buraxdı və Mərvan ol bədbəxti iki nəfər qulam və üç cariyə ilə Şama irsal etdi və keyfiyyəti-halın hakimi-Şama 'ərz qıldı. Əlqissə, Cə'də diyari-Şama yetdikdə və xəbəri-vəfati-İmami-Həsən şiya' bulduqda, valiyi-Şam buyurdu ki: "Dərü divari-Şamı siyah edüb, təmamiyi-əhli-məmləkət siyəhpuş olub, üç gün üç gecə mərasimi-tə'ziyət və şəraiti-müsibət əda qılalar". Qaideyi-matəmdən sonra Cə'də həqiqəti-macərasın məxfi qılmayub bəyana gətürdi. Hakimi-Şam mütəəssif olub ayıtdı: "Ey bədbəxt, Xuda və Mustəfadan şərm etmədünmi, sən ki, nəqdi-Rəsulullaha bu qəbahəti rəva görəsən? Bənim oğlum söhbətinə nə layiqsən". Şe'r:

Ey nihali-gülşəni-üsyan, bəladür hasilün,
Məzhəri-zülmü sitəmdür cövhəri-naqabilün.
Xanədani-iffətü ismət nə layiqdir sana,
Məkməni-iblisdür daim xəyali-batilün.

Və ol bədbəxt bu fe'ldən peşiman olub, üç gün xarü xabdan məhrum idi, derdi ki: "Aya, bu nə fe'ldi ki, bəndən sadir oldu və rəqəmi-"Xəsirə'd-dunya vəl-axirət"[2] nasiyeyi-ə'malimə çəkildi və nəqşi-"Zalikə huvə'l-xusranül-mübin"[3] səhifeyi-əhvalimda zahir oldu". Şe'r:

Oldu siyah nameyi-ə'malım, ey diriğ,
Təğyir buldu surəti-əhvalım, ey diriğ.
Bən tairi-xatireyi-gülzari-qüds idim,
Sındırdım öz əlimlə pərü balım, ey diriğ.

[1] Xain xoflu olur.
[2] Dünya və axirətini gizlətdi ("Qur'an", 22, 11).
[3] Bu nə acı bir itkidir.

Üç gündən sonra hökm oldu ki, əllərin və ayaqların bağlayub cəzireyi-Filə buraxalar. Rəvayətdür ki, cəzirə qürbünə yetdikdə bir tufan peyda olub, ol bədbəxti alub cəzirəyə buraxdı və minbə'd andan əsər görünmədi. Şe'r:

Cəhan içində mücərrəbdür intiqami-zəman,
Zəmanə yaxşıya yaxşı verür, yəmana yaman.

Filvaqe, Həzrəti-İmam Həsən şəhadəti Hüseyni-məzluma nisbət bir müsibəti-'üzma və hadiseyi-kübradür, zira mövcibi-istilayi-ə'dayi-bədfərcam və səbəbi-inhidami-şər' və İslam olub, pərdeyi-məvasa və müdarayi çehreyi-əhvalindan götürdü və ləşkəri-ə'dayı sərhəddi-tüğyana yetürdi. Şe'r:

Zəhri-ə'dadan Həsən şəhdi-şəhadət içmədən,
Bulmadı ə'dayi-din fürsət Hüseyn azarinə.
Ömrlər hər fitnə kim, pünhan edərdi ruzigar,
Fitneyi-qətli-Həsən oldu səbəb izharinə.



## YEDDİNCİ BAB

### HƏZRƏTİ-SULTAN HÜSEYNİN MƏDİNƏDƏN MƏKKƏYƏ TƏVƏCCÖH ETDİGİN BƏYAN EDƏR

Bu nüsxeyi-nami ki, müsaidəti-xameyi-siyəhruzigari-əşkbarla zühura gəlür və bu nameyi-girami ki, müavinəti-kilki-sərgəşteyi-biqərardan təhrir alur, zəfərnameyi-sultani-Kərbəla Hüseyn ibn Əliyyi-Murtəzadür ki, dərd meydanından aləmi-ahi-cigərsuz çəkub və mərdümi-dideyi nəmdidədən qanlar tökub, cəm'iyyəti-cüyuşi-bəliyyati-mövfurə və ictimai-əsakiri-məsaibi-qeyri-məhsurə ilə təsxiri-məmaliki-əltafi-sübhani etmiş və fəthi-əqalimi-'əvatifi-İlahi qılub, səltənəti-səriri təqdirdə dərəceyi-kəmalə yetmiş. Şe'r:

Təalallah zəhi sultan ki, dərgahi-fələkqədri
Mədari-dinü dövlət, qibləgahi-əhli-aləmdür.
Ana olmuş müyəssər kəsbi-feyzi-dünyəvü üqba,
Ana təsxir-mülki-surətü mə'na müsəlləmdür.

Və müsibətnameyi-Yezidi-pürcəfadür ki, şəbistani-[qəflətdə] təhriki-həvayi-nəfslə, çirağı-tövfiqi-sə'adəti intifa bulmuş və seyli-Nili-zəxarifi-dünyayla binayi-imanü İslami viran olmuş. Şe'r:

Zəhi nadan ki, qədrin bilməyüb tövfiqi-İslamın,
Məta'i-faniyi-dünyaya vermiş nəqdi-imanın.
Təvəccöh həşr divaninə qılmış mülki-dünyadan,
Tirazi-nameyi-ə'mal edüb məzlumlar qanın.

Filvaqe', əbdanından müfariqət edən ərvaha müşahideyi-əhvali-dünya mümkün olsa və nüfusi-insaniyyə inhilali-bədəndən sonra ümuri-dünyaya ettila' bulsa mə'lumdur ki, Həzrəti-Hüseyni-Əli çəkdügi cəfalərdən hasil etdügi sə'adətlə zəman-zəman məhzuz olub tərvici-məzar və tə'zimi-övlad və təksiri-mənaqibü mədayihdən Qiyamətədək nə miqdar təməttö' olur və Yezidi-pəlid etdügi əməl cəzasın görüb, ləhzə-ləhzə təcəddüdi-lə'nət və tə'əddüdi-ənva'i-ihanət və təcərrö'i-zəhri-məzəmmətdən nə bəlalarla mütəallim olur. Şe'r:

Dari-dünyada bu yetər olara,
Əsəri-cənnətü nişani-cəhim.
Məhşər olduqda xud müqərrədir,
Ne'məti-baqivü 'əzabi-'əzim.

Həqqa ki, Hüseyni-şəhidün zikri-vaqieyi-şəhadəti-mövcibi-təcdidi-kəmali-ixlasu e'tiqad olmağın eyni-ibadətdür və məzlumi-Kərbəlanın təkrari-vəqaye'i-müsibəti baisi-tənbihi-əhli-qəflət olduğu səbəbdən kəmali-sə'adətdür. Şe'r:

Hər kim ki, zikri-vaqieyi-Kərbəla ilə
Bir natəvanın eyləyə çeşmini əşkbar,
Gülzari-izzü cahini sərsəbz qılmağa,
Ol çeşmi-əşkbar yetər əbri-növbəhar.

Əgərçi zikri-vaqi'eyi-Kərbəla təqrir edən zəbani-növhəsəra bərqi-ələmdən bir şö'leyi-cansuzdur və keyfiyyəti-əhvali-şühəda təhrir edən xameyi-məlalətfəza kəmani-küdurətdən bir navəki-dilduzdur, əmma ol şö'leyi-cansuz zəbanə çəkdükdə sineyi-ərbabi-məhəbbətdən qeyri mövqidi-iltihab bulmaz və ol navəki-dilduz pərvaza gəldükdə dili-əshabi-vəfadan qeyri nişanə qılmaz. Şe'r:

Tök ey müjgan, cigər qanın ki, gəldi giryə həngamı,
Gəl ey əşki-rəvan kim, getdi eyşü işrət əyyamı.
Gətür təqrirə bir-bir ruzigarın surəti-halın
Ki, bilsünlər nədür dünyayi-dunpərvər sərəncamı.

Nüsxeyi-"Şəvahidün nübüvvət"də məsturdur, bəlkə cümleyi-aləmdə məşhurdur ki, Həzrəti-Hüseyn bin Əliyyi-Murtəza üçüncü imamdür əimmeyi-isna 'əşərdən və künyəti-şərifi Əba Əbdullah və ləqəbi-mübarəki Zəki və Şəhid və Sibt olub, sə'adəti-viladəti Mədinədə hicrətün dördüncü yilində Şə'ban ayının beşinci günündə seşənbə güni vaqe'olmuş.

Rəvayətdir ki, nihali-xilqətləri gülşəni-sə'adətdə zühura gəlüb həqiqeyi-fəzayi-vücudu müzəyyən qıldıqda, müjdeyi-təşrifi-qüdumu Həzrəti-Rəsula yetüb, ol Həzrət iştiyaqi-təmamla Fatimə hərəmsərasinə sayeyi-iltifaq buraxub, Əsma binti-Ümeyşə ki, qabilə idi, ol cövhəri-qabili Həzrəti-Seyyid hüzurinə gətürdikdə ol Həzrət Əli ibn Əbi Talibə ayıtdı: "Ya Əli, bu fərzəndi-səadətməndi nə ismlə mövsum edərsən?" Murtəza Əli ayıtdı: "Ya Rəsulullah, haşa ki, bən bu məsləhətdə Həzrətinə təqəddüm edəm. Səlahım sənin səlahındır, əmma xatirimdə bu idi ki, Həzrətinizlə müşavirət edüb, ismin ya Hərb, ya Cəf'ər edəm". Həzrəti-Rəsul ayıtdı: "Bən dəxi bu təsmiyədə Vacibülvücuda sibqət etməzəm". Bu hala müqarin Cəbrail nüzul edüb səlam verüb dedi: "Ya Rəsulullah, bu tiflün dəxi ismin Harun Nəbi oğlunun isminə müvafiq Şəbir eylə. Şəbir lüğəti-Yunanda Hüseyndür". Pəs, həsbüləmr ismi-mübarəkin Hüseyn etdilər. Tədriclə ol Həzrətin afitabi-rif'ətləri gündən-günə asimani-vilayətdə dərəceyi-irtifa' bulub və hilali-fitrətləri xurşidi-risalətdən iqtibasi-ənvabi-feyt etməklə mahi-təmam olub cami-cəmi'i-fəzaili-surivü mə'nəvi oldu və hər fəzilətdə iqtidari-təvəffüq və hər mə'nidə e'tibari-kəmal buldu. Filvaqe', nə fəzilət bundan ziyadədür ki, məcmu'i-məşahiri-əimməvü əkabiri-sadat anun nəslindən olub silsileyi-siyadət ana mərbut ola və nə mərtəbə andan əfzundur ki, təcdidi-tə'ziyəsindən Qiyamətədək həqiqəti-həqqü batil təmyiz bula. Əlhəq, bir nihali-xücəstə ki, xaki-tinəti-Zəhradan baş çəküb, zülali-cuybari-şəfqəti-Murtəzadan və nəsimi-iltifati-Mustəfa ilə nəşvü nəma bulmuş ola, mə'lumdur ki, aqibət nə bar verür. Və bir gövhər ki, sədəfi-bətni-Fatimədən, nisani-kəmali Murtəzadan zühur bulub dəryayi-intisabi-Rəsulullahda hasil olmuş ola, yaxındı ki, bazari-həqiqətdə nə qiyamət bula. Şe'r:



Gər qələm olsa qamu əşcarü dəryalar midad,
Gəlməyə təfsillə təhrirə övsafi anın.
Gər ədu həm kami-dil buldiysə11 qətlindən nola,
Cümləyə məftuhdi əbvabi-əltafi anın.

Lacərəm hər cəhətdən zati-şərifi iqtizayi-kəmal etməgin bəlavü möhnətdə dəxi rütbeyi-kəmalın görün və məqami-şiddətdə dəxi ülüvvi-mərtəbəsin mülahizə qılun ki, cəmi'i-ənbiyavü övliyadan mümtaz bimü'avinü müzahir yetmiş iki zəxmi-mühlik ilə igirmi iki bin zalim arasında cidal edüb və fövti-ənsabü övlad ana iztirab verüb, əczü istiğasəyə bais oldu və nə təfriqeyi-'əyal və cəzə'i-ətfal və təkəddüri-əhval anı iztiraba salub əqidəsi təğəyyür buldu.

Rəvayətdir ki, ol Həzrətin xəbəri-şəhadətin Həzrəti-Rəsula Cəbrail kərratla yetürmişdür və əxbari-müsibətin dəfə'atla gətürmişdür. Ol cümlədəndür bu ki, ol məzlumun viladətindən müqəddəm Ümmül-Fəzli-Haris bir gecə vaqiəsində gördü ki, Həzrəti-Rəsulun ə'zayi-şərifindən bir miqdar kəsüb anın kənarına buraxdılar. İztirabla yuqudan bidar olub, Həzrəti-Rəsul xidmətinə varub surəti-vaqiə'yi etdükdə, Həzrət buyurdu ki, ey Ümmül-Fəzl, Fatimə hamilədir bir xələfi-saleha və ol bənim cigərguşəmdür, ənqəirb mütəvəllid olur, sən dayəsi olursan.

Rəvayətdir ki, əyyami-tüfuliyyətdə bir gün Həzrəti-Rəsul ol mə'sumu kənarinə alub, yüzün yüzünə sürüb, şəhzadəyə təqazayi-iraqət zahir olub qətəratindən bir rəşhə Həzrəti-Rəsulun daməni-'ismətinə irişdi. Ümmül-Fəzl ol vaqi'ədən əsəri-infi'al peyda qılub ol məzlumu ünflə Həzrəti-Rəsulun kənarindən aldı bir növ'lə ki, təb'i-naziki münzəcir olub giryan oldu. Həzrəti-Rəsul ayıtdı: "Ey Ümmül-Fəzl, nişə cigərguşəmi ağlatdun? Müqərrərdür ki, bu qətrənin küdurəti əndək suyla zail olur, əmma bu məzlumun küdurəti-xatirindən xatirimə yetən küdurət dəryalarla zail olmaz". Bu hala müqarin Cəbrail nüzul edüb ayıtdı: "Ya Rəsulullah, sən Hüseynin bir qətreyi-abi-didəsi tökülməkdən mükəddər olursan, Kərbəlada ə'zasindən yüz çeşmə açılub bir-birindən seyli-xun axdığın görsən halın nolur?" Həzrəti-Rəsul mütəəllim olub giryan oldu. Şe'r:

Vəh ki, şahi-Kərbəlanun möhnətin izhar edüb,
Matəmindən göstərür hər yildə dövran bir bəhar.
Ol bəharın laləsi xunin cigərdür çak-çak,
Bərqi ahü rə'di əfğan əbri çeşmi-əşkbar.

Və ol cümlədəndür bu ki, bir gün nəvidi-nişati-eydlə xəlqi-aləm xürrəm və əsbabi-cəm'iyyəti-aləm fərahəm olmuşdu. Şəhzadələr ittifaqla Həzrəti-Rəsul xidmətinə müşərrəf olub təzərrö'lə ərz etdilər ki, ey seyyidi-kainat, övladi-əkabiri-Qüreyş əlbiseyi-mülənvəni-müccəddədlə mübahat edərlər. Biz dəxi ki, şəcəreyi-bustani-vilayətüz, növbəhari-iltifatindən xəl'əti-mücəddəd iltimas edərüz.

Həzrət bu əndişə ilə mütəvəccihi-dərgahi-İlah ikən Cəbrail nüzul edüb behiştdən iki hilleyi-kafurgun gətürüb, birin Həsənə və birin Hüseynə namzəd qıldı. Şəhzadələr ol xəl'ətləri

rəngdən sadə görüb təzərrö' etdilər ki, bizüm xəl'ətümüz müləvvən gərək. Həzrəti-Rəsulullaha Cəbrail ayıtdı: "Bu daiyə səhldür, ya Rəsulullah, buyur su gətürsünlər bu xəl'ətlər üzərinə tökəyim. Sən yədi-qəmərşikafla tə'sir et, şahzadələr lövn ixtiyar etsünlər". Ol əmrə şüru olunduqda Həzrəti-İmam Həsən ayıtdı: "Bana xəl'əti-zümürrüdfam mətlubdur". Həzrəti-İmam Hüseyn ayıtdı: "Bana cameyi-laləgun mərğubdur". Filhal eşitdikləri kibi müyəssər olub, xəl'ətlərin geyüb şad olduqda Cəbrail giryan oldu. Həzrəti-Rəsul ayıtdı: "Ey sərxeyli-məlayik, bənim övladım nişatı səni məhzun etmək bir hikmətdən xali degil". Cəbrail ayıtdı: "Ey Seyyid, məgər şəbi-Me'rac behiştdə gördügün qəsrləri unutdun ki, İmam Həsənin qəsri zəbərcədgun və İmam Hüseynin qəsri lə'lfam idi. Bu xəl'ətlər lövni dəxi ol mə'niyə işarətdür, zira İmam Həsən zəhr içüb, hiyni-vəfat rəngi-mübarəkt zümürrüdfam olub və İmam Hüseynin rüxsareyi-şərifin xunabeyi-cigər laləgun qılur". Şe'r:

Saqiyi-dəhrün iltifatı budur
Ki, Həsən sağərinə zəhr tökər.
Çərx cəlladının budur hünəri
Ki, Hüseyni-şəhidə tiğ çəkər.

Və ol cümlədəndür bu ki, imam Təbəri "Təfsiri-Kəbir"də məstur etmiş ki, cümleyi-səhabədən Dəhiyyə nam bir pakizə-surət kimsə əksəri-övqat ticarətə gedüb-gəldikdə Həzrəti-Rəsul xidmətinə hədiyyəsiz gəlməzdi və töhfəsiz olmazdı və şahzadələr mö'tad olmağın hərgah ki, Dəhiyyə hazır olurdu, hər canibdən astinü giribanına əl urub hədiyyə təvəhhüs edərlərdi.

Bir gün Cəbrail Dəhiyyə surətində Həzrəti-Rəsulla müsahibət edərkən şahzadələr gəlüb, Cəbraili Dəhiyyə təsəvvür edüb, bitəkəllüf kənarına çıxub astinü giribanına əl uzatdılar. Həzrəti-Rəsul ol hərəkətdən infi'al bulub mən' etmək sədədində ikən Cəbrail ayıtdı: "Ya Rəsulullah, bunlara mane' olma və hərəkətlərin bana nisbət tərki-ədəb mülahizə qılma ki, bən bunların xidmətkariyəm.

Və çox vaqe' olmuşdur ki, Həzrəti-Fatimə təhəccüd nəmazından sonra mütəvəccihi-xab olub, bunlar ağazi-giryə qıldıqda, Həzrəti-İzzətdən bana fərman yetübdür ki, bunların gəhvarələrin təprətüb giryələrinə təskin verəm, ta Fatimə bidar olmaya və müjdeyi-sədasın bunların səm'i-mübarəklərinə bən yetürmişəm və hala kənarıma çıxub astinü giribanıma əl ursalar, əcəb olmaz, əmma heyrətdəyəm ki, aya bu təcəssüsdən nədir müradları?" Həzrəti-Rəsul ayıtdı: "Səni Dəhiyyə təsəvvür edərlər və Dəhiyyə hazır olduqca bir hədiyyədən xali olmazdı". Filhal Cəbrail yədi-iqtidarla behiştdən bir xuşeyi-əngur və bir ənar gətürüb anlara verdikdə tənavül tədarükündə ikən bir sail avaz yetürdi ki: "Ey Əhli-Beyt, bana ol əngur və ənardan nəsib həvalə qılun". Həzrəti-Rəsul kərimi-fitri müqtəzasincə hissə vermək istədikdə Cəbrail mane' oldu ki, "ya Rəsulullah, bu sail İblisdir. Miveyi-behişt ana həram ikən hiylə ilə tənavül etmək istər". Əlqissə, İblis məmnu' olub, şahzadələr meyvə tənavül etməgə iştiğal etdikdə Cəbrail giryan olub ayıtdı: "Ya Rəsulullah, bu iki şahzadənin birin zəhrlə və birin tiği-qəhrlə şəhid edələr və bunların müsibəti sənə mövcibi-rif'əti-məzilət vaqe' ola". Şe'r:



Əgərçi əqrəbi-övladı qətlinin xəbəri
Rəsul həzrətinə ə'zəmi-məsayib idi.
Vəleyk faidə ol ə'zəmi-məsayibdə,
Əcəlli-mənzilətü əşrəfi-məratib idi.

Ərəbiyyə:

İnnə fil-cənnəti nəhrən min ləhəbin,
Li-Əliyyun və Hüseyn və Həsən1

Ol cümlədəndür bu ki, bir gün Cəbrail Həzrəti-Rəsul xidmətinə gəldikdə İmam Hüseyn ol Həzrət kənarında olub, rüxsari-mübarəkindən öpüb nəvaziş qılurkən Cəbrail ayıtdı: "Ya Rəsulullah, bu fərzəndi-sə'adətməndi sevərmisən?" Həzrəti-Rəsul ayıtdı: "Nə'əm ovladna akbadəna"[2]. İttifaqən Həzrəti-Hüseynin gərdəni-lətifində rişteyi-həmayildən bir əsər zahir olmuşdu. Cəbrail ana baxub, mütəəllimü mütəəmmil olub, Həzrəti-Rəsul ayıtdı: "Ey bəradər, bu riştə əsərindən sərrişteyi-məlalət dutduğunda hikmət nola?" Cəbrail ayıtdı: "Ya Rəsulullah, ənqərib dəşti-Kərbəlada bu məzlumun fərqi-mübarəkin ol riştə əsərindən qət' edüb, ana cəfalar qılalar". Şe'r:

Kərbəla dəştinün avarələrin yad qılub,
Əxtəri-əşk tökübü gərdişi-gərdun ağlar.
Çərxdən ağlama, zalim deyü, ey qafil kim,
Çərx bu vaqiə'də cümlədən əfzun ağlar.

Və ol cümlədəndür bu ki, bir gün Cəbrail Həzrəti-Rəsulla müsahibətdə ikən Hüseyn hazır olub Həzrəti-Rəsul kənarında qərar dutdu. Cəbrail ayıtdı: "Ya Rəsulullah, ənqərib bu fərzəndi-dilbəndüni qətl edələr". Həzrəti-Rəsulullah ayıtdı: "Ey Cəbrail, bu əmri-qəbih kimdən sadir ola?" Cəbrail ayıtdı: "Ümməti-bivəfalərindən zühura gələ". Və canibi-Kərbəlaya işarət qılub və bir qəbzə xak alub Həzrəti-Rəsula verdi ki, "bu xak anın məqtəlindəndür və anın qanıyla rəngin olacaqdır". Şe'r:

Ol lə'lparə dərdi əgər qılmasaydı kar,
Fərqinə urmaz idi zəmin səngi-kuhsar.
Gər olmasaydı vasiteyi-matəmi-Hüseyn,
Seylabi-əşk axıtmaz idi çeşmi-çeşməsar.

"Şəvahidün-nübüvvət"də məsturdur ki, Hüseyni-şəhid sinədən ta kəfi-pay şəbih idi Rəsulullaha və Həsən fərqdən ta sinə. "Sünəni-Termezi"də məzkurdur ki, Həzrəti-Rəsul buyurmuş ki, bən Hüseyndənəm və Hüseyn bəndən. İzədi tə'ala sevsin anı ki, Hüseyn sevər".

[1] Cənnətdə Əli, Həsən və Hüseyn üçün süddən bir çay vardır.
[2] Bəli, övladlarımız ciyərlərimizdir.

Rəvayətdir ki, bir gün Həzrəti-Rəsul səhabə ilə bir küçədə gedərkən cəm'i-ətfal gördü, ol cəm'dən bir tifli dutub, əlin öpüb nəvaziş qıldı. Sual etdilər ki, "ya Rəsulullah, bu iltifatınla sərəfraz olan tifli-rəşid nə qərabətlə və nə nisbətlə mərhəmətinə məzhər vaqe' oldu?" Həzrəti-Rəsulullah ayıtdı: "Bu tifl bir gün bənim Hüseynimlə müla'ibə edüb, xaki-qədəmin gözlərinə sürərdi. Ol gündən bu tiflə məhəbbət buraxmışam və ana və anasına və atasına şəfi' oluram". Şe'r:

Əsəri-xidməti-Hüseyni-Əli
Səbəbi-dövlətü səadətdir.
Rəhi-eşqində tərki-can etmək
Mövcibi-rütbeyi-şəhadətdir.

"Şəvahidün-nübüvvət"də məsturdur ki, bir gün Həsən və Hüseyn Həzrəti-Rəsul hüzurunda müsari'ə edərlərdi və Həzrəti-Rəsul derdi: "Ya Həsən, dut Hüseyni". Fatimə hazır idi, ayıtdı: "Ya Rəsulullah, Həsən bəradəri-əkbərdür. Əcəb ki, əsğərə həvadarlıq münasib ikən əkbərə mü'avinət qılursan?"

Həzrəti-Rəsulullah ayıtdı: "Ey Fatimə, Cəbraili-Əmin Hüseynin müavinətindədür".

Və "Üyunür-Riza"da Hüseyn bin Əlidən nəqldür ki, bir gün cəddi-büzürgvarım xidmətində idim və Əbi ibn Kə'b anda hazır idi. Həzrəti-Rəsul buyurdu ki: "Mərhəba və həyyən bikə ya Əba Əbdəllahi, ya zəynə's-səmavati vəl-ərzi"[1]. Əbi ibn Kə'b ayıtdı: "Ya Rəsulullah, asimanü zəminə səndən qeyr zinət varmı?" Həzrəti-Rəsul buyurdu ki, ey İbn Kə'b, ol mə'bud həqqiçün ki, bəni [übbadinə] həqlə irsal etdi ki, Hüseyn bin Əli netə ki, zivəri-mərkəzi xakdür, andan ziyadə zinnəti-səhayifi-əflakdır. Həqqa ki, ismi-şərifi zil'i-eyməni-ərşdə misbahi-hüda ibarətilə yazılmışdur.

Və İbnül-Həsən isnadi-Əbi-Əvaidlə nəql etmiş ki: "Həzrəti-Rəsul buyurmuş ki, Həsən və Hüseyn iki güşvareyi-ərşdirlər və ol zəmanda ki, Həzrəti-İzzət behiştə[xəl'əti] xilqət verdi, [buyurdu ki,] sən məskəni-məsakin olsan gərək. Behişt zəbani-halla göftara gəldi ki, ya Rəb, səbəb nədür ki, bəni miskinlərə və dərvişlərə məskən edərsən? Nida gəldi ki, ey behişt, bu sə'adətə razı olmazmısan ki, ərkanını Həsən və Hüseynlə müzəyyən edəm?" Behişt ol müjdəyə mübahat edüb ayıtdı: "Rəzəytu rəzəytu"[2]. Zəhi səadətməndlər ki, güşvareyi-ərş və zinəti-ərkani-behişt olalar və bargahi-qürbdə bu miqdar rif'ətü mənzilət bulalar. Şe'r:

Asimani-qədrü kani-lütfü baği-elmdən
İki əxtər, iki gövhər, iki sərv olmuş 'əyan.
Cümleyi-xəlqi-cəhandan bula bilməz bir bədəl
Bu birinə ol birindən qeyri əqli-xürdədan.

"Kənzül-qəraib"də məsturdur ki, bir gün bir ə'rabi Həzrəti-Rəsula bir ahu bərrə hədiyyə gətürdi və Həzrət anı Həsənə lütf etdi. Və İmam Hüseyn andan vaqif olub, Həzrəti-Rəsul

[1] Ey Abdullanın babası, ey göylərin və yerin zinəti, həyatına and olsun!
[2] Qəbul etdim və qəbul edirdim.



xidmətinə gəlüb ayıtdı: "Ya cəddah, bana dəxi bir ahu bərrə gərək". Və heç bəhanə ilə təsəlli bulmayub giryəyə ağaz etdi. Həzrəti-Rəsul mütəfəkkir ikən gördü ki, səhradan bir ğəzalə bəççəsin önünə buraxub tə'cillə gəlür. Həzrət-Rəsulullah hüzuruna yetdükdə zəbani-fəsihlə ayıtdı: "Ya Rəsulullah, İzədi-tə'ala bana iki bəççə kəramət qılmışdı, birin səyyad dutub, biri bənimlə qalmışdı. Rizainə məşğul ikən nida gəldi ki, ey ğəzalə, bir fərzəndin Həzrəti-İmam Həsənə vasil oldu və hala Hüseyni-məzlum Həzrəti-Rəsuldan ahu bərrə tələb qılub, giryə ağaz etdi. Təvəqqüf etməyüb, bu fərzəndini dəxi anın xidmətinə yetür və bu qübari-kudurəti anın könlündən götür, yoxsa seyli-əşki binayi-ərşə təzəlzül salur və əsəri-məlaləti məlaikəyi bitabü taqət qılur". Həzrəti-Rəsul ol xəbərdən məsrur olub, ahu bərrəyi İmam Hüseynə verüb xatirin təsəlli etdi.

Ey əzizlər, məlaikeyi-asiman və vühuşi-ərz rəva görmədilər ki, bir qətrə əşki rəvan ola. Aya, anlar ki, rüxsarın qərqeyi-xunab etdilər, nə cəvab verərlər? Şe'r:

Ey əhli-kin, nəbivü vəli busəgahını,
Xunabi-nab qərqəsi etmək rəvamıdur?
Qət'i-təəllüq eyləmək Ali-Rəsuldan,
Biz ümmətüz deyənlərə şərti-vəfamıdur?!

İmam Nəcməddin ol Həzrətin hüsni-sirətində gətürmiş ki, "əlkaziminə'l-qəyzə və'l-afinə əni'n-nasi və'llahu yuhibbul-muhsinin"[1] məzmunu ana məxsusü mənsubdur. Zira bir gün əşrafi-Qüreyşlə bir maidə üzrə hazır ikən bir məmluk xidmətkari bir zərfi-məmlüv məclisə gətirürkən əlləri titrəyüb, ol tə'ami-gərm şahzadənün fərqi-mübarəkinə töküldükdə, Həzrəti-İmam tə'diblə xidmətkara baxdıqda xidmətkar təvəhhüm edüb zəbaninə bu cari oldu: "Əl-kaziminə'l-qəyzə"[2]. Həzrəti-İmam təbəssüm edüb ayıtdı: "Kəzmu qəyzin"[3] etdim". Xidmətkar ayıtdı: "Vəl-afinə əni'-nas"[4]. Həzrəti-İmam ayıtdı: "Əfv qıldım". Xidmətkar ayıtdı: "Vəllahü yuhibbul-muhsinin"[5]. Həzrəti İmam ayıtdı: "Səni malımdan azad etdüm və mə'işətin kəndü zimmətimə lazım qıldum". Hüzzari-məclis bu vaqi'ədən mütəhəyyir olub insaf etdilər.

Cənab-Xaceyi-Parsa "Fəslül-xitab"da həman bu miqdar gətürmiş ki, Həzrəti-Rəsulun üzvi-mübarəki olan cigərguşə-lərə bu nə't yetər ki, "İnnəma yuridullahu li-yüzhibə ənkumu'r-ricsə əhləl-bəyti və yutəhhirəkum təthirən"[6] anların şə'nindədür. Şe'r:

Mədhi-Hüseynü vəsfi-Həsən qılsalar tələb,
Xətmi-kəlam edüb qılalım müxtəsər sözü.
Ol iki bərgüzideyi-dövri-zəmanədür
İki cəhan pənahı, cəhanın iki gözü.

[1] Onlar qəzəblərini basanlar və insanların qüsurlarını bağışlayanlardır. Allah da yaxşılıq edənləri sevər (Qur'an, 36, 134).
[2] Onlar ki qəzəblərini basanlardır.
[3] Qəzəbini basmaq.
[4] İnsanları bağışlarlar.
[5] Allah yaxşılıq edənləri sevir.
[6] Biliniz ki, Allah sizdən, Əhli-Beytdən çirki yox etdi və sizi pak qıldı (Qur'an, 33, 33).

Və "Məsabihül-qülub"da məsturdur ki, Cəbrail behiştdən bir ənar, bir sib və bir beh gətürüb Həsən və Hüseynə verdi. Həzrəti-Rəsul ayıtdı: "Ey cigərguşələr, bu meyvələri validü validə hüzurinə ilətüb ittifaqla tənavül qılın. Əmma hər birindən bir miqdar zəxirə edin". Rəvayətdir ki, ol qaidə üzərinə hər gün tənavül edüb bir miqdar zəxirə etdükdə yenə dürüst olurdu. Fatimə dünyadan getdükdə ənar qayib olub, Murtəza dari-üqbaya intiqal etdükdə beh dəxi mə'dum oldu. Əmma sib Həzrəti-Hüseynlə qalub, dəşti-Kərbəlada anınla qət'i-ətəş qılurdı və ol Həzrət şəhid olduqda ol dəxi qayib oldu.

Həzrəti-İmam Zeynəlabidindən nəqldir ki, ixlasla Həzrəti-Hüseynin türbətin ziyarət qılan ol sib rayihəsin istişmam edər. Şe'r:

Ey xoş ol dərgahi-ərşasayi-aliqədr kim,
Xaki-pakindən məşami-can alır buyi-behişt.
Həbbəza, ol mərqədi-əşrəf ki, xaki-pakinin,
Təşneyi-cüllabi-vəslidür ləbi-cuyi-behişt.

Çün övsafına ol padişahın nihayət yoxdur və anın mənaqibü məhamidi çoxdur və bu müxtəsərdə qərəz iradi-keyfiyyəti-əhvali-Kərbəladür, tətvili-kəlamdan ehtiraz edüb, məqsudü mətluba rücu' etmək övladür.

Çəmənarayi-hədayiqi-hüznü məlal və bağü sərayi-riyazi-inqilabü ixtilal bu rənglə ğərsinihali-izhari-hal etmiş və bu həvayla cuybari-təhrirə zülali-rəvayət yürütmüş ki, çün Müaviyə bin Əbi Süfyan məsnədi-hökumətdə dərəceyi-istiqlal buldu və müxalifsiz və münazi'siz riyasəti-mülkə müstövli oldu, istiqaməti-mülk və istidaməti-hökm üçün istid'a qıldı ki, Yezidi əyyami-həyatında vəli'əhd edüb, səriri-səltənətə nəsb edə və ol zalimi naibmənab[edüb] dünyadan gedə. Pəs, tədriclə tərtibi-müqəddəmat edüb, ətrafü cəvanibə məkatibü mərasil göndərüb, cəmi'i-əkabiri-Şam və İraqdan bey'ət aldı. Ribqeyi-bey'ətdən xaric həman ə'izzeyi-Hicaz qaldı. Və bu məsləhət üçün kəndü bizzat ol diyara getdi və anların dəxi əksərin hər nə vəch ilə varsa, razı etdi. Əmma dörd kimsənə bu surətdən imtina' edüb, daireyi-bey'ətə girmədilər və Yezidin xilafətinə qət'ən riza vermədilər. Biri Hüseyn bin Əli, biri Əbdürrəhman ibn Əbubəkr, biri Əbdullah bin Ömər və biri Əbdullah Zübeyr. Bu xüsusda nə izhari-mülayimət və isari-mülatifət anlara müfid oldu və nə asari-təhdid və izrar[i-qilzət] faidə qıldı.

Rüfəqayi-ərbə'ə bimi-ibramdan ittifaqla Məkkeyi-Müəzzəmədən Mədineyi-Münəvvərəyə intiqam etdilər və büq'eyi-Bəthadan xitteyi-Yəsribə nəqli-məkan təriqiylə məhmili-əzimət yürütdülər. Valiyi-Şam anda dəxi varub, ənva'i-ciddü cəhd edüb çarə qılmadı və bu vaqi'ənin heç tədbirlə islahın edə bilmədi. Əlqissə, bu surət müstəmirdi, ol zəmanədək ki, kəndü dünyadan gedüb Yezidə məqamü mənzil müqərrər oldu və Yezid istiqlalla məsnədi-əyalətdə qərar buldu. Şe'r:

Zülm nəxlin tikdi bağı-mülkə dövri-ruzigar,
Cövr rəsmin qıldı dövrani-sitəmgər aşkar.
Rayəti-iqbalını qıldı Yezidin sərbülənd,



Çəkdi Ali-Mustəfa qəsdinə tiği-abdar.
Bu xətadan ta əbəd çəkməzmi, ya Rəb, infi'al?
Bu cəfadan ruzi-Həşr olmazmı, ya Rəb, şərmsar?

Ol sitəmkari-bədkirdarın ə'yani-dövləti və ərkani-həzrəti bir gün cəm' olub, bu bünyaditəzviri büsati-fəsada yürütdülər və anı bu fitnəyə təhris etdilər ki, əgər istidaməti-səltənət və istiqaməti-hökumət muradın isə, atan zəmanində bey'ətündən təxəllüf edənləri bey'ətə gətür və əgər gəlməzlər isə, qübari-küdurətlərün nə vəchlə varsa, mir'ati-mülkdən götür ki, nizamimülk ixtilafi-əqaid qəbul etməz və müxalifət bustanından nihali-təməttö' bitməz.

Ol müdbir bu nəsihəti anlardan qəbul edüb, Mədinə hakiminə bir namə yazdırdı bu məzmunla ki: "İstehqaqla yer yüzünün xəlifəsi olan və istiqlali-məsnədi-xilafətdə tövfiqi-əmarəti-İslam bulan Müaviyə bin Süfyan dari-dünyadan intiqal edüb, hala növbəti-icrayi-hökumət bana yetmişdür və hakimi-divani-qəza mütəsəddiyi-həlli əqdi-nizami-aləmi bəni etmişdür. Hər ayinə lazımdür ki, cümhuri-xəvasü əvami-aləm və cəmi'i-əkabirü əsağiri-növ'i-bəni-Adəm bəni imami-müftərizüttəa və xəlifeyi-vacibül-ita'ə bilüb, müti'üm olub, rəqqeyi-inqiyadimdən rəqəbeyi-ita'ət çəkməyələr və gülzari-itaətimdə miveyi-nədamət dərəcək nihali-müxalifət tikməyələr. İmdi sən ki, valiyi-Mədinə olan Vəlid bin Ütbəsən, gərəkdür ki, ol diyarda olan ə'zimü əşrafdan, xüsusən pədəri-büzürgvarım zəmanında bey'ətimdən mütəmərrid olanlardan bey'ətim alasan və əgər qəbul etməzlərsə, qətl edüb başların Şama göndərüb iltifatümə ümmidvar olasan".

Çün Vəlid bin Ütbə bu məzmuna ittila' buldu, mütəhəyyir olub ayıtdı: "Ya Rəb, nə müşkül qəziyyə vaqe' oldu. Əgər məzmuninə müxalifət etsəm, dünyada zərər görmək müqərrərdür və əgər mütaviət qılsam, xövfi-axirət əzabi-əkbərdür". İttifaqən ol zəmanda Mərvani-Həkəm Mədinədə sakin idi. Hazır edüb, bu surətə müttəle' etdükdə ol müfsid ayıtdı: "Əgər ətəşi-fitnə şərarə ikən intifa bulmasa, mürurla hiddəti-işti'al bulduqdan sonra ol şərarənin dəf'inə tədbir müşkil olur. Və seyli-bəlanın ibtidai-təhrikdə rəhgüzarı tutulmasına tədriclə təzayud bulub tədarüki-əldən inani-ixtiyar alur. Şe'r:

Aqil oldur kim, qəzayi-əmrə fürsət var ikən,
Hüsni-əncamın əsiri-dami-tə'xir etməyə.
Hər işin tədbiri-əncamində ehmal etməyüb,
Kəndüzin məcruhi-tiği-tərkü təqsir etməyə.

Hala münasib oldur ki, ol dört kimsənəyi ehzar edüb bey'ət ərz edəsən, əgər qəbul etməzlər isə, anlara hakimin hökmün yürüdəsən".

Vəlid bin Ütbə anların ehzarın murad edüb əxbar etdikdə İmam Hüseynlə Əbdullah bin Zübeyr bir arada bulunub Əbdullah ayıtdı: "Ya Hüseyn, Vəlidin bizimlə nə məsləhəti var ola?" İmam Hüseyn ayıtdı: "Öylə anlaram ki, valiyi-Şam fövt olubdur və şəm'i-həyatı şəbistani-hökumətdə intifa bulubdur. Zira bən bu gecə vaqi'əmdə gördüm minbəri nigunsar olmuş və əsasi-şövkəti-pozulmuş. Və hala bu xəbər Vəlidə yetüb, şüyu' bulmadan bizdən Yezidün bey'ətin almaq istər və bizi tədbirlə daireyi-bey'ətə salmaq istər". Əbdullah ayıtdı:

"Ya İbn Rəsulullah, böylə olursa səlah nədür?" Hüseyn ayıtdı: "Bizdən nə münasib bir fasiqin bey'ətinə girmək və bir facirin xilafətinə riza verməkʔ Həqqa ki, hərgiz bu müyəssər olmayacaqdür və bu mə'na surət bulmayacaqdür". Şe'r:

Haşalillah kim, mələk fərmanbəri-şeytan ola!
Əhli-ismət tabe'i-aludeyi-üsyan ola!
Qanda caizdür bu kim, viran olub bünyadi-şər',
Əhli-iman olmayan mö'münlərə sultan ola?

Bu sözdə ikən Vəlidin rəsulu təkrarla ehzarlarına tə'kid etdikdə Hüseyn bin Əli surəti-qəzəb göstərüb ayıtdı: "Bu nə tə'cildür? Heç kimsənə gəlməsə bən xud gəlürəm. Vəlid təsəlli olsun". Qasid müavidət qılub vaqi'əyi 'ərz etdikdə Mərvan ayıtdı: "Ey Vəlid, Hüseyn gəlməyəcəkdür". Vəlid ayıtdı: "Ey Mərvan, Hüseyn bin Əli kəzzab və qəddar degil, çün gəlürəm dedi, əlbəttə, gəlür". Şe'r:

Güli-bustani-vəfadür Hüseyn,
Düri-dürci-sidqü səfadür Hüseyn.
Cigərguşeyi-Həzrəti-Fatimə,
Süruri-dili-Mustəfadür Hüseyn.

Derlər Vəlid bin Ütbə bir mö'mini-pake'tiqad idi ki, Əhli-Beytin təriqi-ri'ayətlərində sabitqədəm və məhəbbətlərində sahib sədad idi. Şe'r:

Mühibbi-xanədanın xatiri-pakində kin olmaz,
Həvayi-nəfsdən bünyadi-imanı xələl bulmaz.

Əlqissə, Hüseyn bin Əli kəndü mənzilinə gəlüb mülazimlərindən bir neçə müsəlləh kimsəyə buyurdu ki, bənimlə darüləmarəyə gəlün və dışrada hazır olun. Əgər bana qəsd etsələr, mümkün olduqca mü'avinət qılun.

Ol sultani-səriri-imamət ol şiri-bişeyi-şücaət Həzrəti-Rəsulullahın ridayi-mübarəklərin boynuna salub və əsayi-şəriflərin əlinə alub, Vəlidin mənzilinə mütəvəccih olub sarayına gəldikdə Vəlidlə Mərvan şahzadəyə tə'zim etdikdən sonra surəti-əhval ərz etdilər. Ol Həzrət buyurdu ki, bu bir qəziyyeyi-müxtəsər və əmri-mühəqqər degil və anın kibi bir mö'təbər xəlifə olub, bənim kibi bir mə'ruf kimsənə gizlü bey'ət etmək münasib görünmaz. Yarın bir məcmə'i-amm edüb bu hekayəti izhar edün, ol məcmə'də hər nə səlah isə, izhar oluna. Vəlid ayıtdı: "Ya Hüseyn, səlah budur". Mərvan ayıtdı: "Ey Vəlid, Hüseynün həbsinə hökm et, bu mənzildən xürucinə riza vermə ki, bir dəxi ələ gətürmək düşvar olur və anın müqavimətinə qüdrət olmayub, bu məsləhət tə'viq bulur". Bu təkəllüm istima'indən Həzrəti-imama qəzəb müstövli olub ayıtdı: "Ya İbnəl-Zərqa, kim ana qadirdür ki, bəni həbs edə? Həqqa ki, bana nisbəti-səfahət qılanun qanıyla yer yüzüngülgun edərəm". Pəs, Vəlidə yüz dutub ayıtdı: "Ey Vəlid, biz Əhli-Beyti-risalətüz, biz xanədani-nübüvvətiz. Peyvəstə məqamımız məhəlli-



tərəddüdi-məlaiki-müqərrəbdür və həmişə navəki-duamız hədəfi-icabətə yetmək mücərrəbdür. Yezid ki, xəmmarü fasiqdür, bey'ət etmək bizdən nə layiqdür?"

Həzrəti-İmamın təkəllümün qayət səlabətdə istima' edüb, mülazimlər aləti-hərblə düxul etmək tədarükündə ikən Həzrəti-İmam çıxub kəndü sə'adətsərayinə rəvan oldu. Mərvan ayıtdı: "Ey Vəlid, Hüseyni həbs etmədigində xəta qıldun". Vəlid ayıtdı: "Ey Mərvan, haşa ki, bən Hüseynə qəsd edəm. Həqqa ki, əgər Məşriqdən Məğribədək bana bu şərtlə versələr, riza verməyəm və ana cəfa rəva görməyəm. Zira ruzi-Məhşər Mustəfadan və Mürtəzadan xəcalət çəkmək düşvar olur və əlbəttə bu gün Əhli-Beytə cəfa qılan Qiyamətdə şərmsar olur". Şe'r:

Xuni-Ali-Mustəfa tökməz müsəlmanam deyən,
Qəsdi-Əhli-Beyt qılmaz əhli-imanam deyən.
Adət etməz kəndüyə Ali-Məhəmməd büğzünü,
Ruzi-Məhşər talibi-tövfiqi-qüfranam deyən.

Bu hala müqarin bir məktubi-mücəddəd Yezidi-pəliddən Vəlidə irişdi bu məzmunla ki: "Ey ə'zəmi-ə'yani-həşmətim və əkrəmi-ərkani-rif'ətim olan Mədinə hakimi Vəlid bin Ütbə! Şümuli-mərhəmətim və ümumi-məkrəmətim ixtisasindən sonra böylə mə'lum edəsən ki, bundan əqdəm bey'əti-əşrafi-Hicaz xüsusində məktubi-namərğubum irsal olunmuşdu. Əsla əsəri zahir olmadığına səbəb mə'lum olmadı. İmdi gərəkdir ki, bey'əti lazım olanlardan imdiyədək bey'ət alındıysa, "fəhuvəl-murad"[1] və əgər hənuz məqami-tə'xirü təvəqqüfdə isə, tə'xirü təvəqqüf etməyüb, kəmali-diqqətlə iqdam edüb bəhərhal bu əmri sərəncam edəsən və filvaqe' görəsən. Ol dört kimsənə təmərrüd edüb bey'ətə girməmək müqərrər olduqda və üsyanları itaətimdən sübut bulduqda Əbdullah bin Zübeyr, Əbdullah bin Ömər və Əbdürrəhman bin Əbu Bəkrə çəndan mültəfit olmayasan, zira qanda olsalar, bənim qəzəbim anlara mülhəq olur və hər biri nə rə'ylə süluk etsə, bəndən cəfayi-əməl bulur. Əmma Hüseyn bin Əli dəf'in lazım bilüb, qətl edüb, başın kəsüb bu canibə irsal edəsən. Nədən ki, ol afitabi-övci-şücaət və sipehri-vilayət dirəxşan olduqca bənim əxtəri-iqbalım ehtiraqdədir və dövləti-dünya anın mülazimətinə təriqi-müraciət bulduqca bana nisbət daireyi-nifaqdədür".

Vəlid bin Ütbə ki, ol məktubun məzmununa ittila' buldu və məfhumuna müttəle' oldu, ayıtdı: "Həqqa ki, əgər Yezid bana cəmi'i-səltənətin versə, Hüseyn bin Əli qətlinə riza verməyəm və zəxarifi-dünya üçün Ali-Məhəmmədin nahaq qanına girməyəm". Şe'r:

Haşa ki, mülki-dünya üçün tərki-din edəm,
Ali-Rəsuli küşteyi-şəmşiri-kin edəm.
Haşa ki, cahü dövləti-bie'tibar üçün,
Şad eyləyüb Yezidi, Hüseyni həzin edəm.

[Pəs, ol hökmün surətin təhrir edüb, bir məhrəm ilə Həzrəti-Hüseynə irsal edüb ərz etdi] ki: "Ey nuri-dideyi-Zəhra və süruri-sineyi-Mustəfavü Murtəza, haşa ki, sənün kibi padşaha bən

[1] Arzu edilən budur.

kibi gədadan tərki-ədəb sadir ola və bən kibi xaksardan sən kibi şəhriyara bir qəbahət zühur edüb mir'ati-zəmiri-münirinüz andan qübari-küdurət bula".

Çıxsun ol göz ki, sana eyləyə qəhr ilə nigah,
Yansun ol dil ki, sənün büğzünədür mənzilgah.
Sınsun ol əl ki, sənün sidq ilə dutmaz ətəgün,
Yetməsün kaminə hər kim ki, sənədür bədxah.

Əmma vəhmüm andandür ki, hakimi-Şam bəndən bir ehmal anlayub bu diyara bir zalim kimsənə irsal edə və tədarüki-əhval üçün fürsət fövt olub ixtiyar əldən gedə. Şe'r:

Şah olan fitneyi-bədxahdan olmaz qafil,
Şir olan hileyi-rubahdan olmaz qafil.
Saliki-rahi-xirəd həzm təriqin gözlər,
Rəhgüzarində olan çahdan olmaz qafil.

Həzrəti-İmam bu hala vaqif olduqda və bu məzmuna ittila' bulduqda mühəqqəq bildi ki, nazimi-kargahi-qəza sihhəti-əxbari-Kərbəla üçün tərtibi-müqəddəmat etməkdədür və pərdeyi-xəfada məstur olan əsrari-hikmət təhiyyeyi-əsbabla zühura yetməkdədür. Lacərəm qövsi-qəzadan [atılan] navəki-qədər bir nişanəyə həvalə olsa, sipəri-tədbir vüsuluna mane olmaz və gülşəni-təqdirdə rəyahini-ümura nəsimi-və'dəyi-mürur yetsə, açılmaqda təvəqqüf qılmaz.

Həzrəti-İmam ol gün ol gecəyədək təhəyyürü təfəkkürlə səbr edüb, gecə kim, dəbdəbeyi-səltənəti-ruzi-nurani kövkəbeyi-istilayi-şəbi-zülmaniyə mübəddəl oldu və surəti-hali-ruzigar inqilabi-həvadisdən təğəyyür buldu, ol şəm'i-şəbistani-vilayət və çirağı-dudmani-imamət Həzrəti-Rəsulullahın mərqədi-mübarəkləri üzərinə varub, giryan-giryan türabına yüz sürdü və nəhayəti-tə'zimü təkrim birlə səlam verdi. Şe'r:

Əssəlam, ey asitanun rəşki-firdövsi-bərin,
Xakrubi-dərgəhün müjgani-çeşmi-hurü 'eyn.
Əssəlam, ey xadimi-dərgahi-qədrin Cəbrəil,
Midhətün Qur'anü məddahun İlahiləmin.
Ya Rəsulullah, bənəm kami-dili-Zəhra, Hüseyn,
Yüz sürüb dərgahinə gəldim diləfgarü həzin,
Ol bənəm kim, ümmətün hifzini əmr etdün bana.
Ol bənəm kim, gənci-əsrara bəni qıldun əmin.
Ümməti-zalim bana izhari-bidad etdilər,
Bikəsəm, biçarəyəm, sənsən bana ancaq mü'in.

Təmamiyi-şəb ta sübh təzərrö'lər qılub ibadətlər etdi, bir növ'lə ki, sədayi-təsbihü təhlili asimana yetdi. Əlqissə, ol gün dəxi gecəyədək ziyarət edüb, ikinci gecədə kəmali-heyrət



nərgisi-şəhlasın müstəğraqi-xab edüb və təfəkkürlə çeşmi-həqiqətbini bir zəman yuxuya gedüb vəq'əsində gördü ki, Həzrəti-Rəsul cəmi'i-ərvahi-müqəddəsə ilə hazır olub, ol seyyidiməzlumu bağrına basub dedi: "Ey cigərguşeyi-məzlum və ey imamzadeyi-mə'sum, bənim şəfa'ətimə ümidvar olanlar və müsəlmanam deyüb də'vayi-batil qılanlar səni dəşti-Kərbəlada şəhid edələr və ol ərseyi-bəlada sənin və övladın qanından cuybarlər yürüdələr:

Gəldi ol dəm ki, sənün qanunla rəngin ola xak,
Edələr zülm ilə sən məzlumu zalimlər həlak,
Gəldi ol dəm kim, səni bidərdlər qətl edələr,
Olasan mülhəq bana zarü həzinü dərdnak.

Əmma haşa ki, anlara bənim şəfa'ətim nəsib ola və ri'ayətimdən ol tayifeyi-tağiyə bəhrə bula. Ey Hüseyn, Murtəza və Zəhra və Həsəni-Muctəba müntəziri-didarın və hurü qılman nigarani-mahi-rüxsarındür. Vəqtdir ki, şərbəti-vüsalın məhrəmi-daği-fəraq və pərtövi-cəmalun şəm'i-şəbistani-iştiyaq edəsən". Hüseyn ayıtdı: "Ya cəddah, hala ki, mülaqat müyəssər olubdur və talib mətlubun bulubdur, nola dünyaya müraci'ət qılmasam və bir dəxi ol dami-bəlaya giriftar olmasam". Şe'r:

Məlul oldum cəhani-bivəfadan,
Dutuldu könlüm ol möhnətsəradan.
Nola qət' etsön andan irtibatım,
Götürsön ol güzərgəhdən büsatım.
Dua qılsan ki, lütfi-Həzrəti-Həq,
Bana göstərməyə dünyayı mütləq.

Həzrəti-Rəsul ayıtdı: "Ey Hüseyn, dərəceyi-şəhadət müstəlzimi-rücu'i-dünyadür, hala sana dünyaya müraciət etmək övladür".

Əsnayi-təkəllümdə İmam Hüseyn gördü ki, Həzrəti-Rəsulun rəngi-gülguni zə'fərani olmaqdadür və gisuyi-mü'ənbərlərinə gərdi-küdurət dolmaqdadür. Müztərib olub sual etdi ki, ey gülzari-nübüvvət və ey sərvi-cuybari-risalət, bu nə əlamətbür?

Ol Həzrət ayıtdı: "Ey nuri-dideyi-Zəhra, ey bərgüzideyi-Ali-Əba, bu qübari-meydani-bəla, yə'ni əsəri-rəstaxizi-Kərbəladür. Bu qübari-küdurətdür ki, mir'ati-cəmiyyətündən Kərbəlada surəti-süruri nihan edər və bu gərdi-möhnətdür ki, müsibətün e'lami üçün ol badiyədən asimana gedər".

Həzrəti-Hüseyn iztirabla bidar olub, gah və'deyi-didarla xürrəm və gah təfəkküri-müfariqəti-əyalla pürğəm mənzili-şərifinə buyurub, Mədinə iqamətindən könül götürüb səfəri-Məkkə əzimətin müsəmməm qıldı, amma anda dəxi qərar dutmayub Kərbəlaya mütəvəccih olduğun kəndüyə müqərrər qıldı. Pəs, təriqi-vida'lə Həzrəti-İmam Həsən mərqədi-münəvvəri üzrə gedüb, səlam verüb ayıtdı. Şe'r:

Əlvida, ey sərvi-gülzari-imamət, əlvida!
Əlvida, ey şəm'i-bəzmi-istiqamət, əlvida!

Əlvida, ey zəhr tə'sirilə rəngin səbzfam!
Əlvida, ey səbzeyi-bağî-Qiyamət, əlvida!

Andan dəxi nəqli-məkan edüb sərvi-qamətin şəm'i-məzari-Zəhra qıldı və ol rövzeyi-mübarəkdə gülbüni-dərdindən gunə-gunə güllər açıldı. Hər zəman bir növhə ilə dəmsaz və hər dəm bir sürudla həmraz olub derdi: "Əssəlam, ey sədəfi-gövhəri-həyatım, vey mə'dəni-cövhəri-zatım, iltifat et ki, vidaya gəlmişəm və bu axir ziyarətdür".

Rəvayətdir ki, rövzeyi-mübarəkdən bir avaz gəldi ki, və əleykəssəlam ey fərzəndi-ərcümənd və ey nütfeyi-səadətmənd, bir müddətdür ki, təşneyi-zülali-vüsal və müştaqi-afitabi-camalam. Cəhd et ki, ənqərib pərdeyi-hicabı tiği-ə'dayla çak və mir'ati-zatun qübari-küdurətdən seyqəli-sinani-bədxahla pak edəsən.

Həzrəti-İmam andan nəqli-məkan edüb, mükərrərən mərqədi-Rəsulullah üzərinə gəlüb, təcdidi-ziyarət edüb vida etdikdən sonra mənzilinə dönüb, təhiyyeyi-əsbabi-səfər qılub, şəbi-cüm'ə Şə'ban ayının dördüncü günündə dövləti-[şəhadət] ümmidiylə səati-sə'd ixtiyar edüb əmr etdi ki, hicabi-bargahi-rif'ət, sərapərdeyi-izzü iqbal və şadirəvani-əzəmətü iclallərin xaki-Yəsribdən götürüb bədrəqeyi-səadətlə xitteyi-Hicaza rəvan olalar və rayəti-nüsrət və livayi-nüzhətlərin Mədinə meydanından Məkkə canibinə mütəhərrik qılalar. Şe'r:

Yükləndi barxanə, çəkildi qətarlar,
Əflaka çıxdı ruyi-zəmindən qübarlar.
Asari-nə'li-sümmi-səməndi-sipahdan
Nəqşi-məcərrə qıldı əyan rəhgüzarlar.

Təmamiyi-ə'yanü əşrafi-Mədinə bir mənzil müşayə'ə təriqilə həmrah olub, müraci'ət qılub, Həzrəti-İmam kəndü xəvasi-hümayunla mütəvəccih oldu. Əmma mənzil-mənzil qət'i-rah etdükcə mənzildə və mərahildə əksəri-övqat gah Həzrəti-Müsanun Fir'ondan qaçub xunxar biyabanlarda heyran qaldığun rəvayət qılurdı və gah Həzrəti-İbrahimün Nəmruddan fərar edüb, hövlnak badiyələrdə sərgərdan olduğun hekayət edərdi. Və buyururdu ki, əlameyi-qürbi-İlahi təcərrö'i-həlahili-möhnətü bəladür və nişaneyi-qəbuli-dərgahi-Mə'bud təhəmmüli-məsaibi-rəncü ənadür. Şe'r:

Cövri-əğyara səbr eyləməyən,
Bulmaz əhliyyəti-təqərrübi-yar.
Sərbəsər xardür gül ətrafı,
Səngdir lə'l mə'dəninə hisar.

Əsnai-təriqdə bir gün Əbdüllah bin Müti' ki, mühibbi-xanədan idi və Məkkədən gəlib Mədinə canibinə rəvan idi, ol həzrətin mülaqati-şəriflərinə müşərrəf olub və dövləti-mülazimətlərindən səadəti-üzma kəsb qılub izhari-səna qıldı. Şe'r:

Mərhəba, ey nuri-ruyindən münəvvər kainat,
Cövhəri-zati-şərifin came'i-hüsni-sifat.



Mərhəba, ey varisi-elmi-Rəsuli-Haşimi,
Müqtədayi-əhli-iman, hadiyi-rahi-nəcat.

Və Həzrəti-İmamun məzmuni-məqalat və qərayini-halatlarında şəmmeyi-mafizzəmirlərin mə'lum edüb, təriqi-ədəb birlə ərz etdi ki: "Ey bərgüzideyi-afaq və ey seyyidi-ələlitlaq, əgərçi cəmi'i-dəqayiqi-əhval zəmiri-münirinizə rövşəndür və bizdən Həzrətinüzə nisbət izhari-nəsihət tərki-ədəb olduğu mühəqqəqü müəyyən, əmma iqtizayi-hüsni-sədaqət və kəmali-müxalisət təklifi-cür'əti-təkəllüm qılur. Ya İbn Rəsulullah, Məkkeyi-Müəzzəməyə buyurduqda bilürəm ki, ə'yani-Kufə məkatibü mərasil irsal edüb Həzrətinizə təklifi-hüzur edərlər. Zinhar, ol kəlimati-kizbə e'timad etməyəsiz və Məkkədən Kufə canibinə getməyəsiz ki, ol bivəfalarda öylə ki, bən gördüm, vəfa imkanı yoxdur və ol güruhun səlahdan fəsadları çoxdur. Yəqin ki, əgər Məkkədə tərhi-iqamət buraxub təmkin bulsanuz və ol büq'eyi-şərifdə təvəttün etməgə rəğbət qılsanuz, əhli-Məkkə sizdən qeyrisin ixtiyar etməzlər və siz anda olduqca qeyr hökmün onda yürütməzlər". Həzrəti-İmam anun kəlimatın təsdiq edüb, vida qılub rəvan oldu.

Mürurla mərahilü mənazil qət' olub, imarati-Məkkə və əlamati-Bətha əyan olduqda, əşrafü əizzeyi-Məkkə xəbərdar olub, təriqi-istiqballa pabusi-şərifindən kəsbi-sə'adət qılub, ol Həzrəti kəmali-tə'zimilə və nəhayəti-təkrimilə gətürdükdə zəbani-küngüreyi-Zəmzəm bu ədayla mütəkəllim oldu. Şe'r:

Mərhəba, ey məsnədarayi-səriri-izzü cah,
Mərhəba, ey şahi - qüdsi-mülki-ruhanisipah.
Mərhəba, ey ərseyi-imana əhkamın rəvan,
Mərhəba, ey hövzeyi-İslama iqbalın pənah.
Qibləgahi-Kə'bə didari-şərifindür sənin,
Gərçi xaki-Kə'bədür əhli-cəhana qibləgah.

Həzrəti-İmam sə'adətü iqballa nüzul edüb mütəməkkin olduqda əşrafi-Hicaz güruh-güruh xidməti-şəriflərinə gəlüb, mübarəkbadi- mənzil qılub, övqati-xəmsdə ol Həzrətə iqtidayi-nəmaz edərlərdi və andan bey'ət alub gedərlərdi.

Rəvayətdir ki, Yezid qibəlindən valiyi-Məkkə olan Sə'd bin As əkabiri-Hicazın Həzrəti-İmama müracia'tin gördükdə, təvəhhüm qılub Məkkədən Mədinəyə fərar qıldı və keyfiyyəti-əhvalı ol nabəkara ərz qıldı. Əlqissə, bu xəbər cəmi'i-biladü büqa'ə müntəşir olub, xüsusən Kufədə şaye' oldu və iştihar buldu ki, Həzrəti-Hüseyn Yezidin bey'ətindən imtina' edüb, Mədinədən Məkkəyə təşrif buyurub, ə'vanü ənsar cəm' etməkdədir.

Kufədə olan həvadarlar Süleyman Xüzai hücrəsinə cəm' olub bu səlahı gördülər ki, təriqi-mü'avinətü müzahirət məsluk edüb, Həzrəti-İmama ərzi-sədaqət qılalar və anın rikabi-hümayununda dərəcati-nəcati-dünyavü axirət bulalar. Əkabirü əşraf Kufədən yetmiş nəfər mö'təmid kimsənələr Müseyib və Rifa'ə bin Sədad və Həbib bin Müzahir və Məhəmməd bin Əş'əs Şüreyh Qazi hüzurunda qəsəm yad edüb ittifaq etdilər ki, xanədani-nübüvvət və vilayət təriqi-məvəddətində malü can diriğ etməyələr və Hüseyn ibn Əlidən qeyrin hök-

mün Kufədən yürütməyələr və Həzrəti-İmama bir məktub imla etdilər bu məzmunla ki: "Əlminnətü lillah, rayizi-tövfiqi-hidayət və qayidi-tə'yidi-sə'adət 'inani-tövsəni-e'tiqadımızı təriqi-zəlalətdən münhərif qılub şəhrahi-nəcata mün'ətif qılmış və çehreyi-amalımıza mifta-hi-iqbal əbvabi-məvəddəti-xanədani-vilayət məftuh edüb zəmirimizə məhəbbəti-Əhli-Beyt salmış. Həmvarə ana talib və peyvəstə ana rağibüz ki, səhifeyi-əmri-xilafətdən izaleyi-nəq-şi-xilaf etməkdə və cərideyi-hökmi-imamətdən rəf'i-ricsi-müxalifət qılmaqda kəmali-iqdam və nəhayəti-ehtimam izhar edəyüz, əmma imamımız və müqtədamız yoxdur. Hala böylə is-tima' olundu ki, əşəddi-ə'dayi-din və əzəlli-əzdadi-xanədani-seyyidülmürsəlin Yezid bin Mü'aviyə ədəmi-istehqaqla istid'ayi-cülusi-məsnədi-xilafət qılub, ol afitabi-övci-vilayət və şahbazi-aşiyani-risaləti bey'ətə təklif etmiş və ol Həzrət dəxi imtina' edüb, asari-müxalifət pərdeyi-xəfada ikən dərəceyi-zühura yetmiş. İmdi ol sərvi-cuybari-kəramət və şükufe-yi-növbəhari-səadətdən mütəveqqe' və mütərəqqib oldur ki, təriqi-'inayətü iltifat məsluk olunub və bu canibə livayi-nüsrət təhrik bulub, bu müxlislərini qüdumi-səadətlüzümlə müşərrəf qılalar və bu bəndələri kəndüyə əhibbayi-sadiq və əviddayi-müvafiq bilələr. Şe'r:

Vəqtdir kim, səbzəzari-xüşksali-firqəti
Rəşheyi-lütfiylə sirab edə əbri-növbəhar.
Vəqtdir kim, pərtövi-xurşidi-aləmtabdan
Zümreyi-əhbaba pürnur ola çeşmi-intizar.

Əgər bu sə'adət müyəssər olsa və bu dua icabət bulsa, Kufəyə qədəm basdıqda Yezid qi-bəlindən hakim olan Nüman Bəşiri ki, bir piri-zəifdir, şəhərdən ixrac etməmiz müqərrərdir. Mücmələn, müqaviməti-ə'da üçün hər nə əsbab məqsud isə bu gün Kufədə müyəssərdir".

Namə tamam olduqda Əbdullah Məsmə'i-Həmədani və Əbdullah Bəkriyə təslim edüb irsal etdilər. Cavabı gəlmədən mütə'aqib bu məzmunla bir namə dəxi Bəşir bin Təmir və Əbdürrəhman bin Əbdullah ilə rəvanə qıldılar. Anların əqəbincə Xan bin Hani və Sə'd bin Əbdullah Xəşə'i və anların əqəbincə Şis bin Rəbi'i və Ürvə bin Qeys, Ömər bin Həccac və Sə'd bin Əbdullah rəvanə olub, əlqissə, mütəvatir bu məzmunla yüz igirmi kitabət göndə-rüb, izhari-kəmali-sədaqət etdikdə Həzrəti-İmam əhli-Kufənin məkatibi-mütəvatirlərün kən-düyə hüccət bilüb və niyyəti-icrayi-Həq zəmiri-münirlərində rüsuxi-təmam bulub, tərvici-ümuri-din üçün diyari-Kufəyə əzimət müsəmməm qıldı. Əgərçi ol diyarda mübtəlayi-bəliy-yat olduğun mühəqqəq bildi, əmma müqərrər qıldı ki, kəndüdən müqəddəm Müslimi-Əqili ol diyara rəvanə qıla və kəndü dəxi mütə'aqib mütəvəccih ola.

Pəs, əkabiru əşrafi-Kufəyə bir namə təhrir etdi bu məzmunla ki: "Həmdi-bihəd ol müb-də'i-əşya və müxtəre'i-masivaya ki, növ'i-insanı tövfiqi-əqlü ixtiyarla sayir məxluqatdan müm-taz etmiş və sipasi-biqiyas ol müsəvviri-əşkali-karxaneyi-dünya və müdəbbiri-əhvali-darül-qərari-üqbaya ki, cəmi'i-növ'i-insandan firqeyi-ənbiyaya tövfiqi-təfəvvüq verüb, şərəfi-imti-yaz birlə sərəfraz etmiş və dürudi-namə'dud və sələvati-naməhdud ol sərvəri-kainata ki, firqeyi-ənbiyadan cövhəri-iste'dadı əşrəfü ə'ladır və təhiyyati-biqayət və təslimati-binəhayət ol ftrqeyi-əhibbaya və zümreyi-əshaba ki, qəbuli-söhbəti-sədri-risalət bulub, ana itaətləri cə-mi'i-əməldən övladür. Əmma bə'd, bu namyei-nami və məktubi-girami ki, mütəzəmmini-



kəmali-nəsihət və mütəkəffili-vüsuli-səadətdür, bəndən ki, Hüseyn bin Əliyi-Murtəzayam, sizə ki, ə'izzeyi-əşrafi-Kufəsiz, ey firqeyi-əhibbayi-sadiqül-e'tiqad və ey zümreyi-əviddayi-xalisülvidad, məkatibi-müxalisət-məknunuz ki, təriqi-ittihad və caddeyi-e'tiqaddan təbliğ olunmuşdu, vasil olub məzmuninə ki, məhzi-izhari-xülüsi-təviyyət və kəmali-bəyani-sifayi-niyyət idi, ittila' hasil olduqda, istid'anıza icabət lazım gəlüb, ol canibə əzimətimiz təsmim bulub, hala Müslimi-Əqili ki, ə'qəli-əşrafi-Bəni-Haşim və ərşadi-cəm'i-əkabirü ə'azimdir, kəndü qibəlimdən ol canibə irsal etdüm. Gərəkdir ki, məqdəmi-şərifin müğtənəm bilüb, təriqi-mürafiqət və müvafiqətində dəqiqə diriğ etməyəsiz və canibi-şərifinizdən təsəlliyi-xatir bula. Yəqin ki, bənim təhriki-livayi-rif'ətim ol canibə anın nəsimi-əxbari-hüsuli-müraatına məşrutdur və rişteyi-ehtizazi-rayəti-hümayunum ol diyara anın silsileyi-e'lami-hüsni-riza-sinə mərbutdur". Şe'r:

Ey görənlər anı, təşrifimdən olman naümid
Kim, bəhari-aləmaradır güli-sirabımın.
Ey görən anı, bana ümmidvar olsan nola,
Sübhdür ol sadiqü xurşidi-aləmtabımın.

Məktubi-şərif şərəfi-itmam bulduqda Həzrət, Müslimi-Əqilə təslim edüb buyurdu ki: "Ey bənim məhaliki-şiddətdə ə'zami-ə'vanım və məzayiqi-qürbətdə əqrəbi-ixvanım, məhəlli-mürafiqət və zəmani-müvafiqətdir. Bu canibdən ümməti-Məhəmməd üzərimizə hüccət bu-raxub izhari-həq etməgə tərğib edərlər. Nə üzrlə ehmal etmək olur? Və bir canibdən ə'dayi-din ittifaq edüb həlakımıza qəsd etmişlər. Müqavimət etmək olmaz, fərar edüb qanda get-mək olur? Şe'r:

Tufani-fitnə qopdu, gəlin qərqə olmadan,
Rəxti-səlahımız çəkəlüm bir kənarəyə.
Olduqca hüsni-əql və tədbirə ehtimal,
Dil şişəsini urmayalım səngi-xarəyə.

Hala bir neçə mö'min kimsənələr məkatib irsal edüb bizi də'vət etmişlər. Təğafül etmək olmaz və tə'əllül etməklə naireyi-istilayi-'ədu intifa bulmaz. Səlah oldur ki, sən bəndən müqəddəm ol diyara təvəccöh edüb təfəhhüs edəsən. Filvaqe', əf'alı əqvalla müvafiq görsən e'lam edəsən, bən dəxi təvəccöh edəm".

Müslimi-Əqil Həzrəti-İmamın hökmi-şərifinə inqiyad edüb həm ol gün mütəvəccih oldu. Hənuz bir mənzil qət' etmədən Müslümün canibi-yəminindən bir səyyad çıqa gəlüb, əlində bir seydi olub, filhal zibh etdi. Müslim ol qaziyyəyi kəndüyə mübarək görməyüb, mü'avidət edüb Həzrəti-İmama ayıtdı: "Bənim Kufəyə getməgim səlah degil, zira bu yolda bu hala sataşdım". Həzrəti-İmam ayıtdı: "Ey Müslim, təriqi-riyazi-Həq müxatiradir, qəbul edən salik olur. Və gövhəri-məqsəd girdabi-bəladədür, qəvvas olan anı alur. Qüvveyi-va-himən qalib isə bir qeyr kimsənə tə'yin edəlim. Müslim gördü ki, Həzrəti-İmamın rizası anın getməgindədir, ziyadə mübaliğə etməyüb ərzi-üzr etdi ki: "Ya İmam, bənim vəhmim fövtü

mövtdən degil, əmma andandır ki, minbə'd didari-şərifinizi görməyüb məhrum qalam və dövləti-mülazimətindən binəsib olub qürbətdə öləm". Şe'r:

Ey camalın mətləi-xurşidi-iqlabım bənim,
Gün yüzündəndir mübarək müttəsil falım bənim.

Dövləti-zövqi-vüsalındır bəni xoşhal edən,
Bilməzəm səndən cüda düşsəm nolur halım bənim?!

Həzrəti-İmam dəxi bu hala giryan olub derdi. Şe'r:

Ey könül, ah eylə kim, ah eyləmək həngamıdır,
Ey gözüm, qan ağla kim, qan ağlamaq əyyamıdır.
Ayrılır bəndən bu gün halım pərişan eyləyüb,
Ol ki, göz nüri, könül mətlubi, can aramıdır.

Əlqissə, Müslimi-Əqil dideyi-giryan və dili-büryanla vida' edüb, Məkkədən çıxub Mədinəyə təvəccöh qılub, Həzrəti-İmam təhiyyeyi-əsbabi-səfər əmrinə məşğul oldu.

Rəvayətdir ki, səbəbi-ə'davəti-Hüseyn müxalifəti-surivü mə'nəvidür. Əmma müxalifəti-mə'nəvi iki vəchlədir: Biri ol ki, ağazi-xilqəti-mövcudat və bidayəti-icadi məknunatda cəmi'i-cəvahiri-nüfusi-insaniyyə bir dəf'ədə məxluq olub, tədriclə təngnayi-qüvvətdən fəzayi-fe'lə təvəccöh etmişlər və məzmuni-hədisi-"Əl-ərvahu cunudun mucən-nədətun"[1] müqtəzasincə rəngi-tənakür və tə'arüf dutmuşlar. Lacərəm sabiqeyi-irtibat bulub, ol məcmə'də bir-birinə qərib olan ərvah aləmi-əşbahda bir-birin bulduqda aralarında silsileyi-ülfəti-sabiq mütəhərrik olur və bə'id olanlar bir-birin gördükdə aralarında nifrəti-əzəli, əlbəttə, əsəri-müxalifət salur. Hər ayinə bu iqtizadəndür ol müxalifət ki, Əbdüş-şəms ovladı Haşim və Üməyyə arasında idi və ol ədavət ki, Əbdülmüttəlib və Hərb arasında idi və ol niza' ki, Həzrəti-Rəsulullah və Əbu Süfyan arasında idi və ol fitnə ki, Hüseyn və Yezid arasında idi. Və müxalifəti-mə'nəvinin bir vəchi dəxi oldur ki, zati-paki-Vacibülvücud məsdəri-sifati cəlaliyyə və cəmaliyyə olub, iqtizayi-zühur etdikdə ixtilafi-müzahir lazım gəlüb, iste'dadi-nüfusi-insaniyyə istehqaqi-qəhrü lütf üçün hikmət müqtəzasınca iki qism olmuş, biri müstəcme'i-[cəmi'i]-fəzayil və ol ərvahi-ənbiyavü övliya və süləhavü ətqiyadır. Və biri müstəcme'i-cəmi'i-rəzayil və ol ərvahi-küffar və füccarü fisəqə və əşrarü əşqiyadır. Lacərəm bu iki güruh həmişə müxalifət üzrə olub, Həzrəti-Hüseyn bin Əli firqeyi-əvvəlindən və Yezidi-pəlid zümreyi-axirətindən vaqe' olmuş.

Və müxalifəti-suri dəxi hər canibdən iki vəchlədir. Əmma Həzrəti-Hüseynin Yezidə izhari-xüsumət qılduğunun iki vəchi var. Biri ol ki, çün əmri-xilafət təsəddiyi-əhkami-şər'iyyə və təkəffüli-tənfizi-ümuri-'ürfiyyədir və iqtizayi-sidqü səlah edər və Yezid ki, xümmarü facirü fasiq olub, əsla irtikabi-mənahidən ictinab etməzdi və ri'ayəti-namusi-şəri'ət təriqin dutmazdı, lacərəm qeyrəti-imamət və məsnədi-xilafəti anunla aludə rəva görmədi və anın xilafətinə riza vermədi. Və bir vəchi dəxi ol ki, Həzrəti-Hüseyn dəxi Yezidin bey'ətin qəbul etsəydi, Bəni-Üməyyənin də'vayi-xilafətlərinə təsdiq vaqe' olub qət'ən şəkk qalmazdı. Lacərəm Hüseyn bin Əli nəqdi-həyatın sərf edüb ol sirri-nihanı zühura gətürdi və Bəni-Üməyyənin bütlani-də'valərin dərəceyi-vüzuha yetürdi.

[1] Ruhlar silahlanmın əsgərlərdir.



Və Yezidin dəxi izhari-ədavət qılduğunun iki vəchi var: Biri ol ki, məsnədi-xilafətdə qərar etdikdə Həzrəti-Hüseyni bey'ətə təklif edüb, Həzrəti-İmam imtina' etdi. Və bir vəchi oldur ki, Əbdullahi-Zübeyrin bir cəmilə övrəti olub, Yezid anın avazeyi-hüsnü cəmalın istima' edüb aşiq olmuşdu. Ənva'i-hiylələrlə ol övrətlə Əbdullahi-Zübeyrin arasına müfariqət salub, təlaq aldırıb təzvicinə fürsət bulmuşdu.

Əlqissə, Əbu Musa Əş'ərini irsal edüb ol övrətə talib olduqda və Əbu Musa bu məsləhət üçün təvəccöh qıldıqda təriqi-təvəccöhündə Həzrəti-Hüseynə mülaqi olub, Həzrəti-İmam ayıtdı: "Ya Əbu Musa, təvəccöhün nə canibədir?". Cavab verdi ki, ya İbn Rəsulullah, mütəlləqeyi-İbn Zübeyri Yezid bin Mü'aviyə içün mütalib qılmağa əzm etmişəm. Hüseyn ayıtdı: "Ey Əbu Musa, əgər ol məsturə Yezidin əqdindən imtina' etsə, bənim içün tələb qıl". Əbu Musa üç şəxsin vəkili olub, ol xatunun hərəmsərayına yetdikdə xatun ənva'i-e'zazü ehtiram etdikdən sonra ayıtdı: "Ya Əbu Musa, bu bəndəxanəyə təşrif buyurduğunuzdan qərəz ola?" Əbu Musa ayıtdı: "Ey müxəddəreyi-zəman vey məstureyi-dövran, sən kibi nazəninə künci-'üzlət və guşeyi-vəhşət bəkləyüb oturmaq münasib görünməz. Bə'zi kimsənələr ələqeyi-təzvicinə talib olmuşlar, əgər rüxsət var isə, ərz edəyim". Ol məsturə ayıtdı: "Ya Əbu Musa, əhli-səadət səlahından [təcavüz murisi-şəqavətdir, xüsusən sənin səlahından] ki, mütəzəmmini-kəmali-səadətdir". Əbu Musa ayıtdı: "Vüsalına talib və təzvicinə rağib olanların biri Yezid bin Müaviyə, biri Hüseyn bin Əli, biri Əbdullah bin Ömər və biri bənəm". Xatun ayıtdı: "Ey Əbu Musa, bən bir növcəvanam, sən bu qərəzdən fərağət qıl və biqərəz bəyan et ki, ol üç şəxsdən qansı bana ənsəb və ələyəqdir".

Əbu Musa ayıtdı: "Əgər hökumət muradın isə, Yezidi qəbul et və əgər hüsni-surət istərsən, Əbdullah bin Ömər ittisalına rəğbət qıl və əgər səadəti-axirət təmənna qılsan, Hüseyn [bin] Əlinin daməni-ittisalın əldən buraxma". Xatun ayıtdı: "Hökumət əsri-zaildir və hüsni-surət fənaya qabildir. Xatirim nicati-axirət və müsahibəti-Zəhraya maildir". Pəs, bu vəchlə iqrar olub Əbu Musa ol xatunu Hüseyn üçün əqd qıldı və bu xəbər Yezidə yetdikdə mühərriki-silsileyi-ədavət əsli oldu. Şe'r:

Çərx hər fitnə kim, istər qıla aləmdə 'əyan,
Əshəli-vəch ilə əsbabına əncam verür.
Salub ol fitnə binasının əsasın əvvəl,
Ruzigar ilə ana surəti-itmam verür.

## SƏKKİZİNCİ BAB

### MÜSLİMİ-ƏQİLİN ŞƏHADƏTİN BƏYAN EDƏR

Rəvayətdir ki, ol afitabi-zülmətsuzi-risalət və mahtabi-aləməfruzi-sə'adət, yə'ni "Yucahidunə fi-səbili'llahi"[1] təriqinin müqtədası və "Və cahidil - kuffarə"[2] mə'rəkəsinin sahiblivası. Şe'r:

Şahi-eyvani-risalət, mahi-gərduni-vəfa,
Mə'dəni-ehsanü rə'fət mənbə'i-sidqü səfa.
Xazini-gənci-şəriət, məzhəri-əsrari-din,
Sərvi-gülzari-nübüvvət, dürri-dürci-istəfa.

Buyurmuş: "İnnəl'əbdə əzisbəqət ləhu mənzilətun ləm-yəbluğha bi'-əməlihi ibtəlahu'llahu fi-cəsədihi əv fi-malihi əv fi-vələdihi summə səbbərəhu 'əla zalikə hətta yəbluğə mənzilətu'lləti səbəqət ləhu"[3], yə'ni bir bəndeyi-qabil ki, sabiqeyi-fitrətdə iste'dadi-fitri ilə bir dərəceyi-ə'la və bir mərtəbeyi-ə'mali-salehə və əf'ali-sütudə ilə hasil etmək mümkün olmaya, lacərəm ol bəndəyi Vacibülvücud bəlalar ilə imtahan edüb, ya mövti-övladla qərarın alur və ol müsibətlərdə ana səbr verüb, ol səbrlə müstə'iddi-idraki-mərtəbeyi-miqdar qılur. Şe'r:

Hər təmənna qılsan ey arif, bəladan istə kim,
Hər bəla zimnində bir rahət müqərrərdür sana.
Etmək olmaz bibəla idraki-neyli-hər murad.
Gər bəla çəksən, muradi-dil müyəssərdür sənə.

Filvaqe' çün dünya badiyeyi-fənadır və cəmi'i-əhvalı bibəqadır, dünyada bəla çəkən dünyadan çıxdıqda xilas olduğun idrak etsə, şükr etməzmi və rahətdə olan tərki-dünya qıldıqda fövt olan rahət təəssüfünün əzabı ana yetməzmi?

Hüseyni-Mənsuri-Arifdən məşhurdur ki, bir gün münacatında derdi: "İlahi, həqiqətin həqqi üçün xəzaneyi-bəlayyatın əbvabını məftuh edüb, hər bəla var isə, bana ruzi et və bəni cəmi'i-bəlada imtahan qıl. Əgər təriqi-məhəbbətdə 'inani-iradətimi zərrəyi münhərif görsən, bəni silsileyi-əsdiqadan ixrac edüb mərdud eylə. Həqqa ki, əgər miqrazi-riyazət birlə zərrə-zərrə ə'zayi-vücudumu qət' etsələr hərgiz kəmali-iradətimdə nöqsan olmaya və surəti-sədaqətim təğəyyür bulmaya". Şe'r:

Aşiq oldur ki, cəfa tiğindən ikrah etməyə,
Zərrə-zərrə qılsalar ə'zasını, ah etməyə.
Qan içə, səbr eyləyə, hər dəm fəğanü ah edüb,
Dərdi-eşqi-yardan əğyarı agah etməyə.

---

[1] Allah yolunda cihad edərlər (Qur'an, 5, 54).
[2] Kafirlərə savaş aç (Qur'an, 9, 73).
[3] Bəndə bir mövqeyə əməli ilə çata bilməzsə, Allah onun vücuduna xəstəlik.





"Ruhül-ərvah"dan nəqldir ki, bir gün bir 'əziz bir bimar dərvişin 'ibadətinə varub və anı ənva'i-bəliyyata giriftar görüb təsliyə təriqilə ayıtdı: "Ey dərviş, aşiq mə'şuqun cəfalarına səbr etməsə, də'vayi-məhəbbətdə sadiq degil". Dərviş ayıtdı: "Ey əziz, qələt dedin, 'aşiq mə'şuqun bəlalarından zövq bulmasa, 'aşiq degil. Şe'r:

'Aşiq oldur kim, bəla zövqünü idrak eyləyə,
Eşq dərdi dəmbədəm könlün fərəhnak eyləyə.

Ey 'arif, əhli-məhəbbət bəlaya səbr etməklə sayir xəlqdən mümtaz olurlar və ərbabi-vəfa cəfaya təhəmmül qılmaqla hərimi-vüsala təriqi-məhrəmiyyət bulurlar". Şe'r:

Də'vayi-məhəbbət etmək asan olmaz,
Cəm' olmaz əgər könül pərişan olmaz.
Aşiq qəm oduna yanmasa şəm'sifət,
Məqbuli-hərimi-vəsli-canan olmaz.

Əbdullahi-Mübarək rəvayət etmiş ki, bir gün əziməti-Kə'bə qılub səhrada tənha yürürkən bir tifl gördüm ki, şəm'i-rüxsarından afitabi-taban nur alurdı və gisuyi-müşkbarı afitaba sayə salurdı. Mütəhəyyir olub dedim. Şe'r:

Xizrdir bu tifl, ya İlyas, ya abi-həyat,
Kim yürür tənha, bulur anı görən qəmdən nəcat.

İstiqbal edüb səlam verdim, cəvab verdi. Dedim: "Kimsən?" Dedi: "Həq bəndəsi". Dedim: "Qandan gəlürsən?" Dedi: "Həqdən gəlürəm". Dedim: "Qanda gedərsən?" Dedi: "Həqqə gedərəm". Dedim: "Bu səhrada nə tələb edərsən?" Dedi: "Haq rizası". Dedim: "Tuşeyi-rahın nədür?" Dedi: "Təqvadır". Dedim: "Bu badiyeyi-xunxarda tənha necə tərəddüd edərsən?" Dedi: "Ziyarətinə mütəvəccih olduğum bəndən qafil olmaz". Dedim: "Ey məxdumzadə, əgərçi surətdə tiflsən, əmma mə'nidə kamil görünürsən. Aya, qansı qəbilədənsən?" Dedi: "Ey ibn Mübarək, biz surətdə kuyi-məhəbbət bəlakeşləriyüz və guşeyi-möhnət müşəvvəşləriyüz, yə'ni məzlumlar və məhmumlərüz. Gah istilayi-ə'dadan xatiri-pərişanımız müztər və gah qübarivadiyi-qürbətdən mir'ati-muradımız mükəddər. Əmma həqiqətdə, səlatini-məmaliki-qürbü qəbuluz və sükkani-süradiqati-məqami-vüsuluz. Bizdəndir gərmiyyəti-həngameyi-Məhşər və bizdəndir ifazeyi-zülali-Kövsər". Beyt:

Biz bəqa mülkünün istiqlalla sultaniyüz,
Mə'ni ilə baqiyüz, surətdə gərçi faniyüz.

Bunu deyüb nəzərimdən qayib oldu və xatirim müfariqətindən qayətdə küdurət buldu. Təvafi-Kə'bə müyəssər olduqda gördüm ki, ol tifl bir məcmə'də məsayili-həramü həlalü nəql edər. Həqiqətin sual etdikdə dedilər: "Bu adəm Ali-Əba və nuri-dideyi-Mustəfavü Mur

təzadür. Budur müqtədayi-əhli-yəqin, yə'ni Əli ibn Hüseyn Zeynəlabidin". Pəs, xidməti-şərifinə müşərrəf olub, əlin öpüb üzrlə ayıtdım: "Ya İbn Rəsulullah, nə kim qəbuli-məsaibdən və rif'əti-məratibdən şərh etdinüz, sərihü səhihdir. Filvaqe', bəla nişaneyi-qürbi olmaseydi, əhibbaya nəsib olmazdı və möhnət iqtizayi-kəmal bulmaseydi, ərbabi-ta'ətə ixtisas bulmazdı". Şe'r:

Qabili-feyzi-bəla şayisteyi-dərgah olur,
Hiç şək yox kim, bəla məxsusi-əhlullah olur.

Bu şərtlə ki, bəla nişaneyi-qürbi-İlahi və mövcibi-hüsuli-sə'adəti-namütənahidir. Kəmali-qürbü qəbul Həzrəti-Rəsul övladü ətba'ində həsr olunmuşdur və nəhayəti-ülüvvi-mənzilət anlarda ixtitam bulmuşdur. Zira zümreyi-növ'i-bəni-Adəmdən, bəlkə cümleyi-məxluqati-əhli-'aləmdən heç afəridə anlarca bəlaya səbr etməmiş və heç fərdə anlarca asari-bəla yetməmiş. Ol cümlədəndür Müslimi-Əqilün və övladının keyfiyyəti-şəhadətləri və vəqayei-ənbuhü möhnətləri.

Əncümənarayi-məcalisi-möhnətü qəm və çehrəxəraşi-ərayisi-matəm bu sürudla növhə bünyad etmiş və bu növhə ilə şəhidlər matəmin dutmuş ki, Müslimi-Əqil Həzrəti-İmamı vida' edüb, Məkkədən Mədinəyə gəldikdə kəsrəti-müxalifdən ehtiraz edüb, gecə ilə şəhrə girüb Həzrəti-Rəsulin mərqədi-mübarəklərin ziyarət edüb, vida' etdi və məzari-şərifdən kəndü mənzilinə getdi. Əlqissə, qərar etməyüb iki növrəs oğlu var idi; biri Məhəmməd nam səkkiz yaşında, lətafəti-hüsnlə bir xurşidi-aləmtab və biri İbrahim nam yeddi yaşında, təravəti-rüxsarlə bir laleyi-sirab. Anları belə alub və baqi 'əyalü ətfalla vida'qılub, həm ol gecə Kufə əzimətinə rəvan oldu. Şe'r:

Ahi-bərqasayla bir əbri-ataşbardı,
Rəhgüzarı əşki-alindən qamu gülzardı.
Rəhbəri göz yaşı, kusi-rehləti sövti-fəğan,
Tuşəsi qəm, həmdəmi daği-dili-əfgardı.
Çeşmi pürxun, əşki gülgun, könlü məhzun, qəddi xəm,
Qüssədən hər gün pərişan, hər gecə bimardı.

Bu təriqilə qət'i-təriq edüb mənazildə və mərahildə ənva'i-məkkarə və əsnafi-şədaid görüb, gah zülməti-dudi-ahla əlaməti-mənazil edüb, acizü sərgərdan olmaqla bir müddətdən sonra Kufəyə yetdi. Dari-Muxtar deməklə mə'ruf bir mənzilə nüzul etdi. Əşrafü ə'yani-Kufə qüdumindən xəbərdar olub, güruh-güruh gəlib, izhari-şövq edərlərdi və təriqi-mütavi'ət göstərüb, bey'ət alub gedərlərdi.

Əlqissə, cüz'vi zəmanda on səkkiz bin mübarizi-nami daireyi-bey'ətə girüb dəsti-iradət daməni-təvəllasinə möhkəm etdilər. Müslimi-Əqil ol taifənin mir'ati-əməllərində surəti-ixlas müşahidə qılub, xatiri-cəm'lə Həzrəti-İmama anların ita'ətü inqiyadlərin e'lam edüb, hüzuri-şərifin istid'a qıldı.



Nümani-Bəşir ki, Kufədə Yezid canibdən hakim idi, Müslimin gəlüb Hüseyn üçün xəlqdən bey'ət alduğun mə'lum eidikdə əhli-Kufəyi bir gün came'i-Kufəyə cəm' edüb, kəndü bizzat minbərə çıxub nida qıldı ki: "Ey əhli-Kufə, bu mə'lum oldi ki, siz Müslimi-Əqili gətürüb ağazi-fəsad etmişsiz. Bu hərəkət münasib degil. Yezid hakimi-qəhhar və məliki-cəbbardür. Bu əhvala ittila' bulduqda sizə siyasət lazım gəlür və qəzəb mütəvəccih olur". Gördü ki, mücərrəd təhdidlə ol fitnə təskin bulmaz və nəsihətilə islahpəzir olmaz.

Yezidin Kufədə olan müxlisləri, misli-Əbdüllah bin Müslimi-Bahili və Əmmar bin Vəlid və Ömər bin Sə'd Yezidə surəti-hal ittifaqilə vaqiəyi 'ərz etdilər bu məzmunla ki: "Şəhbazi-şikarəndazi-nişiməni-izzü 'əla Hüseyn bin Əliyyi-Murtəza fəthi-məmalik həvasiylə aşiyanəsindən pərvaz edüb, ibtidayi-əzmində şəhpəri-nüsrətsayəsin diyari-Kufəyə bıraxmışdır. Və ol sərçeşməyi-tufani-cəladətdən bir cuybari-bəla canibi-İraqa axmışdır. Əgər vəqtlə bu əmrə tədarük olunmasa və vəqtlə bu dərdə dəva bulunmasa, mürurla sərrişteyi-tədbiri-ümur əlindən gedər və bu diyarın təmamiyi-əşrafü ə'yanı ana təvəccöh edər. Əgər Kufəyə ehtiyacun var isə, bir valiyi-sahibsiyasət irsal et".

Yezidi-pəlid bu əxbari-məlalətasara ittila' bulduqda və bu surəti-əhvala müttəle' olduqda, təvəhhümi-zəvali-ne'mət dili-biqərarının qərarın alub və xövfi-izaleyi-dövlət ol bisəbatı iztiraba salub, diqqəti-təmamla mülkünün nizamına mütəvvəcceh oldu. Və həm ol saət töhməti-təqsirlə Vəlid bin Ütbəyi Mədinə əyalətindən 'əzl edüb yerinə İbnül-Əşdəqi nəsb qıldı və Kufə xüsusunda ə'zami-ə'yani-dövlət və əqdəmi-ərkani-həşməti olan Sərhun [nam vəzirlə müşavirət qıldıqda Sərhun] ayıtdı: "Ey xəlifə, əgər muradın isə bu fəsad rəf' olmaq və bu naireyi-fitnə intifa bulmaq, Nümani-Bəşiri ki, bir piri-həqirdir, Kufədən 'əzl edüb yerinə Bəsrə hakimi olan Übeydullahi-Ziyadı nəsb qıl ki, ol əmri-əmarətdə nadirdir və dəf'i-hər fəsada qadirdir". Şe'r:

Xari-divari-riyazi-mülkü millət hifziçün,
Nuki-tiği-abdari hakimi-xünriz olur.
Hökm miqdarincə hakimdə siyasət həm gərək,
Nişə kim, ifratı hər fe'lin fəsadəngiz olur.

Yezid Sərhun səlahın qəbul edüb Übeydullahi-Ziyada bir namə yazdırdı bu məzmunla ki: "Haliya əlsineyi-əhibbayi-sadiq və əfvahi-əviddayi-müşfiqdən bu müstəfad olundu ki, Hüseyn bin Əli bənim ki, xəlifeyi-zəmanam, bey'ətimdən inhiraf edüb, ətrafü cəvanibə namələr göndərüb xəlqi kəndiyə də'vət etməkdədir. Xüsusən Bəsrə əhlinə və Kufə xəlqinə andan nəvazişnamələr gəlüb, anlardan ana məkatibü mərasil getməkdədür. İmdi sən ki, Übeydullahi-Ziyadsan, misali-vacibül-imtisalım varid olduqda və məknunü və məzmunü vüzuh bulduqda gərəkdir ki, bu əmri nəfsi-Bəsrədə təvəhhüs edüb, bu fitnəyə bais olanları buldurub dəf'ü rəf' etdikdən sonra kəndü canibdən bir mö'təmid kimsənə Bəsrədə naib edüb bizzat Kufə diyarinə təvəccöh qılasan. Və ol diyarın dəxi əyalət və hökumətin kəndünə müqərrər bilüb zəbtü rəbtində mücidd olasan. Və bilmiş ol kim, bənim xani-iltifatımdan nəvaleyi-ehsana ol vəqt istehqaq bulursan və xəzaneyi-mərhəmətimdən təşrifi-istehsana ol dəm müstəhəqq olursan ki, me'mari-fərasətin səngi-hərasətdən ətrafi-İraqa bir hisari-müstəhkəm çəküb və tərəd-

düdi-ə'da rəhgüzarinə səngrizeyi-tədbirü tədarük töküb, fürsət verməyəsən ki, Hüseyn bin Əlinin minbə'd nəsimi-təsəvvürü ol gülzara güzar edə və ol büq'ə əhlindən ana mütəvatir rüsulü rəsail gedə. Və anda olan mühibbü müxlisləri buldurub dəf'ü rəf' edüb, inayətimə ümidvar olasan".

Yezidin məktubi Übeydullaha irişdikdə ittifaqən həm ol zəmanda Həzrəti-Hüseynin Səlman nam bir məmlüki məktublar gətürib bə'zi kimsənələri təriqi-həqqə irşad etmək iştiğalində idi. Übeydullahi-Ziyad vaqif olub və bə'zi müsəlmanları dəxi anınla müttəhim qılub qətl etdikdən sonra yerinə qarındaşın tə'yin edüb Kufə canibinə rəvan oldu və kəmali-ehtimamla İraq hifzinə təvəccöh qıldı.

Bə'zi təvarixdə bu məsturdur ki, ol müfsid Kufə qürbinə yetdikdə təhəmmül etdi, ta gecədən iki saat ötdü. Pəs, tağyiri-surət qılub başına bir əmmameyi-mişkin sarub, haşimilər kibi teyləsan buraxub niqabla rəvan oldu. Əşrafü ə'yani-Kufədən mütərəssidi-qüdumi-Həzrəti-İmam olub intizar çəkənlər ol vəz'ü vüqarla anı Hüseyn bin Əli təsəvvür qılub istiqbal edüb rikabi-hümayüninə yüz sürüb derlərdi. Şe'r:

Əlminnətü lillah ki, murad oldu müyəssər,
Şad eylədi aşiqlərini vəsl ilə dilbər.
Təbdil olunub ruzi-vüsala şəbi-hicran,
Xurşid çıxub eylədi afaqı münəvvər.

Və önünə düşüb nəhayəti-tə'zimü təkrimlə darüləmarəyə yetdikdə Nümani-Bəşir vəhm edüb, darüləmarə dərvazəsin bağlayub, üzərinə çıxub avaz yetirdi ki, ey nütfeyi-Rəsulullah, bu fitnəyə bais olma və təsəvvür qılma ki, bu mülkü Yezid sənin təsərrüfində qoyub təəllül qıla. Nə rəva bir zəhmətə irtikab etmək ki, əqrəbi-zəmanədə zaye' ola? Şe'r:

Aqil oldur ki, etdügi əməlin,
Fikr edə ibtidadə əncamın.
Ol degil kim, təəmmül eyləməyüb,
Keçirə qəflət ilə əyyamın.

Hala səlah oldur ki, bu gecə bir qeyr mənzildə aram dutub istirahət qılasan. Sabah olduqda nə kim, səlah isə, əməl oluna.

Əhli-Kufə Nümani-Bəşirə tə'n edüb təhdid edərlərdi ki, ey bədbəxt, bu Hüseyn bin Əliyyi-Murtəza və nəqdi-bərgüzideyi-Mustəfadır. Darüləmarə düxulindən mən' etmə və təriqi-müxalifətü mü'anidət dutma. Müslimi-Əqil ol məcmə'də idi. Həqiqəti-hal mə'lum edüb nida qıldı ki, ey qövm, bu şəxs Hüseyn bin Əli degil. Məftuni olman, hiləsinə e'timad qılman.

Übeydullahi-Ziyad hücumi-'ammdən ehtiraz edüb, çehreyi-napakdan niqab alub kəndüsin izhar etdikdə Nümani-Bəşir andan vaqif olub, dərvazeyi-qəsri açub, Übeydullahi-Ziyad qəsrə girüb, sayir əhli-Kufə novmid olub mütəfərriq oldılar və güruh-güruh mənzillərinə təvəccöh qıldılar.



Sübhdəm ki, sədayi-kusi-növbəti-səlatini-zalimpişə dideyi-sükkani-sərapərdeyi-rahətdən xabi-qəflət aldı və zümzümeyi-füssaqi-səbuhikeş dimaği-ərbabi-ləhv dəğdəğeyi-tərəddüdi-fəsad saldı, Übeydullahi-Ziyad istiqlalla məsnədi-hökumətdə qərar dutub və ə'yanü əşrafi-Kufəyə tövqi'i-hökumətü əyalətin ibraz edüb, gah məva'idi-əşfaqü əltafla cəbbarikəsri-qülub oldu və gah və'idi-təhdidlə anları siyasətdən xəbərdar qıldı.

Müslimi-Əqil bu halətdən xəbərdar olduqda, xatiri-şərifinə vəhm müstövli olub dari-Muxtardan çıxub Hani bin Ürvə mənzilinə gəlüb ayıtdı: "Ey Hani, bən bu mülkdə qəribəm və səndən qeyrə e'timad etməzəm və hala bu əhvalın sərəncamı mə'lum olanadək bana sənin mənzilində olmaq münasibdür". Hani bin Ürvə mübahatlar qılub, ol Həzrətə kəndü sərayində münasib mənzil tə'yin edüb və ol şərəfdən əfsəri-'izzü e'tibarı asimana yetdi. Həm ol daireyi-bey'ətində olan müxlislər mülazimətində tərəddüd edərlərdi və xidmətinə gəlüb gedərlərdi.

Əmma Übeydullahi-Ziyad, ol müdbiri-pürfəsad, şamü səhər Müslimin təcəssüsü təfəhhüsündə olub, bir gün Müfəzzəl nam bir məmlükinə ayıtdı: "Ey Müfəzzəl, Müslimin bu şəhərdə olub Hüseyn üçün xəlqdən bey'ət alduğın təhqiq etmişəm, əmma bilməzəm qandadır. Əgər təcəssüs edüb, mə'lum edəcək olsan, səni malımdan azad edərəm, bəlkə ənva'i-əltafla dəxi bərmurad edərəm".

Müfəzzəli-bidövlət ol xidməti qəbul edüb təcəssüs edərkən bir gün came'i-Kufədə bir pakizəsurət mö'min görüb xatirində cəzm etdi ki, bu Müslimin mütəəlliqatından olacaqdır. Hüzuruna gəlüb ayıtdı:

"Ey mö'mini paksirət, bən mö'təqidi-Hüseynəm və bin aqça nəzr etmişəm və gətürmişəm ki, Müslimə verəm. Əmma bilməzəm ki, qandadır? Bir lütf et, anı bən fəqirə göstər". Şe'r:

Gərdənimdən, kərəm et, silsileyi-qeydi götür,
İltifat eylə, bəni mənzili-məqsuda yetür.

Ol mö'min ayıtdı: "Ey əziz, bunca xəlq arasında nə bildin ki, bən şi'eyi-Hüseynəm?" Müfəzzəl ayıtdı: "Hüsni-xisalın və lütfi-əf'alın şəhadət verdi". Ol mö'mini-dilqafil anın qövlinə təsdiq verüb ayıtdı: "Ey arif, qələt etmədin, bən ol tayifədənəm və bənə Müslimi-Əvsəcə derlər". Şe'r:

Ey bəsa sidq kim, zərər yetürür,
Qailə möhnətü bəla gətürür.

Əlqissə, Müslim bin Əvsəcə ol məl'unu alub Müslimi-Əqilin xidmətinə gətürdi və hadiyitövfiq olub, mənzili-məqsudinə yetürdi. Müfəzzəl Müslimin didarına mübahat qılub, əlin öpüb, nəzrin mülazimlərinə təslim edüb, müshəf gətürib, qəsəm yad edüb bey'ət alub andan çıxdıqda Übeydullahi-Ziyadı əhvaldan vaqif etdi.

Übeydullahi-Ziyad ol vaqi'ədən müttəle' olduqda filhal məcmə'i-amm edüb, ol məcmə'də Əsmayi-Xaricədən və Məhəmmədi-Əş'əsdən Hani bin Ürvənin əhvalın istifsar edüb

ayıtdı: "Ol qandadır ki, görünməz?" Dedilər: "Ya əmir, ol bihüzurdur". İbn Ziyad ayıtdı: "Ol bihüzur degil, əmma eşitdim ki, bir mane'i var. Nə qədər mane'i var isə, bir zəman bu məclisə gəlmək olur".

Hani bin Ürvəyə xəbər göndərib Übeydullahi-Ziyadın şövqün izhar edüb hüzurun lazım etdilər. Hani bin Ürvə əziməti-mülaqat edüb, mənzilindən çıxub qəsri-əmarəyə yetdikdə əshabinə ayıltdı: "Ey əzizlər, bu gün bu qəsrdən bənim könlümə bir vəhm müstövli olub, əcəb ki, bu gün bu qəsrdən bana bir zərər irişməyə". Əshabü əhbab ana təsəlli verib ayıtdılar: "Xatir təsəlli et, nolacaqdır?".

Hani bin Ürvə qəzaya riza verüb və daireyi-təslimü təfvizə girüb, məclisə qədəm basub, səlam verdikdə İbn Ziyad anın səlamn kinayə ilə alub ana surəti-qəzəb göstərdi. Hani ayıtdı: "Ey əmir, nə vaqe' oldu?" İbn Ziyad ayıtdı: "Nə vaqi'ə bundan ziyad ola ki, Müslim bin Əqili mənzilində pünhan edüb, zəman-zəman xəlqi bey'ətə təklif qılub, mülk əhvalın pərişan edərsən". Hani inkar etdi. Übeydullah Müfəzzəli hazır edüb ana infi'al verdi. Hani gördü ki, inkara məcal yox, mö'tərif olub üzrlə ayıtdı: "Ey əmir, həqqa ki, anı bən ixtiyarımla mənzilümə gətürmədim. Kəndü istilayi-şövkətinizdən mütəvəhhim olmağın bənim mənzilümə pənah gətirüb, bana dəxi anın mən'ində həya mane' oldu. İmdi çün bənim mənzilimdə anın olduğuna rizayi-şərifiniz yoxdur, müraciət etdikdə ixrac edəyim". Übeydullah ayıtdı: "Heyhat, heyhat, sən Müslimi gətürüb təslim etməyincə getməgün mümkin degil". Hani ayıtdı: "Bu hərgiz müyəssər olmaz və surət bulmaz ki, bən Müslimi sənə təslim edəm".

Übeydullaha qəzəb müstövli olub anın həbsinə əmr etdi. Əsmayi-Xaricə fəryada gəldi ki, ey qəddari-nabəkar, vey bədəhdi-çəfakar, biz bu dərdməndi bir əhdlə və şərtlə məclisünə gətürdük, hala bu nə əməldür? Übeydullahın qəzəbi ziyadə olub, Əsmayi-Xariciyə izalar etdirüb buyurdu ki, Hani bin Ürvənin bədəni-zəifin üryan etdilər və beş yüz taziyanə urub iqabinə çəkdilər.

Və Hani bin Ürvə səksən doqquz yaşında bir pir idi. Söhbəti-Rəsulullaha müşərrəf olmuş mö'təmidi-səhibtövqir idi. Hüzzari-məclis istişfa edüb anı endirdilər. Yer yüzünə düşdükdə rəhmətə vasil oldu. Şe'r:

Qıldı cəlladi-fələk xunrizlik bünyadini,
Etdi zahir dövri-zalim adəti-mö'tadini.
Bağbani-dəhr açub xuni-cigər sərçeşməsin,
Qan ilə sirab qıldı gülşəni-bidadini.

Bu xəbər Müslimi-Əqilə irişdikdə ol Həzrət iki oğlun Şüreyh Qazi evinə göndərüb, kəndü iste'dadi-hərblə mühəyya olub daireyi bey'ətdə olan yekcihətlərə nida etdirdi ki, ey təriqimüsa'idətdə mərdanəyəm deyən səadətməndlər, vey meydani-mücahidətdə sərbazlıq də'vasın qılan sərbüləndlər! Bismillah, bu gün izhari-əqidət günüdür və bu dəm isbati-cəladət dəmidür.

Rəvayətdir ki, filhal igirmi bin miqdarı sipahi-xunxar və mübarizi-xəncərgüzar iste'dadirəzmlə Müslim hüzurində qəsri-əmarəyə mütəvəccih oldılar. Və ol qəsri-rəfi'ül-bünyanı nigini-xatəm kibi əhatə qıldılar. Übeydu Uahi-Ziyad ol hala vaqif olub, kəndü qəsr içində qalub sayir əskərə Məhəmmədi-Kəsiri sərəskər edüb, rüxsəti-məqatilə və müharibə verdi. İki canibdən nirani-müharibə işti'al bulub və həngameyi-rəzm gərm olub. Şe'r:

Əfsəri-rayət oldu gərdunsay,
Çıxdı çərxi-bərinə naleyi-nay.
Kus fəryadı oldu aləmgir,
Müjdeyi-mərg verdi sövti-nəfir.
Qoymayub yerdə nə'li-rəxş dəfin,
Ərseyi-məhşər oldu ruyi-zəmin.
Bəs ki, toprağa çərxi-kəcrəftar
Xəlqin abi-həyatın etdi nisar.
İçüb əczayi-xak abi-həyat,
Dirilüb oldu qabili-hərəkat.
Yer yüzündən qopub Süha manənd,
Eylədi meyli-asimani-büIənd.
Züləmat etdi rəzmgahı qübar,
Ruzi-rəzm oldu gərddən şəbi-tar.
Ol şəbi-tarə şəm'i-bəzməfruz,
Oldi nuki-sinani-aləmsuz.

Ol mə'rəkeyi-pürşur və məhləkeyi-pürfütura növbaveyi-gülzari-Bəni-Xəlil, yəni əşcə'isənadidi-ərəb Müslim bin Əqil səməndi-kuhtəmkini-bərqseyrlə cövlana gəlüb və bir əlinə əf'iyi-rəmhi-xunxar və bir əlinə əjdəhayi-tiği-sa'iqəkirdar alub, hər həmlədə bir cümləyə zəhri-fəna içürirdi və hər nə'rə ilə bir güruhün tüyuri-ərvahin aşiyani-bədəndən uçururdu. Şe'r:

Dönərdi gəh yəminü gəh yəsarə,
Salurdı lərzə xəsmi-biqərarə.
Dəmadəm rəzm bazarın qılur tiz,
Tökərdi qan, çalardı tiği-xunriz.
Ururdu Heydəri-Kərrardan dəm,
Anın rəzmində bir zal idi Rüstəm.

Übeydullahi-Ziyad ki, qəsrdən mə'rəkeyi-məsafa nəzzarə qılurdı və Müslimi-Əqilin keyfiyyəti-şüca'ətin bilürdi, kəndü ləşkərin məğlub və Müslim ləşkərin qalib görüb hüzurində olan rüəsayi-Kufəyə hökm etdi ki, əhli-Kufəyə təhdid edələr. Pəs, Kəsir bin Şihab, Məhəmməd bin Əş'əs və Şimr Zilcövşən kibi bədbəxtlər nida yetürdilər ki, ey əhli-Kufə, budur Şamdan ləşkəri-bihesab bu canibə təvəccöh etmişdir, bəlkə həvaliyi-şəhrə yetmişdir. Vəqtdir ki, cəmi'i-əhlü əyalınız əsir ola və cümleyi-malü mənalınız nöqsani-qarət bula. Kəndünizə rəhm edin və fürsət var ikən hər birinüz bir canibə gedün. Şe'r:

Rə'dü bərq ilə bu səhraya təvəccöh qılmış,
Mərg baranını yağdırmağa bir tirə səhab.
Qopun, ey qəmzədələr, seyl güzərgahindən,
Getmədən suya fərağət evi manəndi-hübab.

Əhli-Kufə ki, zatlərində səbati-e'tiqad yox idi, bu hekayətdən mütəvəhhim olub güruh-güruh həzimətə təvəccöh qıldılar və Pərvin kibi cəm' ikən Bənatünnə'ş kibi mütəfərriq oldular.

Əlqissə, aftab qürub edənədək igirmi bin mübarizdən otuz nəfər qaldı və anlar dəxi Müslim nəmaza məşğul olduqda gedüb, Müslim tənha qalub mütəhəyyir oldu. Cismi ələti-hərbdən azürdə və halı ənduhi-qürbətdən əfsürdə. İztirabla şəhrdən çıxmaq qəsdinə tərəddüd edərkən Sə'id bin Əhnəf ol Həzrətə uğrayub ayıtdı: "Ey seyyid, ehtiyat eylə ki, əbvabi-şəhrə sərhənglər tə'yin olunub, sənin qəsdindədirlər". Müslim ayıtdı: "Məsləhət nədir?" Sə'id ayıtdı: "Bənimlə gəl".

Müslim mütabiət qılub, Sə'id Müslimi Məhəmməd Kəsir mənzilinə gətürüb e'lan etdükdə Məhəmməd Kəsir çıxub, minnəti-təmamla e'zazü ehtiram edüb Müslimi-Əqili evində pünhan eylədi. Ol gecə gedüb sübhdəm ki, me'mari-sərayi-afəriniş qəsri-lacivərdfamı zərəndud etdi və xəncəri-şü'ai-xürşidlə şəbistanlar şəm'inin rişteyi-həyatında və'də yetdi. Şe'r:

Pərdeyi-setri nəsimi-sübh bərbad eylədi,
Fitnəyi bidar edüb bidadı bünyad eylədi.

Übeydullahi-Ziyad qəmmazlərdən və casuslərdən ol əhvalı mə'lum edüb, Məhəmməd Kəsir məclisə gəldikdə ayıtdı: "Ey Məhəmməd Kəsir, Müslim sənin mənzilindədir, gətirməz isən sənə siyasət edərəm".

Məhəmməd Kəsir sahibi-şövkət kimsənə idi, kəsrəti-qəbailinə e'timad edüb cəvab verdi ki, ey İbn Ziyad, bən dəxi Hani bin Ürvə degiləm ki, bənə hökmün cari ola. Bu sözdə ikən sədayi-nayi-rəzmi və xüruşi-kusi-hərbi aləmə qovğa bıraxdı.

Übeydullahi-Ziyad ayıtdı: "Bu nə qovğadır?" Dedilər: "Ey əmir, Məhəmməd Kəsirin əqvamı müsəlləh olub, on bin miqdarı mübariz qəsri-əmarəyə mütəvecceh oldılar və cidalü qitala əzimət qıldılar". Übeydullahi-Ziyad ol fitnədən vəhm edüb, Məhəmməd Kəsirin oğlun yanında mühafizə qılub kəndüyə rüxsət verdi ki, çıxub qövminə təskin verə.

Məhəmməd Kəsir qəsrdən çıxub, qövminə təskin verib mənzilinə gəldikdə Süleyman Sürədi Xüzai və Muxtar bin Əbu Übeydə və Rifa'ə Azib hazır olub ayıtdılar: "Ey aziz, ittifaqla cəhd et ki, yarın oğlunu bu zalim qeydindən qurtaralım və Müslimi alub, kəndü qəbiləmizə gedüb, bir əzim ləşkər cəm' edüb Hüseyn bin Əli mülazimətinə varalım".

Məhəmməd Kəsir əqvamıyla bu məsləhətdə qərar vermiş ikən ittifaqən canibi-Şamdan Amir bin Tüfeyl ki, Übeydullahi-Ziyad müavinətinə müqərrər olub gəlirdi, ol zəmanda on bin mübarizlə yetüb, Übeydullahi-Ziyad ol ləşkər qüvvətiylə məğrur olub, Məhəmməd Kəsirin ehzarinə əmr etdi. Məhəmməd Kəsir dəxi otuz bin miqdarı ləşkər qövmindən hazır edüb, qəsri-əmarəyə mütəvəccih oldu. Əmma ləşkərin dışrada qoyub, kəndü tənha qəsrə girüb Übeydullah ilə mülaqat etdi. Übeydullahi-Ziyad ayıtdı: "Ey Məhəmməd, Müslimi-Əqili sevərmisən, ya kəndü canını?" Məhəmməd ayıtdı: "Ey İbn Ziyad, Müslimin canı Allah hifzindədir və bənim canım otuz bin mübariz hisarındə".



Übeydullahi-Ziyad anın sözündən qəzəbnak olub, bir dəvatla urub nüsxeyi-sərnivişti-təqdir olan cəbini-mübarəkin məcruh etdi. Məhəmməd Kəsir dəxi biməhaba tiği-abdar çəkib Übeydullahi-Ziyada həvalə qıldıqda ə'yani-Kufə araya girüb, bir növbət hayil oldılar. İkinci kərrə tiğ həvalə qıldıqda Übeydullah fərar edüb, mülazimlərindən birin həlak etməgin Übeydullahi-Ziyadın dəxi mülazimləri ol piri-natəvanı ortaya alub çox müqatiləvü müharibədən sonra şəhid etdilər. Rəhmətullahi əleyh. Şe'r:

Ey xoş ol kim, nəqdi-can bəzlində ehmal etmədi,
Rəxtü bəxtin qeydi-mülkü malı pamal etmədi.
Həq yolunda dutmadı xari-təəllüq damənin,
Paybəndi-mülk olub əndişeyi-mal etmədi.

Məhəmməd Kəsirin oğlu ol halı görüb, dilirانə hərblər qılub babasının intiqamın aldıqdan sonra bir namərdin sinani-zəhrəşikafiylə şəhadət buldu. Şe'r:

Ol nihali-növrəsi sındırdı dövran, ey diriğ,
Qıldı ol gənci fələk xak içrə pünhan, ey diriğ.
Ləm'eyi-rüxsarı xurşidi-cəhanəfruz ikən,
Eylədi pünhan səhabi-gərdi-hirman, ey diriğ.

Bu hala müqarin Übeydullahi-Ziyad əmr etdi ki, qəsrin qapusın açub ləşkəri dışra çıxub Məhəmməd Kəsirin ləşkəriylə cəng edələr. Ol dilavərlər dəxi təqsir etməyüb, sübhdən şamədək əskəri-Kufə ilə ləşkəri-Şam bir cidad etdilər ki, dideyi-ruzigar anın kibi karzar görmüş degil. Şe'r:

Fitnə dəryası yenə mövc urdu, tüğyan eylədi,
Əmn mülkün qərqeyi-seylabi-tufan eylədi.
Növbəhari-fitnədən açıldı afət gülləri,
Seyli-xun hər yan 'ələm sərvin xuraman eylədi.
Səfheyi-təsvirtək tər guşə nəqqaşi-əcəl,
Surəti-bicanı zibi-lövhi-meydan eylədi.
Ərseyi-heycadə düşdükcə mübariz küştəsi,
Badpa nə'li ləhəd həfr etdi, pünhan eylədi.
Qopdu bir qovğa ki, xəmi-navəki-bidadi-tiğ
Çoxları ol rəzm 'əzmindən peşiman eylədi.

Axirüləmr, Übeydullahi-Ziyad ayıtdı: "Bu qövmin cidalı Məhəmməd Kəsir üçündür. Başın qəl'ədən dışra atın, görüb təsəlli olsunlar".

Məhəmməd Kəsirin və oğlunun başların qəsrdən dışra bıraxdıqda əhli-Kufə görüb, növmid olub, pərişanhal güruh-güruh mütəfərriq olmağa başladılar. Gecə olduqda o ləşkəri-kəsirdən dəyyar qalmadı. Muxtar Əbu Übeydə gördü ki, inani-ixtiyar əldən getdi, əqvamı ilə qəbileyi-Bəni-Sə'də yüz dutdu və Süleyman Sürədi Xuzai ləşkəri məğlub olduğun bildi. Ol dəxi bir yana əzimət qıldı. Çün Müslimi-Əqil Məhəmməd Kəsirin şəhadətin və ləşkərinin mütəfərriq olduğun mə'lum etdi, məlulü məhzun olub derdi. Şe'r:

Ey fələk, bir gün bənim rə'yimlə dövran etmədin,
Dərd çox verdin, vəli bir dərdə dərman etmədin.
Hiç mənzildə bənim müxlislərim cəm' olmadı
Kim, bir əngiz ilə ol cəm'i pərişan etmədin.

Əlqissə, mükəddərü müztərib mənzilindən çıxub, şəhrdən çıxmağa yüz dutdu. Gedərkən yolda Möhkəm bin Tüfeylin əskərinə rastlaşdı. Andan müraci'ət qılub, bir qeyr yana təvəccöh etdikdə məhəlleyi-Dari-Rəbi'də Xalid bin Ziyadın ləşkərinə uğradı. Gördü ki, hər yana təvəccöh qılsa, ləşkərdir. Naçar dilirانə bir cəmaət qəlbinə urub çıxdı. Əmma bir məhəlləyə düşdü ki, ol məhəllənin şəhrdən çıxmağa yolu yox idi və ol məhəllədə münafiqlər çox idi. Bir bədbəxt anı ol hey'ətü səlabətlə görüb, Müslim olduğun bilüb filhal Übeydullahi-Ziyada e'lam etdi. Übeydullahi-Ziyad, Nüman Hacibi əlli mübarizlə anın qəbzinə rəvan eylədi.

Əmma Müslim gedərək gördü ki, yol çıxmaz. Müraci'ət qıldıqda gördü ki, Nüman Hacibin qulları gəlür. Nacar atından yenüb bir xərab məscidə pənah gətürdi.

Nüman Hacib Müslimin mərkəbin bulub, kəndüsindən əsər bulmayub Übeydullaha gəlüb xəbər verdi. Übeydullah tamamiyi-şəhrə münadilər buraxub hökm etdi ki, hər kimin evində Müslimi-Əqil çıxacaq olursa siyasətə müstəhəqq olur və hər kim bulub gətürsə, bəndən cəmi'i-muradın bulur.

Əmma Müslimi-fəqir ol məscidi-viranədə ol gün qərar edüb, şəbi-zülmani ki, zali-zəmanə şəm'i-cəhanəfruzi-aftabi-aləmtabı şəbistani-məğribdə nəzərdən nihan etdi və dəməni-gərduni qəriblər və bixanümanlar dudi-ahı dutdu, Müslimi-sərgərdan ol məscidi-viranədən çıxub, təriqi-nəcat istəyib hər tərəf tərəddüd edərkən bir salehə övrətin mənzilinə yetüb, təskini-hərarətçün bir şərbət su tələb etdi. Ol övrət su gətirib verdikdən sonra ayıtdı: "Ey əziz, bu şəhr bir qovğalu şəhr olmuşdur və bu məmləkət hala fitnə ilə dolmuşdur. Bənim mənzilim önündən get ki, bana mövcibi-töhmət olmayasan". Müslim ayıtdı: "Ey salehə, bən qəribəm, kimsənə bilməzəm, xanədani-nübüvvət və vilayətdənəm. Mümkün olmazmı ki, bana mənzilində bir pənah verəsən və bəni hifz edib bir səvaba girəsən?" Övrət ayıtdı: "Sənə kim derlər?" Müslim ayıtdı: "Bən [Müslimi]-Əqiləm".

Ol övrət Müslimə tərəhhüm edüb əlin öpdü və ayağına düşüb, hərəmsərayində mənzil tə'yin edüb xidmətinə qiyam etdi. Müslimi-Əqil əgərçi anda qərar dutmuşdu, əmma xatiri-şərifi cəmi'i-cəvanibdən mütəfərriq idi. Gah Hüseyn bin Əli xəyalında idi ki, aya ol məzlumun bu zalimlərlə əhvalı nəyə müncər ola? Və gah kəndü övladı əndişəsində idi ki, aya bu qürbətdə anların ri'ayətlərin kim qıla? Və gah kəndü fikrində idi ki, aya bənim keyfiyyəti-halım nə surət bula? Bu təfəkkürlə gahi dili-püratəşdən ahi-həsrət çəkərdi və gahi dideyi-nəmdidədən əşki-nədamət tökərdi.



Rəvayətdir ki, ol övrəti-salehənin bir oğlu var idi nabəkari-bədkirdar. Ol dəxi ən'amü iltifat ümidiylə Müslim mütalibətində ikən mətlubu müyəssər olmayub tə'əbnak mənzilinə gəldikdə anasın xoşhal görüb səbəb sorduqda, ol salehə ayıtdı: "Ey fərzəndi-sə'adətmənd, dövləti-üqba bizə təvəccöh edüb, Müslimi-Əqil bizim bəndəxanəmizə pənah gətirmişdir. İnşallah, Qiyamət günü anın sə'adətsərası bizim pənahımız olmaq müqərrərdir". Ol bədbəxt heç cəvab verməyüb sabahədək təhəmmül edüb, ələssəbah ki, hüdudi-şə'şəeyi-xurşid miftahi-əbvabi-tərəddüd oldu və əngizi-fitnəvü fəsad üçün qəmmaz olan səlatini-zalimpişə qürbinə rüxsət buldu, ol məl'un Übeydullahi-Ziyada surəti-hal bildirüb, Übeydullahi-Ziyad Ömər bin Harisə əmr etdi ki, Məhəmməd Əş'əslə üç yüz adam tə'yin et, Müslimi-Əqili dutub gətürsünlər və anın küdurətin mir'ati-mülkdən götürsünlər.

Məhəmməd Əş'əs üç yüz mübarizlə ol övrətin möhnətxanasin mühasirə qılub, Müslim nəmazda ikən sədayi-sümi-sütür istima' edüb, yerindən durub, silahın mürəttəb edüb dışra çıxdıqda ol güruhi-müxalif Müslimə həmlə qıldılar. Ol əxtəri-bürci-nübüvvət aftabi-aləmtab kibi tənha tiği-atəşbarla cövlan edüb hər tərəfə əzm etsə, sitarəvar pərişan etməgin ol üç yüz mübarizin əksərin həlak edüb tətimməsin hərasan etdi.

Məhəmməd Əş'əs İbn Ziyada peyğam etdi ki, bana mədəd göndər. İbn Ziyad ayıtdı: "Ey namərd, üç yüz adamla bir adama hərif olmamaq nə himmətdir? Dut gətür, yoxsa bu xidmətə qeyri tə'yin edirəm". Məhəmməd Əş'əs gördü ki, müharibə ilə fürsət bulmaz və simurği-Qafi-şuca'ət zərbi-dəstlə seyd olmaz, hiylə ilə ayıtdı: "Ey Müslim, bu cədəldən nə hasil olur? Bilirsən ki, cəmi'i-ləşkəri-Şama tənha hərif olamazsan. Barı, silahın bıraxub kəndüni bana təslim et. Səni ilətüb Übeydullahdan səninçün aman istərəm". Müslim ayıtdı: "Ey namərd, sənin əmirindən aman istəməzəm. Bilirəm ki, qəddar və birəhmdir".

Əlqissə, anın hiyləsin qəbul etməyüb mübarizət meydanında cəladətdən təqsir etmədi. Ləşkər ol halı görüb, bə'zi yer yüzündə anınla cədəl qılub və bə'zi damlara və divarlara çıxub, jaləvəş ol gülbüni-baği-dövlətə daşlar yağdırub, laləvar ə'zasını parə-parə və əndamını çak-çak edüb və baran kibi oxlar tökülmədən gülbüni-cismi bir qönçeyi-peykan oldu. Əlqissə, ol şahbazi-övci-səadət kəsrəti-sihami-ə'dadan balü pər peyda qılub canibi-firdövsi-bərinə pərvaz qılmaqda ikən və ol mə'dəni-cövhəri-şəhadətin xəzaneyi-cismi-şərifi tiği-müxalifdən rövzənlər açub nəqdi-ruhi-lətifi nisari-müjdeyi-şəhadət olmaqda ikən nagah bir həramzadə bir daşla cəbini-mübarəklərin məcruh etdi. Məhasini-şəriflərinə qan rəvan oldu. Ol zəxmin zəhməti özgə zəxmlərə izafə olub, Müslimi qayətdə süst etdikdə Bəkr bin Həmranın divarsərasinə pərtövi-aftabi-əsr kibi təkyələndi. Bəkr bin Həmrani-bədbəxt evindən çıxub, bir tiği-bidiriğ urub ləbi-mübarəkin qönçeyi-dəhanindən bərgi-gül kibi çüda qıldı. Müslim dəxi ol həramzadəyi bir zərblə həlak edib yenə divara təkyə qıldı və kəndüyə məşğul oldu. Əmma qayətdə ətəş müstövli olmağın bir şərbət su iltimas etdi. Ol qövmi-birəhm əslə iltifat etməyüb, axirüləmr, bir övrət rəhm edüb, bir qədər su ol çeşmeyi-həyata sundu. Müslim ol suyu içmək tədarükində ikən ləbi-mübarəkindən qədəh dideyi-üşşaq kibi pürxun oldu və əşki-həsrət kibi anı tökmək lazım gəldi. Ol övrət bir dəxi qədəhi doldurub verdükdə ol dəxi qanla dolub, üçüncü növbətdə qələbeyi-ətəşdən mübarək dişləri gövhər kibi dürci-dəhanindən qədəh içinə töküldü. Müslim sudan əl yuyub bildi ki, bu, müjdeyi-şərbəti-şəhadətdir. Pəs, bir həramzadə qafil gəlib zərbi-nizə ilə ol sərəfrazı gerü yanından yüzü üzrə buraxdı. Hər tə-

rəfdən hücum edüb ol şiri-bişeyi-şücaəti dutdular və qıldıqları əhdü peymanları unutdular. Şe'r:

Dutuldu afitabi-övci-dövlət,
Zəmanə tirəvü tar olmasınmı?
Ayaqdan düşdü sərvi-gülşəni-din,
Anınçün didə xünbar olmasınmı?

Əlqissə, Müslimi-Əqili müqəyyəd edüb Übeydullahi-Ziyad hüzurinə gətürdilər. Ol həramzadə ayıtdı: "Ey Müslim, nişə İmami-zəmana xüruc etdin?". Müslim ayıtdı: "Ey zalım, İmami-zəman Hüseyn bin Əlidir və bən anın fərmanıyla bu şəhrə gəlmişəm. Əlminnətü lillah, bir İmamın xidmətinə iqdam etmişəm ki, təriqi-rizasında ölsəm, şəhidəm və əgər öldürsəm ğaziyəm. Ey İbn Mərcanə, bilirəm ki, bəni qətl edərsən, zira birəhmsən. Hala səndən bir iltimasım var: Bir kimsənə tə'yin et qəbileyi-Qüreyşdən, bir qaç vəsiyyətim var, əda qılayım". Übeydullahi-Ziyad ol iltiması qəbul edüb, Ömər bin Sə'də əmr etdi ki, vəsiyyətin istima' edə. Müslim ayıtdı: "Ey Ömər, sənə üç vəsiyyətim var: Biri bu ki, bu şəhərdə yeddi yüz dirəm deynim var və bənim atım Nü'man Hacibdədir. Alub deynimi əda qılasan. İkinci vəsiyyət oldur ki, bəni qətl etdikdən sonra cəsədimi dəfn etdirəsən. Üçüncü vəsiyyət oldur ki, bana vaqe' olan əhvalı yazub, Həzrəti-İmam Hüseynə irsal edüb tənbeh edəsən ki, bu canibə mütəvəccih olmaya".

Vəsiyyət təmam olduqda Übeydullahi-Ziyad ayıtdı: "Kimdir ki, Müslimi-Əqili çıxarub qətl edə?" Bəkr ibn Həmran ayıtdı: "Ya əmir, bu bənim işimdir, zira bu gün bənim atamı qətl edibdir". Pəs, Müslimin əlindən dutub dışra çıxartdı və Müslim Məkkəyə qarşu səlavat gətirüb oturdu və təvəccöh canibi-Hüseynə qılub, izhari-niyaz eylədi ki, "Əssələmu-əleykə, ya İbn Rəsulullah, bənim halım budur. Aya, sənin halın nədir? Muradım bu idi ki, mülazimətində nəqdi-can nisar edəm. Əlminnətu lillah ki, müyəssər oldu və bu xüsusda qıldığım dua dərəceyi-icabət buldu". Və zəbani-halla bu əbyatı inşa qıldı. Şe'r:

Buq'eyi-Bəthaya bir lütf eyləyib var, ey səba,
Qıl Hüseyni hali-zarimdən xəbərdar, ey səba.
Gör bəni könlümdə yüz bin dərdi-dil, üstümdə tiğ,
Necə kim gördün, ana şərh eylə, zinhar, ey səba.
Cəhd qıl, mən' eylə ol məzlumi meyli-Kufədən,
Öp ayağın, çizginüb başına, yalvar, ey səba.
Bən xud oldum mübtəlayi-möhnəti-ə'dayi-din,
Olmasın bu möhnətə ol həm giriftar, ey səba.

Pəs, Vacibülvücuda həmdü səna və əhli-Kufəyə nifrinü nasəza deyüb, kəlimeyi-şəhadət 'ərz edüb müntəzir olduqda Bəkr bin Həmran istədi ki, ana şəmşir həvalə qıla, əlləri titrəyüb əlindən tiğ düşdü. Übeydullahi-Ziyad andan xəbərdar olub səbəb sual etdikdə ayıtdı: "Ey əmir, qətlinə mübaşirət etdikdə müqabilimə bir mühib kimsənə gəlüb, barmağın dişləyüb təəssüf



edərdi. Bən andan vəhm etdüm". Übeydullah təbəssüm edüb ayıtdı: "Ey Bəkr, hənuz cahilsən. Çün xilafi-adət bir əməl etmək edərsən, dəhşət sənə qalib olur".

Pəs, bir qeyr kimsənəyə əmr etdi. Ol dəxi gəldikdə ol şəxsi görüb zəhrəsi çak oldu. Axirüləmr, Şam əhlindən bir namərd gəlüb ol məzlumu şəhid etdi. Şe'r:

Ah kim, rayəti-İslam nigunsar oldu,
Gün batub dideyi-əhbabə cəhan tar oldu.
Gövhəri-feyzi-şəhadət ələ girməz asan,
Nəqdi-can verdi, ana kim ki, xəridar oldu.

Rəvayətdir ki, Übeydullahi-Ziyad Müslimi-Əqilin və Hani bin Ürvənin cəsədlərin qənarələrdən ibrətçün asdırub, başların Şama göndərub, Yezidə vaqe' olan surəti-halı ərz etdi. Yezidi-pəlid ittila' bulduqda bəşarətlər edüb ol əzizlərin başların dərvazeyi-Diməşqdən asdırdı. Şe'r:

Fərəhdən güllər açıldı riyazi-Şama ol dəm kim,
Töküldü hər tərəf toprağına məzlumlar qanı.
Səri-xunin asıldı hər tərəf dərvazeyi-Şama,
Bəzəndi tükməyi-lə'l ilə ol şəhrin giribanı.

Andan sonra Übeydullahi-Ziyada bir namə irsal etdi ki: "Afərin sənə və iqdaminə və ehtimaminə ki, cəm'i-əf'alın bana mərzivü müstəhsəndir. İmdi böylə istima' olundu ki, Hüseyn bin Əli Hicazdan çıxub əziməti-İraq etmiş. Bu surət vaqe' olduqda, kəmali-ehtiyat və nəhayəti-ehtirazla cəmi'i-türüqü şəvari'i məzbut edüb, əbvabi-fitnəyi məsdud edəsən və hər nə vəchlə olursa, dəf'in və rəf'in kəndüyə lazım biləmən".

Übeydullahi-Ziyad Yezidin məva'idü ehsanına mütəzəmmin məktubu gəldikdə qayətdə xoşhal oldu və həsbülfərman Həzrəti-Hüseynin dəf'ü rəf'inə müqəddimələr tərtib etməgə şürü' qıldı.

Rəvayətdir ki, Übeydullahi-Ziyad Müslimi-Əqil əmrin sərəncam edüb fariğ olduqda ğəmmazlar ol məl'una iğmaz etdilər ki, Müslimin övladın qanda olsalar, dutub gətirməyən siyasətə müstəhəqq olur. Şüreyh Qazi ol təhdiddən təvəhhüm edüb tədarüki-əhval etməkçün ol mə'sumləri hüzurinə gətürdükdə ixtiyarsız giryan olub fəğana başladı. Şəhzadələr ol halətə mütəhəyyir qalub səbəb sual etdikdə ayıtdı: "Ey mə'sumlar və məzlumlar. Şe'r:

Bəla seyli səbatü səbr bünyadın xərab etdi,
Sitəm bərqi məhəbbət əhlinin bağrın kəbab etdi.
Bıraqmışdı qəza bu kişvərə bir dürci-pürgövhər,
Zəmanə sındırub ol dürci qəsdi-dürri-nab etdi.

Şəhzadələr bu kinayədən Müslimin şəhadətin təhqiq edüb ittifaqla bir zəman naləvü fəğan etdilər. Bir zamandan sonra dəsti-təzzərrö'lə Şüreyh Qazinin damənin dutdular ki, ey məxdum. Şe'r:

Ağazi-ömr mövsimi-eyşü nişat ikən,
Çərxi-sitəmgər etdi bizi mübtəlayi-bim.

Əhvalınız nolur, nedəlim, qanda varalım?!
Həm tifl, həm qərib, həm avarə, həm yetim!

Qazi ayıtdı: "Ey məzlumlar, Übeydullahi-Ziyad sizin tələbinizdədir və bən bu diyarda məhəbbəti-Əhli-Beytlə məşhuram, əgər ehtiyat etsəm, mə'zurəm. Olmaya ki, düşmənlər bir fəsada fürsət bulalar və təğəllübü təsəllütlə sizi bəndən alalar. Hala bən bu səlahı görmüşəm ki, sizi Mədinə canibinə rəvan edəm". Hər ayinə ol şahzadələrə təsəlli verüb və bir miqdar zərü sim həmrah edüb Əsəd nam oğluna ayıtdı: "Ey fərzəndi-əziz, eşitdim ki, dərvazeyi-İraqda bir karvan cəm' olub, istid'ayi-səfəri-Mədinə qılub, bu gün rəvanə olurlar. Bu iki dürdanəyi ilətib karvanda bir əmin kimsənəyə təslim et ki, Mədinəyə irişdikdə əqrəbasına təslim edələr". Əsəd ol məxdumzadələri alub rəvan oldu. Əmma gecə hənuz qaranqu olub, bunlar yetincə karvan rəvan olmuşdu, əmma əsərləri görünürdü. Əsəd ayıtdı: "Ey şahzadələr, bana sabahadək bunda olmaq mövcibi-töhmətdir. Siz yürün bu karvana yetün".

Əsəd müraciət qılub, şahzadələr qəribü müztərib qalub, karvan ardınca sərasimə gedərkən araya hayil düşüb əsəri-karvan nəzərlərindən qayib oldi. Şahzadələr mütəhəyyir olduqda hər tərəf tərəddüd edərkən nagah əsəslərə sataşdılar. Əsəslər bildilər ki, anlar Müslim oğlanlarıdır. Filhal dutub Übeydullahi-Ziyad hüzuruna ilətdilər və Übeydullah anları zindana göndərüb Yezidə bir namə yazdı ki: "Müslimin iki növrəsidə oğlun dutdum, biri yeddi yaşında və biri səkkiz yaşında və hala həbsimdədirlər. Nətə ki, əmr olunursa, əməl oluna".

Rəvayətdir ki, zindanban Məşkur nam mö'mini-pake'tiqad idi. Ol şahzadələrə bir neçə gün e'zazü ehtiram edüb bir gün ayıtdı: "Ey şahzadələr, rəva görməzəm ki, bir zərər sizə vaqe' ola. Nisfül-leyl anları zindandan çıqarub və şəhrdən dışra ilətüb, yol göstərüb barmağından xatəmin [çıqarub] anlara verdi. Və sifariş qıldı ki, bu yolla gedin, Qadisiyyə nam mülkə yetərsüz. Bənim qarındaşım anda hakimdür. Bu xatəmi nişanə təriqiylə ana verüb, deyin ki, sizi Mədinəyə vasil edə.

Zindanban müraciət edüb, ol şahzadələr rəvan olduqda, çün müqərrərdir ki, təqdirə tədarüki-tədbir təğyir verməz və hakimi-məhkəmeyi-qəza əhkamına təğəyyür rəva görməz, ol şahzadələr canibi-yəminə getməlü ikən qəza 'inani-əzimətlərin canibi-yəsara mün'ətif qılub məqsəd təriqin itürdilər və ol gecə sabahadək pərgərsan cizginüb sübh olduqda kəndlülərin əvvəlki məqamda gördülər. Mütəvəhhim olub, bir bağa girib bir su üzərinə qərar dutdular. Ol halətə müqarin şəhrdən bir həbəşi cariyə çıqub, anları görüb və cəmali-bakəmallarinə heyran qalub sual etdi ki, aya, sizə kim derlər? Şahzadələr ahi-dərdnak çəküb ayıtdılar: "Biz qəriblərüz, biz yetimlərüz". Cariyə sordu: "Kimin oğlunlarısız?". Şahzadələr növhəvü fəğan etdikdə cariyə fərasətlə fəhm edüb ayıtdı: "Ey əzizlər, öylə mə'lum olur ki, siz Müslim övladlarısız". Şahzadələr ayıtdılar: "Nə'əm, biz ol dilşüdələrüz və möhnətzədələrüz". Cariyə ayıtdı: "Ey məxdumzadələr, heç vəhm etmənüz, bənim bir salehə məxduməm var ki, bəqayət mö'minə və mühibbi-xanədandandır. Durun, sizi anın hüzuruna ilətüb anı xoşhal edəlim".



Əlqissə, şahzadələri cariyə rəhnümun olub, ol salehə xatunun hüzuruna yetürdükdə ol salehə xəbərdar olub e'zazü ehtiramla anları bir münasib yerdə pünhan etdi. Əmma Übeydullahi-Ziyad anların fərarından vaqif olub, Məşkuri-zindanbanı hazır edüb sual etdi ki, Müslimin övladın netdün? Məşkur ayıtdı: "Anları azad qıldım". Übeydullah ayıtdı: "Bəndən heç vəhm etmədinmi?" Məşkur ayıtdı: "Ey qəddari-sitəmkar, İzədi-cəbbar vəhmi sənin vəhmindən ziyadədir. Tutalım ki, Müslim mübaşərəti-karzara qadir bir mübariz idi, qətl etdin. Bu iki mə'sumlara nə gunahla qəsd etmişsən?" Übeydullah ayıtdı: "Sənə siyasət etmək lazım gəldi". Məşkur ayıtdı: "Bin canım olsa, anlara fəda olsun". Pəs, cəllada buyurdu ki, anı iqabına çəküb əvvəl yüz taziyanə urub andan sonra qətl edə. On taziyanə urduqda Məşkur ayıtdı: "Bismillahir-rəhmanir-rəhim". On taziyanə dəxi urduqda ayıtdı: "Ya Rəb, səbrü təhəmmül ruzi et". On taziyanə dəxi urduqda ayıtdı: "Ya Rəb, bana qüfran nəsib qıl". On taziyanə dəxi urduqda ayıtdı: "Ya Rəb, bana Əhli-Beyt üçün siyasət edərlər". On taziyanə dəxi urduqda ayıtdı: "Ya Rəb, bəni Əhli-Beytə mülhəq et". Andan sonra bir ah çəküb xəmuş oldu. Yüz taziyanə tamam olduqda bir qətrə su istədi. Übeydullah ayıtdı: "Su vermən". Bir qətrə su verməyib ol məzlumun qətlinə əmr etməgin Ömər bin Haris şəfaət edüb qurtarub mənzilinə ilətdikdə rəhmətə vasil oldu.

Əmma Müslimin məxdumzadələri ol salehənin mənzilində yüz bin qüssə ilə yuquya getdikdə ol övrətin Haris nam bir cüfti-bədbəxti olub nagah gəldi qayətdə tə'əbnak. Övrət keyfiyyəti-hal sual etdikdə ayıtdı: "Ey övrət, bu gün sabah əmiri Kufə Müslim oğlanların bulmağa münadi etdirdi. Bən dəxi ən'amu iltifat istid'asıyla ol tələbdə idim. Atım dəxi səqət oldu, anlardan əsər bulmadım". Övrət ayıtdı: "Ey həmsəri-mehriban, sənin Əhli-Beytlə nə ədavətin var?" Ol naməərd ayıtdı: "Mövcibi-tə'əb Übeydullahın ən'amü ehsanıdır". Övrət ayıtdı: "Nə naməərd ola ki, zəxarifi-dünya üçün bir neçə məzlumu zalimlər əlinə təslim edə".

Əlqissə, bu münaqişə ilə yuquya vardılar. Nisfül-leyldə Məhəmməd ki, bəradəri-əkbərdir, İbrahimi oyadub ayıtdı: "Ey bəradər, gözün aç, yatmaq məcalı degil. Hala babayi-büzürgvarımı gördüm vaqi'əmdə, Həzrəti-Mustafa və Murtəza və Həsəni-Muctəbayla behişt içində seyr edərlər. Həzrəti-Risalət bizdən yana baxub babamıza ayıtdı: "Ey Müslim, nişə bu məzlumları zalimlər arasında bikəsü qərib bıraxdın?". Babamız ayıtdı: "Ya Rəsullullah, ənqərib xidməti-şərifə müşərrəf olurlar". İbrahim dəxi ayıtdı: "Ey Məhəmməd, bən dəxi bu vaqi'əyi gördüm". Bunu deyib ol iki güldəsteyi-baği-lətafət və nihali növrəsi-gülzari-məlahət bənövşəvar bir-birinin boynuna əl buraxub, hay-hay ilə ixtiyarsız ağlarkən Harisi-bədbəxt ol nalədən bidar olub, filhal çırağla üzərlərinə girib gördü ki, iki tifl bir-birin qucub ağlaşurlar. Haris ayıtdı: "Sizə kim derlər?" Şahzadələr ol məl'unu dost sanub dedilər: "Biz Müslimi-Əqil övladıyuz". Ol həramzadə ki, bir yanadan mərkəbin qüssəsiylə və bu yanadan tərəddüdün ənduhiylə bihüzur idi, hər birinə bir tapancə urub, güli-rüxsarlərin azürdə qılub, gisuyi-mübarəklərin ki, Həblül-mətini-urvatül-vüsqa idi, bir-birinə bağlayıb, üzərlərinə hücrə qapusın məsdud edüb dışra çıxdı ki, sabah oldıqda anları qətl edə. Ol övrəti-pakizənihad hər necə təzərrö'vü təşəffö' edüb əlin öpdü, ayağına düşdü, faidə qılmadı.

Sübhdəm ki, cəlladi-fələk rişteyi-şüayi-xurşidlə ətfali-kəvakib dəf'inə iqdam etdi və nəsimidəmsərdi-sübhi-kazibdən şəm'lər və çıraqlar həlakinə və'də yetdi, ol nabəkari-rusiyah tiğibidiriğ alub və ol şahzadələri önünə salub, kənari-Fərata rəvan olub, siyasətlərinə iqdam et-

dükdə ol məl'unun övrəti və oğlu və bir qulu əqəbincə gedüb, şəfa'ət qıldıqda qəzəbi ziyadə olub quluna əmr etdi ki, tiğlə bunları həlak eylə. Qul ayıtdı: "Ey xacə, bu mə'sumları qətl etməgə əlim varmaz". Ol bədbəxtin qəzəbi ziyadə olub əlindəki şəmşirin qula həvalə qıldı. Qul ayıtdı: "Ey xacə, çün bəni öldürürsən, barı bən dəxi qanımı almış olam". Harisə həmlə qıldı, aqibət Haris qalib olub qulun bir qolun düşürdü. Oğlu ol halı görüb ayıtdı: "Ey baba, bu qul qarındaşım kibidir, nişə bu cəfayı ana rəva gördün?" Haris ayıtdı: "Ol cəzasına yetdi, sən bu tiği alub bunları qətl et, yoxsa səni dəxi həlak edərəm". Oğlu ayıtdı: "Hərgiz bən bu əmrə irtikab etmək rəva görməzəm və sənin dəxi iqdamuna riza verməzəm". Və ol övrət dəxi ilhah edərdi ki, ey Haris, bu mə'sumlara qıyma. Barı, bunları Übeydullahi-Ziyada təslim et, neylərsə, ol eyləsin. Haris ayıtdı: "Bu cəma'ətin Kufədə həvadarları çoxdur, şayəd ki, şəhrə girdikdə hücum edüb əlimdən alalar və bənim sə'yim zaye' ola". Axirüləmr, kəndü tiğ çəkib ol mə'sumlara mütəvəccih olduqda şəhzadələr ağlaşub təzərrö' etdilər ki bizim yetimligimizə rəhm et. Əgər muradın mali-dünya isə gisulərimizi qırxıb, bizi məmluk məsabəsində satub bəhamızı təsərrüf qıl.

Haris ol təzərrö'lərə iltifat etməyüb, qətllərinə cazim olduqda ol övrətlə oğlu mən'inə qiyam etdilər. Haris gördü ki, övrətlə oğlan vücuduyla anları qətl etmək mümkün degil, əlindəki tiği-bidiriği oğluna təxvif təriqilə həvalə qılıb həlak etdi. Övzət gördü ki, oğlu həlak oldu, biehtiyat ana mütəvəccih olduqda övrətə dəxi bir zəxmi-mühlik urub, mücmələn, anların mən'indən fariğ olub, şəhzadələrə mütəvəccih oldu.

Şəhzadələr gördülər ki, əbvabi-nəcati-rəhmət cəmi'-cəhətdən məsdud olub və binayi-tədbirü tədarük xələl bulub, qəzaya riza verməkdən qeyri çarə qalmadı. Harisə ayıtdılar: "Bizə möhlət ver ki, vüzu qılub iki rik'ət nəmaz edəlim". Haris ayıtdı: "Vallah ki, möhlət verməzəm". Şəhzadələr ayıtdılar: "Ol Vacibülvücud həqqiçün ki, hala ismin zikr etdin, ol qədər aman ver ki, ana səcdə edüb niyazımız ərz edəlim". Haris ayıtdı: "Aman mümkün degil". Ayıtdılar: "Ey zalım, bu nə ədavətdir?".

Axirüləmr, ümmidi-nəcatıqət', edüb ol məl'undan hər biri "əvvəl bəni qətl eylə" – deyüb təqdimi-şəhadət təvəqqə' edərlərdi. Əlqissə, ol həramzadə əvvəl Məhəmmədin səri-mübarəkin bədəndən cüda qılub cəsədi-şərifin Fərata bıraxdı, andan sonra İbrahimin başın kəsüb təni-pakin anın cəsədinə mülhəq etdi. Həqqa ki, ol sitəmdən zəminü zəman tirəvü tar olub, zümreyi-məlayikdən xürüşü qülqülə sükkani-təhtüssərayə irişdi və ətəşi-tüğyani-ələm diliərbabi-möhnət kibi sineyi-mehrü maha düşdü. Şe'r:

Dərda ki, bəzmgahi-vilayətdə bisəbəb
Söndürdü iki şəm'i-münini sitəm yeli!
Va həsrəta ki, bağı-sə'adətdə bigünəh
Sındırdı iki nəxli-lətifi cəfa əli!

Əlqissə, Harisi-bədbəxti-rusiyah ol şəhzadələri bigünah qətl edüb cəsədlərin Fərata salub, başların Übeydullahi-Ziyada ilətdikdə Übeydullahi-Ziyad ayıtdı: "Ey Haris, bunlar nədir?" Ol məl'un ayıtdı: "Müslim oğlanlarının başlarıdır". İbn Ziyad ol güli-rüxsarlara və ol gisuyi-müşkbarlara nəzər etdikdə ixtiyarsız əbri-bəhar kibi əşkbar olub və bavücudi-qilzətitəbulə rəhm qılub ayıtdı: "Ey səngdil, bu tifləri nişə qətl etdin?" Haris ayıtdı: "Sənin iltifatın ümidiylə". Übeydullahi-Ziyad ayıtdı: "Ey məl'un, bən Yezidə namə yazmışam ki, bunlar həbsdədir. Nişə bana gətirmədin?" Dedi: "Vəhm etdim ki, hüçumi-amm əlimdən alub, bən sənin iltifatından məhrum qalam".

Übeydullahi-Ziyad ətrafına nəzər qılub, məclisində bir Müqatil nam kimsənə hazır idi ki, nasiyəsində məhəbbəti-xanədani-nübüvvət zahir idi və İbn Ziyad anın əqidəsin bilürdi. Əmma pəsəndidə nədim olmağın tə'ərüz etməyib təğafül edərdi. İşarət qıldı ki, ey Müqatil, bu bədbəxti ilət, anda ki, bu tifləri şəhid etmişdir, cəzasına yetür və başları dəxi mümkün isə bədənlərinə ilhaq et".

Müqatil şad olub, ol məl'unu möhkəm bağlayub və başları alub, rəvan oldu. Və xəlqi-Kufə ol başlara nəzzarə qılub, ol hala ittila' bulduqca ol məl'unu səngsar edüb iza qılurlardı.

Əlqissə, ol mənzilə yetdikdə Müqatil gördü bir qulla bir oğlan dəxi məqtul olub, bir övrət dəxi məcruh düşübdür. Müqatil övrətdən həqiqəti-hal sual etdikdə ayıtdı: "Ey əziz, bən bu bədbəxtin mənkuhəsiyəm və bu oğlan oğludur və bu qul quludur. Biz ittifaqla bu məzlumlar qətlinə mane' olduğumuz cəhətdən bizə bu siyasətləri caiz gördü. Əlminnətü lillah, ol dəxi cəzasına irdi". Müqatil ol məl'unun qətlin etməgə mərkəbdən endikdə və ol şəhidlərin qanın gördükdə fəryada gəlüb, nalələr qılub başları suya bıraxdıqda, rəvayətdir ki, ol başlar suya düşdükdə ol cəsədlər sudan çıxub, hər baş kəndü cəsədinə mülhəq olub, ol iki mə'sumlar bir-birin qucaqlayub suya batdılar.

Müqatil ol halətə bir dəm heyrət edüb buyurdu ki, ol məl'unun əllərin və ayaqların kəsüb və gözlərin çıxarub, andan başın kəsüb suya buraxdılar və su anı qəbul etməyüb dışra bıraxdı. Axirüləmr, xarü xaşak cəm' edüb ol pəlidi yaxdılar və ol mücahidətdə şəhid olan qulun və oğlanın cəsədlərin dəfn edüb, əhibbayi-Əhli-Beyt şəhzadələr əzasinə məşğul oldular. Qit'ə:

Ol iki gövhəri-xəzaneyi-din,
Ol iki sərvi-cuybari-yəqin.
Dutdular mə'dəni-bəqada məqam,
Qıldılar canibi-behiştə xüram.
Nəzəri-xəlqdən olub məstur,
Oldular dürri-guşvareyi-hur.
Ya Rəb, anlar rəhi-vəfasında,
Ol Vəlizadələr əzasında,
Kim ki, bir qətrə abi-çəşm tökər,
Kim ki, bir ahi-dərdnak çəkər,
Vasili-əcri-bihesab eylə,
Əməlin qabili-səvab eylə.

## DOQQUZUNCU BAB

## HƏZRƏTİ-İMAM HÜSEYNİN MƏKKƏDƏN KƏRBƏLAYA GƏLDİGİN BƏYAN EDƏR

Həqqa ki, hirqəti-hekayəti-pürşikayəti-vaqieyi-Kərbəla bir atəşi-cigərsuzdur ki, əgər bir şö'ləsinin şərhin kilki-xurşidlə mühərriri-kargahi-qəza səfheyi-ruyi-zəminə təhrir etsə, hərarətdən əczayi-zəmin cüşa gəlüb buxarı tənuri-asimanda Həməlü Hutu büryan edər və riqqəti-rəvayəti-məlalətqayəti-şühəda bir həlaləti-cangüdazi-qəmənduzdur ki, səriri-rə'dlə səhabi-saiqəbar bir qətrəsinin vəsfin gərduna təqrir etsə, tarəmi-çəharümdə Məsihi-mücərrəd zülali-həyatından həlavət gedər. Şe'r:

Səhl sanman Kərbəla qovğasın, ey əhli-xirəd,
Ərseyi-bidadü meydani-bəladır Kərbəla.
Sorsalar kim, qansı mənzildir məsayib məcmə'i,
Ün verür qəsri-fələk kim, Kərbəladır, Kərbəla.

Həmana ki, hədiqeyi-tinəti-Adəm mənbəti-nihali-xilafət olduqda və qaməti-iste'dadi-bəşəriyyət xilqəti-"Və ləqəd kərrəmna"[1] ilə zinət bulduqda məlaikənin "Ə-təc'əlü fiha mən yüfsidu fiha"[2] kinayəsindən qərəzləri fəsadi-vaqi'eyi-Kərbəla idi və məzmuni-"İnni ə'ləmu mala-tə'ləmun"[3] işarətindən murad ol müsibətdən müstəfad olunan dərəceyi-kəmali-Hüseyn bin Əliyyi-Murtəza idi. Filvaqe', vaqi'eyi-Kərbəladan ziyadə fəsad mümkün olmaz və bəladan hasil olan məratibdə mərtəbeyi-şahi-Kərbəladan ə'la mərtəbə surəti-ehtimal bulmaz. Qit'ə:

Gər bəlayi-Kərbəla ol şah qədrin arturub,
Xəlqdən mümtaz ana verdi ülüvvi-iqtidar.
Kərbəla həm ol şəhi-mə'sumdan rəf'ət bulub,
Xəlqə olmuş qədr ilə mənzuri-eyni-e'tibar.

Fəzayi-qəmfəzayi-Kərbəla bir gülzardır ki, abü həvayi-sərabü səmumla nəşvü nəma bulan sərvi-rəvanı girdbadi-bəladır və seylabi-əşki-həsrətlə pərvərdə olan gülbüni-gülbərgfəşanı xari-cəfadır. Qit'ə:

Çeşmə nisbət dəmbədəm pakizətinətlər gözün,
Əşkbar eylər məlali-zikri-xaki-Kərbəla.
Ağladırsa Kərbəla torpağı dərd əhlin, nola
Bu müqərrərdir ki, daim göz yaşardır tutiya.

---

[1] Biz onu kərəm sahibi etdik (Qur'an, 17, 70).
[2] (Yer üzündə) fəsad törədəcək kimsənimi (xəlifə) edəcəksən? (Qur'an, 2, 30).
[3] Mən sizin bilmədiklərinizi bilirəm (Qur'an, 2, 30).



Rəvayətdir ki, Hüseyn ibn Əli mütəvəllid olduqda Həzrəti-İzzətdən Cəbrailə əmr oldu nüzul edüb həm viladət təhniyəsin verə və həm şəhadət tə'ziyəsin yetürə. Cəbraili-Əmin nüzul etdikdə Hüseyni-məzlum Həzrəti-Rəsulun kənarında idi. Ol Həzrət təhniyət yetürdikdən sonra izhari-tə'ziyət qıldı. Həzrəti-Rəsul ayıtdı: "Ey bəradər, səbəbi-təhniyət mə'lumdur, vəsileyi-tə'ziyət nədir?" Cəbrail ayıtdı: "Ya Rəsulullah, bu məzlumu səndən sonra Kərbəlada tiği-cəfayla zalimlər şəhid edərlər". Həzrəti-Rəsul ol halətə giryan olub, Həzrəti-Murtəza hazır idi. Səbəb sorduqda ol Həzrət ixtiyarsız izhari-surəti-hal etdi. Həzrəti-Murtəza dəxi giryan olub mənzilinə mütəvəccih olduqda Həzrəti-Fatiməyə ol halı zahir etdi. Fatimə giryan-giryan Həzrəti-Rəsul xidmətinə gəlüb dedi: "Ey məxdum, ələlitlaq bu nə xəbərdir ki, Əli Həzrətinizdən nəql edər?" Həzrəti-Rəsul ayıtdı: "Ey Fatimə, bu vaqi'ənin naqili Cəbraildir". Fatimə ayıtdı: "Ya Rəsulullah, bu surət nə vaxt zühura gəlür?" Həzrəti-Rəsul ayıtdı: "Bəndən və səndən və Əlidən və Həsəndən sonra". Fatimə ayıtdı: "Ya Rəsulullah, müsibətim ziyadə oldu. Aya, bu müsibət vaqe' olduqda bənim məzlumum üçün kim 'əza dutar?"

Rəvayətdir ki, ol halətdə hatifdən nida gəldi ki: "Ey xatuni-qiyamət, axirüzzəman əhlindən xanədani-risalət müxlisləri hər yildə bu matəmi tazə edərlər və Qiyamətədək bu rəsmi dünyadə yürüdələr".

Rəvayətdir ki, şahi-Kərbəla mütəvəllid olduqda Cəbraili-Əmin təhniyə üçün Həzrəti-Rəsul xidmətinə gəlürkən yolda bir firiştə gördü Fətrəs nam, şikəstəbal və pərişanhal. Müqimi-zirveyi-izzət ikən mübtəlayi-dami-zillət olduğunun vəsiləsin sual etdikdə Fətrəs ayıtdı: "Ey Cəbrail, bənim bir xidmətdə ehmalım olub, atəşi-qəhri-İlahi pərü balım yaxub bəni bu hala buraxdı. Aya, bu vaqi'ənin heç çarəsi mümkün olurmu?" Cəbrail ayıtdı: "Bən Həzrəti-Rəsul xidmətinə getməliyəm. Bənimlə gəl, ola ki, şəfa'ətinə məzhər vaqe' olasan". Fətrəs Cəbrail ittifaqilə Həzrəti-Rəsul xidmətinə gəlüb ərzi-hal etdikdə Hüseyni-məzlum həzrəti-xacə kənarında idi. Ol Həzrət buyurdu ki, ey Fətrəs, kəndüni bənim Hüseynimə yetür və ə'zayi-məcruhini kəfi-payi-şərifinə sür. Fətrəs həsbülfərman əməl edüb ol mülamisə bərəkətiylə məğfur olub, balü pər peyda qılub mö'bədinə 'övdət edüb ibadətə məşğul oldu. Və Həzrəti-Hüseyn bin Əli şərbəti-şəhadət içdikdə vaqif olub, cəzayi-ehsan istid'asiylə münacat etdi ki, "ya Rəb, noleydi bana əmr oleydi xidmətimdə olan yetmiş bin firiştə ilə Hüseynin mü'avinətinə hazır olaydım". Həzrəti-İzzətdən nida gəldi ki, "ey Fətrəs, əgər ol dövlət müyəssər olmadisə, hala müqərrər etdim ki, xidmətində olan firiştələri Kərbəlaya varub ol məzlumun məzarı üzrə Qiyamətədək tə'ziyət dutub, ağlayıb qətərati-əşki-rəvanın savabın anda tə'ziyət dutanlara nəzr edəsən. Şe'r:

Gəl ey rəsmi-vəfadan dəm uran, əşki-rəvan göstər,
Mücərrəd qövlə qane' olma, isbat et, nişan göstər.
Dili-pürxuni-suzanın misali-qönçeyi-lalə,
Məlamət xəncəriylə çak qıl, daği-nihan göstər.

Elməfrazi-mə'rəkeyi-məsayibi-Kərbəla və əncümənsazi-matəmkədeyi-asari-nəvayibi-şühəda rayəti-rəvayətə bu tərzlə təhrik vermiş və sürudü rudi-hekayəti bu qanunla izhara gə-

türmiş ki, çün ə'yanü əşrafi-Kufənin surəti-sədaqətləri Müslimi-Əqil təsdiqiylə Həzrəti-İmama mə'lum oldu və caddeyi-müsadiqətdə sabitqədəm olduqları ol müxbiri-sadiq e'lamiylə vüzuh buldu, Həzrəti-İmam əsbabi-səfər mühəyya qılub, müstə'idi-müsafirət olduqda əhbabü əhibba hər tərəfdən xidməti-şərifinə gəlüb və hər nə qədər ki, mən' etdilər, müfid olmadı və hər necə ilhah qıldılar, faidə qılmadı. Bir gecə Əbdullah Əbbas mülaqati-şərifinə müşərrəf olub nəhayəti-tə'zimü təkrimdən sonra ədəb təriqiylə ayıtdı. Şe'r:

Ey zəmiri-ənvərin ayineyi-gitinüma,
Afitabi-təl'ətin misbahi-ənvari-Huda.
Əzminə nüsrət müqarin, pə'yinə hikmət qərin,
Əmrinə tabe' fələk, fərmaninə qail qəza.

"Ya İmami-zəman, lütf edüb Kufə 'əzimətin tərk eylə və Məkkədən çıxma ki, atan Əli İbn Əbi Talib ol diyara təvəccöh qıldıqda giriftari-dami-bəliyyat oldu və qarındaşın Həsəni-Muctəba ol mülk əhlindən təfriqeyi-xatir buldu".

Həzrəti-İmam ayıtdı: "Ey Əbdullah, zahirən müsəlmanlar məktublar irsal edüb hüzurimi istid'a qıldılar və iltimasla nüsrətimə mütəkəffil oldular və mümkündür ki, bu surətdə icrayi-ümuri-həq surət bula və tərvici-şəri'ət müyəssər ola". Əbdullah ayıtdı: "Ey məxdumzadə, hənuz Kufə Yezid təsərrüfindədir. Əgər anın naibin ixrac edüb şəhri Müslimə təslim edərlərsə, ol canibə getmək münasibdir və əgər qəziyyə mün'əkis olsa və ləşkəri-Yezidlə müqavimət lazım gəlsə, mümkündür ki, ol canibdən surəti-nüsrət zühura gələ və Həzrətinizə anda iztirab mütəvəccih ola". Həzrəti-Hüseyn ayıtdı: "Ey Əbdullah, bu gecə bu xüsusda bir təəmmül edüb yarın sənə cəvab verəyim".

Əbdullah Əbbas mənzilinə müraciət qıldıqda Həzrəti-İmam Kəlamullahdan istixarə təriqiylə mütəvəqqe'i-nəsihət olduqda bu ayət falına gəldi ki: "Kullu nəfsin zaiqatu'lmovti və innəma tufunə ucurəkum yovməl-qiyaməti"[1]. Həzrəti-İmam ayıtdı: "Sədəqə'llahü'l-ə'zim və sədəqə rəsuluhu'l-nəbiyyul-kərim"[2]. Fali-Müshəf şəhadətim xüsusunda Həzrəti-Rəsulullah vaqi'əmdə gördügüm kəlimatinə münafiq gəldi və mütabiq vaqe' oldu. Lacərəm qələmi-təqdirlə təhrir olan qəziyyə, əlbəttə, tağəyyür bulmaz və əhkami-qəza iqtizayi-təmşiyyət qıldıqda, çarə ilə məmnu' olmaz.

İkinci gün Əbdullahi-Əbbas hazır olub ayıtdı: "Ya İbn Rəsulullah, nə tədbirə qərar verdinüz və Kufə 'əzimətində nə məsləhət gördünüz?" Həzrəti-İmam ayıtdı: "Ey Əbdullah, əziməti-səfər müsəmməmdir və binayi-niyyəti-müsafirət möhkəm, zira mühəqqəq bilürəm ki, Yezid bəndən tağafül qılmaz və dəf'ü rəf'im tədbirlərindən qafil olmaz. Riza verməzəm ki, xani-şərifi-Kə'bə qibleyi-'aləm ikən sipahi-əhli-zəlalət paymalı olub, kəsri-hörmət bulmağına bən səbəb vaqe' olam və rəva görməzəm ki, ərzi-mübarəki-Bətha möhtərəmü mükərrəm ikən dəmani-pakın alüdeyi-xun və xəlqini pərişan qılam. Səlah oldur ki, bu silsileyi-fitnəyi bir qeyr diyara çəkəm və toxmi-təfriqəyi bir qeyr məzrə'əyə tökəm". Şe'r:

[1] Hər bir insan ölümü dadacaqdır. Mükafatlarınız Qiyamət günü sizə bütövlükdə veriləcəkdir (Qur'an, 3, 185).
[2] Ulu Tanrı doğru buyurdu və uca Peyğəmbər də doğru söylədi.



Qanda kim eyləsəm məqam, bana
Fitnə həmdəm, bəla mülazimdir.
Hərəmi-Kə'bəni bəlalarla,
Mübtəla eyləmək nə lazımdır.

Əbdullah ayıtdı: "Ey məxdumzadə, əgər, əlbəttə, maili-səfərsən, barı, Yəmən canibinə təvəccöh qıl ki, məmləkəti-vəsi' və 'ərseyi-'əriz olub, hüsunü qila'i bihəddü bişümar və qəbileyi-Həmədan təmam mühibbi-xanədani-Əhmədi-Muxtardır. Yəqin ki, ol diyara sən varub qərar tutduqda ətrafü cəvanibdən müxlislər və mücahidlər cəm' olurlar və sənə mü'avinət qılurlar". Hüseyn ayıtdı: "Ey Əbdullah, sənin kəmali-şəfqətini kəndü xüsusimdə mühəqqət bilurəm və kəlamın məhzi-nəsihət olduğuna mö'tərif oluram. Əmma nə çarə, qaidi-qəza zimami-iradətimi canibi-İraqa çəkməkdədir. Nihanxaneyi-hikmət sirrinə yetmək olmaz və iradəmi təqdirdən təcavuz etmək olmaz. Minbə'd bu xüsusda mübaliğə qılma və mane' olma ki, bizə 'əyan olan əsrar sizə nihandır, nətə ki, hikməti-xərqi-səfinə Musaya məxfi və Xızra əyandür. Və bən ol kimsənin varisi-elmiyəm ki, kərratla minbər üzrə buyurmuşdur ki, "Utitu elməl-mənaya və'l-bəlaya"[1]. Və dəxi buyurmuşdur ki, "Sə'luni əmma dünə'l-'ərşi"[2]. Ey Əbdullah, əsrari-hikmət bizə məxfi olmaz və feyzi-ismət bizi aludeyi-qəflət qılmaz". Əbdullahi-Əbbas ayıtdı: "Ya İmam, bana dəxi xidməti-şərifində olmaq məqsud idi, əmma hala rayizi-qəza 'inani-əzimətimi Mədinə canibinə mün'ətif qılmış. Ümidvaram ki, həzrətiniz Kufəyə vardıqda şərəfi-mülazimət müyəssər ola, əmma bilməzəm ki, əyyami-müfariqətində ruzigar bəni nə bəlalara giriftar qıla". Şe'r:

Ağla, ey göz kim, təni-bimar candan ayrılur,
Can ilə cismim rəfiq olmuşdu, andan ayrılur,
Nalə qıl, ey dil, ki tuti şəkkəristandan çıxub,
Bülbüli-zari-bəlakeş bustandan ayrılur.

Rəvayətdir ki, Əbdullahi-Əbbasdən sonra Məhəmməd Hənifə, Əbdullahi-Ömər və Əbdülluhi-Zübeyr xidməti-şərifinə gəlüb ənva'i-müqəddəmatla nəsihət qıldılar, sudmənd olmadı və faidə qılmadı. Ayıtdılar: "Ya İmam, bu israra səbəb nədir?" Həzrəti-Hüseyn ayıtdı: "Ey qövm, həqqa ki, bu gecə vaqi'əmdə gördüm, Həzrəti-Rəsul buyurdu ki, "Ey Hüseyn, Kufə 'əzimətində tə'xirü tə'əllül etməyəsən və təriqi-təqsirü təkahül dutmayasan ki, Həzrəti-Sultani-Səriri-Kibriya səni ol büq'ədə alüdeyi-xakü xun görmək istər və məlaikəyə kəmali-səbrin ərz edib mərtəbeyi-itaətin göstərmək istər. Təvəqqüf bu xidmətdə xətadır və tə'əllül narəva". Əshabü əhbab ol kəlimati istima' etdikdə ayıtdılar: "İnna lillahi və inna ileyhi raci'un"[3]. Ey Hüseyn, çün nəhayəti-əzmin mə'lum oldu və qayəti-müsafirətin vüzuh buldu, bu ətfalü əyalı nə ümid ilə diyari-qürbətə salursan və nə vasilə ilə sərgərdan qılursan?" Hüseyn ayıtdı: "Ey əzizlər, Əhli-Beytin əhvalın dəxi Həzrəti-Rəsula ərz etdim. Buyurdi ki, an-

[1] Ölum və fəlakətlərin elmi mənə verildi.
[2] Göylərdən başqa məndən nə soruşarsınız, soruşun.
[3] Biz Allaha aidik və qayıdışımız da onadır (Qur'an, 2, 156).

ları dəxi Vacibülvücud zalimlər əlində əsirü aciz görmək istər və anlara dəxi ol bəlaya müqabil cəza yetürmək istər".

Əlqissə, əshabü əhbabla vida' edüb, təhiyyeyi-əsbabi-səfər qılub, ol sultani-səriri-bəla və şahənşahi-məsnədi-izzü ə'la cəmi'i-ətba'ü əşya'in cəm' edüb və müxəddərati-hücreyi-ismət və cəvahiri-əsdafi-təharətçün mişkinmuy naqələr üzərinə münasib hövdəclər və əmarilər mürəttəb etdirib, bir sübhdəm ki, şahi-əncüm haşiyeyi-səbzəzari-sipehri-lacivər difamə xeymeyi-zərrintənab tikdi və fərraşi-sübhi-sadiq rövzəneyi-şəbistan zülmətinə pərdeyi-zərnigar çəkdi, ələmi-əzəmət və livayi-fəthü nüsrət qaldurub və sədayi-kusi-rehlət və sədmeyi-nəfiri-irtihalilə cərasvar qübbeyi-zəngarguni-asimanı doldurub, ittifaqən həm ol gün ki, Müslimi Kufədə şəhid etmişlərdi, Məkkədən çıxub mütəvəccihi-İraq oldu. Şe'r:

Kəsbi-şəhadət etməgə qürbət diyarinə,
Oldu rəvanə qafileyi-izzü ehtişam.
Əşrafi-Əhli-Beyt səfər ixtiyar edüb,
Səyyarə oldu əxtəri-gərduni-din təmam.

Ol sərvəri-din və nəqdi-seyyidi-mürsəlin əhli-Məkkə ilə vida' edüb rəvan olduqda əraziyi-Məkkəyə lərzə düşüb, xəvasü əvami-Hicaz bə'zi mürafiqət üçün və bə'zi müşayiət üçün mütəhərrik olub, bir zəlzələ qopdu ki, nəzzarəsi 'üyuni tirə və təəmmüli 'üquli xirə qıldı. Və ələmi-müfariqətindən [xəlqə] bir giryə qalib oldu ki, ol giryədən əbri-bəhar münf'əil olurdu. Şe'r:

Xaneyi-Kə'bə urdu köksünə daş,
Çahi-Zəmzəm axıtdı gözdən yaş.
Xaki-paki-xətireyi-Bətha,
Zərrə-zərrə binüb səməndi-səba,
Ol şəhənşaha oldular həmrah,
Çıxdı çərxi-barinə gərdi-sipah.

Təmamiyi-əşrəfi-büq'eyi-Kə'bə və xəvasü əvami-Məkkə bir mənzil ol şəhriyari-alimiqdar və sultani-kamgarın mülazimi-rikabi-hümayuni olub təriqi-mülazimət riayət qıldılar. Qimmeyi-şadirvani-rif'ət zinəti-ruyi-zəmin olduqda və orduyi-hümayun sə'adətlə nüzula icazət bulduqda, Həzrəti-İmam bir fəzayi-fərəhfəzadə bir kürsi nəsb etdirib, üzərinə çıxub, həmdü sənaya möhtəvi və şükrü sipasa müştəmil bir xütbeyi-bəliğ ədasından sonra nida qıldı ki, "Ey mə'şəri-əshabi-girami və ey hüzzari-məclisi-cami! Mən səyyahi-badiyə-peymayi-səhrayi-müsibətəm, bən müsafiri-biyabannəvərdi-badiyeyi-möhnətəm. Bən səyyareyi-asimani-qürbətəm, bən saliki-təriqi-şəhadətəm. Xatiri-fatirimə əndişeyi-ləzzati-dünya güzar etməz və zəmiri-pürtəşvirimə xəyali-təsərrüfi-mülki-aləm yetməz. Səhifeyi-söhbətim nəqşi-hiylədən mü'ərradır və cərideyi-ülfətim tərzi-xud'ədən mübərradır. Heç bəndəyi iqtinayi-fəvaidi-dünyəvi və'dəsiylə müqəyyəd etməzəm və heç fəqirin e'tilayi-məratibü mənasib müjdəsiylə daməni-tə'əllüqin tutmazam. Təhti-livayi-rif'ətimdə sayeyi-səltənəti-suri təmənna qılan sərrişteyi-irtibatın silsileyi-ülfətimdən qət' etsün və növbəhari-şövkətimdə rəyahini-tənə'ümati-məcaziyə talib olan tərki-ülfətim dutsun". Şe'r:

Bən bəla dəryasinə qərq olmağa basdım qədəm,
Gəzməsün girdabvəş çevrəmdə hər canın sevən,
Bən fəna deyrində mənzil dutmağa əzm eylədim,
Durmasun yanımda mülkü qəsrü eyvanın sevən.

Bu nəsihətdən sonra şəm'i-şəbistani-hərəmsərayi-'ismət olub, sabahadək suzü güdazla övqat keçirdi. Ələssəbah ki, tiği-şə'şəeyi-xosrovi-xavər rabiteyi-nurdan zülmət silsiləsin qət' qıldı və sipahi-Rumü Həbəş bir-birindən ayrıldı, ol mənzildən orduyi-humayun irtihal qılub və əhbabi-həqiqi və məcazi bir-birindən ayrılub ol ki, rişteyi-irtibatı təəllüqati-dünyaya möhkəm idi, vida' edib Məkkəyə müraciət qıldı və ol ki, təriqi-vəfada rasixdəm və sabitqədəm idi, mürafiqətdə yekcəhət oldu.

Rəvayətdir ki, ikinci mənzildə Həzrəti-sultani-Kərbəla bir namə təhrir edüb ammeyi-Bənu Haşim və kaffeyi-Bənu Əbdülmüttəlibə irsal etdi bu məzmunla ki: "Ey silsileyi-intisabi-Rəsulullaha müntəzəm olan cəvahiri-əsdafi-səadət, və ey şərəfi-qürbi-Mustəfa bulan zəvahiri-hədayiqi-siyadət! Gəncineyi-iqbali-biintiqala təriqi-təsərrüf bulmuşam. Kəmali-mürüvvətim iqtizayi-səlayi-'amm edər və maideyi-ne'məti-bizəvala mehman olmuşam. Hüsni-sirətim təqazayi-əxbarü e'lam edər. İmdi münhiyi-məktubi-şərifim əxbari-təvəccöhüm e'lam etdikdə və başiri-risaleyi-lətifim sizə yetdikdə hər kim iste'calla gəldi, bu gəncinədən bəhrə bulub bu maidədən nəsib aldı; və hər kim təvəqqüf qıldı, məhrum qaldı, vəssəlam".

Məktub irsal edüb, barxanələr yüklənib rəvan oldu. Bir neçə mənzil qət' olunduqdan sonra əsnayi-təriqdə Səbah nam mənzildə Fərəzdəqi-şair ki, İraqdan gəlüb Hicaza gedərdi, ol Həzrətin pabusi-şəriflərinə müşərrəf olub izhari-du'avü səna qıldı bu təriqlə ki. Şe'r:

Əssəlam, ey nəqşi-nə'li-mərkəbin Mehrabi-din,
Həlqeyi-fitraki-rəxşin rişteyi-Həblülmətin,
Tərhi-orduyi-humayunin tirazi-məhdi-mülk,
Nəqşi-çətri-bargahın zinəti-ruyi-zəmin.

Həzrəti-İmam andan əhvali-İraq istifsar etdikdə ayıtdı: "Ya İbn Rəsulullah, əhli-Kufənin əf'allərin əqvallərinə müxalif gördüm". Həzrəti-İmam anın sözünə təsdiq edüb, ol mənzildən dəxi rəvan olub Bətnürrümmə deməklə mə'ruf mənzili müxəyyəmi-xiyami-orduyi-humayun edüb, ol mənzildən əhli-Kufəyə Qeys bin Məşhərlə bir namə irsal etdi, bu məzmunila ki: "Əkabirü ə'yani-İraq və ə'azimü əşrafi-Kufədən təriqi-məvəddətimdə qədimülvidad və caddeyi-ita'ətimdə səlimül-e'tiqad olan sənadidi-'izam və firqeyi-mə'arifi-giram şəraifi-təslimati-inayətəncam və lətayifi-təhiyyati-səadətixtitama ixtisasi-tam bulduqdan sonra mə'lum edələr ki, əmmzadeyi-cəlilülqədri-bi'ədil Müslim bin Əqil ki, vəkili-mö'təmidim və rəsuli-mö'təqidimdir, bu canibə irsali-rəsayil edüb məzmununda sizin surəti-ixlasü e'tiqadınızı ərz etməgin silsileyi-təvəccöhümüz ol canibə mütəhərrik olub və uqabi-həyati-rif'ətü iclalım

ol ərsə həvasiylə balü pər açub, mütəvəccih olmuşam və ehtimamla əzimət qılmışam. Ümmid ki, Həzrəti-İzzət tövfiqi-iqtisal müyəssər qıla və bu namə Bətnürrümmədən sizə infaz olundu, ta mə'lum ola".

Rəvayətdir ki, Həzrəti-İmam Məkkədən çıxıb mütəvəccihi-Kufə olduqda Yezidin anda olan ə'vanü ənsarından Übeylullahi-Ziyada məkatib irsal olunub xəbər yetmişdi və Übeydullahi-Ziyad cəm'i-şəvarii və mənazili mö'təmid kimsənələrinə tapşurub məsun və məzbut etmişdi. Qeys bin Məşhər ki, Həzrəti-İmamın məktubi-şərifin Kufə ə'yanına yetürmək qəsdinə iste'calla gedərdi, Qadisiyyə mülkünə yetdikdə ittifaqən ol məqamın hifzinə mə'mur olan Həsən bin Təmim mə'lum edüb, ol məzlumu dutub Übeydullahi-Ziyada irsal etdikdə Übeydullahi-Ziyad ol bigünahı şəhid etdi. Əmma Həzrəti-İmam mənazilü mərahil qət' edüb gəlirkən Dürud nam mənzilə yetdikdə gördülər bir xeymə qurulmuş və bir sərapərdə urulmuş. Həqiqəti-halın sual etdikdə dedilər: "Züheyr bin Qeys Nəhai Məkkədən gəlüb mülkinə gedər". Həzrəti-İmam bir xidmətkar irsal edib anın ehzarın murad etdi. Hüzuruna gəldikdə ayıtdı: "Ey Züheyr, biz gövhəri-rizayi-Həq təmənnasında dəryayi-bəla qəvvaslarıyuz. Nəhəngi-nayibədən ehtiraz etməyən bizə həm'inan olur. Və biz cövhəri-qürbi-İzəd təvəllasında səhrayi-səbatü səbr səyyahlarıyız. Hücumi-hadisədən ictinab etməyən rəfaqətimizə rəğbət qılur. Aya səndə ol himmət olamı ki, meydani-məhəbbətdə mərkəbi-mücahidət yügürdüb həm'inan olasan və şəmşiri-şücaət çəkib mürafiqət qılasan?" Züheyr ol növbəhari-tövfiqdən gül kibi xəndan olub dedi: "Ya İmami-zəman, bir müddətdir ki, bu səadətə müntəzirəm, əlminnətü lillah, müyəssər oldu və hüsni-tale'im hüsuli-mərama müavinət qıldı". Şe'r:

Gəldi ol dəm ki, qılam canımı canana fəda,
Eyləyəm ərzi-məhəbbət, qılam izhari-vəfa.

Həm ol sa'ət mənzilinə mü'avidət qılub, əshabü ətba'inə ayıtdı: "Ey qövm, bən qərqeyi-girdabi-məhəbbət oldum və canibi-üqbaya təvəccöh qıldım. Bəlaya mütəhəmmil olub fənaya riza verən bənimlə gəlsin və müqəyyədi-rahət olub arizuyi-fərağət qılan müfariqət qılsun". Və mənkuhəsina ayıtdı: "Ey yari-əziz, bən nəqdi-can sərf etməgə şəhadət bazarına təvəccöh etmişəm, sən bənim malımdan həqqini alıb bəndən müfariqət ixtiyar et". Və bir rəvayət budur ki, ol övrət təlaq alub qarındaşiylə Kufəyə [getdi]. Və bir rəvayət budur ki, dedi: ey Züheyr, sən Hüseyn mülazimətin ixtiyar etdin isə, bən dəxi xatuni-Qiyamət xidmətin ixtiyar etdim. İttifaqla Kərbəlaya gəldilər.

Çün Həzrəti-İmam Şüquq nam mənzilə nüzul etdi, Kufədən bir kimsənə gəlib xəbər verdi ki, Müslimi-Əqil və Hani bin Ürvəyi şəhid etdilər və başların Şama göndərdilər. Həzrəti-İmam ayıtdı: "İnna lillahi və inna ileyhi raci'un"[1].

Rəvayətdir ki, Müslimi-Əqilin on üç yaşında bir qızı olub hərəmsərayi-ismətdə müsahibəti-müxəddərata müşərrəf idi və Həzrəti-İmam ana qayətdə ehtiram edərdi. Müslimin xəbəri-şəhadəti istima' olunduqda Həzrəti-İmam hərəmsərainə gəlüb, ol qızı görüb hər gündən ziyadə iltifat etdi. Ol saleha fərasətlə mütəvəhhim olub ayıtdı: "Ya Hüseyn, məgər Müslim şəhid olubdur ki, bana yetimlər ri'ayətin edərsən". Həzrəti-İmam təhəmmül qılmayub giryan olub ayıtdı: "Ey saleha, Müslim getdi isə, bən anın yerinə". Ol fəqirə Müslimin şəhadətin təhqiq etdikdə bünyadi-növhə qılub və baqi övladı nalan olub matəmin dutdular.

[1] Biz Allaha aidik və qayıdışımız da onadır (Qur'an, 2, 156).



Rəvayətdir ki, bu xəbər şaye' olduqda və sübut bulduqda bə'zi rüfəqa Həzrəti-İmama qəsəmlər verib mübaliğələr qıldılar ki, ya İmam, kəndünüzə və bu ətfalü əyalə cəfa rəva görüb Kufə canibinə getmin və bu təhlükədən ehtiraz edin [ki,] mə'rəkəyi-qəlizdir. Həzrəti-İmam təəmmül edüb, bir zəman sükut ixtiyar etdükdə Müslimin övladı hücum edüb ayıtdılar: "Ya İmam, əhli-Kufədən Müslimin qanın almayınca bizə müraci'ət mümkün degil. Heç kimsənə getməz isə, barı, biz gedəriz, ya intiqam alaruz və ya kəsbi-şəhadət edəriz". Şe'r:

Zillət ilə ləzzəti olmaz həyatın, dustlar,
Nəqdi-can sərf eyləyib dünyada, kam almaq gərək.
Əcz ilə dönmək ədudən səhldir, himmət dutub,
Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək.

Hüseyni-məzlum ol himməti görüb əshabına ayıtdı: "Laxəyrə, fi'l əyşi-bə'də ha'ulai"[1]. Yə'ni bunlardan sonra həyatdan ləzzət görmək olmaz. Kufə 'əzminə yekcəhət olub, ol mənzildən köçüb Malə mənzilinə nüzul etdikdə Ömər bin Sə'ddən bir məktub varid oldu, məzmununda bu ki: "Ey Hüseyn, əhli-Kufə iqrarlərinə inkar edüb Müslimi-Əqili şəhid etdilər. Və Müslim hiyni-şəhadətdə bana vəsiyyət etmişdi ki, bu əhvalı sənə e'lam edəm. Gərəkdir ki, bu əxbarı mə'lum etdikdə həzərində olasan və Kufə 'əzimətinin tərkin qılasan".

Bu xəbər şəhzadənin orduyi-humayunində intişar və iştihar bulduqda ətrafü cəvanibdən təmə'i-dövləti-dünyaçün cəm' olanlar güruh-güruh pərişan oldılar və meydani-vəfada sabit-qədəm olanlar qaldılar. Ol mənzildən dəxi rehlət edüb, Bənilmüqatilə gəldikdə bir sərapərdə gördülər ki, qurulmuş. Həqiqətin sual etdükdə dedilər: "Əbdüllah bin Hürrindür". Və Həzrəti-İmam İbn Həccacı ki, anın qəbiləsindən idi, mütalibətinə irsal etdi. İcabət qılmayub, Həzrəti-İmam bizzat anın mənzilinə təşrif buyurub ana təklifi-rəfaqət qıldı. Əbdullah bin Hürr ayıtdı: "Ya İmam, Yezidin ləşkəri çoxdur və sənin xidmətində olanlar şərzimeyi-qəlil olub anlarınla tabi-müqavimətləri yoxdur. Qalib oldur ki, məğlub olalar və mücərrəd bənimlə rəxneyi-afət məsdud olmaz. İltimas edərəm ki, bəni mü'af edəsən. Və bənim bir atım və bir qılıncım var ki, manəndləri yoxdur. Pişkəş təriqiylə bəndən qəbul edəsən". Həzrəti-İmam ayıtdı: "Bən at üçün və qılınc üçün gəlmədim". Mə'yus olub andan müraciət qılub [mənzilinə gəldi]. Rəvayətdir ki, vaqieyi-Kərbəladan sonra ol süstrə'yi-kəmtədbir təəssüflər çəkərdi, əmma faidə qılmazdı. Şe'r:

Zəhi nadan ki, şahi-mülki-iman
Ana ərz edə təşrifi-şəhadət,
Təvəhhüm eyləyib tiği-bəladan,
Özündən eyləyə səlbi-səadət.

[1] Bunlardan sonra artıq yaşamağın xeyri yoxdur.

Nəqldir ki, bir mənzildə Həzrəti-İmam, Zeynəb dizi üzərinə baş qoyub yuquya getmiş ikən iztirabla oyanub dideyi-nəmnakindən gövhəri-əşk rəvan oldu. Ümm Külsüm ayıtdı: "Ya Hüseyn, səbəbi-giryə nədir?". Həzrəti-İmam ayıtdı: "Vaqi'əmdə hala cəddimi gördüm. Giryan olub bana dedi ki, ey Hüseyn, və'deyi-müvasilət qərib oldu". Ümm Külsüm dəxi giryan olub və Əli Əkbər ayıtdı: "Ya İmam, ləşkəri-ə'dayla müqabilə vaqe' olduğu təqdirdə Həq bizim tərəfimizdədir, yoxsa anlar canibində?" İmam ayıtdı: "Həq bizdədir və biz Həq iləyiz". Əli Əkbər ayıtdı: "Pəs, hər cəfa mütəsəvvir olsa, qəm degil!"

Əlqissə, ol mənzildən dəxi intiqal edüb Qətqətana dedikləri mənzilə nüzul etdikdə, şəhzadə cəm'i-ləşkərin cəm' edüb, tərtibi-müqəddəmati-nəsayehü məva'iz etdikdən sonra Müslimi-Əqilin şəhadətin və əhli-Kufənin xəyanətin şaye' edüb nida qıldı ki, "Ey qövm, ayineyi-dövran bir qeyr surət göstərdi və nihali-tədbir müxalifi-məqsud bər verdi. Və mühəqqəq oldu ki, əhli-Kufə nəqzi-əhd edüb Müslimi şəhid etmişdir və ləşkəri-Yezid cidalü qital etməgə ətrafü cəvanibimizi tutmuşlar. Və bən bilürəm ki, iqtizayi-şəhadət bana rüxsəti-nüsrət verməz və qeyrəti-şüca'ət müraciət etmək caiz görməz. Hər ayinə bana bu dəryayi-bəlaya girmək lazımdır və iste'dadi-rütbeyi-qədərim bu seylabi-fitnə girdabinə 'azimü cazim. Əmma sizə ümumən rüxsətdir ki, əbvabi-nəcat məsdud olmadan kəndünizi fəzayi-səlamətə çəküb, bu təfriqədən imən olasız və rayizi-fitneyi-zəman inani-ixtiyarınızı əldən almadan bir canibə gedüb bu dəğdəğədən qurtulasız. Zira rəva görməzəm ki, bənim vücudum məhzi-xeyr ikən sizə nisbət mövcibi-zərər vaqe' ola və mir'ati-surəti-halınız bənim rəhgüzarımdan qübari-küdurət bula".

Rəvayətdir ki, ol cəmaətdən ol vaqtədək xatirində hənuz məzənneyi-intifai-dünyəvi olanlar qət'i-əlaqə qıldılar və dəvayi-səbati-məhəbbət qılanlar riza qəzaya verib, fəryadü fəğana gəldilər ki, ey hadiyi-təriqi-müstəqim və ey müqtədayi-sirati-qəvim, biz dövləti-mülazimətində saliki-rahi-hidayət ikən imtahanla badiyeyi-təəssüf təriqin göstərmə və bir dəm sə'adəti-şəhadətdən novmid olduğumuzu rəva görmə. Şe'r:

> Biz bəladan incinüb, bidaddan vəhm etmərüz,
> Nəqdi-canın sərfi-canan eyləyən aşiqlərüz.
> Eşq meydanında bidadü bəladan dönməyüb,
> Rastrəv saliklərüz, sabitqədəm sadiqlərüz.

Filvaqe', ol zəmanda sə'adət və şəqavət bir-birindən imtiyaz buldu və sə'idü şəqi əhvalı bir imtahanla mə'lum oldu. Ol tayifə ki, ömrü mal və övladü mülki-dünyaya müqəyyəd olub tərk edə bilmədi, kəsbi-sə'adəti-əbədi qılmadı. Və ol güruh ki, əsbabi-müstə'ari-dünyavidən keçüb sə'adəti-şəhadət ixtiyar etdi, mənzili-məqsuda yetdi. Yəqindir ki, qəssami-qəza dünya hərisinə ücrət verməz və heç məzhəbdə iki həmşirə bir nigaha girməz.

Əlqissə, Həzrəti-İmam mənzil-mənzil qət'i-rah edüb bəni-Sükun qəbiləsinə yetdikdə, Bəni-Əkrəmədən bir şəxsə uğruyub andan Kufə əxbarın sual etdikdə ayıtdı: "Ya İmam, Übeydullahi-Ziyad sənin qəsdinə hər canib ləşkər rəvan edüb təfəhhüsündə və təcəssüsündədir. Səlah oldur ki, müraciət qılasan. Həqqa ki, təvəccöhün tiği-abdar və sinani-xunxardır və müxalifin qayətdə cəfapişə və sitəmkarədir".



Ol nəhəngi-dəryayi-vilayət və şiri-bişeyi-siyasət ol xəbərdən təvəhhüm etməyüb bəlkə şövqü zövqi-şəhadət hiddətin ziyadə qılub rəvan oldu. Əmma rahdarlar və casuslar Həzrəti-İmamın Bəni-Sükun qəbiləsinə yetüb, andan dəxi rehlət edüb və hiddəti-'əzimətin görüb Übeydullahi-Ziyada xəbər verdilər. Ol müdbir Hürr bin Yezidi-Riyahiyə əmr etdi ki, bin müsəlləh namərdlə istiqbal qılub Həzrəti-Hüseyni qanda görsələr, nə vəchlə olsa, qeyr canibin təvəccöhündən mən' edüb Kufəyə gətürə. Hürr bin Yezid ol ləşkərlə badiyəpeymay və səhranəvərd olub, mənzil-mənzil Hüseyni mütalibət edüb, tərəddüd qılub, Səddi-ab deməklə mə'ruf mənzilə yetüb, ol mənzildə aram dutub müntəzir ikən Həzrəti-İmam mənzilindən gecə ilə köçüb bədrəqeyi-əxtəri-əşki-qəmənduz və məş'əleyi-ahi-cigərsuzla sabahadək qət'i-rah edüb. Şe'r:

> Sübh kim, xəlqi xazini-hikmət
> Sirri-pünhandan eylədi agah,
> Çərxi-zalimnihadü kafirkiş
> Qıldı bütxanəsini atəşgah.

Ol padşahi-bütşikəni-atəşxanəfikən və ol şahbazi-düzmənşikari- ülvinəşimən qəyəti-isti'caldan ixtiyari-nüzul etməyüb, aftabvar rayəti-rif'ət asimana çəküb və səhabi-müjganidürəfşandan zaman-zəman rəhgüzara barani-rəhmət töküb yürürdü ol zəmanədək ki, əczayizəmin irtifa'i-xurşiddən kəsbi-zərarət qılub və bazari-səmumü sərab hiddəti-həvadan rəvacü rövnəq bulub rif'əti-aftab zəvala mütəvəccih oldu və hey'əti-rüzgar fərti-hərarətdən təğəyyür buldu. Şe'r:

> Qayəti-hiddət verüb suhani-nəqşi-riglə,
> Dəhr cəlladı həva tiğini xunriz eylədi.
> Səfheyi-səhrada surət göstərib sudan sərab,
> Təşnə təb'ində tə'əttüş atəşin tiz eylədi.

Dəbdəbeyi-tə'zimü təbcil və zəmzəmeyi-təsbihü təhlillə təlieyi-sipahi-zəfərpənah mənzili-Səddi-aba yetüb Hürr bin Yezidi-Riyahinin ləşkərinə mülhəq oldular. Və Hürrün ləşkəri dəxi bir səhrada düşüb hər biri kəndü sayeyi-mərkəbində qərar dutmuşkən səlabəti-əsakirizəfərməasirdən ehtizaza düşüb, mərkəblərinə binüb, səf çəküb müqabilə gəldilər. Təhqiqi-hal etmək üçün sultani-Kərbəladan ol ləşkər sipəhsaları ehzarinə fərman sadir olduqda Hürr bin Yezidi-Riyahi ehtirazü ictinab etməyib, rikabi mülazimi-humayun olub ərzi-hal etdi bu rəsmlə ki. Şe'r:

> Ey sücudi- dərgəhin sərmayeyi-dünyavü din,
> Şəmseyi-eyvani-qədrin hilyeyi-'ərşi-bərin.
> Xadimi-xəlvətsərayi-tə'ətin zikri müdam:
> Hazihi cənnati' ədnin fədxuluha xalidin11.

Ya Əmirəlmö'minin, İslam səndəndür dürüst,
Ya Əmirəşşər', sənsən rəhbəri-əhli-yəqin.
Yetməsün məqsudinə hər kim sənə eylərlsə qəsd,
Görməsün rahət yuzin hər kim sənə bağlarsa kin.

Həzrəti-İmam anın ismin və rəsmin sual etdikdə ayıtdı: "Ya İmam, bənəm Hürr bin Yezidi-Riyahi". Həzrəti-İmam ayıtdı: "Ya Hürr, "İləyna əm ələyna"[1], yə'ni müavinətə gəlmişsən, ya müharibəyə? Hürr ayıtdı: "Ya İmam, Übeydullahi-Ziyaddan mə'muram ki, mülazimətində olam Kufəyədək və sənə qeyr canibə getməgə təmkin verməyəm". Həzrəti-İmam ayıtdı: "La-həvlə və la-quvvətə illa bil-lahil Əliyyil-əzim"[2]. Ey Hürr, hala nəmaz vəqtidir, sən cəma'ətünlə və biz cəma'ətimizlə nəmaz edəlüm, andan sonra qanda getməlü isə gedəlüm". Hürr ayıtdı: "Ya İbn Rəsulullah, sən İmami-zəmansan, imamət qıl, iqtida qılalum". Şe'r:

Sana istərəm kim, qılam iqtida,
Budur aləm içrə həman niyyətim
Ki, bildim səni müqtəda, bilməsəm,
Qəbul eyləməz Həq bənim ta'ətim.

Həzrəti-İmam ana afərin oxuyub ittifaqla nəmaz qıldıqdan sonra xatibanə şəmşiri-abdarinə təkyə qılub həmdü sənaya müştəmil və dürudü duaya möhtəvi bir xütbeyi-bəliğ əda qıldıqdan sonra əhli-Kufəyi müxatəb edüb, möv'izeyi-xütbəsin bu kəlimatla müzəyyən qıldı ki, "Ey ümməti-Məhəmməd", "Cə'alə Əllahu ət-təvfiqə rəfiqəkum"[3], əgərçi bənim rəqəbeyi-iqtidarım Yezidin ribqeyi-inqiyadinə girmək münasib görünməyüb, anın ita'əti-naməqbulindən inhiraf etdigim dərəceyi-vüzuha yetmişdi, siz ki, əhli-Kufəsiz, mütəvatir namələr irsal edüb və asari-məhəbbət və məvəddət ərz eyləyüb "imamımız və müqtədamız yoxdur" – deyüb bənim hüzurimi lazım etdinüz, imdi əgər həm ol qərar üzrəsiz, bən bana lazım olan əmrə iqdam etdim. Siz dəxi sizə lazım olan məsləhəti sərəncam edin və əgər əziməti-mülki-səadətdə xari-səhrayi-tə'əllüq daməni-himmətiniz dutub peşiman oldunuz isə, xari-rəhgüzarım olman, gəldigüm kibi müraci'ət qılayım. Zira bən bu diyara gəlüb cidalü qitali kəndü rə'yimlə ixtiyar etməmişəm və razı degiləm ki, səbəbi-[səfki]-dima' olam".

Hürr ayıtdı: "Ey Hüseyn bin Əli, bənim namələrdən xəbərim yoxdur". Hüseyn ayıtdı: "Sənin yoxsa, ləşkərində xəbəri olan çoxdur". Pəs, buyurdi ki, ol namələri bə'zi hazır olanlara göstərüb infi'al verdilər. Şe'r:

Ey xoş ol dəm ki, nameyi-ə'mal,
Qafili vaqifi-günah eylər.
Məhəki-imtəhan olub zahir,
Nəqdi-məğşuşi rusiyah eylər.

---

[1] Budur, bunlar əbədi cənnətlərdir, əbədi olaraq oraya girin!
[2] Lehimizəmi, əleyhimizəmi?
[3] Tanrıdan başqa qorxu və qüvvət sahibi yoxdur.



Bu hala müqarin canibi-Kufədən altı namərd isti'calla gəlüb Übeydullahi-Ziyaddan Hürrə bir namə gətürdilər məzmunu bu ki: "Ey Hürr, nə mənzildə ki, Hüseynə mülhəq olasan və mülaqat qılasan, gərəkdir ki, ana müvəkkil və müsəllət olasan, bu canibə gətürəsən". Hürr ol məktubu mütali'ə etdükdə Həzrəti-İmama göstərüb ayıtdı: "Ey nəqdi-Rəsulullahi-Haşimi, mülahizə qıl ki, sənin xüsusunda Übeydullahın nə miqdar ehtimamı var. Və bən heyrətdəyəm ki, aya nə tədbir qılam? Əgər səni müaf etsəm, Übeydullahdan vəhm eylərəm və əgər sənə qəsd eyləsəm, Mə'budimdən xövf edərəm. Əmma Allah xövfü Übeydullah vəhminə qalibdir. Qələm olsun ol pənceyi-namübarək ki, sən kibi pəncəyi-afitaba şü'ai-şəmşiri-ataşparə çəküb, zülməti-üsyanla kəndü ruzigarın siyah edər və 'ədəm olsun ol nacəvanmərdin mənzili ki, sən kibi kamil vücuda zəxarifi-dünya üçün qəsd edüb, vəsvəseyi-şeytanla kəndü əhvalın təbah edə. Həqqa ki, bu canibə gəldikdə yolda heç xarü xaraya yol qomadım ki, bana zəbani-halla müjdeyi-şəhadət vermədi və heç nəsim bəndən yana güzar etmədi ki, bana bəşarəti-behişti-bərin yetürmədi. Və mən heyrətdəyəm ki, aya bu nə əməl cəzasıdır, bən xud müqatileyi-Ali-Rəsula mə'muram. [Əmma] ümiddir ki, müqatilə mürafiqətə mübəddəl ola və Həq dövləti-mütabiətinizdə bana səadəti-nəcat müyəssər qıla. Hala bənimlə müxalifət olmağın səlah budur ki, mütəhhərati-hücərati-ismət bəhanəsiylə sizün orduyi-hümayuniniz bizim əskəri-şərarət əsərimizdən bir mərtəbə müba'ədət ixtiyar edüb nüzul edələr, zülməti-şəb müstövli olduqda irtihal edüb nə canibə murad isə rəvan olun ki, sabah olduqda bən ləşkəri xilaf səmtə çəküb, səhrada bir zaman tərəddüd edüb, "bulmadum" – deyüb müraci'ət qılam və bu mə'siyətdən nəcat bulam".

Həzrəti-Hüseyn əsrari-hikmət izhar üçün ol səlahi münasib görüb nüzul etdikdə, bir miqdar anlardan bə'id olmaqla anlar xabi-qəflətdə ikən nisfi-leyldə orduyi-humayunun köçürüb canibi-Məkkeyi-mü'əzzəməyə rəvan oldu. Qaliba ol gecə ərusi-aləm şühəda üçün tə'ziyət iste'dadində olub, gisuyi-müşkbarində rüxsarın nihan etmişdi və şəhidlər və məzlumlar iztirabın görüb dudi-ahi-zəmin daməni-asimanı dutmuşdu. Əlqissə, bir zülməti-məhibi-cansitandı kim, badiyeyi-dəhşətdə Xizri-xirəd sərgərdan idi. Nə mahü sitarədən nişan peyda və nə sübhü afitabdan əsər hüveyda. Anın kibi zülmətdə ol məzlumlar 'inani-ixtiyar qayidi-qəzaya təslim edüb, təmam gecə ciddü cəhdlə qət'i-rah qılub, sübh olduqda mərkəbi-şəhsuvari-meydani-şəhadət bir hövlnak mənzildə təvəqqüf edüb, andan ilərü getməgə təqdirdən rüxsət bulmadı və Həzrəti-İmam nə qədər ki, taziyanə urub mütərrik etmək istədi, fayda qılmadı. Həzrəti-İmam ayıtdı: "Ey mənazil və mərahildən xəbərdar olanlar, bilirmisiz bu nə mənzildir?" Dedilər: "Bu zəminə ərzi-Mariyə derlər". İmam ayıtdı: "Şayəd bir qeyr ismi dəxi var ola?" Dedilər: "Bir ismi dəxi Kərbəladır". Hüseyn ayıtdı: "Allahu əkbər, haza ərzu kərbin və bəla"[1]. Şe'r:

Budur ol mənzil ki, toprağinə qaynar qanımız,
Bundadır zira məkani-cismi-sərgərdanımız.

Əli Əkbər mütəəllim olub ayıtdı: "Ey pədəri-büzürgvar, bu nə fali-namübarəkdir?" Hüseyn ayıtdı: "Ey nuri-didə, Əliyyi-Murtəzayla əziməti-hərbi-Siffin etdükdə, bu mənzilə yetdikdə,

---

[1] Aman Allahım, bura dərd və bəla toprağıdır.

Həzrəti-Murtəza Düldüldən enüb, İmami-Həsən dizi üzərinə mübarək başın qoyub yuxuya getmiş ikən nagah bidar olub ah çəkdi. İmam Həsən səbəb sual etdükdə ol Həzrət ayıtdı: "Şimdi vaqe'əmdə gördüm ki, bu səhra girdabi-xun olmuş və bənim Hüseynim ol girdaba düşüb mütəhəyyir qalmış. Nə qədər ki, istiğasə edər, kimsənə fəryadinə yetməz. Pəs, bana mütəvvəcceh olub ayıtdı: "Ya Hüseyn, bu badiyədə sənə bu vaqi'ə əl versə, nə dersən?" Dedim: "Ya Əli, səbr edərəm və səbr ilə əcr istərəm ki, "İnnəma yuvə'f-fə's-sabirunə əcrəhum bi-qəyri hisabin"[1].

Pəs, şahzədə buyurdu ki, hicabi-bargahi-rif'ət ol mənzili məxyəmi-xiyami-orduyi-hümayun edələr. Fərmani-vacibül-iz'an müqtəzasincə ol padşahi-aləmpənahın sərapərdeyi-rif'ətləri səhrayi-Kərbəlaya uruldu və ol sultani-məlayik sipahi-həşmət dəstgahın bargahi-səadətləri meydani-Kərbəlaya quruldu. Şe'r:

Sayə saldı qübbeyi-gərdünə çətri-'ərşsay,
Yetdi səthi-xakə qədrindən kəmali-irtifa'.
Kərbəla gərdun idi, çətri-şəhidi-Kərbəla,
Xeymeyi-xurşid idi, ətnabi-zərrini şü'a.

Çün Həzrəti-İmamın cəm'i-əf'alı məzahiri-əsrari-hikmət və mətale'i-qüdrət idi, Hürr bin Yezidi Riyahi ləşkərindən inşiraf edüb Məkkə canibinə təvəccöh etmiş ikən, ixtiyarsız Kərbəlaya düşdügü təvəhhümdən və təhəyyürdən degildi, bəlkə bu qərəz mənzur idi ki, 'əziməti-meydani-bəla və təvəccöhi-dəşti-Kərbəla kəndünün məhzi-şücaətlərindən bilinməyüb, rəfiqi olan ə'yani-dövlətə və ərkani-həşmətə mə'lum ola ki, daireyi-tədbirü təsərrüfindən xaric bir mühərriki-silsileyi-iradət və bədrəqeyi-təriqi-məşiyyət var ki, anın əmriylədir hər nə vaqe' olur.

Nəqldir ki, Həzrəti-İmam səməndi-badpayi-badiyəpeymasindən nüzul edüb xaki-Kərbəlaya qədəm basdıqda, ol xaki-şərif həyasından sararıb, andan bir qübar çıxub gisuyi-mü'ənbərlərin müğəbbər etdi. Ümm Külsüm anı görüb ayıtdı: "Ey əzizim, bir əcib halət və mülahizə qıldım və bir qərib arizə gördüm. Bu badiyə toprağından könlümə bir vəhm müstövli oldu". Həzrəti-İmam ana təsəlli verüb Şəhrbanuya ayıtdı: "Ey yari-dilnəvaz, və ey həmdəmü həmraz, bəni bu mövze'də ə'zayi-məcruhla ağüşteyi-xakü xun gördükdə vəsiyyətim budur ki, sədayi-növhə ilə baisi-təzayüdi-süruri-cəmalın təmaşagahi-əhli-şəmatət qılmayasan. Şe'r:

Qılub gisu pərişan, xatirin cəm' etmə bədxahın,
Sürudi-ah ilə dərdi-dil izhar etmə əşrara.
Açub xurşidi-'ariz, qılma rövşən çeşmi-bədbini,
Giriban çak edüb cənnət qapısın açma küffara.

Təmamiyi-Əhli-Beyt ol xəbərdən giryanü büryan olub dedilər: "Ey şahzadeyi-aləmpənah, bu nə əxbari-cangüdazi-cigərsuz və kəlami-ələməncami-qəmənduzdur?" Həzrəti-Şahzadə müqəddəmati-nəsayehü məvaizlə təsəlli verdi ki: "Ey cavahiri-mə'dəni-risalət və ey rəyahini-rövzeyi-vilayət, çün iradeyi-təqdiri-Rəbbani budur, səbrdən qeyr nə çarə". Şe'r:

Surəti-keyfiyyəti-əşya çəkən rəssami-sün',
Kargahi-sən'ətin mövqufi-tədbir eyləməz.
Vadiyi-tədbir sərgərdanıdır aləm, vəli,
Hileyi-tədbir səlbi-hökmi-təqdir eyləməz.

Əlqissə, Həzrəti-İmam ol badiyeyi-xunxar və səhrayi-məlalətasarda qərar dutub, mütəməkkin olduqda, Süleyman bin Sürəd Xuzai əşpafü-ə'yani-İraqa bir namə yazub Qeys Ə'rabiylə irsal etdi bu məzmunla ki, "Ey qaibanə izhari-sədaqət qılub ərzi-iştiyaq edən mö'təmidlər və müxlisanə übudiyyətnamələr irsal edən mücahidlər! Sizin məkatib və mərasilinüzün süturi-xütuti sələsili-cəzbi-iradətümüz vaqe' olub, bu canibə təvəccöh qılub, hala dəşti-Kərbəla ki, bətni-biladi-İraqi-Ərəbdir, məxyəmi-nüzuli-orduyi-humayun oldu və Süheyli-iqbali-Hicazi-mətlə'imiz bu fəzaya pərtövi-səadət saldı. İmdi gərəkdir ki, qıldığınız əhdə vəfa qılub və səadəti-məqdəmi-şərifimizi müğtənəm bilib, məzmuni-misali-vacibül-imtisala ittila' bulduqda nəqdi-can nisar etməgə dərgahi-dünyadan övla olduğun mühəqqəq biləsiz. Həqqa ki, bu işarət sizə ehdayi-təriqi-hidayətdir. Təsəvvür etmən ki, istid'ayi-müzahirət və mü'avinətdir, zira səltənəti-aləmi-fani ana dəgməz ki, minnətlə təhsil edələr və zillətlə buraxub gedələr". Şe'r:

Tiği-tövfiq ilə bən qət'i-tə'əllüq qılmışam,
Çəkməzəm minnət, olub mail səririi əfsərə.
Çün bana məqsud fəthi-aləmi-təcriddir,
Aləmi dutmaqda gün möhtac olurmu ləşkərə?

Qeysi-Ə'rabi Həzrəti-İmamın naməsin Kufəyə ilətüb, Suleymani-Xüzaiyə verüb, cavab almaq qəsdinə rəvan olduqda Kufəyə yetmədən Übeydullahi-Ziyadın təli'eyi-əskəri ol namuradı dutub hüzuruna ilətdilər. Qeysi-Ə'rabi Übeydullahi-Ziyada müqabil olduqda naməyi parələdi. Übeydullah ayıtdı: "Nişə naməyi parələdin?" Qeys ayıtdı: "Dost sirri düşməndən məxfi gərək". Übeydullah ayıtdı: "Ey Qeys, əgər bənim siyasətimdən nəcat bulmaq muradınsa, iki işdən birin ixtiyar et: Ya namədə olanlar ismi izhar eylə, ya minbərə çıxub Hüseyn və ətba'inə nasaza edüb bana və Yezidə sitayiş qıl". Qeys ayıtdı: "Ey İbn Ziyad, izhari-məzmuni-namə xud mümkün degil, əmma qəziyyeyi-minbər ehtimalpəzirdir. Buyurun xəlq cəm' olsun".

Silsileyi-cəm'iyyət müntəzəm olduqda, Qeysi-Ə'rabi minbərə çıxub zəbani-fəsihlə Vacibülvücuda həmdü səna və Həzrəti-Rəsula dürudi-bimüntəha əda qıldıqdan sonra nida qıldı ki: "Ey əhli-Kufə, bən rəsuli-Hüseynəm və gəlmişəm ki, təşrifi-şərifindən sizi xəbərdar edəm". Və məzmuni-naməyi ağazdan əncamədək şərh qıldı, Yezidə və ibn-Ziyada nifrin oxuyub, Hüseyn və ətba'inə sitayişlər qılub xassü ammə ğərivü qülqülə saldı. Übeydüllahi-Ziyad ol vaqi'ədən qəzəbnak olub hənuz minbərdə ikən ol məzlumu şəhid etdirdi. Şe'r:

[1] Səbr edənlərin mükafatları saysız olaraq ödəniləcəkdir (Qur'an, 39, 10).

Nə saatdir ki, gülzari-bəladan bir gül açılmaz?
Nə dəmdir kim, fələk bir mübtəla bağrını qan qılmaz?

Çün Übeydullahi-Ziyad Hüseyn bin Əlinin Kərbəlaya gəldigindən vaqif olub bir namə irsal qıldı, bu məzmunla ki: "Ey Hüseyn, bana Yezid namələr irsal edüb e'lam edibdir ki, Hüseyn bin Əli ol canibə gəldikdə, bənim bey'ətim andan almayınca qərar dutmayasan və əgər qəbul etməz olursa, qətlində tə'əllül qılmayasan. İmdi sənə nəsihət edərəm. Kəndünə tərəhhüm edüb Yezidin bey'ətin qəbul et və əgər qəbul etməz isən, əsbabi-müharibə mühəyya qıl".

Həzrəti-Hüseyn ol namənin məzmununa müttəle' olduqda, [əlindən] buraxdı və çehreyi-mübarəki qəzəbdən gülnari olub buyurdu ki, zəhi bədbəxt qövmi ki, rizayi-xəlqi qəzəbi-Xaliqə ixtiyar edüb ümmətiyüz dedikləri Peyğəmbərin övladın həlak etməklə rizasın istərlər". Şe'r:

Gör nə cahildir ədu kim, də'viyi-islam edib,
Dövləti-dünya üçün Ali-Rəsul eylər həlak.
Gör nə qafildir ana tabe' olan bədbəxt kim.
Xəlqi xoşnud eyləyib, eylər Xudayı xəşmnak.

Qasidi-Übeydullah ayıtdı: "Ya Hüseyn, nədir bu risalətin cəvabı?" Həzrəti-Hüseyn ayıtdı: "Ma-ləhu indi cəvabin ləqəd həqqət əleyhi kəlimətul-'əzab"[1].

Qasidi-Übeydullah müraciət qılub, Hüseyn bin Əlinin cəvab verməyüb naməyi buraxdığını ol müdbirə xəbər verdikdə ol bədbəxt qəzəbnak olub, əhli-məclisə yüz dutub ayıtdı: "Ey əkabiri-Şam və ə'azimi-Kufə, kimdir sizdən ki, mütəsəddiyi-hərbi-Hüseyn olub, hər məmləkəti-mü'zəm ki, İraqdan murad edinsə, ana verüm". Heç kimsənə cəvab vermədi. Bu kəliməyi təkrar edib, kimsənədən cəvab almayub aqibət Ömər bin Sə'd Vəqqasa ayıtdı: "Ey əşcə'i-bəni-Qüreyş, bir müddətdir ki, mülki-Rey təmənnasındasan və diyari-Təbəristan istid'asında. İmdi mülki-Rey və diyari-Təbəristan hökumətin sənə verdim". Filhal mənşuri-əyalət tövqii-ixtitama yetüb təslim olunduqda bir xəl'əti-faxir dəxi geydirib və bir cənibi-bərqrəftar dəxi mülazimlərinə təslim etdirdi. Bu ən'amü ehsandan sonra ayıtdı: "Ey nəqdi-Sə'd Vəqqas, atan əkabiri-səhabədən olub şücaətdə məşhurü mə'ruf idi. Və hala Yezidin təhtilivayi-hökumətində əgərçi mö'təbər sərəfrazlər çoxdur, əmma səndən əşcə' və əqdəm mübariz yoxdur. Bənim səlahım budur ki, sən sipəhsalari-ləşkər olub, Hüseyn bin Əli üzərinə ləşkər çəküb andan Yezidin bey'ətin alasan. Və əgər qəbul etməzsə, anın və ətba'inin başların kəsib, bu canibə göndərib, bu xidməti kəndünə mövcibi-izdiyadi-rif'ət və baisi-təzayüdi-mənzilət biləsən".

Ömər Sə'd ayıtdı: "Ey Übeydullah, bu bir əmri-əzimdir və şüğli-vəhimdir. Təfəkkürsüz və təəmmülsüz şüru etmək olmaz. Bana möhlət ver, mənzilimə müraciət qılub, övladü ətba'imlə məşvərət edüb, nə məsləhətə qərar verirlər isə, gəlib ərz edəyim". Rüxsət hasil edüb, geydigi xəl'ətlə mərkəbi-cənibə binüb, Təbəristan və Rey mənşurun əlinə alub mənzilinə gəldikdə

[1] Ona veriləcək cavabım yoxdur. Ona əzab vacib oldu.



övladü ətba'i anı ol zinətlə görüb ayıtdılar: "Bu ən'amü iltifata səbəb nə vaqe' oldu ola?" İbn Sə'd ayıtdı: "Bu gün Übeydullahi-Ziyadın dəryayi-iltifatı təməvvücə gəlüb və nəsimi-atifəti mütəhərrik olub, bəni bu ən'amü ehsanla sərəfraz edüb sərəskər etdi, bu şərtlə kim, Hüseyn bin Əli Murtəzayla hərb edüb, ya daireyi-bey'ətə gətürəm və ya dərəceyi-şəhadətə yetürəm". Ulu oğlu ayıtdı: "Heyhat, heyhat, ey qafil, bu nə xəyali-qələt və əndişeyi-batildir?! Və nə sevdayi-bihudə və sə'yi bihasildir! Aya, bilməzmisən ki, ol cigərguşeyi-Zəhra və nuri-dideyi-Mustəfa və süruri-sineyi-Murtəzadır və sənin atan Sə'd Vəqqas nəqdi-canın anların yolunda sərf etdi və hala sən anın qəsdinə ləşkər çəkmək istərsən?! Və sən kəndü əlinlə üç məktub yazub, irsal edüb bu diyara anı də'vət etdin, hala ğədrlə qanın tökmək istərsən. Həqqa ki, müsəlmanam deyən bu əmrə irtikab etməz və də'vayi-İslam edəndən bu 'əməl zühura yetməz. Şe'r:

At ölür, don yırtılır, Rey mülkü eylər intiqal,
Leyk ta Məhşər qalur baqi vəbali-xuni-Al.

Bəlkə bu nikbətin əsəri Qiyamətədək övladına və ətbainə dəxi sirayət eyləmək müqərrərdir, zira mə'siyəti-ə'zəm və cinayəti-əkbərdir".

Ömər bin Sə'd anın sözündən münzəcir olub, yüz döndərib kiçik oğlundan nəsihət istədikdə ol həramzadə ayıtdı: "Ey baba, əgərçi qarındaşım dedigi sözlərin səhih olduğu zahirdir, əmma əmri-qayib olub, Übeydullahi-Ziyad etdigi ən'amü ehsan hazırdır. Heç aqil nəqdi nisyəyə verməz və qayibi hazırdan övla görməz".

Ömər Sə'd anın səlahın qəbul edüb və ol rə'yə qərar verüb, Übeydullahi-Ziyadın məclisinə gəlüb, izhari-riza qıldıqda, Übeydullah xoşhal olub, afərinlər oxuyub, filhal beş bin mübarizi-xunxar həmrah edüb Kərbəlaya rəvan etdi.

Rəvayətdir ki, Ömər Sə'd təhiyyeyi-əsbab edüb mütəvəccih olmaqda ikən Həmzə bin Müğeyrə ki, xahərzadəsiydi, ol müdbirin əzimətin görüb ayıtdı: "Ey bədbəxti-əzəlü əbəd, bu nə xəyali-fasiddir? Aya, İzədi-Cəbbar, Əhmədi-Muxtar və Heydəri-Kərrara rücu'in olmazmı və Ərəsati-Qiyamət yadına gəlməzmi?" İbn Sə'd ayıtdı: "Ey əziz, bən dəxi bilirəm ki, bu əndişeyi-nasaibdir, əmma zövqi-hökuməti-Rey və Təbəristan cəmi'i-təsəvvüratıma qalibdir". Həmzə ayıtdı: "Həqqa ki, hökuməti-təmamiyi-aləm ana dəgməz ki, dünyada bədnam olasan və axirətdə üqubət bulasan". Ömər Sə'd bu nəsihətdən bir miqdar mütəəssir olub, fəsxi-əzimətə əzm qılmış ikən yenə hübbi-cah və sevdayi-riyasət dideyi-bəsirətin ə'ma qılub, zəlalətdə yekcəhət olub ol sərəskəri-sipahi-şəyatin və sipəhsalari-ərbabi-kibrü kin ənhəsi-övqatda və ərzəli-saətdə sitareyi-nəhs kibi bürci-münqəlibi-Kufədən tülu' edüb dəşti-Kərbəlaya pərtövi-nühusət bıraxdı. Şe'r:

Aldı təşvişi-qüdumi rahət əhlindən firağ,
Urdu övzai-xiyami sineyi-səhraya dağ.

Və yetdigi saətdə təvəqqüf etməyüb, biədəbanə Həzrəti-Hüseynə bir məktub irsal etdi bu məzmunla ki: "Ey Hüseyn, bu diyara gəldigindən qərəz nədir?". Həzrəti-İmam cəvab

yazdı ki: "Bənim hüzuruma səbəb sizin naməlləriniz və izhari-iştiyağınız vaqe' oldu. Həqqa ki, bən bu canibə sizin səlahınız içün mütəvəccih oldum ki, məziqi-zəlalətdən fəzayi-nəcata rəhnümalıq edəm. Hala ki, cövhəri-iste'dadınıza əsəri-qəbuli-hidayət olmayıb, Müslim Əqilə ol cəfaləri rəva gördünüz, mə'lumum oldi. Niyyətim budur ki, darülmülki-Hicaza müraciət qılam, əgər mane' olmayasınız".

Ömər Sə'd təsəvvür edərdi ki, Hüseyni-Əli məhzən cidalü qital üçün bu diyarə gəlübdür. Bu cavabla xoşhal olub ayıtdı: "Şayəd sülhlə rəf'i-fəsad mümkün ola və Hüseyn ibn Əli kəndü diyarına müraciət qılub bu fitnə təskin bula". Pəs, vaqe olan sual və cavabı Übeydullaha ərz etdi. Ol müdbir cəvab yazdı ki: "Ey sipəhsalari-Kufə, Yezidin bey'ətin Hüseynə ərz et. Qəbul etməz olursa, bana e'lam edüb mütərəssidi-fərman ol".

İbn Sə'd ol məzmundan mühəqqəq bildi ki, Übeydullah sülhlə razı olmaz. Ol naməyi Həzrəti-İmam hüzurinə irsal edüb, Həzrəti-İmam ol məzmundan ibavü imtina' surətin göstərdikdə və keyfiyyəti-hal Übeydullaha ərz olunduqda ol müdbir qəzəbnak olub Həsin bin Təmir və Şis Rəbi'i və Şimri-Zilcövşəni on bin müfsidlə irsal edüb, əmr etdi ki, Hüseyni abi-Fəratdan mən' qılub bey'ət edənədək su verməyələr. İbn Sə'd ol əmrə ita'ət edüb, Ömər bin Həccacı beş yüz namərdlə rudi-Fərat zəbtinə tə'yin qılub, zülali-Fəratı ol dəryayi-fəzilətdən münqəte' etdilər.

Bu surət Məhərrəm ayının yeddinci günündə vaqe' oldu və həm ol gün Həzrəti-İmamın ləşkərində əsəri-tə'əttüş peyda olub, qüsuni-şəcəreyi-nübüvvət və rəyahini-rövzeyi-risalət qəhti-abdan pəjmürdə və hiddəti-'ətəşdən əfsürdə olmağın Əbbas bin Əli əlli nəfər səvarü piyada mübarizlərlə Fərata mütəvəccih olub, Ömər bin Həccacla müharibə edüb, qalib düşüb, kifayət miqdarı su gətirüb ləşkərgaha yetürdilər.

İkinci gecədə Həzrəti-İmam İbn Sə'də e'lam etdi ki, əgər səlah isə bir zəman mülaqat edəlim. İbn Sə'd ol səlahı qəbul edüb bə'zi mülazimlərlə ləşkərindən çıxub və Həzrəti-İmam [dəxi] Əbbas və Əli Əkbərlə müqabilə qılub ayıtdı: "Ey İbn Sə'd, atan Sə'd Vəqqasdan sənə vəsiyyət bumudur ki, ali-Əbu Süfyana tabe' olub, saqiyi-Səlsəbilü Kövsər övladına abi-rəvanı məsdud edüb, təskini-hərarətlərin zülali-şəmşiri-abdarə həvalə qılasan və fəcərəvü fəsəqə mülazimətin xanədani-nübüvvət təvəllasından övla biləsən? Ey İbn Sə'd, zəxarifi-dünyaya e'tibar olmaz və ərusi-bivəfayi-zəmanə kimsənəyə vəfa qılmaz. Həqqa ki, sənə izhar etdigim nəsayeh zimmətimdə mövdu' olan ləvazimati-əmri-mə'ruf və nəhyi-münkərdir. Yoxsa sənin müavinətin və müzahirətindən müstəğni olduğum müqərrərdir". Şe'r:

Biz bəla meydanına vəqf etmişiz can nəqdini,
Xah səndən qeyr bu meydana gəlsin, xah sən.
Bu nə layiqdir sənə kim, bunca əhli-zülmdən,
Olasan qəttali-övladi-Rəsulullah sən?!

Ömər Sə'd ayıtdı: "Ya İbn Rəsulullah, cəmi'i-buyurduğun həqq və sədiqdir. Əmma vəhmim andandır ki, mübaşiri-əmri-qital olmasam, Übeydullahi-Ziyad inadla Kufədə olan məqamü mənzilimi xərab edə". Həzrəti-İmam ayıtdı: "İmarəti-dünyaya nə e'tibar? Axirətdə sənin məqamına mütəkəffil olayım və dünyada dəxi sərayindən yeg mənazil Mədinədə səninçün müqərrər qılayım".



Ömər Sə'd ayıtdı: "Bənim Kufədə ziya' və əqarım çoxdur, təsərrüfümdən çıxar". Həzrəti-İmam ayıtdı: "Bənim Hicazda ziya' və əqarım var, anları sənə verəyim". Ömər Sə'din bəhanəsi münqəte' olub xəmuş oldu. Həzrəti-İmam gördü ki, qabili-nəsihət degil, dedi: "Ey zalim, bu əməldə təsəvvür etdigin muradına yetməyəcəksən". Filvaqe' öylə oldu. Əndək zamanda Muxtari-Əbu Übeydə çıxub ol müdbiri və oğlunu siyasətə yetirdi və nəcasətlərin yer yüzündən götürdü. Şe'r:

Zalimi sanma kim, murada yetər,
Zülm bünyadı üstüvar olmaz.
Bəhrəmənd eyləməz fəsad əhlin,
Məkr nəqşinə e'tibar olmaz.

Rəvayətdir ki, şəhzadə andan mə'yus mənzilinə müraciət etdikdə Bərir bin Həsin-Həmədani ki, əfzəli-zühhadi-əsrdi, İmamın icazətiylə nəsihət üçün ol gümrahın ləşkərinə gedüb, icazətsiz məclisinə girib, səlam verməyib oturdu. İbn Sə'd ol halətdən mütəəccüb olub ayıtdı: "Ey əziz, nə mane' oldu ki, səlam vermədin?". Bərir ayıtdı: "Səlam müsəlmanlara məxsusdur". İbn Sə'd ayıtdı: "Məgər bən müsəlman deyiləm?" Bərur ayıtdı: "Hədisi-Mustəfəvidir ki, "Əl-muslimu mən səliməl-muslimunə min yədihi və lisanihi"[1]. Və sən Həzrəti-Rəsul övladını abi-Fəratdan mən' edüb daiyə qılmışsan ki, hərb edüb qətl edəsən. Bu təqdirlə İslaminə hökm olunurmu?" İbn Sə'd ayıtdı: "Bən dəxi bilirəm ki, övladi-Rəsulla hərb edən müstəhəqqiəzabi-əlim və müstəiddi-iqabi-cəhim olur. Əmma tərki-hökuməti-Rey və Təbəristan edə bilməzəm". Bərir ol bədbəxtdən novmid olub məclisindən çıxdı. Qit'ə:

Hər bixirəd ki, fisqü fəsad ilə dutdu xu,
Olmaz hədisi-əhli-xirəd kargər ana.
Zatında hər şəqi ki, Zühəl kibi nəhsdir,
Bin Müştəri sə'adəti etməz əsər ana.

Rəvayətdir ki, Şimri-Zilcövşəni-şəqi ol əhvala vaqif oludqda filhal Kufəyə rəvan olub Übeydullahi-Ziyada ərz etdi ki, Hüseynlə Ömər Sə'd arasında ixtilat olub gecələr mücalisət edərlər, bilməzəm nə tədarükdədir. Übeydullahi-Ziyadın ol xəbərdən qəzəbi tüğyan edüb Ömər Sə'də bir namə yazdı bu məzmunla ki: "Bən səni müharibət üçün göndərmişəm, müsahibət içün göndərməmişəm. Bilirəm ki, sən bu əmri-xətirin öhdəsindən çıxmazsan. Təbəristan və Rey mənşurin Şimri-Zilcövşənə təslim et".

Ömər Sə'd ol namədən mütəəssir olub, ol cəfakari-bədkirdarın atəşi-fəsadı Übeydullahın dəmi-sərdindən zəbanə çəküb, müharibə və müqatiləyə yekcəhət olub, pərdeyi-mühabavü müvasa aradan götürdü. Rəvayətdir ki, Məhərrəmin səkkizinci günündə ləşkəri-İslamda asari-tə'əttüş zahir olub ol, çeşmeyi-həyata ərz olunduqda ol Həzrət işarət etdi, bir mövze'i həfr etdilər. Bir çeşmeyi-zülal çıxub cəmi'i-ləşkər sirab olduqdan sonra yenə pünhan oldu və bu

[1] Müsəlman olan o kişidir ki, dilindən və əlindən müsəlmanlar salamatdır.

xəbər dəxi Übeydullaha irişib, ol zalım təhdidlə Ömər Sə'də e'lam etdi ki: "İstima' olunur ki, Hüseynə badiyədə həfri-abyar edüb fərağat rüxsətin vermişsən. Bu qəziyyə namaqbuldur, gərəkdir ki, əhvalına müzayiqə verib təmkini-rahət verməyəsən". Həm ol saat Məhəmməd Əş'əsi dört bin mübarizlə və anın əqəbincə Qeys bin Əxməsi iki bin namərdlə və ana mütəaqib Həccac bin Hərəzi bin mübarizlə irsal edüb, on altı bin mübariz cəm' oldular. Ol hücumu görüb Həbib bin Müzahir ayıtdı: "Ya İbn Rəsulullah, qəbileyi-Əsəd bu qürbdədir. Əgər icazət olursa, varub anları təriqi-hidayətə irşad etmək olur, zira ol tayifədə mərtəbeyi-şəhadət talibi olanlar çoxdur, əmma bu [mə'rəkədən] xəbərləri yoxdur".

Əlqissə, şərəfi-icazət hasil edüb ol qəbiləyə varub nida qıldı ki: "Ey sə'adəti-şəhadətə müştaq olanlar, və ey dövləti-baqi istid'a qılanlar!" Şe'r:

Şəhbazi-aşiyani-vilayət həlakinə,
Səhrayi-Kərbəlada hücum eyləmiş qürab.
Şiri-şikargahi-ğəzadan hücum edib,
Əzmi-Fərat şəhdini mən' eyləmiş kilab.

Rəvayətdir ki, ol tayifədən doqsan şuca'i-namdar və mübarizi-kinəgüzar [İbnül-Bəşiri kəndülərinə sərdarü] sərxeyl edüb, mükəmməl və müsəllah Həbibi-Müzahirlə Həzrəti-İmam hüzurinə mütəvəccih oldular. Ömər Sə'd ol əhvalı mə'lum edüb, Əzrəqi-Şamiyi dört bin namərdlə yollar mühafizəsinə irsal etmişdi. Fərat kənarında bir-birinə mülhəq oldular. Ol mücahidlər dəxi anlardan dönməyüb, bünyadi-cidalü qital edüb, ol müsəlmanların bə'zi məqtul olub, bə'zi məhzum, canibi-Kərbəlaya yol bulmayub, kəndü qəbilələrinə müraci'ət qıldılar.

Həbibi-Müzahir mə'yus və məhrum Həzrəti-İmama mülhəq olub surəti-əhval ərz etdi. Übeydullahi-Ziyad ol hala dəxi müttəle' olub Ömər Sə'də qəzəbamiz bir məktub irsal etdi ki, "Eşitdim ki, Hüseynə möhlət vermişsən qəbayilə namələr göndərib ləşkər cəm' etməgə. Həqqa ki, namə yetdikdə ibtidai-hərb edüb anın əmrin sərəncam etməyəcək olsan, sənə və cəm'ii-hüzurində olanlara siyasətlərim toxunur".

Heyni-vüsuli-namə əgərçi axiri-ruz olub qürubi-afitaba qərib idi, sabahadək səbr etməyüb, siyasətdən ehtiraz edüb, İbn Sə'd təmamiyi-ləşkərin mürəttəb edüb mütəvəccihi-hərb oldular. Şe'r:

Məhçeyi-rayət oldu gərdunsay,
Ərşə çıxdı sədayi-naleyi-nay.
Səf çəküb ləşkəri-müxalifi-din,
Lövhi-xətti-ğəm oldu ruyi-zəmin.
Əxtəri-ruzgərdi-ləşkəri-Şam
Səfheyi-afitaba saldı zəlam.

İttifaqən ol gün Məhərrəm ayının doqquzuncu günü idi və Həzrəti-İmam ol vəqt məsnədi-asayişdə idi. Naleyi-nay və növhəyi-nəfirdən bidar olub Əbbasa əmr etdi ki, anlara müqabil durub həqiqəti-hal mə'lum edə. Əbbas igirmi mübarizlə anlara istiqbal edüb, hərb üçün gəl-



diklərin mə'lum qılub Həzrəti-İmama xəbər yetürdükdə Həzrəti-İmam buyurdu ki, ey Əbbas, bu cəmaətdən bu gecə möhlət istəyib döndərə gör, zira bu gecə cüm'ə gecəsidir və intihayi-əyyami-ömrümüz mərasimi-taətü ibadətə iştiğal edəlim. Sabah olduqda hər nə səlah isə, əməl oluna.

Əbbas ol ləşkərə müqabil durub nida qıldı ki, ey müsəlmanlar, cigərguşeyi-Rəsulullah sizdən bu gecə möhlət istər. İbn Sə'd ümərayi-ləşkərinə məşvərət qılub, möhlətə səlah görməyüb dedilər: "Sizə aman yoxdur". Əbbas ayıtdı: "Ey birəhmlər, bu nə zülmi-sərihdir ki, nəqdi-Rəsulullaha bu gecə möhlət verməyəsiz?! Və ey bədbəxtlər, bu nə zülmi-sərih və əmri-qəbihdir ki, cəm'ii-ömrünüzdə Həq rizasinə girməyəsiz?! Həqqa ki, əgər şəhsüvari-meydani-vilayətdən sibqəti-hərbə rüxsət alsaydım və sultani-səriri-imamətdən təqəddümi-rəzmə icazət bulsaydım, zəbani-tiğ ilə cəvabınız verərdim".

Əlqissə, ləşkər ol mükalimədən həya qılub, müharibə əmrində tə'əllül edüb, bizzərurə rüəsayi-ləşkərə dəxi müraciət lazım gəlüb, qəziyyeyi-hərb ol gecə mövquf oldu. Əmma Həzrəti-İmam cəm'ii-əshabü əhbabın cəm' edüb buyurdu ki, orduyi-şərifin bir tərəfindən rəhgüzari-hərb üçün yol qoyub, baqi ətrafına xəndəq məhfur edüb xarü xaşakla doldurub od uralar ki, ibtali-mə'rəkeyi-cidalü qitala məşğul ikən müxəddərati-süradiqi-'ismət müxaliflərdən mütəhəssin olalar.

Ol atəşin şö'ləsi zəbanə çəkdikdə Malik bin Ürvə ki, əşəddi-əhli-nifaqdı, mərkəbinə binüb, cövlan qılub nə'rə urdu ki, "ey Hüseyn, atəşi-duzəxdən müqəddəm kəndüni atəşi-dünyaya yaqdın". Hüseyn ayıtdı: "Kəzəbtə ya əduvvəllah"[1]. Güman edərmisən ki, bən duzəxə girib, sən əhli-behişt olasan?". Müslimi-Əvsəcə ayıtdı: "Ya İbn Rəsulullah, icazətin olsa, bir xədəngi-zəhrəşikafla bu məl'una duzəxi göstərmək olur". Hüseyn ayıtdı: "Ya Müslim, istəməm ki, bənim ləşkərimdən ibtidayi-hərb ola. Əmma təmaşa qıl ki, bu məl'un qəhri-İlahiyə necə giriftar olur?" Pəs, ol saliki-rahi-həqiqət yüzün dərgahi-biniyaza dutub ayıtdı: "Əllahummə cirrəhu ilən-nar"[2], yə'ni "İlahi, bu məl'unu silsileyi-üqubətlə atəşi-suzanə çək". Filhal "Də'vətü'l-məzlumi mustəcabətun"[3] müqtəzasincə ol məl'unun mərkəbi ixtiyarsız anı alub, Həzrəti-İmamın ləşkərinə mütəvəccih olub, xəndəqə yetdikdə iltihabi-nairədən rəm qılub ol məl'unu atəşi-suzana buraxdı və ol halətə iki ləşkər təmaşa qıldılar.

Həzrəti-İmam səcdeyi-şükr edib, duaya məşğul olub derdi ki: "Ya Rəb, zürriyyəti-Əhli-Beyti-Rəsuləm və yetimü məzlumi-Bətuləm. Sən dadımı bu zalimlərdən alasan". Məhəmməd Əş'əsi-Kufi nə'rə urdu ki, ey Hüseyn, sənə Peyğəmbərin nənisbəti var ki, anda laf edərsən? Hüseyn ayıtdı: "Ya Rəb, ibni Əş'əs nəsəbim qət' edər, istərəm ki, bu gün cəzasın verəsən". Hənuz dua təmam olmadın ol məl'unun bətni-napakində bir təqaza olub mərkəbindən yerə endi ki, tədarüki-əhval edə. Əvrətinə bir əqrəb niş urub, nəcasət içrə dolanub, məkşufül'əvrə can tapşurdı.

Həm ol zəman Cə'də Qərani müqabilə gəlüb avaz yetürdi ki, ey Hüseyn, zülali-Fərat ki, dəryasifət təməvvücdədir, həqqa ki, sənə və ətba'una andan bir qətrə su verilməz, ta təşnələb

[1] Ey Tanrının düşməni, yalan söylədin.
[2] Tanrım, onu atəşə çək.
[3] Məzlumun duası qəbul olunur.

həlak olasuz. Həzrəti-Hüseyn giryan olub dua qıldı: "Əllahummə əmithu ətşanən"[1]. Filhal ol məl'unun mərkəbi bivasitə rəm qılub anı buraxub, ol məl'un piyadə hər canib yügürüb "Əl-'ətşu, [əl-'ətşu]"[2] derdi və hər nə qədər su verirlərdi, içə bilməyüb xüşkləb can tapşurdı. Və ləşkəri-Yezid ol kəramətləri görürlərdi, əmma faidə qılmazdı və ayineyi-etiqadlarından bu seyqəllərlə jəngi-küdurət açılmazdı. Şe'r:

Pak etməgə ərbabi-xəta səfheyi-qəlbin,
İzhari-kəramət qılur əhli-nəzər, əmma
Zalimlərə izhari-kəramət əsər etməz,
Qılmaz dili-Fir'anu münəvvər Yədi-Beyza.

Bu kəramətlərdən sonra Həzrəti-Sultani-Kərbəla cəm'ii-ixvanü övladü ənsabın cəm' edüb, bir kürsi nəsb qılub, üzərinə çıxub bir xütbə ağaz etdi bu məzmunla ki: "Şərayifi-sipasibiqiyas ol müdəbbiri-biniyaza ki, məzmuni-kitabeyi-eyvani-bargahi-qürbi əsrari-möhnətü müsibətbəyandır. Şe'r:

Ol nəsəqbəxşi-ümuri-kargahi-sün' kim,
Şəhdi-lütfi möhnətamizü bəlaəngizdir,
Cuybari-gülşəni-ehsanı tiği-abdar,
Səbzeyi-gülzari-qürbi xəncəri-xunrizdir.

Və lətayifi-həmdi-bihəd ol mə'şuqi-aşiqgüdaza ki, hilyeyi-sərapərdeyi-hərimi-qürbi-qəbulu məhrəmlər və müqərrəblər qanıdır. Şe'r:

Zəhi sultani-müstəğni ki, cami-iltifatından,
Nəsibi-əhli-təslimü təvəkkül zəhri-qatildir.
Kəmali-iltifatı qayəti-qəhrindədir müzmər,
Cəfasindən tənəffür qılmayan lütfinə qabildir.

Və dürudi-namə'dud ol əşrəfi-kainata ki, süllləmi-ehtimali-məsaib payeyi-qədrin dərəceyi-Me'raca yetürmüş və təcərrö'i-zəhri-bəla təb'i-səlimi-müstəqiminə nişaneyi-tövfiqi-təqərrüb vermiş. Şe'r:

Ol şəhi-mə'mureyi-ənduhü iqlimi-bəla,
Kim diyari-dərd tə'mirində sərf etmiş həyat,
Salmamış viraneyi-dünyaya zilli-e'tiqad,
Açmamış cəm'iyyəti-əsbaba çeşmi-iltifat.

[1] Tanrım, onu suya təşnə ikən öldür.
[2] Susadım, susadım.



Şəraiti-həmdü sənadan sonra buyurdu ki: "Ey daireyi-mütabi'ətimdə və hövzeyi-intisabimdə olan vəfadarlar. "Cəzakumul-lahu xəyrən"[1]. Sizdən xoşnudam. Təriqi-mürafiqətimdə təqsir etmədiniz və daireyi-mütabi'ətimdən təriqi-müxalifət tutmadınız. Hala istəmən ki, naireyi-möhnətimdən sizə şərarəti-məzərrət irə və sərsəri-müsibətimdən gulzari-cəmiyyətiniz xəzani-təfriqə görə. Və bənim bu gecə bu cəfapişələrdən möhlət istədigimdən qərəz həlaveyi-həyatımdan istifayi-təməttö' etmək degil, bəlkə məqsudum budur ki, çün şahidi-tövfiqişəhadət pərdeyi-xəfada ikən ərzi-cəmal etdi və nihali-həyati-müstə'arım bərgriz olmağa və'də yetdi. Şe'r:

Gəldi ol dəm ki, fəna pərdəsin çak qılam,
Bəzmi-vəhdətdə bəqa ləzzətin idrak qılam.

Və bilürəm ki, bu tayifənin məqsudləri bənəm və bana zəfər bulduqdan sonra sizə iltifat etməzlər. Səlah oldur ki, bu gecə fürsət var ikən güruh-güruh ətrafü cəvanibə pərişan olasuz və qərqeyi-tüfani-bəla olmadan bir nəcat bulasuz. Şe'r:

Çıxmadan dəsti-iəsərrüfatdan 'inani-ixtiyar,
Fikr edüb möhnətdə tədbiri-nəcat etmək gərək.
Hadisati-dəhrdən qafil gərəkməz adəmi,
Surəti-halinə hər kim iltifat etmək gərək.

Bu kəlimatı eşitdikdə alü ətba'ü əşya'indən fəryadü fəğan fələki-dəvvarə çıxub ittifaqla ayıtdılar: "Ey xazini-gəncineyi-əsrari-hikmət və ey kaşifi-rümuzi-vilayət, haşa ki, xaki-payinə nəqdi-can nisar olmadan dövləti-mülazimətindən müfariqət mümkün ola və və'dəgahibəlada xəl'əti gülrəngi-şəhadət geymədən bu mə'rəkədən çıxmaq surəti-ehtimal bula!" Şe'r:

Biz ibtidayi-xilqətü ağazi-ömrdən,
Nəzri-nisarın eyləmişüz nəqdi-canımız.
Mümkün degil mülazimətindən müfariqət,
Ta səfheyi-vücudda vardır nişanımız.

Həzrəti-İmam təriqi-vəfada anları sabitqədəm görüb, dua qılub Müslimi-Əqil övladinə ayıtdı: "Ey əzizlər, biz Kufə xəlqinin məva'idi-kaziblərinə e'timad edüb, Müslimi ol diyara irsal etdik və ol müfsidlər təriqi-müxalifət dutub ol məzlumu şəhid etdilər. Hala səlah oldur ki, siz validənüz alub Bəni-Təyy qəbiləsinə varub andan mütəvəccihi-Mədinə olasuz ki, xanədanınız münhədim və mün'ədim olmaya". Övladi-Müslim bu kəlimati-cangüdazdan xüruşa gəlüb ayıtdılar: "Haşa ki, xidmətindən müba'idət ixtiyar edəyüz! Ya Hüseyn, iltiması-

[1] Allah sizə yaxşılıq versin.

mız budur ki, babamız və qarındaşlarımız müqəddəmeyi-ləşkəri-şəhid olduği kibi bizə dəxi bu sə'adət müyəssər ola". Şe'r:

Çün bəqa mülkindədir cəm'iyyəti-əhli-vəfa,
Ruyi-dil ol məqsədi-ə'laya döndərmək gərək.
Neylərüz heyranü sərgərdan qalub, himmət dutub,
Dari-dünyadan 'inan üqbaya döndərmək gərək.

Həzrəti-İmam anlara dəxi dua qılub cəm'ii-əshabına rüxsət verdi ki, varub ta'ətü ibadətə iştiğal edələr. Və kəndü dəxi sə'adətsərayinə mütəvəccih olub ibadətə məşğul oldu.



## ONUNCU BAB

## HƏZRƏTİ-İMAM HÜSEYNİN LƏŞKƏRİ-YEZİDLƏ MÜHARİBƏSİN BƏYAN EDƏR VƏ OL İKİ FƏSLDÜR

*Fəsli-əvvəl:*

### ŞƏHADƏTİ-HÜRR VƏ BƏ'Zİ ŞÜHƏDA

Çün müttəfiqi-əleyhi-ərbabi-'üqul və mö'təqidi-əshabi-qəbul oldur ki, ədl ümuri-mütəvəssiti-mütəsaviut-tərəfeyndən ibarətdür və cövr ifratü təfritdən bir kinayətdür, lacərəm təriqi-əməldən hər üdula iki cövr mülazim olur. Bu səbəbdən qilləti-ədl və kəsrəti-cövr lazım gəlməgin əksəri-xəlqi-cəhan ərbabi-fitnəvü fəsad olub, əqəlli-əhli-zəman əshabi-səlahü sədaddır. Şe'r:

Ümuri-mərtəbeyi-ədldir təvəssüti-hal,
Üduli mövcibi-ifratü baisi-təfrit.
Səbəb budur ki, olub 'ədl cövr məğlubi,
Həmişə fitnədən olmaz bəri büsati-bəsit.

Hər ayinə sultani-təbiət müstəxdimi-əsnafi-cövr olmağın və şəhriyari-əql iqtibasi-ənvari-ədl qılmağın peyvəstə biri-birinə münaze'dir və münaziəti cəm'iyyəti-əsbabi-nizamü intizama mane'dir. Şe'r:

Təbiət talibi-zövqü tərəbdir,
Təriqi-əql qanuni-ədəbdir.
Təbiətdir məzidi-rif'ətü cah,
Muradi-əql tərki-masivallah.

İlahi, pərtövi-inayətindən ianət istid'a qılınur ol dəm ki, sultani-təbiət diyari-bədəndə sipahi-rəzilət cəm' edüb, əsləheyi-mənahi və məlahi mürəttəb qılub, şəhriyari-əqlin ləşkəri-sidqü səlahın mütəfərriq edüb məğlub qıla. Və əsəri-mərhəmətindən müavinət iltimas olunur ol saət ki, mülki-təndə istilayi-hücumi-ləşkəri-həvadan məliki-ruh müztərib və mütəhəyyir qala. Nətə ki, təğəllübü tüğyani-ləşkəri-Yezidi-pürcəfadan şəhidi-badiyeyi-Kərbəla və hücumi-hümumi-ə'dadan Hüseyn bin Əliyyi-Murtəza. Şe'r:

Surəti-təhrirə gəlməz olsa dəryalar midad,
Şərhi-bidadü bəlayi-rəzmgahi-Kərbəla.
Kərbəlada həsr olub aləmdə hər möhnət ki, var,
Bənd qılmışdır təriqi-səbri Şahi-Kərbəla.

Raviyi-rəvayəti-cigərsuz və naqili-hekayəti-qəmənduz bu tərzlə tərtibi-süfufi-mə'rəkəyə kəlam vermiş və bu tərzlə silsileyi-rəvayəti təhrikə gətirmiş ki, çün şəbi-Aşura Həzrəti-Sultani-Kərbəla ləşkəri-ə'dadan tətmimi-şəraiti-ibadət və təğdimi-mərasimi-üzri-əshabi-ita'ət üçün möhlət tələb qılub və ol istid'a icabətə yetüb, əndişeyi-hərbdən filcümlə fariğ olub, təvabe' və ləvahiqlə ibadətə iştiğal etdi və sabahadək zükurü ünasdan zəmzəmeyi-təkbirü təhlil səvame'i-mələkuta yetdi. Ol gecə sükkani-süradiqi-ülvi mütəğəyyirül-əhval olub və ümmali-əvalimi-süfli heyrət və dəhşətdə qalub fələk şərmsar idi ki, aya, bu nə tədbiri-nasəvabdı və zəmin müztəribü biqərar idi ki, aya, bu nə bidadi-bihesabdı? Sitarə tə'sirü tədbirdən aciz olmaz, bəlkə dideyi-bidar açub mütəhəyyir qalmış, ərusi-aləm libasi-matəm geyüb xəvatini-hərəmsərayi-ismət üçün matəmdə idi və xosrovi-əncüm matəmkədeyi-zülümatə girüb şühəda üçün qəmü ələmdə idi. Şe'r:

Asiman açmışdı əbvabi-məlal,
Əxtəri-iqbala yetmişdi vəbal.
Fövt olub sərrişteyi-tədbiri-kar,
Müztərib qalmışdı dövri-ruzigar.
Münfə'il dövran müxalif dövrdən,
Münzəcir aləm müşəvvəş tövrdən.

Əgərçi Məsiha daməni-xurşidi dutub tülu'indən mən' edərdi ki, əşi'eyi-ənvar şəhidi-Kərbəlaya sihami-bəla olmaya və gərdun səhər əbvabın məsdud etmişdi ki, sübhi-kazibin dəmisərdindən Şahi-Kərbəlanun şəm'i-həyatı intifa bulmaya, əmma iqtizayi-iqbali-şəhadət sür'ətidövrana isti'cal edüb, təli'eyi-sübhi-sadiq canibi-məşriqdən hüveyda oldu. Rəvayətdir ki, ol dəm asimandan bir nida gəldi ki, "Ya xəlilullah ədrukni"[1] və ol sədadan Ümm Külsüm müztərib olub, tə'cillə Həzrəti-İmamın mənzilinə gəlib ayıtdı: "Ey bəradəri-əziz, bu sədadan vaqif oldunmu?". Hüseyn ayıtdı: "Bən vaqif oldum. Hala Həzrəti-Rəsulu vaqi'əmdə gördüm. Ol həzrət bana müjdeyi-şəhadət verüb buyurdu ki: "Ey Hüseyn, səvakini-aləmi-bala və zümreyi-məlai-ə'la ərvahi-müqəddəseyi-ənbiyayla istiqbali-ruhi-şərifin qılub intizarindədür. Cəhd et ki, bu gecə hüzurumuzda iftar edəsən". Və bu hala müqarin bir firiştə gördüm əlində bir şişə. Dedim: "Ya Rəsulullah, bu firiştə əlində bu şişə nədir?" Buyurdu ki: "Ya Hüseyn, bu firiştə mə'murdur ki, zalimlər sənin qanın tökdükdə bu şişəyə doldurub asimana ilətə". Ümm Külsüm ol halətə giryan olub, Hüseyn ayıtdı: "Ey məzlumə, əhli-beytimi hazır et ki, həngami-vida'dır". Şe'r:

Əlvida', ey dustlar kim, gəldi həngami-səfər,
Ərş pərvazinə mürği-ruhum açdı balü pər.
Yusifi-Misri-qəbuləm, çəkməz oldum həbsi-tən,
Eylədim zindani-təngi-dəhrdən qət'i-nəzər.
Necə ehmal eyləyəm mülki-bəqa əzmində kim,
Şəm'i-ömrüm eylədi izhari-asari-səhər.

[1] Ey Tanrının sevgili qulu, imdadıma yetiş!





Müztəribdir şövqi-təşrifimdə Şahi-Övliya,
Müntəzirdir ləzzəti-didarimə Xeyrül-Bəşər.

Əlqissə, müxəddərati-sərapərdeyi-təharət və rəyahini-riyazi-vilayət hazır olub, Həzrəti-İmam anları bir-bir bağrına basub, vida' edüb derdi ki, ey məzlumlar, aya, badiyeyi-qürbətdə bu zalimlər içində əhvalınız nola və əvaqibiniz nə surət bula?" Şe'r:

Dərda ki, rəhgüzari-həvadisdə uğradı
Bidad girdbadinə şəm'i-cəmalınız,
Ey mə'dəni-təharətü ismət gühərləri,
Ya Rəb, nə ola xaki-məzəllətdə halınız?

Bir tərəfdən Şəhrbanu giribani-təhəmmül çak edüb derdi ki: "Ey biçarələr qəmxarı və ey şikəstələr qəmküsarı! Bu şahzadələri yetim qoyub, kimin öhdəsində buraxıb gedərsən və bu əmanətləri kimə təslim edərsən?" Şe'r:

Hiç kim, ya Rəb, bana manənd məhzun olmasun,
Surəti-hali-həvadisdən digərgun olmasun!
Bir yana ənduhi-qürbət, bir yana hicrani-dust,
Necə dil püriztirabü didə pürxun olmasun?!

Və bir tərəfdən Ümm Külsüm naxuni-ənduhla rüxsareyi-gülgünün parə-parə qılub növhə qılurdı ki: "Ey çirağı-xanədani-risalət və ey şəm'i-şəbistani-imamət! Əliyyi-Mürtəza mütəvəccihi-rövzeyi-rizvan olduqda atəşi-fəraqına mövcibi-təskin olan Həsəni-Müctəba idi. Və ol Həzrət intiqal etdikdə sənin sayeyi-atifətin bizə mə'məni-riza idi. Aya, səndən sonra məhrəmimiz kim ola və xatirimiz kiminlə təsəlli bula? Şe'r:

Bu müsibət qəfləti-mövt ilə asandır bana
Kim, qılur gərduni-gərdan canımı təndən cüda.
Bu müsibət andan əfzundur təəmmül eyləsən

Kim, bəni səndən cüda eylər, səni bəndən cüda.
Və gahi bu sürudla növhə bünyad edərdi. Şe'r:

Çərxi-zalim aqibət mülkin xərab eylər, diriğ!
Əmri-naməqbulü fikri-nasəvab eylər, diriğ!
Zülməti-hicran ilə tarik edüb aləmləri,
Əbri-bidadi niqabi-afitab eylər, diriğ!

Bu müsibətdə ikən əsəri-sübh peyda olub, Həzrəti-İmam afitabvar hərəmsəradan mütəvəccihi-səhra olub, təyəmmüm qılub cəmaətlə nəmaza məşğul oldu.

Rəvayətdir ki, əvradi-nəmaz ixtitama yetmədən və Həzrəti-İmam duayi-namazı təmam etmədən mə'siyət sərməstlərindən sədayi-cuşü xürüş qübbeyi-əflaka çıxub və bişeyi-bid'ət bəhayimindən sədəmati-əsvati-namülayim guşi-gərduni kər qılub, naleyi-nayi-rəzmi və sədayi-kusi-hərbi mübarizlərə səlayi-hərb urub, zalimlər ərseyi-Kərbəlaya ələmlər yürütdülər və sipahi-zəlalət föve-föve səvarü piyadə mütəvəccihi-meydan olub, ğübari-tirədən ayineyi-ruyi-zəmini mükəddər etdilər. İbn Sə'di-səfih tə'biyeyi-səfi-sipah edüb, meyməneyi-naməysuri Ömər bin Həccaca müsəlləm edüb, meysəreyi-nameysuri Şimri-Zilcövşənə namizəd qılub, kəndü qəlbi-sipah oldu. Şe'r:

Zəhi bədbəxt kim, kəsbi-şəqavət ixtiyar etdi,
Özün dünya üçün bədnami-ruyi-ruzigar etdi.
Zəhi-müdbir ki, məğlubu olub aləmdə şeytanın,
Fəsad etməkdə insanı mələkdən şərmsar etdi.

Və bir canibdən dəxi meydani-mücahidət cansiparləri və ərseyi-şəhadət vəfadarləri ol cuşü xüruşdan mütənəbbeh olub, bəlkə bəzmi-bəlada ol təranələrdən zövqlər bulub, bir-bir nə'reyi-məstanə və xüruşi-mərdanə ilə künyətlər verub ol sultani-mülkastanın astaninə gəldilər və rüxsəti-meydan bulub təsbihü təhlillə ərseyi-karzara mütəvəccih oldular. Və Həzrəti-İmam dəxi kəsrəti-sipahi-ə'dadan mütəvəhhim olmayub və qilləti-əhibbadan təğəyyür bulmayub, fərqi-mübarəkin əmameyi-Rəsulla müzəyyən və bədəni-lətifin dürraeyi-risalət birlə mürəttəb qılub, Rəsul Həzrətlərinin Fəriha nam mərkəbin rikabi-hümayuna çəküb və şəmşiri-zəfərməasirin həmayil edüb, cövlan edərək səfi-sipaha gəldi və sipahi-səfərpənaha tərtib verüb, məyməneyi-meymuni Züheyr bin Mücəllaya rucu' edüb, meysəreyi-meysuri Həbib bin Müzahirə müqərrər qılub, rayəti-fəthayəti Əbbas bin Əliyyi-Murtəzaya tapşırub, kəndü bizzat iman kibi mö'minlərin qəlbində qərar dutub şəhadətə müntəzir oldu.

Ol gün ərusi-xəlvətsəray üfüqi-matəmkədeyi-dünyaya xəraşidəruy və pərişanmuy çıxdı və piri-sipehri-xəmidəqamət təriqi-tə'ziyət dutub daməni-libasi-nilgunə çaklər bıraxdı və əbkari-ancüm tabi-nəzzareyi-məsaibi-xəvatini-hərəmsərayi-nübüvvət gətürməyüb pərdeyi-hicaba girdi və nəsimi-səhər şühəda üçün dəmadəm ahi-sərd çəküb məzaci-kainata küdurət gətirdi. Rizvan riyazi-cinana zinət verdi ki, ruhi-şəhidi-Kərbəla mehman olur və hura dideyi-iştiyaq açub mütərəssid oldu ki, nuri-dideyi-Zəhra gəlür. Şe'r:

Çıxdı gün, ya sineyi-gərduna urdu tazə dağ
Bərqi-ənduhi-dili-övladi-Xeyrül-mürsəlin?
Sübh pərtöv saldı, ya məzlumlar halın görüb,
Qüssədən bimar olub zərd oldu rüxsari-zəmin?!

Rəvayətdir ki, iki canibdən süfufi-müharibə mürəttəb olduqda və keyfiyyəti-həqqü batil və küfrü iman imtiyaz bulduqda Həzrəti-Sultani-Kərbəla səfi-sipahindən çıxub, ol bisəadətlərə müqabil durub səlabətü sövlətlə bu beyti inşa qıldı. Şe'r:



Ənəbnə nəbiyyə't-tuhri min ali-Haşım,
Kəfani bi-haza məfxəri hinə əfxəru[1].

Yə'ni bən fərzəndi-Rəsuli-Xudayam və nütfeyi-sərvəri-ənbiyayam. İftixar etdikdə bana bu fəxr kifayət edər və mübahat qıldıqda bana təfaxür bu yetər. "Ey qövmi-birəhm, başımdakı əmmamə və belimdəki tiğ və əgnimdəki dürra'ə və rikabımdakı mərkəb Həzrəti-Rəsullullahındır. Və bən varisi-elmi-Rəsulam və nuri-dideyi-Bətulam. Hərgiz kizbü gəzafa iqdam etməmişəm və mütləq təriqi-müxalifəti-Xuda və Rəsul dutmamışam. Mədinədə mücaviri-rövzeyi-Rəsul ikən bana təmkin vermədiniz və Məkkədə mö'təkifi-zaviyeyi-qənaət olduğumu rəva görmədiniz. Həqqa ki, bana məkatibü mərasil irsal edüb, üzərimə hüccətlər bıraxub bu diyara siz gətirdiniz və bu fitnəyi təhriki-səlasili-əsbabla siz bu məqama yetirdiniz. Ey Ömər bin Sə'd, vey Ömər bin Həccac, vey Şis bin Rəbi'i, bu nə qəddarlıqdır, və ey Sinan bin Ənəs, və ey Şimri-Zilcövşən, bu nə məkkarlıqdır?" Şe'r:

Məkr bünyadı üstüvar olmaz,
Hiylə asarı paydar olmaz.

Ol cəmaət ittifaqla inkar etdilər. Həzrəti-İmam məktubların hazır edüb, anlara hüccəti-təmam etdikdən sonra ol məktubları oda yaxdırdı. Aqibət, Ömər bin Sə'd müqabilinə gəlüb ayıtdı: "Ey Hüseyn, bu hekayətlər nəticə verməz. Ya Yezidin bey'ətin qəbul etmək gərəksən, ya tərki-həyat eyləmək". Bu sözü deyüb, bir navəki-dilduz əlinə alub ayıtdı: "Ey əhli-Kufə, güvah olun və Übeydullah hüzurunda şəhadət verin ki, ibtidai-hərbi-Hüseyn bəndən oldu". Və ol navək canibi-Hüseynə rəvan qıldı.

Həzrəti-Hüseyn məhasini-şərifin əlinə alub ayıtdı: "Ey qövm, qəzəbi-Rəbbani Yəhuda ol zəman iştidad buldu ki, "Uzeyr ibnullah"[2] dedilər və qəhri-İlahi Nəsaraya ol gün nazil oldu ki, "Məsihu'bnullah"[3] dedilər və sixəti-Sübhani sizə hala müqərrər oldu ki, qəsdi-Ali Rəsul etdiniz. Həqqa ki, sizün bədəninüzdə hər səri-mu bir xəncəri-abdar olsa, "Və 'sabir və məsbrukə illa billahi"[4] dairəsindən inhiraf etməzəm və hər fərdiniz qəsdimə bir ləşkəri-kinəgüzar olsa, "İnnə'llahə yuhibbu's-sabirinə"[5] mərtəbəsinin tərkin tutmazam".

Rəvayətdir ki, ləşkəri-Yezid, ibn Sə'din iqdamın gördükdə ana iqtida qılub, Həzrəti-İmama bir mərtəbə tirbaran etdilər ki, pəri-üqabdan çeşmeyi-afitab tutuldu və zəxmi-peykani-abdardan ruyi-zəmin məsabeyi-ğərbal oldu. Həzrəti-İmam ol hücumdan səfi-sipaha müraciət qılub əshabü əhbabinə ayıtdı: "Ey vəfadarlar və cansiparlar, müstəid olun və təhiyyeyi-əsbabi-səfər qılun ki, dəmi-xunrizdir və həngami-rəstaxizdür". Və Ömər bin Sə'din peyki-peykanı bu xəbər pəyamına gəldi və qasidi-navək bu peyğamla varid oldu və bu vaqiə səbahi-cüm'ə aşiri-Məhərrəm, hicrətin altmış altıncı yilində vüqu' buldu. Və ləşkəri-müxalif bir rəvayətdə

[1] Haşim nəslindən pak bir peyğəmbərin oğluyam,
Öyündükdə bu iftixar mənə bəsdir.
[2] Üzeyir Allahın oğludur (Qur'an, 9, 30).
[3] Məsih Allahın oğludur.
[4] Səbr et, səbrin ancaq Allah(ın yardımı) ilədir (Qur'an, 16, 127).
[5] Allah səbr edənləri sevir.

on yeddi bin nəfər və bir rəvayətdə otuz bin nəfər, əmma əsəhhi-əqvalla igirmi iki bin mübariz olub və ləşkəri-İmam bir qövllə səksən nəfər və bir qövllə yetmiş iki nəfər olub, otuz iki atlu idi və baqi piyadə idi. Və əksəri-rəsaildə icmal ilə şərh etmişlər, əmma Həzrəti-Mövlana Hüseyn Vaiz əleyhirrəhmə filcümlə təriqi-təfsil dutmuş.

Raviyi-əxbari-məlalətasar bu tərzlə itmami-rəvayət vermiş və naqili-göftari-küdurətasar bu tərzlə göftara zinəti-tətmim yetirmiş ki, çün süfufi-ləşkər mürəttəb oldu, Hürr bin Yezid Riyahi Ömər Sə'din hüzuruna gəlüb ayıtdı: "Ya ibn Sə'd, əlbəttə, Hüseynlə müharibə etmək müqərrərmidir?" İbn Sə'd ayıtdı: "Bəli, müqərrərdir. Bu hərbdə qanlar tökülür və başlar kəsilür". Hürr ayıtdı: "Rəsulullaha Qiyamət günü nə cəvab verirsən?" Ömər Sə'd cəvab verməyüb, Hürr kəndü ləşkərinə müraciət qılub, heybət və səlabətdən ləvni mütəğəyyir olub və qəlbi mütəhəyyir olub biqərardı. Qarındaşı andan sual etdi ki, "ey pəhləvani-ərəb, hərgiz heç mə'rəkədə səndən bu təzəlzül mülahizə olunmayub, mə'ə qilləti-ə'da bu nə təğəyyürdür ki, səndə zahir oldu?" Hürr ayıtdı: "Ey bəradər, bana ə'dadan təvəhhüm yoxdur, əmma behişt və duzəx arasında mütəhəyyir qalmışam və həqqü batil imtiyazında heyran olmuşam". Bu təkəllümdə ikən ixtiyarsız bir nə'rə urdu ki, "əlminnətu lillah, məkməni-qeybdən məş'əleyi-nuri-hidayət zahir olub bəni təriqi-zəlalətdən sirati-müstəqimə buraxdı". Şe'r:

Lilləhil-həmd ki, bən sahibi-irfan oldum,
Qabili-mərtəbeyi-səhhəti-iman oldum.
Əməli-batil imiş Ali-Məhəmməd büğzü,
E'tiraf eylədim ol cürmə, peşiman oldum.

Pəs, səməndi-badpayə cövlan verüb, kəndü ləşkərindən çıxub ləşkəri-Hüseynə mülhəq olub, mərkəbindən enüb, rikabi-hümayuninə yüz sürüb ayıtdı. Şe'r:

Ey çirağı-təl'ətin şəm'i-şəbistani-sürur,
Gərdi-xaki-rəhgüzarın tutiyayi-çeşmi-hur.
Ya Əmirəlmö'minin, üsyana iqdam eylədim,
Bilmədim ki, böylə tüğyan edə ərbabi-qürur.
Bilmədim ki, dutmayub şəm'i-risalət hörmətin,
İrtikabi-zülmü bidad edə qövmi-bişüur.
Ya Şəfi'ülmüznibin, üzri-günahım qıl qəbul,
Görmə caiz bünyeyi-ümmidə hirmandan fütur.

Bu təriqlə çox niyazlar edüb təzzərö' etdi ki, ya İmam, aya mə'zirətim məqbul olurmu ola? Həzrəti-İmam ayıtdı: "Ey Hürr, dərgahi-lütfü ehsan əhli-etizara həmişə məftuhdur və günahın mö'tərif olan həmişə müsabü məmduhdur və "Huvə yəqbəlu't-tövbə ən ibadihi"[1].

Çün Müs'əb bin Yezid qarındaşın gördü ki, axirəti-dünyaya ixtiyar etdi və üzri-günahı dərəceyi-qəbula yetdi, ol dəxi səadəti-mülazimətinə müşərrəf oldu və surəti-ixlas ərz qıldı. Əlqissə, Hürr bin Yezidi-Riyahi mükafati-əf'al üçün Həzrəti-İmamdan icazəti-hərb istədikdə

[1] Qulların tövbəsini qəbul edən odur (Qur'an, 9, 104).



Həzrəti-İmam ayıtdı: "Ey Hürr, hənuz bizdən istişmami-rayiheyi-rahət etmədin zəhmətə düşmək münasib degil. Səbr et, ibtidayi-hərb qeyrdən olsun". Hürr ayıtdı: "Ya İmam, netə ki, ibtidayi-müxasimət bəndən oldu, istərəm ki, ağazi-izhari-məhəbbət dəxi bəndən ola". Əlqissə, təzərrö'lə rüxsət alub meydana girdi və bu təzəllümlə ismü rəsmin zühuraə gətürdi. Şe'r:

Bənəm ol Hürr bin Yezidi-Riyahi
Ki, əzəldən mühibbi-Ali-Əbayam,
Şükrü lillah kəmali-sidqü səfadan,
Qabili-xidməti-vəliyyi-Xudayam.
Tiği-xunrizlə zəmani-şücaət,
Düşməni-duni-nabəkara bəlayam.

İbn Sə'di-bixirəd Hürr bin Yezidi meydanda görüb, əndaminə təvəhhümdən lərzə düşüb, məxsuslarından Səfvan nam bir mübarizə ayıtdı: "Yürü var, Hürrə nəsihət qıl və malü əsbabla firib ver, əgər qəbul etməsə, siyasətə yetür".

Səfvan səfi-sipahdan çıxub səməndi-badrəftara cövlan verüb Hürrə müqabil olduqda ayıtdı: "Ey Hürr, sahibi-əqlü sahibi-rə'y olmaq gərək. Əcəb ki, ne'məti-dünyadan inhiraf edüb zillət ixtiyar etdün". Hürr ayıtdı: "Ey nadan, izzət xidməti-Ali-Rəsuldadır. Zəhi səfihi-siyəhruzgar ki, ne'məti-fani üçün tərki-dövləti-baqi edə. Əlhəq, əgər iman varsa, nəfyi-tənəümati-rövzeyi-rizvan nədir və əgər iman yoxsa, də'vayi-iman nədir?" Şe'r:

Qabili-kəşfi-rümuzi-hikmət olmaz hər kişi,
Hər kimin fe'li nəqizi-qövldür, məzmum olur.
Pərdeyi-təşkikdir bu zülməti-qeydi-həyat,
Pərdə rəf' olduqda halı hər kimin mə'lum olur.

Səfvan gördü ki, Hürr qabili-nəsihət degil, qəzəbnak olub, sineyi-bikinəsinə nizeyi-cansitan həvalə qıldı. Hürri-vəfadar bir tiğlə nizəsin rədd edüb, bir zərblə mərkəbindən nigunsar edüb, bir lö'blə yıxdı ki, nə'reyi-afərin iki ləşkərdən asimana çıxdı.

Rəvayətdir ki, Səfvanın üç qarındaşı olub, talibi-intiqam təriqiylə mütəaqib meydana gəlüb bir-bir Hürr əlindən şərbəti-fəna içdilər. Hürr ol mübarizləri həlak etdikdən sonra Həzrəti-İmamın izzi-hüzuri-şəriflərinə gəlüb ayıtdı: "Ya İmami-zaman, bəndən xoşnud oldunmu?" Həzrəti-İmam ayıtdı: "Nə'əm, əntə Hurrun kəma səmmətəkə ummukə"[1]. Hürr ol bəşarətlə yenə meydana müraciət qılub, gərmi-mübarizət ikən bir həramzadə mərkəbin səqət qılub, piyadə qaldı. Ol müxlisi-vəfadar ədəmi-mərkəb ilə ləşkəri-ə'dadan izhari-əcz etməyüb, inani-əzimət döndərməyüb müharibə etdigin şahzadə gördükdə bir mərkəbi-tazinəjad irsal etdi.

Hürr ol mərkəbə binub, cövlan edüb, hər təraf mütəvəccih olduqda güruh-güruh müxaliflər pərakəndə etdigi əsnada hatifdən səda gəldi ki: "Ey Hürr, müjdə ki, hurü qılman müntəziri-didarındır". Hürr ol sədadan məsrur olub canibi-Hüseynə təvəccöh qılub ayıtdı: "Ya İmam,

[1] Bəli, anan sənə Hürr adını verdiyi kimi hürrsən.

cəddin xidmətinə mütəvəccih oluram, peyğamın nədir?" Həzrəti-İmam ol xəbərdən giryan olub ayıtdı: "Ey Hürr, biz dəxi mütəaqib gəlməkdəyiz".

Əlqissə, ol şiri-bişeyi-şücaət və nəhəngi-dəryayi-cəladət səddi-sipahi-ə'daya rəxnələr urub və cəm'iyyəti-müxalifə təfriqələr yetürüb, nizəsi şikəst bulub, tiği-abdarla mütəvəccihi-qəlbi-sipah oldu və qəlbi-sipahı dili-üşşaq kibi çak edüb, kəndüsin ələmdara yetürdi. Ələmi nigunsar etməkdə ikən Şimri-bədbəxt ləşkərinə nə'rə urdu ki, ey namərdlər, bir mübarizdən aciz olmaq nədir?

Ləşkər hər canibdən qülüvv qılub, ol namuradı ortaya alub, nagah Qisvar bin Kinanə bir zəxmi-mühlik urub, Hürr dəxi ana bir zəxm urub, ikisi dəxi mərkəbdən cüda olub, Hürr nə'rə urdu ki: "Ya İbn Rəsulullah, ədrikni"[1]. Həzrəti-İmam biixtiyar meydana girüb, Hürrü ol zalimlər arasından alub ləşkərinə yetürdi və mərkəbindən enüb, başın dizi üzərinə alub, astini-mübarəkiylə rüxsarından xakü xun pak edüb dua qılırkən Hürr anın rayiheyi-canbəxşindən həyat istiarə qılub, rüxsari-mübarəkinə dideyi-iştiyaq açub, təbəssüm qılub ayıtdı: "Ya İmam, bəndən razı oldunmu?" İmam ayıtdı: "Səndən razı oldum, Allah səndən razı olsun". Hürri-vəfadar bu bəşarətlə filhal nəqdi-can nisar edüb. Şe'r:

Eşq meydanında can vermək degil ar, ey könül,
Can verüb məqsuda yet, gər himmətin var, ey könül.
Eşq bazarına salmışdır səadət gövhərin,
Nəqdi-canın verməyən olmaz xəridar, ey könül.

Nəqldir ki, bu beyt Həzrəti-İmamın Hürr üçün dedigi mərsiyədəndir. Şe'r:

Fə-ni mə'l-hurru Hurra'bni Riyahin
Səburun ində müxtəlifür-rimahin[2]

Çün Hürrün qarındaşı Hürrün şəhadətinə ittila' buldu, ol dəxi rüxsət alub, meydana girüb, izhari-kəmali-şücaətdən sonra şəhadət bulub qarındaşına mülhəq oldu. Rəvayətdir ki, Hürrün Əli nam bir oğlu var idi ki, bəsi şüca' və cigərdar idi. Bu əhvalı mülahizə qıldıqda Ürvə nam bir qulla atlarına su vermək bəhanəsiylə ləşkərdən çıxub, Həzrəti-İmamın xidmətinə müşərrəf olub izhari-ismü rəsm etdilər və icazəti-hərb aldılar. İbtidayi-hal Əli bin Hürr meydana girüb, cidalü qital edüb səadəti-şəhadət hasil etdi. Şe'r:

Ey xoş ol nütfeyi-pakizə kim, ol
Olmaya naqisü nadanü səfih.
Qıla izhari-hünər kəsbin edüb,
Mə'niyi-"Əl-vələdu sirrə əbih"[3].

---
[1] İmdadıma yetiş.
[2] Hürr bin Riyahi nə xeyirli bir hürrdür. Yanında nizələrin uçuşduğu (onunla) səbirlidir.
[3] Övlad atasının sirridir.



Andan sonra Ürvəyi-vəfadar xacələri vəfasında sərbazlıq edüb rütbeyi-hürriyyət kəsb etməgə meydana girdi. Ol dəxi mərasimi-şücaət əda qılub şəhid oldu. Şe'r:

Ey xoş anlar kim, qılub feyzi-şəhadət kəsbini,
Xəlqdən tövfiqi-iqbal ilə mümtaz oldular.
Qıldılar cəm'iyyəti-dünyaya üqba ixtiyar,
Feyz edüb, hasil bulub rif'ət, sərəfraz oldular.

Sipəhsalari-meydani-təkəllüm bu tərzlə ərseyi-bəyana sipahi-ibarət çəkmiş və səfarayi-mə'rəkeyi-süxən bu rənglə tiği-zəban çəküb mərdümi-didə qanın tökmüş ki, Hürr bin Yezidi-Riyahi ətba'iylə bəzmi-bəlada cami-səadətdən şərbəti-şəhadət içdikdən sonra sultani-səriri-izzü ə'la Hüseyn bin Əliyyi-Mürtəza səfi-sipahi-zəfərpənahdan çıxub, ləşkəri-ə'daya müqabil durub, bir dəxi qaideyi-hüccət tazə edüb nida qıldı ki: "Ey əhli-İslamü imanəm" – deyüb də'va qılanlar və ey mö'tərifi-şəhadət olub, mö'təqidi-iman olanlar! Bən nəbireyi-Əhmədi-Muxtarəm. Bən nəqdi-sahibi-Zülfiqarəm. Təsəvvür etmən ki, kəsrəti-sipahinizdən ehtirazım ola, şiddəti-ədavətinizdən səbati-təmkinim təzəlzül bula. Həqqa ki, şəmşiri-abdarimə müdəbbiri-kargahi-hikmətdən rüxsət olsa, zülməti-səvadi-sipahinizə şə'şə'eyi-afitabi-aləmtabdır və sinani-saiqəbarım mühərriki-silsileyi-şəhadətdən icazət bulsa, binayi-fəsadi-inadınıza tişeyi-ixtilalü inqilabdır. Əgərçi mühəqqəq bilirəm ki, tinəti-napakınızda iste'dadi-qəbuli nəsihət olmadığın və rüsuxi-niyyəti-fəsad cibilliyyətinizdə möv'izə ilə təğəyyür bulmadığın, əmma itmami-hüccət təriqiylə sizə təkrar nəsihət edərəm. Ey taifeyi-tağiyə, bən bu diyara hərb üçün gəlməmişəm və bu qövğaya kəndü rə'yimlə mürtəkib olmamışam. Hənuz aramızda atəşi-fəsad işti'al bulmadın və bu surəti-müqatiləvü mühəribə zahir olmadın ya bana mane' olman, yenə Mədinəyə müraciət edəyim, ya təriqi məsdud etmən, Yezidlə münazirə qılmağa Şama gedəyim". Cəvab verdilər ki: "Ey Hüseyn, sənə bu təhlükədən nəcat mümkün degil, zira əgər Şama getsən, fəsahəti-lisanla Yezidə firib verüb xilas olduqda sərmayeyi-fəsad olursan və əgər Mədinəyə müraciət qılsan, əsbabi-fitnə mühəyya qılub hər nə təqdirlə bizi bir dəxi əzaba salursan". Həzrəti-İmam ayıtdı: "Barı, əzbi-Fəratı ki, cümleyi-məxluqata mübahdır, şəcəreyi-gülzari-ismətü təharətdən qət' etmən". Dedilər: "Ey Hüseyn, istilayi-təəttüşdən ətbavü ənsabına zə'fi-bədən yetməsə və qəhti-ab nihali-şövkətünüzi pəjmürdə etməsə, bu müqərrərdir ki, sövləti-şücaəti-Ali-Haşimə xarü xaşaki-Kufə və Şam müqavimət qılmağa qadir olmaz və həyatından qət'i-ümid edən güruhla mühəribə faidə qılmaz".

Həzrəti-İmam gördü ki, heç vəchlə əmri-səlah surət bulmaz və heç tədbirlə müsalihət mümkün olmaz, dedi: "Ey qövm, çün mühəribə müqərrərdir, barı, insaf edüb təriqeyi-ədldən üdul etmən. Bir-bir mübaşiri-hərb olun ki, mərddən namərd mümtaz ola". Bu şərti qəbul edüb ləşkəri-Yeziddən Sam nam bir məl'un meydana girüb, nə'reyi-"Həl mən mübariz"[1] urub Həzrəti-İmam ləşkərinə müqabil durdu. Bu canibdən Züheyr bin Həssan Sultani-Kərbəladan rüxsət alub, əbri-bəhar kibi cuşanü xüruşan saiqeyi-şəmşiri-abdar və barani-xədəngi-xunxarla ərseyi-xakdanı xəsm qanıyla laləzar etməgə meydana çıxdı və cilveyi-nəsimi-səməndi-saiqə-

---
[1] (Qarşıma çıxacaq) döyüşçü yoxmu?

manəndlə səfi-ə'daya övraqi-əşcar kibi lərzələr bıraxdı. Mərasimi-təridü nəvarddən sonra izhari-ismü rəsm etdi ki, "Ey firqeyi-füccari-nabəkar". Şe'r:

Bənəm sahibi-tiğü gürzü kəmənd,
Züheyr ibni-Həssan yəli-ərcümənd.
Bənəm çakəri-xanədani-Rəsul,
Kəmin bəndeyi-nuri-çeşmi-Bətul.
Əgər kuhi-Qafilə qılsam məsaf,
Məsafımda aciz olur kuhi-Qaf.

Sami-bədbəxt ol nikbəxti görüb ağazi-nəsihət qıldı ki, ey şəhsəvari-mizmari-mübarizət və ey namdari-meydani-müharibət, bu nə tədbiri-namünasibdir və rə'yi-nasayibdir ki, tərki-malü əhlü əyal qılub bu ləşkəri-məğluba daxil olmuşsan və kəmali-zilləti nəhayəti-izzətə ixtiyar qılmışsan? Züheyr ayıtdı: "Ey namərd, dövləti-baqi mülaziməti-xanədani-nübüvvətdir və izzəti-daimi mütabi'əti-dudmani-vilayətdir". Şe'r:

Nə e'tibar süruri-səriri-dünyaya
Ki, var kövkəbi-hökmündə ehtimali-üful.
Xoş ol ki, eyləyə gərduni-tale'ində tülu
Sitareyi-şərəfi-mehri-xanəndani-Rəsul.

Sam istərdi ki, tətvili-kəlam edə, Züheyr möhlət verməyib, anı bir zərblə düzəxə göndərüb pəhləvan istədikdə əhli-İraq və Şam ol namdarın vəhmindən hərasan olub, heç pəhləvana bu iqtidar olmadı ki, meydani-şücaətdə rəxşi-himmətə cövlan verə və ana müqabil dura. İbn Sə'd ol halı görüb ləşkərinə siyasət gözüylə baxub, ayıtdı: "Ey namərdlər, bu nə həmiyyətsizlikdir?" Nəsr bin Kə'b Nəhəi ki, rüəsayi-ərəb anı bin mübarizə bərabər dutarlardı, meydana girüb, Züheyrə müqabil durub, mübahatlar qılub lafü gəzafla nə'rələr urdu və Züheyrə ol dəxi ağazi-nəsihət qıldı ki, ey şüca'i-yeganə və ey mübarizi-mərdanə, nişə tərki-inad edüb gəlməzsən ki, Übeydullahi-Ziyaddan dövləti-dünya bulasan və sahibi-rif'ət olub, əmsalü əqran içində sərəfraz olasan?!" Züheyr ayıtdı: "Ey bədbəxt, bən bustani-vilayətdən ictinayi-rəyahini-murada dəstrəs bulmuşam və güldəsteyi-risalətdən istişmami-rayiheyi-rahətə müvəffəq olmuşam. Bana Yezidin xarzari-xidmətində nəşvü nəma bulan nihali-nədamət gərəkməz ki, övraqı zülli-zəlalət göstərə və meyvəsi tə'ami-tüğyan verə". Şe'r:

Bən müqimi-rövzeyi-lütfü riyazi-rə'fətəm,
Xari-səhrayi-zəlalətdən xəbər vermən bana.
Nuri-rəhmətdən münəvvərdir çirağı-dövlətim,
Dudi-nirani-nədamətdən xəbər vermən bana.

Nəsr bin Kə'b ol əndişədə idi ki, kəlimatla anı məşğul edüb hiylə ilə bir heyf edə. Züheyr ol mə'nidən agah olub, təmkin verməyüb, bir zərblə anı dəxi həlak edüb, andan sonra Saleh bin Kə'b gəlüb anın şəmşiri-abdarindən şərbəti-fəna içdi.



Əlqissə, bu təriqlə ol mö'mini-müttəqi çox mübarizlər qətl edüb, heç bir mübarizdə iqdami-müqabilə görməyib, müqəddəmeyi-ləşkərdə olan piyadələr süfufinə mütəvəccih olub, anları dəxi mütəfərriq edüb, yenə meydanə müraciətqılıb mübariz tələb etdikdə ibn Sə'd, Həcərüləhcarə ki, mö'təmidi-səfi-sipah idi, itab etdi ki, ey sipahsalari-Şam, səndən qeyr mübariz bu pəhləvanə müqabil dura bilməz. Həcərüləhcar ayıtdı: "Ey əmir, bu pəhləvan bir ataşi-suzandır, xarü xaşaka anınla müqabilə xarici-daireyi-imkandır. Məgər hiylə ilə üç yüz mübariz kəmin edələr və bən anınla müqatilə edüb kəmingah tərəfinə həzimət qılub, ol bənim qəsdimə gəlub bana yetdikdə ol ləşkər çıxub hər yandan tirbaran edüb ana nüsrət bulalar və hiylə ilə ana qalib olalar. Şe'r:

Şüca'ət rəsmini sanman ki, ancaq xunfəşanlıqdır,
Sipahilər içində hiylə həm bir pəhləvanlıqdır.

İbn Sə'd bu məsləhətə razı olub, üç yüz mübariz kəminə müqərrər qılub Həcərüləhcar Züheyr bin Həssana müqabil durub mülayimət təriqiylə ayıtdı: "Ey güzideyi-ərəb və ey şəhsəvari-alinəsəb, bən müharibə üçün gəlməmişəm, nəsihət üçün gəlmişəm. Heyfdir ki, sənin kibi namdar qabili-izzü iqtidarkən qayili-iczü inkisar ola. Hüseyn bin Əli hala məğlubdur və səadəti-dünya Yezidə mənsubdur. Müqtəzayi-himməti-bülənd oldur ki, həzizi-zillətdən övci-rif'ətə rəğbət qılasan və tərki-ihanət qılub, talibi-ülüvvi-mənzilət olasan". Züheyr ayıtdı: "Ey müdbir, izzi-əbədi mülazimi-mülazimeyi-Ali-Mustəfadır və anlardan qeyrə xidmət eyni-mə'siyət və məhzi-xətadır". Şe'r:

Hər nə dövlət var isə dünyada, olmaz bixələl,
Dövləti-Ali-Nəbidir la-yəzalü ləm-yəzəl.

Əlqissə, Züheyr bin Həssan həmlə qıldıqda Həcərüləhcar həzimət edüb, Züheyr mütəaqib rəvanə olub ol kəmingaha irişdikdə üç yüz namərd çıxub, ol şəhsəvarı araya alub tirbaran etdilər. Əmma ol firişteyi-asimani-rəhmət hücumi-şəyatindən mülahizə qılmayub, zövqi-dövləti-şəhadətlə şövqü əfzun olub və kəsrəti-xarü xaşakdan naireyi-şücaəti hiddəti-iştial bulub, təməvvüci-dəryayi-himməti ol qayətə yetdi ki, Hüseyni-təşnələbdən yana xuni-ə'dadan cuybarlar yürütdü. Axirüləmr, əsnayi-mə'rəkədə izdihami-amm olub, Şis bin Rəbi'i fürsət bulub ol şəhriyara bir zəxmi-mühlik urdu. Ol dəxi Şisi-Rəbi'iyə həmlə qıldıqda ol bədbəxt həzimət edüb, ol şiri-bişeyi-şücaət ol halla dəxi əlli mübariz həlak edüb, aqibət cərəyani-xunabeyi-cərahətdən əsəri-zə'f hasil edüb, Həzrəti-İmam anın halından xəbərdar olub, on nəfəri-mülazim irsal edüb, ol əjdəhayı murçələr izdihamından kənara çəküb, Həzrəti-İmam hüzurinə gətürdilər. Ə'zayi-şərifində doqsan zəxm olub, hər birindən çeşmeyi-xun rəvandı. Əmma şükri-səadəti-şəhadət qılmağa hər zəxmi bir dəhandı. Şe'r:

Tiği-düşmən namədir, məzmunu peyğami-əcəl,
Müttəsil gəlməkdədir tədbiri-hicran etməgə.
Açdı rövzənlər bədən qəsrinə peykani-bəla,
Can çıxub nəzzareyi-rüxsari-canan etməgə.

Həzrəti-İmam mərkəbindən enüb, başını dizi üzərinə aldıqda, rayiheyi-məhəbbətindən həyati-mücəddəd bulub, güli-rüxsarinə nərgis kibi dideyi-heyran açub zəbani-halla bu təkəllümdə guya oldu. Şe'r:

Bihəmdillah, rəhi-eşqində can nəqdin nisar etdim,
Verüb can xaki-dərgahində kəsbi-e'tibar etdim.

Həzrəti-İmam ayıtdı: "Ey tayiri-rövzeyi-şəhadət, razi-dil izhar edüb bir təkəllüm et". Züheyr ayıtdı: "Ya Hüseyn, bənim üçün bir cam şərbət mühəyya olubdur. Səbr et ki, içdikdən sonra təkəllüm edəyim". Həzrəti-İmam əshaba və əhbaba ayıtdı: "Bu şərbət şərbəti-behiştdir ki, Züheyrə ərz etmişlər". Şe'r:

Demən ki, tiği-ədudan şəhidə yetməz feyz,
Zülali-rövzeyi-rizvandır abi-tiği-ədu.
Zülali-xəncəri-bədxahı səhl sanman kim,
Hərarəti-dili-əhbabı rəf' edər ol su.

Bu təkəllüm əsnasında ol tayiri-büləndpərvazın mürği-ruhu nişi-məni-bəqaya pərvaz qıldı. Rəhmətullahi əleyh. Şe'r:

Afərin ol səadət əhlinə kim,
Rəhi-canana can nisar etdi.
Qılmadı meyli-aləmi-fani,
Dövləti-baqi ixtiyar etdi.

Rəvayətdir ki, Züheyr bin Həssan səadəti-şəhadət bulduqdan sonra rüəsayi-ləşkəri-Yezid qütəlayi-əskəri təfəhhüs etdikdə gördülər, Züheyr bin Həssan qitalində məcruhdan qeyr məqtul olanlar yüz nəfərdən ziyadədir. Bu vaqiədən zəhrələri çak olub ayıtdılar: "Heyhat, bu güruhla bir-bir müqatilə etmək mümkün olmaz və sərfə qılmaz". Əbtali-əskər bir qayətdə hərasan oldular ki, heç kimsənədə rəğbəti-meydan qalmadı.

Əmma Həzrəti-İmamın əskəri-hümayunu əgərçi surətdə şərzimeyi-qəlil idi, əmma mə'nidə hər biri bir yeganeyi-binəzir və fəridi-biədil idi ki, ittifaqla əsliheyi-təqvavü təharət mürəttəb edüb, ləşkəri-şəyatinə məlaikvar iztirabü ehtizaz salmışlardı. Zira təəllüqati-dünyayla mütləq irtibatları qalmayub şəhadətə mühəyya olmuşlardı. Şe'r:

Tərki-dünya eyləyən əndişə qılmaz mövtdən,
Qeydi-cəm'iyyət çəkən bidərdə ol düşvar olur.
Ərseyi-mülki-bəqa seyrin qılan ariflərə
Təngnayi-dərdi-zindan, dari-dünya dar olur.

İbn Sə'd ləşkərin iztirabın görüb, təvəhhüm edüb nəzəri-siyasətlə baxdıqda səfi-ləşkərdə Übeydullahi-Ziyadın iki məmlükü hazır idi: biri Salim deməklə mə'ruf, biri Yəsar deməklə



mövsuf. İttifaqlə ahəngi-meydan etdilər. Həzrəti-İmam ləşkərindən Bərirlə Həbib bin Müzahirə qeyrəti-şücaət qalib olub rüxsəti-meydan tələb etdikdə Həzrəti-İmam rüxsət verməyüb, Əbdullah bin Öməri-Kəlbi rikabi-hümayuninə yüz sürüb icazəti-meydan istədikdə Həzrəti-İmam buyurdu ki, "Ey Əbdullah, mərdanə ol ki, [bu] iki həramzadənin qətli sənin əlində müqərrərdir". Əbdullah saiqeyi-şəmşiri-abdarla əbrvar xüruşanü ğürran piyadə mütəvəccihi-ərseyi-meydan oldu. Derdu. Şe'r:

Bu ərseyi-bəlada bənəm ol piyadə kim,
Əzmimdə fil-bəndi-ədudan gedər səbat.
Rüx şahi-din rikabinə sürmüş piyadəyəm,
Lö'büm əcəbmi xəsmi-dağəlbazi etsə mat.

Yəsari-bədbəxt ol vəfadara nizə həvalə qılub, Əbdullah anın nizəsin rədd edüb, bir tiğ urub, mərkəbin ayağdan buraxub, piyadə olduqda fürsət bulub tədarüki-qətlində ikən Salim həmlə qıldı. Ol mübarizi-vəfadar qət'ən əndişə qılmayub, əvvəl Yəsarı həlak edüb, anın əqəbincə Salimi dəxi bir zərblə duzəxə göndərüb Übeydullahi-Ziyadın qulları ol halı görüb, ittifaqla hücum edüb təsəvvürdən ziyadə cidalü qital etdikdən sonra ol məzlumu şəhid etdilər. Rəhmətullahi əleyh.

Andan sonra Bərir bin Həsən Həmədani ki, əzhədi-zühhadi-dövran və əvrə'i-übbadi-zəman idi və hərgiz dəsti-təəllüq daməni-təcərrüdünə yetməmişdi və zəmiri-münirinə mütləq əndişeyi-mülkü mal xütur etməmişdi, mütəvəcehi-hərb olub, ol ləşkəri-biimanla qital edüb derdi: "Ey badiyeyi-qəflət sərgərdanları və ey badiyeyi-zəlalət məst və heyranları.

Can fədayi-Kərbəla qıldım, bəladan dönməzəm;
Əhli-təsliməm, bəlayi-Kərbəladan dönməzəm.
Tərki-sərdir müddəa meydani-eşq içrə bana,
Getsə başım dönməzəm, bu müddəadan dönməzəm".

Hər tərəf cövlan edüb, mübarizlərə fəna salmağından ləşkəri-ə'da aciz olub, aqibət Yezid bin Mö'qələ künyətlər verib anın qətlinə həris etdilər. Ol məl'un meydana girüb Bərirə müqabil durduqda [bünyadi]-tə'ərrüz etdi ki, ey Bərir, əhli-zəlalətsən, İmami-zəmana xüruc etmişsən. Bərir ayıtdı: "Ey zalim, səninlə mübahilə edəlim, əhli-bütlana bəla nazil olsun". Ol məl'un qəbul edüb, iki tərəfdən duaya iştiğal olunub dedilər: "İlahi, həqqi qalib və batili məğlub qıl". Bu sözə qərar verüb Yezid bin Mö'qəl Bərirə şəmşir həvalə qılub, məzərrət yetirə bilməyüb, Bərir tiği-saiqəkirdarın məhəki-təcrübeyi-həqqü batil qılub, ol namərdi bir zərblə həlak edüb, aqibət Bəxtəriyi-bədbəxt zərbətiylə dərəceyi-şəhadət buldu. Rəhmətullahi əleyh.

"Nurül-Əlimmə"dən nəqldir ki, Bəxtərinin ibni-əmmi Əbd bin Cabir Bəxtəriyə ayıtdı: "Ey bədbəxt, bu gün bir zahidi şəhid etdin ki, ərseyi-aləmdə binəzir idi". Ol bidövlət peşiman olub, ləşkərdən çıxub mütəhəyyir gedərkən hövl qalib olub həlak oldu. Şe'r:

Gərçi şəmşiri-sitəm zahirdə ancaq tiz olur,
Tiği-Həq zahirdə həm, batində həm xunriz olur.

Andan sonra Vəhbi-Kəlbi ki, mahi-ruxsarı şəm'i-şəbistani-hüsnü cəmal və sərvi-qaməti nihali-bustani-hüsni-e'tidal idi, hənuz qaliyeyi-ənbərin gülbüni-rüxsarinə sayə salmamışdı və nəsrini-üzarinə bənəfşeyi-xətti müqarin olmamışdı, ittifaqən həm ol zəmanda tövfiqi-təzvici vaqe' olub, ol mahtəl'ət zöhrəcəbinlə iqtisal etmişdi və qayətdə ana nigarandı. Qimri nam validəsi olub ana ilhah etdi ki: "Ey fərzəndi-səadətmənd! Şe'r:

Vəqtdir kim, qıla məqsudini hər kim hasil,
Vəqtdir kim, ola mətlubinə hər kim vasil.

Bu gün xazini-gəncineyi-kərəm dəşti-Kərbəlada xani-feyzi-şəhadət açüb səlayi-amm etmiş, sə'y edüb andan nəsib almaq gərək və ruzigarla intizarın çəkdigimiz səadət və hüsulinə və'də yetmiş, tə'əllül etməyüb bəhrəmənd olmaq gərək. Səlah oldur ki, Şahi-Kərbəlaya bu gün nəqdi-can nisar edüb bənim rizamı, bəlkə Həq rizasın anın rizasında hasil qılasan və bir zəman zəhmət çəküb mərtəbeyi-səadəti-baqiyə vasil olasan". Vəhbi-Kəlbi ayıtdı: "Ey madəri-mehriban, nəsihətini qəbul etdim, əmma xatirim canibi-ərusa mayildir. Möhlət ver ki, anınla vida, edəyim, zira bəndən bəhrə görməyüb qəribü bikəs qalur". Ol saleh ayıtdı: "Ey fərzənd, cəmaəti-nisa naqis əqillə mə'ruf tayifədir. Olmaya ki, əzimətinə mane olub şövqi-ğalib səni bu səadətdən məhrum edə". Vəhb ayıtdı: "Ey validə, məhəbbəti-Hüseyn bin Əli ol qayətdə [möhkəmdir] könlümdə ki, şiveyi-ərusi-rə'na, bəlkə füsuni-zali-məkkareyi-dünyayla xələlpəzir ola". Əlqissə, Vəhb ərusla mülaqat edüb, vida' qılub, meydana girüb bu rəcazi ağaz etdi. Şe'r:

Əmiri Hüseyinün və ni'məl-əmir,
Ləhu ləm'ətun kə's-siracu-l-munir.[1]

Və qələbeyi-ə'dadan təvəhhüm etməyüb, bünyadi-qital edüb ol məl'unlardan cəm'i-kəsir həlak edüb, validə hüzurinə gəlüb ayıtdı: "Ey nihali-miveyi-həyatım, bəndən razı oldunmu?" Ol əfifə ayıtdı: "Ey cigərguşə, razı oldum, əmma itmami-ne'mət dərəceyi-şəhadətdir". Vəhb qəbul edüb, yenə meydana müraciət qılub, Möhkəm bin Tüfeyl ki, əşhəri-əbtal idi, qətl edüb, aqibət hücumi-ləşkərlə şəhid olub, bisəadətlər anın səadətli başın kəsüb İmam ləşkərindən yana buraxdılar. Ol saleh oğlu başın ərus hüzurinə götürüb, yüzün yüzünə sürüb fəğana başladılar və aqibət səbr edüb qəzaya riza verdilər. Şe'r:

Dəhri-dun hər ləhzə bir növrəs gülü bərbad edər,
Bülbüli-biçarə həsrətlər çəküb fəryad edər.

Andan sonra Ömər bin Xalid meydana girüb, çox münafiqləri dərəkati-cəhənnəmə göndərüb cənnəti-ə'laya mütəvəccih oldu. Rəhmətullahi əleyh.

[1] Əmirim Hüseyn nə yaxşı bir əmirdir,
İşıq saçan çıraq kimi parlaqlığı vardır.



Andan sonra Xalid ibn Ömər meydana girib "Mən əşbəhə əbahu fi-ma-zələmə"[1] müqtəzasincə validi-büzürgvarının intiqamın alıb ana mülhəq oldu. Rəhmətullahi əleyh.

Andan sonra Sə'd Hənzələ meydana girib, səvaqibi-sihamla mürtəkibi-rücumi-şəyatin olub və naireyi-hüsamla xərməni-ömri-ədaya ataşi-fəna salub mütəvəccihi-darülbəqa oldu. Rəhmətullahi əleyh.

Andan sonra Ömər bin Abdullahi-Rəmhi meydana girüb, nəhəngvar cövlanla dəryayikarzarı mütəməvvic qılub, qərqeyi-girdabi-vüsal oldu. Rəhmətullahi əleyh.

Andan sonra Vəqqas bin Malik əbri-saiqəbari-növbəhari-rəzm olub, əmtari-sihami-tizrəftarla münafiqlər cəm'iyyətin seylabi-fənaya verüb bir naməndin zərbətiylə şəhadət buldu. Rəhmətullahi əleyh.

Andan sonra Şərih bin Übeyd afitabi-ərseyi-meydan olub şə'şəeyi-tiği-ataşbarla Həq zalimlərinin zülməti-küdurətin səfheyi-aləmdən rəf' edüb aqibət üfüqi-şəhadətdə ixtifa buldu. Rəhmətullahi əleyh.

Andan sonra Müslimi-Azərbaycani saqiyi-bəzmi-rəzm olub, nə'reyi-məstanə ilə günbədigərduna sədalar bıraxub, çox bixəbərləri cami-fənadan sərməst etdi. Gah şəmşiri-ataşbarla rəzm edüb, gah tiri-tizrəftarla müharibə qılurkən kəsrəti-cərahətdən zəif olub mərkəbindən düşdü. Həzrəti-İmam və Həbib Müzahir üzərinə gəlüb, anı mə'rəkədən çıxarub səfi-sipaha yetürdikdə hənuz həyatından bir rəməq vardı. Həzrəti-İmam ayıtdı: "Ey Müslim, əhli-behiştə səlamım yetür ki, bən dəxi mütəaqib gəlməkdəyəm". Müslim göz açub, təbəssüm qılub bu məzmunla guya oldu. Şe'r:

Ey xoş ol saət ki, can sərfi-rəhi-canan ola,
Göstərüb aşiq vəfa mə'şuqinə, qurban ola.

Həbib Müzahir ayıtdı: "Ey Müslim, əgər bilsəydim, səndən sonra qalduğımı, iltimasi-vəsiyyət edərdim". Müslim ayıtdı: "Ey Həbib, vəsiyyət budur ki, Həzrəti-İmama canın fəda qılasan və anın xidmətin [səadəti]-dünyavü axirət biləsən". Bu təkəllümdə ikən ahəngi-rövzeyirizvan etdi. Rəhmətullahi əleyh.

Andan sonra anın nəqdi-pakı və xələfi-salehi meydana girüb, babayi-büzürgvarının intiqamın alub bir şəqi zərbətiylə bəzmgahi-bəqaya intiqal etdi. Şe'r:

Xoş ol arif ki, bildi mülki-dünyanın sərəncamın,
Həyatından təməttö' bulmayub içdi əcəl camın.

Andan sonra Hilal bin Rafi' 'istid'ayi-meydan edüb rüxsət istədi. İttifaqən növkədxuda idi. Həzrəti-İmam ayıtdı: "Ey Hilal, rəva görmə ki, müqəyyədi-ələqeyi-ittisalın şərabi-vüsalindən təməttö' görmədən təcərrö'i-zəhri-fəraqınla həlak ola". Hilal ayıtdı: "Ey nəqdi-Rəsulullah, hala heç şərbət bana şərbəti-şəhadətdən ənfə' və ana cüllabi-təcəmmüldən ənsəb mülahizə olunmaz". Əlqissə, nəhayəti-ilhahla icazət alub meydana girdi. Və ol bir kəmandar idi ki, həngami-rəzm sihami-navəki-dilduzinə şüayi-xurşid kibi ətbaqi-asiman hicab olmaz-

[1] Atasına oxşayan kimsə ona zülm etməmişdir.

dı və peykani-əcəlkirdarinə tə'siri-kəvakib kibi sipəri-tədbirlə əndişə çarə qılmazdı. İbtidayi-hərbdə Qeysi-Şami müqabil gəlüb, hədəfi-navəki-dilduzu olub və çoxlar anın kibi peykani-abdarindən cərahət bulub müqabilinə mübariz gəlməz oldu. Şe'r:

Rəngin kəman əlinə alan dəmdə gülrüxüm,
Zəxmi-xədəngi ilə zəmin laləzar olur.
Çak olsa sinələr nolə dövründə laləvar,
Qövsi-qüzeh əlaməyi-fəsli bəhar olur.

Rəvayətdir ki, ol sərəfrazın tirkeşində yetmiş navək olub, hər biriylə bir namərdi məqtul edüb, aqibət zuri-bazuyi-hücumi-ə'dayla navəkvar ruhi-pürfütuhu kəmanxaneyi-bədəndən pərvaz etdi. Rəhmətullahi əleyh. Şe'r:

Hər dəm bəla yelin mütəhərrik qılur fələk,
Hər ləhzə bir nihalı ayaqdan salur fələk.

Andan sonra Əbdürrəhman bin Əbdullah Yəzəni meydana girüb, ləşkəri-bədxaha cəzalar verüb, yigirmi səkkiz mübariz qətl edüb, xuni-ə'dadan cuybarlar yürütdü. Ol cuybarlar üzrə başlardan hübablar rəvan etdi. Şe'r:

Bir karzar qıldı ki, dövrani-ruzigar
Aləmdə görməmişdi anın kibi karzar.

Ləşkəri-müxalif yegan-yegan ol yeganeyi-ruzigarın müharibəsinə qadir olmayub, xilafi-qaideyi-mə'hud, üzərinə hücum edüb, əksəri məqtul olduqdan sonra ol məzlumu şəhid etdilər. Rəhmətullahi əleyh. Şe'r:

Rəhmət ana ki, rahi-məhəbbətdə verdi can,
Əndişeyi-təəllülü tə'xir qılmadı.
Düşmən, təğəllübündən edüb vəhmü ehtiraz,
Kəsbi-rizayi-dostda təqsir qılmadı.

Andan sonra Yəhya bin Müslimi-Mazəni meydana girüb xəl'əti-gülguni-xunabi ilə bəzmi-süruri-bəqaya təvəccöh qıldı.

Andan sonra Əbdürrəhman bin Ürvə meydana girüb, cəm'iyyəti-ə'daya təfriqələr buraxub rəhməti-Rəhmana vasil oldi.

Andan sonra Malik bin Ənəs meydana girüb, çox müxaliflər maliki-duzəxə təslim edüb, maliki-mülki-behişt oldu. Rəhmətullahi əleyh.

Andan sonra Ömər bin Muta' fərmani-cəhani-müta' müqtəzasincə meydana girüb, əhli-üsyana icrayi-hökmi-şər' edüb müqərrəbi-dərgahi-qürb oldu. Şe'r:



Gün açıldıqca olub gərmiyyəti-qovğa füzun,
Çıxdı dəşti-Kərbəladan dəməni-gərduna xun.

Mücmələn, hər canibdən xazini-cənnət ziyafətxaneyi-behiştə cəvahiri-əsdafi-əltafla zinət verüb və xani-ümumi-məkarimdə ənvai-ni'əm mühəyya qılub, səlayi-ziyafət yetirməgin ərvahi-şühəda bir libasi-xunabeyi-şəhadət və ləaliyi-əşki-heyrət birlə müzəyyən olub, xarü xaşaki-ə'dayı yollarından pak edüb ol məcmə'ə mütəvəccih olmaqda idi və bir canibdən maliki-niran ataşi-cəhimə xaşaki-əbdani-füccarla hiddəti-işti'al verüb və qələyani-qirü qətranı cüşə salub və əfa'ivü əqaribin əzab üçün hazır edüb, nüfusi-əşrara tə'yini-mənazil etməgin əcəzeyi-Şamü Kufə güruh-güruh buxari-səvad və gərdi-meydani-bəladan səvadülvəch hasil edüb hər biri kəndü miqdarincə mənzilinə vüsul bulmaqda idi. Şe'r:

Bu müqərrərdir ki, dərgahi-müqərrəb məhrəmi
Sayiri-nüzhətsərayi-rövzeyi-rizvan olur.
Bu mühəqqəqdir ki, sultani-təmərrüd tabe'i.
Sakini-zindani-möhnətxaneyi-niran olur.

Rəvayətdir ki, dəryayi-təhəyyüri-Kərbəla təlatümdə ikən nagah canibi-yəmini-mə'rəkədən bir şəhsəvari-mühib sayeyi-səlabət meydana bıraxdı ki, cilveyi-səməndi-bərqrəftarı ləmheyi-bəsərdən əsrə' və hiddəti-sinani-saiqəkirdarı dəşneyi-əcəldən əqtə' idi, ləşkəri-Kufəyə müqabil durub nə'rə urdu ki: "Bənəm Haşim bin Ütbeyi-Vəqqas. Ey güruhi-zəlalət-pişə və ey firqeyi-fücurəndişə! Binayi-imanınızda nə xələl vaqe' olubdur və əsasi-İslamınız nə qüsur bulubdur ki, irtikabi-əmri-nasəvab etmişsiz və təriqi-müxaləfəti-Xudavü Rəsul dutmuşsuz?!". Ömər bin Sə'd əmmzadəsin iste'dadi hərblə meydanda gördükdə qayətdə müztərib oldu, zira kəmali-şücaətindən xəbərdardı. Əkabiri-sipaha yüz dutub anın məsafinə mübariz tələb etdikdə Səm'an bin Muqatil ki, hakimi-Hələb idi, həm ol gün bin mübarizlə Kərbəlaya gəlmişdi, icazətlə meydana girüb Haşimə müqabil durdu və ağazi-nəsihət etdi ki: "Ey əmirzadeyi-ərəb, əmmzadən sipəhsalari-Kufəvü Şamdır, sənə münasibmidür ki, küfrani-ne'mət qılasan və məqhurlar və məğlublarla məqhurü məğlub olasan?!" Haşim ayıtdı: "Ey bədbəxt, ne'məti-baqi dövləti-fanidən övladır. Əhli-Haq əgərçi məğlubdur surətdə, [əmma] qalibi-mə'nadır". Şe'r:

Olsa bina dideyi-idrak irfan əhlinə,
Hasili-hər fe'lü nəf'i – hər əməl mə'lumdur.
Dema Haman həşmət ilə keçdi, Harun fəqr ilə,
Anı gör kim, şimdi kim məmduhü kim məzmumdur.

Səm'ani-bədbəxt Haşimi qabili-nəsihət görməyib, ana tiği-abdar həvalə qıldıqda Haşim anın tə'nəsin rədd edüb bir zərblə rişteyi-həyatın qət' etdi. Əmma Nü'man bin Müqatil qarındaşı intiqamın almağa mülazimətində olan bin mübarizlə hücum edüb Haşimi ortaya aldılar. Həzrəti-İmam gördü ki, ol namurada kəsrəti-ə'dadan xətər mütəvəccih oldu, rəhm edüb,

Fəzl bin Əliyyi-Murtəzayı doqquz mücahidlə müavinətinə irsal etdi. Ol hala İbn Sə'd vaqif olub iki bin mübarizi-namərd təyin etdi ki, Haşimlə ol mücahidlərin arasına hayil olub mülhəq olmağa fürsət verməyə[lər].

Əlqissə, ol on mücahid ol iki bin mü'anidlə qital edüb ataşi-tiği-bərqgüzardan bazari-müqatilə gərm oldu, bir qayədə ki, hərarətindən Mərrixi-xəncərgüzar simabvar münhəll olub qətreyi-şəbnəm kibi nilufəri-asiman üzrə təzəlzül buldu və dəryayi-hərb bir mərtəbədə təməvvüc qıldı ki, daməni-libasi-mişkini-Zühəl nəmnak olub ərseyi-asimana rəng saldı. Şe'r:

Qubari-sipah oldu bir tirə miğ,
Ana bərqü baran olub tirü tiğ.
Sədayi-nəfir etdi gərdunu kər,
Nəmi-xun qılub səfheyi-mahi tər.
Bulub rəxnələr zəxmdən qəsri-tən,
Rəvan etdi canlar vida'i-bədən.

Anın kibi mə'rəkədə Fəzl bin Əli təcdidi-mərasimi-rəzmi-Murtəza qılub, tiği-Zülfiqarkirdarla hər həmlədə bir cümlə həlak edüb mərdanə karzar edərkən ol iki bin namərd tirbaran edüb, mərkəbin səqət qılub, piyadə olduqda dəxi çox hərblər etdikdən sonra ol afitabi-övci-səadət hicabi-əbri-bəlaya girüb, sərdəftəri-şühədayi-Əhli-Beyt oldu. Şe'r:

Ey xoş ol kim, rəzm meydanında hatifdən ana,
Yetdi həngami-təzəlzül müjdeyi-fəthi-qərib.
Xani-ehsan üzrə oldu müstəhəqqi-feyzi-amm,
Həm qəzadan bəhrə buldu, həm şəhadətdən nəsib.

Ləşkəri-Yezid ol on nəfər məzlumu şəhid etdikdən sonra Nü'mani-Müqatil müavinətinə mütəvəccih olub, Haşimi-biçarəyə hücum etdilər. Haşimi-cəvanmərd ol üç bin namərdlə müharibə etməkdə ikən nagah Nümani-Müqatilə müqabil vaqe' olub, bir zərblə ol məl'unu həlak edüb aləmin dəxi nigunsar etdi. Aqibətüləmr, əsnayi-hərbdə kəsrəti-cərahətdən və şiddəti-hərarətdən muztərib olub ana zə'f qalib olduqda bir bədbəxt zərbətiylə şərbəti-şəhadət nuş etdi. Rəhmətullahi əleyh. Şe'r:

Sərrafi-çərx rişteyi-feyzi-şəhadətə
Hər ləhzə danə-danə çəkər dürri-şahvar.
Ol dürləri əlaqeyi-tərfi-izar edib,
Artar cəmali-şahidi-bidadi-ruzigar.

Andan sonra Həbib bin Müzahir mütəvəccihi-meydan oldu. Və[ol] bir piri-kühənsali-sahibkəmali-pakizəxisali-həmidəfial idi ki, asari-təqva nasiyeyi-əhvalində peyda və əlamati-helmü həya surəti-ə'malində hüveyda idi və əksəri-övqati-ömrü Mustəfa və Murtəza mülazimətində sərf qılmışdı və hər gecə bir növbə kəlami-İlahi xətm etmək mö'tadı olmuşdu.



Həzrəti-Hüseyn ayıtdı: "Ey piri-pərhizkar, sən Həzrəti-Rəsuldan yadigarsan və səndə şiddəti-zə'fdən qüvvəti-muharibə yoxdur. Mürtəkibi-məşəqqəti-hərb olma". Həbib ayıtdı: "Ey nuri-dideyi-Zəhra, tövfiqi-tuli-ömr bana bu səadət üçün müyəssər olmuşdur. Hala ki, fürsət düşdü, iktisabi-mətlubda tə'xir etmək rəva degil". Şe'r:

Çün əhli-cəhan küştələrin yad edələr,
Təhsin edələr, ruhların şad edələr.
Can nəqdini sərf qıldığımdan qərəzim,
Oldur ki, bəni daxili-te'dad edələr.

Əlqissə, icazət alub, meydana girüb bu məzmunla bir rəcəz inşa qıldı. Şe'r:

Bənəm Həbibi-Müzahir, mühibbi-Ali-Rəsul,
Kəminə mö'təqidi-xanədani-zövci-Bətul.
Hüseynə nəqdi-rəvan istərəm nisar qılam,
Zəhi səadət, əgər olsa xidmətim məqbul!

Ol piri-zəif zövqi-şəhadət bəşarətiylə qüvvəti-təmam bulub, murçeyi-nəhif ikən əjdəhayi-dəman və pəşşeyi-zəif ikən şiri-jəyan olub, ərseyi-heycada girdbad kibi hər cövlanda güruh-güruh xarü xaşakı yer yüzündən götürürdü və seylabmanənd hər təvəccöhdə süfufi-ə'dəya rəxnələr buraxub xələllər yetürürdü. Əlqissə, çehreyi-nürani və məhasini-kafurfamla tiği-ataşbar çəküb sübhi-sadiq kibi Şam əhlinə fəna bıraxmaqda ikən Bəni-Təmimdən bir bədbəxt zərbətiylə ayaqdan düşdü. Nə'rə urdu ki: "Ya İmam, məməd". Həzrəti-İmam anın nə'rəsindən mütəəssir olub, bizzat bəhri-bəlaya qutə urub üzərinə sayeyi-mərhəmət buraxdıqda rayiheyi-iltifatından həyati-mücəddəd kəsb edüb zəbani-halla bu beyti inşa qıldı. Şe'r:

Şükrü lillah gərçi nəsrin oldu reyhanım bənim,
Dərmədən məqsəd gülün, bu bustandan çıxmadım.
Hasil etdim, dövləti-cavid tuli-ömrdən,
Vermədən cananıma canı, cəhandan çıxmadım.

Həzrəti-İmam ol məzluma bəşarəti-cinan verüb ol məzlum rövzeyi-cinan bəşarətiylə can verdi. Şe'r:

Nəsrinə rəngi-lalə verüb xuni-nabdən,
Arturdı baği-cənnətə pirayeyi-sürur.
Kafurfam tarə çəküb danə-danə lə'l,
Qıldı dəmi-müaniqə zibi-üzari-hur.

Rəvayətdir ki, ol sərvərin səri-mübarəkin bir sərkəş qət' edüb, yanında saxlayub, vaqieyi-Kərbəladan sonra Məkkəyə müraciət qılub, mərkəbinin boynuna asub, şəhrə girüb mübahat

edərkən Həbibi-Müzahirin oğlu uğrayub, "Bu, kimin başıdır?" – deyə sual etdikdə ol bixəbər təfaxür qılub ayıtdı: "Bu, Həbib bin Müzahir başıdır". Ol xələfi-qabil [ol] müxalifi bir zərblə qətl edüb Həbibi-Müzahirin səri-mübarəkin bir büq'ədə dəfn etdi və hala Rə'sül-Həbib deməklə mə'ruf bir məzari-müqərrərdür. Şe'r:

Təni-paki-şühəda sitri yetər pərdeyi-xun,
Nola gər olsa dəmi-dəfn kəfəndən ayru.
Şəfəqamiz günəşdir səri-xunini-şəhid,
Nola yerdən-yerə gər getsə bədəndən ayru.

Andan sonra Həmzeyi-Hərir ki, mö'təqi-Əbazəri-Qəffari idi, piyada meydana girüb şəbi-mişkfam kibi ə'danın ruzigarın siyah etdi və dudi-ahi-üşşaq kibi andan müxaliflərə çox əsərlər yetdi. Aqibət hücumi-ə'dayla ol mərdümi-didə dideyi-mərdümdən nihan oldu. Rəhmətullahi əleyh.

Andan sonra Yezid bin Mühaciri-Cə'fi meydana girüb şəhid oldu. Rəhmətullahi əleyh.

Andan sonra Ənəs bin Mə'qil mütəvvəccehi-hərb olub səadəti-şəhadətə qərin oldu. Rəhmətullahi əleyh.

Andan sonra Şarib Mö'təq Əbbas bin Şis zirehü sipərdən istiğna qılub, bədəni-üryanla meydana girdi. Dedilər: "Bu nə bipərvalıqdır?". Cəvab verdi ki: Şe'r:

Sipər [dutmam] bəla peykanlarına, keçmişəm candan,
Çü bən dəryaya qərq oldum, nə bakim var barandan.

Aqibət tirbarani-ə'dayla şəhid oldu. Rəhmətullahi əleyh.

Andan sonra Cə'fi, müəzzini-ləşkəri-İmam, rüxsət alub meydana girdi və zəmzəmeyi-təkbirü təhlil asimana yetürdi. Və dəf'ə-dəf'ə güruh-güruh müxalifləri həlak edüb, aqibət şəhid oldu. Rəhmətullahi əleyh.

Andan sonra Seyf bin Haris və Malik bin Ütbə ittifaqla icazət alub meydana girdilər və ol nifaq əhlinə bəlalar yetürdilər. Aqibət hücumi-ədayla zülmətsəradan nüzhətgahi-bəqaya yüz urdular.

Andan sonra Farisi-Qulam dövləti-pabusa müşərrəf olub ərzi-niyaz etdi. Şe'r:

Ey hərimi-dərgəhi-qədrində xadim sübhü şam,
Şam bir Hindi kənizin, sübh bir Rumi qulam.

"Ya İmami-zəman, feyzi-şəhadət xani-ümumi-ehsan açub, hər kim miqdarınca bəhrəmənd olmaqdadır. Xazini-gəncineyi-qəza fəthi-əbvab edüb hər kim nəsib almaqdadır. Bəndəyə dəxi bu səadət mətlubdur". Həzrəti-İmam ayıtdı: "Ey Faris, sən İmam Zeynəlabidinə mənsubsan, andan icazət istə". Və Həzrəti-İmam Zeynəlabidin ol əyyamda bimardı. Faris, xidmətinə müşərrəf olub icazət istədikdə ayıtdı: "Ey Faris, bən səni azad etdim, hala şürui müharibə sənin iradətinə müttəlliqdir. Faris daxili-silsileyi-əhrar olub, mərdanə bir rəcəz inşa qıldı ki. Şe'r:



Bənəm Faris ol türki-xəncərgüzar
Ki, Bəhrama tiğimdir ayinədar.
Bana xidməti- xanədani-Rəsul,
Yetər payeyi-rif'əti-iqtidar.
Səadət rəfiqim olub, qılmışam.
Hüseyni-Əli xidmətin ixtiyar.

Gah tiği-atəşbarla və gah nizeyi-əjdəhakirdarla və gah navəki-xunxarla ləşkəri-bədxaha fəna buraxub, aqibət növbəti-təcərrö'i-cami-şəhadət ana dəxi yetüb, ruhi-pürfütuhi hatifdən sədayi-"Fədxuli fi ibadi vədxuli cənnəti"[1] istima' edüb mütəvəccihi-rövzeyi-rizvan oldu. Rəhmətullahi əleyh.

Andan sonra Hənzələ bin Səid [meydana girüb ənvai-məvaizlə və nəsayehlə ol gümrahları təhdid edüb, müfid görməyüb mübaşiri-qital oldi. Və əksəri-əhli-zəlalətdən ərseyi-meydanı xali edüb şəhadət buldu. Rəhmətullahi əleyh.

Andan sonra Yəzid bin Ziyadi-Şə'bi] meydana girüb navəki-dilduzlə mürği-ruhi-ə'dayə bədənlərin kəsrəti-cərahətdən qəfəs qılub, aqibət tayiri-ruhi səfiri-"İrci'i ila rəbbiki raziyətən mərziyyətən"[2] istima' edüb, məziqi-bədəndən pərvaz etdi. Rəhmətullahi əleyh.

Andan sonra Sə'd ibn Əbdullah ki, Məhəmməd Hənifə əqrəbasından idi, meydana girüb və müqabilinə gələn müxalifləri seylabi-fənaya verüb, aqibət "Kullu şey'in halikun illa vəchəhu"[3] müqtəzasincə ruznameeyi-həyatın əcəli-rəqəmi "Kullu min əleyha fan"[4] ilə müzəyyən qılub nüsxeyi-həyatına xətti-inqizayi-müddət çəkdi. Rəhmətullahi əleyh.

Andan sonra Cibavə bin Haris mütəsəddiyi-əmri-meydan olub, izhari-kəmali-cəladət və isbati-müntəhayi-şücaət qılub, girdbadi-badpayindən mir'ati-cəmiyyəti-ə'dayə əngi-təfriqə buraxub, aqibət əngi-həyati-müstəarı mir'ati-zatindən seyqəli-tiği-bədxahla mürtəfe' oldu. Rəhmətullahi əleyh.

Andan sonra Ömər bin Cibaveyi-Haris ərseyi-meydanı cilvəgahi-səmənd qılub, aqibət nüzhətsərayi-sərvəri-bəqa oldu. Rəhmətullahi əleyh.

Andan sonra on beş mücahidi-namdar və şücai-xəncərgüzar ittifaqla meydana girüb, ləşkəri-ə'daya müqabil durub, ərseyi-ruzigarı sədamati-girüdar və qülqüleyi-karzarla məmlüv qılub, düşmənləri bihəddü bişümar dərəkati-sə'irə irsal qıldıqdan sonra dərəcati-cənnətə-intiqal etdilər. Rəhmətullahi əleykum.

Anlardan sonra Məhəmməd bin Miqdad və Əbədullah bin Dücanə meydana girüb mütəəhhidi-rəzm olub, atəşi-qitalla xərməni-xaşaki-cəm'iyyəti-bədxaha fəna salub, aqibət kəsrəti-ə'da hücum etməgin Həzrəti-İmam ləşkərindən Sə'di Qulam ki, mövlayi-Əli bin Əbu Talib idi və Qeys bin Rəbi', Şis bin Süveyd, Ömər bin Qurt, Müslim və Həmmad anların himayətinə mütəvəccih olub, ol yeddi əxtəri-səyyareyi-asimani-şücaət müxaliflərin güruh-güruh rişteyi-həyatların qət' etdikdən sonra və'deyi-şəhadət yetdikdə bir-birinə mütəaqib behişti-həştbaba mütəvəccih oldular. Rəhmətullahi əleykum. Şe'r:

---

[1] Yaxşı qullarım arasına qatıl və cənnətimə gir (Qur'an, 89, 9-30).
[2] (Allah) səndən razı, sən də ondan razı olaraq Tanrına dön (Qur'an, 89, 28).
[3] Onun zatından başqa hər şey yox olmağa məhkumdur (Qur'an, 28, 88).
[4] Onun (yerin) üzərindəki hər şey fanidir (Qur'an, 55, 26).

Kimdir ol ki, ərseyi-dünyaya gəldi, getmədi,
Kimdir ol kim, qəsri-ömrün çərx viran etmədi?

Əlqissə, aftab ərseyi-rüb'i-asimanı qət' edənədək Həzrəti-İmamın mütəəlliqat və mənsubatından əlli üç fərzanə şərbəti-şəhadət içüb, Həzrəti-İmamla Zeynəlabidindən qeyri on doquz nəfər ərseyi-intizari-şəhadətdə qalmışdı. Əmma dərəceyi-aftab irtifa' bulduqca hərarəti-ruz iştidad bulub bir qayətə yetmişdi ki, hərəkati-sərsəri-səmum məsabeyi-şəmşiri-abdar və məddişüai-aftab müşabihi-sihami-bərqasardı. Şe'r:

Küreyi-nar idi xətireyi-xak,
Əxkəri-mənqəl əxtəri-əflak.
Mövc urub ləhzə-ləhzə bəhri-sərab,
Təşnəyə artırırdı həsrəti-ab.
Fitnə ataşgəhi olub meydan,
Şö'lə şəmşir idi, şərər peykan.
Ətəş urmuşdi aləmə xurşid,
Aləm olmuşdu sayədən novmid.

Həzrəti-İmam çün ləşkəri-ə'danın kəmali-qilzət və ədəmi-mürüvvətlərin mülahizə qıldı və əksəri-əshabın məqtul görüb və kəndünün və tətimmeyi-əhbabının dəxi sərəncamləri nə olduğun mühəqqət bildi və Əhli-Beytinin hiddəti-həvadan və fövti-əhibbadan və təsəllüti-ə'dadan təvəhhüm və təhəssürü təəllüm çəkdiklərinə müttəle' oldu, ahi-dərdalüd çəküb, dideyi-nəmdidədən əşki-həsrət tökübü zəbani-halla bu tərənnümə guya oldu ki. Şe'r:

Nədir, ey çərx, əşrarı əziz, əşrafı xar etmək,
Xilaf əhlin sərəfraz, əhli-sidqi xaksar etmək?!
Nədir qılmaq müqəddəm sadiqindən kazibin sübhün,
Nücumun nəhsini sə'dindən ə'la e'tibar etmək?!
Səriri-pürsəfayi-sübhə urmaq şö'leyi-ataş,
Sərayi-təngnayi-şamı pürnəqşü nigar etmək?!
Şərarət cilvəgahın rif'əti-qədr ilə gərdunsay,
Vilayət xanədanın zülm əliylə tarümar etmək.
Yezidi kamran, müstəğraqi-dəryayi-cəm'iyyət,
Hüseyni təşnələb bəd'əhdlər zülmüylə zar etmək?!

Əgərçi istilayi-şədayid zəmiri-münirlərinə bir miqdar tə'sir etdi və istilayi-nəvayibdən xatiri-atirlərinə fil-cümlə bir küdurət yetdi, əmma yenə nəsimi-tövfiqi-təhəmmül canibi-riyazi-rizayi-İlahidən hədiqeyi-hüsni-əxlaqinə güzar edüb, səbzeyi-əməlin qətərati-barani-bəşarət irtifa'i-qədrlə sirab edüb və aftabi-tə'yidi-təvəkkül fələki-feyzi-namütənahidən aləmi-izzü ixtisasinə tülu edüb, fəzayi-surəti-əhvalın şə'şə'əyi-nuri-nəvidi-e'tilayi-şanla münəvvər qılub bu sürudla mülhəm oldu ki. Şe'r:



Ey nihali-nazpərvərdi-riyazi-Haşimi,
Nazənin təb'i bəla gördükdə məhmum eyləmə.
Bu bəla zimnindədir feyzi-kəmali-qürbi-Həq,
Bu bəlaya tə'n edüb ol qədri məzmum eyləmə.

Ətrafü cəvanibdə olan ixvanü ənsab təsliyə təriqiylə ayıtdılar: "Ey hümayi-övci-səadət və şahbazi-aşiyaneyi-dövlət, nə səadət bundan əfzun ola ki, və'deyi-mülaqati-ərvahi-müqəddəseyi-ənbiya qərib olub, talib mətluba vasil olmağa fürsət bula. Şe'r:

Həmnişinlər qıldılar əzmi-diyari-qürbi-Həq,
Ol vəfa əhlinə ehmal etməyüb yetmək gərək.
Etmək olmaz tiği-rəşki-sibqəti-əhbaba səbr,
Tiği-ə'da ilə rəf'i-tiği-rəşk etmək gərək.

Həzrəti-İmam anları təriqi-vəfada sabitqədəm görüb, dua qılub təsəlli olduqda Əhli-Beyt zümrəsindən Əbdullah bin Müslimi-Əqil icazəti-meydan istid'a qılub ayıtdı: "Ey nuriçeşmi-risalət, icazəti-şərifinlə mütəvəccihi-rövzeyi-rizvan olub səlamını Müslimə ilətmək tədarükindəyəm. Himmət diriğ etmə". İlhahi-təmamla rüxsət hasil edüb, meydana girüb cövlanlar etdi ki, nə'li-badpayindən qübari-səlabət fələki-sabitə yetdi.

Ol canibdən Ömər Sə'd rüəsayi-ləşkərə tənbih təriqiylə ayıtdı: "Ey mübarizlər, ehtiyatitəmam edin ki, bu cəməət xəvasi-Bəni-Haşimdir. Həqqa ki, əgər mərkəblərində cu'vü ətəşdən əsəri-za'f və bədənlərində təbi-hərarət və cəza'i ətfaldan iztirab olmasaydı, hər birindən bizim kibi yüz ləşkər aciz olurdu. Əmma sizə müavin olan şəmşiri-şö'leyi-aftab və müzahirət qılan nəvəki-dilduzi-hərəkati-səmumi-cigərtabdır". Pəs, ə'yani-ləşkərdən Qüdamə bin Qiranə mütəvəccih olub ayıtdı: "Ey Qüdamə, sən əşcə'i-əhli-ruzigarsan, bu pəhləvani-Bəni-Haşimə müqabil durub şərrini dəf' et".

Qüdameyi-bidövlət Əbdullahi-sahibsəadətə müqabil durub, Əbdullah həmlə etdikdə fərar edüb, hiylə ilə bir neçə növbət tərəddüd etdikdə, Əbdullah təşnəlikdən süst oldüqda, bir guşədə qərar dutub nizəsin əlindən bıraxdıqda ol həramzadə fürsət bulub ana bir nizə həvalə qıldı. Əbdullah anın nizəsin əlindən alub, bir zərblə qətl edüb, mərkəbinə binüb, kəndü mərkəbin qoluna salub mütəvvəccehi-hərb oldu. Ləşkəri-müxalif ol hərəkətdən mütəvəhhüm olub, müqabiləsində tə'xir etməgin tənha qalub, ləşkərə urub, İbn Sə'din təhti-livasında Saleh bin Misriyi qətl edüb yenə meydana müraciət qıldı. Bir şəqi mərkəbin səqət qılub, piyadə qalub və kəsrəti-hərarətdən nəhayəti-zə'f bulub, Müfəzzəl bin Mərahim zərbiylə ol xülaseyixanədan şəhid oldu. Şe'r:

Dirigü dərd ki, xurşidi-asimani-kəmal
Cəfayi-çərxdən övci-şərəfdə gördü vəbal,
Cəhan nəzareyi-hüsniylə xürrəm olmuşkən,
Yetürdi cami-əcəl nuş edüb cəhana məlal.

Andan sonra Cə'fər bin Əqil meydana girüb bu məzmunla bir rəcəz ağaz etdi ki. Şe'r:

Bənəm ki-nəqdi-Əqiləm, kəmin qulami-Hüseyn,
Həqir baxma bana, ey müxalifi-kəmbin.
Süruri-aləmi-fani degil murad bana,
Bənü məhəbbəti-övladi-Seyyidüs-Səqəleyn.

müddəasincə müxaliflər qətl etdikdən sonra anın dəxi səfineyi-həyatın təlatümi-dəryayi-fitnə girdabi-fənaya buraxdı. Rəhmətullahi əleyh.

Andan sonra Əbdürrəhman bin Əqil mərkəbi-ictihad ərseyi-cihada səgirdüb, meydana girüb, kəmali-şücaət göstərüb aqibət Əbdullah bin Ürvə zərbiylə səadəti-şəhadət buldu. Rəhmətullahi əleyh. Şe'r:

Fələk zülmlər aşikar eylədi,
Zəmanə müxalif mədar eylədi.
Cəfa əhlini xürrəmü şadman,
Vəfa əhlini xarü zar eylədi.

Övladi-Əqil məhrəmi-sərapərdeyi-şəhadət olduqdan sonra növbəti-şəhadət övladi-Cə'fəri-Təyyara düşüb, Məhəmməd bin Əbdullah Həzrəti-İmamın pabusi-şərifinə müşərrəf olub ayıtdı: "Ey simurği-Qafi-qürbi-İlahi və ey şahbazi-aşiyaneyi-feyzi-namütənahi, icazət iltifat et ki, meydana girüb bu kafirnihadi-bədsirət və mülhide'tiqadi-ziştsurətlərdən mö'minlərin intiqamın alub səvab hasil edəm". Əlqissə, icazət alub, meydana girüb bu məzmunla bir rəcəz ağaz etdi ki. Şe'r:

Lilləhil-həmd, zəmani-qəmü möhnət getdi,
İçməgə cami-şəhadət bana növbət yetdi.
Din təriqində şəhid olmaq idi kami-dilim,
Verdi kami-dilimi, dəhr bana rəhm etdi.

Minqari-peykani-abdarla danə-danə əhli-qüruri-əşkbarı səhifeyi-ruyi-ruzigardan götürüb və barani-zülali-tirü tiğlə sükkani-səvahili-qəflət rəxti-fərağətlərin seylabi-fənaya verüb aqibət şəhid oldu. Rəhmətullahi əleyh.

Andan sonra Məhəmməd bin Əvf bin Əbdullah qarındaşın məqtul görüb, irqi-üxüvvət mütəhərrik olub, ixtiyarsız meydana girüb, qarındaşı qatilin qətl edüb, Həzrəti-İmamın xidmətinə müraciət qılub ağazi-mə'zirət qıldı ki: "Ey səmərəyi-nihali-fütüvvət və ey vasiteyi-icadi-fitrət, fəraqi-bəradər baisi-tərki-ədəb vaqe' olub, icazətsiz meydana girdim. Hala iltimasi-icazət edərəm ki, bəqiyyeyi-həyat sərfi-rəhi-məhəbbət qılam". Həzrəti-İmam ana dua qılub rüxsət verdikdə mütəvəccihi-meydan olub, aqibət mütəvəccihi-darülqərar oldu. Rəhmətullahi əleyh.

Andan sonra Əvn bin Əvf meydana girüb nəqdi-can nisar etdi. Rəhmətullahi əleyh. Şe'r:



Diriğa ki, bir-bir qürub etdilər
Sərasər nücumi-sipehri-vəfa.
Gülüstani-iqbal gülbünləri
Sınub, oldu sərsəbz xari-cəfa.

Övladi-Cə'fəri-Təyyar şəhadətindən sonra növbət Həzrəti-İmami-Həsən övladına yetüb Əbdullah bin Həsən ki, əkbəri-övladi-Həsəni-Muctəba idi, əmmi-büzürgvarindən icazət alub, meydana girüb, güruh-güruh müfsidləri seylabi-fənaya verirdi, ta yüz səksən mübarizdən həlak etdi. Meydanına mübariz rəğbət etməz oldu. Aqibət müxaliflər bu səlahı gördülər ki, bunlarınla məsaf etməkdən isə təhəmmül edüb məsaf etməmək övladır, zira biz təhəmmül etdikcə anlara hərarəti-ətəş müstövli olub həlak edər. Bu tədbiri təvəhhümə bəhanə edüb təvəqqüf etdikdə Əbdullahın dəryayi şücaəti cuşa gəlüb, biixtiyar kəndüsin qəlbi-sipaha urub bizzat Ömər Sə'də həmlə qıldı. İbn Sə'd tabi-muqavimət göstərməyüb fərar ixtiyar etdikdə Əbdullah bə'zi mübarizləri qətl edüb yenə meydana müraciət etdi. Bəxtəri bin Öməri-Şami İbn Sə'də ayıtdı: "Ey əmir, də'vayi-riyasəti-sipah edərsən, bir mübarizdən fərar etmək nə münasibdir?". İbn Sə'd ayıtdı: "Ey Bəxtəri, bən sərəskərəm, bənim həlakım cəmi'i-ləşkər həlakıdır. Və dəxi can şirindir, əvəzi olmaz və filvaqe', əgər səndə ziyadəti-şücaət varsa, imtahan etmək olur".

Bəxtəri, İbn Sə'din sözündən qeyrət edüb, beş yüz mübarizlə Əbdullaha müqabil durdu. Həzrəti-İmam ləşkərindən dəxi Məhəmməd İbn Ənəs və Əs'əd bin Dücanə və Firuzani-mevlayi-Hüseyn, Əbdullahın müavinətinə rəvan olub, cümlədən müqəddəm Firuzan Bəxtəriyə müqabil durub müharibəyə iştiğal etdilər. Əsnayi-karzarda Əbdullah bin Həsən ol mücahidlərə ittifaqla həmlə qıldıqda ol beş yüz namərd dört pəhləvana hərif ola bilməyüb, məğlub olub təfriqə buldular.

Ol mücahidlər kəndülərin qəlbi-sipaha urduqda İbn Sə'd Şisi-Rəbi'iyə dəxi beş yüz həmrah edüb anların müavinətinə irsal etdi. Əlqissə, bin mübariz dört şəhsəvarla hərb edüb, yenə hərif ola bilməyüb, məğlub olub münhəzim olduqda İbn Sə'ddən nəqldir ki, demiş: "Bən Firuzani-qulamdan ol gün bir şücaət mülahizə qıldum ki, sifəti əhateyi-təqrirə girməz. [Həqqa ki,] əgər hövli-ətəş inani-əzimətin tutmasaydı, təmamiyi-sipah ana hərif olmazdı".

Rəvayətdir ki, yüz otuz mübariz rəmhlə və igirmi yeddi mübariz tiğlə həlak etmişdi. Əmma kəsrəti-zəxmdən süst olub, Həzrəti-İmam xidmətinə müraciət etmək istədikdə Osman Müfəzzil ol məzluma bir zərbət urub mərkəbdən buraxdı. Əmma hənuz piyada ol müdbirlə cidal edərdi. Əs'əd ol hala vaqif olub, həmlə qılub anı çıxarmaq tədarükində ikən Bəxtəri-qafil bir zərb urub əlindən nizəsin bıraxdırdı. Əzrəq bin Haşim anı şəhid etdi. Rəhmətullahi əleyh.

Əmma Əbdullah bin Həsən Şisi-Rəbi'i ilə cidal edüb, Şisi-Rəbi'i on yeddi zəxm ol məzluma urub, hər zəxmindən bir çeşmeyi-xunabə rəvandı. Ol zəxmlərdən müztərib olmayub, Şisi-Rəbi'in səfi-sipahın çak edüb, Əs'əd və Firuzan mə'rəkəsinə gəlüb gördü ki, Əs'əd şəhid olub, Firuzan məcruh və piyadə xaki-məzəllətə düşmüş. Bəxtərinin səfi-sipahın mütəfərriq edüb, Firuzanı alub, əshabinə gətirməkdə ikən mərkəbi kəsrəti-zəxmdən bitaqət olub, hərəkətdən qalub, naçar piyadə oldu. Əvni-Əli ol hala vaqif olduqda Əbdullaha bir cənibət yetirüb, Əbdullah ol mərkəbə binüb, Firuzan piyada gəlirkən Həqqə vasil oldu. Rəhmətullahi əleyh.

Əmma Əbdullah bin Həsən, Firuzan müfariqətindən qayətdə mütə'əllim olub, dəsti-təvəkkül həblülmətini-"Həsbi-a'llah"a[1] üstüvar qılub və hisni-"Və ma-təvfiqi-illa bi'llah"da[2] mütəhəssin olub ahəngi-meydan etdi. Əmma təvəhhümi-şəmşiri-abdarı ol qayətə yetdi ki, aftabi-şö'leyi-tiğindən müxaliflərin mürği-ruhları xüffaşvar hərasan olub müqabilə gəlməz oldu və pərtövi-məhtabi-təl'ətinə ol məsru'lardan müqabilə mümkün olmaz oldu. İbn Sə'd mübaliğeyi-təmamla Yusif bin Əhcarı anın meydanına irsal edüb, Yusif bin Əhcar ol Şahzadənin əlindən şərbəti-fəna təcərrö' qıldı. Ana mütə'aqib Tariq bin Əbdullah həm ol şərbətdən nəsib aldı. Ana mütə'aqib Bədrəki-pəlid gəlüb həm ol sağərdən mütəcərre' oldu. Axiruləmr şəhzadənin vəhmi-tiği əbvabi-təvəccöhi-ə'dayı məsdud edüb, kəndü ol ləşkəri-bikərana həmlə qılub, on iki mübariz dəxi yıxub, Həzrəti-İmam xidmətinə müraciət qılub, nə'rə urdu ki: "Ey əmmi-büzürgvar, "Əl-'ətəş, əl-'ətəş"[3]. Həzrəti-İmam buyurdu ki: "Ey nuri-didə, dəmidir ki, zülali-Kövsərdən ruhi-rəvanın sirab olur".

Əbdullah bin Həsən ol bəşarətlə yenə meydana girüb, bu növbət İbn Sə'd beş bin bədbəxti anın qitalinə müqərrər qılub, ol şiri-bişeyi-vilayəti araya alub hər canibdən hücum etdilər. Lacərəm kəsrəti-cərahətdən ə'zayi-şərifi qərqi-xun olub və binayi-vücudi zəxmlərdən rəxnə bulub, Əbbasi-Əli və Əvni-Əli ol beş bin namərdlə həmlə qılub, Əbdullahı anların arasından alub götürərkən Məhal bin Zahir ol şahi-aləmpənaha bir zərb urub şəhid etdi. Rəhmətullahi əleyh.

Əbbasi-Əli saiqəmisal ol pəlidin xərməni-ömrinə atəşi-fəna urub, Həmzə bin Məhal ki, anın nütfeyi-naməqbuli idi, Əbbasa həmlə qılıb, Əvn bin Əli anın şərrin Əbbasdan dəf' edüb, ittifaqla Əbdullahı götürüb Əhli-Beytin hüzurinə gətürdilər. Mütəhhərati-hücreyi-təharət seylabi-əşklə ə'zayi-şərifin xakü xundan pak edüb 'əzasinə məşğul oldular. Şe'r:

Ah kim, dövran əməl qəsrini viran eylədi,
Əhli-ümmidi əsiri-dami-hirman eylədi.
Badi-bidadi-xəzan gülzari-ismət güllərin
Göstərüb afət, açılmaqdan peşiman eylədi.
Nüsxeyi-İslamdan şirazə açdı ruzigar,
Ərseyi-aləmdə övraqın pərişan eylədi.

Qasim bin Həsən ki, sipehri-səyadətdə bir aftabi-aləmtab idi və bustani-lətafətdə bir laleyi-növrəsteyi-sirab, Əbdullah Həsənin ol halətin mülahizə qıldıqda fəzayi-aləm nərgisi-şəhlasinə tar olub dili-biqərarı nəhayəti-qeyrətdən püriztirar olmağın Sultani-Kərbəlanın rikabi-hümayuninə yüz sürüb ayıtdı: "Ey əmmi-büzürgvar və ey xudavəndi-alimiqdar, rüxsət ver ki, bu facirlərdən intiqam almağa meydana girəm və zəbani-sinan və sinani-zəbanla zəlalətin cavabın verəm". Ol şəhriyari-kamgarın əzimətin mülahizə qıldıqda bir tərəfdən xəvatini-hərəmsərayi-nübüvvət daməni-iqtidarinə dəsti-təzəllüm urub fəryada gəldilər ki, ey güldəsteyi-növbəhari-fəzilət, səndən rayiheyi-hüsni-Həsən gəlür, fəraqına təhəmmül olunmaz.

[1] Allah mənə yetər.
[2] Mənim uğurum ancaq Tanrı ilədir.
[3] Susadım, susadım.



Və bir tərəfdən Həzrəti-İmam təriqi-təvəccöhin məsdud etdi ki, ey şəmseyi-eyvani-səyadət, bəradəri-ərşədim zikri səninlə ehya olur, sənə bədəl bulunmaz. Şe'r:

Dəvayi-dərdi-fəraqi-Həsən bana sənsən,
Sənin təvəccöhünə xatirim riza verməz.
Görürədu sitəmin kim ki, bu məsafə girər,
Mürüvvətim sənə mütləq sitəm rəva görməz.

Rəvayətdir ki, şahzadə Qasim heç vəchlə rüxsəti-meydan bulmayub qayətdə mütəəllim olmağın xatiri-şərifinə yetdi ki, Həzrəti-İmam Həsən aləmi-fanidən rihlət etdikdə bir tə'viz yazub, bazuyi-mübarəkinə bağlayub vəsiyyət etmişdi ki, ey Qasim, kəmali-məlalət bulduqda bu tə'vizi açüb oxuyub məzmuniylə əməl edəsən. Kəmali-ənduhi müstəlzimi-mütalieyi-tə'viz olub, ol tə'vizi bir xəlvətdə açub oxuduqda gördü yazılmış: "Ey Qasim, sənə vəsiyyətim budur ki, Həzrəti-Hüseyn dəşti-Kərbəlada bəlaya giriftar olduqda zinhar, zinhar, ana nəqdi-can nisar etməgə təqsir etməyəsən və heç bəhanə ilə təriqi-təəllül dutmayasan". Şe'r:

Budur, ey nütfeyi-pakizə, vəsiyyət sənə kim,
Nəqdi-can sərf qılub kəsbi-səadət qılasan.
Ləzzəti-ömr səni qılmaya qafil Həqdən,
Kəndünü qabili-iqbali-şəhadət biləsən.

Qasim ol tə'vizi Həzrəti-Hüseynə göstərüb icazəti-meydan istədikdə Həzrəti-İmam ayıtdı: "Ey nuri-didə və ey seyyidi-bərgüzidə, ol Həzrətin bana dəxi bir vəsiyyəti olmuş idi. Əmma vəfasına dövran müsaid olmadı və əncamına fələk müavinət qılmadı". Pəs, Qasimin əlin dutub, hərəmsərayi-ismətə girüb Əvni-Əli və Əbbasi-Əlini hazır edüb xəvatini-hərəmsəraya əmr etdi ki, Qasim namzədi olan şəhzadəyə ərusanə zinət verüb gətirələr. Həzrəti-Hüseyn ol salehənin əlin Qasim əlinə verüb ayıtdı: "Ey rahəti-dil, Həzrəti-İmam-Həsən vəsiyyəti müqtəzasincə bu əmanəti sənə təslim etdim". Ərusi-namurad Qasimə təslim olunduqda Həzrəti-İmam ol hərəmsəradan çıxub mütəvəccihi-meydan oldu. Qasim ibn Həsən ol qönçeyi-ülviçəmən rüxsarinə heyran olub mütəfəkkir ikən ləşkəri-müxalifdən sədayi-"həl min mübariz"[1], səm'i-mübarəkinə irişdi. Biixtiyar tərki-xəlvət qılub əziməti-meydan tədarükündə ikən mütəhhərati-xanədani-ismət dəsti-təzərrö' daməni-pakinə urub təzərrö' etdilər ki, ey şəm'i-şəbistani-təharət və ey qönçeyi-gülbüni-səadət, bu əmanəti kimə təslim edüb gedirsən? Qasimi-məzlum abi-didə rəvan edüb ayıtdı: "Ey rəyahini-gülzari-ismət və ey nücumi-sipehri-iffət, qələbəyi-ləşkəri-müxalif İmam Hüseynə müqabildir. Nə rəva ki, bən sürura mail olam və istilayi-ə'da ləşkəri-İslama hasildir, nə münasib ki, bən sakini-xəlvətsərayi-işrət olub təğafül qılam. Bənim və'deyi-təzvicim Qiyamətə düşdü, mə'zur dutun. Şe'r:

Zəmanə bir gül etdi sərvə peyvənd,
Vəli sərv olmadı gül birlə xürsənd.

[1] (Qarşıma çıxacaq) mübariz yoxmu?

Araya saldı firqət ehtiraqın,
Ana göstərdi ol sərvin fəraqın.
Fələk bir riştəyə çəkdi iki dür,
Kəsüb ol riştəyi tiği-təğəyyür,
Bıraxdı bir-birindən dürləri dur,
Qəza bu əmrədir guya ki, mə'mur.

Ərusi-namurad pərdeyi-hicaba bərqi-ahi-həsrətlə atəş urub fəğan etdi ki: "Ey məxdumzadə, Qiyamət günü sənə nə məqamda talib olayım və nə ələmə ilə səni bulayım? Qasim ayıtdı: "Ey güli-naşüküftə və ey gövhəri-nasüftə, bəni ərseyi-Qiyamətdə xidməti- əcdadimdə cameyi-çak və dideyi-nəmnakla bulmaq olur". Pəs, ərusa vida' edüb, mütəvəccihi-meydan oldu. Əhli-Beytdən ğərivü qülqülə qübbeyi-əflaka çıxub, Həzrəti-İmam gördü ki, Qasim mütəvəccihi-dərəceyi-şəhadətdir. Gül kibi giribanın çak edüb, libasına kəfən tərkibin verüb, kəndü tiğin belinə bağlayub meydana göndərdi.

Qasim meydana girüb, cövlan edüb bu məzmunla bir rəcəz ağaz etdi. Şe'r:

Bənəm güli-çəməni-sidq Qasim ibni-Həsən
Ki, nəqdi-can qılıbam nəzri-xaki-payi-Hüseyn,
Müqimi-kuyi-vəfayam, müsafiri-rəhi-Həq,
Mütii-əmri-Həsən, talibi-rizayi-Hüseyn.

Və ləşkəri-ə'daya həmlə qılub, müqabilinə gələn həramzadələri həlak edüb, [dəryayi]-sipaha ğutə urdu və qəlbi-sipahda Ömər Sə'də müqabil durdu. Və səlabəti-sövtlə nə'rə urub nida yetürdi ki: "Ey cəfakari-tirəruzgar, bunca mö'minləri şəhid etdin, vəqt olmadımı ki, istiğfar edüb bu əməldən peşiman olasan?". İbn Sə'd ayıtdı: "Ey büzürgzadə, vəqt olmadımı ki, siz dəxi bu tüğyanı tərk edəsiz və Yezidin bey'ətin qəbul edəsiz?". Qasim ayıtdı: "Ey şəqi, tüğyan budur ki, rudi-Fəratı cəm'ii-məxluqata mübah ikən övladi-Rəsula diriğ edərsən. Aya, atəşi-səhrayi-Qiyamət xatirinə yetməzmi və və'deyi-və'idi-kəlami-münzəl dili-səngininə əsər etməzmi?!".

İbn Sə'd ol kəlimatı istima' etdikdə mülzəm olub, ləşkərinə yüz dutub ayıtdı: "Ey mübarizlər, bu şəhsəvari-yeganə və şücai-fərzanə Qasim bin Həsəndir ki, şiveyi-şücaət ana irslə yetmişdir və ayini-rəzm ana abavü əcdaddan intiqal etmişdir. Ruzi-rəzm xəncəri-abdara məhbublar navəki-müjganından ziyadə meyl edər və həngami-hərb nizeyi-əjdəhanümudara sənəmlər qamətindən füzun təvəccöh qılur. Şe'r:

Budur ol nəqdi-Heydəri-Kərrar
Ki, çəküb tiğ edəndə qəsdi-qital,
Rəşkdən xəncərini daşa çalar
Ləm'eyi-bərqi-afitabmisal.
Tayiri-tiri-tizpərvazı



Meyli-seyd eyləsə açub pərü bal,
Ana eylər həvayi-vəsl dutub,
Mürği-ruhi-müxalif istiqbal.

Həqqa ki, əhli-asimanü zəmin bir-bir müharibəsinə qüdrət bulmazlar. Səlah oldur ki, cəmi'i-ləşkər ittifaqla mütəvəccih olub, təmkini-cədəl verməyüb, kəsrəti-tiğü nizə ilə hər tərəfdən ə'zasın məcruh edüb və sədəmati-avazi-kusü nayü nəfir ilə hər canibdən mürği-ruhun sərasimə qılasuz, şayəd ki, bu tədbirlə ana qalib olasuz".

Qasimi-məzlum bu vaqiədən bixəbər ikən ol güruhi-cəfakar piyadə və səvar xaşaki-nizəvü navəklə seylabvar ol sərvi-büləndiqtidara mütəvəccih olub, araya alub bünyadi-cidal və tirbaran etdilər. Qasim bin Həsən ol qülüvdən əndişə qılmayub, bir həmlə ilə ol cəm'i pərişan edüb, İbn Sə'd Əzrəqi-Şamiyə ki, sipəhsalari-Şam idi, tiği-tə'nə urub ayıtdı: "Ey pəhləvani-Şam, sən mənzuri-ənzari-əvatifi-Yezidsən. Bunun kibi həngamə üçün nə mane'dir ki, çıxub bu mübarizin fitnəsin dəf' etməzsən?". Əzrəqi-Şami təkəbbür təriqiylə ayıtdı: "Ey bin Sə'd, bəni ərəb bin mübarizə müqabil tutarlar. Nə münasibdir ki, bir tiflə müqabil durub namusuma şikəst verəm?". İbn Sə'd ayıtdı: "Ey nadan, bu nəbireyi-Həzrəti-Mustəfa və Murtəzadır və bu nəqdi-Həsəni-Muctəbadır. Həqqa ki, əgər əsəri-atəşdən təb'i-naziki münzəcir olub inhirafi-mizac bulmasaydı və nihali-nazpərvərdi-təbiəti təşnəlikdən pəjmürdə olmasaydı, bu sipahla məsaf etmək ana ar idi". Əzrəq ayıtdı: "Çün mübaliğə qılursan, dört oğlum var, hər biri bir nadiri-ruzigar, birinə əmr edəyim, anı dutub gətürsin".

Pəs, ol bədbəxt əkbər övladına künyət verüb meydana rəvan etdikdə ol həramzadə zinətitəmamla Qasimə müqabil durub həmlə etdikdə Qasim anın tə'nin rədd edüb, ol məl'unu bir zərblə mərkəbindən yıxub, kakülindən dutub bir zəman əlində gəzdirüb, ə'zasını sındırub mübariz istədikdə ikinci oğlu meydana girib şahzadə əlində həlak olub, üçüncü oğlu meydana girib ol şahbazi-aşiyani-şücaət zərbilə anlara mülhəq oldu. Dördüncü oğlu meydana girdi. Ol şəhsəvari-meydani-məhabət anı dəxi duzəxə göndərib, Əzraq qəzəbnak olub səlabəti-təmamla meydana girdikdə şəhzadəyə zəban diraz edüb nasəzalar dedi. Şəhzadə dedi: "Ey Əzrəq, bu iztirab oğlanlar fəraqından isə, bu dərdin dərmanı əlimdədir". Həzrəti-İmam, Əzrəqi-məl'unu meydanda görüb iztirab peyda qıldı, zira ol həramzadə şücaətdə şöhreyi-dövrandı və şəhzadə həm növrəsidə və həm təşnəcigər və həm tə'əbnak və həm nigərandı. Dəsti-niyaz dərgahi-biniyaza açub duaya məşğul oldu.

Əlqissə, Əzrəqi-bədbəxt Qasimi-sahibsəadətə həmlələr qılub və şəhzadə anın həmlələrin rədd edüb, müamileyi-cidal aralarında çox zəman iştidad bulub, aqibət nəsimi-nüsrət şəhzadə canibindən mütəhərrik olub, ol zalimin dəf'inə fürsət bulub bir tiğlə mərkəbindən bıraxub, başın kəsüb, mərkəbin cənibət qılub, Həzrəti-İmam hüzurinə müraciət qıldı və zəbanihalı bu tərənnümə guya oldu ki. Şe'r:

Ey rikabi-rəxşi-iqbalın hilali-övci-din,
Nəqşi-nə'li-mərkəbin mehrabi-ərbabi-yəqin.
İqtidayi-şər'dir, fərmanına olmaq müti',
Əsli-imandır səni bilmək Əmirəlmö'minin.

"Ya Əmirəlmö'minin, nirani-təəttüş şəbistani-vücudimə ehtiraqi-təzəlzül bıraxmaqdadır və naireyi-qəhti-ab canimə qəsd edüb cigərim yaxmaqdadır. Hər necə ki, saqiyi-dövrandan təskini-hərarət qılmağa bir qətrə su istərəm, təskini-hərarətimi gah gözümdən axan seylabi-əşki-rəvana həvalə qılub və gah zəxmlərdən rəvan olan çeşmə-çeşmə qana işarət eylər və gah zülali-tiği-ə'daya rücu edər. Aya, nə hikmətdir?". Şe'r:

Şahidi-zövqi-tələb rüxsarinə ey çərxi-dun,
Bitəvəqqüf pərdeyi-fövtü fəna çəkmək nədir?
Bir içim su verмədən təşnəcigərlər qəsdinə,
Xəncəri-bidadü şəmşiri-cəfa çəkmək nədir?

Həzrəti-İmam ol məzluma müjdeyi-şərbəti-şəhadət birlə təskin verib ayıtdı: "Ey Qasim, bir dəxi dövləti-didar qənimətdir. Hərəmsərayə varıb Əhli-Beyt ilə rəsmi-müvadəə təzə qıl". Şəhzadə mütəvvəccehi-hüzuri-Əhli-Beyt olub, ərusi-şəbistani-ismət pərdəsəradan çıxub, dövləti-pabusinə müşərrəf olub, növhələr qılub, şahzadə ana təsəlli verüb yenə meydana müraciət qıldı. Əmma mövqidi-zəmirində nari-məhəbbət bəqayət müştə'il və zəmiri-müniri təəmmüli-keyfiyyəti-əvaqibi-ümura müştəğil olub derdi. Şe'r:

Nədir, ey çərxi-zalim, yarı yarindən cüda qılmaq,
Murad əhlin əsiri-dami-bidadü bəla qılmaq?!
Çü lazımdır sənə qılmaq cüda hər yarı yarindən,
Çəkübə zəhmət nə lazım bir-biriylə aşina qılmaq?!

Əlqissə, ol şəhzadeyi-kamil həzar əndühla meydana getdikdə nəzəri-mübarəki Übeydullahi-Ziyadın rayəti-nühusətayətinə düşüb, himmət anın dəf'inə məsruf edüb qəlbi-sipaha mütəvəccih oldu. Piyadələr şəhzadənin mən'inə iqdam edüb, ol Həzrət piyadələrə məşğul ikən Şis bin Nəhai kətfi-mübarəkinə bir nizə həvalə qılub, ol şəhsəvari-mə'rəkeyi-şücaəti mərkəbindən buraxdı. Ol Həzrətin igirmi yeddi zəxmi olub, hər birindən çeşmə-çeşmə qanlar rəvan olmağın zə'f qalib olmuşdu. Məğlub olub mərkəbindən cüda olduqda nə'rə urdu ki, "Ya əmmah ədrikni"[1].

Həzrəti-Hüseyn ol sədadan mütəəssir olub, mərkəbi-mücahidət meydana salub, səflər sındırub gördü ki, ol sərvi-riyazi-vilayət aludeyi-xakü xun olub, Şis bin Rəbi'i üzərinə müsəllət olmuş, səri-mübarəkin bədəndən cüda qılmaq istər. Bir zərblə ol pəlidi şəhzadənin üzərindən dur edüb ol şəhidi götürüb xeyməgaha gətürdi. Hənuz həyatından bir rəməq baqi idi. Əhli-Beyt üzərinə cəm' olub növhəvü fəğan etdikdə anların sədasından bir növbət nərgisi-şəhlasın açub, gül kibi təbəssüm edüb gülşəni-cinana əzm etdi. Rəhmətullahi əleyh. Şe'r:

Rəhmət ol əhli-dillərə kim, ixtiyarla,
Rəğbət bu kargahi-fənadan götürdülər.
Bel bağlayub təriqi-məhəbbətdə mərdvar,
Hər də'vi etdilərsə, yerinə yetürdilər.

[1] Ey əmi, dadıma yetiş!



*İkinci fəsil*

## HƏZRƏTİ-HÜSEYN VƏ ƏHLİ-BEYT ŞƏHADƏTİN BİLDİRİR

Münşiyi-əhkami-kargahi-qüdrət və mümliyi-ərqami-səhayifi-hikmət ki, bidayəti-fitrətdə "İnnəl-insanə lə-fi-xusrin"[1] ibarətiylə səhifeyi-əhvali-insana rəqəmi-hökmi-xüsran yürütmüş və zümreyi-xəvas bargahi-qürbün istisnayi-"İllə'lləzinə amənu və əmilu's-salihati"[2] işarətiylə ol cümlədən məfruz etmiş. Əmma məzmuni-"Ənnə və'də'llahi həqqun və lakinnə əksəruhum layu'minun"[3] kəsrəti-ə'dasinə bir bürhandır qate' və məfhumi – "Və qəlilun min ibadiyə'ş-şəkur"[4]qilləti-əhibbasinə bir bəyandır vaqe'. Zahirən kəsrəti-ərbabi-ədalət və qilləti-əshabi-hidayətə vəsilə oldur ki, təbiəti-bəşər əsli-fitrətdə maili-rahətdir və qəbuli-əhkami-şər'iyyə mütəzəmmini-əsnafi-məşəqqət. Qit'ə:

Rahət istər təb'ü möhnətdir ibadət sərbəsər,
Tərki-rahət rəğbəti-möhnət qılan mümtaz olur.
Bu səbəbdəndür ki, küfr asan olub, islam sə'b,
Ərseyi-aləmdə mülhid çox, müvəhhid az olur.

Filvaqe', bu məzmuna bir şahidi-sadiqdir vaqieyi-Kərbəla və bir bürhani-müvafiqdir vüqu'i-kəsrəti-sipahi-Yezid və qilləti-zümreyi-şühəda. Zira igirmi iki bin cəfakar yetmiş iki ləbtəşneyi-dilfigara müqabil durmuşdu və sərsəri-tüğyani-sitəm pərdeyi-azərmi aradan götürmüşdü. Bir tərəfdən cəmi'i-əsnafi-üdvan surəti-cəm'iyyət bulub və bir canibdən silsileyi-cəm'iyyəti-iman mütəhərrik olub, nə güruhi-müxalifdə təriqi-mürüvvət asarı hüveyda idi və nə zümreyi-şühədada qaideyi-tənəzzül və müdara nümudları peyda. Əgərçi aləmi-surətdə zəman-zaman mücahidlər əksilib, müxaliflər ziyadə olmaqda idi, əmma aləmi-mə'nidə müxalifət tənəzzül bulub, mücahidlər kəmali-rif'ət bulmaqda idi. Qit'ə:

Mümkün olmaz ki, ola aləmdə
Əhli-bütlana əhli-Həq məğlub.
Əhli-Həq qatil olsa, gər məqtul,
Zəfəri əql ana qılub mənsub.
Qətldən oldur eyləyən ikrah
Ki, şəhadət degil ana mətlub.

[1] İnsan şəksiz zərərdədir (Qur'an, 103, 2).
[2] İman edənlər və yaxşı iş görənlər xaricdir (Qur'an, 103, 3).
[3] Allahın və'di gerçəkdir, ancaq çoxları bunu bilməzlər (Qur'an, 28, 13).
[4] Qulların içində şükür edənlər azdır (Qur'an, 34, 13).

Hər ayinə Həzrəti-İmam ləşkərinin əmvatinə məzmuni-"Fəriqun fil-cənnəti"[1] tüğrayi-misali-hal və müjdeyi-"İnnəl-əbrarə lə-fi nə'im"[2] mövcibi-fərağbal olub, sükkani-riyazi-rizvandan "Səlamun əleykum bima səbərtüm"[3] təhniyeyi-qüdum olmaqda idi. Şe'r:

Nəqdi-can sərfi-rəhi-canan edən sahibnəzər,
Eşq meydanində sərxeyli-səfi-üşşaq olur.
Mənzili-məqsudədir qeydi-təəllüq səddi-rah,
Rütbeyi-tərki-təəllüq əhsəni-əxlaq olur.

Və müxalif sipahın qütəlasinə məfhumi-"Fəriqun fissə'ir"[4] təraznameyi-əməl olub, təhdidi-"İnnəl fuccarə lə-fi cəhim"[5] ehtizazü iztilal verüb müqəyyədi-səlasili-səlabət qılmaqda idi. Şe'r:

Qeydi-cəm'iyyəti əsbab giriftarı olan
Seyri-gülzari-cinan etməgə fürsət bulmaz.
Zövqi-dünya ilə zaye' keçirən övqatın,
Şərəfi-rütbeyi-tövfiqi-səadət bulmaz.

Bitəkəllüf ərseyi-Kərbəla meydani-imtiyazi-həqqü batildür və təriqi-hüsuli-kəmal əşrəfi-mənazildir. Şe'r:

Kərbəladan hasil etmişlər ülüvvi-mənzilət,
Zillətü izzətdə əhli-zülmü ərbabi-vəfa.
Nərdibani-bami-rif'ətdir təəmmül eyləsən,
Nəqşi-mövci-rigi-səhrayi-şərifi-Kərbəla.

Həqqa ki, ərseyi-Kərbəlanın əxbari-cigərsuzi andan ziyadədir ki, əhateyi-imkani-təqrirə girə və əhvali-şühədanın hekayəti-qəmənduzi andan füzundur ki, qələmi-şikəstəzəban ana surəti-təhrir verə. Şe'r:

Eyləyib hər yil cəmi'i-əhli-aləm ittifaq,
Şərh edərlər macərayi-Kərbəla əxbarını.
Nə tükənməz qissədir kim, hərgiz axir olmadı,
Şərhi aciz eylədi əhli-cəhanın varını.

[1] Bir qismi cənnətdədir (Qur'an, 42, 7).
[2] Yaxşılar hökmən cənnətdədirlər (Qur'an, 80, 13).
[3] Səbrinizdən dolayı sizə salam olsun! (Qur'an, 13, 24).
[4] Bir qismi cəhənnəmdədir (Qur'an, 42, 7).
[5] Küfr sahibləri cəhənnəmdədir (Qur'an, 82, 14).



Mə'rəkəarayi-meydani-kəlam və əncümənsərayi-məhfili-əxbarü e'lam tətimmeyi-əhvali-Kərbəladan bu təriqlə xəbər vermiş və şühədanın əncami-halın bu tərzlə bəyana gətirmiş ki, Həzrəti-imamzadə Qasim ibn Həsən səadətlə daxili-"Əshabül-cənnəti-humu'l-faizun"[1] olub mütəvəccihi-aləmi-bəqa olduqdan sonra Əbu Bəkr bin Əliyyi-Murtəza kəməri-əziməti-şəhadət miyani-cana üstüvar qılub, kəmali-təzərrö'lə Həzrəti-Sultani-Kərbəladan icazəti-meydan iltimas etdikdə, Həzrəti-İmam nərgisi-şəhladan güli-rüxsara əşki-laləgün rəvan edüb ayıtdı: "Ey qönçeyi-gülbüni-imamət və şükufeyi-bağı-rəhmət, bu təmənna qıldığın meydani-bəla ərseyi-fənadır. Bu ərsəyə qədəm basan müraciət qılmadı və bu meydana gedən gerü gəlmədi. Nə ümidlə sənə rüxsət verəyim və nə vəchlə müfariqətin rəva görəyim?". Ol sərvəri-həmidəmənaqib və ol nəqdi-Əli İbni-Əbi Talib rikabi-hümayuninə yüz sürüb ayıtdı: "Ey padşahi-məsnədi-izzü təmkin və ey şəhriyari-vilayəti-dövləti din, təhti-şəhadət içdikcə bənim dəryayi-şövqüm təməvvücə gəlüb və təəttüşüm zülali-mülaqati-Mustəfa və Murtəzaya ziyadə olub, sibqət edənlər rəşkindən həlak oluram. Nola əgər kəmali-mərhəmətindən riza hasil edüb, bən dəxi nəqdi-can bəzl eyləyüb bu meydanda muradım hasil edəm?!" Şe'r:

Can təmaşayi-riyazi-rəhmət eylər arzu,
Dil səfayi-bəzmgahi-cənnət eylər arzu.
Oldu bağrım bərqi-ifrati-hərarətdən kəbab,
Səlsəbili-rövzədən bir şərbət eylər arzu.

İlhahi-təmamla icazət hasil edüb, mütəvəccihi-meydan olub bu məzmunla bir rəcəz ağaz etdi ki. Şe'r:

Bənəm nəqdi-sultani-Düldülsəvar,
Şəhi-Qənbərü sahibi-Zülfiqar.
Bənəm əxtəri-asimani-şərəf,
Əbu Bəkr bin Heydəri-namdar.
Bənəm çakəri-nuri-çeşmi-Bətul,
Hüseyni-Əli sərvəri-kamkar.
Bihəmdullah, oldur imamım bənim,
Anın taətin qılmışam ixtiyar.
Muradım budur kim, rizasın bulub,
Ana eyləyəm nəqdi-canım nisar.

Və mübarizanə cövlanlar qılub və rif'əti-iqtidari-abavü əcdada mübahatlar edüb və səməndi-səbarəftarın təhərrükə salub və tiği-saiqəkirdarın əlinə alub, əndək zamanda yüz qırx mübariz müsafiri-rahi-ədəm qıldı və igirmi yeddi zəxmi-mühlik ə'zayi-şərifinə vasil oldu. Axirüləmr Übeydullah bin Ütbə zərbiylə dari-dünyadan intiqal etdi. Rəhmətullahi əleyh. Qit'ə:

Darüssəlam cilvəgəhin ixtiyar edüb,
Peyvənd kəsdi rişteyi-qeydi-zəmanədən.

[1] Qurtulanlar ancaq cənnət xalqıdır (Qur'an, 59, 20).

Meyli-fəzayi-rövzeyi-mülki-bəqa qılub,
Şəhbazi-ruhi uçdu bu təng aşiyanədən.

Andan sonra Ömər bin Əli mütəsəddiyi-əmri-hərb olub, səmsami-intiqamla ləşkəri-Yezidin rayəti-istiqlalinə ehtizaz buraxub, kəmali-şücaətlə mübarizlər yıxub, aqibətüləmr şərbəti-şəhadət nuş etdi. Rəhmətullahi əleyh. Və bir rəvayət dəxi oldur ki, ol Həzrət Kərbəla vaqiəsinə hazır olmadı. Əmma əsəhhi-əqval oldur ki, hazır olub şəhid oldu.

Andan sonra Osman bin Əliyyi-Murtəza mübaşiri-tərvici-ərseyi-rəzm olub, Sultani-Kərbəlanın icazəti-şərifiylə meydana girüb bu məzmunla bir rəcəz ağaz etdi ki. Şe'r:

Mən gövhəri-meydani-vəfayəm,
Osmani-Əliyyi-Murtəzayəm.
Taci-səri-aləməm və lakin
Xaki-rəhi-Şahi-Kərbəlayəm.
Tərk eyləmişəm fəna məqamın,
Bən talibi-dövləti-bəqayəm.

Ol varisi-şücaəti-Heydər və rəşheyi-zülali-vücudi-saqiyi-Kövsər Əlivar cənglər edüb və Heydəranə məsaflar qılub bikəran müxaliflər həlak etdikdən sonra Sinan bin Yezid Əbtəhi zərbiylə şəm'i-həyatı şəbistani-bədəndə intifa buldu. Rəhmətullahi əleyh. Şe'r:

Hər şəhidə göstərüb cənnətdə dövran mənzilin,
Aldı ol mənzil təmənnasində könlündən qərar.
İsmət əşcarın fəzayi-rövzədə ğərs etməgə,
Xakdani-dəhrdən bir-bir qopardı ruzigar.

Andan sonra Əvn bin Əli ki, suratlə əhsəni-ərbabi-cəmal və siratlə əkməli-əshabi-kəmal idi, Həzrəti-İmamın rikabi-səadətintisabinə ruyi-təzərrö' sürüb ayıtdı. Şe'r:

Ey fəzayi-rövzeyi-qürbin behişti-cavidan,
Padişahi-dinü dövlətsən, imami-insü can.
İxtiyari-xidmətin misbahi-əbvabi-nəcat,
İnqiyadi-taətin miftahi-əbvabi-cinan.

Ədayi-sənadan sonra ərz etdi ki: "Ey pərdəgüşayi-bargahi-"İnni ə'ləmu ma-la tə'ləmun"[1], və ey arifi-əsrari-"Nun vəl-qələmi vəma yəsturunə"[2], icazəti-meydani-iltifat et ki, ərseyi-heycada hənuz sənin rayəti-zəfərayətin sayəgüstər ikən və nəzəri-iltifatın aləmi-zahirdə bəndəpərvər ikən zilli-mərhəmətində vasili-dərəceyi-şəhadət olam. Zira muradım budur ki, divani-Həşrdə şəhadətinlə şəhadətimi isbat qılam". İlhahla icazət aldıqda ayıtdı: "Ya İmam, bir

[1] Sizin bilmədiklərinizi mən bilirəm (Qur'an, 2, 30).
[2] Nun, qələm və yazılanların haqqı üçün (Qur'an, 68, 1).



tədbir etmişəm". Həzrəti-İmam ayıtdı: "Ol tədbir nədir?" Əvn ayıtdı: "Ya İmam, bu ləşkəri-binəhayətdir, bunlarınla bir-bir mühari̇bə etmək bizə sərfə etməz. Zira əgər təərrüz görməyüb, işimiz mücərrəd tiğ urub qətl etmək olsa, imtidadi-tuli-ömrümüz bu ləşkərin nihayətinə yetməz. Səlahım oldur ki, ələmi-ələmeyi-təvəccöhdə qəlbi-ləşkərə həmlə qılam, ola ki, ələmi-ələmeyi-əskəri-müxalifələrin sərnigun etməgə fürsət bulam". Həzrəti-İmam ayıtdı: "Ey şahi-mülki-məlahət və şahbazi-övci-səbahət, süfufi-ləşkəri-ə'da bir mərtəbədə hayil degil ki, ol müddəaya fürsət mütəsəvvir ola". Əvn ayıtdı: "Ey sərvəri-həmidəxisal və seyyidi-sütudəfəal, həmleyi-ənqaya təbəqati-pərdeyi-ənkəbut hicab olurmu və hücumi-seylaba süfufi-xarü xaşak mümaniət qılurmı?". Bu tədbirlə ol sərvəri-qazi və ol meydani-qəza sərəfrazi qəlbi-ləşkərə həmlə qıldıqda İbnül-Əhcar, ol pəlidi-qəddar iki bin mübarizi-xunxarla şəhzadəyə istiqbal edüb bünyadi-hərb etdi. Qit'ə:

Tişeyi-Fərhad qəsdi-Bisütun eylər vəli,
Tişə ilə Bisütun daşı tükənməkdir məhal.
Mün'ədim olmaq nə mümkün ləşkəri-murü məgəs,
Tutalum kim, əjdəha dəm urdu, Simürğ açdı bal.

Şahzadə ol haramzadələrdən qətl etdikcə qəlbi-ləşkərdən müavinət gəlüb, şəhzadəyə təhəccüm qılub, qəlbi-ləşkərə düxul mütəəzzir olub, Həzrəti-İmamın şövqi-didarı şəhzadənin inani-əzimətin canibi-xeyməgaha mün'ətif qılub dövləti-mulazimət müyəssər olduqda, Həzrəti-İmam ana dualar qılub ayıtdı: "Ey Əvn, cərahətlərin çoxdur. Bir zəman hərəmsərayə təvəccöh qılub, cərahətlərin bağladıb, bir miqdar istirahət edüb, yenə meydana gəl". Əvn ayıtdı: "Ey bəradəri-büzürgvar, görürəm ki, saqiyi-Kövsər bir cami-şərbət mühəyya qılıbdur, bana işarət etməkdədir. Vəhmim andandır ki, bən mütəvəccihi-rahət olduqda bu şərbət fövt olub təəttüşüm ziyadə ola və canımda Fərat suyundan ziyadə bu şərbətin təhəssürü qala". Həzrəti-İmam gördü ki, mən' olunmaz, ayıtdı: "Ey Əvn, rikabındakı mərkəb cərahətlərdən zəbun olubdur. Ol ədhəm ki, Həzrəti-Əliyyi-Murtəzadan sənə inayət qılınmışdı, mübarəkdir, səfəri-axirət üçün anı rikabi-hümayuna çək".

Əvni-Əli ol mərkəbi müşərrəf edüb, mə'rəkəyə girdikdə Saleh bin Yəsar ki, Həzrəti-Murtəzanın əyyami-xilafətində müstəhəqqi-tə'zir olub, əmri-şər' müqtəzasincə Əvni-Əli səksən taziyanə urmuşdu və ol kinə həmişə xatirində idi, Əvnə intiqam üçün müqabil durdu və Əvn ana fürsət verməyüb bir zərblə həlak edüb mübariz istədikdə ləşkəri-füccar piyadəvü səvar bihəddü bişümar hər canibdən tirbaran edüb o üqabi-büləndpərvaz sihami-ə'dadan balü pər peyda qılub, qüvvətü qüdrət olduqca viraneyi-qəflət bumların mütəfərriq edüb, aqibət təriqi-ixvanü ənsaba salik olub şərbəti-şəhadət içdi. Rəhmətullahi əleyh. Qit'ə:

Kim ki, girdi Kərbəla meydaninə fürsət bulub,
Nüzhəti-üqbaya təbdil etdi dünyanın qəmin.
Qayib oldu kim ki, cüllabi-şəhadət qıldı nuş,
Aləmi-qeyb eylədi dövran şəhadət aləmin.

Andan sonra Əbdullah bin Əliyyi-Murtəza şəhriyari-məsnədi-rizadan icazəti-meydan alub, ərseyi-meydanı cilveyi-səməndi-səbaseyrilə fanusi-xəyal edüb, əsrəi-hərəkatla yüz səksən mübarizin rişteyi-həyatın qət' etdikdən sonra Hani bin Süveybi-Həzrəmi zərbiylə şərbəti-həyati-əbədi nuş etdi. Şe'r:

Bargahi-qürbdə tərtib olub bəzmi-sürur,
Növbətilə içdilər cami-tərəb fərzanələr.
Pənceyi-dövran şəhadət riştəsinə verdi tab,
Dövrlə bir-bir düzüldü riştəyə dürdanələr.

Andan sonra növbəti-təcərrö'i-şərbəti-şəhadət Əbbas bin Əliyyi-Murtəzaya yetdi və ol Həzrət ələmdari-sipah və ələmeyi-ləşkəri-zəfərpənahdı. Çün gördü ki, təngnayi-həyati-müstəarifani tərtibi-süfufi-əskəri-ərbabi-vəzayə müzayiqə verüb, ləşkər bir-bir fəzayi-ələmi-bəqayı cilvəgah etməkdədir və Sultani-Kərbəladan bir-bir rüxsət alub məziqi-möhnətdən ol fəzayi-fərəhfəzaya getməkdədir, ələmi-[ələmeyi]-əskəri-hümayunu dili-zəmində möhkəm edüb Həzrəti-Sultani-Kərbəlanın rikabi-hümayunun mülsəmi-təqbili-ədəb qılub, bu təriqlə ərzi-niyaz etdi ki: "Ey ləngəri-səfineyi-səbrü təhəmmül və ey ənqayi-Qafi-təslimü təvəkkül, vəqt oldu ki, bən dəxi ələməfrazi-aləmi-ülvi olam və ələmi-ahı ələmeyi-ülüvvi-iqtidar edüb aləmi-üqbaya təvəccöh qılam".

Həzrəti-İmam giryan olub ayıtdı: "Ey Əbbas, sən ələmeyi-əskəri-İslam idin. Hala ki, ləşkər badiyeyi-fənadan mülki-bəqaya əziməti-rihlət qıldı, sana dəxi ol diyara ələm çəkmək münasib oldu. Əmma sana nəsihətim budur ki, meydana gəldikdə bu zalimlərə təcdidi-hüccət təriqiylə nəsihət verəsən".

Əbbasi-Əli qəbul edüb, mütəvəccihi-meydan olub, ənvai-lö'blə ə'daya məhabət buraxub bu məzmunla bir rəcəz ağaz etdi ki. Şe'r:

Bənəm Əbbas-sərdari-müxalifsuzi-xəsməfkən,
Müti'i-Mustəfa, nəqdi-Əmirəlmö'minin Heydər.
Əgər dəryayə düşsə tiği-atəşbarımın əksi,
Şüaindən olur dəryada hər bir qətrə bir əxgər.
Və gər toprağa pərtöv salsa şəm'i-rayəti-əzmim,
Ziyasından olur topraqda hər bir zərrə bir əxtər.

İzhari-ismü rəsm etdikdən sonra avazi-büləndlə nida qıldı ki: "Ey qövmi-bimürüvvət, əgər nəsihət məqbul isə Həzrəti-Hüseyni-Əlidən sizə rəsuli-pəyamgüzaram və əgər xilafi-təriqi-mürüvvət dutsanuz, müəddiyi-karzaram". Ol müanidlər ayıtdılar: "Peyğamın nədür?". Əbbas ayıtdı: "Ey bivəfalar, Həzrəti-Sultani-Kərbəla və nəqdi-Mustəfa və nuri-çeşmi-Murtəza və cigərguşeyi-Zəhra buyurur ki, təmamiyi-vəfadarü həvaxahlərimi qətl etdinüz. Vəqt olmadımı vaqe' olan əhvaldan peşiman olub bu nirani-təəttüşdən iztirab edən övrətü ətfala bir içim su verəsiz ki, ləbi-xüşklərin tər qılalar və aman verəsiz ki, anları alub canibi-diyari-Rum, ya Hindü Çinə çıxub cəzireyi-Ərəb və mülki-Hicazı sizə müsəlləm qılam və şərt edəm sizinlə tə ruzi-Qiyamət müxasimə qılmıyam?!".



Bu kəlimatdan ləşkəri-Yezidə xürüşü qülqülə düşüb, bə'zi mütəəssif olub, ümərayi-ləşkərə qəsd etmək tədarükində ikən Şimri-Zilcövşən və Şisi-Rəbii və Həcərüləhcar fitnədən təvəhhüm edüb, ləşkərə təmkin verməyüb Həzrəti-Əbbasa müqabil durub ayıtdılar: "Ey Əbbas, əgər təmamiyi-ruyi-zəmin seylabla dolsa və anın hifzi bizüm qəbzeyi-iqtidarimizdə olsa, Yezidə bey'ət etməyincə bir qətrə su Hüseynə və ətbainə verilmək mümkün degil".

Əbbas ol tayifədən novmid olub, müraciət qılub ərzi-hal etdikdə nagah ətfali-Əhli-Beytdən fəryadi-"Əl-ətəş, əl-ətəş"[1] səm'i-mübarəklərinə irişüb, bir-iki məşkü məthərə alub biixtiyar seylmanənd mütəvəccihi-rudi-Fərat oldu. Və dört bin namərd ki, mühafizəti-Fərat üçün müqərrər olmuşdu, Əbbası görüb səvarü piyadə mütəvəccih olub tirbaran etdilər. Ol şiri-bişeyi-məhabət əndişə qılmayub, ol güruha həmlə qılub, bir həmlədə yetmiş namərd dərəkati-cəhənnəmə göndərüb, tətimməsin pərakəndə qılub Fərata girdi. Əmma təmkin verməyüb, səvarü piyadə hücum edüb tirbaran etdilər. Ol nəhəngi-dəryayi-şücaət Fəratdan çıxub, yenə ol dəryayi-tüğyana əsayi-Musa kibi çaklar salub, gerü Fərata müraciət qıldı. İstədi ki, mərkəbin sirab edüb kəndü dəxi bir miqdar su içə, yenə Əhli-Beytin ləbtəşnəvü cigərsuxtələri yadına gəlüb rəva görmədi ki, anlardan müqəddəm sirab ola. Əlqissə, bir içim su içmədən əlindəki məşkü məthərəyi pürab edüb çıxdıqda ol bədbəxtlər ətrafın alub, tirbaran edüb əsnayi-müharibədə Nofəl bin Əzrəqi-həramzadə qəfil tiği-bidiriğ urub, ol məzlumun saidi-yəminin bədəni-mübarəkindən cüda qıldı. Əbbas ol məşki əlindən buraxmıyub, bazuyi-yəsara salub rəvan oldu. Bir həramzadə dəxi fürsət bulub bir zərbə ilə bazuyi- yəsarın dəxi qət' etdi. Rəvayətdir ki, ol saniyi-Cə'fəri-Təyyar və varisi-Heydəri-Kərrar ol məşki buraxmayub, mübarək dişləriylə kətfinə buraxub rikabla ə'dayi ətrafindən mən' edərdi və derdi. Şe'r:

Səbrdən qət'i-kəfü said bəni mən' eyləməz,
Nəxli qılmaz münhərif nöqsani-bərgü şaxsar.
Mərdi-meydani-bəlayam, qət'i-ə'zadan nə bak?
Şəhpəri-himmətdədir pərvazi-övci-iqtidar.

Nagah bir həramzadə dəxi zəxmi-navəki-dilduzla ol məşki dəlüb anda olan su məzlumlar əşki kibi və şəhidlər qanı məsabəsində xaki-Kərbəlaya töküldü. Əbbas ol vaqiədən pərişan olub ahi-cigərsuz sineyi-pürатəşdən çəküb ayıtdı: "Ya Rəb, bu nə halətdir ki, bir qətrə su Əhli-Beytə nəsib olmaz". Hatifdən nida gəldi ki: "Ey məzlum, hüsuli-dərəcati-üxrəvi asan olmaz və cəfa çəkmədən heç salik mənzili-məqsuda dəstrəs bulmaz. Şe'r:

Fəraq atəşi rövşən qılub çirağı-vüsal,
Hərarəti-atəş eylər ziyadə zövqi-zülal.

Əlqissə, Əbbasi-Əli ol iki zəxmi-mühliklə mərkəbdən düşüb nərə urdu ki: "Ya əxi, ədrik əxakə"[2]. Hüseyni-məzlum ol avazı istima' edib fəğan etdi ki: "Ə'lanə ənkəsərə zəhri", yəni imdi belim sındı". Və bir ahi-cigərsuz çəkdi ki, zəmini-Kərbəla mütəzəlzil oldu. Şe'r:

[1] Susadım, susadım.
[2] Ey qardaşım, qardaşına yetiş!

Getdi ol sərvi-səmənbər ki, dilaramım idi,
Rahəti-sinəvü kami-dili-nakamım idi.

Rəvayətdir ki, Məhəmməd Ənəs Həzrəti-İmam xidmətində idi. Həzrəti-Əbbasın avazın istima' etdikdə və ol səda istima'indən şahzadə Hüseynin iztirabın gördükdə mütəvəccihi-meydan olub gördü ki, Həzrəti-Əbbas ağüşteyi-xakü xun olub can vermiş. Kəndüsin anın üzərinə buraxub şivən edərkən ləşkəri-müxalif səvarü piyadə tirbaran edüb anı dəxi şəhid etdilər. Rəhmətullahi əleyhi.

Çün cəmi'i-ənsabü əqrəba şəhdi-şəhadət nuş edüb növbəti-təcərrö'i-şərbəti-bəqa Hüseynə və övladinə yetdi, hiddəti-atəşi-sitəm cigəri-kainata tə'sir etdi. Asiman pənceyi-xurşidi daməni-dövrana urdu ki, vəqt oldu bu dövri-müxalifdən peşiman olasan və əcəli-Mələkülmövtə ağazi-təərrüz etdi ki: "Necə bir bəni Ali-Mustəfadan şərmsar qılasan?" Şe'r:

Təcavüz qıldı həddən ey fələk bidadın, insaf et,
Yetər tə'zimi-əşrar eyləyib təxfifi-əşraf et.

Rəvayətdir ki, Hüseyn ibn Əlinin üç oğlu olub, biri Əliyyi-Əkbər idi və biri Əliyyi-Əvsət idi ki, Zeynəlabidindür və biri Əliyyi-Əsğər idi ki, Əbdullah derlər və Həzrəti-İmam anın ismiylə mükənnadür. Ol sərvəri-mülki-bəqa və məhrəmi-sərapərdeyi-vəfa övladınun fövtü mövtün görməmək məsləhəti üçün kəndüyə silah mürəttəb qıldı, mütəvəccihi-meydan olmağa. Əliyyi-Əkbər xurşidi-rüxsarun Həzrəti-İmamın kəfi-payi-ərşpayəsinə sürüb, təzərrö' edüb rüxsəti-meydan istədi. Hər necə ki, xəvatini-hərəmsərayi-nübüvvət fəryadü fəğanla mən' etdilər, faidə qılmadı. Həzrəti-İmam təzərrö'vü ilhahindən mütəəssir olub, kəndü mübarək əliylə əsbabi-rəzmin mürəttəb qılub, Həzrəti-Adəm kəmərin ki, Şahi-Vilayətdən yadigar idi, belinə bağlayub və Həzrəti-Əbbasın mərkəbinə bindirüb, himməti-aliyəsin bədrəqeyi rahi-bəqa qılub meydana rəvan etdi. Şe'r:

Vəh ki, ol gülrux səfər əzminə ahəng eylədi,
Şəhrü səhrayı bana könlüm kibi təng eylədi.

Rəvayətdir ki, ol zəmanda şahzadə on səkkiz yaşında olub sünbüli-gisuyi-müşkbarı gülşəni-rüxsarinə sayə salmaqda idi və ətrafi-laləzarı bənəfşeyi-tərdən müzəyyən olmaqda idi. Və bu məşhurdur ki, hüsni-surətlə Rəsulullaha andan əşbəh madəri-əyyamdan mütəvəllid olmamışdı və andan əmləh daireyi-vücuda ədəmdən gəlməmişdi. Hərgah ki, Əhli Beytə arzuyi-istima'i-kəlimati-Rəsul qalib olurdu, anın [lə'li-şəkərbarın göftara gətirirlərdi və hərgah ki, didari-seyyidi-kainata müştaq olurlardı], anın çehrəsindən didəyə nuri-sürur yetürürlərdi. Əlqissə, ol nihali-gülşəni-səbahət ol zəman ki, rüxsət alub sərvi-xüramanın aləmi-ərseyi-meydan etdi, zövqi-pabusi-səməndi-səbükseyrdən zəmzəmeyi-mübahat zəminü asimana yetdi. Şe'r:

Üqabi-bərqşitabı səbadan aldı qərar,
Sipehri eylədi heyran sür'əti-rəftar.



Zəminə rəxşi salub nəqşi-mixi-rizeyi-nə'l,
Səvabit eylədi zahir kəvakibi-səyyar.
Lətafəti-hərəkatinə afərinlər edüb,
Təbəq-təbəq düri-əncüm sipehr qıldı nisar.

Hər tərəf cövlanlar edüb lö'blər göstərdikdən sonra bəyani-ismü rəsm edüb nə'rə urdu ki: "Bənəm şükufeyi-nihali-təqva, bənəm nəqdi-Hüseyn bin Əliyyi-Murtəza". Şe'r:

Bənəm ol şahi-şahzadeyi-dəhr
Ki, sifatimdə əql heyrandür.
Həsri-övsafi-qədrü mənzilətim,
Xarici-ehtimalü imkandır.
Nurbəxşi-çirağı-icadım,
Mahi-kövneynü Şahi-Mərdandır.
Cəddi-pakım Məhəmmədi-Mürsəl,
Əsli-zatım Əliyyi-İmrandır.

İbn Sə'd ki, ol füruği-şə'şə'eyi-cəmalı mütaliə qıldı və ol lətafəti-hüsni-məqala vaqif oldu və şahzadənin kim olduğun bildi, kəndü qəbahəti-ə'alindən əsəri-infi'al bulub, ahi-həsrət çəküb ə'yani-ləşkərə ayıtdı: "Ey qövm, bu sərvər əkbəri-övladi-Hüseyn bin Əlidir ki, şəklü şəmayildə şəbihi-həzrəti-Nəbidir". Bir zəman mütəhəyyir olub kimsənəyə rüxsət vermədi ki, meydana girə və ana bir ələm yetürə. Zira bildi ki, məks etdikcə təərrüzi-ləşkər ehtiyac olmayub ol növcəvanın həlakinə tiği-təəttüş yetər və navəki-şüai-afitabi-suzan və sinani-zəhrəşikafi-səmumi-cigərsuz kifayət edər. Şahzadə gördü ki, dirəng etməklə şəmşiri-hərarət tiz olub mövcibi-zə'fi-qüva və baisi-riqqəti-ə'za olur, bimühaba kəndüsin qəlbi-sipaha urub bünyadi-cidal etdi və hökmi-zülali-şəmşiri-abdarın mümkün olduqca məcariyi-üruqi-əbdani-ə'daya yürütdü. Əmma izhari-kəmali-şücaət edüb, şövqlə cəng edərkən tabi-afitabdan zireh həlqələri hiddəti-hərarət bulub bədəni-nazpərvərdinə dağlar urdu və ehtimali-aləti-hərb kətfi-şərifinə ələmlər yetürdi. Şe'r:

Bari-tari-pirəhəndən inciyən cismi-lətif,
Necə çəksin rəzm meydanında bəndi-ahənin?
Nazpərvərdi-nəimi-şəfqətü ehsan olan,
Necə olsun qabili-bidadi-əhli-zülmü kin?

Əlqissə, külfəti-alati-rəzm əlaveyi-ənduhi-təəttüş olub, şahzadə tələtümi-hərbdən kənara çıxub, validi-büzürgvarının xidmətinə müraciət edüb fəryada gəldi ki: "Ya əbətah, zəbəhəni əl-ətşu və əsqələni'l-hədid"[1], yə'ni "Bəni həlak etdi susuzluq və ağırlandırdı bari-ahən". Həqqa ki, əgər bir qətrə suyla təskini-hərarət versəydim, ləşkəri-müxalifi qərqeyi-tufani-fəna qılırdım". Həzrəti-İmam gərdi-meydan çehreyi-pakindən pak edüb, Həzrəti-Rəsulun nigini-mübarəkin

[1] Ey atacan, susuzluq məni öldürdü və dəmir də əzdi.

təskini-hərarət üçün lə'li-abdarinə mülazim etməgin bir miqdar təskin bulub yenə meydana müraciət qıldı. Bu növbət İbn Sə'd, Tariq bin Şisə əmr etdi ki, ey Tariq, sən meydana girüb bu şəhzadə dəf'inə qüdrət bulsan, vilayəti-Mosul hökumətin sənə ən'am edərəm. Tariqi-məl'un hökuməti-Mosul həvasiylə meydana girüb Əli bin Hüseynə nizə həvalə qıldı. Şəhzadə ol bəd-bəxtin nizəsin rədd edüb sineyi-pürkinəsinə bir nizə urdu ki, nuki-nizə səbzəmanənd şurəzari-cismi-pəlidindən baş çıxarub həlak oldu.

Andan sonra Ömәri-Tariq gəlüb şəhzadə əlindən şərbəti-fəna içdi. Andan sonra Misra'bin Qalib meydana gəlüb müqabil olduqda şəhzadə şücaəti-Mustəfəvi və cəladəti-Murtəzəvi izhar edüb, tiği-abdarla nizəsin qələm qılub fərqi-namübarəkinə bir zərb urdu ki, iki parə olub mərkəbinin iki tərəfindən meydana düşdü. Ləşkəri-müxalif ol zərbi-dəsti görüb, bərgi-xəzan kibi lərzan olub müharibəsindən mütəvəhhim olduqda İbn Sə'd Möhkəm bin Tüfeyli iki bin mübarizlə [şəhzadənin məsafinə təhris etdi. Möhkəm bin Tüfeyl iki bin mübarizlə] ol afitabi-asimani-vilayəti araya alub, şəhzadə əndişə qılmayub, nəş'eyi-vilayət sərməsti olub, ol iki bin namərdi mütəfərriq edub bir dəxi Həzrəti-İmam xidmətinə təvəccöh edüb ayıtdı: "Ya əbətah, əl-ətəş, əl-ətəş"[1]. Həzrəti-İmam dideyi-nəmnakdan seyli-xunabə rəvan edüb dedi: "Ey cigərguşə, səbr et ki, səninçün şərbəti-Kövsər mühəyya olubdur".

Şəhzadə ol başarətlə meydana müraciət qıldıqda, ləşkəri-ə'da hücum edüb, yəminü yəsarın alub və nihali-cismi-lətifi gülbüni-qönçə kibi pürpeykan olub və sipərmisal ə'zayi-şərifinə müxtəlif zəxmlər, çaklar salub, aqibətüləmr İbn Təmir tə'nəsiylə, bir rəvayətdə Mən'ə bin Mürreyi-Əbdi zəxmilə mərkəbdən düşüb nə'rə urdu ki, "Ya əbətah, ədrikni"[2]. Şe'r:

Qərqi-girdabi-fəraq oldum, tərəhhüm qıl, səba,
Şərh edüb halım, bənim, billah, yetür dildarımı.
Qıldı cəlladi-fələk qəsdi-həlakım Tanrıçün,
Ərz qıl dildarimə hali-dili-əfgarımı.
Var ikən cismimdə can, məqsudum oldur kim, qılam,
Şəm'i-ruyindən münəvvər dideyi-xunbarımı.

Həzrəti-İmam ol məzlumun intizarında ikən və nə'rəsin eşidüb, biixtiyar meydana girüb ol sərvi-rəvanı xaki-məzəllətdən götürüb xeyməgaha yetürdi və rüxsarın rüxsarinə sürüb ayıtdı: "Ey fərzəndi-dilbənd və ey arami-dili-dərdmənd, bir təkəllüm et". Şəhzadə göz açub validi-büzürgvarın, bəradəri-qəmgüsarın və valideyi-biqərarın üzərində görüb ayıtdı: "Ya əbətah, gördüm ki, əbvabi-asiman məftuh olub, şərbəti-səlsəbildən camlar mürəttəb olubdur". Bu təkəllüm əsnasında ruhi-pürfütuhi rövzeyi-rizvana intiqal etdi. Şe'r:

Mahi-cəmalın ol güli-bağı-risalətin
Sitri-səhabi-mərg nihan etdi, ey diriğ!
Şaxi-güli-hədiqeyi-iqbali-ruzigar,
Pamali-inqilabi-xəzan etdi, ey diriğ!

---

[1] Atacan, susadım.
[2] Atacan, yetiş!



Və bu dəxi bir rəvayətdir ki, şəhzadə qəlbi-sipahi-ə'daya həmlə qıldıqda Həzrəti-İmamın nəzərindən qayib oldu. Ol Həzrət biixtiyar anın mütalibətinə rəvan olub, "ya Əli, ya Əli"-deyib, hər tərəf gəzüb fəryad edərkən nagah bir canibdən sədayi-"Ya əbətah" istima' edüb ol canibə rəvan oldu, əmma əsərin görmədi. Və səbəb ol idi ki, Mən'ə bin Mürruyi-həramzadə şəhzadəyə zəxm urluqda bişüur olub, mərkəb biixtirar anı meydandan çıxarub, bir səhraya bıraxmışdı. Həzrəti-İmam şəhzadə təfəhhüsündə ikən gördü ki, mərkəbi-birakib mütəvəccihi-xeyməgah oldu. Cameyi-səbrü təhəmmül çak edüb mərkəbi tutmaq istədi. Mərkəb fərar etdikdə Həzrəti-İmamı ol mənzilə ilətdi ki, şəhzadə düşmüş idi. Həzrəti-İmam gördü ki, şəhzadə aludeyi-xakü xun olub, hənuz həyatından bir rəməq var. Mərkəbindən piyadə olub, səri-mübarəkin kənari-şərifinə alub, ruxsarın rüxsarinə sürüb, şəhzadə gözün açdıqda Həzrəti-Sultani-Kərbəlanun rüxsari-mübarəkin görüb ayıtdı: "Ey validi-büzürgvar, hala görürəm ki, Həzrəti-Rəsul iki əlində iki cam dutubdur. Birin bana vermək istədi, bən ayıtdım: "Ya cəddah, ikisin dəxi iltifat et ki, qayətdə təşnəyəm". Buyurdu ki, "Ey Əli, bu camlərin biri sənə mənsubdur, sən təsərrüf et. Bu birinə təmə' qılma ki, Hüseyn içün mühəyya olubdur. Hala gəlüb nuş edəcəkdir". Bu təkəllümdə ikən canın canana təslim etdi. Rəhmətullahi əleyh.

Dərda ki, içdi bəzmi-bəlada meyi-fəna,
Canü cəhandan almadan ol növrəsidə kam.
Gülzari-ömri gördü xəzan, görmədi bəhar,
Mahi-cəmalı etdi qürub, olmadan təmam.

Diriğa ki, nihali-növrəsi-imamət izhari-şükufə qılub, çəmənarayi-bustani-vilayət olmuş ikən sərsəri-xəzani-fənadan şikəst buldu və hilali-asimani-səyadət guşeyi-əbru göstərüb əhli-iştiyaqı nəzzarəsiylə məsrur etmiş ikən bədri-təmam olmadan səhabi-əcəldə müxtəfi oldu. Müxəddərati-sərapərdeyi-ismət bünyadi-növhə qılub təcdidi-matəm etdilər. Filvaqe' bu vaqieyi-dilduzun ləhibi-nirani-hərarətindən bir xunincigər agahdır ki, dili-parə-parəsi bir fərzəndi-dilbənd dağı-fəraqiylə yanmış ola və bu hadiseyi-qəmənduzin hərarəti-mərarətindən bir dilsuxtə vaqifdir ki, nəxli-həyatının tazə ikən sərsəri-həvayi-müxalifdən bir şaxsarı sınmış ola. Həzrəti-İmam vücudi-hirqəti-təmam ilə xəvatini-Əhli-Beytə ol müsibətdə təsəlli verüb derdi: "Ey Əhli-Beyti-risalət və ey riyazi-gülzari-imamət, bəlayi-asiman nüzul etdikdə asarı cəmi'i-gülzari-imamət, bəlayi-asiman nüzul etdikdə asarı cəm'i-kainata şamildir və kafirü müsəlman əhateyi-ümumi-möhnətə daxildir. Əmma əyari-imtiyazi-mö'min bəlada səbrü şükr etməklə rütbeyi-rif'ət bulur və kafir cəzə'vü iztirab qılmağ ilə məqhurü məzmum olur və təqriri-dilpəziri-"İnnəma yüvəffə's-sabirunə əcrəhüm bi-ğayri-hisabin"[1] bu məzmuna əsəhhi-dəlayidir. Şe'r:

Səbr etməyüb müsibətə hər kim qılur cəzə',
Şayisteyi-məvahibi-əfvü əta degil.
Mə'lum olur məsayibi-ərbabi-küfrdən
Kim, səbrdir vəsileyi-rəhmət, bəla degil.

---

[1] Ancaq səbr edənlərə saysız mükafat verilir (Qur'an, 39, 10).

Ey xəvatini-sərapərdeyi-sitrü ifaf, səbr edin və təhəmmül pişə qılun ki, bu səbrü təhəmmülün nəticəsi axirətdə rövzeyi-nə'im və dünyada Qiyamətədək ehtiramü tə'zimdir. Zinhar, zinhar, bəndən sonra çaki-giriban edüb muyi-sər pərişan etməyəsüz ki, mövcibi-şəmatəti-ə'da olmaya. Əmma giryədən sizi mən' etməzəm, zira abi-dideyi-məzlum hədiqeyi-rəhməti sirab edər və seyli-əşki-qəribi-məhmum ilə mir'ati-əməldən qübari-küdurət gedər". Pəs əsağiri-övladını əkabirə əmanət təriqiylə təslim edüb və məcmuin Vacibülvücuda tapşırub, vida' qılub meydani-məsafa mütəvəccih olduqda mütəhhərati-Əhli-Beyt bir növhə qıldılar və bir növ'lə nalan oldular ki, sükkani-səvami'i-mələkut ğülğüleyi-növhələrindən sərasimə olub [təsbihü təhlillərin fəramuş etdilər və ənadilü qümariyi-riyazi-behişt zəmzəmeyi-giryələrindən] mütəhəyyir qalub kəndü sürudlərin unutdular. Şe'r:

Şahidi-ifrati-ğəmdir kəsrəti-fəryadü ah,
Seyli-abi-çeşm miqdarı dil azarincədür.
El əzasinə nə nisbətdir əzayi-Əhli-Beyt,
Çün əzası hər kimin məqtul miqdarincədür.

Ol hala müqarin Əliyyi-Əsğər ki, tifli-şirxarə idi və hərarəti-ruzigar qönçeyi-pistani-validəsinə hiddəti-peykan verüb ol tiflin çeşmeyi-məişətin məsdud qılmışdı və ol tifli-mə'sum iztirabi-cu'vü ətəşdən vərteyi-həlaka qərib olmuşdu, Həzrəti-İmama əhvalın ərz etdikdə, Həzrəti-İmam ol tifli mübarək əlinə alub, ləşkəri-müxalifə müqabil durub ayıtdı: "Ey zalimlər, tutalım ki, bən günahkaram, bu tifli-bigünaha neçün bir qətrə su verməzsiz?". Ol səngparələrdən abi-rəvan çıxmaq mümkün olmayub ayıtdılar: "Ey Hüseyn, Übeydullahi-Ziyadın hökmi-rəvanı su mən'ində müəkkəddir, təğəyyür bulmaz və bey'ət etməyincə sana və övladına su içmək müyəssər olmaz". Həzrəti-İmam novmid olub müraciət etmək sədədində ikən Hüzeymə Kahili bir navəki-dilduza güşad verüb, ittifaqla ol mə'sumun hülqi-mübarəkinə dəgüb, güzar edüb Həzrəti-İmamun saidi-mübarəkinə sancıldı. Həzrəti-İmam ol oxu çəkdikdə ol tiflin hülqumundun çeşmeyi-xun rəvan olub, pak edərək validəsinə yetirüb ayıtdı: "Ey biçarə, fərzəndin şərbəti-şəhadət ilə sirab oldu".

Rəvayətdir ki, Əliyyi-Əsğərlə yetmiş iki nəfər təmam oldu və Həzrəti-İmam Zeynəlabidindən qeyri ki, bimardı, səhrayi-vücudda Həzrəti-Hüseynə həmrah qalmadı. Şəhzadə kəndüsin tənha gördükdə ahi-cigərsuz çəküb bu məzmunla bir rəcəz ağaz etdi ki. Şe'r:

Dərda ki, dari-dəhrdə bir yar qalmadı,
Bir yari-qəmgüsarü vəfadar qalmadı.
Dami-bəladan əhli-vəfa buldular nəcat,
Bir bəndən özgə zarü giriftar qalmadı.

Rəvayətdir ki, Həzrəti-İmam Zeynəlabidin validi-büzürgvarın tənha görüb, riqqəti-təmamla xabgahdan dışra çıxub, cismi-zəif və kəfi-lərzanla kəndüyə əsbabi-rəzm mürəttəb qılub, əziməti-meydan etməkdə ikən Həzrəti-Hüseyn ayıtdı: "Ey nuri-didə, hala sənə rüxsəti-şəhadət yoxdur, zira silsileyi-siyadət sənə mərbutdur və bəqayi-nəsli-Mustəfəvi sənin vücudinə məşrutdur". İmam Zeynəlabidin ayıtdı: "Ey məxdum, haşa ki, bən şərbəti-şəhadətdən binəsib və dövləti-didari-şərifindən məhrum qalam?". Həzrəti-Hüseyn ayıtdı: "Ey cigərguşə, bəzmi-bəlada cami-şəhadət nuş etməgə hənuz sənə növbət yetməmişdir və saqiyi-əcəl səni hənuz yad etməmişdir. Ənqərib sən dəxi bu şərbətdən içüb bizə vasil olursan və muradınca bu xani-müsibətdən nəsib alursan". Pəs, həzrəti-Zeynəlabidini hüzurinə alub cəddü abadan mövdu' olan əmanətləri ol Həzrətə tapşurdı. Kəlamüllahi-Məcid və müshəfi-Fatimə, cifri-əbyəz və cifri-came', elmi-qiyamət və baqi ülum ki, əimmədən qeyrə mümkün degil, ana təslim edüb və anı Vacibülvücuda tapşırıb. Şe'r:

Seyr eylədi zülali-səfa bağa bağdan,
Nur etdi intiqal çirağa çirağdan.

Təslimi-əmanət etdikdən sonra ziyafətxaneyi-behişt əzimətin müqərrər bilüb: "Dostlar vəliməsinə getdikdə müzəyyən olmaq rəsmdir" – deyüb bir dəxi hərəmsərayə girüb, qübari-meydandan məhasinü gisu pak edüb və təcdidi-libas təriqiylə dəqqi-Misridən bir giranmayə xəl'ət geyüb və əmameyi-Rəsulullahın əqdin tazələyüb və seyyidül-şühəda Həmzənin siparin kətfinə bıraxub və Əliyyi-Murtəzanın Zülfiqarın həmayil qılub və Rəsulullahın Zülcinah nam büraqrəftarın rikabi-hümayuna çəküb, mübarək əlinə bir rəmhi-əjdəhamanənd alub, zinəti-təmamla Əhli-Beytə vida' edüb "Və kəfa billahi şəhidən"[1] kəliməsin yad qılub, ərseyi-meydana yüz dutdu və yetdikdə nizeyi-cansitanın dili-xakə üstüvar qılub və nizəsinə təkyə qılub bir rəcəz ağaz etdi ki, bə'zi əbyatı budur. Şe'r:

Xəyrətu'llahə minə'l-xəlqi əbi,
Summə ümmi və ənə'bnə'l-xəyrətəyn.
Fizzətun qəd xuliqət min zəhəbin,
Və ənə'l-fizzətu'ibnə'z-zəhəbəyn.
Fatimətu'z-Zəhra ümmi və əbi,
Varisu'r-rusuli imamə's-səqələyn.
Min ləhu cəddin kə-cəddi fi'l vəra,
Əv kə'şəyxi və ənə'bnu'l-aləməyn.
Zəhəbun fi-zəhəbin fi-zəhəbin,
Və ləcinu fi-ləcin fi-ləcəyn2.

---

[1] Allahın şahidliyi mənə yetər.
[2] Allahın yaratdıqlarının xeyirlisi mənim atamdır.
Sonra anamdır və mən bu ikisinin oğluyam.
Mən gümüşəm və iki qızılın oğluyam.
Anam Fatimətüz-Zəhradır və babam Səqəleyn imamı və peyğəmbərlərin varisidir.
Mənim kimi vərada belə bil babaya,
Və ya belə bir şeyxə sahib kimdir?
Və mən iki dünya oğluyam,
Qızıl içində qızılam,
Dəniz içində dənizəm.

Ol bənəm kim, cəddi-pakimdir çirağî-ənbiya,
Afitabi-övci-himmət, sərvi-bağî-İstəfa.
Ol bənəm kim, mə'dəni-dürri-vücudumdur Əli,
Şahi-ərbabi-həqiqət, şəm'i-cəm'i-övliya.
Ol bənəm kim, şəm'i-nuri-xilqətimdir Fatimə,
Cövhəri-kani-şərəf, şəm'i-şəbistani-həya.
Bən nihali-gülşəni-ədlü riyazi-ismətəm,
Ey fəsad əhli, nədir bunca bana cövrü cəfa?
Tökdünüz bir-bir atub səngi-sitəm övraqımı,
Qoydunuz tənha bəni qürbətdə bibərgü nəva.
Haliya qət'üm təmənnasində qılmışsız qülüvv,
Qansı məzhəbdə bənim qət'i-həyatımdır rəva?!

Və məqalədən sonra ol güruhi-müxalifi müxatəb qılub nida qıldı ki: "Ey qövmi-sitəmkar və ey taifeyi-qəddar, ehtiraz edin ol Qəhhar qəhrindən ki, firqeyi-Ali-Fir'ovni qərqeyi-seylabi-Nil və sipahi-Əshabi-Fili məğlubi-hücumi-təyri-əbabil etdi. Və təvəhhüm qılun ol Cəbbar qəzəbindən ki, üsati-qövmi-Lut şəhrin sərnigun edüb, ğülati-Ali-Nuhun mülkinə seylabi-siyasət yürütdü. "Və istəğfiru Rəbbəkum summə tubu iləyhi yumətti'kum məta'ən həsənən"[1]. Ey zalimlər, əgər hakimi-divani-qəza ədlinə və Həzrəti-Rəsul şəriətinə e'tiqadınız var isə, yad edin əvaqibi-ümuru və bu zülmlərdən istiğfar qılun və bana aman verin ki, bu ətfalü əyalı paymali-qürbət olmadan ya Həbəş canibinə, ya Rum tərəfinə alub gedəyim və bu cəzireyi-Ərəb və ərzi-Babil və mülki-Hicazı sizə təslim edəyim və əgər müharibədən təcavüz mümkün olmazsa, barı, bir-bir meydana gəlin".

Ləşkəri-Kufə və Şam ol kəlimati-məhəbbətamizi istima' etdikdə daşlardan çeşmələr rəvan olur kibi biixtiyar dideyi-vəqahətpişələrindən əşki-nədamət rəvan olub bir miqdar peşiman olmağa mütəvəccih ikən Bəxtəri bin Rəbi'ə, Şis bin Rəbi'i və Şimr Zihcövşən və bə'zi rüəsayi-əskər ki, dili-səxtlərində ədavəti-xanədani-vilayət mütəməkkin idi, gördülər ki, Hüseynin kəlimatı tə'sir edüb təğəyyüri-əqaidi-əskər mümkündür, filhal Hüseynə müqabil durub ayıtdılar: "Ey Hüseyn, bizim müharibəmiz Yezid hökmüylə olub, sənin zülali-nəcatın anın çeşmeyi-bey'ətindədir. Ya qəbuli-bey'ət etmək gərək, ya siyasətə yetmək gərək".

Bu hala müqarin tirəndazlara əmr olundu ki, Hüseynə möhlət verməyüb tirbaran edin. Bir qayətdə tirbaran etdilər ki, həva pəri-üqabdan məmlüv olub, kəsrəti-peykani-hücumi-ammi-siham şüai-afitabdan ol mahi-övci-rif'ətə bir sipəri-ahənin oldu və ol gülzari-ismətin ətrafın qələbeyi-navək xaristani-cəfa qıldı. Əmma hirzi-himayəti-Rəbbani hisni-hifz olub, ol padşaha zərər yetmədi. Həzrəti-İmam ol halı görüb qəlbi-sipaha həmlə qılmaq tədarükündə ikən nagah bir qübari-vəhmnak peyda olub aləmi tirə qıldı. Və ol halətdə bir şəxsi-mühib və surəti-əcib zahir oldu ki, başı mərkəbə bənzəyib, ayaqları aslan ayaqlarına bənzərdi. Həzrəti-Sultani-Kərbəlanun mülaziəmtinə müşərrəf olub ayıtdı: "Əssəlamu əleykə və əla cəddikə və əla əbikə"[2]. Həzrəti-İmam cəvabi-[səlam] alub ayıtdı: "Ey nikbəxt, sən kimsən ki, bu tənhalıq-

[1] Və Tanrınızdan üzrlər diləyiniz, sonra ona tövbə ediniz ki, sizə gözəl ruzilər versin (Qur'an, 2, 3).
[2] Sənə, babana və atana salam olsun.



da qəribnəvazlıq edərsən?". Dedi: "Ya İbn-Rəsulullah, bən bu diyarda sakin olan pərilərin sərdarıyam və bana Zə'fəri-Cinn derlər. Və Həzrəti-Əli bin Əbi Talib ol zəmanda ki, Çahi-Beynəl-ələmeyndə zərbi-Zülfiqarla divləri müsəlman etdi, bənim babamı bu diyarın pərilərinə sərdar qıldı və hala bən varisi-mülkəm. Rüxsət ver ki, bu sitəmkarların etdikləri əməllərin nəticəsin göstərəyim". Həzrəti-İmam ayıtdı: "Ey Zə'fəri-Cinn, hüsni-e'tiqadinə məmnun oldum, əmma siz əcsami-lətifəsiz, məhsus olmayub insanla müharibə etmək mütəzəmmini-zülmdür. Rəva görməzəm". Zə'fər Cinn ayıtdı: "Ya Hüseyn, surəti-insana girüb cəng edəlim, netə ki, Bədr və Hüneyn mə'rəkəsində məlayikə Həzrəti-Rəsula Bədr və Hüneyn mə'rəkəsində və'deyi-şəhadət yetməmişdi. Bəhər hal nəcat üçün müavinət lazım olmağın Həzrəti-Həq məlayikəyə hökm etdi. Hala bən elmül-mənayada görmüşəm ki, bu gün Mə'budimlə mülaqat edərəm və dari-fənadan mülki-bəqaya gedərəm. Bu bir saət həyat üçün dostlarımı zəhmətə salmaq nə münasibdir?".

Zə'fəri-Cinn rüxsəti-müharibə bulmayub, vida' edib müraciət etdikdə [ol qübar sakin olub, ol zülmət açılub, Həzrəti-İmam mütəvəccihi-hərb olub mübariz tələb etdikdə] Təmim bin Qəhtəbə ki, ümərayi-Şamdan olub mübarizi-mə'rufdu, müqabil durub ayıtdı: "Ey Hüseyn, nəfsi-vahiddə bir ləşkərə müqabil durmuşsan ki, zəmani-sabiqdə əksərinin abavü əcdadın Nəhrəvanda və Siffin müharibəsində atan qətl edib hənuz xatirlərində ol kinə mütəməkkin ikən hala dəxi əksərinin ixvanü övladın həlak edib təcdidi-ədavət vaqe' olmuşdur və zəman-zəman ziyad olmaqdadır. Bunun kibi ləşkərlə müqabilə etmək qələtdir. Səlah oldur ki, təriqi-bey'ət məsluk edib tələbi-nəcat edəsən". Həzrəti-İmam ayıtdı: "Ey Şami, bən sizünlə ibtidayi-hərb etmədim. Siz baisi-fəsad olub övladü ənsabımı qətl etdiniz. Hala kəsrəti-ə'dadan bana təvəhhüm verib bey'ətimi almaq istərsən. Ey bədbəxt, əgərçi aləmi-surətdə sizin ləşkəriniz çoxdur, aləmi-mə'nidə bənim sipahimə [nəhayət] yoxdur. Mən ol sultani-büləndbargaham ki, süradiqi-cahü cəlalım səthi-ərşdə ətnabi-tövfiq və övtadi-tə'yidlə istehkam bulub, sayeyi-ümumi-məlayiki-ülviyyəvü süfliyyə və üqulü nüfusi-bəşəriyyə və divü pəri və vəhşü teyr təhti-livayi-imamətimdə i'anətimə mə'mur olub, mütiləri mizbani-mərhəmətim mütəməti'i-ne'məti-behişt edib, mütəmərridləri iqtizayi-müxalifətim atəşi-cəhimə yaxmışdır. İnşaallah, bu surət aqibət sizə mə'lum olur və pərdeyi-qəflət rəf' olub hər kim surəti-ə'malın mülahizə qılur: "Qəd xəsirə'l-ləzinə kəzzəbu bi-likai'llahi hətta iza ca'əthumus-sa'ətu bəğtətən qalu ya həsrətəna əla ma-fərrətna"[1]. Ey həramzadə, bənim cəddi-rəfi'-miqdarımdır ol ki, ləşkəri-müxalif hücum etdikdə məlayik surəti-insana girib xidmətin ixtiyar etdi. Və bənim validi-büzürgvarımdır ol ki, rayəti-qədrin məhçeyi "Yuhibu'llahu və rəsuluhu"[2] gərdunsay edib zərbi-dəstindən babi-Xeybərə şikəst yetdi". Bu nişatla bir nə'rə urdu ki, cəmi'i-ləşkər heybətindən titrədi, bəlkə ərzi-Kərbəlaya zəlzələ düşdü. Həm ol halətdə tiği-saiqəkirdarın çəküb, Təmim bin Qəhtəbəyi bir zərblə həlak edib dəxi mübariz istədikdə cəmi'i-ləşkər ol səlabəti-nə'rə və ol zərbi-dəstdən tərsnak olub mütəğəyyirü mütəfəkkir qalmış ikən Zeyd Əbtəhiyi-bədbəxt ki, aləmi-şücaətdə bəğayət sahibi-qürur idi və ərəbdə kəmali-mübarizətlə məşhur, şəhzadəyə müqabil durub bimühaba tiğ həvalə qıldı. Həzrəti-İmam anı dəxi bir

[1] Allaha dönəcəklərini yalandan söyləyənlər ziyan etmişlərdir. Nəhayət özlərinə qəfildən o zaman gəlib çatınca "Vay başımıza gələn, nə etdik" — deyərlər (Qur'an, 6, 31).
[2] Tanrı və onun elçisi onu sevir

zərblə iki parə qılub, təşnəlikdən bəğayət müztərib olub su içmək qəsdinə ahəngi-rudi-Fərat etdi. Şimri-lə'in ol halı görüb fəryad etdi ki: "Ey ləşkəri-Şamü Kufə, zinhar, zinhar, Hüseynə təmkin verməm ki, bir qətrə su içə ki, əgər kəndü sirab olub mərkəb su içə, bin bu ləşkər kibi ana cəvab verməz və cəmi' etdigimüz sə'ylər zaye' olmaq müqərrərdir". Ol həramzadə təhrisilə ləşkər qələbə qılub, Həzrəti-İmamla Fərat arasına hayil oldular və Həzrəti-İmam mərkəbi-badrəftarına cilvə verib və tiği-atəşbarın çəkib müqatiləyə və mücadiləyə məşğul oldu. Şe'r:

Öylə kim pulad ilə daşdan olur atəş əyan,
Axıdırdı tiği-bərqindən ədunin xuni-nab.
Xuni-ə'dadan rəvan eylərdi hər yan seyllər,
Seyllər üzrə əyan eylərdi başlardan hübab.
Cövhəri-tiğində məzmun mövci-tufani-fəna,
Sayeyi-rəmhində müzmər şərhi-əhvali-əzab.
Cilveyi-rəxşində rövşən sür'əti-nuri-bəsər,
Surəti-seyrində zahir həmleyi-sultani-xab.
Rəxşi kuhi-badcünbüş, tiği bərqi-abgun,
Rəxşinə gərdun fəda, tiğinə qurban afitab.

Ol şahsəvari-ərseyi-meydani-şəhadət və ol şahbazi-seydgahi-səadət rəxşi-himmət gərmcövlan edib və tiği-şücaət qərqi-xunabi-əhli-şəqavət qılub, ol zalimlərin üç səfin çak edib kəndüsin Fərata yetirdi. Nəhəngvar Fərata girib, əlinə su alıb içmək istədikdə bir kimsənə nida yetirdi ki: "Ey Hüseyn, nə su içmək məcalıdır, ləşkəri-bədxah qarəti-hərəmsəraya mütəvəccih oldular". Kəmali-qeyrət inani-ixtiyarın əlindən alıb, bir qətrə su içmədən səməndi-seylrəftarın canibi-xeyməgaha səddi-sipər edib yetdikdə gördü ki, ol avaz mən'i-ab üçün bir hiylə imiş, əmma müvafiqi-iradeyi-təqdir vaqe' olmuş. Zira ol gün şərbəti-şəhadət içmək müqərrər idi.

Rəvayətdir ki, Fərat kənarından xeyməgaha yetincə qırx mübariz bıraxmışdı və nəqli-səhihdir ki, Həzrəti-İmam xeyməgaha yetdikdə mükərrər xəvatini-hərəmsərayi-isməti hazır edib vəsiyyət tazə qıldı ki: "Ey əsmari-nihali-fütüvvət və ey əşcari-rəyahini-təharət, müsibət üçün mühəyya olun, əmma zinhar, camə çak edib muyi-gisu pərişan etmən və kəndünüzi mümkün olduqca naməhrəmdən nihan dutun". Həzrəti-Zeynəlabidini bir dəxi bağrına basıb, yüzün yüzünə sürüb vida' etdi. Şe'r:

Gəl ey həmdəm ki, cismimdə vida' etməkdədir canım.
Tökər qanlar, anıb firqət bəlasın çeşmi-giryanım.
Bənim müşkül degil halım ki, qürbi-Həq qılur hasil,
Qəmi-dünya əlindən qurtulur hala giribanım.
Səninçün ağlaram kim, edəcəkdir halını müztər,
Həm ə'da zülmü cövri, həm bənim ənduhi-hicranım.





Ey nuri-didə, təriqi-müsabirətdən inhiraf etmə ki, şimeyi-ənbiya və şiveyi-övliyadır. Yəqin ki, bu ibtila bizə nəsib olmaseydi, bizdən sonra zahir olan müsəlmanlara hər bəla nazil olduqda anı mövcibi-qəzəbi-İlahi təsəvvür edüb mə'yus olmaq müqərrər idi. Zəhi səadət ki, bəla bizim mülazimətimizdə məmduhi-əhli-həqiqətdir və vüqui-müsibət mövcibi-təsəlliyi-ətqiyayi-ümmət. Şe'r:

Bəlaya səbr edəlim, cövrə şükrlər qılalım
Ki, bu rəviş tələb əhlinədir təriqi-vüsul.
Cəmi'i-xəlqə bəla ehtiramı vacibdir,
Kim oldu əqrəbi-xüddami-Əhli-Beyti-Rəsul.

Ey cigərguşə, Mədinəyə yetdikdə nətə ki, bən sənin səlamını sükkani-əhli-behiştə iləttərəm, sən dəxi bənim səlamımı anda olan əhibbavü əviddaya ərz edəsən". Bu halətdə Şəhrəbanu ol şəhriyarın damənin dutub ayıtdı: "Ey sərvəri-alimiqdar və ey seyyidi-büzürgvar, bən nəsli-Yəzdicird şəhriyaram. Həvadisi-əyyamdan sənin hisni-himayətin pənah etmişdim. Hala vəhmüm andandır ki, zəmani-qeybətində bu zalimlər sayir xəvatini-Əhli-Beytə övladi-Rəsul olmaqla hörmət edüb bana ihanət yetirələr. Bəni kimə təslim edərsən?". Həzrəti-Hüseyn ayıtdı: "Ey Şəhrbanu, bu vasitədən dəğdəğə çəkmə ki, sən daxili-Əhli-Beytsən və bu hisari-iffətdə sənə naməhrəm təərrüzü yetməz". Şe'r:

Pəri-Cibrildir divari-dövlətxaneyi-ismət,
Anın sükkaninə asib yetməz şərri-şeytandan.
Hərimi-qürbi-Əhli-Beyt bənzər zövrəqi-Nuha,
Olan ol zövrəq içrə ehtiraz eylərmi tufandan?!

Və bir rəvayət dəxi oldur ki, Həzrəti-İmam Şəhrbanuya vəsiyyət qıldı ki: "Bəndən sonra mərkəbim xeymagaha gəlür, ol mərkəbə kəndüni möhkəm edüb inani-iradətin rayizi-qəzaya tapşur. Ol mərkəb səni badiyeyi-hövldən çıxarur". Və Şəhrbanu ol vəsiyyətlə əməl edüb ol mərkəblə ləşkərgahdan çıxdı. Aqibətüləmri Allah bilür. Əmma əsəhhi-rəvayət oldur ki, Əhli-Beytlə Şama getdi.

Əlqissə, Həzrəti-Sultani-Kərbəla vəsiyyəti tamam olduqda mütəvəccihi-meydan olub bu məzmunla bir rəcəz ağaz etdi. Şe'r:

Gəldi ol dəm ki, dili-qəmnakımı şad eyləyəm,
Mürği-ruhu damgahi-təndən azad eyləyəm.
Gəldi ol dəm ki, bu möhnətxanəyi viran edüb,
Qüds mülkünə binayi-işrət abad eyləyəm.
Gəldi ol dəm kim, qılam dərgaha ərzi-halımı,
Çeşmi-nəmnakü dili-qəmnakla dad eyləyəm.

Ol padişahi-qüdsisipah və ol sultani-ərşbargah zövqi-təqərrübi-dərgahullah ilə "Ənə'bnu rəsulullahi [və ənə'bnə Əliyyun vəliyallahu]"[1] deyüb bir nə'rə urdu ki, ol sədadan cəmi'i-əczai-tərkibi-kainat mütəhəllil olub, fələki-dəvvar hərəkətdən mütəvəqqif və ərzi-sakin mütəzəlzil oldu. İbn Sə'd şahzadəyi ol səlabətdə görüb, ləşkəri bir-bir müharibə qılmaqdan mən' edüb, fəryad etdi ki: "Ey bixəbərlər, şücaəti-Mustəfa və səlabəti-Murtəza və heybəti-Həsəni-Muctəba bu gün bu şəxsdə münhəsir olubdur. Həqqa ki, əgər cəmi'i-kainat bir surətə mütəşəxxis olub ana müqabil dursa, bir həmləsinə vəfa qılmaz və hala zəxmi-tiği-ataş və cərahəti-müfariqəti-əhbab ana kargər olubdur. Cəmi'i-ləşkər ittifaqla həmlə qılub, tərəddüdün ziyadə qılun". Ol məl'unun əmriylə cəmi'i-ləşkər ittifaqla mütəvəccih olub şahzadəyi araya aldılar və ol şiri-bişeyi-şücaət tiği-bərqasayla dideyi-idraki-bədxahı xirə qılub, hər canibə təvəccöh qıldıqca gərdi-nə'li-badpayi-badiyəpeymasından ruzigari-ə'da tirə olurdu.

Rəvayətdir ki, bir dəxi ol ləşkəri paymali-rəxşi-himmət qılub səməndi-badrəftarın Fərata yetürdi və daiyə qıldı ki, bir qətrə su içüb təskini-hərarət verə. Ətəşi-mütəhhərat və ətfal yadına gəlüb tərki-müddəa qıldı. Və bir rəvayət dəxi oldur ki, bir miqdar su içmək tədarükündə ikən Hüseyr bin Təmimi bir ox atub, ol ox zəxmiylə ləbü dəndani-mübarəkin məcruh edüb su içmək müyəssər olmadı.

Əlqissə, ləşkəri-ə'da hücum edüb gəldikcə ğülüvvi-müxalif ziyadə olub və və'deyi-şəhadət müqaribət qılub zəxmlərindən çeşmə-çeşmə qanlar getməklə şahzadəyə zə'f qalib oldu. Rəvayətdir ki, ol Həzrətin yetmiş iki zəxmi olub, səməndi-səbükseyri dəxi kəsrəti-zəxm və ifrati-ətəşdən süst olub asari-təzəlzül zahir oldu. İbn Sə'd şahzadənin zə'fi-halın mülahizə qılub qətlinə iqdam etdikdə Həzrət ol bədbəxtə qəhrlə baxub ayıtdı: "Ey zalim, bu əmri-qəbihə sənmi iqdam edərsən?". Ol bədbəxt infial olub gerü döndükdə Şimri-bədbəxt piyadələrə buyurdu ki, ətrafü cəvanibin dutub tirbaran edələr. Yenə şahzadə bir həmlə qılub, anların səfin sındırub bir mövze'də qərar dutdu. Rəvayətdir ki, ol bədbəxtlərdən bə'zi mübaşiri-qətli-Hüseyn olub, bə'zi mütəvəccihi-nəhbi-Əhli-Beyt oldular. Həzrəti-imam ol halətdən vaqif olub ayıtdı: "Ey Ali-Əbu Süfyan, tutalım ki. sizdə iman əsəri yoxdur, barı, qaideyi-namusi-cahiliyyəti ki, lazimeyi-cibilliyyətinizdir, tərk etmək nə münasibdir ki, qəsdi-övrət edərsiz? Əgər məqsudiniz bənim qətlim isə, ol müddəa bəndən müyəssərdir". Şimri-məl'un ayıtdı: "Ey Hüseyn, bu iltimasun qəbul edəriz". Pəs, ləşkəri təərrüzi-Əhli-Beytdən mən' edüb mübaşiri-qətli-Hüseyn oldu.

Rəvayətdir ki, ol kəmali-zə'flə tiği-abdarından ehtiraz edüb, qətlinə kimsənə iqdam edə bilməzdi. Aqibət iraqdan tirbaran etdilər. Həzrəti-İmam gördü ki, cövlan etməgə qüdrət yox, naçar mərkəbdən enüb piyadə oldu ki, mərkəbinə tirbarandan zərər yetməyə, zira yadigari-Mustəfa və Murtəza olub mükərrəm və möhtərəm idi. Ol bədbəxtlər Həzrəti-İmamı piyadə görüb, dilir olub qətlinə mütəvəccih oldular. Əsnayi-mə'rəkədə bir lə'in ol afitabi-övci-səadətin cəbini-mübarəkinə bir ox urub məcruh [etdi]. Həzrəti-İmam ol navəki-xunfəşanı çəküb, cəbini-mübarəkindən məhasini-şərifinə qanlar rəvan olub, xəzab olduqda mübarək əliylə rüxsarinə sürüb mübahat edərdi ki: "İnşallah, bu rənglə cəddim xidmətinə müşərrəf oluram". Və bu halətdə qibləyə mütəvəccih olub və bargahi-qürbi-Mə'buda yüz dutub müntəziri-şəhadət oldu. Şe'r:

[1] Mən Rəsulullahın oğluyam, mən Allahın vəlisi Əlinin oğluyam.



Şəm'i-həyata sübhi-əcəl verdi iztirab,
Mulki-vücuda seyli-ədəm saldı inqilab.
Gülzari-ömrə qıldı əsər sərsəri-xəzan,
Dəsti-zəmanə rişteyi-ümmidə verdi tab.

Rəvayətdir ki, ol sərvi-riyazi-şəriət sərsəri-hücumi-ə'da və seyli-sihami-əşqiyayla mərkəbdən düşüb bixud olduqda münafiqlər bir-bir, iki-iki qəsdi-qətl edüb müqabilinə gəldikdə rüxsari-mübarəkin görüb, şərm edüb tə'xir edərlərdi. Şe'r:

Tökmək övladi-Rəsulun qanını asan degil,
Ol səbəbdən kim, bu qan hər qana bənzər qan degil.

Aqibətuləmr Şimri-lə'in gördü ki, ləşkər ol Həzrətin qətlində tə'xir edərlər, fəryada gəldi ki: "Ey bihəmiyyətlər, bu nə tə'xirdir?". Dər'ə bin Şəriki-bidövlət gəlüb ol Həzrətin saidi-mübarəkin məcruh etdi və Sinan bin Ənəs kətfi-mübarəkinə bir ox urub, ol iki zəxmdən şahzadəyi-aləm ixtiyarsız düşüb, xaki-Kərbəlaya təzəlzül buraxdı və ol vaqiədən sükkani-təhtüssəradan Sürəyyaya ğülğülə çıxdı. Dövrani-fələk sərasimə olub derdi ki: "Aya, bu nə əmri-qəbihdir?". Və daireyi-zəman iztiraba düşüb təəssüf çəkərdi ki: "Aya, bu nə zülmi-sərihdir?". Əlqissə, Xəvl bin Yezidi-Əshəbi və anın fərzəndi Şibl bin Yezid ittifaqla piyadə olub, ol sərəfrazın səri-mübarəkin bədəni-şərifindən cüda qılmaq qəsdinə mütəvəccih oldular. İqdam etdikdə məhabət müstövli olub müyəssər olmadı.

İsmail Buxaridən nəqldir ki, şahzadə duşdugu saətdə İbn Sə'd əmriylə bir mübariz anın qətlinə iqdam etdikdə Həzrəti-İmam ayıtdı: "Ey fəqir, bənim qatilim sən degilsən, bu əmri-qəbihə iqdam etmə. Heyfdir ki, ətəşi-duzəxə giriftar olasan". Ol mübariz giryan olub ayıtdı: "Ya İbn Rəsulullah, bu halətdə sən hənuz bizə rəhm edərsən, Əhli-Həq olduğuna şəkküm qalmadı". Ol mübariz biməhaba əlindəki tiği müraciət qılub İbn Sə'də həvalə qıldı. Mülazimlər hər tərəfdən mane olub, ana zəxmlər urub, ol yeganeyi-zəman bədəni-məcruhla Həzrəti-İmam hüzurinə gəlüb ayıtdı: "Ya Hüseyn, sənin üçün bəni şəhid edərlər". Həzrəti-İmam ayıtdı: "Mücahidlər əməli zaye' olmaz".

Əlqissə, hər tərəfdən tiğlər çəküb Yezidin ən'amü iltifatı ümidinə ol əmri-qəbihə iqdam edərlərdi. Əmma kimsənəyə bu şəqavət müyəssər olmayub iki kimsənəyə münhəsir oldi: biri Sinan bin Ənəs və biri Şimri-Zilcövşən. Sinani-bədbəxt istədi ki, ol əmrə mübaşirət qıla, Şimri-bidövlət sibqət edüb ol Həzrətin sineyi-bikinəsinə qədəm basdı. Həzrəti-İmam göz açub dedi: "Ey bədbəxt, sənə kim derlər?". Dedi: "Bən Şimri-Zilcövşənəm". Həzrəti-İmam ayıtdı: "Daməni-zireh çehreyi-napakindən götür, səni görəyim". Ol bədbəxt daməni-zireh rəf' edüb, çehreyi-napakini göstərdikdə Həzrəti-İmam gördü ki, dişləri xinzir dişləri kibi dəhani-pəlidindən dışra çıxmış. Dedi: "Sədəqə-Allah və sədəqə Rəsulullah"[1], bu bir nişanədir". Zira vaqiəsində Həzrəti-Rəsul, qətlindən xəbər verüb və'deyi-qətlin müqərrər etmişdi. Dedi: "Ey Şimr, bənim qətlim sənə müqəddər olubdur, əməlində təqsir etmə. Əmma ey Şimr, bu vəqt

[1] Rəsulullah doğru söyləmiş.

nə vəqtdir və bu gün nə gündür və bu ay nə aydır?". Şimr ayıtdı: "Məhərrəm ayıdır, cümə günüdür və nəmaz vəqtidir". Həzrəti-İmam ayıtdı: "Ey zalim, bunun kibi şəhri-həram və ruzi-cəm'iyyət və vəqti-nəmaz ki, xütəbayi-İslam və rüusi-mənabirdə cəddim övsafın bəyan edərlər və übbadi-xəvasü əvam mütəvəccihi-dərgahi-Mə'bud olub ədayi-ibadət qılurlar, sən nişə bu əmri-qəbihə iqdam edərsən? Barı, ey Şimr, köksüm üzərindən durub bir miqdar möhlət ver ki, bən dəxi ləbi-təşnə ilə nəmaza məşğul olayım və çün nəmazda ikən şəhid olmaq bana mirasdır, bən dəxi ol səadəti bulayım".

Şimri-bədbəxt ol Həzrətin sinəsindən durub və ol Həzrətdə bir miqdar qüdrət var idi ki, oturub qibləyə mütəvəccih olub nəmaza iştiğal etdi. Ol vəqt bir vəqt idi ki, sultani-sərapərdeyi-tarəmi-çarüm sihami-şüain xarü xaşaka urub, parə-parə qılub və şəmşiri-şə'şəəsin kuhsara çalmaqdan sındurub zəvala mütəvəccih olmuşdu. Və xütəbayi-ümmət minbərə çıxub "İnnə'llahə yə'muru bil-ədli və'l-ihsani və itai zi'l-qurba və yənha əni'l-fəhşai və'l-münkəri və'l-bəğyi yə'izu kum lə'əlləkum təzəkkərun"[1] moizəsin zalimlərə ilqa qılub və müəzzin minarələrdən "İnnə'l-lahə və məlaikətəhu yusəllunə ə'lən-nəbiyyi"[2] zəmzəməsin cəhana salmışdı. Filvaqe', əgərçi ol vəqt aləmi-surətdə əhli-zəlalətin kövkəbi-iqbalları dərəceyi-rif'ətdə İbn Sə'd və sayir ümərayi-ləşkəri-Yezid bir-birinə təhniyeyi-zəfər verüb, ümidi-iltifatü ən'amla nişati-təmam bulub və Yezid və Übeydullahi-Ziyad məsnədi-hökumətlərində məcalisitərəb tərtib edüb nazü nuşla məşğuli-eyşü tərəb olmuşlardı və Əhli-Beyti-İmamın nəvayibü əhzanı kəmala yetüb Hüseyn və sayir şühəda aludeyi-xakü xun, dəşti-Kərbəladə mərkəblər paymalı olub, mütəhhərati-hərəmsərayi-nübüvvət riqqəti-qəlblə küştələrin parə-parə bərabərlərində görüb və başları üzrə mücərrəd tiğlər müşahidə qılub iztirabi-təmamla təzəlzül bulmuşlardı. Əmma aləmi-mə'nidə ol bədbəxtlərin münşiyi-qəza, nasiyeyi-əhvallərinə rəqəmi-"Xəsirə'd-dunya və'l-axirətu"[3] çəküb istirdadi-ne'mətlərinə fələk pənceyi-təsərrüf mühəyya qılub və tə'zibi-ruhlarına Maliki-duzəx səlasilü əğlal mürəttəb edüb, əsəri-zülmü sitəmləri sərayi-aqibətlərin viran etmişdi. Və Həzrəti-Hüseynə və ətbainə ərvahi-ənbiya istiqbal edüb, məlayikeyi-müqərrəbə nisar üçün ətbaqi-cəvahiri-təhiyyat mühəyya qılub, divani-qəzadan [misali]-hökuməti-dünyavü axirət verilüb və mütəhhərati-Əhli-Beytə hüccəti-təmliki-hur və qüsuri-cənnət ən'am olunub, səm'i-rizalərinə müjdeyi-ehtirami-dünyəvi və üxrəvi yetmişdir. Şe'r:

Bir dükandır bu büsati-dəhr kim, ümmalinə
Əcr miqdari-əməldir, müzd miqdari-hünər.
Xakdani-dəhr bir məzrə'dirü ə'mal zər',
Xeyr olur məhsul xeyr əhlinə, şər əhlinə şər.

Əlqissə, Həzrəti-İmam nəmaza məşğul olub səcdədə ikən Şimri-bədbəxt baş qaldırmağa möhlət verməyüb şərbəti-şəhadət içirdi. "İnna lillahi və inna ileyhi raci'un"[4]. Bu halətdə

[1] Şübhəsiz ki, Tanrı sizə ədaləti, yaxşılığı, yaxınlarınıza yardımı əmr edər. Pisliyi, yamanlığı və zülmü yasaq edər. Bunları ağlınızda tutasınız deyə sizə öyüd verir (Qur'an, 16, 90).

[2] Şübhə yox ki, Allah və mələkləri Peyğəmbərə səlat edərlər (Qur'an, 33, 56).

[3] Həm dünyanı, həm də axirəti qeyb etdi (Qur'an, 22, 11).

[4] Biz Allaha aidik və qayıdışımız da onadır (Qur'an, 2, 155).



qülqülə səvame'i-mələkuta düşüb və xətayiri-cəbərut vəlvələyi-məlai-ə'ladan dolub, çün padişahi-məsnədi-imamət aləmi-surətdən aləmi-mə'naya intiqal etdi, əhli-aləmi-surət ol daği-fəraqa səbr etməyüb, ittifaqla iztirab edüb, micməreyi-gərduni-gərdan qüsuri-nigari-əflaka ataş urub məlayik pərü baln atəşi-fəraqa yaxdı və şö'bədəbazi-surətxaneyi-təbiət silsileyi-rabiteyi-təbayei qət' qılub əczai-mürəkkəbata ehtiraz bıraxdı. Fəzayi-dərya bu münasibətdə mahilərə çeşmeyi-zəhri-həlahil oldu və ərseyi-səhrayı bu möhnət vühuşü tüyura təngnayi-tənuri-pürataş qıldı.

Nəqldir Ətəmi-Kufidən ki, müqarini-qətli-Hüseyn həvaya bir qübar tari olub ol qayətdə ki, aləm tirəvü tar oldu ki, "əlaməyi-Qiyamətdir" – deyüb xəlqi-aləm istiğfara başladılar. Ol qübar mürtəfe' olduqda Həzrəti-Hüseynin mərkəbi kakülin qanla rəngin edüb, mütəvəccihi-xeyməgah olub, mütəhhərati-Əhli-Beyt ol mərkəbi kaküli-pürxunla şəhzadədən cüda gördükdə fəğanlar edüb, mərkəbi müxatəb qılub növhə ilə ayıtdılar. Şe'r:

Ey səməndi-badpa, billah, qanı ol şəhsəvar?
Nişə ol sərdardan qıldun cüdalıq ixtiyar?
Neylədin ol dürri-şəhvarı ki, tapşurduq sənə?
Qanda saldın, nişə gəlməz, ötdü həddən intizar.
Paybusindən anın məhrum olub, sən ey rikab,
Səxtdilsən kim, gözün olmaz dəmadəm əşkbar!
Dəstbusindən anın düşmüşsən ayrı, ey licam,
Nola toprağa düşüb oldunsa xarü xaksar?!

Anlar sürudla növhə qıldıqca Zülcinah didələrindən əşki-rəvan axıdırdı. Rəvayətdir ki, ol mərkəbi-vəfadar ol Həzrətdən sonra rəhi-badiyə dutub minbə'd andan kimsənə nişan bulmadı və anın rükubu kimsənəyə müyəssər olmadı.

Rəvayətdir ki, qətldən sonra Şimri-məl'un münafiqlərlə mütəvəccihi-hərəmsəra olub bünyadi-qarət etdilər, əmma mütəhhərata dəsti-təərrüz yetmədi. Əmma Şimri-bədbəxt Həzrəti-İmam Zeynəlabidinə yetüb qəsd etdi ki, qətl edə, Həmid ibn Müslim təriqi-mən'lə ayıtdı: "Ey bədbəxt, bu növrəsidə əsiri-dami-mərəzdir. Bigünah qətlinə iqdam etmək mürüvvətmidir?" Və bir rəvayət dəxi oldur ki, Ömər Sə'd mən' etdi. Bəhər hal, çün müqtəzayi-hikmət bəqayi-şəhzadə idi, ol vərtədən nəcat buldu. Həzrəti-İmamın matəminə iştiğal edüb bu məzmunla sürüda başladı. Şe'r:

Ya Rəb, nə fitnədir ki, cəhan qıldı aşkar?!
Ya Rəb, nə zülmdür ki, əyan etdi ruzigar?!
Ya Rəb, qəza bu əmrdə çəkməzmi infial?!
Ya Rəb, fələk bu fe'ldən olmazmı şərmsar?!
Abü həvayi-gülşəni-möhnətfəzayi-dəhr
Çün olmadı Hüseynə səfabəxşü sazkar,
Aram dutmayub yerə keçsin həmişə ab,
Məhdi-fərağət üzrə həva tutmasın qərar.

Çün xakdani-dəhrdə aram bulmadı,
Sultani-din Hüseyni-Əli, şahi-kamkar,
Badi-fənaya getsə rəvadır bu xakdan,
Ayineyi-vücuda ədəmdən salıb qübar.
Ey dil, hökumətinə cəhanın nə e'timad?!
Ey didə, həşmətinə zəmanın nə e'tibar?!
Olsaydı ruzigar nihadında bir səbat,
Əhdin qılırdı Ali-Rəsul ilə üstüvar.
Dövran cibillətində gər olsaydı bir vəfa,
Ali-Rəsul xidmətin eylərdi ixtiyar.
Ol vəqtdən ki, xəsm rizasıyla tiğü tir
Şahi-şəhidin eylədi ə'zasını figar,
Açmış dəhan təəssüf üçün tiri-tündrəv,
Çəkmiş zəban təhəssür üçün tiği-abdar.
Ya Pəb ki, tiğ çıxmaya həbsi-niyamdan!
Ya Rəb, ki qanda olsa ola tir xaksar.



## XATİMƏ

### MÜXƏDDƏRATİ-ƏHLİ-BEYTİN ŞAMA GETDİGİN BƏYAN EDƏR

Hikməti-baliğeyi-rəbbani binayi-mükəvvənat və qüdrəti-kamileyi-müsəvviri-əşkali-mövcudat böylə iqtiza qılmış ki, bünyeyi-vücudi-bəşər məzhəri-cəmi'i-sifat olub, gah ətvari-sütudələri ə'mali-zəmimələrinə qalib düşüb, rif'əti-iqtidarləri məlayikədən ə'la ola və gah əf'ali-qəbihələri əxlaqi-həmidələrinə fayiq olub, rütbeyi-e'tibarların İblisdən ədna qıla. Və bə'zi ərbabi-həqayiq ki, aləmi-kövnü fəsada insani-kəbir demiş, bu mə'naya mütəzəmmindir ki, surəti-aləm həmişə mütənəvve' və mütələvvindir. Gah məsnədi-xilafətdə xüləfayi-ədalətşüar və səlatini-rə'fətdisar istiqrar bulub ərbabi-küfrü tüğyan məqhur olub və gah səriri-əyalətdə müluki-cəfapişə və hükkami-sitəməndişə mütəməkkin olub, əshabi-əqlü imanı məğbunü məxzul qılur. Ol cümlədəndir Yezidin əyyami-istiqlali-hökuməti ki, cəmi'i-əf'ali-zəmiməyə came' olub, cəhanı darülfəsad etmişdi və Hüseyni-məzlumun zəmani-istilayi-möhnəti ki, təmamiyi-əxlaqi-kəriməyə məzhər vaqe' olub, aləmi-surətdə müsibətü məlalı kəmala yetmişdi. Bilmək gərək ki, dövri-Adəmdən xatimi-ənbiyayadək cəmi'i-ə'sarü ənsarda təmamiyi-əfradi-insana vaqe' olan əsnafi-bəliyyatı cəm' etsələr, Kərbəla müsibətinin bindən birinə bərabər olmaz. Və e'tiqad etmək gərək ki, sayiri-bəliyyatın eyni vaqieyi-Kərbəlanun təsəvvüründə həqiqət əhlinə əsər qılmaz. Şe'r:

Gögdən endikdə bəla bulmazdı mənzil qonmağa,
Olmasaydı ərseyi-aləmdə xaki-Kərbəla.
Kərbəladan qeyr yoxdur bir mübarək büq'ə kim,
Ola anın əksəri-əczayi-tərkibi bəla.

Filvaqe', Kərbəla bir büq'eyi-şərifdir ki, canibi-Haqdən anda rütbəyi-ehtirami-xanədani-risalət və tə'zimi-dudmani-nübuvvət kəmala yetmiş və həqiqəti-zülmi-əşqiya və səbri-övliyada olan əsrari-hikmət zühura yetmiş. Zəhi bədbəxtlər ki, anın kibi büq'eyi-şərifdə mahi-Məhərrəm ki, müqəddəmi-şühuri-mədari-aləmdir və ruzi-cüm'ə ki, sayir əyyamdan ehtiramla müqəddəmdir və vəqti-zöhr ki, zəmani-iqamətasari-Rəsuli-mükərrəmdir hörməti-Rəsulullahı riayət qılmayub övladına sitəm rəva gördülər və həzrəti-Vacibülvücudun səbrin kəndülərinə nüsrət təsəvvür edüb vacibüt-tə'zim olan cəmaəta ihanət yetürdilər. Çün bu mahi-mübarəkdə Əhli-Beyti-risalət nəhayəti-məlalət bulmuşlar və qayəti-iztirabla mütəfərriqü pərişan olmuşlar, lacərəm tərki-sürur qılub təriqeyi-matəm rəayət edənlərə şərəfi-intisabi-Əhli-Beyti-risalət müqərrərdir və məlalətlərinə şərik olanlara səvablarla şirkət müyəssərdir. Şe'r:

Məhərrəmdir, könül fəryada gəl, ah eylə, əfğan qıl!
Əza dut, başa topraqlar savur, çaki-giriban qıl!
Qılub qət'i-nəzər mahi-Məhərrəm eyşü işrətdən,
Dəmadəm çeşmini məzlumlar yadıyla giryan qıl!

Urub gərduna bərqi-ahi-atəşbardan atəş,
Binasın yax, anı dövri-müxalifdən peşiman qıl!

"Üyunir-Riza"da məzkurdur ki, Əmr Leys hakimi-Xorasan ikən ümərayi-ləşkərindən bin müsəlləh mübarizə malik olan kimsənəyə bir zərrin gürz ən'am edərdi. Bir gün ə'yani-dövlət və ərkani-həşməti ərzi-ləşkər gördükdə yüz igirmi sahiblivayi-zərringürz qələmə gəldi. Surəti-hal Əmr Leysə ərz olunduqda mərkəbindən düşüb, xaki-məzəllətə yüz sürüb zar-zar ağladı. Ərkani-dövlət ol halətə təəccüb edüb ayıtdılar: "Ey məliki-kamkar və şəhriyari-alimiqdar, əl-minnətü lillah, mülkin mə'mur, ləşkərin məsrur, düşmənin məqhur, şadü xürrəm olmaq münasib ikən bu pərişanlığa səbəb nədir?". Əmr Leys ayıtdı: "Ey əzizlər, bən bu ləşkəri iste'dadi-təmamla mühəyya gördükdə yadıma vaqieyi-Kərbəla gəldi. Təəssüfüm və təhəyyürüm budur ki, neçün bu ləşkərlə ol gün Hüseyni-məzluma müavinət qılmağa müvəffəq olmadım və Yezidin ləşkərin mütəfərriq edüb iktisabi-səadət qılmadım".

Rəvayətdir ki, Əmr Leys dünyadan intiqal etdikdə vaqiədə gördülər: başında taci-mürəssə' əgnində xəl'əti-giranmayə, altında mərkəbi-badrəftar, mülazimətində qilmani-mahrüxsar. Ayıtdılar: "Ey əmir, bu səadət nə ibadət əcridir?" Əmr Leys ayıtdı: "Bu kəramətlər ol niyyət müqabiləsində vaqe' oldu ki, həngami-ərzi-ləşkər müavinəti-şühəda xüsusunda xatirimə yetirdim". Bu tənbehdən mə'lum oldu ki, arzuyi-müavinəti-şühəda məsabeyi-əzadır, bəlkə əzadan əsvəb. Və əsvəb, anlar üçün irtikabi-əzadır. Şe'r:

Əgərçi-həşmətü övladü mülkü mal qamu,
Əziz olur qamuya, zövqi-ruh qalibdür.
Çü can müqəddəm olur cümlədən yaxındır bu
Ki, tərki-can aləmi ə'zəmi-məsayibdür.

Mühəqqəq oldu bu tərtib olan müqəddəmələrdən ki, rütbəyi-şühəda əşrəfi-məratibdir. Nəqldir ki, ruzi-cəza zümreyi-şühədaya cəmi'i-əsnafi-məvahib və cümleyi-ənvai-mətalib kəramət olunduqdan sonra canibi-Həqdən nida gələ ki, ey təriqi-məhəbbətdə nəqdi-can nisar qılanlar və ey bəzmi-bəlada həlahili-məhəbbətimi şəhdi-şəfa bilənlər, dəxi muradınız var isə, bəyan edin, hasil olsun və dəxi məqsudiniz nə isə, əyan edin, icabət bulsun. Firqeyi-şühəda bu cəvaba mülhəm olalar ki: Ya Rəb, səadəti-şəhadət nəticəsin görüb iradətimiz ziyadə olmağın muradımız dünyaya müraciət qılub təkrarla səadəti-şəhadət bulmaqdır və əgər müyəssər olsa, bu iqbalın idrakinə müdavi olmaqdır. Şe'r:

Şəhidi-xəncəri-bidada ruzi-Həşr feyzi-Həq,
Əyan etdikdə sərfi-nəqdi-can əcrinin asarın,
Kəmali-zövq bundan qeyr qoymaz anda həsrət kim,
Dönüb dünyaya hasil eyləyə ol zövq təkrarın.

Kitabi-"Rəbiül-Əbrar"da Bəxtəri məstur etmiş bir əzizdən, nəql edüb ki, bir gün Həzrəti-Rəsulullah bənim mənzilimdə mübarək əllərin yuyub və məzməzə edüb iste'mal olunan



suyu bir mövze'də tökdü. Sabah olduqda ol mövze'də bir dirəxti-barvər peyda olub bir xoş meyvə gətürdi. Bir müddət xəlq ana "Şəcəreyi-mübarəkə" ləqəb qoyub meyvəsindən mütəmətte' olurlardı. Bir gün gördük meyvəsi tökülüb, bərgləri pəjmürdə olmuş. Təəccüb etdik ki, aya, nə afət vaqe' oldu ola? Nagah xəbəri-vəfati-Rəsul istima' olundu. Andan sonra dəxi meyvə verürdi, əmma nihayət qillətdə. Bir gün gördük ki, cəmi'i-meyvəsi tökülüb, yerinə tikan bitmiş. Nagah Həzrəti-Murtəza vəfatından xəbər verdilər. Andan sonra dəxi övraqın iste'mal edüb bimarlar şəfa bulurlardı. Bir gün gördük təmamiyi-qüsunü övraqı xüşk olub həman saqi-dirəxt qalmış. Nagah xəbəri-vəfati-imam Həsən şiya' buldu. Bir gün gördük ol saqi-dirəxtdən dəxi əsər qalmayıb xakla yeksan olmuş. Nagah vaqieyi-Kərbəladan xəbər yetürdilər. Şe'r:

Hər qafilin ki, çeşmi bu matəmdə tər degil,
Mütləq nihali-ömrü anın barvər degil.
Hər didə kim, degil bu müsibətdə əşkbar,
Məqbuli-təb'i-mərdümi-sahibnəzər degil.

Rəvayətdir ki, Həzrəti-Hüseyn şəhid olduqda filhal bir kəbutəri-kafurfam həvadan yenüb, pərü balın ol məzlumun qanıyla gülgun edüb, pərvaza gəlüb, həm ol saətdə Mədinə əzmin qılub, rövzeyi-Rəsulullahın ətrafında cövlan edüb qətrə-qətrə qan pərü balından ol mərqədi-mübarəkə axıdırdı və Əhli-Beyt ol haləti müşahidə qılub heyran qalmışlardı ki, aya, bu nə əlamətdir? Nagah xəbəri-vaqieyi-Kərbəla yetüb mə'lum oldu ki, ol kəbutərin pərü balı nameyi-əhvali-Kərbəla imiş rövzeyi-Rəsulullaha.

"Kənzül-Ğərayib"də məsturdur ki, bir yəhudinin bir cəmilə qızı olub bə'zi bəlalara mübtəla idi. Ol cümlədən biri ol ki, ə'ma idi və yəhudi xarici-şəhrdə anınçün bir bustan mürəttəb edüb mənzil müəyyən etmişdi. Bir gün ol yəhudi qayib olub, ol zəifə qaldıqda Hüseyni-məzlumin qanıyla rəngin olan kəbutər ol bustana güzar edüb, bir şaxsar üzrə qonub fəğan elərdi. Ol zəifə anın sədasına mütəvəccih olub ol şaxsara yetdikdə, baş qaldırub yuxaru təvəccöh qıldıqda kəbutər pərü balından bir qətrə qan dideyi-nabinasına damub bina oldu. Göz açub ol kəbutəri gördükdə pərü balından axdığı qandan sayir ə'zasına dəxi sürüb səhhəti-təmam buldu. Səhihül-mizac və bina seyr edərkən yəhudi şəhrdən gəlüb bustana girdikdə ol bimarını səhhət üzrə görüb, təəccüb edüb səbəb sual etdikdə ol zəifə surəti-halın bəyan etdi. Yəhudi mütəəccüb olub, ol şaxsara mütəvəccih olduqda ol kəbutəri görüb nişatla ayıtdı: "Əyyuhə't-təyru ma-həqiqətu halikə vəma fibalikə"[1]. Hikməti-İlahidən yəhudiyə səbəbi-İslam olmaq məsləhəti üçün ol heyvan natiq olub göftara gəldi ki: "Ey yəhudi, bu gün bə'zi kəbutərlər ilə aşiyanəmizdən pərvaz edüb seyr edərkən güzarımız Kərbəlaya düşdü. Hüseyni-məzlumu gördük, aludeyi-xakü xun şəhid olmuş. Pərü balımızı anın qanına sürüb, hər birimiz bir canibə təvəccöh qılub, hala bən bu büq'əyə düşüb növhəyə məşğul ikən sənin fərzəndin hazır olub təvəccöh etdikdə əmrazinə şəfa verən pərü balımdan axan qandır və bu gün vühuşü tüyur matəmi-övlad tutub pərişandır". Yəhudi bu hala müttəle' olduqda hidayəti-İslam bulub səadəti-imana yetdi və səbəb sual edənlərə şərhü bəstlə bəyani-hal edüb çoxları dəxi müsəlman etdi. Şe'r:

[1] Ey quş, həqiqəti-halın və qanadındakı nədir?

Məhrəmi-bargahi-İzzətdən
Nə əcəb gər kəramət etsə zühur.
Qürbi-dərgahi-Həq bulanlardan,
Mö'cüzatü kəramət olmaz dur.

Raviyi-ərbabi-cigərsuzi-Kərbəladan və naqili-asari-qəmənduzi-şühədadan səhhətə yetmiş, rəvayət və şöhrət etmiş hekayət budur ki, Şimri-Zilcövşəni-məl'un ol əmri-qəbihə mübaşirət etdikdən sonra Əhli-Beytin qarəti-əmvalü əsbabinə italeyi-əyaliyi-təsərrüf qılüb mütə'ərriz oldu. İstədi ki, Həzrəti-İmam Zeynəlabidini qətl edə. Bir rəvayətdə Həmid bin Müslim mən'iylə və bir rəvayətdə Ömər Sə'd nəhyiylə məmnu' olub əmvalü əmtiələrin qarət qıldı. Əbu Hənifə tarixində məsturdur ki, Ömər Sə'd əmri-müharibə itmam bulduqdan sonra Həzrəti-İmamın səri-sahibsəadətin Xəvli bin Yezid Əsbəhiyə təslim edüb Übeydullahi-Ziyada irsal etdi və kəndü bir gün dəxi Kərbəlada qalub, kəndü ləşkərinin məqtulların cəm' etdirüb, üzərlərinə nəmaz edüb dəfn etdirdi və şühədanun başların alub bədənlərinə iltifat etməyüb səhrada üryan bıraxdı. Və ol başları ləşkərinə təslim etdi ki, hər cəməat miqdarincə Übeydullahi-Ziyaddan ən'amü ehsana müstəhəqq ola. İgirmi iki ədəd yəhudiyə on dört ədəd Bəni-Təmimə, yeddi ədəd Bəni-Əsədə, beş ədəd Ərdəşirə və on iki ədəd Bəni-Səqifə verüb hökm etdi ki, hər taifə kəndü səfinə ol başlarla ziynət verüb Kufə şəhrinə girələr və xəvatini-hərəmsərayi-risalət üçün münasib hövdəclər mürəttəb qılub. Və bu ki, derlər, üryan naqələr üzrə alub getmişlər, qələti-məhzdir, zira Əhli-Beyti-risalətə ol ihanət heç vəchlə mümkün olmaz. Və nəqli-səhihdir ki, vaqieyi-Kərbəlada Əhli-Beyt cəmi'i-məkkaridən məsunü məhrus olub, hisnü himayəti-ismətü iffətdə qalub məstur və məhcub mütəvəccihi-Şam oldular. Şe'r:

Müxəddərati-sərapərdeyi-risalətə bişək,
Kəfaləti-kərəmi-Kirdgar hisni-həsindir.
Nə ehtimali-xələl sitri-iffətinə anın kim,
Hərimi-hörməti-qürbi-Nəbidə pərdənişindir.

Rəvayətdir ki, xəvatini-hərəmsəra əmarilər içrə gedərkən güzarları mə'rəkeyi-qitala düşüb, Zeynəb Hüseyni-məzlumun bədəni-şərifin aludeyi-xakü xun görüb biixtiyar fəryada gəldi ki: "Ya cəddah və Muhəmmədah"[1], bu ol Hüseyn bin Əlidir ki, sinəvü rüxsarı sənin busəgahın idi və bu ol fərzəndi-ərcümənd və cigərguşeyi-səadətməndindir ki, məhbubü məqbuli-dilagahın idi. Başı bədəndən cüda və bədəni libasdan müərra, gör nə məqama yetmişdir və ruzigar ana nə cəfalar etmişdir!

Əlqissə, Xəvli bin Yezid ki, Həzrəti-İmamın səri-sahib-səadətin Kufəyə ilətmək məsləhətinə mə'mur idi, ol gün Kufəyə girmək müyəssər olmayub, mənzili-xarici-şəhrdə olmağın kəndü mənzilinə nüzul etdi və Həzrəti-İmamın səri-mübarəkin bir guşədə pünhan edüb məsnədində aram dutdu.

Rəvayətdir ki, ol bədbəxtin övrəti ənsardan olub qayətdə əhli-səlah və mühibbi-xanədandı və təhəccüd nəmazinə adət etmişdi. Nisfül-leyldə qaideyi-mə'hudu üzrə nəmaza məşğul olduqda gördü ki, mənzili rövşən olmuş. "Səbəbi-ziya nə ola?" – deyüb mülahizə qıldıqda gördü bir guşədən layih olur. Şö'leyi-ataş təsəvvür edüb təfəhhüs etdikdə gördü ki, guşeyi-hücrə şəqq olub, nurdən bir təxt peyda olub. Üzərində dört xatun enüb, ol şüa zahir olan guşədən bir surət çıxarub, rüxsarın rüxsarına sürüb fəğana başladı ki: "Ey məzlumi-madər və ey məhmumi-madər, inşaallah, ruzi-Qiyamət qaimeyi-ərşdən dəsti-təzəllüm çəkməyəm sənin intiqamını zalımlardan almayınca". Və baqiyi-övrət dəxi ittifaq edüb növhəyə məşğul oldular. Bir zəman növhə etdikdən sonra vida' edüb gəldikləri məqama müraciət qıldılar. Ol zəifə iztirabla ol guşəyə mütəvəccih olub gördü ki, ziyarət etdikləri surət çehreyi-mübarəki-məzlumi-Kərbəladır və tə'zimin qıldıqları peykər də sərdəftəri-şühədadır. Qayəti-təvəhhümdən müztərib olduqda hatifdən nida gəldi ki, "Ey məsturə, sən bu bədbəxt günahına müaxiz olmazsan və bilmiş ol ki, hala bu tə'ziyətinə hasil olanların biri Məryəm binti-İmran, biri Asiyə, biri Xədicə və biri Fatimeyi-Zəhra idi. Ol övrəti-pakizəe'tiqad ol peykəri-mübarəki gərdi-meydandan müşkü gülabla yuyub və gisuyi-mübarəkin şanə qılub, bir pak yerdə qoyub, Xəvliyi-bədbəxti bidar edüb ayıtdı: "Ey bidövlət, bilmədinmi ki, bu fərzəndi-Rəsulullahdır?!. Nişə qətlinə irtikab etdin?". Filhal ol məl'unun mənzilindən çıxdı, dəxi əsəri görünmədi.

Əmma sübhdəm ki, cəlladi-fələk sultani-əncümün səri-bibədənin təbəqi-lacivərdfamə vəz' edüb məhfili-ə'yana gətürdi və nəsimi-səhər məcmə'i-xari-gülbün içrə şahidi-gül çehrəsindən niqab götürdü, Xəvliyi-bisəadət iltifatü inayətə ümidvar olub, səri-nuraniyi-sahib-səadəti-sultani-Kərbəlayı bir təbəqdə vəz' edüb Übeydullahi-Ziyadın məclisinə yetirdi. Ol bədbəxt mübtəhicü məsrur olub, ol surəti-cəmalı müqabilində qoyub, cəmali-aləmarasinə təmaşa qılub və hüsni-şəmayilinə mütəhəyyir qalub. Əlində bir qəsəbə olub, ol qəsəbə ilə ləbü dəndani-mübarəkinə işarə edərdi ki, Hüseynin nə xoş ləbü dəndanı var imiş. Ol halətdə Ərqəm ki, səhabeyi-kübardan idi və ol məclisdə hazir idi, fəryada gəlüb ayıtdı: "Qətə'əllahu yədəkə"[1]. Ey bədbəxt, bu nə tərki-ədəbdir? Həqqa ki, kərratla görmüşəm ki, Həzrəti-Rəsulullah bu qəsəbə ilə mütəərriz olduğun ləbü dəndanı mülsəmi-təqbili-ehtiram etdigin!". Hüzzari-məclis anın kəlimatından mütəəssir olub fəğana başladılar. Übeydullahi-bədbəxt qəzəbnak olub ayıtdı: "Ey Ərqəm, əgər hörməti-kibəri-sinn olmasaydı, sənə siyasət edərdim". Əlqissə, Ərqəmi məclisdən çıxarub buyurdu ki, Həzrəti-İmamın başın yenə sayir şühədanun başlarına mülhət edüb cəmiyyətlə şəhrə gətirələr.

Rəvayətdir ki, Ömər Sə'd şühədanın başların alub, bədənlərin buraxub Kərbəladan irtihal etdikdən sonra ol cəvanibdə Arizə nam bir qəryə var idi, əhlinə ol vaqiə mə'lum olub Kərbəlaya gəldilər ki, bir neçə başsız bədənlər yatur, əmma üzərlərində bir növhə olur. Və kimsənə görməyüb fərasətlə bildilər ki, cinnilərdən matəm tutub mərsiyələr oxurlar və bu beyt ol mərsiyələrdəndir. Şe'r:

Nisau'l-cinni yus 'əduni nisau'l-haşimiyyati,
Bənatu'l-Mustəfa Əhməd İmam zaki'z-zati[2].

[1] Ah babam, ah Məhəmmədim!

[1] Allah əlini kəssin!
[2] Ey pəri qadınlar, Haşimi qəbiləsinə mənsub qadınlar məni xoşbəxt edərlər. Çünki o qadınlar zatı pak olan İmam Əhməd Mustafanın qızlarıdır.

Və "Şəvahid"də məsturdur ki, sual etdilər Bəni-Təyy qəbiləsinin bir mö'təmidinə ki, şühədayi-Kərbəla üçün cinnilər növhə qıldığın siz istima' etdinizmi? Ol mö'min ayıtdı: Həqqa ki, hürr və azad ol növhəyi istima' etdilər və anların mərsiyələrindən beytlər yadlarında tutdular. Ol cümlədəndir bu ki. Şe'r:

Məsəhə'r-rəsulu cəbinəhu qəd faqə bərqəm fi'l-hüdud,
Əbəvahi min-ə'la Qureyşin və cədduhu xəyrə'l-cüdud[1].

Əlqissə, əhli-Arizə ol məzlumlərin bədənlərin cəm' edüb, təchiz edüb, üzərlərinə namaz qılub dəfn etdilər. Və Ömər Sə'd Kərbəladan rəvan olub Kufəyə yetdikdə şühəda başların nizələr üzrə tə'biyə qılub və müxəddərati-xanədani-ismət əmarilərin tərtiblə rəvan edüb, ələmlər açdırub, naqarələr çaldırub şəhrə mütəvəccih oldular. Şe'r:

Amaci-navəki-nəzəri-mərdüm olmağa
Başlar dizildi nizəyə zərrin qəbəq misal.
Təqdirdən zəmanəyə hökm oldu qaliba
Kim, sərbüənd qıl buları, qılma paymal.

Übeydullahi-Ziyad, Ömər Sə'din gəldigindən vaqif olub, bargahi-həşmətin-ənvai-zibü ziynətlə arayiş qılub bin müsəlləh mübariz tə'yin etdi ki, dərvazələri və məhəllələri zəbt edüb fitnədən ehtiyat edələr və münadi nida yetürdi ki, cəm'i-xəvasü əvam istiqbala çıxalar. Təmamiyi-şəhr bə'zi təhniyə təriqiylə və bə'zi tə'ziyə iste'-dadiylə istiqbal edüb, ol gün bir qovğavü izdiham oldu ki, kəsrəti-xəlidən ləşkəri-Ömər Sə'd sabah dərvazədən girib vəqti-əsr qəsri-əmarəyə yetdilər. Rəvayətdir ki, əhli-Kufə məhfəl ətrafında qülüvv qılub, təəssüflər çəküb fəğan edərlərdi. Zeynəb binti-Əli müttəle' olub, hövdəcdən zəbani-tə'n açub ayıtdı: "Ey Əhli-Kufə, siz peyğamlar və məktublar irsal edüb Hüseyni bu diyara gətirdiniz və siz nəqzi-əhd edüb, Müslimi öldürüb, bizi bu məqama yetirdiniz. Yenə siz təəssüf edüb növhə qılırsuz?! Şe'r:

Ey əhli Kufə, adətiniz məkr imiş müdam,
Ey əhli-Şam, hiylə imiş rəsminiz təmam.
Gəh sə'y edərsiz Ali-Rəsulun qitalinə,
Gəh matəmin tutub ana eylərsiz ehtiram.

Əhli-Kufə arasında bir piri-kühənsal ayıtdı: "Ey xatuni-Qiyamət, bu kəlimatındə sadiqsən: "Yəqulunə bi-əlsinətihim maleysə fi qulubihim"[2]. Həqqa ki, bu bədnamlıq Kufə əhlindən Qiyamətədək mərfu' olmaz".

Zeyd bin Ərqəmdən nəqldir ki, şühəda başların Kufə məhəllələrində gəzdirirkən bən bir qürfədə sakin idim. Bana yetdikdə Həzrəti-İmamın səri-mübarəkindən bir səda eşitdim ki,

[1] Rəsul alnını sildi və yanında bir şimşək çaxdı. Əcdadı Qüreyşin ən uluları və ən xeyirliləri idi.
[2] Qəlblərində olmayan şeyi dillərilə söylərlər.



oxurdu: "Əm həsibtə ənnə əshabə'l-kəhfi və'r-rənimi kanu min ayatina əcəbən"[1]. Ol kəlimatın səlabətindən ə'zama lərzə düşüb ayıtdım: "Sədəqtə ya 'bnə Rəsulullah"[2].

Nəqldir bir əzizdən dəxi ki, qəsri-əmarədə şühəda başların nizələrdən endirdikdə bən qərib idim. Həzrəti-İmamın səri-mübarəkindən bu ayət tilavətin sərih eşitdim ki: "Və la təhsəbənnə'llahə qafilən əmma yə'məluz'z-zalimun"[3].

Rəvayətdir ki, Übeydullah bir növbət dəxi Həzrəti-İmamın səri-mübarəkin hüzurinə gətirüb, əlinə alub dizi üzərinə qoyduqda bir qətrə qan axub saqi-pəlidindən peykani-abdar kibi güzar etdi və ol məmərrdən peyvəstə məcruh qalub, müddəti-həyatında qabili-əlac olmayub, rayiheyi-məkruhindən əhli-məclis mütəəzzi olmağın cərahətə hər nə qədər nafeyi-müşk bağlardı, faidə qılmazdı. Beyt:

Sanma tökmək əhli-Beytin qanını asan olur.
Ehtiraz et kim, sənə hər qətrə bir peykan olur.

Rəvayətdir ki, ol cərahət zəmani-qətlinədək əlacpəzir olmayub müharibeyi-Muxtarda məqtul olduqda İbrahim bin Malik Əştər ol pəlidin cüssəsin ol cərahətdən mə'lum etdi.

Əlqissə, Übeydullahın məclisinə Əhli-Beyt hazır olduqda Zeynəb cümlədən müqəddəm məclisə qədəm dutdu. Übeydullah anın istiğnasından qəzəbnak olub ayıtdı: "Bu kimdir ki, hənuz əsəri-tüğyan surəti-əhvalında məlhuz olunur?". Dedilər: "Bu, Zeynəbdir, həmşireyi-Hüseyn". Übeydullah ayıtdı: "Ey xatun, şükrü sipas ol mə'buda ki, sizi xassü amm içində rüsva qılub bütlanınızı zahir etdi və seyqəli-ianətilə mir'ati-mülkümüzdən zəngi-küdurət getdi". Zeynəb ayıtdı: "Kazəbtə ya əduvə'llah"[4]. Ey kəzzab, sipasi-biqiyas ol Vacibülvücuda ki, bizim xanədanımızı şərəfi-nübüvvətlə müəzzəzü mükərrəm qılub. "İnnəma yuridullahu li--yuzhibə ənkumu'r-ricsə əhlə'l-beyti"[5] itşarətiylə səadəti – "Və yutəhhirəkum təthirən"[6] kəramət qıldı və bədxahımızın dideyi-bəsirətlərin ə'ma qılub, "Və ləhum əyminun la-yubsirunə biha və ləhum azanun la-yəsmə'unə biha"[7] badiyəsində heyran edüb daireyi-heyrətə saldı". Übeydullahi-Ziyad ayıtdı: "Ey fərzəndi-Əli ibn Əbi Talib, nə e'tiqadun var bizim qalib və sizin məğlub olduğunuz xüsusunda?". Zeynəb ayıtdı: "Ey zalim, bizə vaqe' olan əhvaldan cəddimüz xəbər vermişdir, vüquinə müntəzir idik. Əl-minnətu lillah ki, cəddimizin sidqi-qövlinə surəti-əhvalımız məzhər [vaqe'] olub, dərəceyi-iqbali-"İnnə'llahə mə'ə's-sabirin"[8] müyəssər oldu. Ənqərib sizə dəxi hər kimin sərəncamı nə olduğu mə'lum olacaqdır və hər kim cəzayi-əməlin kargahi-ədldən bulacaqdır: "Və bəşşiri'l-munafiqinə bi-ənnə ləhum əzabən əlimən"[9]. Übeydullah ayıtdı: "Ey binti Əbu Turab, hala bu bir səadətdir ki, zəmirimiz si-

[1] Yoxsa sən Kəhf və Rəqim sahiblərini heyrət ediləcək ayətlərimizdənmi sandın? (Qur'an, 18, 9).
[2] Ey Rəsulullahın nəvəsi, doğru buyurdun.
[3] Zənn etmə ki, Allah zalımların etdiklərindən qafildir (Qur'an, 14, 42).
4 Ey Tanrının düşməni, yalan dedin.
[5] Ey Əhli-Beyt, Tanrı sizdən pisliyi yox etmək istəyir (Qur'an, 33, 33).
[6] Sizi pak və tərtəmiz etmək istəyir (Qur'an, 33, 33).
[7] Gözləri var görməz, qulaqları var eşitməz (Qur'an, 7, 179).
[8] Allah səbr edənlərlə bərabərdir (Qur'an, 2, 153).
[9] Özləri üçün acıqlı bir əzab olduğunu düşmənlərə müjdə ver! (Qur'an, 4, 138).

zin tüğyanınızdan fariğ oldu və istilayi-qürurunuz təskin buldu". Zeynəb ayıtdı: "Ey ibn Mərcanə, qüruri-əsbabi-dünyayla sərməst olub bir padişah qəsdin etmişsən ki, cəmi'i-əfradi-afəriniş təhti-livayi-imamətində və rizayi-Xuda və Rəsul şərəfi-itaətində idi". Şe'r:

Hüseyn ibn Əli ibn Talib kim, andandır,
Binayi-şər'ə istehkamü dini-Həqqə iste'la.
Müəzzəm cəddi-valası, nəbiyyi-ümmiyi-Məkki,
Mükərrəm babi-ilqasi Əliyyi-aliyi-ə'la.

Übeydullahi-bədbəxt ol kəlimatdan mütə'əzzi olub qətlinə əmr etdi. Ömər bin Hüreysi-Məxzumi hazır idi, fəryada gəlüb ayıtdı: "Ey zalim, bir qəribin ki, əkabiri məqtul olub, əsağiri-yetim və əsir olmuş ola, əgər hərqəti-qəlb və hərarəti-cigərdən dilirana təkəllüm qıla əcəb olmaz". Şe'r:

Sən nə agəhsən ki, suzi-atəşi-möhnət nədir?
Məsnədi-rahətdə mülkü mal ilə məğrursan.
Dərd əhli halını aləmdə dərd əhli bilür,
Səndə yoxdur dərd, ey bidərd, sən mə'zursan.

Übeydullah Zeynəbdən inhiraf edüb, Əliyyi-Zeynəlabidinə təvəccöh qılub ayıtdı: "Bu kimdir?" Dedilər: "Əli bin Hüseyn". Dedi: "Əli bin Hüseyn məqtul olduğu istima' olundu". Dedilər: "O, Əliiyi-Əkbər idi". Həzrəti-İmam Zeynəlabidin mütəhəmmil olmayub ayıtdı: "Vəllahu innə ləhu mutalibən yövmə'l-qiyaməti"[1]. Ey Übeydullah, ol bənim bəradəri-buzurgvarım idi, ol bənim ümidgahım və istizharım idi. Həqqa ki, axirətdən müqəddəm dünyada anın intiqamın alanlar ənqərib peyda olur". Übeydullah qəzəbnak olub buyurdu ki, ol məzlumu qətl edələr. Zeynəb dəsti-mübarək Həzrəti-İmamın daməni-şərifinə möhkəm edüb bünyadi-növhə qıldı ki: "Ey bədbəxt, əgər hənuz atəşi-tüğyanun seyli-xuni-şühədayi-Əhli-Beyti-Mustəfadan təskin bulmadıysa və hərarəti-isyanın şəhidlər qanın içməkdən sakin olmadıysa, bu məzlum yerinə bəni şəhid et ki, buna mütəərriz olma, zira bundan qeyri xanədani-nübüvvətdə və dudmani-risalyətdə məhrəm qalmamışdır". Həzrəti-İmam Zeynəlabidin əmmeyi-möhtərəməsindən inani-təkəllüm alub, meydani-fəsahətə rəxşi-ibarət salub goftara gəldi ki: "Ey İbn Mərcanə, bana qətldən təvəhhüm verürsən. Bilməzmisən ki, bizə qətlü qital sərmayeyi-feyzi-şəhadətdir və həmişə caza qılub şəhid olmaq adətdir. Peyvəstə nihali-həyatımız zülali-şəmşiri-abdarla səbzü xürrəmdir və həmvarə riza qəzaya vermək və məsayibə səbr eyləmək bizə müsəlləmdir". Şe'r:

Qətldən xövf verən əhli-Həqə, bilməz kim,
Dam olur əhli-Həqə daireyi-qeydi-həyat.
Dəhr bir mənzili-möhnətdirü qəm, ey qafil,
Və'deyi-qətldədir müjdeyi-tövfiqi-nəcat.

[1] Allaha and içirəm ki, qiyamət günündə onun bir alacaqlısı vardır.



Übeydullahi-Ziyad gördü ki, məsduqeyi-"Və ma-yəntiqu əni'l-həva"[1] vaqe' olan qövmlə münazirə faidə qılmaz və mütəəllimi-məktəbi-"Və əlləm-hu şədidü'l-quva"ya[2] mübahisədə qalib olmaq olmaz, naçar sakit olub mülazimlərinə əmr etdi ki, ol məzlumlara qəsrdən dışra came'i-Kufəyə [qərib] bir mənzil tə'yin edüb əhli-şəhri ixtilatlarından mən' edələr. Bir neçə gündən sonra təhiyyeyi-əsbabi-səfər edüb Zübeyr bin Qeys və Həsin bin Müğeyrə və Şimri-Zilhövşənə beş bin müsəlləh namərd qoşub Əhli-Beyti şühəda başlarıyla canibi-Şama rəvan etdi.

Rəvayətdir ki, mənazilü mərahil qət' edüb gedərkən hər mənzildə ənvai-kəramət zahir olurdu. Ol cümlədəndir bu ki, çün Hərrana yetdilər, Yəhya nam bir yəhudi sayir xəlqlə ol başlara təmaşa üçün istiqbal etdikdə və Həzrəti-Hüseynin səri-mübarikinə qərib olduqda ləbi-mübarəkin mütəhərrik görüb diqqətlə təəmmül qıldıqda bu ayət tilavəti səm'inə yetdi ki: "Və səya'ləmu'lləzinə zələmu əyyə munqəlibin yənqəlibun"[3]. Yəhya mütəhəyyir olub sual etdi ki, bu kimin başıdır? Ayıtdılar: "Hüseyn bin Əlinin başıdır ki, cəddi Mustəfadır və validəsi Fatimeyi-Zəhradır". Yəhyaya ol kəramət əsər qılub filhal imana gəldi. Mənzilinə dönüb xəvatini-hərəmsərayi-nübüvvət üçün və İmam Zeynəlabidin üçün əlbisədən və ət'imədən bə'zi münasib hədiyyələr mürəttəb edüb, bin dirhəm nəzr qılub gətürdikdə müvəkkil olanlar təərrüz etdilər ki, ə'dayi-padşaha məhəbbət mövcibi-fəsaddır və qətlinə qəsd eylədilər. Yəhya dəxi vəhm etməyüb, bə'zi mülazimlərlə anlara müqabil durub, həsbülməqdur müqatilə edüb şəhid oldu. Rəhmətullahi əleyh. Və hala qəbri Hərranda olub Yəhyayi-şəhid deməklə mə'ruf bir məzardır. Şe'r:

Kəraməti-nəsəbi-Mustəfa degil məxfi,
Nə bak ana həsəd əhli əgər nəzər qılmaz.
Nə tirədir dili-əhli-həsəd ki, mö'cüzi-Al
Yəhuda eylər əsər, anlara əsər qılmaz.

Cümleyi-kəramətdən biri dəxi oldur ki, Mosul diyarına yetdikdə Şimri-Zilçövşən e'lam etdi ki, əmiri-Mosul şəhrə ayin bağlayub əhli-şəhrlə istiqbala çıxalar. İmadüddövlə ki, əmiri-Mosuldu, əhli-şəhri cəm' edüb ol əmrə iqdam etməyüb cavab göndərdi ki, bu şəhrdə təvayifi-müxtəlifə çoxdur, fəsad ehtimalı var. Səlah oldur ki, dışrada qonub nüzul [edələr və sayir ləvazim] xidmətlərinizə irsal oluna. Şimri-məl'un dəxi qayəti-vəhmdən bu səlahı qəbul edüb, şəhrə girməyüb dışrada nüzul edüb, Həzrəti-İmamın səri-mübarəkin bir daş üzərinə qoymuşlardı. Bir qətrə qan damub ol səhrayi-mübarəki mə'dəni-yaquti-kəramət qıldı. Müqərrər oldu ki, hər mahi-Məhərrəm ol qan cuşa gəlüb mücəddəd ola və xəvasü əvami-şəhr ətrafında cəm' olub əzaya məşğul olalar, ta Əbdülməlik məsnədi-hökumətdə vali olduqda həsəddən ol daşı götürüb andan əsər qalmadı, əmma yerinə "Məşhədi-Nöqtə" deyüb hənuz ziyarət edərlər. Şe'r:

[1] Mahiyyətindən bir şey söyləməz.
[2] Güclü Allah ona öyrətmişdir.
[3] Zalımlar nələrə düçar olacaqlarını lap yaxında anlayacaqlar (Qur'an, 26, 227).

Girdin, ey əhli-sitəm bir qana kim, hər qətrəsi,
Daşa damsa ta əbəd daşdan çıxar yaquti-tər.
Könlünü daşdan betər dersəm rəvadır, nişə kim,
Daşa tə'sir eylər ol qan, könlünə qılmaz əsər.

Və cümleyi-kəramatdan biri dəxi oldur ki, Nüsəybin hüdudına yetdikdə Mənsur bin İlyas şəhrə ayin bağladub, istiqbala çıxub anları şəhrə gətürdikdə bir bərqi-aləmsuz zahir olub şəhrin əksərin yaxdı və ləşkəri-Şimri-məl'una iztirabü iztirar bıraxdı. Şe'r:

Düşməni-qafil sanur kim, xuni-ali-Mustəfa,
Bağı-iqbalinə gülbərgi-baharəfruzdur.
Ehtiraz etməz, həzər qılmaz, məgər vaqif degil
Kim, anın hər qətrəsi bir bərqi-aləmsuzdur.

Və cümleyi-kəramətdən biri dəxi oldur ki, Nüsəybindən ixtirarla çıxub bir qəl'əyə yetdilər ki, hakiminə Süleyman bin Yusuf derlərdi. Və anın iki qarındaşı olub, biri müharibeyi-Siffində Əliyyi-Murtəza əlində məqtul olub, biri anınla şəriki-əyalət idi. Və şəhrin iki dərvazəsi olub, hər biri birinin hökmündə idi. Şimrin vüsulindən vaqif olduqda şərhə ayin bağladub, təfaxür üçün hər biri ol başları kəndüyə mütəəlliq olan dərvazədən gətürmək üçün niza' edüb, aralarında fitnə vaqe' olub, [Suleyman məqtul oldu]. Və ləşkəri-Şimr dəxi sərasimə olub, anda təmkin bulmayub Hələb diyarına təvəccöh etdilər. Həvaliyi-Hələbdə bir mə'mur büq'əyə yetdilər ki, anda həfirdən qeyr nəsnə iste'mal olunmazdı. Qürbündə qonub aram dutduqda Şəhrbanunun Şirin nam bir cariyeyi-cəmiləsi vardı ki, lətafəti-hüsnlə yeganeyi-ruzigardı. Şəhrbanu xidmətinə gəlüb girye ağaz etdi. Və səbəb bu idi ki, Şəhrbanu Mədinəyə gəlüb Həzrəti-Hüseyn söhbətinə müşərrəf olduqda yüz cariyəsi olub, zəmani-zifaf əlli cariyəni azad edüb, əlli cariyə qalmışdı və Həzrəti-Zeynəlabidin mütəvəllid olduqda qırx cariyə dəxi azad olub on cariyə xidmətində qalmışdı və Şirin ol cümlədən idi. Rəvayətdir ki, bir gün Həzrəti-İmamın nəzəri-şərifinə mətbu görünüb mütayibə təriqiylə Şəhrbanuya ayıtdı: "Ey şəhzadə, Şirin bu gün qayətdə ziba görünür". Şe'r:

Düşdü guya surəti-Şirinə hüsnündən füruğ
Kim, könül Fərhadvəş buldu liqasından sürur.
Pərtövi-xurşidi-aləmtabdandır müttəsil,
Lə'lə rəngü laleyi-siraba tabü maha nur.

Şəhrbanu təsəvvür etdi ki, Həzrəti-İmamın ana rəğbəti var, ixlasla ayıtdı: "Ey şəhzadə, bu cariyəyi sənə hədiyyə qıldum". Həzrəti-İmam ayıtdı: "Bən dəxi azad etdim". Şirin azad olduqda Şəhrbanu ana bir xəl'əti-faxir geydirdi ki, xəzaneyi-abavü əcdaddan ana irslə yetmişdi. Həzrəti-İmam ayıtdı: "Ey şəhzadə, nə vaqe' oldu ki, Şirin hüsni-iltifatınla sayir cariyələrdən mümtaz oldu?". Şəhrbanu ayıtdı: "Ey şəhzadə, sayir cariyələr bənim azadımdı, Şirin sənin azadındır". Həzrəti-İmam ana dua qıldı.



Və hala Şirin Şəhrbanunun kisvətin pirayələrdən müərra görüb, ədna əlbisə ilə mülahizə qılmağın mütəhəmmil olmayub təzərrö' etdi ki, ey məxdumə, bana rüxsət ver ki, bu qəl'əyə girüb, bə'zi pirayələrim verüb, ola ki, bir münasib məlbusi-hərir alub xidmətinə müşərrəf olam. Şəhrbanu ayıtdı: "Ey Şirin, sən azadsan. Sənə kim mane' olur?".

Şirin icazət alub ol qəl'əyə mütəvəccih olduqda dərvazəyi bağlu görüb, bir guşədə mütəməkkin olub, açılmasına müntəzir ikən Əziz bin Harun ki, kutvali-qəl'ə idi, bürcü baru üzərində seyr edərkən görüb avaz yetirdi ki: "Əyyuhə'r-rəcul?"[1] [Şirin ayıtdı:] "Bir qəribəm, hacətim var. Nola əgər lütf edüb qəl'ə qapusın açasan?". Əziz ayıtdı: "Ey xatun, sən Şirin degilmisən?". Şirin təəccüb edüb ayıtdı: "Bəli, bən Şirinəm". Əziz dərvazəyi açub, Şirini qəl'əyə alub, ana səlam verdikdə Şirin cəvabi-səlam alub ayıtdı: "Ey Əziz, nə bildin ki, bən Şirinəm". Əziz ayıtdı: "Bu gecə həzrəti-Musayı Harunla vaqiəmdə gördüm. Nasiyələrində əsəri-tə'ziyət və çehrələrində nişani-müsibət. Giribanları çak və didələri nəmnak. Təzərrö'lə ayıtdım: "Ey əizzeyi-Bəni-İsrail, nə vaqe' oldu ki, surəti-halınuz mütəğəyyir mülahizə olunur?". Dedilər: "Ey Əziz, bu gün cəm'i-əşya əzaya məşğuldur, zira nəqdi-Xatimül-Mürsəlin şəhid olmuşdur və ol məzlumun səri-mübarəkin bədəni-lətifindən cüda qılub hala bu məqama gətirmişlər. Ey Əziz, əgər səadəti-baqi muradın isə Həbibullaha iman gətirüb, Həzrəti-Hüseynin səri-mübarəkin ziyarət edüb bizim səlamımızı yetür". Kəlamati-şirinlərin kəmali-e'tiqadla istima' etdikdən sonra ayıtdım: "Ey qüdəmayi-Bəni-İsrail, təzayüdi-e'tiqad üçün bir sərriştə muradımdır". Dedilər: "Ey Əziz, hala bu qəl'ə qapusında Əhli-Beytdən bir cariyə Şirin nam gəlüb müntəzirdir. Və ol cariyə divani-qəzadan sənin təzvicinə müqəddər olubdur. Ana istiqbal edüb, həqiqəti-hal andan mə'lum edüb, anınla xidmətlərinə müşərrəf olasan".

Şirin ol kəlimatdan xoşhal olub ayıtdı: "Ey Əziz, hər nə dedin, əyni-səvab və məhzi-məsləhətdir. Əmma bənim əqdim Şəhrbanu icazətinə mövqufdur". Pəs, Şirin həm ol saət müraciət qılub Şəhrbanuya əhval ərz etdikdə cəmi'i-Əhli-Beyt vaqif olub, mübahatlar qılub şükr etdilər. Əmma sübhdəm ki, Musayi-xurşidi-aləmtab əsayi-şüa'lə dəryayi-nilguna güzar etdi və şə'şəeyi-yədi-beyzayi-sübhi-sadiq Turi-kuhsarı sərasər tutdu, Əziz bin Harun qəl'ədən yenüb müstəhfizlərə bin dirəm rüşvət verüb, xidməti-Əhli-Beytə icazət alub, bin altun Həzrəti-İmam Zeynəlabidinə nəzr təriqiylə mühəyya qılub və xəvatini-hərəmsərayi-risalətin hər birinə bir münasib töhfələr mürəttəb [edüb] xidmətlərinə müşərrəf oldu və iman gətürdi. Və Həzrəti-Hüseynin səri-mübarəkin ziyarət edüb Musa və Harun səlamın yetürdikdə Həzrəti-İmamın səri-sahibsəadətindən bir avaz gəldi ki, "Səlamu'llahi əla nəbiyyina və əleyhim"[2]. Əziz ayıtdı: "Ya İmam, bana təriqi-hidayət irşad et". Səda gəldi ki: "Ey Əziz, çün müsəlman oldun, hidayət buldun. Və çün Əhli-Beytimə hörmət qıldın və ənbiya səlamın yetürdin, silsileyi-intisabimizə daxil oldun". Əziz dua qılub müraciət qıldıqda Şəhrbanu Şirinə ayıtdı: "Əgər rizayi-şərifimizi istərsən, Əzizi qəbut et". Şirin Şəhrbanu icazətiylə Əzizi qəbul edüb anınla rəvan oldu. Şe'r:

Səadət nişanı budur kim, yəhud
Olur əhli-din, əhli-tüğyan ikən.

---

[1] Sən kimsən?
[2] Allahın salamı Nəbimizə və onların üzvlərinə olsun!

Şəqavət dəlili budur kim, şəqi
Qılır tərki-din, əhli-iman ikən.

Həzrəti-İmam, İsmail Əbul-Hünuqdan rəvayət edər ki, şühəda başların əlli mübariz hər gecə mühafizət edərlərdi. Bən ki, Əbul-Hünuqam, bir gecə anlarınla həmrah olub, anlar yuxuya varub, bən bidar qaldım. Gördüm ki, bin gəndümgun kimsənə libasi-kafurfamla giryan-giryan Həzrəti-Hüseynin başı olan sənduqa müqarin olub, ol səri-mübarəki sənduqdan çıxarub, yüzün yüzünə sürüb fəğana başladı. Bən öylə təsəvvür etdim ki, sayir xəlqdəndir. Təhəvvürlə mütəvəccih oldum ki, ol başı əlindən alub yenə sənduqa buraxam. Nagah bir səda gəldi ki: "Ey biədəb, bu, Adəmi-Səfidir, cigərguşeyi-Mustəfa matəmin dutar". Bən ğərqeyi-dəryayi-təhəyyür olmuş ikən bir səda dəxi gəldi. Bir mö'təbər kimsənə dəxi peyda oldu. Dedilər: "Nuh Nəbidir". Və mütəaqib İbrahim və İsmail və İshaq və sayir ənbiya hazır olub, bir-bir başı ziyarət qıldılar. Cümləsindən sonra sədəmati-naləvü əfğanla gisuləri pərişan və didələri giryan Həzrəti-Rəsulullah, cəmaəti-səhabeyi-kübar və Heydəri-Kərrar, İmam Həsən və Həmzə və Cə'fəri-Təyyarla gəlüb hazır olduqda mülahizə qıldım, asimandan bir kürsiyi-nurani nazil olub, Həzrəti-Rəsul ol kürsi üzərinə qərar dutub, sayir ənbiya ətrafında mütəməkkin olub əzaya iştiğal etdilər. Ol hala müqarin gögdən firiştə yendi. Bir əlində tiği-bürran və bir əlində əmudi-atəşinkəran. Sənduq müstəhfizlərinə həmlə qıldıqda bən qayəti-vəhmdən fəryada gəlüb ayıtdım: "Ya Rəsulullah, bən ikrahla bunlara rəfaqət qılmışam, haşa ki, düşməni-xanədani-Rəsul olam. Həzrəti Rəsul bəni mən'ilə xilas etdi, əmma rüxsarimə bir təpançə urdu ki, anın əsərindən tərəfi-rüxsarım siyah oldu. Sabah olduqda ol rəfiqlərimdən [bir] əsər görmədim, bir neçə xirməni-xakistərdən qeyri. Bu xəbər Şimri-Zilcövşənə yetüb, bəndən ki, Əbul-Hünuqam, həqiqət sual etdikdə müşahidə qıldığum əhvalı təmam şərh etdim. Ləşkəri-müxalif ol halı mə'lum edüb əvaqibi-ümurlərinə ittila' buldular, əmma nə çarə? Şe'r:

Hər əməl bir cəzaya qabildir,
Ey xoş ol ki, səvaba mayildir.
Netə kim, gül olur tikəndən yeg,
Gül tikəndir, tikən tikəndən yeg.

Əbu Səid Diməşqidən nəqldir ki, demiş: "Bən ol cəmaətlə Şam yolunda rəfiq idim. Həvaliyi-Diməşqə yetdikdə bu xəbər şaye' oldu ki, Müseyib Qə'qayi-Xüzai bir ləşkər mürəttəb edüb, şəbixun urub başları almaq tədarükündədir. Rüəsayi-ləşkər müztərib olub ol səhrada bir deyr gördülər. Mütəhəssin olmaq üçün ol deyrə mütəvəccih oldular.

Rahibi-deyr ayıtdı: "Ey qövm, siz nə tayifəsiz və bu başlar kimlərindir və bu deyrə gəlməkdən muradınuz nədir?". Ayıtdılar: "Biz əskəri-Yezidiz və bu cəmaət xürüc etmişlərdi, siyasətə yetirdik. Və hala istima' olundu ki, cəmi'i-müxaliflər qəsdi-şəbixun etmişlər, bu deyrə mütəhəssin olmaq istərüz". Rahib ayıtdı: "Bu deyrdə izdihami-əskər vüs'əti yoxdur. Münasib budur ki, əsirləri və başları hisara salub, ləşkər dışrada dura". Şimri-lə'in bu səlaha razı olub, başları bir sənduqa qoyub, möhr edüb, deyr içində bir müstəhkəm səraya salub



qapusuna qüfl urdurdu və Həzrəti-İmam Zeynəlabidin və baqiyi-Əhli-Beyt üçün dəxi ol deyrdə bir münasib mənzil tə'yin etdirüb, ol canibdən təsəlli olub ləşkərlə dışrada aram dutdu.

Şəbhəngam ki, deyri-binayi-fələk müddə'i-möhreyi-mehri-rəxşan olub sipahi-zəlami-qirfam misali-ləşkəri Şam ətrafi-fələkdə qərar dutdu və rahibi-hinduyi-zəngirəngi-şəbsənduqi-zərrini-afitabı deyri-sipehri-minada nihan etdi, nisfi-leyldə rahib bidar olub gördü ki, sənduq olan sərayın rövzənlərindən nur lame' olur. Mütəhəyyir olub bir rövzənədən nəzər qıldıqda gördü ki, səqfi-səray şəqq olub, şikafından bir əmari çıxub ol əmaridən bir neçə xatun ki, tari-mi'cərlərindən mədudi-şüai-xurşid kibi ənvari-iffətü ismət füruzandı və pərtövi-ənvari-təl'ətlərində sayəvar zülməti-fəsadü fitnə gürizandı. Anlara mütəaqib bir xatun dəxi bə'zi mütəhhəratla zahir oldu ki, ləm'eyi-nuri-səlahindən müqəddəm gələnlər pərdeyi-ixtifaya girdilər. Rahib mütəğəyyir ikən nida gəldi ki: "Ey biədəb, nəzzarə qılma ki, bunlar müxəddərati-pərdeyi-iffətdirlər. Bunlar xəvatini-sərapərdeyi-ismətdilər. Müqəddəm gələnlərin biri Sarə-zövceyi-Xəlil, biri Hacərdir, valideyi-İsmail. Biri Xədiceyi-Kübradır, zövceyi-Həbibi-Məliki-Cəlil, biri Asiyədir, zövceyi-Fir'ovni-əlil və bunlardan sonra gələn Fatimeyi-Zəhradır". Əgərçi rahib nəzər qılmazdı, əmma istima' edərdi ki, derdi: "Əssəlamu əleykə əyyuhə'l-məzlum, əssəlamu əleykə əyyuhə'l-məhmum, əssəlamu əleykə əyyuhə'l-məğmum"[1]. Və sayir xəvatin ana mürafəqət qılub növhə qılırlardı. Bir zəman əza tutub qayib oldular. Rahib bu haldan mütəəssir olub, biixtiyar çirağ yaxub, ol sərayın qüflün sındırub, Həzrəti-İmamın başın sənduqdan çıxarub, müşkü gülabla yuyub, bir təbəq üzərinə qoyub bünyadi-təzərrö' etdi ki: "Ey sərvəri-aləm, imdi bildim ki, sən ol tayifədənsən ki, peyğəmbərlərimiz qüdumi-şərifindən və'də verüb mütabiətin bizə lazım etmiş. Filhal irşadi-yəhud məsləhəti üçün Həzrəti-İmamın ləbi-mübarəki mütəhərrik olub, göftara gəlüb ayıtdı: "Ey rahib, "Əna məzlumun, əna məhmumun, əna məqtulun, əna qəribun, ənəbnə'l-Mustəfa, ənəbnə'l-Murtəza"[2]. Şe'r:

Mən ruhi-rəvani-Mustəfayam,
Bən rahəti-cani-Murtəzayam.
Məzlumü qəribü zarü heyran,
Məqtulü şəhidi-Kərbəlayam.

Rahib bu kəraməti görüb, övladü ətbain hazır edüb, əhvala müttəle' qılub, yetmiş nəfər nəsrani ittifaqla Həzrəti-İmam Zeynəlabidin hüzurinə gəlüb həm ol gecə müsəlman oldular və icazət istədilər ki, çıxub ləşkərə şəbixun edələr. Həzrəti-imam rüxsət vermədi ki, anlarun zəvalinə və'də irməmişdir. Sabah olduqda ləşkəri-Şimr anları çıxarub, ahəngi-rah edüb, Əsqəlan nam şəhrə yetdilər. Yə'qub Əsqəlani hərbi-Kərbəlada daxili-əskər idi. Filhal şəhrə ayin bağladub, xəlqin istiqbala çıxarub, məcalisi-xəmrü ləhv mürəttəb qıldırub, Şimri ləşkəriylə gəlirkən Bəriri-Xüzai ticarət təriqiylə anda idi. Bu əhvala müttəle' olduqda istiqbala çıxub seyr edərkən Şimrə müqabil oldu. Gördü ki, mübahat edüb gəlür. Bərir ayıtdı: "Ey bəd-

[1] Ey məzlum, sənə salam olsun! Ey sıxıntı içində olan, sənə salam olsun! Ey qəmli, sənə salam olsun!
[2] Ey rahib, mən məzlumam, mən sıxıntı içindəyəm, mən qətl olunmuşam, mən qəribəm, mən Mustafanın oğluyam, mən Murtəzanın oğluyam.

bəxt, bu kimin başıdır ki, məhçeyi-ələm etmişsən?" Şimri-lə'in andan müxalifət fəhm edüb mülazimlərinə hökm etdi, ol məzlumu məcruh edüb bıraxdılar.

Rəvayətdir ki, ləşkər getdikdən sonra Bərir durub hər tərəf tərəddüd edərkən bir camaətə yoluxdu ki, fəryadü fəğan edərlər. Ayıtdı: "Ey qövm, bu gün bu şəhrin xəlqi şadü xürrəm ikən nə əcəbdir ki, siz məhzunsuz?". Dedilər: "Biz mühibbi-xanədani-Rəsuluz, Hüseyn üçün matəmdəyüz". Bərir ayıtdı: "Ey qövm, əgər qövlünüzdə sadiqsiz, gəlin canımızı fədayi-Əhli-Beyt edəlim". Ol camaət ittifaq edüb, yüz on nəfər mücahid cüm'ə günü xüruc edüb, xətibi öldürüb izhari-məhəbbəti-Əhli-Beyt qıldılar və hekayətləri əksəri-təvarixdə məsturdur.

Əlqissə, ləşkəri-Yezid mənazilü mərahil qət' edüb və hər mənzildə bir kəramət və hər mərhələdə bir işarət görüb şəhri-Diməşqə qərib olduqda və xəbəri-vüsulları xassü ammə şüyu bulduqda Yezidi-pəlid vaqif olub, məsnədi-hökumətinə ənvai-təkəllüfatla zibü ziynət verüb və məclisi-eyşü işrət mürəttəb qılub, cəmi'i-ərkani-həşmət və ə'yani-hökuməti əlbiseyi-faxir və əsbabi-mülukanə ilə müzəyyən olub bargahinə cəm' oldular və təmamiyi-xəlqi-şəhr tərki-müamilət edüb nişatü sürurla təmaşa üçün istiqbala təvəccöh qıldılar.

"Kənzül-Ğəraib"də Əbul-Əbbas, Səhli-Saididən nəql etmiş ki, bən təriqi-ticarətlə ol zəmanda Şamda idim. Gördüm ki, bir gün kusi-bəşarət urulub, xəlqi-şəhr nişata məşğul oldular. Güman etdim ki, məgər eydləridir. Birisindən sual etdim ki, aya, səbəbi-nişat nədir? Dedi: "Ey şeyx, bu gün Yezid müxaliflərinün başları gəlir, nişat anınçündür". Dedim: "Ey əziz, nə dərvazədən gətürirlər?". Dedi: "Dərvazeyi-səadətdən". Rəvan oldum, kəndümi ol qovğada Əhli-Beytə yetürdim və ol başları gördükdə ixtiyarsız fəryada gəldim. Fəryadımı eşitdikdə hövdəcdən bir avaz eşitdim ki, bana dedi: "Ey pir, səbəb nədir ki, cəmi'i-xəlq xəndan olan əyyamda sən giryansan?". Dedim: "Ey əfifə, sən kim olursan?". Dedi: "Bən Səkinə binti-Hüseynəm". Dedim ki, ey gövhəri-xəzaneyi-ismət, bən Səhli-Saidəm, səhabeyi-Rəsulullahdan və bu diyara qərib vaqe' olmuşam. Dedi: "Ey Səhl, sən mühibbi-Əhli-Beytsən, bir tədbir et ki, bu nizədarlar ki, şühəda başlarun tutmuşlar, bizdən bir miqdar mübaidət qılalar. Ola ki, xəlqin hücumu başlar təmaşasına olub, hövdəci-mütəhhərati-Əhli-Beyt nəzəri-naməhrəmdən məhfuz ola". Bu xidməti eyni-səadət bilüb, nizədarların sərdarına bin altun qəbul etdirdim ki, bir miqdar ol başları xəvatini-Hərəm əmarilərindən müqəddəm yürüdələr.

Rəvayətdir ki, ləşkəri-Kufə şühəda başların məş'əli-pürnur kibi nizələr üzrə tərtib edüb və müxəddərati-Əhli-Beyt əmarilərin qönçeyi-gülbün kibi naqələr üzrə mürəttəb qılub, bir-birinə mütəaqib rəvan edüb və baqiyi-ləşkər əqəblərincə səf çəküb ələmlər və bayraqlar cövlana gətirüb, sədayi-nəfir, naleyi-kus və qülqüleyi-nay asimana yetürdilər. Sübhdəm ki, cəlladi-fələk möhreyi-xurşidi-dirəxşanı səri-bitən kibi nizeyi-məddi-şüa üzrə təmaşagahi-əhli-aləm qıldı və rimahi-səbzeyi-növxiz üzrə üqudi-şəbnəm rüusi-şühəda kibi cilvəgər oldu, şəhrə girib izdihami-əvamdan vəqti-əsr qəsri-əmmarəyə füpsəti-vüsul buldular. Dərvazeyi-qəsrə yetdikdə başları nizələrdən endirüb və müxəddərati-Əhli-Beyti hövdəclərdən çıxarub Yezidin bargahinə mütəvəccih oldular. Əmma Şimri-Zilcövşən hiylə edüb Həzrəti-İmamın səri-basəadətin Bəşir bin Malik əlinə verdi ki, əgər bu xidmət məqbul olmazsa, kəndü ihanət çəkməyə. Bəşiri-bədbəxt ol səri-pürsəadəti Yezidin məclisinə gətürdikdə mübahatla bir rəcəz ağaz etdi. Şe'r:



Əmlə'u rikabi fizzətən və zəhəbən,
İnni qətəltu'l-məlikə'l-mühəzzabə.
Qətəltu xəyrə'n-nasi ummən və əbə,
Və əşrəfə'l-aləmi cəm'ən həsəbən[1].

Yezid bu kəlimatdan infial bulub mütəğəyyir oldu, dedi: "Ey bədbəxt, çün bildin ki, İmam Hüseyn bu sifatla mövsufdur, nişə qətl etdin?". Filhal buyurdu ki, dəf'i-məzənnə üçün anı qətl etdilər. Pəs, Yezid ümərayi-Kufəyə mütəvəccih olub surəti-vaqiəyi sual etdikdə Züheyr bin Qeys ağazi-təkəllüm qılub ayıtdı: "Bu şəxs bə'zi əqvamıyla Kərbəlaya gəldikdə bey'ət ərz etdik, qəbul etmədi. Qətl edüb, başların gətürdik". Yezid bir zəman mütəfəkkir olub buyurdu ki, "Həzrəti-İmamın səri-mübarəkin bir təbəqdə qoyub hüzurinə gətürdilər". İttifaqən ol bidövlətin dəxi Übeydullahi-Ziyad kibi əlində bir qəsəbə vardı, anınla mübarək ləbü dəndanına işarət etdikdə Əbul-Müəyyədi-Xarəzmidən nəqldir ki, Təmir bin Cündəb ol məclisdə idi. Mütəhəmmil olmayub ayıtdı: "Qətə'əllahu yədəkə"[2]. Ey biədəb, bu mülaəbə qıldığun ləbü dəhən mülsəmi-Həzrəti-Rəsulullahdır". Yezid qəzəbnak olub ayıtdı: "Ey Təmir, hörməti-söhbəti-Rəsul olmasaydı, sənə siyasət edərdim". Təmir ayıtdı: "Ey bədbəxt, söhbəti-Rəsulullahın hörməti olub, övladının hörməti olmamaq nə munasibdir?". Hüzzari-məclis bu kəlimatdan mütəəssir olub, Yezid fitnədən təvəhhüm edüb, Təmiri məclisdən ixrac etdürüb qeyr kəlimata məşğul oldu.

Əbul-Məfaxirdən nəqldir ki, bir yəhudi ticarət təriqiylə Şama gəlüb ittifaqən ol gün məclisdə hazır idi. Sual etdi ki, bu nə başlardır? Yezid ayıtdı: "Bu bir kimsənədir ki, bana xüruc etmişdi?". Yəhudi ayıtdı: "Bu şəxs kəndüsində bir ləyaqət mülahizə qılmasaydı, xürüc etməzdi". Yezid ayıtdı: "Bəli, Hüseyn bin Əlidir, nəbireyi-Həzrəti-Nəbidir". Yəhudi fəryada gəlüb ayıtdı: "Ey Yezid, bənimlə Davud arasında yetmiş qərn təcavüz edübdür, hənuz bana yəhudilər tə'zim edərlər. Məhəmmədi-Qüreyşi dün föվt oldu, bu gün övladına qəsd edərsiz?! Bu nə dindir?!". Yezid qəhr edüb ayıtdı: "Ey yəhudi, əgər Həzrəti-Rəsuldan azari-əhli-zimmə məmnu' olmasaydı, səni qətl edərdim". Yəhud ayıtdı: "Ey əhməq, bir yəhud üçün müxasimə qılan Vacibülvücud Rəsulu üçün xəsm olmazmı?". Yəzid qəzəbnak olub qətlinə əmr etdi. Yəhudi filhal Hüseynin səri-mübarəkin müxatəb qılub ayıtdı: "Ya Əba Əbdullah, şəhadət verəsən ki, sidqi-pakla müsəlman oldum". Yezid ayıtdı: "Ey yəhudi, xövfi-qətldir səni müsəlman edən, İslamına nə e'tibar?". Yəhudi ayıtdı: "Ey Yezid, müsəlmanların imamın qətl etdin. Əgər bir növmüsəlman qətl etsən nə lazım gəlir? Bən dəxi bu səadətə talibəm ki, daxili-firqeyi-şühədayi-Kərbəla olam". Filhal ol növmüsəlmanı şəhid etdilər. Rəhmətullahi əleyh.

Kitabi-"Rəbiül-Əxbar"da məsturdur ki, Əbdülvəhab nam bir tərsa risalət təriqiylə Rum diyarından gəlüb ol məhfildə hazır idi. Həzrəti-İmamın rüxsari-şərifin görüb, ahi-cigərsuz çə-

[1] Üzəngini gümüş və qızılla doldur,
Çünki mən əxlaq sahibi o ağanı öldürdüm.
Anası və atası insanların ən xeyirlisi olan insanı,
Soyu-kökü e'tibarı ilə ən şərəfli olanı öldürdüm.
[2] Allah əlini kəssin!

küb ayıtdı: "Bən Həzrəti-Rəsulun əyyami-həyatında ticarət rəsmiylə Mədinəyə getmişdim. İstədim ki, Həzrəti-Rəsula bir töhfə nəzr edəm. Səhabədən istifsar etdim ki, Həzrəti-Rəsul nə cinsə talibdir. Dedilər: "Təb'i-mübarəki ətriyyata rağibdir". İki nafeyi-müşklə bir miqdar ənbəri-əşhəb ol Həzrətə töhfə ilətdim. Ümm Sələmə sərayində idi. Buyurdu ki, ey əziz, ismin nədir? Dedim: "Əbdülvəhab". Dedi: "Ey Əbdülvəhab, əgər dini-İslamı qəbul edərsən, töhfəni qəbul edərəm". Simayi-mübarəkindən bana mə'lum oldu ki, Həzrəti-İsa və'də qılan Peyğəmbər oldur. Filhal əsəri-iltifatla müsəlman oldum və bir müddətdir ki, imanımı ixfa qılub diyarımda əmri-vəzarətə məşğulam. Həqqa ki, ol gün ki, Həzrəti-Rəsul hüzuri-şərifində idim, bu əziz ki, hala səri-mübarəki zillətlə hüzurindədir, tifl idi. Nagah hazır olub, Həzrəti-Rəsulullah anı bağrına basub, rüxsarın rüxsarına sürüb derdi ki, Vacibülvücud rəhmətindən binəsib olsun ol bədbəxt ki, sənin qətlinə riza verə. Bir gün dəxi Həzrəti-Rəsulla məscidi-came'də idim. Bu əziz ulu qarındaşıyla gəlüb dedilər: "Ya cəddah, qüdrət təfavütində bir-birimizlə niza'muz var. Hala müddəamuz budur ki, hüzurində müsariə qılub hər kimin qüdrət və qüvvəti mə'lum ola". Ol Həzrət təbəssüm edüb ayıtdı: "Ey nuri-didələr, müsariə etmək sizdən münasib degil. Əmma xətt yazın, hər kimin hüsni-xətti ziyadə olsa, ol qalib ola". Şəhzadələr qəbul edüb hər biri bir xət yazub Həzrəti-Rəsula ərz etdilər. Həzrəti-Rəsul heç birinin xatiri məlul olmamaq məsləhəti üçün ayıtdı: "Ey cigərguşələr, xəttinizi Əliyyi-Muritəzaya göstərün, ol təmyiz etsin". Şəhzadələr xəttlərin Mürtəzaya göstərdikdə ayıtdı: "Ey seyyidlər, validənizə ərz edün, ol təmyiz etsün". Həzrəti-Zəhraya ərz olduqda ayıtdı: "Ey məxdumzadələr, bənim xət elmindən vüqufim yoxdur, əmma bir neçə danə lö'lö'ə malikəm, sizə nisar edəyim. Hər kim əksər cəm etsə, ol qalibdir". Fatimə ol gövhərləri ol gövhərlərə nisar edüb şəhzadələr cəm' etmagə təvəccöh qıldıqda Həzrəti-Rəsuldan istima' etdi ki, Həzrəti-İzzət Cəbrailə əmr etdi ki, ey Cəbrail, yer yüzünə enüb bu lö'lö'ləri müsavi mütəqəssim et. Qoyma ki, təqsimində təfavüt bulunub birisinin xatirinə qübari-ələm irişə. Hərgah ki, Həzrəti-İzzət, Mustəfa, Murtəza və Zəhra anlara məlalət rəva görməyələr, zahi bədbəxt ki, birin zəhrlə həlak edüb, birin tiği-sifasətə müstəhəqq görələr. Şe'r:

Ey də'viyi-səadəti-İslam edən güruh,
Haşa ki, qətli-Ali-peyəmbər rəva ola?!
Vay ol lə'ini-müdbirə kim su'i-fe'l ilə
Məhşər günündə xəsmi anın Mustəfa ola.

Əhli-məclis bu hekayətdən mütəəssir olub fəryada gəlməgin Yezid ayıtdı: "Ey Əbdülvəhab, kəlimatın səbəbi-fitnə olur. Əgər hörməti-risalət lazım olmasaydı, sənə siyasət edərdim". Əbdülvəhab ayıtdı: "Ey bədbəxt, hörməti-Rəsuli-Xuda lazım olan yerdə anın övladına necə lazım olmaz?". Yezid mülzəm olub buyurdu, anı məclisdən çıxardılar. Andan sonra hökm etdi ki, Əhli-Beytdən bə'zi kimsənə hazır edələr. Ümm Külsüm, Zeynəb və İmam Zeynəlabidin hazır olub pərdə altından Zeynəbin nəzəri-mübarəki Həzrəti-İmamın rüxsari-şərifinə düşdü. Biixtiyar fəryada gəlüb ayıtdı. Şe'r:

Ey fələk, şərm et, nə bid'ətdir ki, bünyad eylədin,
Xanədani-Əhmədi-Muxtara bidad eylədin.



Əhli-Beyti-Mustəfaya bin sitəm gördün rəva,
Ta Yezidi-pürcəfanın könlüni şad eylədin.
Bu nə fikri-batilü əndişeyi-bihudədir
Kim, yıxub bin Kə'bə bir bütxanə abad eylədin.
Ey Yezidi-pürcəfa, hər kimsə bir ad eyləmiş,
Sən dəxi bu zülm ilə aləmdə bir ad eylədin.

Yezid ayıtdı: "Bu kimdir?". Dedilər: "Həmşireyi-Hüseyn bin Əlidir". Ümm Külsüm dəxi bir canibdən xüruşa gəlüb ayıtdı: "Ey Yezid, rüxsət ver ki, Həzrəti-Hüseynlə bir dəxi mülaqat edüb vida' edəm". İcazət hasil edüb, ol səri-mübarəki əlinə alub, rayiheyi-gisuyi-müşkbarindən bir zəman bihuş olub özünə gəldikdə ayıtdı: "Ey Yezid, ümidvaram Vacibülvücud dərgahından ki, əzabi-axirətdən müqəddəm əzabi-dünyaya giriftar olub muradına yetməyəsən". Yezid ayıtdı: "Ey xatun, gördünüzmü ki, də'vayi-kazibiniz nə nəticə verdi?". Ümm Külsüm ayıtdı: "Ey Yezid, "İnnə'l-munafiqinə la-kazibunə"[1], münafiqlər kazibdirlər. "Və yu'əzzibul-munafiqinə və'l munafiqati"[2] və Həqq münafiqləri müəzzəb edər. Əlminnətu lillah ki, biz xanədani-nübüvvətü vilayətüz".

Yezid anlardan münhərif olub imam Zeynəlabidinə təvəccöh edüb ayıtdı: "Bu kimdir?". Dedilər: "Əli ibn Hüseyn". Yezid ayıtdı: "Əli ibn Hüseyn məqtul oldu". Dedilər: "Ol Əliyi-Əkbərdir, Bu bimardı". Yezid ayıtdı. "Ey Zeynəlabidin, Hüseyn istid'a qılurdu ki, minbərdə cilvə qıla və xütbələr bəyan edə. Əl-minnətu li'llah ki, cilvəgahi rü'usi-rimah oldu və bənim dövlətim anı məqhur və məxzul qıldı". İmam Zeynəlabidin ayıtdı: "Ey Yezid, binayi-minbər bənim əcdadımdandır, ya sənin? Və rəsmi-xütbə bizim canibimizdəndir, ya sənin tərəfindən? Ey Yezid, dövlət dövləti-üxrəvidir və ol bizə müyəssərdir və səadət səadəti-baqidir və ol bizə müqəddərdir. "Və'lləzinə hacərü fisəbil'illahi summə qutilu əvmatu ləyərzuqənə-hu-mullahu rizqən Həsənən"[3]. Ey qafil, sənə dəxi etdigin əməl cəzası ənqərib ayid olmaq müqərrərdir. "Və mən yəqtulə mu'minən mutə'əmmidən fə'cəzauhu cəhənnəmə xalidən fiha"[4]. Şe'r:

Ey ki, hərgiz qılmayub əndişə ruzi-Həşrdən,
Səyyi'ati-məhzdir peyvəstə ə'alın sənin.
Ol zəman kim Mustəfa xəsm ola, hakim Kirdgar,
Sən dəxi bişək bilürsən kim nolur halın sənin.

Yezid anın kəlimatından qəzəbnak olub qətlinə hökm etdi. Ümm Külsüm və Zeynəb fəryada gəlüb ayıtdılar: "Ey zalim, bu tifldən qeyr xanədani-nübüvvətdə sahibi-vilayət qalmadı. Bu nə zülmi-sərihdir?". Şe'r:

[1] Şəksiz ki, ikiüzlülər yalançıdırlar (Qur'an, 62, 1).
[2] Allah ikiüzlü kişilərlə ikiüzlü qadınlara əzab verər (Qur'an, 33, 73).
[3] Allah yolunda köç edib, sonra öldürülən və ölənləri Allah ən gözəl ruzi ilə mükafatlandıracaqdır (Qur'an, 22, 58).
[4] Hər kim bir mö'mini qəsdən öldürürsə, onun cəzası həmişəlik cəhənnəmdə qalmaqdır (Qur'an, 4, 93).

Unadikə ya cəddahu, ya xəyrə Mursəlin,
Huseynukə məqtulun və nəslukə zayi'in[1].

Yezidə bu kəlimatdan hövl qalib olub, imam Zeynəlabidinin qətlindən təcavüz edüb, hüzurinə gətirüb, oğluna müqarin məqam tə'yin edüb ayıtdı: "Ey Zeynəlabidin, bənim oğlum səninlə qərindir. Anınla müsariə etməgə qadirmisən?" İmam Zeynəlabidin ayıtdı: "Müsariə səhldir, əmma hər birimüzə əlinə aləti-cərihə verüb hökm et, mücadilə qılalım. Qalib olan məğlubu qətl etsün". Bu təkəllümdə ikən sədayi-nəqareyi-növbət çıxub bargaha zəlzələ buraxdı. Yezidin oğlu ayıtdı: "Ey Zeynəlabidin, bu bənim atam növbətidir, qanı sizün növbətinüz?". Zeynəlabidin ayıtdı: "Bir miqdar səbr et". Nəqarədən sonra müəzzin nə'reyi-"Allahu əkbər" çəküb məsame'i-hüzzara gülqülə bıraxdıqda Zeynəlabidin ayıtdı: "Ey nütfeyi-Yezid, bu bizüm növbətimizdir ki, təğəyyürü təbəddül bulmaz". Şe'r:

Növbəti-hökmi-müluk eylər qəbuli-intiqal,
Şər'dir ol hökm kim yoxdur ana mütləq zəval.
Qət' bulmaz rişteyi-peyvəndi-Ali-Mustəfa,
Gərdəni-üqbaya salmışdır kəməndi-ittisal.

Həzrəti-İmam Zeynəlabidinin hüsni-fəsahətindən Yezidə rə'şə düşüb ayıtdı: "Ey fərzəndi-Hüseyn, nə hacətin var isə, bəndən istid'a qıl". İmam ayıtdı: "Qatili-Hüseyni bana təslim et, cəzasına yetirəyim". Yezid rəf'i-məzənnə üçün Kufə sərdarların cəm' edüb ayıtdı: "Kimdir Hüseynin qatili?". Dedilər: "Xəvli bin Yeziddir". Xəvli bin Yezidi hazır edüb sual etdikdə ayıtdı: "Haşa ki, qətl etmiş olam, lə'nət anın qatilinə!". Əlqissə, çox mübaliğə və münaziələrdən sonra dedilər: "Şimri-Zilcövşəndir". Şimrdən sual olunduqda ayıtdı: "Ey əmir, Hüseynin qatili bən degiləm". Yezid ayıtdı: "Pəs kimdir?" Şimr ayıtdı: "Ol kimsənədir ki, təhiyyeyi-əsbab edüb, hökmlər irsal edüb, ləşkər göndərüb bu əmrə mübaşir oldu".

Yezid bu sözdən münfəil olub ayıtdı: "Lə'nət sizə və əf'alinizə, bən Hüseynin qətlinə razı degildim". Həzrəti-İmam Zeynəlabidinə ayıtdı: "Bundan qeyr hacət təmənna qıl". İmam ayıtdı: "İcazət ver ki, Əhli-Beytlə mütəvəccihi-Mədinə olub, cəddi-büzürgvarım türbəti üzərində mücavir olam". Yezid ayıtdı: "Bu hacət icabətə məqrundur, bir hacət dəxi istə". İmam ayıtdı: "Bu gün cüm'ə günüdür. Rüxsət ver ki, minbərə çıxub bir xütbə bəyan edəm". Yezid ayıtdı: "Bu istid'a dəxi məqbuldur, əmma bir şərtlə ki, axiri-xütbədə mənaqibi-Ali-Əbu Süfyan bəyan edəsən".

Pəs, münadilər salub, cəmi'i-əhli-Şamı məscidi-came'də hazır edüb, ibtidayi-halda əhli-Şamdan bir xətib minbərə çıxardı ki, həmdü sənadan sonra sitayişi-Ali-Əbu Süfyan və məzəmməti-Ali-Əbu Turab edüb, övliyyəti-Yezid və bütlani-Hüseyn xüsusunda mübaliğələr qıldı. Həzrəti-İmam Zeynəlabidin mütəhəmmil olmayub ayıtdı: "Ey xətib, xəta qıldun ki, rizayi-xəlqi qəzəbi-Xaliqə ixtiyar etdin". Şe'r:

Ey xətibi-süstrə'yü səxtrüyi-biədəb,
Daməni-napak ilə aludə qıldun minbəri.

[1] Ey babam, ey göndərilən peyğəmbərlərin ən xeyirlisi, sənə səslənirəm, Hüseynin öldürülmüş və nəslin tükənmişdir.



Mədhi-əhli-zülm ilə qıldun Xudayı xəşmnak,
Tə'ni-Al etdin, məzəmmət eylədin Peyğəmbəri.
E'tibari-dövləti-dünyayi-fani səhldir,
Noldu, ey zalim, neçün yad eyləməzsən Məhşəri?!

Xatibin təərrüzündən sonra ayıtdı: "Ey Yezid, icazət ver, bən minbərə çıxub həsbülvaqe' bir xütbə bəyan edəyim". Çün Yezid bilirdi ki, izhari-həqiqətdən infial çəkmək lazım gəlür, təğafül qılub riza vermədi. Əmma hüzzari-məclis iltimas etdilər ki, əhli-Hicazın fəsahətin istima' etmək muradımızdır. Çox mubaliğədən sonra icazət verüb, Həzrəti-İmam minbərə çıxub, məsnədi-Rəsulu vücudi-şərifiylə münəvvər qılub bir xütbeyi-bəliğ ədа qıldı ki, kəməndi-diqqəti-idraki-nəzər küngüreyi-eyvani-övsafına yetmək dayireyi-imkana girməz və dəryayi-təfəkkür məzmunü ibarətində əqli-sərasimeyi-sahilə ehtimal verməz. Bədaye'i-ibaratında əsnafi-lətayifi-məlikiyyə möhtəvi və lətayifi-məzmununda əsrari-zərayifi-mələkutiyyə möntəvi. Şe'r:

Təsəlsüli-kəlimati kəməndi-qeyd qılub,
Fəzayi-ərseyi-göftarı seydgahi-üqul.
Bəlağətində əyan sirri-hikməti-Qur'an,
İbarətində müəyyən rümuzi-şər'i-Rəsul.

Şərayiti-həmdü sənadan sonra bir moizə bəyan etdi ki, ləzzəti-istima'indən nüfusü üqulihüzzari-məclisü rişteyi-əlaqeyi-əvalimi-cismaniyyədən münqəte' qalub qərqeyi-dəryayi-hüzuzati-ruhani oldular və ərvahi-qülubi-sükkani-məhfil şərabi-idrakından sərməst olub, zövqitəna'ümati-həzayiri-qüdsiyyə hasil qıldılar. Filvaqe', bir kəlami- hikmətamiz ki, məhzi-dərdidil və nəhayəti-cigərdən münbə'is ola, sirayəti müqərrərdir və bir cövhəri-təkəllüm ki, sədəfi-isməti iffətdən çıxub iqtizayi-izhar qıla, ədəmi-hüsni-qəbul namutəsəvvərdir. Əlqissə, siğərisinnilə kəmali-fəsahət və nəhayəti- bəlağətin mülahizə qılub, cəmi'i-əhli-məclis məftunü mö'təqid olduqda əhsəni-əsvatla nida qıldı ki: "Ey qövm, bənəm varisi-müsafiri-fəzayi "Subhanə'lləzi əsra bi-əbdihi leylən min'əl-məscidi'l-hərami ilə'l-məscidəl'l-əqsa[1], bənəm mücaviri-hərəmsərayi-"Fə-kanə qabə qəvseyni əv ədna"[2], bənəm dəndaneyi-miftahi-"Ənə mədinətu'l-ilmi və Əliyyun babuha"[3], bənəm məzmuni-ibarəti-"La əs'əlkum əleyhə'l-əcrə illa əl-məvəddəti fi'l-qurbə"[4]. Bənəm nütfeyi-xeyrüləslab, bənəm nüqaveyi-əhsənülənsab. Bənəm şükufeyi-bəharistani-ismət, bənəm gülbüni-qönçeyi-təharət. Bənəm cigərguşeyi-Fatiməti-Zəhra, bənəm miveyi-dili-Əliyyi-Murtəza. Bənəm nuri-dideyi-Həsəni-Muctəba, bənəm sürurisineyi-şəhidi-Kərbəla. Məsnədi-xilafəti-mə'nəvi canibi-validi-büzürgvarimdən bana mövhubdur və səriri-səltənəti-suri canibi-valideyi-alimiqdarımdan bana mənsubdur".

[1] Gecə ilə qulunu Məscidi-Həramdan ətrafını mübarək bildiyimiz Məscidi-Əqsaya götürən o Zat hər əksiklikdən uzaqdır (Qur'an, 17, 1).

[2] Yayın iki ucu məsafəsi və ya daha yaxın bir uzaqlıqda idi.

[3] Mən elm şəhəriyəm və Əli də o şəhərin qapısıdır.

[4] Yaxın adamlarıma məhəbbət göstərməyinizdən başqa bir şey istəmirəm.

Ol bülbüli-gülzari-fəsahət və ol tutiyi-şəkkəristani-bəlağətin kəlimati-hikmətasarın Yezidi-pəlid müəssir görüb, xəlqin təğəyyüri-əqidələrindən ehtiraz edüb müəzzinə işarət qıldı, iqamət gətirüb Həzrəti-İmamın kəlimatın qət' edə. Müəzzin ayağa durub ayıtdı: "Allahu əkbər"[1]. Həzrəti-İmam ayıtdı: "La şəkkə fihi və la-şubhətə və la-hey'in əkbərə minhu"[2]. Müəzzin ayıtdı: "Əşhədu ən-la-ilahə illallah"[3]. Həzrəti-İmam ayıtdı: "Əşhədu biha ləhmi və dəmi"[4]. Müəzzin ayıtdı: "Əşhədu ənnə Muhamməden Rəsulu'llah"[5]. Həzrəti-İmam əmaməyi-şərifin fərqi-mübarəkindən alub, müəzzin önünə bıraxub, gisuyi-müənbərin pərişan edüb ayıtdı: "Ey müəzzin, bu zikr olan Məhəmməd həqqi üçün bir saat səbr et". Müəzzin xəmuş olduqda şahzadə rəxşi-fəsahət meydani-ibarətə bıraxub, hərarəti-ismət cür'əti-imamət birlə ehtirazü ictinab etməyüb dedi: "Ey Yezid, bu Rəsuli-kərim ki, zikri zivəri-mənabirdir, aya, sənin cəddinmidir, ya bənim? Və bu sahibi-şə'ni-əzim ki, vəsfi virdi-əkabirü əsağirdir, aya, nə xəyali-qələt və əndişeyi-batildir ki, zəxarifi-dünyayi-bie'tibar üçün sərayi-aqibətin viran edüb nəqdi-Rəsulullahı təşnəvü heyran hədəfi-sihami-bəla və sipəri-tiği-cəfa qılub və müxəddərati-Əhli-Beyti naməhrəmlərlə şəhrdən-şəhrə gəzdirüb mübtəlayi-möhnəti-qürbət qıldun? Əgər xilqətində əsəri-İslam var isə, nədir bu istixfafi-nüqəbayi-İslam? Və əgər yox isə, nədir bu məscidü mehrab aludə qılub ibadəti-batilə qiyamü iqdam?".

Yezid ol kəlimatdan kəmali-infial bulub, ayağa durub müəzzinə əmr etdi, iqamət gətürüb nəmaza məşğul oldular. Nəmazdan sonra dəf'i-məzənnə üçün cəmi'i-ümərayi-Şamü Kufəyi hazır edüb, anlara nifrinü nasəza deyib izhari-təəssüf qıldı ki, bən Hüseynin qətlinə razı degildim. Lə'nət Übeydullaha ki, bu əmri-qəbihə iqdam edüb bəni İraqü Şamda bədnam etdi". Şe'r:

Degil ey süflə, asan qətli-Ali-Mustəfa qılmaq,
Vəfa əhlin əsiri-bəndi-bidadü bəla qılmaq.
Ədalət bağının gülbünlərindən qönçələr üzmək,
Cəfa tiğiylə bir-bir başların təndən cüda qılmaq.

"Kənzül-Ğəraib"də nəqldir ki, Yezid Əhli-Beytə kəndü sərayində bir mənzil tə'yin etmişdi. Həzrəti-İmam Hüseynin dört yaşında bir mə'suməsi olub, ol Həzrətin iltifatına mö'tad idi. Ol Həzrət dərəceyi-şəhadət bulduqda hər gün mütəfəqqid olub sorardı ki, "Əynə əbi"[6]. Ənvai-firiblə təskin verirlərdi. Bu zəmanda ki, məqamları Yezidin sərayində idi, ol mə'sumə bir gecə validi-büzürgvarın vaqiəsində görüb, iztirabla bidar olub fəryad etdi ki, "Əynə əbi?". Ol növhədən Yezid bidar olub səbəb sual etdikdə ol mə'sumənin halın ərz etdilər. Yezid ayıtdı: "Hüseynin başın ana göstərsünlər, ola ki, təskin bula". Həzrəti-İmamın səri-mübarəkin bir təbəqdə ol mə'sumənin hüzurinə gətürdikdə dedi: "Bu nədir?" Dedilər: "Haza əbukə"[7]. Ol

[1] Allah uludur.
[2] Şəksiz və şübhəsiz, heç bir şey ondan daha uca deyildir.
[3] Allahdan başqa Tanrı olmadığına şəhadət edirəm.
[4] Ətimlə və qanımla ona şəhadət edirəm.
[5] Məhəmmədin Allahın elçisi olduğuna şəhadət edirəm.
[6] Atam hardadır?
[7] Bu, atandır.



mə'sumə nəzər qıldıqda biixtiyar rüxsarın rüxsarinə sürüb, ahi-cigərsuz çəküb can tapşırdı. Müxəddərati-Əhli-Beyt ol halı görüb, təcridi-matəm qılub növhələr bünyad qıldılar ki, Yezidin sərayinə zəlzələ düşdü. Şe'r:

Artırırsan, ey fələk, övladi-Peyğəmbər qəmin,
Tazə eylərsən dəmadəm Əhli-Beytin matəmin.
Tişeyi-bidad ilə hər dəm tökür bir daşını,
Vəh ki, viran eylədin şər'in binayi-möhkəmin.

Yezid ol əhvala müttəle' olduqda Əhli-Beytə tə'zimlə tə'ziyət yetürdi. Əmma Ümm Külsüm Yeziddən icazət istədi ki, sərayi-imarətdən xaric bir mənzil müqərrər edələr ki, Əhli-Beyt anda sakin olub fərağətlə əzaya məşğul olalar. Yezid müxəddərati-pərdeyi-ismət üçün xarici-sərayi-imarətdə mənzili-münasib tə'yin etdirüb əmr etdi ki, xəvatini-əkabir və əşrafi-Şam cəm' olub anlarınla əzaya məşğul olalar. Əlqissə, məcmə'i-matəm mürəttəb olub, növhələr bünyad olunub mərsiyələr oxundu, bu ol cümlədəndir ki. Şe'r:

Matət ricali və əfnə'l-məvtu-sadati,
Və zadəni heyrətun min-bə'də adati1.

Ah kim, qıldı cəfa çərx vəfadarlara,
Dağlar urdu dəmadəm dili-əfgarlara.
Bunca mə'sumləri zarü giriftar etdi,
Hiç rəhm eyləməyüb zarü giriftarlara.

Məqtəli-Əbu Mihnəfdə məsturdur ki, Yezid Həzrəti-Zeynəlabidin ilə bə'zi xidmətkarlar qoşub, şühədanun başların Kərbəlada bədənlərinə mülhəq edüb gerü Şama müraciət qılanadək Əhli-Beyt üçün əsbabi-səfər mühəyya qılub, hər birinə münasib xəl'ətlər və hədiyyələr verüb, Həzrəti-İmam Zeynəlabidin gəldikdə Nü'mani-Bəşiri otuz mükəmməl mübarizlə xidmətlər üçün tə'yin edüb, riayətlərində mübaliğə qılub Mədinəyə irsal etdi. Nü'mani-Bəşir müxlisi-xanədandı. Mədinə yolunda Əhli-Beytin xidmətində kəmali-sə'yi ehtimam zühura gətirüb nüzul və irtihalda təriqi-ədəb bir mərtəbədə riayət qıldı ki, xəvatini-Əhli-Beyt şakirü razı oldular.

Mədinə qürbünə yetdikdə Ümm Külsüm Zeynəbə ayıtdı: "Ey həmşireyi-əzizə, Nü'manın ədayi-hüququ bizə lazım oldu, səlah nədir?" Zeynəb ayıtdı: "Ma-ləna şey'in illa hilyətuna"[2] yə'ni hilyəmizdən qeyr nəsnəyə qüdrətimiz yoxdur". Pəs ə'zalərindən hilyələrin çıxarub, bir təbəqdə qoyub Nü'mana irsal etdilər ki, bu, xidməti-dünyadır. İnşa'allah, cəzayi-xidmətin axirətdə zahir olur. Nü'man ol hilyələri yenə gerü döndərüb təzərrö' qıldı ki: "Ey xəvatini-hərəmsərayi-nübüvvət, əgərçi bu xidmət zahirən Yezid hökmüylə surət buldu, əmma hə-

[1] Adamlarım öldü, ölüm böyüklərimi yox etdi, Və məndən sonra məni ən çox heyrətə salan qanun və adətlərimdən uzaqlaşmadır.
[2] Zinətlərimdən başqa bir şeyim yoxdur.

qiqətdə bənim məqsudumdu ki, bu xanədana nisbət bir xidmət bəndən zahir ola. Əlminnətü lillah ki, müyəssər oldu".

Lillahi'l-həmd ki, şayisteyi-dərgah oldum,
Mə'niyi-surəti-ixlasdan agah oldum.
Aqibət mənzili-məqsuda yetərsəm nə əcəb,
Əhli-e'cazü kəramət ilə həmrah oldum.

Əlqissə, Əhli-Beytin təşrifindən xəbərdar olub, əhli-Mədinə zükurü ünas və siğarü kibar naləvü fəğanla istiqbal edüb, Həzrəti-İmam Zeynəlabidin və xəvatini-Əhli-Beyti libasi-matəmdə giryanü pərişan görüb, sinələrin çak və didələrin nəmnak edüb derlərdi. Şe'r:

Ey sipahi-münkəsir, noldu sipəhsalarınuz?
Netdinüz sultanınız, billah, qanı sərdarınuz?
Nişə olmuş lə'lgun lö'lö'i-abi-çeşminiz?
Nişə rəngi-yasəmən dutmuş güli-rüxsarınuz?
Netdinüz ol şəhriyari-mə'dələtasarı kim,
Lütfi olmuşdu ənisü munisü qəmxarınuz?!

Əlqissə, Mədinəyə qülqüleyi-əhli-əzadan bir zəlzələ düşdü ki, dərü divardan sədayi-növhə asimana irişdi.

"Nüzhətül-Ərvah"da məsturdur ki, beş növbət Mədinədə öylə müsibət vaqe' oldu ki, qovğasından müqəddəmeyi-Qiyamət təsəvvür edüb xəlq istiğfara başladılar. Bir növbət hərbi-Uhudda Həzrəti-Rəsul məqtullar içrə qalıb İblis nida qıldıqda ki, "Əl'an Muhəmməd qəd qutilə"[1], bir növbət dəxi Həzrəti-Risalət dari-dünyadan rehlət etdikdə, bir növbət dəxi Həzrəti-Hüseyn Əhli-Beytlə Mədinədən Məkkəyə təvəccöh etdikdə, bir növbət dəxi Şamdan Əhli-Beyt Mədinəyə gəldikdə.

Rəvayətdir ki, Əhli-Beyt çehrə və gisu qubari-rahdan pak etmədən və rənci-səfərdən istirahət bulmadan rövzeyi-Seyyidi-kainata mütəvəccih olub, fəryadü fəğanlar edüb, səlam verüb ərzi-hal etdilər ki: "Ya cəddah və ya seyyidah[2], badiyeyi-Kərbəla sərgərdanlarıyuz, diyari-qürbət heyranü pərişanlarıyuz. Pənceyi-həvadisdən giribanımız çak, təpançeyi-nəvahibdən didəmiz nəmnak. Şe'r:

Ya Rəsulullah, biyabani-bəla səyyahıyuz,
Gəlmişiz dərgahinə zarü diləfgarü həzin.
Şəm'i-nüzhətgahımız badi-fənadan fövt olub,
Həmdəm olmuşdur bizə nirani-ahi atəşin.
Rəxtimüz seylaba getmiş, mülkümüz olmuş xərab,
Halımız olmuş mükəddər, könlümüz ənduhgin.

[1] İndi Məhəmməd öldürüldü.
[2] Ey ata, ey ağam!



Bu növ'lə növhələr qılırkən nagah Ümm Sələmə hücreyi-təharətdən xiraşidəruy və pərişanmuy istiqbala gəlüb, şişeyi-xaki-Kərbəla əlində qana dönmüş. Mütəhhərati-Əhli-Beyt Ümm Sələməyi görüb bir növ'lə matəm etdilər ki, sükkani-təbəqati-səma səbheyi-ibadətxaneyi-ülya övradi-mütəarifələrin fəramuş edüb anların əzasinə mütəvəccih oldular.

"Üyunür-Riza"da məsturdur ki, fərzəndi-Dəili-Xüzai rəvayət etmiş ki, validimin heyni-mövtində rüxsarın siyah görüb qayətdə mütəhəyyir idim. Bir gecə vaqiəmdə gördüm ki, xürrəmü xəndan libasi-faxirlə cənnət içrə seyr edər. Dedim: "Ey validi-büzürgvar, heyni-vəfatda halın əhli-cərayim halına müşabih idi. Hala surəti-halında nişaneyi-əhli-səlah var, hikmət nədir?". Dedi: "Ey fərzəndi-əziz, qayəti-isyanla dünyadan çıxdım. Əmma Həzrəti-Rəsul bəndən sual etdi ki, ey Dəil, şəhidi-Kərbəla mərsiyəsində nə demişsən, təqrir eylə. Bən dəxi əda qıldım və bu beyt andandır. Şe'r:

La-əzhəku'llahu səqrə'd-dəhri in zəhikət,
Və ali Əhməd məzluminə qəhrən[1].

Və bən oxuduqca Həzrəti-Rəsulullah riqqət edüb ağlardı. Təmam olduqda bu üzərimdəki xəl'əti ən'am edüb günahlarıma şəfi' oldu". Şe'r:

Əhli-Beytin sənavü mərsiyəsi
Əhsəni-əfzəli-fəzayildir.
Kim ki, bir beyt ol xüsusda der,
Ol dəxi Əhli-Beytə daxildir.

Rəvayətdir ki, qatili-Hüseyn bir atəşin tabut içrə müqəyyəd olub səlasilü əğlalla təcəddüdlə mütəaqib olmaqdadır Qiyamətədək.

Və "Sühüfi-Şərif"də isnadi-Rizaviyyədən nəqldir ki, Həzrəti-Rəsul buyurmuş ki, Musa bin İmran, Haruni-Nəbi fövtündən sonra ruyi-təzərrö' dərgahi-Vacibülvücuda dutub Harun üçün rəhmət istid'a qıldı. Həzrəti-İzzətdən vəhy gəldi ki: "Ey Musa, əgər bəndən cəmi'i-xəlq üçün rəhmət istid'a qılsan, qəbul edərəm. Əmma qatili-Hüseynin günahından təcavüz mümkün degil, anın intiqamın mən alsam gərək". Şe'r:

Gər əzabi-əhli-duzəx cürm miqdarincədir,
Vay ana kim eyləmiş, qətli-şəhidi-Kərbəla!
Ol səbəbdən kim, şəhidi-Kərbəlanun qədrini
Eyləmiş ə'la cəmi'i-xəlqdən Rəbbül-üla.

"Kənzül-Ğərayib"də məsturdur ki, cəmi'i-əjdərhalarun mehtəri bir əjdərdir Şədid nam. Hər gün yetmiş növbət titrəyüb, ə'zasından zəhri-həlahil tökülür. Həzrəti-İzzətdən nida gəlür ki: "Ey Şədid, səbr et ki, qatili-Hüseyn tə'zibi sənə mənsubdur".

[1] Allah fələyi əsla güldürməsin, Çünki Əhmədin övladları məzlumcasına qəhr oldular.

Rəvayətdir ki, Əhli-Kufə və Şamdan hər fərd ki, ol mə'rəkədə idi, bu üqubətə şərikdir. "Kənzül-Ğərayib"də məsturdur İmami-Sipəri nəqliylə ki, bir gün məclisimizdə bu zikr olunurdu ki, vaqieyi-Kərbəlada məsrur olanlar sərbəsər dünyada məqhur oldular. Xəvaricdən bir bədbəxt hazır idi, bu göftara inkar edüb dedi: "Bu söz kizbdir, zira bən ol cümlədənəm və əsla bana məkruh mütəvəccih olmadı". Həqqa ki, hənuz göftarı tamam olmadan çirağimədlisdən bir şərarə rəxtinə düşüb, zəbanə çəküb heç vəchlə təskin bulmayub ol bədbəxti yaxdı və bu surət ülul-əbsara mövcibi-təzayidi-e'tibar oldu.

İmam Həsəni-Bəsri, rəhmətullahi əleyh, nəql etmiş ki, təhqiqi-məsayili-şər'iyyə üçün bir mütəəllim bənim məclisimə tərəddüd edərdi və həmişə andan bir rayiheyi-məkruh zahir olub, əhli-məclisə küdurət yetürərdi, əmma mən'inə həya mane' olurdu. Aqibətüləmr ol rayihənin səbəbin sual etdikdə münfəil olub ayıtdı: "Ey əzizlər, bən ol tayifədənəm ki, vaqieyi-Kərbəlada mühafizəti-Fərat üçün mə'mur olmuşlardı. Müharibədən sonra bir gecə vaqiəmdə gördüm Qiyamət olmuş və bən qayətdə təşnəyəm. Nagah gördüm ki, Həzrəti-Rəsul və Əli və Həsən və Hüseyn [hövzi]-Kövsər kənarında cəm' olmuşlar. Və dəxi ilhab edüb bir cür'ə su istədim, vermədilər. Fəryad etdim ki, təşnəyəm. Həzrəti-Rəsul müttəle' olub ayıtdı: "Nişə bu fəqirə su verməzsiz?" Ayıtdılar: "Ya Rəsulullah, bu şəxs ol tayifədəndir ki, müharibeyi-Kərbəlada hifzi-Fərat üçün tə'yin olunmuşlardı". Həzrəti-Rəsul ayıtdı: "Əsquhu qətranən"[1]. Bən qətranı su təsəvvür edüb təcərrö' etdikdə rayihəsindən nifrət edüb, hövlü hərasla bidar olduqda bu zəhmət bəndə peyda oldu". İmam Həsəni-Bəsri ol haldan vaqif olduqda məclisdən mən' edüb, ol bədbəxt əqrəb zəmanda əs'əbi-bəliyyatla dünyadan getdi.

Əbul-Məfaxirdən mənquldur ki, bir şəxs təvafi-Kə'bədə gördüm, niqaba girmiş. Təzərrö' edərdi ki, ya Rəb, günahımı əfv et. Əgərçi biləm ki, qabili-əfv degil". Əşrafi-Məkkə ayıtdılar. "Ey fəqir, novmidlik küfrdür". Dedi: "Ey qövm, bən ol güruhdanam ki, şühədanun başları Şama getdikdə mühafizəsinə mə'mur olmuşlardı. Və ol bədbəxtlər hər mənzildə başların sənduqini araya alub, ətrafında məclisi-xəmr tərtib edüb irtikabi-ləhv edərlərdi, Əmma bən irtikab etməyüb əməllərinə müşahidə qılırdum. Bir gecə cəmi'i-müstəhfizlər məst olub bən tənha qaldıqda gördüm gögdən bir xeymeyi-nur enüb, başların müqabiləsində qurulub və ol xeymədən üç sahibçehreyi-nurəfşanla çıxub, ol başları sənduqdan çıxarub ziyarət etdilər. Və bən təvəhhümi-təmamla müşahidə qılırkən üzərində bir piri-rövşənzəmiri-nurani görünüb sual etdim ki: "Bunlar kimlərdir?". Dedi: "Bunlar dərgahi-İlah müqərrəbləri, yə'ni Cəbrail, Mikail və İsrafildir". Bir zəmandan sonrə gördüm Cəbrail xeyməyə mütəvəccih olub dedi: "Ənzil, ya Səfiyyəllah"[2]. Gördüm ki, Adəm və Şis və İdris çıxub ol başları ziyarət etdilər. Anlardan sonra dedi: "Ənzil, ya Nəciyəllah"[3]. Gördüm Nuh və Sam çıxub ol başları ziyarət etdilər. Anlardan sonra ayıtdı: "Ənzil, ya Xəliləllah"[4]. Gördüm İbrahim və İshaq çıxıb ziyarət etdilər. Anlardan sonra ayıtdı: "Ənzil, ya Kəliməllah"[5]. Musa və Harun çıxıb ziyarət etdilər. Anlardan sonra ayıtdı: "Ənzil, ya Ruhəllah"[6]. Gördüm İsa çıxub ziyarət etdi. Andan sonra ayıtdı:

[1] Ona qətran içirin!
[2] En, ya Səfiyullah! (Allahın seçilmişi).
[3] En, ya Nəciyullah! (Allahın nicat verəni).
[4] En, ya Xəlilullah! (Allahın sevimlisi).
[5] En, ya Kəlimullah! (Allahla danışan).
[6] En, ya Ruhullah! (Allahın ruhu).



"Ənzil, ya Həbibəllah"[1]. Gördüm Həzrəti-Mustəfa təşrif buyurub səri-mübarəki-Hüseyn yetmiş qədəm miqdarı istiqbala gəlüb, çehreyi-mübarəkin qədəmi-Rəsulullaha sürub, avazihüzn ilə fəğana gəldi ki: "Ya cəddah, ümməti-bivəfadan gör ki, bana nə bəlalar gəldi". Və Həzrəti-Rəsul rüxsari-şərifin rüxsarinə sürüb və cəmi'i-ənbiya ittifaqla əzaya məşğul oldular. Şe'r:

Səhldir ol kim həmin Həvvadan Adəm oldu dur,
Olmadı məcmui-ətba'vü əyalından cüda.
Səhldir ol qəm ki, düşdü bəhrə Nuhun zövrəqi,
Görmədi dəryayi-xunab içrə girdabi-fəna.
Səhldir kim, yetdi İbrahimə Nəmrud ataşi,
Yetmədi bərqi-cəhansuzi-firaqi-əqrəba.
Səhldir kim, çəkdi bidadını Fir'onun Kəlim,
Olmadı düşmən ana bir kafiri-mö'minnüma.
Bitəkəllüf əql mizaniylə təhqiq etsələr,
Cümleyi-ənduhi-məcmui-güruhi-ənbiya.
Gəlməz ol miqdar möhnətlərcə kim səbr eyləyüb,
Çəkdi əhli-zülmdən məzlumi-dəşti-Kərbəla.

Rəvayətdir ki, ol tə'ziyət əsnasında Cəbrail Həzrəti-Rəsulun xidmətinə gəlüb ayıtdı: "Ya Rəsulullah, hökmi-Həzrəti-İzzətdir ki, rizayi-şərifin olsa, Kufə şəhrin Lut qövminin mülkünə döndərəm". Həzrəti-Rəsul ayıtdı: "Ey Cəbrail, bənim səbrim sayir ənbiyadan ziyadədir. Səbr edərəm, Qiyamət günü əzabi-müəbbədlə anlardan intiqam aluram". Cəbrail ayıtdı: "Ya Rəsulullah, hökmdür ki, bu müstəhfizləri məlayikeyi-əzab ataşi-əzaba yaxalar". Həm ol halətdə firiştələr hərbeyi-ataşin çəküb ol cəmaətə həmlə qıldılar. Əlli nəfər müstəhfizlərin qırx doquzu yanub bana növbət yetdikdə təzərrö' etdim ki, "Əl-əman əl əman"[2]. Həzrəti-Rəsul ayıtdı: "Lağəfərə'llahu ləkə"[3]. Və mən biliрəm ki, duayi-Həzrəti-Rəsul müstəcabdır və mən məğfur olacaq degiləm". Dedilər: "Niqab tutmağa səbəb nədir?". Dedi: "Ol vaqiə səlabətindən ləvnim mütəğəyyir oldu". Mübaliğə ilə pərdəsin açdıqda gördülər, peykəri pozulmuş. Ol bədbəxti Kə'bə təvafından mən' edub çıxardılar. Bir saiqə peyda olub ol napakı pak yaxdı. Beyt:

Əsəri-zülmü sitəmdir qəzəbü qəhrə səbəb,
Zülm əhlinə düşər saiqeyi-qəhrü qəzəb.

Əksəri-əhli-təfsirdən nəqldir ki, səhhətə yetmişdir ki, vaqieyi-Kərbəladan sonra Übeydullahi-Ziyadın ləşkərində səvarü piyada, xadimü məxdum "Ka'inən ma-kanə"[4] heç fərd asayişü hü-

[1] En, ya Həbibullah! (Allahın dostu).
[2] Aman, kömək edin!
[3] Tanrı səni bağışlasın!
[4] Kim olursa, olsun!

zurla məaş etməyüb, hər biri qəbləl-mövt bir əzaba giriftar olub anınla fövt oldu. Xalid bin Yezid Həzrəti-İmamın əmameyi-şərifin fərqi-mübarəkindən alub təsərrüf etmişdi. Dimağı müxəbbət olub, illəti-sevdayla zəncirlərə girüb ol qeydlə silsileyi-"Zər'uha səb'unə zira'ən"[1] qeydinə düşdü. Və Cə'fər bin Əxzəri pirahəni-şərifin bədəni-lətifindən çıxarub almışdı və ol pirahəndə yüz yetmiş zəxmi-tiğü tir olub, filhal ol bədbəxt əbrəs olub illəti-bərəslə dünyadan getdi. Əsvəd bin Hənzələ şəmşirin təsərrüf etdi. Cüzama giriftar olub ol illətlə fövt oldu. Malik bin Yəsar cövşənlərin təsərrüf etdi. Xiffəti-əql peyda qılub, məsru' olub küçələrə düşdu. Aqibət tiflər daşıyla həlak oldu.

"Şəhvahid"də məsturdur ki, Şimri-lə'in bir miqdar əşrəfi Həzrəti-İmamın rüxutindən çıxarub nəhb etmişdi. Bə'zisin hilyə edüb, övladına vermək da'iyəsin qıldıqda ol tila mə'dum olub, Şimr ol halətə şəkk gətirüb, zərgəri kəndü hüzurinə hazır edüb ol tilanun bə'zisin butəyə qoyduqda təmam mə'dum oldu. Rəvayətdir ki, bə'zi bədbəxtlər şahzadənin qətarindən naqələr zibh edüb tənavül etdikdə məsabeyi-zəhr olub təsərrüfü müyəssər olmadı. Əlqissə, qitaleyi-Hüseyn üqubati-üxrəvidən müqəddəm üqubati-dünyaya giriftar olmadan dünyadan getmədilər.

"Mir'atül-Cinan"da məsturdur ki, vaqieyi-Kərbəladan sonra əqrəbi-zəmanda Übeydullahi-məl'unun səri-namübarəkin qət' edüb Kufə məscidinə gətürdilər. İmam Tirmizi, Əmmaridən nəql etmiş ki, bən hazır idim, gördüm divardan bir əf'i çıxub, Übeydullahi-bədbəxtin dimaği-namübarəkinə girüb, durub çıxub bir neçə növbət bu əməli edərdi. Müşahidə edənlərə mühəqqəq oldu ki, bu, müqəddimeyi-əzabdır. Və "Şəvahid"də məsturdur ki, Mədinədə bir bədbəxt Həzrəti-İmamın qətlinə başarət etdi. Həm ol gecə bir avaz eşitdi ki, asimandan gəlirdi:

Əyyuhə'l-qatilunə cəhlən Hüseynən
Əbşiru bil-əzabi-və't-tənkil[2].

Ümid var ki, ümumi-lütfi-İlahi və şümumi-fəzli-namütənahi ol əhibbayi-sadiqülixlas və əviddayi-qəvimül-ixtisasa qərini-hal və kəfili-hüsni-mə'al ola ki, hər mahi-Məhərrəm təcdidi-matəmi-şahi-Kərbəla və təhriki-silsileyi-tə'ziyəti-şühəda qılub, dideyi-giryan və dili-biryanla mütəvəccihi-kəsbi-səvabi-dünyəvi və üxrəvi olub əcrlər bulalar və cümleyi-səvabından bu müsibətnamə müəllifinə təsəddüq qılub bu səvabı dəxi mövcibi-məzidi-həsənat bilə. Təmmə bi'l-xəyr və's-səadət[3].

[1] Boyu yetmiş arşın.
[2] Ey cəhalətlə Hüseyni öldürənlər! Uğrayacağınız əzab və cəza sizə müjdə olsun!
[3] Xeyir və səadətlə tamamlandı.



## MƏRSİYEYİ-HƏZRƏTİ-İMAM HÜSEYN ƏLEYHİSSƏLAM

Mahi-Məhərrəm oldu, şəfəqdən çıxub hilal,
Qılmış əza, tutub qədi-xəm qərqi-əşki-al.
Övladi-Mustəfaya mədəd qılmamış Fərat,
Keçirməsinmi yerlərə anı bu infial?!
Çoxdur hekayəti-ələmi-şahi-Kərbəla,
Əlbəttə, çox hekayət olur mövcibi-məlal.
Fəhm eyləsən qəmi-şühəda şərhin etməgə,
Hər səbzə Kərbəlada çəkübdir zəbani-hal.
Təcdidi-matəmi-şühəda qıldı ruzigar,
Zar ağla, ey könül, bu gün olduqca ehtimal.
Meydani-çərxi cilvəgəhi-dudi-ah qıl,
Gərduni-dunə kisvəti-matəmsiyah qıl.

* * *

Mahi-Məhərrəm oldu məsərrət həramdır,
Matəm bu gün şəriətə bir ehtiramdır.
Təcdidi-matəmi-şühəda nəf'siz degil,
Qəflətsərayi-dəhrdə tənbihi-ammdır.
Qovğayi-Kərbəla xəbərin səhl sanma kim,
Nəqsi-vəfayi-dəhrə dəlili-təmamdır.
Hər dürri-əşk kim, saçılur zikri-Al ilə,
Səyyareyi-sipehri-ülüvvi-məqamdır.
Hər məddi-ah kim çəkilür Əhli-Beyt üçün
Miftahi-babi-rövzeyi-Darüssəlamdır.
Şad olmasın bu vaqiədən şad olan könül,
Bir dəm məlalü qüssədən azad olan könül.

* * *

Tədbiri-qətli-Ali-Əba qıldun, ey fələk,
Fikri-qələt, xəyali-xəta qıldun, ey fələk.
Bərqi-səhabi-hadisədən tiğlər çəküb,
Bir-bir həvaleyi-şühəda qıldun, ey fələk.
İsmət hərəmsərasinə hörmət rəva ikən,
Pamali-xəsmi-bisərü pa qıldun, ey fələk.
Səhrayi-Kərbəlada olan təşnələblərə,
Rigi-rəvan seyli-bəla qıldun, ey fələk.

Təxfifi-qədri-şər'dən əndişə qılmayub,
Övladi-Mustəfaya cəfa qıldun, ey fələk.
Bir rəhm qılmadun cigəri qan olanlara.
Qürbətdə ruzigarı pərişan olanlara.

* * *

Basdıqda Kərbəlaya qədəm Şahi-Kərbəla,
Oldu nişani-tiri-sitəm Şahi-Kərbəla.
Düşmən oxuna qeyr sipər görməyüb rəva,
Yaxmışdı cana daği-ələm Şahi-Kərbəla.
Ə'da müqabilində çəkəndə səfi-sipah,
Qılmışdı məddi-ah ələm Şahi-Kərbəla.
Dudi-dili-pürataşi-əhli-nəzarədən,
Etmişdi pərdədari-hərəm Şahi-Kərbəla.
Olduqca ömrü rahəti-dil görməyüb dəmi,
Olmuş həmişə həmdəmi-qəm Şahi-Kərbəla.
Ya Şahi-Kərbəla, nə rəva bunca qəm sana.
Dərdi-dəmadəmü ələmi-dəmbədəm sana.

* * *

Ey dərdpərvəri-ələmi-Kərbəla Hüseyn!
Vey Kərbəla bəlalarına mübtəla Hüseyn!
Qəm parə-parə bağrını yandırdı dağ ilə,
Ey laleyi-hədiqeyi-Ali-Əba Hüseyn!
Tiği-cəfa ilə bədənin oldu çak-çak,
Ey bustani-səbzeyi-tiği-cəfa, Hüseyn.
Yaxdı vücudunu qəmi-zülmətsərayi-dəhr,
Ey şəm'i-bəzmi-bargəhi-Kibriya, Hüseyn!
Dövri-fələk içirdi sənə kasə-kasə qan,
Ey təşneyi-hərarəti-bərqi-bəla Hüseyn!
Yad et, Füzuli, Ali-Əba halın, eylə ah
Kim, bərqi-ah ilən yaxılur xirməni-günah.



## [İZHARİ-TƏVƏLLÜDİ-ƏİMMƏ VƏ QEYRİHİ RƏZİYA'LLAHU ƏNHUM]

Əgərçi izhari-silsileyi-siyadət daxili-əhvali-Kərbəla və şərhi-ibtilayi-ənbiya olmayub, bu nüsxədə iradı münasib degil, əmma tətəbbö'i-məzmuni-"Rövzət üş-şühəda" təriqi-icmalla təqririnə iqtiza qılmağın, öylə ki, "Şəvahidün-nübüvvət"də məsturdur ərz olunur: "Bilmək gərək ki, əsəhhi-rəvayətdə Həzrəti-Əmirəlmö'minin Əli İbn Əbi Talibin otuz altı övladı olub, ol cümlədən on səkkiz nəfər zükur və on səkkiz nəfər ünasdır. Və bə'zi rəvayətdə on doqquz oğlan və on yeddi qızdır. Ol cümlədən altı nəfər əyyami-həyatında mütəvəffa olub, altı nəfər Kərbəlada şərbəti-şəhadət nuş etdilər. Əmma məşhur olanlar İmam Həsən və Hüseyn, Möhsin və Yəhya, Əbdullah və Məhəmməd Hənifə, Əbu Bəkr və Ömər, Osman və Əvn, Cə'fər və Əbbas. Və'llahü ə'ləm[1].

Həzrəti-İmam Həsən əleyhissəlam əkbəri-övladi-Zəhradır, ikinci imamdır. Viladəti-şərifi Rəməzan ayının on beşinci günündə hicrətin üçüncü yilində və vəfatı Səfər ayının on toquzuncu gecəsində, hicrətdən əlli yil keçdikdə. Və müddəti-ömri-şərifləri qırx altı yil, altı ay və on beş gün idi. On altı nəfər övladı olub, on biri zükur və ol cümlədən məşhur olan Zeyd və Hüseyn və Təlhə və İsmail və Əbdullah və Həmzə və Əbdurrəhman və Ömər və Qasimdir. Və'llahu ə'ləm.

Həzrəti-İmam Hüseyn üçüncü imamdır. Viladəti-şərifi hicrətin dördüncü yilində və mürzi'əsi Ümmül-Fəzl idi, zövcəyi Əbbas bin Əbdülmüttəlib və övladı Əliyyi-Əkbər və Əliyyi-Övsət və Əliyyi-Əsğər və Əbdullah və Məhəmməd və Cə'fərdir. Və'llahu ə'ləm.

Həzrəti-İmam Zeynəlabdin dördüncü imamdır. Viladəti-şərifi hicrətin otuz altı yilində vaqe' olub, vəfatı yetmiş beşinci yilindədir. Övladı on səkkiz nəfər olub, ol cümlədən övladi-zükur doqquz nəfər və övladi-ünas doqquz nəfər idi. Əmma övladi-zükurdan məşhur olan Məhəmməd Baqir və Əbdullah Bahir, Zeydi-Şəhid və Öməri-Əşrəf və Hüseyni-Əsğər və Əliyyi-Əsğər idi. Və'llahu ə'ləm.

Məhəmməd Baqir beşinci imamdır. Künyəti Əbu Cə'fər, ləqəbi Baqir və viladəti-şərifi Mədinədə cümə günü Səfər ayının üçüncü günündə, hicrətin əlli yeddinci yilində vaqe' olub. Yeddi övladı olub, ol cümlədən məşhur olan Cə'fər və Əbdullah və İbrahim və Əlidir. Və'llahu ə'ləm.

Həzrəti-İmam Cəfəri Sadiq altıncı imamdır və viladəti-şərifi Mədinədə düşənbə günü Rəbiül-əvvəl ayının on yeddinci günündə, hicrətdən səksən yil keçdikdə. Və əksəri-ülumi-qəribə ana mənsubdur: cifri-əhmər, cifri-əbyəz və müshəfi-Fatimə kibi və cifri-came' kibi. Və yeddi övladı [olub] İsmail və Əbdullah, Musa və İshaq, Məhəmməd və Əbbas və Əli. Və'llahu ə'ləm.

Həzrəti-İmam-Musa Kazim yeddinci imamdır. Viladəti-şərifi-yekşənbə günü, hicrətdən yüz yigirmi yeddi yil keçdikdə Harunərrəşid həbsində vəfat etdi. Altmış nəfər övladı olub, ol cümlədən otuz yeddi ünas və yigirmi üç zükur. Məşhur olanlar Əbbas və Harun və İshaq və İsmail, Həsən və Riza və İbrahim və Murtəza və Məhəmməd və Cə'fərdir. Və'llahu ə'ləm:

---

[1] Ən doğrusunu Allah bilir.

Həzrəti-imam Əli ibn Musa ər-Riza səkizinci imamdır. Viladəti-şərifi Mədinədə pəncşənbə günü, nisfi-Rəbiül-axir, hicrətdən yüz əlli yil keçdikdə vaqe' olmuş. Və ol Həzrətin beş nəfər övladı olmuş: Məhəmməd və Həsən və Cə'fər və İbrahim və Hüseyn. Və'llahu ə'ləm.

Həzrəti-İmam Məhəmməd Təqi doquzuncu imamdır. Viladəti- şərifi cümə günüü nisfi-şəhri-Rəcəb, hicrətdən yüz doqsan beş yil keçdikdə vaqe' olmuş. Mö'təsim əyyami-xilafətində zəhrlə şəhadət buldu. İki nəfər fərzəndi-səadətməndi olmuş: Əliyyi-Hadi və Musa. Və'llahu ə'ləm.

Həzrəti-İmam Əliyyən-Nəqi onuncu imamdır və viladəti-şərifi Mədinədə Rəcəb ayının on üçüncü günündə vaqe' olmuş. Müstənsir əyyami-xilafətində şəhid olmuş. Üç oğlu olub: Həsən və Hüseyn və Cə'fər. Və'llahu ə'ləm.

Həzrəti-İmam Həsəni-Əskəri on birinci imamdır. Viladəti-şərifi Mədinədə. Ol həzrətin Məhəmməd Mehdidən qeyri fərzəndi yoxdu. Və'llahu ə'ləm.

Həzrəti-İmam Məhəmməd Mehdi on ikinci imamdır. Məzhəbi imamiyyə müqtəzasincə və silsileyi-imamət anda xətm olur. Və'llahu ə'ləm.



## [MÜNACAT]

İlahi, bu kəmali-inayətindən şərəfi-ixtitama müvəffəq olan nüsxeyi-nami və nəvali-atifətündən səadəti-itmam bulan bu səhifeyi-giramidə ibtidadan intihayadək ə'mali-sütudələri məsturü məzkur olan və əf'ali-həmidələri təstirü təhrir bulan ənbiyayi-üzam və övliyayi-giram və şühədayi-zəvi'lehtiramin ki, sakini-süradiqati-qürbü qəbul olmuşlar və məhrəmiyyəti-sərapərdeyi-təqərrüb bulmuşlar, məyamini-ərvahi-müqəddəsələrin və bərəkati-nüfusi-mütəhhərələrin ol padişahi-aləmpənaha bədrəqeyi-təriqi-hidayət qıl. Və tirazi-məhceyi-livayi-nüsrətayət ki, tüğyani-ərbabi-zəlalətü bid'ət Əhli-Beytə məsdud etdigi abi-Fərat anın əyyami-ədalətində fərmani-şərifiylə dəsti-təvəssül daməni-Kərbəlaya urdu və ol zülali-Kövsərmisalın təhəssüründə həlak olanlar ki, ərvahi-şərifləri sirab etməklə çeşmeyi-iltifatı cuybari-mərhəmət yetürdi, şəhənşahi ki, əgər xameyi-səbzə övsafi-ədlin səfheyi-gülzara təhrir etsə, övraqi-əşcara nəsimi-təzəlzül güzar etməz və əgər misali-zərnigari-gül tüğrayi-şərifiylə müvəşşəh olsa, istimrari-hökmünə təğəllübi-xəzandan xələli-təğəyyür yetməz. Şe'r:

Ol şəhənşahi-fələkrif'ət ki, kəsb etmiş günəş
Xakbusi-asitanindən ülüvvi-iqtidar.
Ol sərəfrazi-mələksurət kim, almış asiman
Xidməti-dərgahi-qədrindən sümüvvi-e'tibar.

Yə'ni Sultani-sultannişan və qütbi-dayireyi-əmnü əman Əbul-müzəffər Sultan Süleyman bin Səlim-xan "Rəfə'əllahu [bihi'n] nəva'ibə əni'zzəmani ila yəvmə yəqumu'l-həşri və yunsəbu'l-mizan"[1] və ol xudavəndgari-səadətdəstgahin sayeyi-mərhəmətindən və ol kamkari-məlayiksipahin zilli-məkrəmətindən həmişə mütəmətte' ola və həmvarə intifa' bula. Ol sərvəri-xücəstəliqa və ol sərdari-sahibrə'yi-mülkara ki, bu nüsxeyi-dilpəzir anın hüsni-işarəti-şərifiylə siməti-təhrir bulmuş və anın lütfi-ehtimamiylə müstə'idi-səadəti təstir olmuş, cəhandari ki, pirayeyi-hifzü hərasətlə hövzeyi-İraqi-Ərəb rəngi-nigaristani-Çin dutmuş və kəmali-hirzü himayəti büq'eyi-Bağdadı qeyrəti-darül-İslam etmiş. Şe'r:

Güli-gülzari-dövlətü iqbal,
Afitabi-sipehri-cahü cəlal,
Göhəri-mə'dəni-səxavü kərəm,
Zübdeyi-firqeyi-Bəni-Adəm.
Məlcə'vü mərcə'i-xəvasü əvam,
Ə'zəmü əkrəmi-izamü giram.

Yə'ni kəhfül-füqəra və sədrül-üməra müizzirrif'əti və və'l-izzi və'l-üla Məhəmməd Paşa "həfəzəhu'llahu əmma yəxafu və yəğşa"[2]. Əl-minnətu lillah ki, bu tərzi-məlaləfzayi-qəmənduz və bu nüsxeyi-cangüdazi-cigərsuz əhsəni-saat və əyməni-övqatda siməti-ixtitam buldu və

[1] Allah fəlakətləri Qiyamətə qədər onun üzərindən qaldırsın.
[2] Allah onu qorxduğundan və çəkindiyindən qorusun.

məsləhəti-təfhimi-əvam üçün təkəllüfati-rəsmidən müərra və istiarati-bə'idə və əsca'i-qəribədən mübərra təmam oldu. Təvəqqe' budur ki, füzəlayi-bəlağətpişə və füsəhayi-diqqətəndişədən ki, binayi-tə'lifinə və tərhi-təsnifinə nəzəri-diqqət buraxdıqda islahi-xətasinə iqdamü ehtimam edələr və mühərrirü müqərririn duayla yad edüb qəbuli-üzrlə hər nöqsanın təmam edələr. Şe'r:

Hücumi-möhnəti-dövran məluli,
Giriftari-qəmi-aləm Füzuli,
Degil ol ləhceyi-göftara qadir
Kim, ola qabili-səm'i-əkabir.
Qılur cəm'iyyəti-dil ləfzi-dilkəş,
Müşəvvəş söyləməz illa müşəvvəş.
Gəl ey hali-təkəllümdən xəbərdar,
Tərəhhüm qıl, təərrüz qılma, zinhar!

Xeyrə-yazsun şərrini onun kiramən katibin,
Kim dua ilə ana işbu kitabın katibin.

Nari-duzəxdən Xuda üqbada azad eyləyə,
Bu Hədiqə katibin kim xeyrilə yad eyləyə.



# LÜĞƏT

**A**

*Ab* – su
*Abi-heyvan* – dirilik suyu
*Abnus* – qara rəngli bərk və qiymətli ağac
*Abü tab* – təravət, gözəllik, yaraşıq
*Ac* – fil dişi; şirmayı
*Agah* – xəbərdar
*Aləmara* – aləmi bəzəyən
*Aləmi-lahut* – ilahiyyat aləmi, qeyb aləmi
*Aləmtab* – aləmi işıqlandıran
*Ari* – bəli; boş, çılpaq, məhrum, üryan, soyundurulmuş
*Asar* – əsərlər
*Asi* – günahkar, üsyan edən, itaət etməyən
*Azar* – əziyyət, incitmə, xəstəlik, naxoşluq
*Azürdə* – incik, incikmiş, qəlbisınıq, narazı

**B**

*Bab* – qapı; xüsus, barə; fəsil (kitabda)
*Bad* – külək, yel; olsun
*Badeyi-gülfam* – gül rəngli badə (şərab)
*Baqi* – qalan, həmişəlik, əbədi; artıq, qalıq
*Bal* – qanad
*Bar* – yük; dəfə, kərə
*Behcət* – şadlıq, sevinmə; gözəllik
*Bəhrəvər* – xeyir verən, qazanc verən
*Bərcis* – Müştəri (Yupiter) planeti
*Bərg* – yarpaq
*Bəri* – kənar, uzaq; boş
*Bəyaz* – ağ
*Bəzm* – məclis
*Bimar* – naxoş, xəstə
*Bidad* – zülm, ədalətsizlik
*Bina (biyna)* – gözlü, görən, bəsirətli, gələcəyi görən
*Binəva* – yazıq, aciz,köməksiz, çarəsiz
*Bipayan* – sonsuz, nəhayətsiz, tükənməz
*Büğz* – ədavət, kin, düşmənçilik
*Büryan (beryan)* – kabab
*Büzürgvar* – böyük, ulu, hörmətli, alicənab

**C**

*Caiz (cayiz)* – icazə verilmiş
*Cavidan* – həmişəlik, əbədilik
*Cəbərut aləmi* – göylər səltənəti
*Cəhl* – avamlıq, nadanlıq, biliksizlik
*Cəmil* – gözəllik
*Cənb* – tərəf
*Cəridə* – yazılı vərəqə
*Cifə* – cəmdək, leş
*Cinan* – cənnət, behişt
*Civar* – yaxın yer, ətraf
*Cövr* – zülm, cəfa, ədalətsizlik
*Cüd* – səxavət, əliaçıqlıq
*Cüda* – ayrı, ayrılıq
*Cürə* – bir qurtum, bir udum, bir içim

**Ç**

*Çak* – yarıq, parçalanmış, cırılmış

**D**

*Dam* – tor, tələ
*Danişmənd* – alim

*Dara* – bacarıqlı, işbilən
*Davər* – arbitr; ədalətli hakim (Allah)
*Dəğdəğə* – həyəcan, iztirab, narahatlıq
*Dərgah* – qapı, qapı ağzı, böyüklərin qapısı
*Dərun* – içəri, iç, daxili tərəf
*Dəvat* – mürəkkəbqabı
*Dideyi-xunbar* – qan ağlayan göz
*Dilazürdə* – ürəyi əzgin, qəmgin
*Dildadə* – könül vermiş
*Dilgüşa* – ürəkaçan, fərəh verən, füsunkar

E

*Ehkam* – hökmlər, qanunlar
*Ehsan* – yaxşılıq (etmək), bəxşiş
*Ehtiraz* – ehtiyat, ehtiyatlı olmaq
*Etikaf* – məscid və məbədlərdə uzun müddətli ibadət

Ə

*Əbr* – bulud
*Ədəm* – yoxluq
*Əfsəh* – ən fəsih, ən yaxşı nitq qabiliyyəti olan
*Əfv* – bağışlamaq, günahından keçmək
*Əfzun* – artıq, çox
*Əhkam* – bax ehkam
*Əhmər* – qırmızı
*Əxlat* – xıltlar; qan, səfra, bəlğəm, sevda
*Əxtər* – ulduz
*Əqd* – düyün, bağlama, düyünləmə; kəbin, nikah
*Ələm* – bayraq; kədər, qəm-qüssə
*Əltaf* – lütflər, mərhəmətlər
*Ənbərsa* – ənbər kimi, ənbərə oxşar
*Əndəlib* – bülbül
*Əndişə* – fikir, qayğı; şübhə, təşviş, qorxu
*Ənduh* – qəm, qüssə, kədər
*Ənsar* – köməkçilər, tərəfdarlar
*Ərğəvan* – qırmızı bir çiçəyin adı
*Ərş* – göyün ən yüksək qatı; tavan, dam
*Ərus* – gəlin
*Əsrar* – sirlər
*Əta* – bəxşiş
*Əvan* – vaxt, zaman

F

*Faxir* – fəxrli, yaraşıqlı, qiymətli
*Fasid* – fəsad törədən, nifaq salan, pozulmuş, ara qarışdıran
*Fasiq* – pis əməl sahibi, günahkar
*Feyzrəsan* – feyz yetirən, nemətə, yaxşılığa çatdıran
*Fəqih* – fiqh alimi
*Fərəhbəxş* – sevinc bəxş edən
*Fərəhhəfza* – sevinc artıran
*Fərxəndə* – mübarək, xoşbəxt, uğurlu
*Fərsəng (fərsək)* – məsafə ölçüsü; 2250 m-ə bərabərdir
*Fəth* – açmaq; qələbə
*Fiqh* – şəriət qanunlarına əsaslanan hüquq elmi
*Fünun* – fənlər
*Fürqan* – "Quran"ın ikinci adı ("Fərqləndirən" deməkdir)
*Füsəha* – gözəl danışmaq qabiliyyəti olan adamlar, natiqlər

G

*Gəbr* – atəşpərəst, oda sitayiş edən, zərdüşti
*Gənc* – xəzinə



*Gərdiş* – gəzinti, seyr, dolanma, gəzmə
*Gərdun* – göy qübbəsi, fələk
*Göftar* – danışmaq
*Giryan* – ağlayan, ağlar
*Guya* – danışan, dilli
*Güzar* – keçmək, yol, keçib getmək

H

*Hasib* – hesabdar, mühasib
*Helm (hilm)* – həlimlik, yumşaq xasiyyətli (olmaq)
*Həbib* – sevimli, sevgili, dost
*Hədiqə* – bağ, bağça
*Həmidə* – tərifli, bəyənilmiş
*Həmrah* – yol yoldaşı
*Hərgiz* – heç, əsla, heç vaxt
*Həsəd* – paxıllıq
*Həşəm* – saray adamları, hökmdarlara ən yaxın adamlar
*Həvan* – alçalmaq
*Həzər* – qorunmaq, özünü gözləmək; hazır olmaq
*Hicab* – pərdə, örtük, utanmaq, yaşınmaq
*Hidayət* – düz yol göstərmək, yola salmaq, yönəltmək, rəhbərlik etmək
*Hirman* – məyusluq, ümidsizlik
*Hiyn* – vaxt, zaman
*Hübab* – suyun üzərində əmələ gələn qabarcıq
*Hümayun* – mübarək, uğurlu, xoş qədəmli
*Hüsul* – hasil olmaq, əmələ gəlmək

X

*Xakistər* – kül, torpaq
*Xali* – boş
*Xamə* – qələm
*Xanə* – ev
*Xanəgah* – dərviş və şeyxlərin ibadətgahı
*Xar* – tikan; zəlil, gözdən düşmüş, təhqir olunmuş
*Xəbasət* – xəbislik, pislik
*Xərabat* – meyxanə, şərab içilən yer
*Xəzra* – yaşıl
*Xilaf* – əks, zidd, yalan
*Xub* – yaxşı, gözəl
*Xunabə* – qanlı su, qanlı göz yaşı
*Xuni-dil* – ürək qanı
*Xuni* – qanlı, qatil
*Xunrizlik* – qan tökmək
*Xurrəm* – şad, şən
*Xursənd* – şad, razı
*Xurşid* – Günəş

İ

*İxtilat* – qarışmaq, qonuşmaq, söhbət, yığıncaq
*İkram* – hörmət etmək, əzizləmək
*İktisab* – kəsb etmək, əldə etmək
*İqbal* – bəxt, xoş tale, səadət
*İqtida* – təqlid etmək, öz əməlini başqasının əməlinə oxşatmaq
*İltimas* – yalvarmaq, xahiş etmək
*İnan* – cilov
*İnayət* – kömək, iltifat, mərhəmət
*İnqiyad* – tabe olmaq, itaət etmək
*İrfan (ürfan)* – ariflik, bilik, mərifət, Allahı dərk etmək
*İsadəm* – İsa nəfəsli
*İsrar* – təkid
*İstehqaq* – müstəhəqlik, bir şeyə haqqı olmaq, layiq olmaq

*İstiğna* – ehtiyacsızlıq, varlanma, etinasızlıq
*İtab* – acıqlanmaq, danlamaq, məzəmmət etmək
*İtmam* – tamamlamaq

J

*Jalə* – şeh damlası
*Jəng* – cəng, pas

K

*Kakül* – kəkil
*Kamyab* – kama çatmış, arzusuna yetişmiş
*Kəm* – az (farsca), çox (ərəbcə)
*Kərim* – səxavətli, mərhəmətli, lütfkar, əliaçıq adam
*Kəşti* – gəmi
*Kilk* – qələm
*Kisvət* – paltar, libas, geyim
*Kişt* – əkin
*Kövdən* – qanmaz adam, kobud adam
*Kuy* – qapı, yol, məhəllə, astana

Q

*Qanda* – harada
*Qanı* – hanı
*Qanun (Kanon)* – simli musiqi aləti
*Qaranqu* – qaranlıq
*Qədər* – təqdirdə olan şey, tale, qismət
*Qəmər* – Ay
*Qət* – kəsmək
*Qətrə* – damla, damcı
*Qübar* – toz
*Qürb* – yaxınlıq
*Qüsl* – yumaq, çimdirmək, yuyundurmaq

L

*Lağər* – arıq, zəif
*Lahut* – ilahiyyat, qeyb aləmi, ruhaniyyət
*Laləüzar* – lalə üzlü, qırmızıyanaq
*Laləvəş* – lalə kimi, laləyə bənzər
*Ləfz* – kəlmə, sözün zahiri şəkli
*Ləli-nab* – saf ləl
*Ləmə* – parıltı, işıq
*Lətafət* – lətiflik, incəlik, zəriflik, gözəllik
*Lisan* – dil, ləhcə

M

*Mahi-növ* – yeni ay (hilal)
*Mahsima* – ay üzlü, ay qabaqlı
*Mahtab* – aydınlıq
*Mazi* – keçmiş, keçmiş zaman, keçən
*Mehr* – Günəş; sevgi, məhəbbət
*Məva* – yer, məskən, yaşayış yeri, sığınacaq
*Məayib* – eyiblər
*Məbdə* – başlanğıc, ibtida olunan yer, əvvəl
*Məcus* – atəşpərəst, Zərdüşt dininə mənsub adam
*Mədyun* – borclu
*Məğbun* – zərər çəkmiş
*Məğfirət* – bağışlama, günahdan keçmə
*Məhbub* – sevilən, sevgili, istəkli
*Məhcur* – hicrana düşmüş, ayrılmış, uzaq düşmüş
*Məhək* – qızıl və ya gümüşün saflığını müəyyənləşdirən sınaq daşı
*Məhr* – kəbin, nikah
*Məqdəm* – gəliş, qədəm qoyma, varid olma
*Məlal* – qəm, qüssə, kədər, yorğunluq, düşkünlük
*Məlamət* – danlaq, tənə, töhmət
*Məlca (məlcə)* – pənah gətirilən yer
*Məlul* – qəmli, ruhdan düşmüş, məyus, ümidsiz
*Məmdud* – çəkilmiş, uzanmış, dartılmış
*Mərdümi-çeşm* – göz bəbəyi
*Məraz* – xəstəlik, naxoşluq
*Mərğub* – rəğbət olunan, bəyənilən, xoşa gələn
*Mərrix* – Mars planeti
*Məruf* – məşhur, şöhrətli, tərifli, adlı-sanlı
*Məsdər* – bir şeyin çıxan yeri, nəşət edən yeri
*Məta* – əmtəə, satışa çıxan mal
*Mətalib* – mətləblər
*Mətlə* – Günəş, Ay və başqa göy cisimlərinin çıxması; qəzəl, qəsidə və digər şeirlərin birinci beyti
*Məzhər* – zahir olunan yer, canlanma, təcəssüm
*Məzur* – üzürlü
*Miftah* – açar
*Mizac (məzac)* – insanın təbiəti, əhvalı, səhhəti
*Mücadilə* – dalaşma, mübahisə, çəkişmə
*Mücməl* – xülasə, qısa konspekt
*Müəzzin* – azan verən, azançı
*Müğayir* – qeyri-müvafiq, uyğun olmayan
*Mühəqqiq* – təhqiq edən, tədqiqatçı
*Müxəmmər* – yoğurulmuş xəmir
*Mükərrər* – təkrar olunan
*Müqəddəm* – irəli, qabaq, əvvəl
*Müqərrər* – qərara alınmış, qərarlaşdırılmış, yəqin, şübhəsiz
*Müqim* – (bir yerdə) yerləşən, yaşayan, sakin olan
*Mülaqat* – görüş, söhbət, müsahibə
*Mülki-bəqa* – axirət mülkü, o biri dünya
*Münir* – nurani, işıqlı
*Mürğ* – quş
*Mürtəkib* – pis işlər, pis əməllər görən adam
*Müsafir* – səfərdə olan, yolçu
*Müsahib* – həmsöhbət
*Müsəvvər* – təsvir edilmiş, rəsm olunmuş, təsvirli, şəkilli
*Müstəar* – burovuz, alınmış
*Müstofi* – kafi; Səlcuqilər dövründə maliyyə işlərinə baxan məmur
*Mütəəzzir* – çətin
*Mütrib* – rəqqas, çalıb-oynayan, xanəndə
*Müztər* – iztirablı, naçar, məcbur, möhtac

N

*Nab* – saf, xalis
*Naqis* – nöqsanlı, qüsurlu
*Naməşru* – qeyri-qanuni, şəriətdən kənar
*Nasut* – insanlar aləmi, dünya
*Nəf* – mənfəət, xeyir, fayda
*Nəfy* – inkar etmək, danmaq, rədd etmək
*Nəhal (nihal)* – cavan ağac, pöhrə
*Nəhan (nihan)* – gizli, örtülü, məxfi
*Nəhusət* – nəhslik, tərslik
*Nəhy* – bir şeydən çəkindirmək, qadağan etmək
*Nəxl* – xurma ağacı, bar verən ağac
*Nəmnak* – nəmli, rütubətli
*Nəsəb* – mənsubiyyət, mənşə, nəsil, ata-baba
*Nəsrin (nəstərən)* – itburnu gülü
*Nəşvü-nüma* – artıb-böyümək, boy atmaq, inkişaf etmək
*Nəzzarə* – baxmaq, nəzər yetirmək, tamaşa etmək
*Niqab* – üz örtüyü

*Nisar* – səpmək, saçma, şabaş
*Niyaz* – ehtiyac; xahiş, yalvarış
*Niyran* – cəhənnəm
*Növrəstə* – yeniyetmə
*Nuri-bəsər* – göz nuru, göz işığı
*Nüqrə* – gümüş

**O**

*Olğıl* – olgilən
*Ovci-səma* – göyün qatları
*Ovqat* – vaxtlar; əhvali-ruhiyyə
*Ovsaf* – "vəsf"in cəmi, vəsf; sifət, keyfiyyət

**P**

*Parə* – parça, tikə, hissə
*Peyda* – aşkar
*Peyğam* – sifariş, xəbər
*Peyki-Zühəl* – Saturn planeti
*Peyvəstə* – daim, həmişə, fasiləsiz; bitişik, bağlı
*Pəjmürdə* – solğun
*Pər* – qanad
*Pərdənişin* – pərdə arxasında oturan
*Pərtöv* – işıqlı, parıltı
*Pünhan (pinhan)* – gizli
*Pürxun* – qanla dolu

**R**

*Rəbb* – Allah
*Rəf* – ləğv etmək, yox etmək; ucaltmaq, yüksəltmək
*Rəfət* – yüksəliş, yüksək rütbəyə çatmaq
*Rəh (rah)* – yol
*Rəxnə* – yarıq, sökük, uçuq, zədə, ziyan, pozğunluq
*Rəxşan* – parlaq, işıqlı
*Rəna* – gözəl, qəşəng, yaxşı, yaraşıqlı
*Rənc* – əziyyət, zəhmət
*Rəncur* – incik, kədərli, dərdli, xəstə, naxoş
*Rəviş* – gediş, yeriş; qayda, tərz
*Riştə* – sap, ip, tel
*Riyazət* – nəfsi öldürüb özünü ləzzətlərdən məhrum etmək, əziyyət çəkmək, məşəqqətə vərdiş edib dözmək
*Riza* – razılıq
*Rövşən* – işıqlı, aydın
*Rükn* – sütun, binanın künc hissəsi, dayaq

**S**

*Sadir* – baş verən, çıxan, əmələ gələn
*Sağər* – piyalə, cam, şərab içilən qab
*Sakin* – tərpənməyən, sakit duran, bir yerdə daimi yaşayan
*Seyd* – ov, şikar
*Seylab* – sel suyu
*Səd* – yüz
*Səhab* – bulud
*Səhba* – al şərab
*Səhn* – həyət
*Səxa* – səxavət, əliaçıqlıq
*Səmənbər* – yasəmən sinəli, yasəmən bədənli
*Səmər* – meyvə
*Səna* – tərif, mədh
*Səngdil* – daşürəkli
*Sərab* – miraj, ilğım
*Sərbülənd* – başıuca
*Sərkəşlik* – baş əyməmək, itaətsizlik, məğrurluq
*Sərvqəd* – sərvboylu
*Səvad* – savad; qara, qaralıq; uzaqdan qaraltı şəklində görünən; yaşayış məntəqəsi
*Səyyad* – ovçu
*Simbər* – gümüş sinəli, gümüş bədənli
*Sinan* – nizə
*Sirişk* – göz yaşı
*Sitəm* – zülm, haqsızlıq
*Sovməə* – məbəd, zahidlərin daxması, ibadətgah
*Sud* – mənfəət
*Sübat* – sabitlik
*Sübhdəm* – sübh çağı
*Süədə* – xoşbəxtlər
*Süfrə* – eyvan
*Sün* – sənət, əməl

**Ş**

*Şeyda* – eşq dəlisi
*Şədid* – şiddətli
*Şəkva* – şikayət
*Şəmi-suzan* – yanan şam
*Şəms* – Günəş
*Şəmşir* – qılınc
*Şərarət* – şər işlərlə məşğul olmaq
*Şəmvəş* – şam kimi
*Şərər* – qığılcım
*Şikəstənəfs* – təvazökar
*Şirk* – Allaha şərik çıxmaq, çoxallahlılıq

**T**

*Taət* – itaət, ibadət
*Tair* – quş
*Tali* – tülu, doğan, çıxan
*Tar* – qaranlıq, tel, tük; çalğı aləti
*Tarac* – qarət, talan, soyğunçuluq
*Tey (teyy)* – ötüb keçmək, yol getmək
*Təqva* – təmizlik, paklıq, pis əməllərdən uzaq olmaq
*Təmə* – tamah
*Təmkin* – mətanət, vüqar, ağırlıq
*Tən* – bədən
*Tənbur* – simli çalğı aləti
*Tənəffür* – nifrət etmək
*Təsəllüt* – hakim olmaq, qalib olmaq
*Tiğ* – qılınc
*Türkzəban* – türkdilli
*Türrə* – tel, birçək, çətir

**Ü**

*Üqba* – axirət, o biri dünya
*Üqul* – ağıllar
*Üşşaq* – aşiqlər
*Ütufət* – mehribanlıq
*Üzma* – çox böyük

**V**

*Vəcd* – şiddətli fərəh, sevinc, cuşa gəlmək
*Vəhy* – ilham
*Vəqf* – xeyir iş üçün ayrılmış mal və ya başqa bir şey
*Vəllahü əlam bissəvab* – Allah həqiqəti daha yaxşı bilir
*Vəsilə* – səbəb, vasitə
*Vəsvəsə* – yoldan çıxarma, azdırma,
*Vüsal* – görüş

**Y**

*Yekta* – yeganə, tək, bircə dənə
*Yey* – yaxşı

*Yəs* – məyusluq, ümidsizlik
*Yovmüs-sual* – sual günü, qiyamət günü

Z

*Zar* – sızlayan, ağlayan, inildəyən
*Zayil* – yox olmaq, itib getmək, heçə çıxmaq, məhv olmaq
*Zəxm* – yara
*Zəkavət* – iti düşüncəli olmaq, fərasət
*Zəmin* – yer
*Zəmir* – ürək, qəlb, könül
*Zər* – qızıl
*Ziba* – bəzəkli, yaraşıqlı, gözəl, qəşəng
*Zill* – kölgə
*Zivər* – bəzək
*Ziyad* – artıq



MÜNDƏRİCAT


Rindü Zahid (tərcümə Q.İlhaminindir) . . . . . 3
Səhhət və Məraz (tərcümə M.M.Əsgərlinindir) . . . . . 51
Mətlə ül-etiqad (tərcümə H.Zərinəzadənindir) . . . . . 65
Yeddi cam (tərcümə B.Qasımzadənindir) . . . . . 109

FARSCA QƏZƏL VƏ QƏSİDƏLƏRİN SƏTRİ TƏRCÜMƏSİ (TƏRCÜMƏLƏR H.MƏMMƏDZADƏNİNDİR)

Qəzəllər . . . . . 131
Qəsidələr . . . . . 149

FÜZULİ ADINA YAZILMIŞ ŞEİRLƏR

Qəzəllər . . . . . 183
Müləmmələr . . . . . 186
Müstəzad . . . . . 189
Qitə . . . . . 190
Dübeytilər . . . . . 191
Müxəmməs . . . . . 192

HƏDİQƏTÜS-SÜƏDA

Dibaçə . . . . . 195
Babi-əvvəl. Bəzi ənbiyayi-izam və rüsuli-giram surəti-əhvalların bəyan edər
Fəsli-ibtilayi-Adəm əleyhissəlam . . . . . 201
Fəsli-ibtilayi-Nuh əleyhissəlam . . . . . 208
Fəsli-ibtilayi-Xəlilullah . . . . . 210
Fəsli-ibtilayi-Həzrəti-Yəqub . . . . . 218
Fəsli-ibtilayi-Musa . . . . . 233
Fəsli-ibtilayi-İsa əleyhissəlam . . . . . 234
Fəsli-ibtilayi-Əyyub . . . . . 235

Fəsli-ibtilayi-Zəkəriyya və Yəhya....237
İkinci bab. Həzrəti-Rəsulun Qüreyşdən çəkdigi bəlaləri bəyan edər....241
Fəsli-şəhadəti- Übeydə....248
Fəsli-şəhadəti-Həmzə....249
Fəsli-şəhadəti-Cəfər....257
Üçüncü bab. Fatimeyi-Zəhra vəfatın bəyan edər....260
Dördüncü bab. Fatimeyi-Zəhra vəfatın bəyan edər....275
Beşinci bab. Həzrəti-Murtəza Əli vəfatın bəyan edər....295
Altıncı bab. İmam Həsən Həzrətləri əhvalın bəyan edər....319
Yeddinci bab. Həzrəti-Sultan Hüseynin Mədinədən Məkkəyə təvəccöh etdigin bəyan edər....331
Səkkizinci bab. Müslimi-Əqilin şəhadətin bəyan edər....350
Doqquzuncu bab. Həzrəti-İmam Hüseynin Məkkədən Kərbəlaya gəldigin bəyan edər....370
Onuncu bab. Həzrəti-İmam Hüseynin ləşkəri-Yezidlə müharibəsin bəyan edər və ol iki fəsildür
Fəsli-əvvəl: Şəhadəti-Hürr və bə'zi şühədə....393
İkinci fəsil: Həzrəti-Hüseyn və Əhli-Beyt şəhadətin bidirir....425
Xatimə. Müxəddərati-Əhli-Beytin Şama getdigin bəyan edər....449
Mərsiyeyi-Həzrəti-İmam Hüseyn əleyhissəlam....475
İzhari-təvəllüdi-əimmə və qeyrihi rəziyəllahu ənhum....477
Münacat....479
Lüğət....481



www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

Buraxılışa məsul: Sevil İsmayılova
Dizayner: Zaur Abbasov
Səhifələyici: Aytən Alışova
Korrektor: Nərgiz Cabbarlı
Baş redaktor: Samirə Bektaşi
Texniki direktor: Allahverdi Kərimov

Çapa imzalanmışdır: 6.03.2013. Format: 60x90 1/8. Ofset çapı
Fiziki çap vərəqi 61,5. Sifariş 17082. Tiraj 1000

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84
sharg-garb.office@sharq-qarb.az